"AZƏRENERJİ" AÇIQ SƏHMDAR CƏMİYYƏTİ

Bərpa Olunan Enerji Mənbələrinin
enerji sistemə inteqrasiya layihəsi

Ətraf Mühitə və Sosial Sahəyə Təsirlərin Qiymətləndirilməsi
HESABATI

Sentyabr 2024-cü il

Azərbaycan: Bərpa Olunan Enerji Mənbələrinin Enerjisistemə inteqrasiya Layihəsi

Ətraf Mühitə və Sosial Sahəyə Təsirlərin Qiymətləndirilməsinə dair Yekun Hesabat

Sifarişçi: Azərenerji ASC

Hazırladı: "Azərbaycan Elmi-Tədqiqat və Layihə-Axtarış Energetika İnstitutu"

Mündəricat

1. GİRİŞ 15
1.1 ƏMSSTQ Qrafiki 18
1.2 ƏMSSTQ hesabatının məqsədi 20
1.3 Bu hesabatın strukturu 20
2. Layihənin Təsviri 22
2.1 Layihənin yeri və təsir sahəsi/tədqiqat sahəsi 22
2.2 Layihənin komponentlərinin təsviri 24
2.3 Layihə komponentlərinin ümumi xülasəsi 25
2.4 Elektrik verilişi xətlərinin baş planı və əsas parametrləri 34
2.5 Layihənin mərhələləri 38
2.6 Köməkçi infrastruktur 41
2.7 İşçi qüvvəsi 41
2.8 Layihə və AZURE Layihəsi ilə əlaqədar obyektlər 42
3. Layihənin Alternativləri 44
4. İnstitusional və hüquqi çərçivə 47
4.1 Azərbaycanda institusional çərçivə 47
4.2 Siyasət və hüquqi çərçivə 51
4.3 Milli Strategiyalar və Planlar 63
4.4 Beynəlxalq Konvensiyalar, Protokollar və Sazişlər 67
4.5 Beynəlxalq Təlimatlar və Standartlar 69
4.5.1 BMK-nın Fəaliyyət Standartları 69
4.6 Dünya Bankının Ətraf Mühit və Sosial Çərçivəsinin Ətraf Mühit və Sosial Standartları 70
4.7 Fərqlərin təhlili: Dünya Bankının ƏMSS-ləri və Azərbaycan Respublikasının qanunvericiliyi 72
5. Ətraf Mühitə və Sosial Sahəyə Təsirin Qiymətləndirilməsi prosesi və metodologiyası 86
5.1 Skrininq qiymətləndirməsi 87
5.2 Ətraf mühitə və sosial təsirlərin qiymətləndirilməsi 93
5.3 Tədqiqat dəhlizi 96
5.5 Cari vəziyyət barədə məlumatların toplanması 100
5.6 Layihələndirmə və qərar qəbuletmə ilə qarşılıqlı əlaqə 104
5.7 Təsirlərin qiymətləndirilməsi və azaldılması 104
5.8 Layihənin yerləşdiyi yerə görə təsirlər və təsirlərin azaldılması tədbirləri 107
5.8.1. Alt-layihə 1: 500/330/10kV-luq Nəvahi yarımstansiyası 107
5.8.2. Alt-layihə 2: 500kV-luq elektrik verilişi xətti 108
5.8.3. Alt-layihə 3: 330kV-luq elektrik verilişi xətləri 109
5.8.4. Alt-layihə 4: Mövcud yarımstansiyada genişləndirmə işləri 110

5.9 Layihələndirmə fazası ilə əlaqəli təsirlər və təsir azaltma tədbirləri 112
5.9.1. Altlayihə 1: 500/330/10 kV-luq yarımstansiya 112
5.9.2. Altlayihə 2 və 3 – 500 və 330 kV-luq elektrik verilişi xətləri 113
5.9.3. Altlayihə 4: Mövcud yarımstansiyada genişləndirmə işləri 114
5.10 Tikinti fəaliyyətləri ilə əlaqəli təsirlər və təsir azaltma tədbirləri 114
5.10.1. Altlayihə 1: 500/330/10 kV-luq yarımstansiya 114
5.10.2. Alt-layihə 2 və Alt-layihə 3: 500 və 330 kV-luq elektrik verilişi xətləri 117
5.11 İstismar məshələsinin təsirləri və təsir azaltma tədbirləri 122
İstismar və Texniki Xidmət (İTX) heyətinin/qabiliyyətlərinin məqbul səviyyədə olmaması nəticəsində müxtəlif mənfi təsirlər: 122
Elektromaqnit sahələrə (EMS) məruzqalma:..... 122
İcmaya təsirlər 124
5.12. İqlimlə əlaqəli aspektlər..... 125
İstixana qazlarının (İQ) təsirinin qiymətləndirilməsi..... 125
Tədqiq olunan ərazi 125
Potensial təsirlər və əsas təsir azaltma tədbirləri..... 125
6. Maraqlı tərəflərin cəlb edilməsi 128
6.1 Maraqlı tərəflərin cəlb olunmasının məqsədləri..... 128
6.2 ƏMSSTQ üçün maraqlı tərəflərin cəlb olunması yanaşması 129
6.3 Layihənin maraqlı tərəfləri..... 130
6.4 ƏMSSTQ üçün Maraqlı Tərəflərin Cəlb olunması Prosesi 132
6.5 Əks əlaqə mexanizmi..... 132
6.6 Açıqlama və məsləhətləşmə fəaliyyətləri 133
7. Layihə ƏRAZİLƏRİNDƏ Ətraf mühitİN MÖVCUD VƏZİYYƏTİNİN QİYMƏTLƏNDİRİLMƏSİ..... 135
7.3. Bioloji mühit 143
7.8 Biomüxtəliflik, mühafizə olunan ərazilər, bataqlıqlar 151
7.8.1 Tədqiqat sahəsi 152
7.9 Geologiya və torpaqlar..... 158
7.9.7.2. Tədqiqat sahəsinin fiziki-coğrafi şəraiti və geoloji quruluşu haqqında qısa məlumat..... 163
7.9.8.1. Mühəndisi-geoloji quyuların qazılması, nümunələrin götürülməsi..... 166
7.9.8.2. Laboratoriya işlərinin həcmi və aparılma metodikası..... 166
7.9.9. Tədqiqat sahəsinin mühəndisi-geoloji şəraiti 166
7.9.10. Qruntların fiziki-mexaniki xassələri..... 167
7.10.1 Tədqiqat sahəsinin fiziki-coğrafi şəraiti və geoloji quruluşu haqqında qısa məlumat..... 172
İqlim 173
7.10.4.1 Mühəndisi-geoloji quyuların qazılması, nümunələrin götürülməsi..... 177
7.10.4.2. Laboratoriya işlərinin həcmi və aparılma metodikası 177

7.10.5. Tədqiqat sahəsinin mühəndisi – geoloji şəraiti 178
7.10.5.2. Qruntların fiziki-mexaniki xassələri 178
7.11.1. Tədqiqat sahəsinin fiziki-coğrafi şəraiti və geoloji quruluşu haqqında qısa məlumat..... 185
7.11.2. İqlim 185
Oroqrafiya..... 188
Hidrologiya 188
Torpaq-bitki örtüyü 189
7.11.3. Tektonika, stratiqrafiya və litologiya 189
7.11.3.1 Geomorfologiya..... 190
7.11.4. Mühəndisi-geoloji tədqiqat işlərinin həcmi və metodikası 190
7.11.5. Laboratoriya işlərinin həcmi və aparılma metodikası..... 191
7.12. Ərazinin sosial-iqtisadi inkişaf prespektivləri..... 192
4) Altlayihə 4: Mövcud yarımstansiyanın genişləndirilməsi işləri..... 200
7.12.5. EVX-lərin traslarına yaxın yerləşən kəndlərin sosial-iqtisadi vəziyyəti 201
7.12.6. İcmanın sağlamlığı və təhlükəsizliyi 202
7.13 Mədəni irs 208
8. ƏTRAF MÜHİTƏ VƏ SOSİAL SAHƏYƏ Potensial təsirlər..... 210
8.1 Ekoloji və sosial resurslar və reseptorlar 210
8.2 Ekoloji, sosial, sağlamlıq və mədəni irslə bağlı təsirlər..... 211
8.2.1. Havanın keyfiyyəti..... 216
8.2.2. İqlim 217
8.2.3. Səs-küy və vibrasiya 219
8.2.4. Geologiya, torpaq və yeraltı sular..... 220
8.2.5. Səth suları 221
8.2.6. Ehtiyatlar (elektrik, su, yanacaq və s.) 224
8.2.7. Çirkab suları 225
8.2.8. Tullantıların idarə olunması 225
8.2.9. Yol hərəkəti və nəqliyyat 227
8.2.10. Biomüxtəliflik, mühafizə olunan ərazilər, bataqlıqlar..... 228
8.2.11. Layihənin sosial-iqtisadi aspektləri 234
8.2.12. Gender və əhalinin həssas qrupları 237
8.2.13. Köçürülmə də daxil olmaqla, torpaqdan istifadə..... 238
Altlayihə 2: 500 kV-luq Nəvahi YS – Abşeron YS elektrik verilişi xətti 239
Altlayihə 3: Yeni 330 kV-luq elektrik verilişi xətləri (Bankə GES-Nəvahi və Biləsuvar GES – Nəvahi ys) 240
Altlayihə 4: Mövcud yarımstansiyanın genişləndirilməsi işləri..... 240
8.2.14. Əmək və iş şəraiti..... 242
8.2.15. Əmək miqrasiyasının idarə edilməsi 243

8.2.16. Əməyin mühafizəsi və texniki təhlükəsizlik 244
8.2.17. İcmanın sağlamlığı və təhlükəsizliyi 245
8.2.18. Mədəni irs 248
1) Altlayihə 1: 500/330kV-luq yarımstansiya 249
2) Altlayihə 2: 500kV-luq Nəvahi YS – Abşeron YS elektrik verilişi xətti 249
3) Altlayihə 3: 330 kV-luq EVX-lər (Bankə GES-Nəvahi YS və Biləsuvar GES – Nəvahi YS) 249
4) Altlayihə 4: Mövcud yarımstansiyada genişləndirilmə işləri 249
8.2.20 Kumulyativ təsirlər 251
9. İCTİMAİ məsləhətləşməLƏR VƏ İŞTİRAK 307
10. ƏDƏBİYYAT SİYAHISI 312

ƏLAVƏLƏR

Əlavə A. Maraqlı tərəflərin siyahısı
Əlavə B. Maraqlı tərəflərlə yazışmalar
Əlavə C. İctimai məsləhətləşmə görüşlərinin protokolları
Əlavə D. Tarixi-mədəni irs abidələrinin siyahısı

Cədvəllərin siyahısı

Cədvəl 1-1: ƏMSSTQ qrafiki
Cədvəl 1-2: ƏMSSTQ mərhələsi və Layihənin Azərbaycan Hökuməti tərəfindən maliyyələşdirilən hissələrində iştirak edən ƏMSSTQ qrupu.
Cədvəl 2.4. Tikinti və istismara verilmə mərhələləri ərazisində istifadə edilməsi gözlənilən nəqliyyat vasitələrinin növü və sayı
Cədvəl 4-1: Dövlət səviyyəsində müvafiq qurumlara ümumi baxış
Cədvəl 4-2: Müvafiq dövlət enerji müəssisələrinə ümumi baxış
Cədvəl 4-3: Layihəyə uyğun olan və onu tənzimləyən əsas Qanunlar
Cədvəl 4-4: Beynəlxalq və regional konvensiyalar
Cədvəl 4-5: DB-nın tələbləri ilə Azərbaycanın tələbləri arasındakı əsas boşluqların icmalı
Cədvəl 5-1: Layihənin skrininqi
Cədvəl 5-2: Əsas ekoloji və sosial-iqtisadi aspektlər
Cədvəl 5-3: 1-ci komponent üzrə layihənin təsirinə məruz qalan tərəflər
Cədvəl 5-4: "AZURE" layihəsi üzrə digər maraqlı tərəflər
Cədvəl 5-5: Keçirilən vizual yoxlamaların nəticələri
Cədvəl 5-4: 1-ci komponent üzrə layihənin təsirinə məruz qalan tərəflər
Cədvəl 5-5: "AZURE" layihəsi üzrə digər maraqlı tərəflər
Cədvəl 5-6: İQ emissiyası mənbələri və/yaxud fəaliyyətləri
Cədvəl 6-1: Layihənin təsirinə məruz qalan tərəflər
Cədvəl 6-2: Layihəsi üzrə digər maraqlı tərəflər
Cədvəl 7-1: Təsir zonasında potensial mövcud məmə lilərin növləri
Cədvəl 7-2. Layihə ərazilərində potensial mövcud ola bilən sürünənlərin növləri

Cədvəl 7-3. Layihə ərazilərində potensial mövcud ola bilən suda-quruda yaşayanlar
Cədvəl 7-4: Azərbaycan Respublikasında mühafizə olunan ərazilər
Cədvəl 7-5: İqtisadi rayonlar və inzibati-ərazi vahidləri üzrə işsiz əhalinin sayı
Cədvəl 7-6: Nəvahi qəsəbəsi üzrə əsas sosial-iqtisadi məlumatlar
Cədvəl 7-7. Altlayihə 2-yə yaxın rayonlar üzrə yaşayış məntəqələri
Cədvəl 7-8: Altlayihə 3-ə yaxın rayonlar üzrə yaşayış məntəqələri
Cədvəl 7-9: Sənaye müəssisələri üzrə əsas texniki-iqtisadi göstəricilər
Cədvəl 7-10: Salyan rayonuna dair ümumi məlumat
Cədvəl 7-11: Salyan rayonuna dair əsas sosial-iqtisadi göstəricilər
Cədvəl 7-12: Salyan rayonun layihəyə yaxın kəndləri haqqında məlumat
Cədvəl 7-13: Hacıqabul rayonun layihəyə yaxın kəndləri haqqında məlumat
Cədvəl 8-1: Səciyyəvi təsir qiymətləndirmə matrisası
Cədvəl 8-2: Reseptorun həssaslığını/dəyərini müəyyən etmək üçün ümumi meyarlar və səciyyəvi xüsusiyyətlər
Cədvəl 8-3: Səciyyəvi təsirin əhəmiyyəti matrisası
Cədvəl 8-4: Təsirin səciyyəvi əhəmiyyətlilik kateqoriyaları və onların qərar qəbuletmə aspektləri
Cədvəl 8-5: EVX-lərin çaylarla kəsişmələri
Cədvəl 8-6: Tullantıların əmələ gəlməsinin əsas növləri
Cədvəl 8-7: Azərbaycan Respublikasının iqtisadi rayonları və inzibati ərazi vahidləri üzrə cinslərə görə əhalinin tərkibi (min nəfər) (1 iyul 2023-cü il tarixinə)
Cədvəl 8-8: Rayonlar üzrə yaşayış məntəqələri və onların altlayihəyə yaxınlıq məsafəsi
Cədvəl 8-9: Potensial təsirlərin xülasəsi
Cədvəl 8-10: Ətraf mühitin monitorinq proqramı
Cədvəl 8-11: Ətraf mühit və sosial idarəetmə planı
Cədvəl 8-12: Monitorinq proqramı

Şəkillərin siyahısı

Şəkil 1-1: Bərpa olunan enerji mənbələrinin inteqrasiyası üçün şəbəkə infrastrukturu
Şəkil 2-1: Layihənin ərazi xəritəsi
Şəkil 2-2: Nəvahi YS-nin ərazisi
Şəkil 2-3: Azərbaycanın layihə ərazisinin müxtəlif yerlərinin göstərildiyi xəritəsi
Şəkil 2-4: Nəvahi ys-nın baş planı
Şəkil 2-5: 330 kV-luq EVX-nin YS-ya giriş-çıxış sistemi
Şəkil 2-6: İkidövrəli 330 kV-luq anker dayağın strukturu, mühafizə zonası və dəhlizin konfiqurasiyası
Şəkil 2.7. Aralıq ikidövrəli 330 kV-luq dayağın strukturu, mühafizə zonası və dəhlizin konfiqurasiyası
Şəkil 2-8. 330 kV-luq ikidövrəli aralıq dayağın trasda mümkün ümumi görünüşü
Şəkil 2.9. Quraşdırılan və montaj edilmiş dayaqlara nümunə
Şəkil 2-10: Nəvahi-Abşeron EVX-nin baş planı
Şəkil 2-11. Nəvahi-Bankə EVX-nin baş planı
Şəkil 2-12: Nəvahi-Biləsuvar EVX-nin baş planı
Şəkil 3-1: Layihənin alternativlərinin nəzərdən keçirilməsi üçün çərçivə metodologiyası
Şəkil 3-2: Bankə-Nəvahi HX-nin köhnə və yeni trassası
Şəkil 4-1: Layihəyə aid hüquq iyerarxiyası
Şəkil 5-1. 60 metrlik təhlükəsizlik zonasını göstərən 200 metrlik Dəhlizin səciyyəvi bölməsi
Şəkil 5-2. Layihənin altlayihələrinin yerləşdiyi yer
Şəkil 5-3: Nəvahi YS-in yeri
Şəkil 6-1: Layihənin alternativlərinin nəzərdən keçirilməsi üçün çərçivə metodologiyası

Şəkil 6-2: Bankə-Nəvahi HX-nin köhnə və yeni trassası
Şəkil 7-1: Layihənin yeri
Şəkil 7-2: Yarımstansiya ərazisinin görünüşü
Şəkil 7-3: Bankə GES - Nəvahi YS EVX-nin trası boyu görüntülər
Şəkil 7-4: Bankə GES – Navahi YS EVX-nin Şirvan Milli Parkının ərazisindən keçidi
Şəkil 7-5: Bankə GES – Navahi YS EVX-nin Şirvan Milli Parkının ərazisinə düşən hissələri
Şəkil 7-6: Biləsuvar GES – Nəvahi YS EVX-nin trası (bənövşəyi rəngli xətt)
Şəkil 7-7: Biləsuvar GES – Nəvahi YS EVX-nin trası boyunca görüntülər
Şəkil 7-8: Abşeron YS – Nəvahi YS EVX-nin trası
Şəkil 7-9: Abşeron YS – Nəvahi YS EVX-nin trası boyu görüntülər
Şəkil 7-10: Azərbaycanın zoocoğrafi xəritəsi
Şəkil 7-11: Məməlilərin izləri
Şəkil 7-12: Layihə ərazisində rast gəlinən sürünənlər
Şəkil 7-13: Azərbaycanın ekoloji risklər xəritəsi
Şəkil 7-14: Azərbaycanda mühafizə olunan ərazilərin xəritəsi
Şəkil 7-15: Bankə-Nəvahi hava xəttinin köhnə və dəyişdirilmiş trassaları (Qoruqdan çıxış)
Şəkil 7-16: 1-ci və 3-cü alt-layihələrin yaxınlığında yerləşən bataqlıq ərazilər.
Şəkil 7-17: Biləsuvar GES – Navahi YS EVX-nin yaxınlığında yerləşən göl.
Şəkil 7-18. Azərbaycanin geomorfoloji xəritəsi
Şəkil 7-19: Azərbaycanın seysmoloji xəritəsi
Şəkil 7-20: Əhalinin inzibati ərazi vahidləri üzrə bölgüsü
Şəkil 7-21: Hava xəttinin yeri və Qobustan Qaya Sənəti Mədəni Landşaftına qədər olan məsafə
Şəkil 7-22: Hava xətlərinin trassası və mühüm palçıq vulkanlarının yeri (Qoturdağ və Daşgil)
Şəkil 8-1: Azərbaycanın iqlim zonası
Şəkil 8-2: Azərbaycanda orta illik yağıntı miqdarı və temperatur
Şəkil 8-3: Layihə ərazisindəki yerüstü su obyektlərinin xəritəsi
Şəkil 8-4: Layihə ərazisində yeraltı su ehtiyatlarının göstərildiyi xəritə
Şəkil 8-5: Tullantıların iyerarxiyası
Şəkil 8-6: Azərbaycanın nəqliyyat və kommunikasiya xətləri
Şəkil 8-7: Azərbaycanda mühafizə olunan ərazilərin xəritəsi
Şəkil 8-8: Bankə GES – Navahi YS EVX-nin Şirvan Təbiət Qoruğunun ərazisinə düşən hissəsi
Şəkil 8-9: Payız fəslində quşların mühüm miqrasiya yolları
Şəkil 8-10: Quşların miqrasiya yollarından keçən HX-lar
Şəkil 8-11: 2020-ci ilin əvvəlinə Azərbaycan Respublikası əhalisinin cins və yaş qrupları üzrə tərkibi (min nəfər)
Şəkil 8-12: Altlayihə 2 üçün nəzərdə tutulan trassanın torpaq örtüyü
Şəkil 8-13: Altlayihə 3 üçün nəzərdə tutulan trassanın torpaq örtüyü
Şəkil 8-14: 500 kV-luq gərginlikli dövrədən məsafə ilə elektromaqnit sahəsinin gücünün azalması
Şəkil 8-15: Azərbaycanın mədəniyyət abidələri və EHX-lər
Şəkil 8-16: Layihə komponentləri və yaxınıqda yerləşən tarixi-mədəni irs abidələri

İxtisarlar

İxtisar	İzahı
MƏYÜ	Mövcud Ən Yaxşı Üsullar
dB	Desibel
KŞ	Köçürülmüş şəxslər
AYİB	Avropa Yenidənqurma və İnkişaf Bankı
QT	Qüvvəyəminmə tarixi
ƏMST	Ətraf Mühit, Sağlamlıq və Təhlükəsizlik
ƏMTQ	Ətraf Mühitə Təsirin Qiymətləndirilməsi
ƏMSSTQ	Ətraf Mühitə və Sosial Sahəyə Təsirin Qiymətləndirilməsi
ƏMSİP	Ətraf Mühit və Sosial İdarəetmə Planı
ƏMİP	Ətraf Mühitin İdarəolunması Planı
ƏMSİS	Ətraf Mühit və Sosial İdarəetmə Sistemi
AİZ	Azad İqtisadi Zona
ÜDM	Ümumi Daxili Məhsul
İQ	İstixana Qazı
AzH	Azərbaycan Hökuməti
ST	Sağlamlıq və Təhlükəsizlik
SES	Su Elektrik Stansiyası
İM	İcra Müqaviləsi
MQBZ	Mühüm Quş və Biomüxtəliflik Zonası
BBQA	Beynəlxalq Biomüxtəlifliyi Qiymətləndirmə Aləti
MK	Məcburi köçkünlər
BMK	Beynəlxalq Maliyyə Korporasiyası
BMİ-lər	Beynəlxalq maliyyə institutları
BƏT	Beynəlxalq Əmək Təşkilatı
IPCC	İqlim Dəyişmələri üzrə Hökumətlərarası Panel
MK	Məcburi Köçürülmə
IRENA	Beynəlxalq Bərpaolunan Enerji Agentliyi
BTMİ	Beynəlxalq Təbiəti Mühafizə İttifaqı
ƏBZ	Əsas Biomüxtəliflik Zonası
TDAQ	"Torpaqların dövlət ehtiyacları üçün alınması haqqında" Qanun
ETSN	Ekologiya və Təbii Sərvətlər Nazirliyi
FHN	Fövqəladə Hallar Nazirliyi
MVt	Meqavatt
EN	Energetika Nazirliyi
NDC	Milli Səviyyədə Müəyyənləşdirilmiş Töhfə

İxtisar	İzahı
QHT	Qeyri-hökumət təşkilatı
EVX	Elektrik verilişi xətti
ƏMTT	Əməyin mühafizəsi və texniki təhlükəsizlik
ƏMTTP	Əməyin mühafizəsi və texniki təhlükəsizlik planı
ASC	Açıq Səhmdar Cəmiyyəti
LTMET	Layihənin təsirinə məruz qalan ev təsərrüfatları
LTMT	Layihənin təsirinə məruz qalan tərəflər
ES	Elektrik stansiyası
BOEM	Bərpa olunan Enerji Mənbələri
BOEMDA	Bərpa Olunan Enerji Mənbələri Dövlət Agentliyi
SCADA	Dispetçer nəzarəti və verilənlərin toplanması
MTCP	Maraqlı tərəflərin cəlb olunması planı
DƏDKR	İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinin tabeliyində olan "Daşınmaz Əmlakın Dövlət Kadastrı və Reyestri" Publik Hüquqi şəxs
SOCAR	Azərbaycan Respublikası Dövlət Neft Şirkəti
GES	Günəş elektrik stansiyası
TSB	Ekoloji və Sosial Mühafizə Siyasəti Bəyanat
YS	Yarımstansiya
İES	İstilik elektrik stansiyası
BMT	Birləşmiş Millətlər Təşkilatı
BMTİP	BMT-nin İnkişaf Proqramı
UNESCO	BMT-nin Elm, Təhsil və Mədəniyyət Təşkilatı
UNFCCC	BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyası
BMTQAK	BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığı
UNICEF	BMT-nin Uşaq Fondu
USD	ABŞ dolları
DBOE	Dəyişən Bərpa olunan Enerji
DB	Dünya Bankı
ÜST	Ümumdünya Səhiyyə Təşkilatı
KES	Külək elektrik stansiyası
ÜİS	Ümumdünya İrsi Siyahısı

QISA XÜLASƏ

Bu “Qısa xülasə”də “Bərpa olunan enerji mənbələrinin enerji sistemə inteqrasiyası” Layihəsi üçün hazırlanmış Ətraf Mühitə və Sosial Sahəyə Təsirin Qiymətləndirilməsi (ƏMSTQ) sənədinə dair qeyri-texniki məsələləri əhatə edən yığcam icmal təqdim olunur. Bu hissədə layihəyə aid fəaliyyətlər və layihələndirmə işləri, ƏMSTQ-də nəzərdə tutulmuş məsələlər və ətraf mühitə və sosial sahəyə təsirlərlə bağlı əsas yekun rəylər barədə xülasə təqdim edilib.

GİRİŞ

Layihə Azərbaycan Hökuməti (Şəkil 1.1-ə baxın) və Dünya Bankı (Şəkil 1.2-yə baxın) tərəfindən müştərək şəkildə maliyyələşdiriləcək. Azərbaycan Hökuməti 500/330/10 kV-luq Nəvahi yarımstansiyasının, habelə 3 elektrik veriliş xətti (Biləsuvar GES - Nəvahi YS, Bankə GES - Nəvahi YS və Nəvahi YS - Abşeron YS) tikilməsini, Dünya Bankı isə 500/330/10 kV-luq Nəvahi YS üçün 500 kV-luq transformator və əlaqəli avadanlıqların alınmasını və quraşdırılmasını, habelə onun Mingəçevir SES, Azərbaycan İES, Ələt AİZ YS-ə gedən elektrik veriliş xətti, o cümlədən Abşeron KES və Qobu İES, eləcə də Abşeron KES və Nəvahi YS arasında bağlantı xətlərinin tikintisini maliyyələşdirəcək.

Layihə Bakı şəhərindən 90 km cənub-şərqdə və Ələt Azad İqtisadi Zonasından 30 km məsafədə yerləşir. AZURE layihəsi paralel olaraq "Azərenerji" ASC-nin sistemin fəaliyyətini yaxşılaşdırması və planlaşdırılmış dəyişən bərpa olunan enerji mənbələrinin növbəti 10 il ərzində enerji şəbəkəsinə inteqrasiyasına nəzarət etməsinə dəstək göstərəcək. Bura SCADA yenilənmələri, nəzarət sistemləri və akkumulyator batareyalarına sərmayə qoyuluşları daxildir.

Layihə Azərbaycanın cənubunda yerləşir və ölkənin 6 rayonunu, yəni Neftçala, Biləsuvar, Salyan, Hacıqabul, Qobustan, Qaradağ, Abşeron rayonlarını əhatə edir. Layihə ərazisinin bir hissəsi Neftçala və

Hacıqabul rayonları arasındakı ərazidə, M60 Bakı-Qazax yolu və E119 Bakı-Ələt-Astara yolu boyunca yerləşir.

Aşağıdakı şəkildə Layihənin elektrik hava xətləri və Nəvahi yarımstansiyasının ərazi xəritəsi təqdim olunur.

Layihənin icmalı və ƏMSSTQ üçün zərurət

Layihə bərpa olunan enerji mənbələrinin şəbəkəyə inteqrasiyasının təmin edilməsi məqsədilə ötürücü şəbəkənin gücləndirilməsinə xidmət edir və Bankə (315 MVt) və Biləsuvar (445 MVt) Günəş Elektrik Stansiyaları (GES) və Abşeron Külək Elektrik Stansiyasından (240 MVt) əldə edilən 1 GVt bərpa olunan elektrik enerjisini Azərbaycanın elektrik şəbəkəsinə inteqrasiya edilməsinə töhfə verəcəkdir.

Sözügedən infrastruktur layihəsi ilə bağlı yeri, miqyası və planlaşdırılan fəaliyyətləri nəzərə alaraq, mövcud qanunvericiliyə və beynəlxalq standartlara əsasən layihə üçün infrastruktur ƏMSTQ sənədinin hazırlanması barədə Dövlət Ekoloji Ekspertiza Agentliyi ilə razılıq əldə olunmuşdur. Digər bir ƏMSTQ sənədi əsas AZURE layihəsinin işləri üçün (bu digər xətləri və enerji sisteminin təkmilləşdirilməsi fəaliyyətlərini əhatə edəcək) hazırlanacaq və ictimaiyyətə təqdim olunacaqdır.

Ətraf mühitə təsirlərin qiymətləndirilməsi

Bərpa olunan enerji mənbələrinin şəbəkəyə inteqrasiyası infrastruktur layihəsi üçün ətraf mühitə təsirlər qiymətləndirilmişdir və aşağıdakı cədvəldə qalıq təsirlərin xülasəsi təqdim olunur.

	Hadisə	Hadisənin miqyası	Reseptorun həssaslığı	Təsirin dərəcəsi
Atmosfer	Sahədəki və sahədən kənardakı tikinti texnikasından və maşınlarından havaya atılan emissiyalar	Orta	(insanlar) orta	Orta mənfi
	Torpağın səth qatının çıxarılması və qazılmış torpağın daşınması nəticəsində havaya atılan emissiyalar.			
Səs-küy	Tikinti fəaliyyətləri ilə bağlı səs-küy emissiyaları.	Orta	(bioloji/ekoloji) orta	Orta mənfi
Ətraf mühitə təsirlər (ekologiya)	Torpağın səth qatının çıxarılması və qazılmış qruntun daşınması, drenajın idarə olunması işləri və dayaqların yerləşəcəyi sahənin hazırlanması	Orta	(bioloji/ekoloji) orta	Orta mənfi
Ətraf mühitə təsirlər (torpaq, qrunt suyu və səth suyu)	Qazıntı işləri və torpağın pozulması	Orta	(torpaq) Orta	Orta mənfi
			(səth suyu) Orta	
Ətraf mühitə təsirlər (mədəni irs)	Torpaq işləri və dayaqların quraşdırılması işləri nəticəsində Şirvan Milli Parkının kiçik bir hissəsinə təsirlər	Orta	(Fiziki reseptorlar) Orta	Orta mənfi

Sosial-iqtisadi sahəyə təsirlər

Bərpa olunan enerji mənbələrinin enerji sistemə inteqrasiyası infrastruktur layihəsi üçün sosial-iqtisadi sahəyə təsirlərin qiymətləndirilməsi aparılmışdır və aşağıdakı cədvəldə qalıq təsirlərin xülasəsi təqdim olunur. Layihə çərçivəsində dayaqlar üçün toplam 126 mülkiyyətçiyə məxsus torpaq sahəsi təsirə məruz qalacaqdır. Ümumilikdə layihə çərçivəsində Azərenerji ASC tərəfindən daimi istifadəyə götürüləcək torpaq sahəsi 898 dayaq üçün 132870 m^2 təşkil edir. Həmin mülkiyyətçilərə kompensasiya ödənilmək şərtiylə EVX dayaqlarının tutduğu torpaq sahələri Azərenerji ASC-nin daimi istifadəsinə veriəcəkdir.

Hadisə	Coğrafi əhatə dairəsi	Miqyas Vaxt və müddət	Ehtimal	Reseptorun Həssaslığı	Təsirin dərəcəsi
Birbaşa təsirlər					
İstifadə imkanının pozulması və giriş məhdudiyyətləri	Yerli	Dayaqların yerləri Azərenerji ASC tərəfindən daimi istifadəyə götürülür və həmin torpaq sahəsində hər hansı fəaliyyət qadağandır. Dayaqlar arasındakı torpaq sahələrindən istifadə imkanları məhdudlaşır (hər hansı tikili qadağandır) və EVX-lərin altında yalnız 10 metrədək ağacların əkilməsinə və digər əkin işlərinə icazə verilir	Yüksək dərəcədə ehtimal	Yerli əhali və torpaqdan istifadə edənlər	Ciddi – böyük mənfi
Məşğulluğun yaradılması	Yerli	Məşğulluq imkanı layihə müddəti ərzində mövcud olacaq və onun pik həddinin 2025-2026-cı illər arasına təsadüf edəcəyi gözlənilir. Müvəqqəti təsir	Yüksək dərəcədə güman edilir	Yerli icma yüksək	Orta – böyük müsbət
	regional		Güman edilir	Regional icma orta	Müsbət
Mallar və xidmətlərin təchizatı	Yerli	Maddi-texniki təchizat işləri layihənin davam etdiyi müddət boyunca həyata keçiriləcək və onun faydaları layihə başa çatdıqdan qısa müddət sonra öz qüvvəsini dayandıracaq. Müvəqqəti	Yüksək dərəcədə güman edilir	Yerli və regional biznes subyektləri - Yüksək	Orta – böyük müsbət

Yekun mülahizələr

Bərpa olunan enerji mənbələrinin enerji sistemə inteqrasiyası infrastruktur layihəsi üzrə planlaşdırma, əsas etibarilə, əvvəllər ölkədə həyata keçirilmiş yüksək gərginlikli elektrik verilişi xətlərinin tikintisi layihələrindən əldə olunan təcrübədən faydalanmışdır. Bu infrastruktur layihəsi əvvəlki layihələrdən əldə edilmiş təcrübə barədə məlumatla təmin edilmişdir.

Yekun olaraq, bu infrastruktur layihəsi özünün ekoloji və sosial-iqtisadi reseptorlar üzərindəki təsirinin bütün aspektlərini nəzərdən keçirib və hər hansı mənfi təsirlərin praktiki baxımdan mümkün olduğu qədər minimuma endirilməsini təmin etmək üçün mövcud nəzarət tədbirlərinə əlavə təsirazaltma tədbirləri daxil edib.

1. GİRİŞ

AZƏRENERJİ ASC

“Azərenerji” Açıq Səhmdar Cəmiyyəti ölkənin elektroenergetika sisteminin fəaliyyətini təmin etməklə, elektrik enerjisinin istehsalı və ötürülməsinin, vahid mərkəzdən idarə olunan elektrik stansiyalarının, yarımstansiyaların, sistemtəşkiledici yüksək gərginlikli – 110, 220, 330, 500 kilovoltuq elektrik verilişi xətlərinin və onların dispetçer idarəetmə vasitələrinin koordinasiyasını həyata keçirir. Yeni texnologiyalar tətbiq edərək, respublikamızda generasiya güclərinin artırılması və yüksək gərginlikli elektrik verilişi xətlərinin yenidən qurulmasını təşkil edir. Eyni zamanda, xarici ölkələrlə enerji mübadiləsi əməliyyatlarını aparır. Səhmləri dövlətə məxsusdur.

1935-ci ildə SSRİ Ağır Sənaye Xalq Komissarının 29 iyul tarixli əmrilə “Elektrotok” İdarəsi “Azneft”in tərkibindən çıxarılaraq, SSRİ Ağır Sənaye Xalq Komissarlığının “Başenerji” Baş Enerji İdarəsinin (“Qlavenerqo”) tabeliyinə verilir və onun bazasında “Başenerji” Baş Enerji İdarəsinin “Azenerji” (“Azenerqo”) Azərbaycan Rayon Enerji İdarəsi yaradılmışdır.

"Azneft" trestinin 23/138 saylı 15.08.1935-ci il tarixli əmri ilə “Elektrotok” İdarəsi, tərkibində olan müəssisələrlə birlikdə, yeni yaradılmış “Azenerji” Azərbaycan Rayon Enerji İdarəsinin tərkibinə verilmişdir və 20 oktyabr 1935-ci il tarixindən “Azenerji” Azərbaycan Rayon Enerji İdarəsi rəsmi fəaliyyətə başlamışdır. 1957-ci ildə Azərbaycan SSR Nazirlər Sovetinin 292 saylı 08.06.1957-ci il tarixli Qərarı ilə Azərbaycan SSR Xalq Təsərrüfatı Sovetinin “Azenerji” Energetika İdarəsi yaradılmışdır.

1962-ci ildə Azərbaycan SSR Nazirlər Sovetinin 808 saylı 16.10.1962-ci il tarixli Qərarı ilə Azərbaycan SSR Xalq Təsərrüfatı Sovetinin “Azenerji” Energetika İdarəsinin adı dəyişdirilərək Azərbaycan SSR Nazirlər Soveti yanında Energetika və Elektrikləşdirmə Baş İdarəsi yaradılmışdır.

1965-ci ildə Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin 20.10.1965-ci il tarixli Fərmanı ilə Azərbaycan SSR Nazirlər Sovetinin Baş Energetika və Elektrikləşdirmə İdarəsi (“Azqlavenerqo”) yaradılmışdır.

1970-ci ildə Azərbaycan SSR Nazirlər Sovetinin “Azərbaycan SSR ərazisində yerləşən energetika müəssisə və təşkilatlarının SSRİ Energetika və Elektrikləşdirmə Nazirliyinin tabeliyinə verilməsi haqqında” 336 saylı 16.09.1970-ci il tarixli Qərarı ilə adı çəkilən nazirliyin tərkibində (SSRİ Nazirlər Sovetinin 611 saylı 29.07.1970-ci il tarixli Qərarı) “Azenerji” İstehsalat Birliyi yaradılmışdır. 1971-ci ildə SSRİ Nazirlər Soveti Azərbaycan SSR Nazirlər Sovetinin və SSRİ Energetika və Elektrikləşdirmə Nazirliyinin “Azenerji” İstehsalat Birliyinin yenidən təşkil edilməsi barədə təkliflərini qəbul edərək, özünün 196 saylı 26.03.1971-ci il tarixli Qərarı ilə SSRİ Energetika və Elektrikləşdirmə Nazirliyi Azərbaycan SSR Energetika və Elektrikləşdirmə (“Azqlavenerqo”) Baş İstehsalat Birliyi yaradılmışdır.

1988-ci ildə SSRİ Energetika və Elektrikləşdirmə Nazirliyinin 296a saylı 03.08.1988-ci il tarixli əmri ilə SSRİ Energetika və Elektrikləşdirmə Nazirliyi Azərbaycan SSR Energetika və Elektrikləşdirmə “Azbaşenerji” (“Azqlavenerqo”) Baş İstehsalat Birliyi ləğv edilmişdir və onun bazasında Azərbaycan SSR Energetika və Elektrikləşdirmə “Azenerji” İstehsalat Birliyi (Əmr № 154/L, 05.12.1988.) yaradılmışdır.

1993-cü ildə Azərbaycan Respublikası Prezidentinin 571 saylı 10.05.1993-cü il tarixli Fərmanına əsasən Azərbaycan Respublikası Nazirlər Sovetinin 301 saylı 14.06.1993-cü il tarixli Sərəncamı ilə Azərbaycan SSR Energetika və Elektrikləşdirmə “Azenerji” İstehsalat Birliyi Azərbaycan Respublikası Elektroenergetika və Elektrikləşdirmə “Azərenerji” Dövlət Şirkətinə çevrilmişdir.

1996-cı ildə Azərbaycan Respublikası Prezidentinin 423 saylı 17.09.1996-cı il tarixli Fərmanına əsasən ilkin mərhələdə səhmləri 100 faiz dövlətə məxsus olmaqla, Azərbaycan Respublikası Dövlət Əmlak Komitəsinin 200 saylı 28.12.1996-cı il tarixli Sərəncamı ilə "Azərenerji" Açıq Tipli Səhmdar Cəmiyyəti təsis edilmişdir və 17.03.1997-ci il tarixdə Azərbaycan Respublikasının Ədliyyə Nazirliyində qeydiyyatdan keçmişdir (Dövlət qeydiyyat №-si 2234).

Bu Hesabatda Azərbaycan Hökuməti və Dünya Bankı tərəfindən birgə maliyyələşdirilən "Azərbaycanda bərpa olunan enerji mənbələrinin enerji sistemə inteqrasiya" layihəsi çərçivəsində Azərbaycan Hökuməti tərəfindən maliyyələşdiriləcək infrastruktur layihəsinin (Layihə) Ətraf Mühitə və Sosial Sahəyə Təsirin Qiymətləndirilməsi (ƏMSSTQ) prosesi çərçivəsində əldə edilmiş nəticələr təqdim edilir. Bu layihə "Azərenerji" ASC tərəfindən hazırlanıb və həyata keçiriləcək. Layihə "Azərenerji" ASC-nin Strateji İnkişaf Planının[1] tərkib hissəsini təşkil edir. Bu planda şəbəkənin davamlılığının artırılması və bir sıra yeni enerji generasiya güclərinin şəbəkəyə inteqrasiyası zərurəti ilə əlaqədar olaraq təklif edilən Layihənin strateji əhəmiyyəti müəyyən edilir. Layihənin məqsədi dəyişən bərpa olunan enerji mənbələrinin Azərbaycanın enerji şəbəkəsinə inteqrasiya edilməsi və ölkənin elektrik enerjisi sistemində karbon qazı emissiyalarının səviyyəsinin azaldılmasıdır.

Azərbaycan Hökuməti elektrik enerjisinin hasilatı və ötürülməsi ilə məşğul olan, dövlət mülkiyyətində olan "Azərenerji" ASC-nin vasitəsi ilə elektrik enerjisi şəbəkəsinin 2027-ci ilədək 1 QVt günəş və külək enerjisinin inteqrasiyası üçün hazır olmasını planlaşdırmışdır. İlk növbədə, 2026-cı ilin aprel ayına qədər "Bankə" (315 MVt) və "Biləsuvar" (445 MVt) günəş elektrik stansiyalarının (ümumilikdə 760 MVt dəyişən cərəyan) enerji şəbəkəsinə inteqrasiyası həyata keçiriləcək, daha sonra 2026-cı ilin oktyabr ayına qədər 240 MVt-lıq Qobustan külək elektrik stansiyası şəbəkəyə qoşulacaq, paralel olaraq 500 kV və 330 kV-luq avadanlıqlar quraşdırılacaq.

LAYİHƏ HAQQINDA QISA XÜLASƏ

Layihə Azərbaycan Hökuməti (Şəkil 1.1-ə baxın) və Dünya Bankı (Şəkil 1.2-yə baxın) tərəfindən müştərək şəkildə maliyyələşdiriləcək. Azərbaycan Hökuməti 500/330/10 kV-luq Nəvahi yarımstansiyasının, habelə 3 elektrik veriliş xətti (Biləsuvar GES - Nəvahi YS, Bankə GES - Nəvahi YS və Nəvahi YS - Abşeron YS) tikilməsini, Dünya Bankı isə 500/330/10 kV-luq Nəvahi YS üçün 500 kV-luq transformator və əlaqəli avadanlıqların alınmasını və quraşdırılmasını, habelə onun Mingəçevir SES, Azərbaycan İES, Ələt AİZ YS-ə gedən elektrik veriliş xətti, o cümlədən Abşeron KES və Qobu İES, eləcə də Abşeron KES və Nəvahi YS arasında bağlantı xətlərinin tikintisini maliyyələşdirəcək.

Aydınlıq məqsədləri üçün bu sənəddə Azərbaycan Hökuməti tərəfindən maliyyələşdirilən hissəyə "Layihə", Dünya Bankı tərəfindən maliyyələşdirilən hissəyə isə "AZURE" layihəsi kimi istinad olunacaqdır.

Dünya Bankının maliyyələşdirməsi eyni zamanda enerji şəbəkəsinin gücləndirilməsi və sistemin fəaliyyətinin yaxşılaşdırılması, habelə layihənin icrası və kadr potensialının artırılmasının dəstəklənməsini əhatə edəcək. Azərbaycan Hökuməti və Dünya Bankı tərəfindən maliyyələşdirilən tikinti işləri paralel olaraq həyata keçiriləcək, bu zaman 330 kV-luq EVX-nin erkən tamamlanmasına prioritet veriləcək.

Layihə Bakı şəhərindən 90 km cənub-şərqdə və Ələt Azad İqtisadi Zonasından 30 km məsafədə yerləşir. AZURE layihəsi paralel olaraq "Azərenerji" ASC-nin sistemin fəaliyyətini yaxşılaşdırması və planlaşdırılmış dəyişən bərpa olunan enerji mənbələrinin növbəti 10 il ərzində enerji şəbəkəsinə

[1] *"Azərenerji" ASC-nin 2020-2030-cu illər (daha sonra 2024-2034-cü illər üçün yenilənmişdir) üçün Strateji İnkişaf Planı ("McKinsey" tərəfindən hazırlanmışdır)*

inteqrasiyasına nəzarət etməsinə dəstək göstərəcək. Bura SCADA yenilənmələri, nəzarət sistemləri və akkumulyator batareyalarına sərmayə qoyuluşları daxildir.

Şəkil 1-1: Bərpa olunan enerji mənbələrinin inteqrasiyası üçün şəbəkə infrastrukturu

Azərbaycan Hökuməti Layihənin təkmilləşdirilmiş formada reallaşdırılmasını prioritetləşdirmişdir. Belə ki:

Hökumət tərəfindən maliyyələşdirmə (paralel) aşağıdakıları əhatə edəcək

(i) 500/330/10 kV-luq 2 ədəd 500 MVA-lıq Nəvahi Yarımstansiyasının tikintisi
(ii) 500 kV-luq təkdövrəli Abşeron YS - Nəvahi YS HX-nin tikintisi - 65 km
(iii) 330 kV-luq ikidövrəli Biləsuvar GES - Nəvahi YS HX-nin tikintisi - 90 km
(iv) 330 kV-luq ikidövrəli Bankə GES - Nəvahi YS HX-nin tikintisi - 100 km
(v) Abşeron Yarımstansiyasında 330 kV-luq yuvanın quraşdırılması

Dünya Bankı tərəfindən maliyyələşdirmə aşağıdakı komponentləri əhatə edəcək

- 500/330/10 kV-luq Nəvahi YS üçün avadanlığın təchizatı və quraşdırılması
- 330 kV-luq təkdövrəli Mingəçevir SES - Nəvahi YS HX-nin tikintisi - 220 km
- 500 kV-luq təkdövrəli Azərbaycan İES - Nəvahi YS HX-nin tikintisi - 235 km
- 330 kV-luq təkdövrəli "Ələt AİZ YS - Nəvahi yarımstansiyası" hava xəttinin tikintisi - 20 km
- 330 kV-luq təkdövrəli Qobustan KES - Nəvahi YS HX-nin tikintisi - 60 km
- 330 kV-luq təkdövrəli Qobustan KES - Qobu ES HX-nin tikintisi - 20 km
- Azərbaycan İES-də 500 kV-luq yuvanın quraşdırılması
- Abşeron YS-də 500 kV-luq infrastrukturun genişləndirilməsi
- Qobu ES-də 330 kV-luq infrastrukturun genişləndirilməsi
- Mingəçevir SES-də 300 kV-luq infrastrukturun genişləndirilməsi

1.1 ƏMSSTQ Qrafiki

Layihənin ƏMSSTQ qrafiki aşağıda təqdim edilmişdir. Azərbaycan Hökuməti və Dünya Bankının maliyyələşdirdiyi AZURE layihəsinin altlayihələri üçün müxtəlif qrafiklər müəyyən edilmişdir.

Cədvəl 1-1: ƏMSSTQ qrafiki

№	Mərhələlər	Fəaliyyətlər	Müddət (təxmini)
1	Bütöv Layihə üçün Çərçivə Hesabatı (Skopinq Hesabatı)	Qiymətləndirmədə nəzərə alınmalı olan əsas problemlər, maraqlı tərəflər və potensial təsirlərin müəyyən edilməsi	İyun, 2024-cü il
2	ƏMSSTQ üçün ictimaiyyətlə məsləhətləşmələr	Əsas problemlərin müəyyən edilməsi, maraqlı tərəflərin narahatlıqlarının müəyyən edilməsi və layihənin istiqamətinin təyin edilməsi.	2024-cü ilin iyun-iyul ayları
3	İlkin məlumatların toplanması	Layihə ərazisində və onun ətrafında ətraf mühit və sosial sahələrlə bağlı mövcud şərtlər haqqında məlumatın toplanması. Bura havanın keyfiyyəti, su resursları, bioloji müxtəliflik, mədəni irs, sosial-iqtisadi şərtlər və s. haqqında məlumatlar daxil ola bilər.	2024-cü ilin may-iyul ayları
4	Layihənin Azərbaycan Hökuməti tərəfindən maliyyələşdirilən hissələri üçün təsirin qiymətləndirilməsi: 500/330/10 kV-luq Nəvahi YS Bankə-Nəvahi HX (80 km) Biləsuvar-Nəvahi HX (90 km) Nəvahi-Abşeron HX (65 km)	İlkin məlumatların əsasında layihənin ətraf mühitə və yerli icmalara potensial təsirinin qiymətləndirilməsi. Bura həm bilavasitə, həm də dolayı təsirlərin, habelə qısamüddətli və uzunmüddətli təsirlərin qiymətləndirilməsi daxil ola bilər.	İyul, 2024-cü il
5	Təsirin azaldılması və idarəedilməsinə istiqamətlənmiş tədbirlər	Təsirin qiymətləndirilməsinin əsasında mənfi təsirlərin azaldılması və müsbət təsirlərin artırılması üçün tədbirlərin tövsiyə edilməsi. Bura layihənin planına dəyişikliklər edilməsi, ətraf mühitin idarəedilməsi planlarının, icmanın cəlb edilməsi strategiyalarının və s. reallaşdırılması daxil ola bilər.	İyun, 2024-cü il

7	Layihənin Dünya Bankı tərəfindən maliyyələşdirilən hissələri üçün ƏMSSTQ Hesabatı layihəsi	Hesabat layihəsində qiymətləndirmənin nəticələri, o cümlədən təsirin azaldılması və idarəedilməsi üçün təklif edilən tədbirlər ümumiləşdirilir.	2024-cü ilin avqust ayı
8	İctimaiyyətə açıqlama *ƏMSSTQ* *İlkin məlumatların toplanması* *Təsirin qiymətləndirilməsi* *İdarəetmə*	ƏMSSTQ hesabatı layihəsi ictimaiyyətə açıqlanır və ictimaiyyətlə məsləhətləşmələr üçün açıq olur. Bu zaman yerli icmalar, QHT-lər, dövlət agentlikləri və ekspertlər fikir və rəylərini paylaşmaq üçün dəvət edilir. İctimaiyyətlə məsləhətləşmələr ƏMSSTQ-nin hər bir mərhələsinin əsasında duracaq. ƏMSSTQ layihəsi 2024-cü ilin iyun-iyul aylarında ictimaiyyətlə məsləhətləşmələr zamanı əldə edilmiş rəyin əsasında yekunlaşdırılacaq.	Avqust, 2024-cü il 2024-cü ilin iyul ayı 2024-cü ilin avqust ayı
9	Yekun ƏMSSTQ Hesabatı	İctimaiyyətlə məsləhətləşmələr zamanı əldə edilmiş rəylərin nəzərə alınması ilə yekun ƏMSSTQ hesabatı hazırlanır. Bu hesabat şərhlərə cavabları və qiymətləndirmələr, yaxud təklif edilən tədbirlərin hər hansı düzəlişlərini əhatə edir.	2024-cü ilin avqust ayı
10	Təsdiq və İcra	Yekun ƏMSSTQ hesabatı müvafiq tənzimləmə orqanına təqdim edilir.	2024-cü ilin avqust ayı
11	Monitorinq	Layihənin icrası zamanı ƏMSSTQ-nin icrası və risklərin idarəedilməsinə monitorinq.	2024-cü ilin avqustu - 2027-ci ilin apreli

Aşağıdakı cədvəldə Layihənin ƏMSSTQ prosesində iştirak edən ekspertlərin siyahısı verilmişdir.

Cədvəl 1-2: ƏMSSTQ mərhələsi və Layihənin Azərbaycan Hökuməti tərəfindən maliyyələşdirilən hissələrində iştirak edən ƏMSSTQ qrupu.

Ekspertin adı	**Vəzifə**
Yusif Qayıbov	Komanda rəhbəri
Amin Məmmədov	Ətraf mühit üzrə mütəxəssis

Kamran Cəbrayılov	Ətraf mühit üzrə mütəxəssis
İlahə İlyasova	Sosial inkişaf üzrə mütəxəssis
Ziba Quliyeva	Maraqlı tərəflərlə iş üzrə mütəxəssis
Razim Əmrahov	ƏMTQ üzrə qiymətləndirici
Ramin Hüseynli	ƏMTQ üzrə qiymətləndirici
Selcan Heseynli	ƏMTQ üzrə qiymətləndirici

Layihənin Dünya Bankı tərəfindən maliyyələşdirilən hissələrində ƏMSSTQ hesabatının hazırlanması üçün "Azərenerji" ASC ayrıca şirkət (İqlim MMC) cəlb edilmişdir və həmin hissə üçün ƏMSSTQ Hesabatı tamamlanmış və baxılması üçün Dünya Bankına təqdim olunmuşdur.

1.2 ƏMSSTQ hesabatının məqsədi

Bu ƏMSSTQ Hesabatı Layihənin Azərbaycan Hökuməti tərəfindən maliyyələşdirilən hissələrini əhatə edir. Bu hesabata daxildir: 500/330/10 kV-luq Nəvahi YS və üç hava xətti, yəni (i) 500 kV-luq təkdövrəli Abşeron YS - Nəvahi YS EVX-nin tikintisi - 65 km, (ii) 330 kV-luq ikidövrəli Biləsuvar GES - Nəvahi YS EVX-nin tikintisi - 90 km, (iii) 330 kV-luq ikidövrəli Bankə GES - Nəvahi YS HX-nin tikintisi - 100 km.

Bu ƏMSSTQ-nin məqsədləri aşağıdakılardan ibarətdir:

- 500/330/10 kV-luq Nəvahi yarımstansiyası sahəsində planlaşdırılan infrastrukturun icmalını təqdim etmək;
- layihə üçün nəzərdən keçirilmi alternativlərin təhlilini təqdim etmək;
- istifadə edilən resurslar, atılan emissiyalar, atqılar və tullantılar barədə məlumat
- vermək;
- təsir sahəsi (TS) daxilində hazırda mövcud olan ilkin fiziki, bioloji və sosial-iqtisadi
- vəziyyəti təsvir etmək;
- layihənin müxtəlif mərhələləri (tikinti, quraşdırma, istismara vermə, istismar və
- istismardan çıxarma) ərzində insan hüquqları da daxil olmaqla, potensial ekoloji və sosial təsirləri müəyyən etmək və qiymətləndirmək;
- potensial təsirləri praktiki cəhətdən mümkün aşağı səviyyəyədək azaltmaq üçün müvafiq təsirazaltma tədbirləri, idarəetmə planları və monitorinq
- proqramları işləyib hazırlamaq;
- layihə üçün ətraf mühitlə bağlı icazənin alınması prosesinin tələblərini yerinə
- yetirmək;
- ƏMSSTQ hesabatı üçün ETSN-in təsdiqini əldə etmək.

1.3 Bu hesabatın strukturu

Bu sənəd Layihənin aşağıdakı Fəsil 2 "Layihənin təsviri" bölməsində təsvir edildiyi kimi təklif edilən altlayihələri ilə əlaqədar Ətraf Mühitə və Sosial Sahəyə Təsirin Qiymətləndirilməsi (ƏMSSTQ) hesabatından ibarətdir.

Hesabat həm Azərbaycan Respublikasının ətraf mühitin mühafizəsi sahəsində qanunvericiliyinə, həm də Dünya Bankının ətraf mühit və sosial standartlarının (ƏMSS) tələblərinə müvafiq şəkildə hazırlanmışdır. Layihə əsas layihələndirmə mərhələlərindən (yəni ilkin layihələndirmə və detallı layihələndirmə) keçməklə inkişaf etdiriləcək. Bu mərhələlər Ətraf Mühitə və Sosial Sahəyə Təsirin Qiymətləndirilməsi (ƏMSSTQ) Hesabatının və Ətraf Mühitin və Sosial Təsirlərin İdarəetmə Planının (ƏMSTİP) əsasında duracaqdır.

Bundan başqa, Hesabat əsas maraqlı tərəflərlə erkən qarşılıqlı əlaqələrin qurulması haqqında məlumat verəcək və ətraf mühitə və sosial sahələrə konkret potensial təsirlərin müəyyən edilməsinə kömək edəcək.

ƏMSSTQ-nin strukturu aşağıdakı kimi təşkil edilmişdir:

- Fəsil 1 giriş hissəsini əhatə edir.
- Fəsil 2-də Layihənin təsviri verilir.
- Fəsil 3-də Layihənin alternativləri müzakirə edilir.
- Fəsil 3-də milli təşkilati və hüquqi çərçivələr, habelə Dünya Bankının Ətraf Mühit və Sosial Çərçivəsinin (ƏMSÇ) müvafiq ətraf mühit və sosial standartlarının (ƏMSS) tələbləri müəyyən edilir və təsvir edilir.
- Fəsil 5-də Ətraf Mühitə və Sosial Sahəyə Təsirin Qiymətləndirilməsi (ƏMSSTQ) prosesi və ƏMSSTQ ilə bağlı təfərrüatların verildiyi metodologiya təsvir edilir.
- Fəsil 6-da maraqlı tərəflərin cəlb edilməsi prosesi təsvir edilir.
- Fəsil 7-də Layihə ərazilərində ətraf mühitin mövcud vəziyyətinin qiymətləndirilməsi təsvir edilir.
- Fəsil 8-də Layihənin Ətraf Mühit və Sosial Sahə ilə bağlı potensial risk və təsirləri ümumiləşdirilir.
- Fəsil 9 məlumatların açıqlanması və məsləhətləşmə prosesini əhatə edir.
- Fəsil 10-də istinadlar göstərilir.
- Əlavə A-da maraqlı tərəflərin siyahısı verilir.
- Əlavə B-də maraqlı tərəflərlə məsləhətləşmələr təqdim olunur.
- Əlavə C-də İctimai məsləhətləşmə görüşlərinin protokolları təqdim olunur.
- Əlavə D mədəni irs abidələrinin siyahısını ehtiva edir
- Əlavə E ƏMTQ üzrə qiymətləndiricilərin ixtisas sertifikatları

2. LAYİHƏNİN TƏSVİRİ

Bu Hesabatda Layihə Azərbaycan Hökuməti tərəfindən maliyyələşdirilən və yuxarıdakı bölmələrdə təsvir olunan komponentləri əhatə edən Layihə kimi başa düşülməlidir.

2.1 Layihənin yeri və təsir sahəsi/tədqiqat sahəsi

Layihə Azərbaycanın cənubunda yerləşir və ölkənin 6 rayonunu, yəni Neftçala, Biləsuvar, Salyan, Hacıqabul, Qobustan, Qaradağ, Abşeron rayonlarını əhatə edir. Layihə ərazisinin bir hissəsi Neftçala və Hacıqabul rayonları arasındakı ərazidə, M60 Bakı-Qazax yolu və E119 Bakı-Ələt-Astara yolu boyunca yerləşir.

Aşağıdakı şəkildə Layihənin elektrik hava xətləri və Nəvahi yarımstansiyasının ərazi xəritəsi təqdim olunur.

Şəkil 2-1: Layihənin ərazi xəritəsi

Şəkil 2-2: Nəvahi YS-nin ərazisi

500/330 kV-luq Nəvahi YS-nin torpaq sahəsinin künc nöqtələrinin koordinatları (L=500x600m)

№	*X*	*Y*
1	*343247.327*	*4432345.314*
2	*343003.699*	*4431906.172*
3	*342461.870*	*4432163.895*
4	*342702.435*	*4432604.652*

Aşağıdakı şəkildə ölkədəki layihə ərazisinin rayonları göstərilir.

Şəkil 2-3: Azərbaycanın layihə ərazisinin müxtəlif yerlərinin göstərildiyi xəritəsi

2.2 Layihənin komponentlərinin təsviri

Layihə tamamilə quruda həyata keçiriləcək və 1 yarımstansiya və 3 hava xəttindən ibarət olacaq: (i) 500/330/10 kV-luq Nəvahi yarımstansiyası; (ii) 500 kV-luq təkdövrəli Abşeron YS - Nəvahi YS EVX - 65 km; (iii) 330 kV-luq təkdövrəli Biləsuvar GES - Nəvahi YS EVX - 80 km; (iv) 330 kV-luq təkdövrəli Bankə GES - Nəvahi YS EVX - 100 km; (v) Abşeron yarımstansiyasında 330 kV-luq yuvanın quraşdırılması. Bu xətlər Nəvahi qəsəbəsindən Neftçala və Biləsuvar rayonlarına, eləcə də Abşeron rayonuna uzanacaq. Layihə paralel olaraq "Azərenerji" ASC-nin sistemin fəaliyyətini yaxşılaşdırması və planlaşdırılmış dəyişən bərpa olunan enerji mənbələrinin növbəti 10 il ərzində enerji şəbəkəsinə inteqrasiyasına nəzarət etməsinə dəstək göstərəcək.

Yeni EVX-lər iki məqsədlə tikilir. İlk növbədə, onlar mövcud elektrik şəbəkəsinin etibarlılığını artıracaq. Bu məqsədlə Sovet dövründə inşa edilmiş yerlərdə mövcud köhnə xətlər üçün lazımi ehtiyat xətlər təmin ediləcək və bu xətlər Azərbaycanın qərbinə və şimal-qərbinə davamlı enerji təchizatının və Gürcüstanla Türkiyəyə ixrac xətlərinin təmin edilməsinə kömək edəcək. İkincisi, yeni Nəvahi yarımstansiyası elektrik enerjisinin cənubi Azərbaycandan qərbi Azərbaycana, o cümlədən Ələt AİZ-na ötürülməsi imkanını artıraraq mövcud təchizat sistemini daha etibarlı edəcək. Sistemin buraxılış qabiliyyətinin bu şəkildə artırılması son dərəcədə vacibdir. Azərbaycanın cənubi və mərkəzi hissələrində yeni bərpa olunan enerji layihələri, habelə işğaldan azad edilmiş ərazilərdə həyata keçirilən ambisiyalı bərpa olunan enerji layihələri tezliklə ölkənin elektrik enerjisi şəbəkəsinə əlavə elektrik enerjisinin təchizatına başlayacaq.

2.3 Layihə komponentlərinin ümumi xülasəsi

500/330/10 kV-luq Nəvahi yarımstansiyası

Şəkil 2-4: Nəvahi ys-nın baş planı və əsas parametrləri

Eksplikasiya			
№	Adı	Sayı	Qeyd
1	Avtotransformator 167 MVA	7	
2	500 kV APQ	1	
3	330 kV APQ	1	
4	ÜİM binası	1	
5	Nəzarət - buraxılış məntəqəsi	1	
6	Nasosxana	1	
7	Təsərrüfat-içməli su anbarı, V = 100 m³	1	
8	Yanğın əleyhinə su anbarı, V = 250 m³	2	
9	Yanğın siyirtmələrinin idarəetmə kamerası	1	
10	Dizel generatoru 636 kVA	1	
11	Yağyığan	1	
12	Şambo	1	
13	Zibil yığımı konteyneri	1	
14	Daxili hasar (metal tor) L = 364.0 m		
15	Xarici daş hasar və darvaza L = 2070.0 m		
16	Məişət binası (16.40×9.0m)	1	
17	Anbar binası (24.0×9.0m)	1	
18	Maşınlar üçün örtülü dayanacaq (44.40×10.0m)	1	
19	Hovuz	1	
20	500 kV-luq şuntlayıcı reaktor 60 MVA	3	
21	Söhbətgah	2	

Daha geniş kontekstdə Layihənin əsas elementləri və onların ətraf mühit və sosial sahənin qiymətləndirilməsinə daxil edilməsi aşağıdakıları əhatə edir:

Hacıqabul rayonunun Nəvahi qəsəbəsində yerləşən 500/330 kV-luq Nəvahi yarımstansiyası üzrə (alt-layihə 1) aşağıdakı tədbirlərin görülməsi ilə tikintisi və istismara verilməsi:

- Yarımstansiya 500 kV-luq paylayıcı qurğu, 330 kV-luq paylayıcı qurğu və 10 kV-luq paylayıcı qurğu kimi hissələrdən ibarət olacaq və YS-da hər biri 167 MVA-lıq 7 ədəd avtotransformator (1 ədədi ehtiyatda) quraşdırılması nəzərdə tutulub. YS-da 1 ədəd 500 kV-luq Açıq Paylayıcı Qurğu (APQ), 1 ədəd 300 kV-luq APQ olacaq.
- YS 1 ədəd sistern, nasosxana, nəzarət-buraxılış məntəqəsi, yanğın su anbarı, təsərrüfat sahəsi, içməli su anbarı, yağış suyu drenajları, yağyığan quyular, ehtiyat enerji mənbəyi kimi 1 ədəd 636 KVA dizel generator, 1 ədəd şambo, xarici və daxili hasardan ibarət olacaq. YS-nın planı Şəkil 2-1-də verilib.
- Layihədə nəzarət-buraxılış məntəqələri də daxil olmaqla, sahənin perimetrləri boyu daxili və xarici təhlükəsizlik hasarı quraşdırılacaq.
- Sahə daxili hərəkət yolları, kabel kanalları, daxili videomüşahidə sistemi, sahənin təhlükəsizlik sistemləri təşkil ediləcək. Layihəyə görə, YS-nın Şərq hissəsindən 7 ədəd 330 kV-luq hava xətti daxil olur. YS-nın elektrik enerjisinə ehtiyacının qarşılanması üçün eyni zamanda 10 kV-luq APQ, 2 ədəd 630 KVA-lıq YS layihələndirilir.

500 kV-luq APQ və onun tərkibi

500 kV-luq APQ-nin giriş hissəsinə 500 kV-luq Az.İES HX, 500 kV-luq Abşeron HX-nin 500 kV-luq AT-2-yə giriş sistemi və 500 kV-luq AT-1-ə girişi layihələndirilib. Giriş portallarında 2xAS-500/64 mm2-lıq polad alüminium naqildən istifadə olunub.

Hər girişdə 500 kV-luq ifrat gərginlik məhdudlaşdırıcıları quraşdırılır. 3 ədəd 500 kV-luq tutumlu gərginlik transformatorları nəzərdə tutulub.

Hər HX-də və avtotransformatorların girişində 3150 A-lik 500 kV-luq mühərrik intiqallı, bir torpaqlayıcı bıçaqlı ayırıcılar qəbul olunub.

Girişdə 500 kV-luq APQ-də ardıcıl olaraq aşağıdakı avadanlıqlar nəzərdə tutulub:

- 2 ədəd 50 kV-luq 3150A; 50 A-lik eleqaz açarları;
- 2 ədəd 500 kV-luq 7 kernalı, 2000/1 kA-lik cərəyan transformatoru;
- hər fazada 500 kV-luq iki torpaqlayıcı bıçaqlı mühərrik intiqallı 3150 A-lik ayrıcılar;
- hər fazada 500 kV-luq 2000/1 A, 7 kernalı cərəyan transformatoru;
- girişdə hər fazada 500 kV-luq 3150 A, 50 kA-lik eleqaz açar;
- 500 kV-luq bir torpaqlayıcı bıçaqlı mühərrik intiqallı 3159 A-lik ayrıcılar;
- 3 ədəd AS-500/64 mm2,3000 A-lik poladalüminium naqil;
- 500 kV-luq iki torpaqlayıcı bıçaqlı mühərrik intiqallı 3150 A-lik ayrıcı;
- 500 kV-luq bir torpaqlayıcı bıçaqlı mühərrik intiqallı 3150 A-lik ayrıcı (hər fazada);
- 500 kV-luq gərginlik transformatoru (hər girişdə);
- 2xAS-500/64 mm2 en kəsikli poladalüminium birləşdirici naqil;
- hər fazada 500 kV-luq gərginlik məhdudlaşdırıcı;
- layihədə 500 kV-luq APQ-də, həmçinin ŞR 3x60 MVAr gücündə 500 kV-luq reaktor, sinxron kommutasiya qurğusu (RPH-4 ilə) nəzərdə tutulub.

Layihədə 3 ədəd АОДЦТН-167000/500/330-У1 tipli güc transformatoru nəzərdə tutulub (biri ehtiyatda). Avtotransformatorların parametrləri: 167 MVA, 500/330±6x12% / 10,5 kV, birləşmə sxemi: YHavto/ Δ-0-11.

Fazalar arası:
Fk(%)= BH(YG)-CH(OG)=9,5
BH(YG)-HH(AG)=67,0
CH(OG)-HH(AG)=61,0

Layihədə 500 kV-luq APQ-də işçi personala və ətraf mühitə elektrik və maqnit sahəsinin zərərli təsirini azaltmaq üçün bioloji mühafizə sistemi nəzərdə tutulur. Bu yaxşı torpaqlanmış ekran tipli mühafizə sistemi ola bilər.

500 kV-luq APQ avadanlıqları və ərazisi ildırımdan ildırım ötürücüləri ilə mühafizə olunur. Ərazidə 16 ədəd, hündürlüyü H=19,4 m olan ildırım ötürücüləri quraşdırılması nəzərdə tutulub.

500 kV-luq APQ-yə daxil olan avadanlıqlar və digərlərinin deqradasiya dərəcəsi ekoloji şəraitdən, texnologiyadan və müntəzəm texnoloji nəzarətdən asılıdır. Avadanlıqların yüklənmə əmsalı 80% olduqda lazımi qaydada layihələndirilən YS-nin istismar dövrünün 30-35 il davam etməsi gözlənilir.

Şəkil 2-5: 330 kV-luq EVX-nin YS-ya giriş-çıxış sistemi

330 kV-luq Biləsuvar GES HX № 1;
- 330 kV-luq Biləsuvar GES HX № 2;
- 330 kV-luq Bankə GES HX № 1;
- 330 kV-luq Bankə GES HX № 2;
- 330 kV-luq AT№ 1-in girişi;
- 330 kV-luq Ələt AİZ HX;
- 330 kV-luq Qobustan KES HX;
- 330 kV-luq Mingəçevir SES HX;
- 330 kV-luq HX üçün (ehtiyat);
- 330 kV-luq AT № 2-in girişi;
- 330 kV-luq HX üçün (ehtiyat);
- 330 kV-luq HX üçün (ehtiyat);
- 330 kV-luq HX üçün (ehtiyat);

Bərpa olunan enerji mənbələrinin sistemə girişi/çıxışı üçün aşağıdakı hava xətlərinin tikintisi nəzərdə tutulub:

- 330 kV-luq ikidövrəli Biləsuvar GES - Nəvahi YS HX - 90 km
- 330 kV-luq ikidövrəli Bankə GES - Nəvahi YS HX - 100 km
- 330 kV-luq təkdövrəli Abşeron KES - Nəvahi YS HX - 60 km
- 330 kV-luq təkdövrəli Abşeron KES - Qobu ES HX - 20 km
- 500 kV-luq təkdövrəli Abşeron ES - Nəvahi YS HX - 65 km
- 330 kV-luq təkdövrəli Mingəçevir SES - Nəvahi YS HX - 220 km
- 500 kV-luq təkdövrəli Azərbaycan İES - Nəvahi YS HX - 235 km
- 330 kV-luq təkdövrəli Ələt AİZ YS - Nəvahi YS HX - 20 km

Dayaqlar

Layihədə iki cür dayaqlardan istifadə olunub – anker və aralıq. Anker dayaqlardan dönmə bucaqlarında və aralıq dayaqların isə HX trassasının oxu istiqamətində quraşdırılması nəzərdə tutulub. Dayaqların tutduğu torpaq sahəsinin ölçüsü dayağın tipinə və özülə düşən yükə görə dəyişir. Aralıq dayaqlar daha az torpaq sahəsi tutur, anker dayaqları isə daşıdığı yük böyük olduğu üçün və nisbətən iri olduğuna görə daha böyük torpaq sahəsi tutur.

500 kV-luq EVX-də unifikasiyalı metal və dayaqlar qəbul olunmuşdur.
Aralıq dayaq kimi layihədə ПП750-5 tipli metal dayaqlar qəbul edilmişdir.
EVX trassasının dönmə bucaqlarında və anker aşırımları böyük olan hallarda anker metal dayaqlar У2+5 tipli qəbul olunmuşdur.
Layihə olunan 330 kV-luq EVX-də unifikasiyalı metal və dayaqlar qəbul olunmuşdur.
Aralıq dayaq kimi layihədə ПС330-6 tipli metal dayaqlar qəbul edilmişdir.
HX trassasının dönmə bucaqlarında və anker aşırımları böyük olan hallarda У330-2+5 tipli qəbul olunmuşdur. Ayrı-ayrı hallarda keçidlərdə normativ qabariti gözləməkdən ötrü dayaqların hündürlükləri 9 və 14 m artırılmışdır.

Dayaqlar lehimli və ya karbon poladdan hazırlanmış **metal profilə** əsaslanır. Struktur elementlər qaynaqlı və ya boltlu birləşmədən istifadə edərək bir-birinə bağlanır. Hər bir birləşmə növünün öz üstünlükləri və mənfi cəhətləri var. Məsələn, müasir qaynaq üsullarının istifadəsi ən etibarlı konstruksiyanı əldə etməyə imkan verir, lakin onun daşınması çətin olur. Boltlar istifadə edilməsi dayaqların kiçik hissələrlə sahəyə daşınması və sahədə birləşdirilərək ucaldılmasına imkan verir.

EVX təkdövrəli və ikidövrəli olduğundan dayaqlar arasında məsafə relyefdən asılı olaraq 250-300 metr olacaq. Relyefdən asılı olaraq, dayaqların hündürlüyü də 40-49 metr arasında dəyişir. Dayaqların seçilməsində texniki-iqtisadi əsaslandırma nəzərə alınmışdır. Anker dayaqlar tipindən və relyefdəki müqavimətindən asılı olaraq 95-470 m2-a qədər torpaq sahəsi tutur.

Dayaqların hər biri 4 ədəd özül üzərində quraşdırılır. Şəkil 2.2-də anker dayağın, Şəkil 2.3-də aralıq dayağın nümunəsi və onun mühafizə zonası verilmişdir.

Şəkil 2-6. İkidövrəli 330 kV-luq anker dayağın strukturu, mühafizə zonası və dəhlizin təxmini konfiqurasiyası

Şəkil 2.7. Aralıq ikidövrəli 330 kV-luq dayağın strukturu, mühafizə zonası və dəhlizin təxmini konfiqurasiyası

Şəkil 2-8. 330 kV-luq ikidövrəli aralıq dayağın trasda mümkün ümumi görünüşü

Dayağın hissələri

özüllər

Quraşdırılmış dayaqlar

Montaj edilmiş dayaqlar

Şəkil 2-9. Quraşdırılan və montaj edilmiş dayaqlara nümunə

Şəkillərdə hava xətlərinin tikintisi ilə bağlı həyata keçirilən tipik işlər göstərilir. Hər bir dayağın trassa boyunca quraşdırılmasından sonra işçi heyət dayağın perimetri, torpağı, qruntu və s. bölüşdürür və düzləşdirir. Bunun üçün zədələnmiş əraziyə yığılıb qorunmuş torpaqdan tökərək düzəldilir, yağışdan axan su eroziyaya səbəb olarsa, drenaj kanalları quraşdırılır. Bitkilərin və ya bitki toxumalarını gələcək eroziyasının qarşısı alınır. Bütün dayaqların quraşdırılmasından sonra dayaqlar arasında naqillər çəkilir və sınaqdan keçirilir.

Dayaqların sayı və onların növü, habelə təklif edilən dəhlizdə hər bir konkret dayağın təklif edilən yeri Azərbaycan qanunvericiliyinə müvafiq olaraq Layihənin detallı layihələndirmə sənədlərində müəyyən edilmişdir və aşağıdakı bölmələrdə təsvir olunur. Ötürücülərin sayı və onların hər bir dayaqda yerləşdirilməsi hər faza üçün bir ötürücü və dayağın yuxarı hissəsində bir qoruyucu naqil olmaqla iki dövrədən ibarətdir. Dayağın tutduğu ərazi 64 kv2-dən başlayaraq maksimum 100 m2-dək dəyişir. Elektrik veriliş xəttinin təhlükəsiz fəaliyyətini və texniki xidmətini təmin etmək üçün bu torpaq sahəsi birdəfəlik əldə edilməlidir.

Hər bir dayağın dörd ayağı və hər bir ayağın ayrıca özülü olacaq, yəni hər bir dayağın dörd özülü olmalıdır. Özüllər qruntun ərazinin xüsusi geotexniki tədqiqatı nəticəsində müəyyən edilmiş xüsusi daşıma qabiliyyəti üçün münasib olan beton növü ilə dəmir-beton bloklarla layihələndirilir.

Faza ötürücüləri

Ötürücülər aralıq dayaqlarda traverslərdən şaquli şəkildə asılan izolyasiya lentlərinin köməyi ilə HX dayaqlarında traverslərə qoşulur. Anker-bucaqlı dayaqlarda ötürücülər izolyasiyanın köməyi ilə traverslərə qoşulur, lakin bu zaman izolyatorlar ötürücülərlə eyni xətdə yerləşdirilir. Elektrik veriliş xətlərinin ötürücüləri bir qayda olaraq polad özəklə alüminiumdan hazırlanır. Bu 100 kV-luq elektrik xəttinin faza ötürücüləri kimi normal en kəsiyi 240/40 mm2 olan poladalüminium naqil (ACSR) ötürücüləri istifadə olunur.

İzolyatorlar

Elektrik xətləri elektrik şəbəkəsinə bilavasitə torpaqlanmış neytral nöqtənin köməyi ilə qoşulur və bu zaman nominal ildırım impulsu 550 kV gərginliyə davam gətirir.

İstifadə edilməli olan izolyator belə elektrik xətlərində istifadə üçün təsdiqlənmiş növə aid olmalıdır və fərqli izolyator zəncirləri növlərinin quraşdırılması üçün fərqli prosedurlardan istifadə olunur. İzolyatorlar bir qayda olaraq bərkidilmiş şüşədən hazırlanır.

Torpaqlama

Dayaqların torpaqlanması hər bir dayağın özülünün ətrafında bir torpaqlama konturunun yaradılması ilə həyata keçirilir, üstəlik dayağın strukturunun ətrafında, mövcud konturlardan təxminən 1 metr məsafədə nominal diametri (Ø) 10 mm olan əlavə Fe (dəmir) naqillə kontur yerləşdirilir. Bu konturlar öz aralarında və dayağın polad konstruksiyası ilə əlaqələndirilir. Torpaqlanmanın gücləndirilməli olduğu hallarda (məs., ötürücülük qabiliyyəti aşağı olan torpaqlarda) torpaqlanma FeZn naqillərindən və ya FeZn lentlərindən hazırlanmış iki ayağın (əlavənin) dayağın hər bir özülünün mövcud konturuna əlavə edilməsi ilə gücləndirilir.

Qoruyucu naqillər

Dayağın ildırımdan qorunması üçün dayağın yuxarı hissəsində kronşteynlərin üstündən bir torpaqlayıcı naqil asılır.

2.4 Elektrik verilişi xətlərinin baş planı və əsas parametrləri

1) 500 kV-luq təkdövrəli Nəvahi YS – Abşeron YS EVX

Şəkil 2-10: Nəvahi-Abşeron EVX-nin baş planı

№	Dayağın tipi	Sayı	1 dayağın tutduğu torpaq sahəsi kvm.	Cəmi tutulacaq torpaq sahəsi
1	У2+5	58	300	17400
2	ПП750-5	131	470	61570
Cəmi		189		78970

500 kv-luq EVX-lərdə aralıq dayaqların özullərinin hündürlüyü 2.70 m təşkil edir. Bunun 2.50 m hissəsi torpağın altında, 20 sm hissəsi isə torpağın üstündə qalır.

500 kv-luq EVX-lərdə anker dayaqlarının özüllərinin hündürlüyü 3,115 m təşkil edir. Bunun 2,85 m hissəsi torpağın altında, 26.5 sm hissəsi isə torpağın üstündə qalır.

2) 330 kV-luq ikidövrəli Bankə GES – Nəvahi YS EVX

Şəkil 2-11: Nəvahi-Bankə EVX-nin baş planı

№	Dayağın tipi	Sayı	1 dayağın tutduğu torpaq sahəsi kvm.	Cəmi tutulacaq torpaq sahəsi
1	У330-3+9	4	120	480
2	У330-2+5	60	95	5700
3	ПС330-6	257	65	16705
4	У330-2+9	22	130	2060
5	У330-2+14	2	170	340
6	У330-3	8	70	560
Cəmi		353		25845

330 kv-luq EVX-lərdə aralıq dayaqların özullərinin hündürlüyü 3.20 m təşkil edir. Bunun 3 m hissəsi torpağın altında, 20 sm hissəsi isə torpağın üstündə qalır.

330 kv-luq EVX-lərdə anker dayaqlarının özüllərinin hündürlüyü 3,115 m təşkil edir. Bunun 2,85 m hissəsi torpağın altında, 26.5 sm hissəsi isə torpağın üstündə qalır.

3) 330 kV-luq ikidövrəli Biləsuvar GES – Nəvahi YS EVX

Şəkil 2-12: Nəvahi-Biləsuvar EVX-nin baş planı

№	Dayağın tipi	Sayı	1 dayağın tutduğu torpaq sahəsi kvm.	Cəmi tutulacaq torpaq sahəsi
1	У330-3+9	4	120m2	480
2	У330-2+5	67	95	6365
3	ПС330-6	244	65	15860
4	У330-2+9	25	130	3250
5	У330-2+14	7	170	1190
6	У330-3	13	70	910
CƏMI		356		28055

330 kv-luq EVX-lərdə aralıq dayaqların özullərinin hündürlüyü 3.20 m təşkil edir. Bunun 3 m hissəsi torpağın altında, 20 sm hissəsi isə torpağın üstündə qalır.

330 kv-luq EVX-lərdə anker dayaqlarının özüllərinin hündürlüyü 3,115 m təşkil edir. Bunun 2,85 m hissəsi torpağın altında, 26.5 sm hissəsi isə torpağın üstündə qalır.

Dayaqlar və özüllərin qoyulması

Düzən və dağlıq ərazilər üçün bir sıra müxtəlif özül növləri qiymətləndirilmişdir. Müəyyən yerlərdə torpaq şəraitindən asılı olaraq, ya anker, ya da kiçik paya vurulması əhəmiyyətli üstünlüyə malik olacaq və eyni zamanda, daha kiçik iz və ətraf mühitə təsir göstərəcəkdir.

- Sulu qruntlarda hər bir özülün altında 100mm qalınlığında qumlu çınqıldan ibarət örtük hazırlanır.
- Özüllər qoyulub yoxlanandan sonra xəndəklər doldurulur.Torpaq 25-30sm qalınlığında qatlarla tökülür, həcm çəkisinin 1,6t/m³-ə çatana qədər mexaniki sıxlaşdırılır. Tökülən torpaq İN və Q tələblərini ödəməlidir.
- Xəndəklər doldurulduqda, çim, lil, bitkili torpaqlardan istifadə etmək tamamilə qadağan olunur.
- Özüllər üzərinə dayaqlar qaldırıldıqda quraşdırma vaxtı alınan üfüqü qüvvələri qəbul edən dirənəcəklər nəzərə alınmalıdır
- Özüllər sulfatadavamlı sementdən hazırlanır və bitumla izolyasiya olunur.

Dayaq özüllərinin ümumi parametrləri

Qazıntı zamanı təməl bazasının ölçüləri, m	*2.10x2.10*
Sıxılmada bünövrə bazasının ölçüləri, m	*2.10x2.10*
Döşəmə dərinliyi, m	*2.50 - 3.00*
Baza mm	*250*
Boltun diametri	*36*
Beton sinfi	*B30*
Suya davamlılıq	*W8*
Vahid çəki, t	*4,30*

2.5 Layihənin mərhələləri

2.4.1. Tikinti və istismara vermə

Hazırkı ƏMSSTQ hesabatının tərtib olunması zamanı mobilizasiya, sahənin hazırlanması, tikinti və istismara verilmə proqramının 2024-cü ilin avqust ayı ilə 2026-cı ilin mart ayı arasındakı müddətdə təxminən 20 ay davam edəcəyi gözlənilir.

Alt-layihə 1 (500/330/10 kV-luq Nəvahi yarımstansiyası) ilə əlaqədar aparılacaq əsas fəaliyyətlərə aşağıdakılar daxil olacaqdır:

Ərazidə adətən, hazırlıq işlərinə, yağıntı suların iş sahələrindən kənara axması üçün qruntun nivelirlənməsi (kəsmə və doldurma), drenaj borularının quraşdırılması, siqnal kabel üçün xəndəklərin qazılması , infrastrukturun (binaların, keçid məntəqəsini, sanitar qovşağı müvəqqəti tikililər və s.) yerləşdirilməsi üçün möhkəm qruntun təmin edilməsi və daxili yolların tikilməsi daxil olacaqdır. Üz torpaq (münbit torpaq) qaşınaraq kənarda yığılır və gələcəkdə yaşıllaşdırma, abadlaşdırma işlərində istifadə olunur.

Torpağın qazılması üçün buldozer və ya ekskavatorlardan, yükləmə işində yükünün təyin edilmiş sahələrə daşınması üçün özüboşaldan maşınlardan və ya çömçəli yükləyicilərdən istifadə edilləcəkdir. Sahədə 1503,0 m3 torpaq həcmli planlaşdırma, 102753 m3 tökmə torpaq işləri, yolun hərəkət hissəsində 9965,0 m3 qazma, səki və meydançalarda 25 m3 qazma işləri aparılacaq. Qabaqcıl beynəlxalq sənaye təcrübəsinə müvafiq olaraq, gələcəkdə sahənin əvvəlki vəziyyətinin bərpasına yardım üçün işin tamamlanmasından sonra qazıntıların doldurulmasında istifadə etmək məqsədilə artıq qalmış çirklənməmiş üst və alt torpaq qatları iş sahələrinin kənarlarında qalaqlanacaqdır. Gözlə görünə bilən dərəcədə çirklənmiş torpağa rast gəlinərsə, belə torpaq lisenziyası olan obyektdə təmizlənməsi və ya utilizasiya olunması üçün sahədən kənara daşınmazdan əvvəl müvafiq (təhlükəli tullantıların müvəqqəti saxlanması üçün uyğun olan) yerdə saxlanılacaqdır. Ümumilikdə ərazinin relyefinə uyğun 92260,0 m3 tökmə doldurma işlərinə torpaq lazım olacaq.

<u>2.4.1.1. Müvəqqəti kompleks sahələrin tikilməsi</u>

Tikinti sahəsində müvəqqəti kompleks sahələr nəzərdə tutulur. Belə kompleks20-30,000 kvadrat metrə (m2) qədər sahəni əhatə edə bilər və buraya aşağıdakılar daxil olacaqdır:

- nəqliyyat vasitələri və texnika üçün dayanaclar kimi standart sahələr,
- anbar təsərrüfatı üçün yer,
- yükboşaltma və material saxlama sahələri,
- müvəqqəti tullantı toplama məntəqələri, saxlama sahələri (təhlükəli və
- təhlükəsiz tullantı axınları üçün),
- sanitar-məişət obyektləri (yəni tualetlər və istirahət sahələri),
- kiçik sexlər və s.

Mərhələli tikinti işləri və dayanacaqlar üçün təklif olunmuş sahələr YS-nın baş planında təsvir edilir.

2.4.1.2. İşçilər üçün müvəqqəti yaşayış sahəsi

Müvəqqəti yaşayış sahəsinin inşasına ehtiyacın olub-olmaması, işçi qüvvəsinin ətraf ərazilərdən cəlb edilə bilməsi və ya Azərbaycanın digər rayonlarından olan hər hansı işçilər üçün ərazidə (yəni Nəvahidə) müvafiq yaşayış şəraitinin təmin edilə bilməsi imkanları əsasında müəyyənləşdiriləcək. İşçilərin

müvəqqəti yaşayış sahələrinin təşkili üçün podratçı məsuliyyət daşıyacaq. Buraya tikinti ərzində işçi heyəti layihə sahəsinə və layihə sahəsindən avtobus vasitəsilə daşınmaqla, layihə sahəsində tikinti heyəti üçün müvəqqəti yaşayış sahəsinin və Nəvahidə yerli işçilər üçün yaşayış sahəsinin (yəni mövcud əhali evlərinin) kombinasiyasının daxil olacağı gözlənilir.

İşçilər üçün müvəqqəti yaşayış sahəsinin inşaası tələb olunarsa sahəyə vaqon tipli yaşayış və istirahət konteyneri də qoyula bilər. Bunun üçün aşağıdakı amillər nəzərdən keçirilməlidir:

- mövcud ekoloji və sosial məhdudiyyətlər – işçilərin yaşayış sahəsi
- müəyyənləşdirilmiş ekoloji və ya sosial resperatorlara təsir göstərməyən
- sahədə yerləşəkdir.
- əməyin təhlükəsizliyi, fiziki təhlükəsizlik və işçilərin rifahı – işçilərin yaşayış
- sahələri təmizlənmiş və hazırda çirklənməmiş vəziyyətdə olan təhlükəsiz
- ərazidə yerləşəcəkdir.

İşçilərin yaşayış sahəsinə, əsasən aşağıdakılar daxil olacaqdır:

- yaşayış sahəsi, mətbəx, yemək otağı,ərzaq üçün anbar, çamaşırxana, əyləncə
- otağı, sanitar-gigiyena sahəsi, ofis və iclas otaqları, tibbi klinika (daşınan
- vaqonlar),
- elektrik təchizatı üçün generatorlar və ya müvəqqəti enerji təchizatı və
- əlaqədar dizel saxlama çənləri,
- daşınan və daşınmayan su çənləri və ya su təmizləyici qurğu (səyyar
- konteynerdən istifadə ediləcək),
- 5 gün ərzində əmələ gələn tullantı sularını saxlamaq qabiliyyətinə malik septik
- çənlər,
- Tullantı, yancaq və təhlükəli materiallar üçün anbar sahələri,
- Yanğınsöndürmə avadanlıqları,
- Dayanacaq

Sahədə tikinti işlərini minimuma endirmək məqsədilə infrastruktur mümkün qədər modullaşdırılacaqdır. Avadanlıqların sahələrə daşınması üçün yük treylerlərindən istifadə ediləcəkdir. Sahənin seçilməsi prosesindən sonra işçilər üçün müvəqqəti yaşayış sahəsinin tikilməsi ilə əlaqədar fəaliyyətlərdə dəyişiklik ediləcəkdir. Buna baxmayaraq, tikintinin başlamasından əvvəl aşağıdakı fəəaliyyətlərin tələb ediləcəyi ehtimal olunur:

- bitki örtüyünün təmizlənməsi, qrunt səthinin profillənməsi və kiplənməsi
- işçilərin yaşayış sahələrinin hasarlanması və işıqlandırma (o cümlədən ehtiyac olarsa, ildırım qoruyucuları) və nəzarət-buraxılış məntəqələri də daxil olmaqla müvafiq təhlükəsizlik tədbirlərinin görünməsi
- tullantıların və tullantı suların idarə olunması (yəni septik çənlər) və tullantıların saxlanması/toplanması üçün ayrılmış sahələrdə tikinti işlərinin aparılması
- yaşayış vaqonlarının tikintisi üçün müvəqqəti özül blokların və çərçivələrin qoyulması
- elektrik enerjisi, su təchizatı və kanalizasiya da daxil olmaqla, müvəqqəti kommunal xətlərin quraşdırılması
- düşərgənin ətrafındakı əsas sahələrdə işıqlandırma sisteminin quraşdırılması.

2.5. Kommunal xidmətlər

2.5.1. Elektrik təchizatı

Tikinti ehtiyacları üçün enerji "Azərişıq" ASC-nin şəbəkələrindən və ya qoşulma nöqtəsi olmadıqda dizel generatordan təchiz ediləcək. "Azərişıq" ASC-dən müvəqqəti elektrik təchizat üçün Texniki şərt alınmalıdır. İstismar mərhələsində enerji təchizatı üçün yarımstansiyada, 2x630 kVA-lıq məxsusi ehtiyaclar üçün transformator məntəqəsi (TM) quraşdırılması nəzərdə tutulub. Ehtiyat enerji mənbəyi kimi 400 KVA-lıq dizel generator da quraşdırıla bilər.

2.5.2. Su təchizatı

Layihədə tikinti və istismara verilmə ərzində su ehtiyaclarını qarşılamaq üçün kənarda yerləşən mövcud mənbədən təchiz olunur. Gündəlik su ehtiyacı 120 m3/gün nəzərdə tutulub. Bu adambaşına 100 litrə bərabər qəbul olunub. Ehtiyac olduqda tikinti ərazisindən toz qalxmaması üçün hərəkət yolları su ilə xüsusi maşınla çilənir. İstismar mərhələsi dövründə, layihədə içməli su rezervuarı, yanğın söndürmə rezervuarı və texniki su rezervuarı nəzərdə tutulub. Bu işlər üçün "Azərsu" ASC-dən xüsusi Texniki şərt alınacaqdır. İstismar dövründə rezervuarlarda su təchizatını təşkil etmək üçün nasosxana layihələndirilmişdir.

Hacıqabul rayonunun Navahı qəsəbəsini içməli su ilə təmin etmək üçün mənbə olaraq Kür-Bakı su kəməri seçilib. Bu kəmərdən Navahı qəsəbəsinə müxtəlif diametrli polietilen borularla 2,4 km magistral su xətti çəkilib. Eyni zamanda qəsəbə daxilində 5 km yeni su şəbəkəsi yaradılıb, 300-ə yaxın ünvana birləşmə verilib. Nəvahi yarımstansiyası üçün qəsəbənin magistral su kəmərindən su çəkilməsi nəzərdə tutulmuşdur. Su təchizatı şəbəkəsinə qoşulma üçün 4 nömrəli Regional Sukanal İdarəsinin Hacıqabul Sukanal Sahəsindən texniki şərt alınmışdır.

Alt-layihə 2 və 3 (500 və 330 kV-luq EVX-lər) əlaqəli hazırlıq işləri

330 kV-luq Elektrik hava xəttinin tikintisində müxtəlif texnika, maşın-mexanizm və alətlərdən istifadə olunacaq. Podratçı təşkilat dəqiq avadanlıq ehtiyacını müəyyən edəcək və özü seçəcək. Buna baxmayaraq aşağıda göstərilən bəzi maşın və avadanlıqlar istifadə oluna bilər.

Cədvəl 2.4. Tikinti və istismara verilmə mərhələləri ərazisində istifadə edilməsi gözlənilən nəqliyyat vasitələrinin növü və sayı

Növü	Miqdarı	Səs gücü səviyyəsi dB(A)*
Buldozer (torpaq qazıyan)	2	120
Arxa çömçəli eksksvator	2	107
Ekskavator	5	110
Trambovka maşını	2	117
Teleskopik çəngəlli yükləyici	3	99
Kabel çəkən maşın	3	102
Özüboşaldan yük maşını	7	97
Pikap	8	108
Avtobuslar	3	108
Böyük tonnajlı (25-50) kranlar	6	102
Avadanlıqları daşımaq üçün ağır yük maşın	3	108
Lyulkalı uzunoxlu kranlar	4	108

İstismar ərzində nəqliyyatın insanların daşınması üçün pikaplar, ”Ural” Səyyar maşınları və yüngül texnika (yəni texniki xidmət və bitki örtüyünə nəzarət üçün əl alətləri, otçalanlar, otbiçənlər və s.) ilə məhdudlaşacağı gözlənilir. Bundan başqa sahəyə suyun təchiz olunması digər resursların daşınması və təsdiqlənmiş qurğuda emal olunmasından/utilizasiya edilməsindən əvvəl tullantıların və tullantı suların təmizlənməsi üçün ağır texnikanın hərəkətinin məhdud sayda olacağı ehtimal edilir.

Bundan başqa hava xətti quraşdırma avadanlıqları, ağac kəsən, kol-kos kəsməyə müxtəlif əl alətləri, qaynaq aparatları və s. istifadə olunacaq. Həmçinin sahəyə suyu daşımaq, təchiz etmək, digər resursların daşınması üçün müxtəlif xüsusi təyinatlı maşınlar lazım olacaq.

Komandanın biri sahənin təmizlənməsi, yolların çəkilməsi, bünövrənin qazılması, bünövrənin quraşdırılması, digər komanda isə dayaqların daşınması, quraşdırılması ilə məşqul olacaq. Başqa bir komanda EVX-nin, izolyatorların quraşdırılması ilə, bir qrup işçilər isə avadanlıqların (özüllərin, dayaq hissələrinin, naqillərin və s) daşıması, boşaldılması ilə məşqul olacaq.

2.6 Köməkçi infrastruktur

Layihəyə daxil olacaq köməkçi infrastruktur və avadanlıqlar aşağıdakılardır:

- 500/330/10 kV-luq Nəvahi yarımstansiyası üçün:
  - Hava xətti və yarımstansiyaların tikintisi və istismara verilməsi məqsədilə giriş yollarının tikintisi;
  - Avadanlıq otağı və məişət zonaları;
  - Tikinti düşərgələrinin, o cümlədən işçilərin müvəqqəti yaşayış yerlərinin və avadanlıq və materialların müvəqqəti saxlanması üçün yerlərin yaradılması.
  - Daxili giriş yollarının və sərt örtüklü meydançaların tikintisi
  - Hasar, işıqlandırma, işarələrin quraşdırılması və tikintisi, habelə müvəqqəti işlərin aparılması (məsələn, drenaj və eroziya və çöküntülərə nəzarət).
  - Dayanacaq yerləri: Layihə ilə bağlı nəqliyyat vasitələrinin saxlanması üçün nəzərdə tutulmuş ərazilər, məsələn, tikinti avadanlığı, əməkdaşların maşınları və ya ziyarətçilər üçün dayanacaq.
  - Ehtiyat enerji təchizatı (məsələn, enerjinin saxlanması sistemi və/yaxud fövqəladə hallar üçün ehtiyat generatorları).
  - Kranlar, ekskavatorlar və yük maşınları

- Elektrik verilişi xətləri üçün:
  - Giriş yolları və tikinti sahələri
  - Dayaqlar arasında daxili giriş yolları.
  - Ehtiyat enerji təchizatı (məsələn, enerjinin saxlanması sistemi və/yaxud fövqəladə hallar üçün ehtiyat generatorları).
  - Kranlar, ekskavatorlar və yük maşınları
  - Dartma avadanlığı, qaldırıcılar və ötürücülərin çəkilməsi maşınları
  - Torpaqlama
    Betonqarışdırıcılar

2.7 İşçi qüvvəsi

Yuxarıda qeyd olunan 500 və 330 kV-luq hava elektrik verilişi xətlərinin (ümumilikdə təqribən 250 km) və bununla bağlı 500/330/10 kV-luq “Nəvahi” yarımstansiyasının tikintisi layihəsi (Layihəsi)

“Azərenerji” ASC tərəfindən işlənib hazırlanmışdır və yarımstansiyanın, hava xətlərinin tikintisini, istismarı və texniki xidməti əhatə edir. Şirkət müvafiq olaraq elektrik verilişi xəttinin və yarımstansiyanın layihələndirilməsi, təchizatı, quraşdırılması və istismara verilməsi üçün podratçı(lar)ı tender prosedurları vasitəsilə seçəcək. Müqavilənin ölçüsünə və layihələndirmə və tikinti işlərinin aparılması üçün tələb olunan təcrübəyə görə tikinti müqavilələrinin beynəlxalq və ya yerli şirkətlərə veriləcəyi və/və ya Azərbaycanın subpodratçıları tərəfindən dəstəklənəcəyi gözlənilir.

Layihə işçi qüvvəsinin xarakterini (əsasən ixtisassız və yarımixtisaslı tikinti işçiləri) və Azərbaycandakı işçi qüvvəsi bazarının xüsusiyyətlərini nəzərə alaraq, qadın işçilərin sayının çox olacağı gözlənilmir. Qadınların işçi qüvvəsinin təxminən 5-10 faizini təşkil edəcəyi təxmin edilir və onlar texniki (mühəndis) və/yaxud əməliyyat ofislərində və düşərgələrdə çalışan işçilər (xidmətçilər, aşpazlar, təmizləyicilər və s.) olacaqlar. “Azərenerji” SC-nin ötürücü şəbəkənin gücləndirilməsinə yönəlmiş davam edən layihələri çərçivəsində təcrübəyə əsasən, bütün işçilərin yaşı 18-dən yuxarı olacaq və ehtimal ki, orta hesabla 25-50 yaşlarında olacaqlar.

Layihəyə cəlb olunacaq layihə işçilərinin dəqiq sayı hələlik məlum deyil. Hazırda “Azərenerji” tərəfindən hava elektrik verilişi xəttinin (HTŞ) və yarımstansiyanın təchizatı, quraşdırılması və istismara verilməsi üzrə tender sənədləri hazırlanır. Tenderin 2024-cü ilin avqustunda elan ediləcəyi təxmin edilir. Tikinti mərhələsinə cəlb olunacaq işçilərin sayının Azərbaycanda və dünyada həyata keçirilən oxşar layihələrdən əldə edilmiş təcrübəyə əsaslanacağı gözlənilir. Yeni elektrik verilişi xəttinin tikintisi üçün işçilərin ümumi sayının 150-200 nəfər, yarımstansiyada isə təxminən 100-150 nəfər olacağı təxmin edilir. Heç bir tikinti sahəsində 150 nəfərdən çox adam gözlənilmir. Əsas tikinti qruplarına aşağıdakılar daxildir:

- Dörd qazma qrupu - Hər briqadada təxminən 10-15 işçinin çalışacağı təxmin edilir. Çox güman ki, işçilərin əksəriyyəti və ya hamısı yerli və regional işçi qüvvəsindən cəlb olunacaq.
- İki dəstək quraşdırma qrupu - Hər bir heyətdə 10 işçinin çalışacağı təxmin edilir. Bunlardan orta hesabla bəzilərinin xarici olması gözlənilir, lakin əksəriyyətinin yerli olması gözlənilir.
- Dörd naqil çəkən komanda - hər ekipajda təxminən 15 işçi çalışacaq. Bunların əsasən yerli vətəndaş olacağı gözlənilir.
- Təmir qrupu – Əvvəlki heyətin işi başa çatan kimi zədələnmiş sahələri bərpa etmək/düzəltmək üçün təxminən 2-3 ekipaj üzvü işə götürüləcək.
- Yarımstansiyanın tikintisi – Tikinti işlərində təxminən 100-150 işçinin məşğul olacağı təxmin edilir. Bu işçilərin təxminən 40%-nin yerli işçilər olacağı gözlənilir.

2.8 Layihə və AZURE Layihəsi ilə əlaqədar obyektlər

Əlaqədar obyektlər Layihənin və ya AZURE Layihəsinin tərkib hissəsi kimi maliyyələşdirilməyən obyekt və ya fəaliyyətlərdir və Dünya Bankının Ekoloji və Sosial Standartlarında göstərildiyi kimi (a) layihə ilə birbaşa və ciddi şəkildə əlaqəlidir; və (b) layihə ilə eyni vaxtda həyata keçirilir və ya həyata keçirilməsi planlaşdırılır; və (c) layihənin həyata keçirilməsi üçün zəruridir və əgər layihə mövcud olmasaydı, tikilməyəcək, genişləndirilməyəcək və ya həyata keçirilməyəcəkdi.

Layihə ilə əlaqəli obyektlər aşağıdakılardır:

- Bankə (315 MVt dəyişən cərəyan) GES – özəl investor (Masdar şirkəti) tərəfindən tikiləcək
- Biləsuvar (445 MVt dəyişən cərəyan) GES – özəl investor (Masdar şirkəti) tərəfindən tikiləcək
- Abşeron (240 MVt) KES – özəl investor (Masdar şirkəti) tərəfindən tikiləcək.
- 500/330/10 kV-luq Nəvahi YS üçün avadanlığın təchizatı və quraşdırılması (Dünya Bankı)
- 330 kV-luq təkdövrəli Mingəçevir SES - Nəvahi YS HX-nin tikintisi - 220 km (Dünya Bankı)
- 500 kV-luq təkdövrəli Azərbaycan İES - Nəvahi YS HX-nin tikintisi - 235 km (Dünya Bankı)

- 330 kV-luq təkdövrəli Qobustan KES - Nəvahi YS HX-nin tikintisi - 60 km (Dünya Bankı)
- 330 kV-luq təkdövrəli Qobustan KES - Qobu ES HX-nin tikintisi - 20 km (Dünya Bankı)
- 330 kV-luq təkdövrəli "Ələt AİZ YS - Nəvahi ys" hava xəttinin tikintisi - 20 km (Dünya Bankı)

Daha öncə qeyd edildiyi kimi, Masdar şirkəti günəş və külək elektrik stansiyalarının layihələndirilməsi, tikintisi, istismara verilməsi və istismarı üçün məsuliyyət daşıyır. Masdar eyni zamanda GES və KES-lərin tikintisi və istismarının ətraf mühitə və sosial sahəyə təsirlərinin qiymətləndirilməsinə cavabdehdir. İlkin layihələndirmə haqqında məlumatlar Masdar tərəfindən 2024-cü ilin martında təqdim edilib. Masdar şirkətinin icra planına əsasən, iki GES 2026-cı ilin aprelinə, KES isə 2026-cı ilin oktyabrına qədər istismara veriləcək.

Masdar tərəfindən verilən ilkin layihələndirmə məlumatlarına əsasən, aşağıdakı şəkillər GES və KES-in (yaşıl dairələr) yerlərini təsvir edir.

Şəkil 2-9: Bankə və Biləsuvar GES-lərin yerləşdiyi yerlər

Şəkil 2-10. Abşeron KES-in yerləşdiyi yer

3. LAYİHƏNİN ALTERNATİVLƏRİ

Yanaşma

Layihə alternativlərin nəzərdən keçirilməsi üçün çərçivə metodologiyasının hazırlanmasını da əhatə edib. Bu çərçivə layihələndirmə prosesini və alternativlərin nəzərdən keçirildiyi və ya nəzərdən keçirilə biləcəyi mərhələləri nümayiş etdirmək üçün hazırlanmışdır. Alternativlər üç mərhələdə nəzərdən keçirilir: strateji alternativlər ("Enerji Sistemi Səviyyəsi"ndə tədqiqatlardan sonra); dəhliz və qovşaq alternativləri (layihənin texniki, ekoloji və sosial məqamları ilə bağlı "Nəzəri Tədqiqat Səviyyəsi" tədqiqatlarından sonra) və nəhayət, trassanın optimallaşdırılması ilə bağlı alternativlər ("ƏMSSTQ və Texniki Tədqiqatlar Səviyyəsi"ndə). İndiyədək "Strateji Alternativlər"in müəyyən edilməsi ilə bağlı işlər görülüb və "Qovşaq və Dəhliz Alternativləri"tamamlanmışdır. ƏMSSTQ tədqiqatlarının nəticələri texniki, ekoloji və sosial məqamları optimallaşdırmaq üçün trassanın layihələndirilməsində istifadə edilmişdir.

Şəkil 3-1: Layihənin alternativlərinin nəzərdən keçirilməsi üçün çərçivə metodologiyası

Skopinq tədqiqatı hava xətlərinin mühafizə olunan ərazilərdə çəkilməsinin qarşısını almaq üçün nəzərdən keçirilməli olan alternativ trassaları təmin edib. Bu trassalar aşağıda təsvir edilmişdir:

- Skopinq tədqiqatı 330 kV-luq ikidövrəli Bankə-Nəvahi HX-nin Şirvan Milli Parkının ortasından, həmçinin Şirvan Milli Parkına bitişik olan Şirvan Dövlət Təbiət Qoruğunun ərazisindən keçməsinin qarşısını aldı və trassanı mühafizə olunan vacib ərazinin hüdudlarından kənara çıxardı (Aşağıda Şəkil 3-2-yə baxın).

Şərti işarə

Mavi-ağ xətt – Şirvan Milli Parkının və Şirvan Dövlət Təbiət Qoruğunun sərhədləri

Sarı xətt – Bankə-Nəvahi hava xəttinin köhnə trassası

Yaşıl xətt - Bankə-Nəvahi hava xəttinin yeni trassası

Bənövşəyi xətt - Biləsuvar-Nəvahi hava xəttinin trassası

Şəkil 3-2: Bankə-Nəvahi HX-nin köhnə və yeni trassası

Alternativ konsepsiya və qoşulma imkanları, o cümlədən "heç bir tədbirin görülməməsi" seçimi nəzərdən keçirilib.

Heç bir tədbirin görülməməsi seçimi

Layihə həyata keçirilməsə, bu, ölkənin enerji sektoru ilə bağlı strategiyanın məqsədlərinə və bərpa olunan enerji mənbələrinə keçid məqsədlərinə mane olacaq. Bu seçim ənənəvi yanacağın köməyi ilə enerji istehsalına daha çox etibar edilməsinə səbəb olacaq. Azərbaycanın 2025-ci il üçün Strateji Baxışının bərpa olunan enerji mənbələrindən əldə edilən elektrik enerjisinin istehsal strukturuna inteqrasiya edilməsi məqsədinə nail olmaq mümkün olmayacaq.

Yer seçimləri

Nəvahi yarımstansiyasının sovet dövründə eyni məqsədlə (yarımstansiyanın tikintisi) “Azərenerji” ASC üçün ayrılmış ərazidə tikilməsi təklif olunur. Yarımstansiyanın mövqeyi ilə bağlı bir neçə variant nəzərdən keçirilmiş və ərazidə qeyri-rəsmi məskunlaşma evinin olmasının nəzərə alınması ilə minimum 30 m təhlükəsizlik məsafəsini saxlamaqla yer seçilmişdir.

Bankə və Biləsuvar GES-lərin və Abşeron KES-in əraziləri Azərbaycan hökuməti adından Energetika Nazirliyi tərəfindən Azərbaycanda günəş və külək enerjisindən istifadənin artırılması imkanlarının inkişafı üçün ayrılmış dövlət torpaq fondundan Masdar şirkəti üçün ayrılıb. Masdar tərəfindən GES-lər və KES üçün hazırlanan ƏMSSTQ sənədlərində ərazinin qiymətləndirilməsi və alternativ seçim prosesinin müzakirə ediləcəyi gözlənilir.

Yenidənqurma və Yeni Tikintinin aparılması Alternativi

Azərbaycan Hökuməti və Masdar şirkəti arasında imzalanmış İnvestisiya Müqavilələri Biləsuvar rayonunda 445 MVt-lıq günəş elektrik stansiyasının, Neftçala rayonunun Bankə qəsəbəsində 315 MVt-lıq GES-in və Abşeron rayonunda 240 MVt-lıq KES-in tikintisini nəzərdə tutur. Neftçala və Biləsuvar rayonlarındakı mövcud 330 kV-luq elektrik verilişi xətləri 50 il əvvəl tikilib, hazırda həddindən artıq yüklənib və əlavə 1000 MVt bərpa olunan enerjini qəbul etmək və ötürmək iqtidarında deyil. Buna görə də, mövcud şəbəkənin yenidən qurulması yeni GES-lərdə və KES-də hasil ediləcək enerjinin ötürülməsi üçün məqsədəuyğun deyil. Əvəzində 500/330 kV-luq yeni Nəvahi yarımstansiyasının tikintisi, günəş və külək elektrik stansiyalarının 500/330 kV-luq birləşdirici/çıxış xətləri ilə elektrik sisteminə qoşulması vacibdir.

4. İNSTİTUSİONAL VƏ HÜQUQİ ÇƏRÇİVƏ

Layihə çərçivəsində Ətraf Mühitə və Sosial Sahəyə Təsirin Qiymətləndirilməsi (ƏMSSTQ) tapşırığı milli normativ-hüquqi sənədlərin, eləcə də Dünya Bankının Ətraf Mühit və Sosial Çərçivəsinin Ətraf Mühit və Sosial Standartlarının tələbləri (ƏMSS-lər) nəzərə alınmaqla aparılır. Bu bölmədə Layihə ilə əlaqəli milli institusional çərçivə, siyasət və qanunvericilik tələbləri, habelə Dünya Bankının Layihə ilə bağlı ƏMSS-ləri əhatə olunur.

Azərbaycan Hökuməti tərəfindən maliyyələşdirilən Layihə üzrə Ətraf Mühitə və Sosial Sahəyə Təsirin Qiymətləndirilməsi (ƏMSSTQ) işi Azərbaycan Respublikasının milli normativ-hüquqi sənədlərinin müvafiq tələbləri nəzərə alınmaqla aparılır və bu qiymətləndirmə çərçivəsində ƏMSSTQ Hesabatı "Azərenerji" ASC-nin cəlb edəcəyi üçüncü məsləhətçi şirkət tərəfindən aparılacaq ekoloji və sosial xarakterli kompleks yoxlamadan (ekoloji və sosial dyu dilicens) keçəcəkdir.

Layihəyə aid hüquq iyerarxiyası Şəkil 4.1-də təsvir edilib.

Şəkil 4.1. Layihəyə aid hüquq iyerarxiyası

4.1 Azərbaycanda institusional çərçivə

Aşağıdakı cədvəldə Layihənin ekoloji və sosial aspektlərinə cavabdehlik daşıyan əsas funksiyalara malik nazirliklər, idarələr və qurumlar verilib.

Cədvəl 4-1: Dövlət səviyyəsində müvafiq qurumların ümumi icmalı

Qurum	Funksiyaları
Ekologiya və Təbii Sərvətlər Nazirliyi (ETSN)	Ətraf mühitin mühafizəsinə nəzarət edən mərkəzi dövlət hakimiyyəti orqanını təmsil edir. 2001-ci il 23 may tarixli 485 nömrəli Fərmanda ETSN ətraf mühitin qorunması, təbii ehtiyatlardan, yeraltı sulardan və mineral ehtiyatlardan səmərəli istifadə edilməsi, hidrometeoroloji proseslərin müşahidəsi, torpaqların münbitliyinin artırılması, bu məqsədlə monitorinq, məlumatların toplanması və xəritələşdirmə prosesinin həyata keçirilməsi kimi ətraf mühitin mühafizəsi sahəsində fəaliyyətləri həyata keçirən mərkəzi icra hakimiyyəti orqanı kimi təyin edilir və onun vəzifə və səlahiyyətlərinə, fəaliyyətinə və təşkilinə dair müddəalar göstərilir.
Energetika Nazirliyi	Energetika Nazirliyi Azərbaycan Respublikasının mədənçıxarma və energetika sənayesində fəaliyyətlərin tənzimlənməsinə cavabdehdir və həm ləğv edilmiş Sənaye və Energetika Nazirliyinin, həm də Yanacaq və Energetika Nazirliyinin funksiyalarını əhatə edir. Nazirlik başda təbii qazın hasilatı, nəqli, emalı, bölüşdürülməsi və təchiz edilməsi; elektrik enerjisinin istehsalı, ötürülməsi, bölüşdürülməsi və tədarükü və enerjiyə qənaət və səmərəlilik olmaqla, enerji sektorunda dövlət siyasətinin və tənzimlənməsinin işlənib hazırlanması və həyata keçirilməsinə cavabdehdir. Bundan əlavə, Nazirlik müvafiq dövlət müəssisələrinə də nəzarət edir. Nazirliyin enerji səmərəliliyi və bərpa olunan enerji siyasətlərinin tətbiqinin artırılmasına cavabdeh olan xüsusi bir şöbəsi var.
Fövqəladə Hallar Nazirliyi (FHN)	FHN mülki müdafiə və əhalinin təbii və texnogen xarakterli fəlakətlərdən qorunmasına cavabdeh olan mərkəzi icra hakimiyyəti orqanıdır.
Səhiyyə Nazirliyi	Səhiyyə Nazirliyi ölkədəki sanitar-epidemioloji vəziyyətə nəzarət edən və iş yerində sağlamlığın qorunmasının tənzimlənməsini həyata keçirən dövlət qurumudur. Səhiyyə Nazirliyi tikintilərə icazə verilməsinə cəlb edilib. O, icazələrin verilməsi prosesində müəyyən rol oynayır.
Tarif (qiymət) Şurası	Bu orqan iqtisadiyyatda dövlət tərəfindən tənzimlənən bütün subyektlərdə enerji qiymətlərinin, xidmət haqlarının və yığımların dövlət tənzimlənməsini həyata keçirən orqandır. Şuraya İqtisadi İnkişaf Nazirliyi rəhbərlik edir və o, 12 üzvdən ibarətdir.

Qurum	Funksiyaları
Azərbaycan Respublikasının Energetika Nazirliyi yanında Bərpa Olunan Enerji Mənbələri Dövlət Agentliyi (BOEMDA)	Agentlik bərpa olunan enerji ehtiyatlarının yaradılması və artırılması üçün dövlət siyasəti, hüquqi aktlar, normativ-hüquqi sənədləri hazırlamaqla və dövlət siyasətini həyata keçirməklə ölkənin bərpa olunan enerji ehtiyatlarının və bununla əlaqəli layihələrin genişləndirilməsinə rəhbərlik edir. Agentliyin statusu Azərbaycan Respublikası Prezidentinin 14 yanvar 2019-cu il tarixli 464 nömrəli Fərmanı ilə dəyişdirilmişdir.
Enerji Məsələlərini Tənzimləmə Agentliyi (EMTA)	Yeni yaradılan (2017-ci ilin dekabr ayı) bu Agentlik kommunal xidmətlərin bazar iqtisadiyyatının tələblərinə uyğunlaşdırılması, nəzarət mexanizmlərini daha da təkmilləşdirməklə dayanıqlı inkişafa nail olunması, enerji təchizatında şəffaflığın və çevikliyin qorunub saxlanılması və bu xidmətlərin sahibkarlar üçün əlçatanlığının təmin edilməsinə cavabdeh olan, Energetika Nazirliyi yanında publik hüquqi şəxsdir.
Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi	Güclənən sosial siyasətin yüksək səviyyədə icrasına və ölkə əhalisinin rifah halının yaxşılaşdırılmasına töhfə verən dövlət strukturu.
Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi	Agentlik, tabeliyindəki dövlət qoruqlarının ərazilərində yerləşən tarixi və mədəniyyət abidələrinin qorunması sahəsində dövlət siyasətini və tənzimləməsini həyata keçirən mərkəzi icra hakimiyyəti orqanıdır. Dövlət xidməti dövlətin mühafizəsi altında olan daşınmaz tarix və mədəniyyət abidələrinin (“İçərişəhər” Dövlət Tarix-Memarlıq və "Qala" Dövlət Tarix-Etnoqrafiya Qoruğundan başqa) istifadəsi, bərpası, rekonstruksiyası və qorunmasına dövlət nəzarətini həyata keçirən icra hakimiyyəti orqanıdır.
Mədəniyyət Nazirliyi (Azərbaycan Res. Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidməti)	Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında mədəniyyətlə bağlı fəaliyyətlərin tənzimlənməsinə və Azərbaycan mədəniyyətinin tanıdılmasına məsul olan dövlət qurumu.

Qurum	Funksiyaları
Dövlət Şəhərsalma və Arxitektura Komitəsi	Komitə dövlət şəhərsalma kadastrını yaradır və saxlayır, ümumi planın və regional yaşayış sxemlərinin, rayon planlaşdırılması üzrə sxem və layihələrin, şəhərlərin və digər yaşayış yerlərinin baş planlarının, yaşayış sahələri və sənaye mərkəzləri ilə bağlı layihələrin, mühəndislik sxemləri və layihələrinin və yaşayış yerlərinin kommunikasiya xətlərinin və layihələrinin hazırlanmasını təmin edir.
İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinin tabeliyində olan "Daşınmaz Əmlakın Dövlət Kadastrı və Reyestri" Publik Hüquqi şəxs (DƏDKR)	Azərbaycan Respublikasında torpaq kadastrı, monitorinq və islahatların həyata keçirilməsinə, torpağın münbitliyinin bərpası və artırılmasına və ərazi vahidlərinin müəyyən edilməsinə cavabdehdir. DTXK-nın Torpaq strukturu, islahatları və regionlarla iş şöbəsi icra hakimiyyəti orqanları ilə torpağın alınması və köçürmə işlərini əlaqələndirir.
Azərbaycan Milli Elmlər Akademiyası, Geologiya İnstitutu	Azərbaycanda əsas dövlət tədqiqat təşkilatıdır və elm və sosial elmlər sahəsində tədqiqat aparan və fəaliyyətləri əlaqələndirən əsas orqandır. Palçıq vulkanları Geologiya İnstitutunda tədqiq edilib.
Şəhər / rayon icra hakimiyyəti orqanları və onların səlahiyyətləri	Şəhər / rayon icra hakimiyyəti orqanları Azərbaycan Respublikası Prezidentinin yerli nümayəndələridir. Onlar öz səlahiyyətləri daxilində bir şəhəri (rayonu) idarə edir, tənzimləyici və normativ xarakterli aktlar qəbul edir, dövlət mülkiyyətində olan torpaqlar üzərində sərəncam verir, onlara həvalə edilən ərazilərin sosial-iqtisadi inkişafı üzrə proqramlar hazırlayır və həyata keçirirlər. Şəhər / rayon icra hakimiyyəti orqanları rayon ərazilərində dövlət mülkiyyətində olan torpaqların yerli səviyyədə idarə edilməsinə və bələdiyyələrə məxsus torpaqların idarə olunmasına nəzarət etməyə görə məsuliyyət daşıyırlar.
Bələdiyyələr	Bələdiyyələr Azərbaycan Respublikasının qanunları ilə müəyyən edilmiş ərazi hüdudları daxilində vətəndaşların fəaliyyətlərinin təşkil edilməsi üçün yerli özünüidarəetmə və qeyri-dövlət sistemi formalarıdır. Bələdiyyələr öz səlahiyyətləri çərçivəsində sosial müdafiə və sosial inkişaf proqramları, iqtisadi inkişaf və yerli ekoloji proqramlar hazırlayır və həyata keçirir.

Cədvəl 4-2: Müvafiq dövlət enerji müəssisələrinə ümumi baxış

Qurum	Əsas funksiyaları
"Azərenerji" ASC - Elektrik enerjisinin istehsalı və ötürülməsi	Elektrik enerjisinin istehsalı və ötürülməsi. Layihənin təfərrüatlarının və icra prosesinin müəyyənləşdirilməsi məqsədilə Şirkətlə müzakirələr davam edir.
"Azərişıq" ASC - Elektrik enerjisinin paylanması və təchizatı	Elektrik enerjisinin paylanması və təchizatı.
Naxçıvan Muxtar Respublikası Dövlət Energetika Agentliyi	Azərbaycanın Naxçıvan Muxtar Respublikasının ərazisində elektrik enerjisinin istehsalı, ötürülməsi, təchizatı və paylanması (Türkiyə və İranla regional enerji mübadiləsi).
"Azalternativenerji" MMC	Alternativ və Bərpa Olunan Enerji Mənbələri üzrə Dövlət Agentliyinin strukturunda tamamilə dövlətə məxsus olan bu şirkət bərpa olunan enerji layihələrini həyata keçirmək, alternativ və bərpa olunan enerjidən elektrik enerjisi istehsal etmək, ötürmək və paylamaq və həm hökumətə, həm də özəl sektora tikinti və mühəndislik xidməti göstərmək məqsədi daşıyır.

4.2 Siyasət və hüquqi çərçivə

Ətraf mühitin qiymətləndirilməsi prosesi Azərbaycan Respublikasının Prezidentinin 13 iyul 2018-ci il tarixli 193 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Ətraf mühitə təsirin qiymətləndirilməsi haqqında" (ƏMTQ) Azərbaycan Respublikasının Qanunu ilə tənzimlənir.

Bu Qanuna əsasən, planlaşdırılan fəaliyyətin ETSN-in Dövlət Ekoloji Ekspertiza Agentliyi ilə əlaqələndirilməsi üçün ƏMTQ hesabatının işlənib hazırlanması və ETSN-nin nümayəndələrinə təqdim edilməsi vacibdir. "Ətraf mühitə təsirin qiymətləndirilməsi haqqında" Qanunun məqsədi dövlət və özəl layihələrin, yaxud planlaşdırılan fəaliyyət növlərinin ətraf mühitə təsirinin qiymətləndirilməsi mexanizminin fəaliyyəti üçün hüquqi əsas yaradaraq, ətraf mühitə və ictimai səhiyyəyə mənfi təsirlərin ən erkən mərhələlərdə qarşısının alınması, yaxud azaldılmasını təmin etməkdir. ƏMTQ hesabatının işlənib hazırlanması icbari xarakter daşıyır.

Bu Qanunun müddəalarına uyğun olaraq, ƏMTQ aşağıdakı prinsiplər əsasında həyata keçirilir: nəzərdə tutulan fəaliyyətin ətraf mühitə və insan sağlamlığına təsirinin ekoloji, sosial və iqtisadi baxımdan kompleks şəkildə qiymətləndirilməsi; nəzərdə tutulan fəaliyyətin ekoloji təhlükəsizliyi barədə məlumatların tamlığının, şəffaflığının və etibarlılığının təmin edilməsi; ekoloji tarazlığın və biomüxtəlifliyin qorunması; nəzərdə tutulan fəaliyyətin ətraf mühitə təsirlərinin məqbul standartları aşmaması; mümkün ekoloji nəticələrin əvvəlcədən proqnozlaşdırılması və ekoloji risklərin səviyyəsinin qiymətləndirilməsi; ƏMTQ-də şəffaflığın təmin edilməsi, ictimaiyyətin məlumatlandırılması və ictimai rəyin nəzərə alınması.

ƏMTQ hesabatı xüsusilə, aşağıdakıları ehtiva etməlidir:

- Ekoloji və sosial-iqtisadi mühitin ilkin və gözlənilən vəziyyətinin qiymətləndirilməsi.
- Obyektlərin tikintisi, rekonstruksiyası və istismarının ekoloji təsirlərinin müəyyənləşdirilməsi.

- Ekoloji təsirlərin azaldılması və yüngülləşdirilməsi məqsədilə tədbirlər sistemini özündə birləşdirən Ətraf Mühitin İdarə Edilməsi Planı.
- Ekoloji tədbirlərin səmərəliliyini təmin edən Ətraf Mühitin Monitorinqi üzrə Plan.

4.2.1 Layihənin məqsədləri üzrə müvafiq qanunlar

Aşağıdakı cədvəldə yuxarıda təsvir olunan "Ətraf mühitə təsirin qiymətləndirilməsi haqqında" Qanuna əlavə olaraq, Layihənin məqsədlərinə uyğun olan ətraf mühitlə bağlı əsas qanunların icmalı təqdim edilir.

Cədvəl 4-3: Layihəyə uyğun olan və onu tənzimləyən əsas Qanunlar[2]

Qanunun adı	*İl*	*Təsviri*
Əsas ekoloji qanunvericilik		
"Ətraf mühitə təsirin qiymətləndirilməsi haqqında" Azərbaycan Respublikasının 1175-VQ nömrəli Qanunu	2018-ci il	Azərbaycanda ətraf mühitə təsirin qiymətləndirilməsi prosesi üçün hüquqi əsasları müəyyən edir və ƏMTQ-nin məqsədlərini və prinsiplərini müəyyənləşdirir. Qanunda həmçinin ətraf mühitə təsirin qiymətləndirilməsi tələb olunan fəaliyyət növlərinin siyahısı verilir, onun hazırlanması, təsdiqlənməsi və bildirilməsinə cəlb olunan bütün tərəflərin hüquq və vəzifələri müəyyənləşdirilir.
678-IQ nömrəli "Ətraf mühitin mühafizəsi haqqında" Azərbaycan Respublikasının Qanunu	1999-cu il (sonuncu dəyişiklik 2014-cü ildə edilib)	Bu Qanun ətraf mühitin mühafizəsinin hüquqi, iqtisadi və sosial əsaslarını müəyyən edir. Qanunun məqsədi ətraf mühitin ekoloji tarazlığının mühafizəsi sahəsində ekoloji təhlükəsizliyin təmin edilməsindən, təbii ekoloji sistemlərə təsərrüfat və başqa fəaliyyətin zərərli təsirinin qarşısının alınmasından, bioloji müxtəlifliyin qorunub saxlanılmasından və təbabətdən istifadənin səmərəli təşkilindən ibarətdir. Bu Qanun ətraf mühitin keyfiyyətinin yaxşılaşdırılması, təbii ehtiyatların səmərəli istifadəsi və bərpası, ətraf mühitin mühafizəsi sahəsində qanunçuluğun və hüquq qaydalarının möhkəmləndirilməsi məqsədilə cəmiyyətlə təbiətin qarşılıqlı əlaqəsini tənzimləyir.
425 nömrəli "Ətraf mühitə təsirin qiymətləndirilməsi və strateji ekoloji qiymətləndirmə sahəsində nəzarətin həyata	2 oktyabr 2019-cu il	Bu Qayda "Ətraf mühitə təsirin qiymətləndirilməsi haqqında" Azərbaycan Respublikası Qanununun 17.1-ci maddəsinə əsasən hazırlanmışdır və ətraf mühitə təsirin

[2] *Məlumat mənbələri:*
- http://www.aera.gov.az/en/legal-acts/laws
- "Bərpa olunan enerji mənbələrindən istifadəyə hazırlığın qiymətləndirilməsi: Azərbaycan Respublikası" (IRENA, 2019);
- "FAOLEX" məlumat bazası :http://www.fao.org/faolex/country-profiles/general-profile/en/?iso3=AZE

Qanunun adı	İl	Təsviri
keçirilməsi Qaydası”nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı		qiymətləndirilməsi və strateji ekoloji qiymətləndirmə sahəsində nəzarətin həyata keçirilməsi qaydasını müəyyən edir.
457 nömrəli “Ətraf mühitə təsirin qiymətləndirilməsi üzrə qiymətləndiricilərin ixtisas attestatının forması və attestatın verilməsi, qüvvədəolma müddətinin dayandırılması və ya onun ləğv edilməsi, eləcə də ətraf mühitə təsirin qiymətləndirilməsi üzrə qiymətləndiricilərin və ətraf mühitə təsirin qiymətləndirilməsi üzrə təşkilatların reyestrinin aparılması və onların fəaliyyətinə nəzarətin həyata keçirilməsi Qaydası” haqqında NK-nın qərarı	27 noyabr 2019	Bu Qayda “Ətraf mühitə təsirin qiymətləndirilməsi haqqında” Azərbaycan Respublikası Qanununun 4.15-ci maddəsinə əsasən hazırlanmışdır və ətraf mühitə təsirin qiymətləndirilməsi üzrə qiymətləndiricilərin ixtisas attestatının formasını və attestatın verilməsi, qüvvədəolma müddətinin dayandırılması və ya onun ləğv edilməsi, eləcə də ƏMTQ üzrə qiymətləndiricilərin və ətraf mühitə təsirin qiymətləndirilməsi üzrə təşkilatların reyestrinin aparılması və onların fəaliyyətinə nəzarətin həyata keçirilməsi qaydasını müəyyən edir.
362 nömrəli “Ətraf mühitə təsirin, o cümlədən transsərhəd təsirin qiymətləndirilməsinin aparılması Qaydası və müddəti” haqqında NK-nın qərarı	21 sentyabr 2022	Bu Qayda “Ətraf mühitə təsirin qiymətləndirilməsi haqqında” Azərbaycan Respublikası Qanununun 4.2-ci maddəsinə əsasən hazırlanmışdır və ətraf mühitə təsirin, o cümlədən transsərhəd təsirin qiymətləndirilməsinin aparılması qaydasını və müddətini müəyyən edir. Qaysa “Ətraf mühitə təsirin qiymətləndirilməsi haqqında”, “Ətraf mühitin mühafizəsi haqqında”, “Ekoloji təhlükəsizlik haqqında”, “İnzibati icraat haqqında” və “İctimai iştirakçılıq haqqında” Azərbaycan Respublikasının qanunlarına, Azərbaycan Respublikasının mülki, şəhərsalma və tikinti qanunvericiliyinin və bu sahədə yaranan münasibətləri tənzimləyən digər normativ hüquqi aktların, həmçinin Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrin tələblərinə və bu Qaydaya uyğun olaraq tənzimlənir. ƏMTQ üzrə fəaliyyətə ümumi nəzarəti ETSN, transsərhəd təsirin qiymətləndirilməsi üzrə fəaliyyətə nəzarəti isə Nazirlik Azərbaycan

Qanunun adı	İl	Təsviri
		Respublikasının Xarici İşlər Nazirliyi ilə əlaqələndirməklə həyata keçirir.
677-IQ nömrəli "Ekoloji təhlükəsizlik haqqında" Azərbaycan Respublikasının Qanuu	1999-cu il (sonuncu dəyişiklik 2013-cü ildə edilib)	Bu Qanunun əsas məqsədi insanın həyatını və sağlamlığını, ətraf mühiti, o cümlədən atmosfer havası, su obyektləri, yerin təki, torpaq, bitki və heyvanlar aləmini təbii və antropogen amillərin təsiri nəticəsində yaranan təhlükələrdən qorumaq üçün hüquqi əsasları müəyyən etməkdir.
675-IQ nömrəli "Heyvanlar aləmi haqqında" Azərbaycan Respublikasının Qanunu	1999-cu il (sonuncu dəyişiklik 2015-ci ildə edilib)	Bu Qanun bütün növ vəhşi heyvanların mühafizəsinin və onlardan səmərəli istifadənin təmin edilməsi məqsədilə Azərbaycan Respublikasında heyvanlar aləminin qorunmasının hüquqi əsaslarını müəyyən edir. Qanunda dövlət inventarlaşdırması və monitorinqin aparılması məsələləri, iqtisadi və cəza tədbirləri də nəzərdə tutulur.
957-IVQ nömrəli "Yaşıllıqların mühafizəsi haqqında" Azərbaycan Respublikasının Qanunu	2014-cü il	Bu Qanun yaşıllıqları (ağac, kol, gül-çiçək, ot bitkiləri və onların əkin materialları) və yaşıllıq əraziləri mühafizə etmək məqsədi daşıyır, həmçinin bu sahədə dövlət orqanlarının, bələdiyyələrin, hüquqi və fiziki şəxslərin hüquq və vəzifələrini müəyyən edir.
840-IQ nömrəli "Xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri haqqında" Az. Res. Qanunu	2000-ci il (sonuncu dəyişiklik 2015-ci ildə edilib)	Bu Qanun Azərbaycan Respublikasının ərazisində xüsusi mühafizə olunan təbiət ərazilərinin təşkilinin və mühafizəsinin, xüsusi mühafizə olunan təbiət obyektlərinin qorunmasının hüquqi əsaslarını müəyyən edir.
540-IQ nömrəli "Xüsusi mühafizə olunan təbiət əraziləri haqqında" Azərbaycan Respublikasının Qanunu	2000-ci il (sonuncu dəyişiklik 2006-cı ildə edilib)	Bu Qanun aşağıdakı əsas məqsədlər əsasında, mühafizə olunan ərazilərin təşkili, mühafizəsi və idarə edilməsinin hüquqi əsaslarını müəyyən edir: 1)bioloji müxtəlifliyin və ekosistemin qorunması; 2)xüsusi mühafizə olunan təbiət ərazilərinin elmi tədqiqat, mədəniyyət və təhsil məqsədləri üçün istifadəsi; 3)rekreasiya məqsədləri üçün istifadə; 4)beynəlxalq əməkdaşlıq (maddə 3).
109-IIQ nömrəli "Atmosfer havasının mühafizəsi haqqında" Azərbaycan Respublikasının Qanunu	2001-ci il	Bu Qanun atmosfer havasının mühafizəsinin hüquqi əsaslarını müəyyən etməklə əhalinin əlverişli ətraf mühitdə yaşamasına və ətraf mühit barədə dəqiq məlumat almasına dair hüquqlarını həyata keçirməyə yönəldilmişdir. Qanun iqtisadi fəaliyyətlər zamanı atmosfer havasının mühafizəsi üçün ümumi tələbləri müəyyən edir, atmosfer havasına fiziki və kimyəvi təsirlərin yüngülləşdirilməsi normalarını və zərərli emissiyaların və onların

Qanunun adı	İl	Təsviri
		mənbələrinin dövlət inventarlaşdırılması qaydalarını müəyyən edir.
418-IQ nömrəli Azərbaycan Respublikasının "Su Məcəlləsi"	1997-ci il (sonuncu dəyişiklik 2015-ci ildə edilib)	Bu Məcəllə Azərbaycan Respublikasında su obyektlərinin mühafizəsi və istifadəsi ilə bağlı hüquq münasibətlərini tənzimləyir, bu obyektlər üzərində mülkiyyət hüquqlarını müəyyən edir və inventarlaşdırma və monitorinq məsələlərini əhatə edir.
514-IQ nömrəli "Tullantılar haqqında" Azərbaycan Respublikasının Qanunu	1998-ci il (sonuncu dəyişiklik 2012-ci ildə edilib)	Bu Qanun zərərli qazlar, çirkab suları və radioaktiv tullantılar da daxil olmaqla, ətraf mühitin istehsalat və məişət tullantılarından mühafizəsi sahəsində dövlət siyasətini müəyyən edir. Qanun dövlətin və digər subyektlərin hüquq və öhdəliklərini müəyyən edir, tullantıların emalı qurğularının layihələndirilməsi və tikintisinə dair tələbləri, tullantıların əmələ gəlməsi, saxlanması və daşınması (o cümlədən, sərhədlərarası daşınması) fəaliyyətlərinin lisenziyalaşdırılması qaydalarını müəyyənləşdirir və sənaye müəssisələrini tullantıların yaranmasını azaldan texnologiyaları tətbiq etməyə təşviq edir.
270-IIQ nömrəli "Ətraf mühitə dair informasiya almaq haqqında" Az.Res. Qanunu	2002-ci il (sonuncu dəyişiklik 2016-cı ildə edilib)	Bu Qanun ətraf mühitin vəziyyətinə və təbii ehtiyatlardan istifadəyə dair dövlət hakimiyyəti və yerli özünüidarəetmə orqanlarından, həmçinin məsul şəxslərdən tam, dəqiq, vaxtında informasiya almaqla bağlı yaranan münasibətləri tənzimləyir.
Səhiyyə, sosial, mədəni və iqtisadi sahələr üzrə əsas qanunvericilik aktları		
360-IQ nömrəli "Əhalinin sağlamlığının qorunması haqqında" Az.Res. Qanunu	1997-ci il (sonuncu dəyişiklik 2020-ci il tarixli 71-VIQD nömrəli Az.Res. Qanunu ilə edilib)	Bu Qanun Azərbaycanda ictimai səhiyyənin əsaslarını və səhiyyə sisteminin əsas prinsiplərini müəyyən edir.
423 nömrəli "Əhalinin radiasiya təhlükəsizliyi haqqında" Az.Res. Qanunu	1998-ci il (sonuncu dəyişiklik 2020-ci il tarixli, 1592-VQD nömrəli Qanunla edilib)	Bu Qanun sənaye müəssisələrində radiasiya təhlükəsizliyi qaydalarına əməl edilməsini tələb edir. Qanun radiasiya təhlükəsizliyi sahəsində dövlət siyasətinin əsas prinsiplərini, habelə radioaktiv ehtiyatlardan istifadə nəticəsində potensial təsirlərə məruz qalan ərazilərdə işçilərin və əhalinin təhlükəsizliyini təmin edən ekoloji standartları müəyyən edir.
470-IQ nömrəli "Tarix və mədəniyyət abidələrinin qorunması haqqında" Az.Res. Qanunu	1998-ci il (sonuncu dəyişiklik 2020-ci il tarixli, 1054 nömrəli Fərmanla edilib)	Bu Qanun Azərbaycanda tarix və mədəniyyət abidələrinin qorunması, öyrənilməsi və istifadəsi ilə bağlı hüquqi əsasları müəyyənləşdirir.

Qanunun adı	İl	Təsviri
1196-VQ nömrəli "Məşğulluq haqqında" Az.Res. Qanunu	2018-cil il (sonuncu dəyişiklik 2019-cu ildə edilib)	Bu Qanun məşğulluğa kömək sahəsində dövlət siyasətinin hüquqi, iqtisadi və təşkilati əsaslarını, eləcə də işaxtaran və işsiz şəxslərin sosial müdafiəsi sahəsində dövlət təminatlarını müəyyən edir.
765-VQ nömrəli "İşsizlikdən sığorta haqqında" Azərbaycan Respublikasının Qanunu	2017-ci il (son dəyişiklik 2018-ci ildə edilib)	Bu Qanun Azərbaycanın əmək bazarında qarşılıqlı münasibətlərin, sığorta olunmuş vətəndaşların itirilmiş əmək haqlarının maliyyələşdirilməsi üçün yeni mexanizmlərin yaradılmasının, onlara kompensasiya ödənilməsinin və əhalinin sosial müdafiəsinin gücləndirilməsinin əsas prinsiplərini müəyyənləşdirir.
Azərbaycan Respublikasının Əmək Məcəlləsi (618-IQ nömrəli)	1 fevral 1999-cu il	Əmək Məcəlləsi müvafiq hüquqi normalar vasitəsilə işçilərin və işəgötürənlərin əmək, sosial, iqtisadi hüquqlarını, habelə işləmək, istirahət etmək və təhlükəsiz və sağlam şəraitdə işləmək hüququnun təmin edilməsi və Azərbaycan Respublikasının vətəndaşlarının digər əsas hüquq və azadlıqlarının təmin edilməsi prinsipləri və qaydalarını müəyyən edir.
"Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında" Az.Res. Qanunu	10 oktyabr 2006-cı il	Qanunun məqsədi cinsi mənsubiyyətə görə ayrı-seçkiliyin bütün formalarının aradan qaldırılması və ictimai həyatın siyasi, iqtisadi, sosial və mədəni sahələrində gender bərabərliyinin təmin edilməsindən ibarətdir. Qadın və kişilərin bütün insan hüquqları təmin edilir.
Torpaq və yerquruluşuna dair əsas qanunvericilik aktları		
Azərbaycan Respublikasının Konstitusiyası	1995-ci ildə qəbul edilmişdir	Vətəndaşların əmlaka sahib olmaq, ondan istifadə etmək və barəsində sərəncam vermək hüququnu tanıyır. Konstitusiya həmçinin, Azərbaycanda üç mülkiyyət növünü - dövlət mülkiyyəti, bələdiyyə mülkiyyəti və xüsusi mülkiyyəti tanıyır (Maddə 13). Konstitusiya heç kəsin öz razılığı, yaxud məhkəmə qərarı olmadan mülkiyyətindən məhrum edilməyəcəyinə və dövlət ehtiyacları üçün xüsusi mülkiyyətin özgəninkiləşdirilməsinə mülkiyyətçiyə yalnız qabaqcadan onun dəyərini ədalətli ödəmək şərti ilə yol veriləcəyinə təminat verir (Maddə 29). Maddə 29-la bağlı 26 sentyabr 2016-cı il tarixində qəbul edilmiş konstitusiya dəyişikliyində göstərilir ki, (i)xüsusi mülkiyyət sosial öhdəliklərə səbəb olur və (ii)sosial ədalət və

Qanunun adı	İl	Təsviri
		torpaqlardan səmərəli istifadə məqsədi ilə torpaq üzərində mülkiyyət hüququ qanunla məhdudlaşdırıla bilər.
25 iyun tarixli, 695-IQ nömrəli Torpaq Məcəlləsi	1999-cu il (son dəyişiklik 2019-cu ildə edilib)	Azərbaycan Respublikasının Torpaq Məcəlləsi torpaq münasibətlərinin tənzimlənməsinə, torpaq mülkiyyətçiləri, istifadəçiləri və icarəçilərinin torpaqla bağlı vəzifələrinin yerinə yetirilməsinə və torpaq üzərində hüquqlarının müdafiəsinə, torpaqlardan səmərəli istifadə və onların mühafizəsi üçün şərait yaradılmasına, torpağın münbitliyinin bərpasına və artırılmasına yönəlmişdir. Məcəllənin 101-ci maddəsində göstərilir ki, torpaq sahələrinin alınması (məcburi satın alınması) və ya müvəqqəti tutulması, habelə torpaq mülkiyyətçilərinin, istifadəçilərinin və icarəçilərinin hüquqlarının məhdudlaşdırılması, yaxud hüquqi və fiziki şəxslərin fəaliyyətinin təsiri ilə torpaqların keyfiyyətinin pisləşməsi nəticəsində dəymiş bütün zərərlər və əldən çıxmış gəlir bu itkilərə məruz qalmış torpaq mülkiyyətçilərinə, istifadəçilərinə və icarəçilərinə tam həcmdə ödənilməlidir. Bundan əlavə, üçüncü tərəflər qarşısında daşıdığı öhdəliklərə vaxtından əvvəl xitam verilməsi ilə əlaqədar düşdüyü xərclər də zərərçəkmiş şəxsə ödənilməlidir. Zərərin ödənilməsi ilə əlaqədar mübahisələrə qanunvericilikdə müəyyən edilmiş qaydada müvafiq məhkəmədə baxılır.
Mülki Məcəllə	1999-cu ildə qəbul edilib	Məcəllənin 246, 247, 248 və 249-cu maddələri torpaqların dövlət ehtiyacları üçün alınmasını tənzimləyir. Məcəllə torpaqların dövlət ehtiyacları üçün alınması haqqında müvafiq icra hakimiyyəti orqanının qərarının daşınmaz əmlakın dövlət reyestrində qeydə alınmasını tələb edir. Məcəllədə həmçinin, qeyd edilir ki, müvafiq icra hakimiyyəti orqanı a)torpaqların alınmasının təsirinə məruz qalan bütün şəxslərə bu barədə rəsmi bildiriş göndərməli; b)əməliyyat müqaviləsi bağlandıqdan sonra 90 gün ərzində təsirə məruz qalmış şəxslərə tam kompensasiya ödəməli; c) köçürülmüş insanlara kömək etməli və d) təsirə məruz qalan aktivlər üçün bazar qiyməti üzrə kompensasiya ödəməlidir (bazar qiymətini müəyyən etmək mümkün olmadıqda, əvəzedici qiymətlərdən istifadə olunur).

Qanunun adı	*İl*	*Təsviri*
"Torpaqların dövlət ehtiyacları üçün alınması haqqında" Azərbaycan Respublikasının Qanunu	Aprel, 2010-cu il	Qanun xüsusilə məcburi köçürmə (MK) ilə bağlı məsələləri, o cümlədən torpaqların alınması prosesini və institusional tənzimləməni, kompensasiya və qiymətləndirməni, məsləhətləşmə tələblərini, müxtəlif kateqoriyadan olan köçkünlərin hüquqlarını və şikayət mexanizmlərini əhatə edir. Qanun müxtəlif kateqoriyadan olan köçkünləri, o cümlədən dövlət qeydiyyatı olmayanları, icarədarları, torpaqdan qeyri-formal şəkildə uzunmüddət istifadə edənləri və yaşadığı torpaq üzərində hüquqi ixtiyarı olmayan şəxsləri əhatə edir. Qanun torpaq üzərində heç bir qanuni hüququ olmayan şəxslərə köçürülmə dəstəyi və qeyri-torpaq aktivləri üçün kompensasiya əldə etmək hüququ verir. Buraya biznes/gəlir itkisi üçün kompensasiya, köçürülmə müavinəti və nəqliyyat dəstəyi və itirilmiş aktivlər üçün əvəzetmə dəyəri əsasında kompensasiya daxildir. "Torpaqların dövlət ehtiyacları üçün alınması haqqında" Qanuna uyğun olaraq, fiziki yerdəyişmə halında alan orqan köçürülmədən ən azı 60 gün əvvəl alınmanın təsirinə məruz qalan şəxslərə (köçürülən şəxslərə) bildiriş göndərməlidir.
"Torpaqların dövlət ehtiyacları üçün alınması haqqında" Az.*Res.* Qanunu barədə Fərman	2011	Bu Fərmanda "Torpaqların dövlət ehtiyacları üçün alınması haqqında" qanunun həyata keçirilməsi üçün əlavə müddəalar nəzərdə tutulur. Bu Fərmana əsasən, müvafiq icra hakimiyyəti orqanının səlahiyyətində olan hər bir məsələnin həll edilməsi üçün dövlət qurumları da təyin edilir.
665-IQ nömrəli "Torpaq bazarı haqqında" Azərbaycan Respublikasının Qanunu	1999-cu il (sonuncu dəyişiklik 2018-ci il tarixli 1287-VQD nömrəli Qanun ilə edilib)	Bu Qanun Azərbaycan Respublikasında torpaq bazarı münasibətlərinin ümumi qaydalarını müəyyənləşdirir və torpaq üzərində mülkiyyət hüquqlarının müdafiəsini təmin edir.
593-IQ nömrəli "Dövlət torpaq kadastrı, torpaqların monitorinqi və yerquruluşu haqqında" Azərbaycan Respublikasının Qanunu	22 dekabr *1998-ci il. 31 may 2018-ci il tarixli, 1156-VQD nömrəli qanunla dəyişiklik edilib.*	Bu Qanun Azərbaycan Respublikasında dövlət torpaq kadastrı, torpaqların monitorinqi və yerquruluşu işlərinin nizama salınmasının hüquqi əsaslarını müəyyən edir.

Qanunun adı	İl	Təsviri
11 dekabr tarixli 587-IQ nömrəli "Torpaq icarəsi haqqında" Azərbaycan Respublikasının Qanunu	Qanuna sonuncu dəyişiklik Azərbaycan Respublikasının Prezidentinin fərmanı ilə qəbul edilən 31 may 2018-ci il tarixli, 1156-VQD nömrəli qanunla edilib.	Bu Qanun Azərbaycan Respublikasında dövlət, bələdiyyə və xüsusi mülkiyyətdə olan torpaqların icarəyə verilməsinin və icarə münasibətlərinin hüquqi əsaslarını müəyyən edir. Qanunun 16-cı maddəsində bildirilir ki, "torpaq dövlət ehtiyacları üçün alındıqda, onun əvəzində icarəçiyə eyni ölçüdə və keyfiyyətdə başqa torpaq verilə bilər". Bu torpağa dəyən zərər qanunvericiliklə müəyyən olunmuş qaydada ödənilməlidir.
160-IIQ nömrəli "Bələdiyyə torpaqlarının idarə edilməsi haqqında" Azərbaycan Respublikasının Qanunu	29 iyun 2001-ci il. Qanuna sonuncu dəyişiklik Azərbaycan Respublikasının Prezidentinin 19 iyun 2020-ci il tarixli, 138-VIQD nömrəli Fərmanı ilə edilib.	Bu Qanun bələdiyyə torpaqlarının idarə edilməsi xüsusiyyətlərini nəzərə almaqla onların mülkiyyətə, istifadəyə və icarəyə verilməsinin ümumi qaydalarını, həmçinin istifadəsi və mühafizəsi sahəsində hüquq münasibətlərini tənzimləyir.
Nazirlər Kabinetinin 45 nömrəli Qərarı	2012-ci il	"Köçürülmə planı və köçürülmə təlimatının hazırlanması Qaydası"nın təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Nazirlər Kabinetinin Qərarı
Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 10 nömrəli Qərarı ilə təsdiq edilmiş "Torpaqların kateqoriyalara aid edilməsi və onların bir kateqoriyadan digərinə keçirilməsi Qaydaları"	2017-ci il	Kənd təsərrüfatı təyinatlı torpaqlar (əkin sahələri) xüsusi formada qorunur və onların qeyri-kənd təsərrüfatı məqsədilə digər kateqoriyalara keçirilməsinə müstəsna hallarda Azərbaycan Respublikasının Torpaq Məcəlləsinə uyğun olaraq və "Torpaqların kateqoriyalara aid edilməsi və onların bir kateqoriyadan digərinə keçirilməsi Qaydaları"nın tələbləri əsasında icazə verilir.
Azərbaycan Respublikasının "Yerin təki haqqında" Qanunu №439-IQ	1998-ci il	Xəzər dənizinin Azərbaycan sektorunun təkini daxil etməklə yeraltı ehtiyatların işlənilməsi, səmərəli istifadəsi, təhlükəsizliyi və mühafizəsini tənzimləyir. Qanunda istifadəçilərin əsas mülkiyyət hüquqları və vəzifələri ifadə olunur. Ətraf mühitin mühafizəsinə dair mülahizələrə, ictimai səhiyyə və iqtisadi maraqlara əsasən mineral ehtiyatlardan istifadəyə müəyyən məhdudiyyətlər qoyulur.
Azərbaycan Respublikasının "Ətraf mühitə dair informasiya	2002-ci il	Ətraf mühitə dair informasiyanın təsnifatlaşdırılmasını müəyyənləşdirir. İnformasiya açıq-aydın şəkildə "məhdud

Qanunun adı	İl	Təsviri
almaq haqqında” Qanunu №270-IIQ		istifadə üçün” təsnif olunmadığı təqdirdə ictimaiyyət ondan istifadə edə bilər. Məhdudiyyətlərin tətbiq olunmasına dair prosedurlar təsvir olunmuşdur. Qanunun məqsədi Orhus Konvensiyasının (Azərbaycan tərəfindən 1999-cu ildə ratifikasiya olunmuşdur) müddəalarını Azərbaycan qanunlarında əks etdirməkdir.
Enerji sektoru ilə əlaqəli əsas qanunlar		
94-IQ nömrəli "Enerji resurslarından istifadə haqqında" Azərbaycan Respublikasının Qanunu	1996-cı il	"Enerji resurslarından istifadə haqqında" Qanun enerji ehtiyatlarından istifadə sahəsində dövlət siyasətinin hüquqi, iqtisadi və sosial əsaslarını, habelə onun həyata keçirilmə mexanizminin əsas istiqamətlərini müəyyən edir. Qanun enerjidən istifadə edən qurğuların, obyektlərin və s.-in sertifikatlaşdırılması və standartlaşdırılması haqqında müddəaları əks etdirir.
541-IQ nömrəli "Energetika haqqında" Azərbaycan Respublikasının Qanunu	1998-ci il	Bu Qanun bütün energetika materiallarının və məhsullarının (o cümlədən, qaz) kəşfiyyatı, işlənməsi, hasilatı, emalı, saxlanılması, nəqli, paylanması və istifadəsi üzrə fəaliyyətin tənzimlənməsini əhatə edir.
858-VIQ nömrəli "Elektroenergetika haqqında" Azərbaycan Respublikasının Qanunu	2023-cü il	"Elektroenergetika haqqında" Qanun elektrik və istilik enerjisinin istehsalı, ötürülməsi, paylanması və satışı üçün hüquqi əsasları təmin edir. O, əsasən enerji ehtiyatlarından səmərəli istifadənin, eləcə də ətraf mühitin mühafizəsinin təmin edilməsi məqsədi daşıyır. Qanun Energetika Nazirliyini elektrik enerjisinin istehsalı, ötürülməsi, paylanması, satışı və idxalı-ixracı üzrə fəaliyyətin lisenziyalaşdırılması və tənzimlənməsi üçün məsul orqan kimi təyin edir.
784-IQ nömrəli "Elektrik və istilik stansiyaları haqqında" Azərbaycan Respublikasının Qanunu	2000-ci il(sonuncu dəyişiklik 2019-cu ildə edilib)	Bu qanun müstəqil elektrik stansiyaları da daxil olmaqla, elektrik stansiyalarının layihələndirilməsi, tikintisi və istismarının hüquqi əsaslarını müəyyən edir. İstənilən fiziki və ya hüquqi şəxs elektrik stansiyalarının tikintisi, yenidən qurulması və istismarı hüququna malikdir, “sənaye elektrik stansiyaları” (yəni kiçik elektrik stansiyaları istisna olmaqla) ilə bağlı fəaliyyət isə Energetika Nazirliyi tərəfindən lisenziyalaşdırılmalıdır. Qanun, həmçinin bu cür lisenziyalı obyektlərin şəbəkələrə ardıcıl

Qanunun adı	İl	Təsviri
		surətdə daxil olması və qoşulması qaydalarını və şərtlərini nəzərdə tutur.

Cədvəl 4-4: Azərbaycanda ƏMTQ prosesi və icbari tələblər haqqında xülasə

ƏMTQ üçün əhatə dairəsinin müəyyənləşdirilməsi və tələblər	
ƏMTQ tətbiq olunan fəaliyyətlər	Ətraf mühitə təsirin qiymətləndirilməsi tələb olunan fəaliyyət növlərinin siyahısı ƏMTQ haqqında qanuna əlavədə müəyyənləşdirilib. Bu fəaliyyət növlərinin siyahısına "gücü 300 MVt və daha çox olan istilik elektrik stansiyalarının, eləcə də gücü 220 kilovoltdan, uzunluğu 15 km-dən çox olan yüksək gərginlikli elektrik xətlərinin layihələndirilməsi" də daxildir.
Əhatə dairəsinin müəyyənləşdirilməsi	Sifarişçidən (sənədi hazırlayan tərəfdən) tələb olunur ki, nəzərdə tutulan fəaliyyətə dair ƏMTQ-ni müvafiq səlahiyyətli orqanla (ETSN-nin DEEA) ilkin məsləhətləşmələrdən sonra nəzərdə tutulan fəaliyyətin layihələndirmə mərhələsində həyata keçirsin. İlkin məsləhətləşmələrdə qiymətləndirmənin məzmununun, həcminin və metodlarının əvvəlcədən müəyyənləşdirilməsi, ƏMTQ sənədində əks olunacaq məlumatların dolğunluğu və düzgünlüyünün təmin edilməsi tələb olunur.
ƏMTQ hesabatı	
Ümumi	Qanunvericiliyin tələbinə uyğun olaraq ƏMTQ hesabatı layihənin işlənmə mərhələsində hazırlanmalı və müvafiq səlahiyyətli orqanın baxışına təqdim edilməlidir. Hesabat asanlıqla başa düşülən üslubda tərtib edilməli, nəzərdə tutulan fəaliyyətin həyata keçiriləcəyi ərazidə ətraf mühitin ilkin vəziyyətini, ətraf mühitə və insan sağlamlığına mümkün potensial təsirləri, onların aradan qaldırılması yollarını və ətraf mühitə mənfi təsirlərin minimuma endirilməsi üzrə tövsiyələri müəyyən etməli, giriş və nəticə hissələrindən ibarət olmalıdır.
Layihənin təsviri	Nəzərdə tutulan fəaliyyətin təsviri, məqsədi, mərhələləri, ətraf mühitə təsirinin növləri və ekoloji risk səviyyəsinin qiymətləndirilmə üsulları təmin olunmalıdır.
Layihənin alternativləri	Nəzərdə tutulan fəaliyyətə dair ən azı iki alternativ variant (həmin fəaliyyətdən imtina variantı daxil olmaqla), habelə tətbiq olunan ən səmərəli texnoloji alternativlərin ekoloji əsaslandırılması təmin olunmalıdır.

Qanunvericiliyin tələbləri	ƏMTQ sənədinin hazırlanması zamanı istinad edilən normativ hüquqi baza və hüquqi və normativ sənədlər barədə xülasə daxil edilməlidir.
Ətraf mühitin və sosial-iqtisadi sahənin təsviri	Nəzərdə tutulan fəaliyyətin həyata keçiriləcəyi ərazinin mövcud ekoloji və sosial-iqtisadi vəziyyəti və həssaslığı təsvir edilməlidir.
Təsirin qiymətləndirilməsi və azaldılması	Bütün təsirlər (birbaşa və dolayı, sahədə və sahədən kənar, kəskin və xroniki, birdəfəlik və kumulyativ, fövqəladə və qeyri-müntəzəm, müvəqqəti və daimi) öz əhəmiyyətinə və kəskinliyinə görə müəyyənləşdirilməli və qiymətləndirilməlidir və bu təsirlərin qarşısının alınması, azaldılması və yumşaldılması tədbirləri təmin olunmalıdır.
Transsərhəd təsirlər və fövqəladə hallar/qəzalar üzrə təsirlər	*Transsərhəd təsirlər aşkar edildikdə, transsərhəd təsirin qiymətləndirilməsi üzrə fəaliyyətə nəzarəti isə ETSN Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi ilə əlaqələndirməklə həyata keçirir. Transsərhəd təsirlər "Ətraf mühitə təsirin, o cümlədən transsərhəd təsirin qiymətləndirilməsinin aparılması Qaydası və müddəti" haqqında qərarda müəyyənləşdirilən qaydada və şərtlərə uyğun olaraq qiymətləndirilməlidir. Fövqəladə və qəza halları ilə bağlı təsirlərin proqnozlaşdırılması ƏMTQ hesabatına daxil edilməlidir.*
Ətraf mühitin idarə olunması və monitorinqi	Layihənin bütün mərhələləri üzrə qəbul edilən ətraf mühitin idarə olunması planı, o cümlədən müvafiq idarəetmə və monitorinq planları haqqında ümumi məlumat daxil edilməlidir.
Qalıq təsirlər	Qalıq təsirlər barədə xülasə və onların əhəmiyyətinə dair proqnozlar daxil edilməlidir
ƏMTQ-nin açıqlanması	
İctimaiyyətin iştirakı	Qanun planlaşdırılan fəaliyyətlərin təsirinə məruz qalacaq ictimaiyyətin ƏMTQ prosesi ərzində məlumatlandırılmasını tələb edir. Sifarişçidən nəzərdə tutulan fəaliyyətlərlə bağlı təsirə məruz qalan ictimaiyyəti müzakirələrə cəlb etməsi gözlənilir.
Dövlət ekoloji ekspertizası	"Ətraf mühitin mühafizəsi haqqında" Qanuna uyğun olaraq ƏMTQ hesabatı ETSN tərəfindən nəzərdən keçiriləcək (3 ay müddətində) və ETSN ekspert rəyi hazırlayacaq. Bu rəy nəşr ediləcək və nəzərdə tutulan fəaliyyətin həyata keçiriləcəyi ərazidə müvafiq icra hakimiyyəti orqanlarına təqdim ediləcək.

4.2.2 Bərpa olunan enerji ilə bağlı qanunlar

Azərbaycanda bərpa olunan enerjinin inkişafının müxtəlif aspektlərini tənzimləyən xüsusi və hərtərəfli qanunlar qəbul edilib. Enerji sahəsində mövcud normativ-hüquqi baza bərpa olunan enerji mənbələrindən istifadə üzrə konkret müddəaları, həmçinin xüsusi güzəştlər vasitəsilə bərpa olunan enerji mənbələrindən istifadənin təşviq edilməsini hədəfləyən aşağıdakı ikinci dərəcəli qanunları da nəzərə alır[3].

Ölkəmizdə bərpa olunan enerji sektorunun inkişaf etdirilməsi və bu sahədə qanunvericilik və institusional mühitin yaxşılaşdırılması üçün müvafiq qanunlar və normativ-hüquqi aktlar qəbul edilmişdir. Son illərdə, bu sahədə aparılan işlər davam etdirilmiş və 2021-ci il 31 may tarixli 339-VIQ nömrəli "Elektrik enerjisi istehsalında bərpa olunan enerji mənbələrindən istifadə haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul edilmişdir. Bu Qanun bərpa olunan enerjinin inkişafına xüsusi töhfə verir.

2004-cü ildə qəbul edilmiş "Azərbaycan Respublikasında alternativ və bərpa olunan enerji mənbələrindən istifadə olunması üzrə Dövlət Proqramı"nın məqsədləri elektrik enerjisinin istehsalında alternativ enerji mənbələrinin potensialını müəyyənləşdirmək, milli enerji mənbələrinin səmərəliliyini artırmaq, milli enerji təhlükəsizliyini təmin etmək, CO2 emissiyalarını azaltmaq və bərpa olunan enerji sektorunun inkişafı yolu ilə yeni iş yerlərinin yaradılmasını dəstəkləməkdən ibarətdir.

2014–cü ilin mart ayında Nazirlər Kabinetinin "Azərbaycan Respublikasında ixrac-idxal əməliyyatları üzrə gömrük rüsumlarının dərəcələri haqqında" və "Azərbaycan Respublikasının ərazisinə gətirilən, əlavə dəyər vergisindən azad olunan malların siyahısı haqqında" qərarlarına edilən dəyişikliklərə əsasən, bərpa olunan enerji sənayesində istifadə olunan avadanlıqların, qurğuların, detalların və alətlərin idxalı gömrük rüsumlarından və ƏDV-dən azad edilir.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Elektrik enerjisinin istehsalı və elektrik qurğularının istismara buraxılışı üçün güc hədlərinin müəyyən edilməsi barədə" 482 saylı 24 noyabr 2016-cı il tarixli qərarına əsasən alternativ və bərpa olunan enerji mənbələrindən istifadəyə xüsusi icazələr yalnız 150 kVt-dan çox gücə malik elektrik stansiyaları, həmçinin gücü 500 kVt-dan çox olan su elektrik stansiyaları və bioqaz elektrik stansiyaları üçün tələb olunur.

4.3 Milli Strategiyalar və Planlar

Azərbaycan Respublikasının Prezidentinin 2021-ci il 2 fevral tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" adlı strateji sənədində[4] beş prioritet qeyd edilir və bu prioritetlərdən biri olan "Təmiz ətraf mühit və "yaşıl artım" ölkəsi" yaşıl enerjinin prinsiplərinə əsaslanmaqla iqtisadiyyatın bütün sahələrində bərpa olunan enerjinin istehlakda payının artırılmasını hədəfləyir. "Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nda[5] bərpa olunan enerji mənbələrinin tətbiq edilməsini təşviq etmək üçün konkret tədbirlər nəzərdə tutulur və bu sahədə aparılan işlər çərçivəsində bərpa olunan enerji mənbələri potensialına malik ərazilərin müəyyənləşdirilməsi və prioritetləşdirilməsi istiqamətində ölkə üzrə

[3] *"Bərpa olunan enerji mənbələrindən istifadəyə hazırlığın qiymətləndirilməsi: Azərbaycan Respublikası" (IRENA, 2019).*

[4] *https://president.az/en/articles/view/50474*

[5] *https://static.president.az/upload/Files/2022/07/22/5478ed13955fb35f0715325d7f76a8ea_3699216.pdf*

kameral araşdırmalar davam etdirilmişdir. Yuxarıda qeyd edilən milli prioritetlər BMT-nin "Dünyamızın transformasiyası: 2030-cu ilədək dayanıqlı inkişaf sahəsində Gündəlik"dən irəli gələn öhdəliklərin icrası istiqamətində xüsusi əhəmiyyət kəsb edir.

2015-ci il dekabrın 12-də Tərəflərin 21-ci Konfransında qəbul olunmuş Paris Sazişinə əsasən, Azərbaycan Respublikası nəzərdə tutulan milli səviyyədə müəyyən edilmiş töhfələrini Konvensiya Katibliyinə təqdim edib. Azərbaycan tərəfindən qlobal iqlim dəyişmələrinə təsirlərin azaldılması təşəbbüslərinə töhfə olaraq baza ili ilə (1990) müqayisədə 2030-cu ilədək istixana effekti yaradan qaz emissiyalarının 35 % azalma səviyyəsində saxlanılması hədəf kimi götürülmüşdür. Azərbaycan 2021-ci ilin noyabr ayında Qlazqo şəhərində keçirilmiş COP26 Konfransında 2050-ci ilə qədər könüllü öhdəlik kimi emissiyaların 40 %-dək azaldılmasını və işğaldan azad edilmiş ərazilərdə[6] "xalis sıfır emissiya" zonasının yaradılması üzrə yeni öhdəlik qəbul etmişdir. Ölkəmiz özünün yenidən işlənmiş Milli Səviyyədə Müəyyən Edilmiş Töhfələrini (NDC-lər) 2023-cü ilin oktyabr ayında təqdim edib. NDC-ə yenidən baxış "EU4Climate" təşəbbüsü vasitəsilə Avropa İttifaqı (Aİ) tərəfindən dəstəklənib. Bu hədəflərə nail olmaq üçün, Energetika Nazirliyi tərəfindən 2030-cu ilə qədər ölkənin ümumi enerji balansında bərpa olunan enerji üzrə qoyuluş gücü payının 30 %-ə çatdırılması əsas hədəf kimi müəyyən edilmişdir. Bundan əlavə, 2030-cu ilə qədər dünyada bərpa olunan enerji potensialının üç dəfə, enerji səmərəliliyinin isə ikiqat artırılması üzrə "Bərpa Olunan Enerji və Enerji Səmərəliliyinə dair Qlobal Vəd" birgə təşəbbüsünə Azərbaycanın dəstəyi ifadə edilib.

2022-ci il 15 dekabr tarixində Energetika Nazirliyi və Avstraliyanın "Fortescue Future Industries (FFI)" şirkəti arasında Azərbaycanda bərpa olunan enerji layihələri və "yaşıl hidrogen"in potensialının öyrənilməsi və inkişafı üzrə birgə əməkdaşlığa dair Çərçivə Müqaviləsi imzalanmışdır. Müqavilə Azərbaycanda bərpa olunan enerji və "yaşıl hidrogen"in istehsalı üzrə ümumi gücü 12 GVt-dək layihələrin araşdırılması və reallaşdırılmasını nəzərdə tutur.

17 dekabr 2022-ci il tarixində Buxarestdə "Azərbaycan Respublikası, Gürcüstan, Rumıniya və Macarıstan Hökumətləri arasında yaşıl enerjinin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında Saziş" imzalanıb. Sazişin icrası məqsədilə Cənub Qaz Dəhlizi Məşvərət Şurası Nazirlərin 9-cu iclası və Yaşıl Enerji Məşvərət Şurası Nazirlərin 1-ci iclasından başlayaraq, nazirlərin mütəmadi görüşləri keçirilir. Sazişə əsasən, Xəzər dənizində istehsal olunacaq yaşıl enerjinin Avropaya ixracı nəzərdə tutulur.

Asiya İnkişaf Bankının dəstəyi ilə həyata keçirilən "Üzən günəş panelləri sisteminin inkişafına dair biliklərin mübadiləsi və texniki yardım dəstəyi" pilot layihəsi çərçivəsində Böyükşor gölündə 100 kVt gücə malik fotovoltaik sistemin quraşdırılması, habelə günəş qurğularının quraşdırılmasında özəl sektorun iştirakının təşviqi məqsədi ilə biznes modellərinin formalaşdırılması, təlimlər vasitəsi ilə milli potensialın gücləndirilməsi nəzərdə tutulur.

22 fevral 2021-ci il tarixində Azərbaycan Respublikasının Energetika Nazirliyi və BP şirkəti iri miqyasda karbonsuzlaşdırılmış və inteqrasiya edilmiş enerji və nəqliyyat sistemləri, o cümlədən Azərbaycanın region və şəhərlərində bərpa olunan enerji layihələri üçün tələb olunan potensialın və şəraitin qiymətləndirilməsi üzrə əməkdaşlıq etmək məqsədilə Anlaşma Memorandumu imzalayıblar. Bu memorandum Azərbaycanın iqtisadiyyatın şaxələndirilməsi, rəqabətli enerji bazarının yaradılması, təmiz ətraf mühit və "yaşıl artım" ölkəsi, BP-nin isə 2020-ci ildə "xalis sıfır emissiya" hədəflərini elan etməsi kontekstində imzalanıb. Memoranduma əsasən, fəaliyyətin həyata keçirilməsi məqsədilə "Rəhbər Komitə" və "İşçi Qrupu"un yaradılması, Azərbaycanın müvafiq region və şəhərləri üçün

[6] *https://unfccc.int/sites/default/files/NDC/2023-10/Second%20NDC_Azerbaijan_ENG_Final%20%281%29.pdf*

karbonsuzlaşdırma üzrə “Baş Plan”nın hazırlanması nəzərdə tutulur. “Baş Plan” təmiz enerji layihələri, aşağı karbonlu nəqliyyat, yaşıl binalar, tullantıların idarə olunması, təmiz sənaye, təbii iqlim həlləri, inteqrasiyalı tərəfdaşlıqlar, həmçinin inteqrasiyalı və karbonsuzlaşdırılmış enerji və nəqliyyat sistemlərinin hazırlanması istiqamətlərini əhatə edəcəkdir. Bundan başqa 2021-ci ilin 3 iyun tarixində Azərbaycan Respublikasının Energetika Nazirliyi və BP arasında Cəbrayıl rayonu ərazisində 240 MVt gücündə günəş elektrik stansiyasının tikintisi layihəsinin qiymətləndirilməsi və həyata keçirilməsi fəaliyyəti üzrə əməkdaşlığa dair İcra Müqaviləsi imzalanmışdır. İcra Müqaviləsi çərçivəsində əməkdaşlıq günəş enerjisi layihəsinin texniki və kommersiya aspektində qiymətləndirilməsini, stansiyanın layihələndirilməsini, maliyyələşdirilməsinin təmin edilməsi və yekun investisiya qərarının qəbulu kimi istiqamətləri əhatə edir.

3 may 2021-ci il tarixində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev “Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində “Yaşıl Enerji Zonası”nın yaradılması ilə bağlı tədbirlər haqqında” Sərəncam imzalamışdır. Sərəncamdan irəli gələn tapşırıqların icrası, həmçinin işğaldan azad olunmuş ərazilərdə “Yaşıl Enerji Zonası”nın yaradılması ilə əlaqədar Konsepsiyanın və "Baş Plan"ın hazırlanması üçün ixtisaslaşmış beynəlxalq məsləhətçi şirkətin cəlb edilməsi istiqamətində Energetika Nazirliyi ilə Yaponiyanın “TEPSCO” şirkəti arasında müqavilə imzalanmışdır. Müvafiq dövr ərzində müqavilə çərçivəsində nəzərdə tutulan tədbirlər həyata keçirilmiş və bunun nəticəsi olaraq, “Yaşıl Enerji Zonası”nın yaradılması üzrə Konsepsiya sənədi hazırlanmışdır. “Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində “yaşıl enerji” zonasının yaradılması ilə bağlı tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 3 may tarixli 2620 nömrəli Sərəncamının 3-cü hissəsinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 21 iyun tarixli 357s nömrəli Sərəncamı ilə “Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində 2022-2026-cı illərdə “yaşıl enerji” zonasının yaradılması üzrə Tədbirlər Planı” təsdiq edilmişdir. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 3 avqust tarixli 459s nömrəli Sərəncamı ilə yaradılan “Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində yaşıl texnologiyaların və enerji səmərəliliyi tələblərinin tətbiqi ilə bağlı əlaqələndirmə və monitorinq üzrə İşçi qrup”un ilk iclası keçirilmişdir. “Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində 2022-2026-cı illərdə “yaşıl enerji” zonasının yaradılması üzrə Tədbirlər Planı”ndakı öhdəliklər, işğaldan azad edilmiş ərazilərdə “yaşıl enerji” zonasının yaradılması məsələsi ilə bağlı qarşıya qoyulmuş vəzifələrin müzakirəsi məqsədilə İşçi Qrupun və İşçi Qrupun tərkibində formalaşdırılmış alt İşçi Qrupun mütəmadi olaraq iclasları keçirilir. Yaşıl texnologiyaların və enerji səmərəliliyi üzrə tədbirlərin tətbiqi üzrə işğaldan azad olunmuş ərazilərdə həyata keçirilən və ya nəzərdə tutulan layihələrin qiymətləndirilməsi məqsədilə İşçi Qrupun iclasının qərarı ilə təsdiq edilmiş “Monitorinqin aparılmasının İcra Qrafikinə” əsasən 2023-cü ilin iyun ayından etibarən işğaldan azad edilmiş ərazilərdə monitorinqlərin keçirilməsinə başlanılmışdır.

İşğaldan azad edilmiş ərazilərdə Azərbaycanın daxili su ehtiyatlarının təqribi 25%-i formalaşır və bu da təxminən illik 2.56 milyard m3 təşkil edir. Xüsusən qeyd etmək lazımdır ki, işğaldan azad edilmiş ərazilərdə günəş enerjisi layihələri həyata keçirmək üçün əlverişli potensial var. Belə ki, Zəngilan, Cəbrayıl, Qubadlı və Füzuli ərazisində müşahidə edilən günəş radiasiyası Naxçıvan MR-da müşahidə edilən günəş radiasiyasından sonra ölkə üzrə ən əlverişli ikinci regiondur. Aparılan ilkin tədqiqatlar, günəş enerjisi layihələri üçün topoqrafiya, iqlim şəraiti, şəbəkəyə yaxınlıq, enerji istehsalı potensialı, nəqliyyat infrastrukturu və digər texniki faktorların müqayisəli təhlili əsasında Cəbrayıl və Zəngilan rayonlarının ərazisi məqsədəuyğun hesab edilmişdir. İşğaldan azad edilmiş ərazilərdə - xüsusən də Laçın və Kəlbəcərin dağlıq hissələrində əlverişli külək potensialının olması, ilkin araşdırmalara əsasən müəyyən edilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 22 iyul tarixli 3378 nömrəli Sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası”nın Tədbirlər

Planının 5.2.3. “Bərpa olunan enerji mənbələrindən istifadənin artırılması” fəaliyyət istiqaməti üzrə “Bioenerji və geotermal enerjidən istifadə imkanlarının genişləndirilməsi” altbəndinin icrasına uyğun olaraq hər iki istiqamət üzrə aidiyyəti qurumların nümayəndələrindən ibarət İşçi qruplar yaradılmışdır. Sözügedən İşçi qruplarının fəaliyyəti nəticəsində bioenerji və geotermal enerji potensialının qiymətləndirilməsinə dair məlumatlar toplanılmış və təhlil edilmiş, səmərəli sayılan layihə istiqamətləri müəyyənləşdirilmişdir.

Sözügedən strateji sənədin 5.2.5. fəaliyyət istiqamətində qeyd olunan “Elektromobillik üzrə Milli Planın hazırlanması” altbəndinin icrasına uyğun olaraq İşçi qrupun yaradılmasına dair işlərə başlanılmışdır. Həmin sənədin hazırlanması məqsədilə beynəlxalq məsləhətçi şirkətin cəlb edilməsi üçün texniki tapşırıq sənədi hazırlanmışdır.

22 dekabr 2022-ci il tarixində Energetika Nazirliyi ilə Avropa Yenidənqurma və İnkişaf Bankı (AYİB) arasında Azərbaycan Respublikasının elektroenergetika sektorunun inkişafı ilə bağlı texniki dəstəyə dair Anlaşma Memorandumu onlayn formatda imzalanıb. Memorandum çərçivəsində ölkəmizdə aşağı karbonlu elektroenergetika sektorunun inkişafına nail olmaq məqsədilə bərpa olunan enerjinin təşviqinə, enerji səmərəliliyinin artırılmasına, metan emissiyalarının azaldılmasına dəstək, həmçinin “yaşıl hidrogen” də daxil olmaqla innovativ texnologiyaların mərhələli şəkildə araşdırılması və tətbiqi üzrə əməkdaşlıq nəzərdə tutulur. Bu əməkdaşlıq çərçivəsində Dünya Bankının dəstəyi ilə “CESI” məsləhətçi şirkəti tərəfindən “Azərbaycanın elektroenergetika sistemində bərpa olunan enerjinin payının artırılmasına texniki yardım” layihəsi həyata keçiriləcək. Bu çərçivədə enerji sektorunun dekarbonizasiyası üçün müvafiq siyasət və texnologiyalarla bağlı tövsiyələrdən ibarət yol xəritəsinin hazırlanması nəzərdə tutulur

3 fevral 2023-cü il tarixində Bakıda Cənub Qaz Dəhlizi Məşvərət Şurası Nazirlərin 9-cu iclası və Yaşıl Enerji Məşvərət Şurası Nazirlərin 1-ci iclası çərçivəsində Energetika Nazirliyi ilə Səudiyyə Ərəbistanı Krallığının “ACWA Power” şirkəti arasında “Dənizdə 1,5 QVt-dək külək layihəsinin həyata keçirilməsinə dair İcra Müqaviləsi”, “Quruda 1 QVt külək stansiyasının yaradılmasına dair İcra Müqaviləsi” və “Azərbaycan Respublikasında enerji saxlanc sistemlərinin inkişaf etdirilməsinə dair Anlaşma Memorandumu” imzalanıb.

“Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023–2027-ci illər üçün Dövlət Proqramı”nın 2023–2024-cü illər üzrə Təfsilatlı Tədbirlər Planı”nına əsasən, burada "Yaşıl Enerji Zonası"nın yaradılması, Konsepsiya və Tədbirlər Planının hazırlanması nəzərdə tutulur. Naxçıvanda bərpa olunan enerji layihələrinin həyata keçirilməsi ilə bağlı “Nobel Energy Management”, “TotalEnergies” və “A-Z Czech Engineering” şirkətləri ilə ümumi gücü 1000 MVt-dan çox olan yaşıl enerji layihələri ilə əlaqədar müqavilələr imzalanıb.

4.4 Beynəlxalq Konvensiyalar, Protokollar və Sazişlər

Aşağıdakı cədvəldə Azərbaycanın illər ərzində ratifikasiya etdiyi və Layihə ilə əlaqəli olan əsas beynəlxalq və regional konvensiyaların siyahısı təqdim edilmişdir. Beynəlxalq konvensiyaların çoxu EP-lərə, BMK-nın FS-lərinə, AYİB-in FS-lərinə, AİB-in Təhlükəsizlik Siyasətinə və müvafiq təlimatlara daxil edilmişdir.

Cədvəl 4-4: Beynəlxalq və regional konvensiyalar

Beynəlxalq və Regional Konvensiya	Ratifikasiya ili
Beynəlxalq Əmək Təşkilatı (Fundamental)	
C029 - "Məcburi əmək haqqında" Konvensiya, 1930 (№ 29)	1992-ci il
C087 - "Assosiasiya azadlığı və təşkilat yaratmaq hüququnun müdafiəsi haqqında" Konvensiya, 1948 (№ 87)	1992-ci il
C098 - "Təşkilat yaratmaq və kollektiv danışıqlar aparmaq hüququ prinsipinin tətbiqi haqqında" Konvensiya, 1949 (№ 98)	1992-ci il
C100 - "Əməyin bərabər ödənişi haqqında" Konvensiya, 1951 (№ 100)	1992-ci il
C105 - İcbari əməyin ləğv olunması haqqında Konvensiya, 1957 (№ 105)	2000-ci il
C111 - Əmək və məşğulluq sahəsində ayrı-seçkilik haqqında Konvensiya, 1958 (№ 111)	1992-ci il
C138 - "İşə qəbul olunmaq üçün minimum yaş həddi haqqında" Konvensiya, 1973 (№ 138) Müəyyən edilən minimum yaş: 16 yaş	1992-ci il
C182 - "Uşaq əməyinin ən pis formalarının qadağan edilməsinə və onların aradan qaldırılması üçün təcili tədbirlərə dair" Konvensiya, 1999 (№ 182)	2004-cü il
Çirklənmənin qarşısının alınması	
"Davamlı üzvi çirkləndiricilər haqqında" Stokholm Konvensiyası	2004-cü ildə qoşulub
"Sənaye qəzalarının transsərhəd təsiri haqqında" Konvensiya*	2004-cü ildə qoşulub
Təhlükəli tullantıların sərhədlərarası daşınmasına və kənarlaşdırılmasına nəzarət haqqında Bazel Konvensiyası	2001-ci il
Kioto Protokolu, 1997	2000-ci ildə qoşulub
BMT-nin Ozon qatının qorunması haqqında Konvensiyası (Vyana Konvensiyası)	1996-cı ildə qoşulub
Ozon qatını dağıdan maddələr üzrə Monreal Protokolu, 1987	1996-cı ildə qoşulub
Birləşmiş Millətlər Təşkilatının İqlim dəyişmələri üzrə Çərçivə Konvensiyası, 1992	1992-cı ildə qoşulub

Beynəlxalq və Regional Konvensiya	Ratifikasiya ili
UNECE-nin "Böyük məsafələrdə havanın transsərhəd çirkləndirilməsi haqqında" Cenevrə şəhərində imzalanmış Konvensiyası	2002-ci il
"Təhlükəli tullantıların sərhədlərarası daşınmasına və kənarlaşdırılmasına nəzarət haqqında" BMT Konvensiyası	2001-ci il
"Təhlükəli yüklərin quru yollar ilə beynəlxalq daşımaları haqqında" Avropa Sazişi*	2000-ci il
Espoo Konvensiyası* (Xüsusilə ətraf mühitin transsərhəd deqradasiyasına qarşı qabaqlayıcı tədbirlər olaraq ƏMSSTQ-nin aparılması vasitəsilə ekoloji baxımdan təhlükəsiz və dayanıqlı inkişafı təşviq etmək üçün)	1999-cı ildə qoşulub
Orhus Konvensiyası* (Ətraf mühit ilə bağlı məsələlərdə məlumatın əldə edilməsi, ictimaiyyətin qərar qəbul edilməsində iştirakı və ədalət məhkəməsinin açıq keçirilməsini təmin etmək üçün)	2000-ci ildə qoşulub
Biomüxtəlifliyin qorunması	
YUNESKO-nun "Əsasən su quşlarının yaşama yerləri kimi beynəlxalq əhəmiyyətli olan sulu-bataqlıq yerlər haqqında" Konvensiyası / RAMSAR Konvensiyası	2001-ci il
BMT-nin "Bioloji müxtəliflik haqqında" Konvensiyası, 1992	2000-ci il
"Avropanın canlı təbiətinin və təbii mühitinin qorunması haqqında" Bern Konvensiyası	2002-ci ildən qüvvəyə minmişdir
"Kökünün kəsilməsi təhlükəsi olan vəhşi fauna və yabanı flora növlərinin beynəlxalq ticarəti haqqında" Konvensiya (CİTES)	1999-cu il
Mədəni irs	
YUNESKO-nun "Qeyri-maddi mədəni irsin qorunması haqqında" Konvensiyası. Paris 2003-cü il	2007-ci il
YUNESKO-nun "Ümumdünya mədəni və təbii irsin qorunması haqqında" Konvensiyası. Paris, 16 noyabr 1972-ci il.	1993-cü il
"Arxeoloji irsin qorunması haqqında" Avropa Konvensiyası	2000-ci il
İnsan hüquqları	
"İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında" Avropa Konvensiyası	2002-ci il
BMT-nin "Qadınlara qarşı ayrı - seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında" Konvensiyası	1995-ci il
BMT-nin "İşgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza əleyhinə Konvensiyası"	1996-cı il
BMT-nin "Bütün əməkçi miqrantların və onların ailə üzvlərinin hüquqlarının qorunması haqqında" Beynəlxalq Konvensiya	1999-cu il
BMT-nin "İqtisadi, sosial və mədəni hüquqlar haqqında" Beynəlxalq Paktı	1992-ci il

Beynəlxalq və Regional Konvensiya	Ratifikasiya ili
"Uşaq hüquqları haqqında" BMT Konvensiyası / Uşaqların silahlı münaqişələrə cəlb edilməsinə dair Fakultativ Protokol	1992/2002-ci il
BMT-nin "İrqi ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında Beynəlxalq Konvensiyası"	1996-cı il
"Milli azlıqların müdafiəsi haqqında Regional Çərçivə Konvensiyası"	2000-ci il
BMT-nin"Əlilliyi olan şəxslərin hüquqları haqqında" Konvensiyası	2009
BMT-nin Mülki və Siyasi Hüquqlar haqqında Beynəlxalq Paktı	1992-ci il
İnsan hüquqları üzrə Avropa Məhkəməsinin gələcəyinə dair yüksək səviyyəli konfrans. İnterlaken Bəyannaməsi	2010
İnsan hüquqları üzrə Avropa Məhkəməsinin gələcəyinə dair yüksək səviyyəli konfrans. İzmir Bəyannaməsi	2011
İnsan hüquqları üzrə Avropa Məhkəməsinin gələcəyinə dair yüksək səviyyəli konfrans. Brayton Bəyannaməsi	2012-ci il
*UNECE sazişi; Azərbaycan 1993-cü ildə BMT-nin Avropa üzrə İqtisadi Komissiyasının (UNECE) üzvünə çevrilmişdir. UNECE-nin əsas məqsədi normaların, standartların və konvensiyaların hazırlanması ilə ümumavropa inteqrasiyasını təşviq etməkdən ibarətdir.	

4.5 Beynəlxalq Təlimatlar və Standartlar

Dünya Bankı maliyyələşdirdiyi layihələrin Bankın Ətraf Mühit və Sosial Standartlarına cavab verməsini tələb edir. Azərbaycanın qanuni tələbləri ilə yanaşı, Dünya Bankının tələbləri aşağıdakı sənədlərdə təfərrüatlı şəkildə verilmişdir:

- Dünya Bankının Ətraf Mühit və Sosial Çərçivəsi (ƏMSÇ)
- Dünya Bankının Ətraf Mühit və Sosial Çərçivəsinin Ətraf Mühit və Sosial Standartları
- BMK-nın Sosial və Ekoloji Dayanıqlığa dair Fəaliyyət Standartları, 2012.
- Dünya Bankı Qrupunun Ümumi Ətraf Mühit, Sağlamlıq və Təhlükəsizlik Təlimatları, 2007.
- Dünya Bankı Qrupunun elektrik enerjisinin ötürülməsi və paylanmasına dair Ətraf Mühit, Sağlamlıq və Təhlükəsizlik Təlimatları, 2007.

4.5.1 BMK-nın Fəaliyyət Standartları

BMK-nın Fəaliyyət Standartları aşağıda təfərrüatlı formada verilmişdir:

- BMK-nın 1-ci Fəaliyyət Standartı - Ekoloji və sosial risk və təsirlərin qiymətləndirilməsi və idarə edilməsi.
- BMK-nın 2-ci Fəaliyyət Standartı - Əmək və iş şəraiti.
- BMK-nın 3-cü Fəaliyyət Standartı - Ehtiyatlardan səmərəli istifadə və ətraf mühitin çirklənməsinin qarşısının alınması.
- BMK-nın 4-cü Fəaliyyət Standartı - İcmanın sağlamlığı, təhlükəsizliyi və mühafizəsi.
- BMK-nın 5-ci Fəaliyyət Standartı - Torpaq sahələrinin əldə edilməsi və məcburi köçürülmə.
- BMK-nın 6-cı Fəaliyyət Standartı - Bioloji müxtəlifliyin qorunması və canlı təbii sərvətlərin dayanıqlı idarə edilməsi.
- BMK-nın 7-ci Fəaliyyət Standartı - Yerli əhali.
- BMK-nın 8-ci Fəaliyyət Standartı - Mədəni irs.

FS 1 inkişafla əlaqəli ekoloji və sosial təsirlərin müəyyən edilməsi üçün qiymətləndirmə, icmanın effektiv cəlb edilməsi və layihə ilə bağlı məlumatların açıqlanması və Layihənin təsirinə məruz qalan yerli icmalarla məsləhətləşmə və ekoloji və sosial idarəetmə tədbirlərinin əhəmiyyətini müəyyənləşdirir. Beləliklə, hazırkı ƏMSSTQ BMK-nın 1-ci fəaliyyət standartının tələblərinə uyğun şəkildə aparılmışdır.

BMK-nın qalan FS-lərində ətraf mühitə ekoloji və sosial mənfi təsirlərin qarşısını almaq və onları minimuma endirmək və hər hansı qalan təsirləri əvəzləşdirmək/kompensasiya etmək üçün məqsədlər və tələblər göstərilir. Beləliklə, 2-dən 8-ə qədər FS-lər qiymətləndirmə prosesinin tərkib hissəsi kimi nəzərdən keçirilib və ƏMSSTQ hesabatının mövzu ilə bağlı konkret bölmələrində müvafiq olaraq müzakirə edilib.

4.6 Dünya Bankının Ətraf Mühit və Sosial Çərçivəsinin Ətraf Mühit və Sosial Standartları

"AZURE" layihəsi çərçivəsində İnvestisiya Layihələrinin Maliyyələşdirilməsi vasitəsilə Dünya Bankı və Azərbaycan Hökuməti tərəfindən dəstəklənəcək altlayihələrin aşağıdakı Ətraf Mühit və Sosial Standartlara (ƏMSS-lər) cavab verməsi tələb olunur. Dünya Bankı həmçinin, müvafiq müəssisələrin Azərbaycan hökuməti tərəfindən hazırlanacaq ƏMSSTQ/ƏMSİP-ə tətbiq ediləcək ƏMSE və təshihedici tədbirlər vasitəsilə DB-nın Ətraf Mühit və Sosial Standartlarının tələblərinə cavab verməsini tələb edir.

- **Ətraf Mühit və Sosial Standart 1: Ekoloji və sosial risk və təsirlərin qiymətləndirilməsi və idarə edilməsi -** Bu standartda layihənin təsir sahəsindəki sosial və ekoloji təsirləri, riskləri və imkanları müəyyənləşdirmək üçün kompleks qiymətləndirmənin əhəmiyyəti qeyd edilir. Bu standartda layihənin həyat dövranı boyunca sosial və ekoloji fəaliyyətin idarə olunması üçün sosial və ekoloji qiymətləndirmə və idarəetmə sistemlərinin mövcudluğu tələb olunur. Standartın əsas elementlərinə (i) sosial və ekoloji qiymətləndirmə; (ii) idarəetmə proqramı; (iii) təşkilati potensial; (iv) təlim; (v) maraqlı tərəflərin cəlb edilməsi; (vi) monitorinq və (vii) hesabatvermə daxildir.

- **Ətraf Mühit və Sosial Standart 2: Əmək və iş şəraiti -** Standartda işçi-rəhbər münasibətlərinin qurulması və qorunub saxlanması, əmək və məşğulluğa dair milli qanunlara riayət olunması və işçilərin təhlükəsiz və sağlam iş şəraiti ilə təmin edilməsi tələb olunur. Layihənin həyata keçirilməsi üçün işçilər işə götürüləcəyindən bu standart çox mühüm əhəmiyyət kəsb edir.

- **Ətraf Mühit və Sosial Standart 3: Ehtiyatlardan səmərəli istifadə və ətraf mühitin çirklənməsinin qarşısının alınması və idarə edilməsi -** Bu standart a) fəaliyyətlərdən qaynaqlanan çirklənmənin qarşısını almaq və ya onu minimuma endirməklə insan sağlamlığına və ətraf mühitə mənfi təsirlərin qarşısını almaq və ya onu minimuma endirmək və b) iqlim dəyişmələrinə töhfə verən emissiyaların azaldılmasını təşviq etmək məqsədilə beynəlxalq səviyyədə qəbul edilmiş texnologiyalar və təcrübələrə uyğun olaraq ətraf mühitin çirklənməsinin qarşısının alınması və azaldılmasına yönələn yanaşma təmin edir. Bu standart çərçivəsində, bir layihənin layihə fəaliyyətlərindən qaynaqlanan çirklənmənin qarşısını almaq və ya onu minimuma endirməklə insan sağlamlığına və ətraf mühitə mənfi təsirlərin qarşısını alması, onu minimuma endirməsi, yaxud azaltması tələb olunur. Bu standart su ehtiyatlarının, eləcə də havanın keyfiyyətinin çirklənmə ehtimalının olması baxımından əhəmiyyətlidir.

- **Ətraf Mühit və Sosial Standart 4: İcmanın sağlamlığı və təhlükəsizliyi -** Bu standart icmanın sağlamlığı, təhlükəsizliyi və mühafizəsinə layihə fəaliyyətlərindən qaynaqlana biləcək risklərin və

təsirlərin qarşısını almaq və ya onları minimuma endirmək üçün məsul subyektin öz üzərinə götürməli olduğu öhdəliyi vurğulayır. "AZURE" Layihəsi çərçivəsində layihə fəaliyyətləri lazımi şəkildə idarə edilmədiyi təqdirdə, sağlamlıq və təhlükəsizlik risklərinə səbəb ola bilər.

- **Ətraf Mühit və Sosial Standart 5: Torpaq sahələrinin əldə edilməsi, torpaqdan istifadəyə məhdudiyyətlər və məcburi köçürülmə -** Bu standart layihənin məcburi köçürülməyə yol açmamasını, yaxud ən azı qaçılmaz olduğu halda, alternativ layihə tərtibatları araşdırılmaqla bunun minimuma endirilməsini tələb edir. Standart həmçinin, layihənin torpaqların alınması, yaxud təsirə məruz qalan şəxslərin torpaqdan istifadəsinə yaranan məhdudiyyətlərdən qaynaqlanan sosial və iqtisadi təsirlərin yüngülləşdirilməsini tələb edir. "AZURE" layihəsi torpaqların alınmasını ehtiva edə bilər.

- **Ətraf Mühit və Sosial Standart 6: Biomüxtəlifliyin qorunması və canlı təbii sərvətlərin dayanıqlı idarə edilməsi -** Bu standartın məqsədi dayanıqlı inkişafın əsasını təşkil edən biomüxtəlifliyi, onun bütün formalarında (cinslər, növlər və ekosistem müxtəlifliyi daxil olmaqla) həyatın müxtəlifliyini və dəyişmək və təkamül etmək qabiliyyətini qorumaq və mühafizə etməkdən ibarətdir. "AZURE" layihəsi layihə fəaliyyətləri nəticəsində biomüxtəlifliyə qarşı yaranan təhdidlərin qarşısını almağa, yaxud onları yüngülləşdirməyə çalışacaq və bunların qarşısını almaq mümkün olmadığı halda, müvafiq yüngülləşdirmə tədbirləri görüləcək.

- **Ətraf Mühit və Sosial Standart 7: Yerli xalqlar/Böyük Səhradan cənubdakı Afrikanın tarixən diqqətdən məhrum qalmış ənənəvi yerli icmaları -** Azərbaycanda bu Standartın tərifinə uyğun gələn yerli xalqlar olmadığına görə bu standart layihə üçün uyğun deyil.

- **Ətraf Mühit və Sosial Standart 8: Mədəni irs -** Standart əvəzsiz mədəni irsi qorumaq və layihə fəaliyyətləri ərzində mədəni irsin qorunması ilə bağlı layihə təşəbbüskarlarına istiqamət vermək məqsədi daşıyır. Layihə çərçivəsində mədəni əhəmiyyətə malik əşyalar aşkarlandığı hallarda, həmin ərazinin və ölkənin mədəni irsinin qorunmasını təmin etmək məqsədilə bildiriş prosedurlarına əməl edilməsi zəruri olacaqdır.

- **Ətraf Mühit və Sosial Standart 9. Maliyyə vasitəçiləri -** Layihə hər hansı maliyyə vasitəçilərini dəstəkləmədiyi üçün bu standart müvafiq deyil.

- **Ətraf Mühit və Sosial Standart 10: Maraqlı tərəflərin cəlb edilməsi və məlumatların açıqlanması:** Bu ƏMSS qabaqcıl beynəlxalq təcrübənin vacib elementi olaraq Borcalan və layihənin maraqlı tərəfləri arasında açıq və şəffaf əlaqənin vacibliyini tanıyır. Maraqlı tərəflərin effektiv şəkildə iştirakı layihələrin ekoloji və sosial dayanıqlılığını yaxşılaşdıra, layihənin qəbulunu artıra və layihənin uğurlu formada hazırlanmasına və həyata keçirilməsinə əhəmiyyətli töhfə verə bilər. Təklif olunan "AZURE" layihəsi çərçivəsində maraqlı tərəflərin geniş şəkildə cəlb olunması tələb olunacaq, çünki layihənin uğurlu olması onun icmalar tərəfindən necə qəbul olunmasından asılı olacaqdır. Bununla yanaşı, təsirə məruz qalan icmaların və digər maraqlı tərəflərin iştirakı layihənin planlaşdırılması üçün əsas yaratmalıdır.

DB-nin Ətraf Mühit və Sosial Çərçivəsinə (ƏMSÇ) uyğun olaraq, Layihənin ekoloji və sosial riskləri **"əhəmiyyətli"** kimi qiymətləndirilir və bu da potensial mənfi ekoloji və sosial risklərin və təsirlərin konkret bir sahəyə xas olduğunu, böyük ölçüdə əvvəlki vəziyyətinə geri qaytarıla və standartların idarə edilməsi təcrübələri vasitəsilə asanlıqla yüngülləşdirilə biləcəyini göstərir. Bu təsnifat qismən, təsirə məruz qala biləcək həssas mühitlərdən və torpaqların alınması və məcburi köçürülmə zərurətindən qaynaqlanır. Ətraf Mühitə və Sosial Sahəyə Təsirin Qiymətləndirilməsi (ƏMSSTQ) prosesi nəticəsində

əsas risk sahələri, o cümlədən yaşayış mühitinin pozulması, havanın və suyun keyfiyyətinin pisləşməsi və yerli icmalara təsirlər müəyyənləşdirilib. Bu risklər ilkin sahə səfərləri, maraqlı tərəflərlə məsləhətləşmələr və ilkin ekoloji və sosial məlumatların toplanması yolu ilə qiymətləndirilib. Layihənin dayanıqlı və məsuliyyətli formada həyata keçirilməsini təmin etmək məqsədilə risklərin yüngülləşdirilməsi strategiyaları Dünya Bankının Ətraf Mühit və Sosial Standartlarına (ƏMSS-lər), xüsusilə də ƏMSS 1 (Ekoloji və sosial risk və təsirlərin qiymətləndirilməsi və idarə edilməsi) və ƏMSS 4-ə (İcmanın sağlamlığı və təhlükəsizliyi) uyğun formada hazırlanacaq.

4.7 Fərqlərin təhlili: Dünya Bankının ƏMSS-ləri və Azərbaycan Respublikasının qanunvericiliyi

Aşağıda verilən Cədvəl 4-4-də DB-nın Ətraf Mühit və Sosial Standartları (ƏMSS-lər) müvafiq Azərbaycan qanunvericiliyi ilə müqayisəli şəkildə təhlil edilir. Qeyd edildiyi kimi, tələblərdən daha sərt olanı tətbiq ediləcək.

Cədvəl 4-5: DB-nın tələbləri ilə Azərbaycanın tələbləri arasındakı əsas fərqlərin icmalı

ƏMSS və mövzu	*Əsas tələblər*	*Azərbaycan qanunvericiliyində əsas tələblər/çatışmazlıqlar*	*Layihəyə tətbiq olunacaq qaydalar*
	ƏMSS 1: Ekoloji və sosial risk və təsirlərin qiymətləndirilməsi və idarə edilməsi		
Tətbiq sahəsi **Ətraf Mühit və Sosial Qiymətləndirmə**	• ƏMSS-lər Borcalanın nəzarəti/təsiri altında olan Müvafiq Obyektlərə tətbiq edilir • DB krediti çərçivəsində maliyyələşdirilən bütün fəaliyyətlər üçün Ətraf mühit və Sosial yoxlama tələb olunur; • Sosial və fiziki ətraf mühitə yüksək və əhəmiyyətli dərəcəli təsir risklərini ehtiva edən bütün fəaliyyətlər üçün ƏMSSTQ tələb olunur; • sosial və ekoloji şərtlərin və təsirlərin qiymətləndirilməsi və idarə edilməsi üçün bərabər tələblər; • Milli çərçivənin, ƏMSS-lərin, ƏSTT-lərin tətbiqi tələb olunur; • Əhəmiyyətli qalıq təsirləri əvəzləyir; • Həssas, yaxud əlverişsiz qruplar üçün fərqli tədbirlər müəyyən edir; • İlkin təchizatçılar üçün Ətraf Mühit və Sosial tələbləri nəzərə almaq	• Müvafiq müəssisələrin Azərbaycanın ƏMTQ qanunları ilə əhatə olunmaması • ƏMS yoxlaması sadəcə ƏMTQ haqqında qanunun Əlavə I bölməsində sadalananlar üçün tələb olunur; • "Ətraf mühitə təsirin qiymətləndirilməsi haqqında" (ƏMTQ) Qanuna I Əlavədə nəzərdə tutulmuş və Əlavə I-ə daxil edilən və yoxlama proseduruna uyğun olaraq ƏMTQ-ni tələb edən fəaliyyətlər üçün Ətraf Mühitə Təsirin Qiymətləndirilməsi (ƏMTQ) tələb olunur; • "Ətraf mühitə təsirin qiymətləndirilməsi haqqında" (ƏMTQ) Qanun sosial şəraitə və təsirlərə daha az diqqət yetirsə də, sosial və iqtisadi təsirlərin kompleks qiymətləndirilməsinə dair bir müddəanı ehtiva edir. • "Əhalinin sağlamlığının qorunması haqqında" Qanun bu çatışmazlığı qismən aradan qaldırır, lakin əsasən sağlamlığa təsirlərin qiymətləndirilməsinə yönəlir və sosial təsirləri tam əhatə etmir • ƏSTT-lərin tətbiqi tələb olunmur; • Əhəmiyyətli qalıq təsirləri əvəzləmir; • Həssas və əlverişsiz qruplar üçün fərqli tədbirlər görülmür; • İlkin təchizatçılar üçün Ətraf Mühit və Sosial tələblər nəzərə alınmır • İlkin təchizatçıları əhatə etmir	• Bu layihə üçün hazırlanmış, bütün layihəni əhatə edən ƏMSSTQ hesabatı • Bütün fəaliyyətlər üçün ƏMSS 1-ə uyğun olaraq ƏMS yoxlaması həyata keçirilir • Bu layihə üçün ƏMSSTQ hesabatı hazırlanıb • Sosial təsirlər və təsirlərin yüngülləşdirilməsi tədbirləri ƏMSSTQ hesabatına və Ətraf Mühit və Sosial idarəetmə və monitorinq planlarına daxil edilib • Layihədə ƏMTQ-lərin icrasının monitorinqi aparılacaq • ƏMTQ-ə uyğun olaraq, qalan təsirlər zəruri hallarda azaldılacaq • Layihə çərçivəsində həssas və əlverişsiz qrupların qeyri-mütənasib təsirə məruz qalmamamasını və layihədən bərabər şəkildə faydalana bilməsini təmin etmək üçün müxtəlif tədbirlər görüləcək. • Layihədə əsas təchizatçılar üçün tələblər nəzərə alınır
Layihənin monitorinqi və hesabatvermə	• Layihənin xarakteri, riskləri və təsirlərinə uyğun fəaliyyətlərin daimi monitorinqi və ƏMSİP-ə uyğun tədbirlərin tətbiqi tələb olunur; • Dünya Bankına hesabatvermə də daxil olmaqla, bir sıra səviyyələrdə və vaxtlarda hesabatın verilməsi tələb olunur;	• Fəaliyyətlərin daimi monitorinqi və ƏMSİP-ə uyğun tədbirlərin tətbiqi tələb olunmur; Monitorinq təsadüfi formada aparılır; • Əsas diqqətin kəmiyyət əsaslı monitorinqə yönəldilməsilə, fəaliyyət və əməletmə ilə bağlı digər məsələlərə daha az diqqət yetirilir; • Hesabatvermə və onun vaxtına dair tələb ətraf mühitin qiymətləndirilməsindən alınan qərarla	• Bu sənəddə qeyd edildiyi kimi bütün fəaliyyətlər üçün ƏMS baxımdan davamlı monitorinqin aparılması və hesabatvermə tələb olunacaqdır. • Layihə boyunca fəaliyyətin və uyğunluğun monitorinqinə xüsusi diqqət yetiriləcək.

ƏMSS və mövzu	Əsas tələblər	Azərbaycan qanunvericiliyində əsas tələblər/çatışmazlıqlar	Layihəyə tətbiq olunacaq qaydalar
		müəyyən edilir və ƏMSİP-in icrasına dair daimi hesabatvermə tələb olunmur	
Maraqlı tərəflərin cəlb edilməsi və məlumatların açıqlanması	• Ekoloji və sosial təsirin risklərini, eləcə də faydalarını ehtiva edən bütün layihələr üçün layihənin həyat dövranı boyunca məlumatların açıqlanması və maraqlı tərəflərin cəlb edilməsi tələb olunur	• ƏMTQ haqqında Qanun ƏMTQ dövrü ərzində məlumatların açıqlanmasını və ictimaiyyətin iştirakını tələb edir. Layihənin həyat dövranı boyunca maraqlı tərəflərin cəlb edilməsinə dair heç bir tələb yoxdur • İctimai iştirakçılıq və məsləhətləşmələrlə bağlı qanunda tələb edilən proseslər də milli praktikada ƏMSS 1-də nəzərdə tutulandan daha məhdud səviyyədədir, məsələn burada elmi dairələr və QHT-lərlə əlaqələr nəzərdə tutulmur.	• Bu layihədə maraqlı tərəflərin cəlb edilməsi prosesi həm Azərbaycanın milli normativ-hüquqi aktlarına, həm də Dünya Bankının Ətraf Mühit və Sosial Çərçivəsinə (ƏMSÇ) uyğun şəkildə həyata keçiriləcək. Azərbaycanda maraqlı tərəflərin cəlb edilməsi ekoloji layihələrlə bağlı ictimai məsləhətləşmələri və məlumatların açıqlanmasını tələb edən "Ətraf mühitin mühafizəsi haqqında" Qanun və "İctimai iştirakçılıq haqqında" Qanunla tənzimlənir. Bu milli tələblər Dünya Bankının layihənin həyat dövranı boyunca faydalı məsləhətləşməni, layihə ilə bağlı müvafiq məlumatların vaxtında açıqlanmasını və maraqlı tərəflərlə davamlı ünsiyyəti vurğulayan 10-cu Ətraf Mühit və Sosial Standartı (ƏMSS 10) ilə uzlaşır. Tələblərə əməletmənin təmin edilməsi məqsədilə layihə çərçivəsində inklüziv iştiraka yönəlmək, maraqlı tərəflərin narahatlıqlarını aradan qaldırmağa çalışmaq və qərar qəbul etmə prosesində şəffaflığı və hesabatlılığı təmin etməklə həm yerli səviyyəli qanuni tələbləri, həm də ƏMSS 10 təlimatlarını özündə birləşdirən Maraqlı Tərəflərin Cəlb Olunması Planı (MTCP) icra ediləcək.
		ƏMSS 2: Əmək və iş şəraiti	
Tətbiq sahəsi	• ƏMSS 2 "Azərenerji" ASC tərəfindən işə götürülən və layihə üzərində işləyən işçilərə və müqavilə üzrə işləyənlərə, ilkin	• Azərbaycanın Əmək Məcəlləsi işəgötürənlərin bilavasitə işçilərinə və müqavilə üzrə işləyən işçilərə şamil edilir	• Layihə üçün Layihə və onun daxilində formalaşan altlayihələrlə bağlı bütün işçilərə şamil olunacaq "Əmək

ƏMSS və mövzu	Əsas tələblər	Azərbaycan qanunvericiliyində əsas tələblər/çatışmazlıqlar	Layihəyə tətbiq olunacaq qaydalar
	təchizat işçilərinə və icma işçilərinə aid edilir		Fəaliyyətinin İdarə Edilməsi Planı" hazırlanıb
Əmək şəraiti və əmək münasibətlərinin idarə edilməsi	• Əməyin idarə edilməsinə dair yazılı prosedurlar • Məşğulluq şərtləri • Ayrı-seçkiliyə yol verilməməsi və bərabər imkanlar • İşçilərin təşkilatları	• Əmək prosedurlarını və əmək şəraitini ehtiva edən yazılı əmək müqaviləsi tələb olunur • Ayrı-seçkiliyə yol verilməməsi və bərabər imkanlarla bağlı xüsusi tələblər • Təşkilatlara icazə verilir • Dövlətin 2015-ci ilin noyabr ayından əmək şəraitinin vəziyyətinin yoxlanılmasına moratorium qoyması əmək qanunvericiliyinin icrasına nəzarət etmək, yaxud zərurət olduğu halda əmək fəaliyyəti ilə bağlı təshihedici tədbirlər görmək üçün fəal nəzarəti və ya icra mexanizminin fəaliyyətini əngəlləyir.	• Layihə üçün Layihə və onun daxilində formalaşan altlayihələrlə bağlı bütün işçilərə şamil olunacaq "Əmək Fəaliyyətinin İdarə Edilməsi Planı" hazırlanıb
İşçilərin sağlamlığı və təhlükəsizliyi	• ƏMSÇ-də "Əmək və iş şəraiti" üçün əhatəli tələblər göstərilir və Dünya Bankı Qrupunun Ümumi və konkret sektora xas ƏMST Təlimatlarının tətbiq edilməsi tələb olunur; • İş vaxtından artıq işləmə, əməyin ödənişi və müavinətlər və əmək şərtlərinin aydın şəkildə dəqiqləşdirilməsi tələb olunur;	• Azərbaycan Respublikasının Əmək Məcəlləsi ƏMSÇ-nin "Əmək və iş şəraiti" standartı ilə uzlaşır, ancaq Əmək Məcəlləsində icra mexanizmi mövcud deyil; • İş vaxtından artıq işləmə, əməyin ödənişi və müavinətlər, gənc işçilərin əmək şəraitinin qiymətləndirilməsi ilə bağlı aydın hüquqi müddəalar mövcud deyil; • İşçilər üçün şikayət mexanizmlərinin yaradılması ilə bağlı heç bir tələbin olmaması;	• İşçilər üçün şikayət mexanizmlərinin yaradılması tələbi yoxdur; • Milli qanunvericiliyin əməyin təhlükəsizliyi və gigiyenası ilə bağlı tələblərinə və ƏMSS 2-ə Layihənin "Əmək Fəaliyyətinin İdarə Edilməsi Planı" və "Ətraf Mühitin İdarə Edilməsi Planı"nda göstərilən qaydada əməl ediləcək.
Əməyin mühafizəsi və texniki təhlükəsizliyi (ƏMTT)	Layihəyə uyğun olan əməyin mühafizəsi və texniki təhlükəsizliyi ilə bağlı tədbirlər: • Dünya Bankı Qrupunun Ümumi ƏMST Təlimatlarını və konkret sektora xas ƏMST Təlimatlarını tətbiq etmək • İşçilərin mühafizəsi, işçilərin təlim keçməsi, hadisələrin sənədləşdirilməsi, fövqəladə vəziyyətlərə hazırlıq, problemlərin həll edilməsi ilə bağlı tələblər • Təhlükəsiz iş mühiti təmin etmək	• Yeni qanun (2018) ümumi olaraq DB-nin tələblərinə uyğun olsa da, icra tələbləri hələ tam şəkildə hazırlanmayıb • Mövcud qanunvericilikdə işçilərin yerləşdirilməsi üçün minimum tələblər müəyyən edilməsə də, işçilərin evdən uzaq məsafədə işləməsi müqabilində onlara gündəlik ödənişin edilməsi tələb edilir; bu məbləğ aşağıdır və ödənişlər bu məbləğdən yuxarı olduğu halda vergiyə cəlb edilir.	• Layihə ilə əlaqəli işlərdə "Əmək Fəaliyyətinin İdarə Edilməsi Planı"nın müddəaları tətbiq ediləcək. • Gözlənilən qərarla moratoriumun ləğv edilməsi əmək qanunvericiliyinə beynəlxalq qabaqcıl təcrübəyə uyğun olaraq nəzarət edilməsinə və onun icrasına imkan yaradacaq.

ƏMSS və mövzu	Əsas tələblər	Azərbaycan qanunvericiliyində əsas tələblər/çatışmazlıqlar	Layihəyə tətbiq olunacaq qaydalar
	• İşçilərin təhlükəsizliklə bağlı məsələləri bildirməsinə və müəyyən şərtlərlə işləməkdən imtina etməsinə icazə vermək • Müvafiq obyektləri (yeməkxanalar, sanitar qovşaqlar və s.) və yaşayış yerlərinin işçilərin ehtiyaclarını qarşılamasını təmin etmək • Bütün işəgötürənlərin ƏMTT tələblərini tətbiq etməklə bağlı əməkdaşlıq etməsi • ƏMTT fəaliyyətinə nəzarət etmək	• Yuxarıda qeyd olunan moratorium səbəbindən ƏMTT ilə bağlı risklər və qaydalara əməl etməmə fəaliyyətləri dövlət orqanlarının nəzarəti xaricindədir.	
İşçi qüvvəsinin mühafizəsi	• Uşaq əməyi • Məcburi əmək	• Azərbaycanda məşğulluq üçün minimum yaş həddi 15 yaş təyin olunub və 18 yaşına çatmamış uşaqların təhlükəli işlərə cəlb edilməsinə icazə verilmir. • 15-18 yaş arasında məşğulluğa icazə verilir (valideynlərin/qəyyumların icazəsi ilə). • Qanunun müddəaları daha ciddi qaydada tətbiq olunmalıdır.	• Layihə üçün Layihə və onun daxilində formalaşan altlayihələrlə bağlı bütün işçilərə şamil olunacaq "Əmək Fəaliyyətinin İdarə Edilməsi Planı" hazırlanıb • Bu Layihə çərçivəsində, "AZURE" layihəsi ilə bağlı olan, təhlükəli potensiala malik ola biləcək işlərdə işləmək üçün ən azı 18 yaşına çatmış şəxslərə iş imkanları təklif olunacaq. • Uşaq əməyindən və məcburi əməkdən istifadəni də qadağan edən Əmək Məcəlləsinin müddəalarına əməl ediləcəyini nəzərə alsaq, əmək miqrasiyası, gender əsaslı zorakılıq (GƏZ) və əmək resursları (uşaq əməyi daxil olmaqla) ilə bağlı risklərin səviyyəsi aşağıdır. GƏZ risklərinin azaldılmasına yönəlmiş təsir azaltma tədbirləri həmçinin Şirkətin Sosial Məsuliyyət Siyasəti və Ayrı-seçkilik, Təqib və Cavab Siyasətinə daxil edilmişdir. "Əmək Fəaliyyətinin İdarə Edilməsi Planı" Layihədə iştirak edən bütün podratçılar və digər işəgötürənlər

ƏMSS və mövzu	Əsas tələblər	Azərbaycan qanunvericiliyində əsas tələblər/çatışmazlıqlar	Layihəyə tətbiq olunacaq qaydalar
			tərəfindən qəbul edilməli olan ümumi Davranış Kodeksi formasını ehtiva edir.
Müqavilə üzrə işləyən işçilər	• Podratçıların ƏMSS 2-nin tələblərinə cavab verən əməyin idarə edilməsi prosedurlarını tətbiq etməsini təsdiqləmək baxımından ağlabatan səylər (icma və ilkin təchizat işçilərinə aid olanlar istisna olmaqla) • Fəaliyyətin idarə edilməsi və monitorinqi prosedurları • Şikayət mexanizminin müyəssərliyi	• Azərbaycanın milli qanunvericiliyi müqavilə üzrə işləyən işçilərə, o cümlədən subpodratçıların işçilərinə şamil edilir.	• Layihənin "Əmək Fəaliyyətinin İdarə Edilməsi Planı" və "Ətraf Mühitin İdarə Edilməsi Planı"nda göstərilən müqavilə üzrə işləyən işçilər üçün şikayət mexanizmləri hazırlanacaq.
İcma işçiləri	• İcma əməyinə tətbiq edilən iş şəraiti və ƏMTT-yə dair tələblər	• Belə tələblər mövcud deyil	• "Əmək Fəaliyyətinin İdarə Edilməsi Planı"nda göstərilən müddəalar icma işçilərinə şamil ediləcək.
İlkin təchizat işçiləri	• DSM/podratçının nəzarəti/təsirinin səviyyəsindən asılı olaraq, uşaq əməyi, məcburi əmək və təhlükəsizlik məsələləri ilə bağlı riskləri qiymətləndirmək və təchizatçıların əhəmiyyətli riskləri aradan qaldırmağa çalışmasını tələb etmək	• Təchizatçılar üçün Azərbaycan qanunları tətbiq edilsə də, belə tələblər mövcud deyil	• "Əmək Fəaliyyətinin İdarə Edilməsi Planı"nda göstərilən müddəalar ilkin təchizat işçilərinə şamil ediləcək.
ƏMSS 3: Ehtiyatlardan səmərəli istifadə və ətraf mühitin çirklənməsinin qarşısının alınması və idarə edilməsi			
Ehtiyatlardan səmərəli istifadə			
Tətbiq sahəsi	• Borcalanlar təsirlərin azaldılması iyerarxiyasına uyğun olaraq, resurslardan səmərəli istifadə və ətraf mühitin çirklənməsinin qarşısının alınması sahəsində mümkün tədbirlər görməlidir.	• Azərbaycan qanunvericiliyi ümumən Aİ-nin qanunvericiliyinə və təlimatlarına uyğun olsa da, konkret tələblər mövcud deyil	
Enerji ehtiyatlarından istifadə	• Layihədə əhəmiyyətli dərəcədə enerji ehtiyatlarından istifadə olunursa, ƏSTT-lərdə göstərilən tədbirləri həyata keçirmək	• Enerji ehtiyatlarından səmərəli istifadəyə dair konkret standartlar və qaydalar mövcud deyil	• Layihə çərçivəsində ƏSTT-lərin tələblərinə əməl ediləcək.
Su ehtiyatlarından istifadə	• Su ehtiyatlarından istifadə ehtiyacları və ətraf mühitə və icmalara bununla bağlı təsirlər qiymətləndirilməli və təsirlərin	• Milli qanunvericilik suyun digər məqsədlərlə istifadəsi əvəzinə, məişət məqsədilə istehlak üçün ictimai su təchizatına daha çox üstünlük verir. Suyun bölüşdürülməsi və prioritetləşdirilməsi (məs.,	• Su ehtiyatlarından istifadə ehtiyacları və bununla bağlı təsirlər hazırkı ƏMSSTQ hesabatında qiymətləndirilmişdir və ƏMSS 2-ə uyğun olaraq təsirlərin azaldılmasına

ƏMSS və mövzu	Əsas tələblər	Azərbaycan qanunvericiliyində əsas tələblər/çatışmazlıqlar	Layihəyə tətbiq olunacaq qaydalar
	azaldılmasına dair müvafiq tədbirlər görülməlidir	suvarma, enerji istehsalı və s.) ilə bağlı konkret tələblər və prinsiplər açıq şəkildə müəyyən edilməmişdir	dair müvafiq tədbirlər həyata keçiriləcəkdir.
Xammaldan istifadə	• Resurslardan əhəmiyyətli dərəcədə istifadəni azaltmaq məqsədilə Qlobal Beynəlxalq Sənaye Təcrübəsindən (QBST) istifadə etmək	• Konkret tələblər mövcud deyil.	• Bu layihəyə uyğun deyil və bu komponentlə bağlı heç bir tədbirin görülməsi nəzərdə tutulmur.
Ətraf mühitin çirklənməsinin qarşısının alınması və idarə edilməsi			
Ümumi tələblər	• Çirkləndiricilərin buraxılmasının qarşısını almaq, minimuma endirmək və ona nəzarət etmək, daha sərt olan ƏSTT-ləri və milli qanunları tətbiq etmək Tarixən mövcud çirklənmə və deqradasiyaya məruz qalmama tələbləri	• Ümumilikdə, tələblər ƏMSS-lərlə uzlaşır	
Havanın çirklənməsinin idarə edilməsi	• Potensial havaya atılmaların qiymətləndirilməsini və bütün növ fəaliyyətlər üçün havaya atılmaları minimuma endirmək məqsədilə texniki və maddi baxımdan mümkün və sərfəli üsulların tətbiq edilməsini tələb edir	• Havaya potensial atılmaların qiymətləndirilməsi və hava çirklənməsinin stasionar mənbələrinin mövcud olmadığı fəaliyyətlər üçün təsirlərin azaldılması üzrə müvafiq tədbirlərin icrası tələbi müəyyən edilməyib;	• Layihə çərçivəsində potensial havaya atılmalar qiymətləndirilir və bütün növ fəaliyyətlər üçün havaya atılmaları minimuma endirmək məqsədilə texniki və maddi baxımdan mümkün və sərfəli üsullar tətbiq ediləcək.
Təhlükəli və təhlükəsiz tullantıların idarə olunması	• Təsirlərin azaldılması iyerarxiyasını tullantıların idarə olunması sahəsinə tətbiq etmək • Təhlükəli tullantıların idarə olunması və daşınması üzrə milli və beynəlxalq konvensiyalar • Təhlükəli tullantıların idarə olunması üzrə podratçıların lisenziyalı olduğunu və tullantıların utilizasiya sahələrinin standartlara cavab verəcək formada fəaliyyət göstərdiyini təsdiq etmək	• Təhlükəsiz tullantıların ayrılması və idarə olunması mexanizmləri hazırlanmayıb • İcra prosesi ardıcıl olmasa da, əhəmiyyətli çatışmazlıqlar mövcud deyil • Daşıyıcı podratçıların, yaxud utilizasiya sahələrinin təsdiqlənməsinə dair konkret tələblər yoxdur	• Təsirlərin azaldılması iyerarxiyası tullantıların idarə olunması sahəsinə tətbiq ediləcək • Podratçılardan qabaqcıl beynəlxalq təcrübəyə uyğun olaraq "Tullantıların idarə olunması planı"nın hazırlanması tələb olunacaqdır
Kimyəvi maddələrin və təhlükəli	• Təhlükəli maddələrdən istifadəni minimuma endirmək Beynəlxalq	• Heç bir çatışmazlıq müəyyən edilməmişdir. Bu layihə ilə az, yaxud heç bir əlaqəsi yoxdur.	

ƏMSS və mövzu	Əsas tələblər	Azərbaycan qanunvericiliyində əsas tələblər/çatışmazlıqlar	Layihəyə tətbiq olunacaq qaydalar
materialların idarə olunması	səviyyədə nəzarət edilən maddələrin istifadəsindən qaçınmaq		
	ƏMSS 4: İcmanın sağlamlığı və təhlükəsizliyi		
İcmanın sağlamlığı və təhlükəsizliyi			
İcmanın sağlamlığı və təhlükəsizliyi	• İcmanın sağlamlığına və təhlükəsizliyinə yönəlmiş riskləri qiymətləndirmək və riskləri azaltmaq üçün təsirlərin azaldılması iyerarxiyasını və Qabaqcıl Beynəlxalq Sənaye Təcrübəsini (QBST) tətbiq etmək • Yüksək risk təşkil edən məkanlarla əlaqədar olaraq, infrastrukturun və avadanlığın planlaşdırılmasında üçüncü tərəflərdən qaynaqlanan təhlükəsizlik risklərini nəzərə almaq • İcmalara göstərilən xidmətlərin təhlükəsizliyini təmin etmək Nəqliyyat/yol risklərini müəyyənləşdirmək, zərurət olduğu halda, riskləri qiymətləndirmək, nəqliyyat vasitələri ilə bağlı verilən qərarlarda təhlükəsizlik məsələsini nəzərə almaq, əhalini qorumaq istiqamətində tədbirlər görmək • Ekosistem xidmətlərinin təmin edilməsi və tənzimlənməsinə təsirləri müvafiq şəkildə qiymətləndirmək və onların qarşısını almaq • Həssas qrupları nəzərə almaqla, xəstəliklərin yoluxması və yayılması potensialının qarşısını almaq, yaxud azaltmaq • Təhlükəli maddələrin idarə olunmasının icmaya yönələn risklərini aradan qaldırmaq	• ƏMTQ haqqında qanun potensial təsirlərin qiymətləndirilməsini və onlara nəzarət edilməsini tələb edir • Layihələndirmə, yaxud QBST ilə bağlı konkret tələblər yoxdur • Göstəriləcək xidmətlər mövcud deyil • Ümumi yol hərəkəti qaydaları tətbiq edilir və ƏMTQ haqqında qanun risklərin qiymətləndirilməsini tələb edir • Ekosistem xidmətləri ilə bağlı konkret tələb yoxdur • Əmək miqrasiyası, o cümlədən gender əsaslı zorakılıq, yoluxucu xəstəliklər və s. ilə bağlı konkret tələblər mövcud deyil • Ümumi sağlamlıq tələbləri adətən ƏMSS-lərə cavab versə də, həssas qruplar üçün tələblər mövcud deyil • Fövqəladə hallara cavabvermənin planlaşdırılması üzrə müfəssəl tələblər	• Layihələrin Ətraf Mühit və Sosial İdarəetmə Planları (ƏMSİP-lər) bütün layihə əməkdaşları üçün bir davranış kodeksinin hazırlanmasına dair tələbləri ehtiva etməlidir. Bu davranış kodeksinə cinsi istismar, zorakılıq və qısnamanın (CİZQ) qarşısının alınması və onların təsirlərinin yüngülləşdirilməsi daxildir. • Podratçılardan layihənin əvvəlində və layihənin icrası boyunca qaydaların və təcrübələrin hazırlanması, eləcə də icmaları cəlb etmək və onları potensial risklər və təhlükələr barədə məlumatlandıran mexanizmlərin hazırlanması tələb olunacaq.

ƏMSS və mövzu	*Əsas tələblər*	*Azərbaycan qanunvericiliyində əsas tələblər/çatışmazlıqlar*	*Layihəyə tətbiq olunacaq qaydalar*
Təhlükəsizlik heyəti	• Fövqəladə vəziyyətlərə hazırlıqlı olmaq və cavab tədbirləri görmək, onları ƏMTQ-lərdə nəzərə almaq, fövqəladə hallara cavabvermə planları hazırlamaq • Təhlükəsizlik tədbirlərinin yaratdığı riskləri qiymətləndirmək və aradan qaldırmaq • Mütənasiblik, QBST və hüquq prinsiplərini tətbiq etmək • Müqavilə üzrə işləyən işçilərin keçmişdə sui-istifadə hallarına cəlb olunmadığını və təlim keçdiyini təsdiqləmək • Hadisələri araşdırmaq, qanunsuz hərəkətlər barədə səlahiyyətli orqanlara məlumat vermək	• Konkret tələblər olmasa da, silahlı təhlükəsizlik heyəti ilə bağlı məhdudiyyətlər mövcuddur	• Layihənin icra mərhələsində bütün tikinti düşərgələrində silahsız təhlükəsizlik heyəti (mühafizəçilər) təmin ediləcək.
ƏMSS 5 - Torpaq sahələrinin əldə edilməsi, torpaqdan istifadəyə məhdudiyyətlər və məcburi köçürülmə.			
Tətbiq dairəsi	• ƏMSSTQ prosesində torpaq sahələrinin əldə edilməsi, torpaqdan istifadəyə məhdudiyyətlər və məcburi köçürülmə ehtiyaclarının qiymətləndirilməsi tələb olunur; • Hüquq pozuntularının növlərini sadalamaqla, daimi və müvəqqəti yerdəyişmə hallarına tətbiq edilir • Layihənin Köçürmə üzrə Fəaliyyət Planında qeyd olunduğu kimi ƏMSS 5 ilə uzlaşan təsirlərin qiymətləndirilməsi, təzminat və bərpa tədbirləri tətbiq ediləcək. • Torpaq istifadəçilərinə (rəsmi və qeyri-rəsmi) və torpaq mülkiyyətçilərinə aid edilir	• ƏMTQ prosesində torpaq sahələrinin əldə edilməsi, torpaqdan istifadəyə məhdudiyyətlər və məcburi köçürülmə ehtiyaclarının qiymətləndirilməsi tələb olunmur. Yalnız sosial təsirlərə yol açan ekoloji faktorlar daxil edilmişdir; • Qanunsuz torpaq istifadəçilərinə deyil, yalnız qanuni və "qanuniləşdirilə bilən" torpaq mülkiyyətçilərinə (yəni, milli qanunvericiliyə əsasən qeydiyyata alına bilən torpaq və mülkiyyət üzərində hüquqi iddiaları olanlara) aid edilir	• Layihənin Köçürmə üzrə Fəaliyyət Planında qeyd olunduğu kimi ƏMSS 5 ilə uzlaşan təsirlərin qiymətləndirilməsi, təzminat və bərpa tədbirləri tətbiq ediləcək.

ƏMSS və mövzu	*Əsas tələblər*	*Azərbaycan qanunvericiliyində əsas tələblər/çatışmazlıqlar*	*Layihəyə tətbiq olunacaq qaydalar*
Ümumi	• Yerdəyişmənin qarşısını almaq/onu minimuma endirmək üçün layihə hazırlamaq; • Əvəzetmə dəyəri və yardımla (o cümlədən dolanışıq vasitələrinin bərpası) təmin etmək, standartları açıqlamaq, mümkün olduğu halda torpağa bərabər dəyərdə torpaq sahəsi təklif etmək, mümkün olduqda insanları köçürməzdən əvvəl kompensasiya ödəmək; • Zərərçəkmiş icmalar, o cümlədən qadınlar və həssas qruplarla əlaqə yaratmaq; • ŞM-nin yaradılması tələb olunur; • Siyahıyaalma, son tarixlər, bildirişlər; müfəssəl plan və monitorinq tələb olunur; • Əhəmiyyətli yerdəyişmə halında yoxlamanın aparılmasını tələb etmək	• Yerdəyişmənin qarşısını almağa dair konkret tələb mövcud deyil • Əvəzetmə dəyəri təmin etmək və mümkün olduqda torpağa bərabər dəyərdə torpaq sahəsi təklif etmək, dolanışıq vasitələrinin bərpası, yaxud digər müavinətlərlə bağlı heç bir tələb yoxdur; • İctimai məsləhətləşmələrlə bağlı heç bir tələb yoxdur, qadınlar və digər həssas qruplarla bağlı isə heç bir əlavə tələb mövcud deyil; • ŞM-nin yaradılması ilə bağlı tələb yoxdur (Azərbaycanın İnzibati Xətalar Məcəlləsində nəzərdə tutulmuş tədbirlərdən başqa); • Son tarix, bildirişlər; müfəssəl plan və monitorinqlə bağlı heç bir tələb yoxdur; • Yerdəyişmə prosesinin yoxlanışına dair heç bir tələb yoxdur	• Layihənin Köçürmə üzrə Fəaliyyət Planında qeyd olunduğu kimi ƏMSS 5 ilə uzlaşan təsirlərin qiymətləndirilməsi, təzminat və bərpa tədbirləri tətbiq ediləcək. • "Azərenerji" ASC tərəfindən ƏMSS 5-ə uyğun olaraq şikayətlərə baxılması mexanizmi yaradılacaq və tətbiq ediləcəkdir.
Yerdəyişmə	• Fiziki və iqtisadi yerdəyişmənin qiymətləndirilməsi, o cümlədən həssas qruplarla məsləhətləşmələr, dolanışıq vasitələrin bərpası və təsirlərin azaldılmasına dair müvafiq tədbirlərin hazırlanmasına xüsusi diqqət yetirilməsi ilə bağlı ətraflı tələblər	• Fiziki yerdəyişmə ilə bağlı daha az əhatəli tələblər • İqtisadi yerdəyişmənin aradan qaldırılması üçün tədbirlərin görülməsinə dair daha az müfəssəl tələblər və həssas qruplara xüsusi diqqətin olmaması	• Layihənin Köçürmə üzrə Fəaliyyət Planında qeyd olunduğu kimi ƏMSS 5 ilə uzlaşan təsirlərin qiymətləndirilməsi, təzminat və bərpa tədbirləri tətbiq ediləcək.
Digər məsul qurumlarla əməkdaşlıq, yaxud submilli səviyyədə yurisdiksiya	• Cəlb edilən bütün qurumların Köçürmə üzrə Fəaliyyət Planının hazırlanması və həyata keçirilməsi də daxil olmaqla, torpağın alınması və məcburi köçürmə prosedurlarına cəlb edilməsi və Layihənin	• Torpaqların alınması və məcburi köçürülmə prosedurları üçün digər tərəflərin də iştirakı tələb olunur, lakin konkret əməkdaşlıq və dəstək tələbləri təmin edilməyib.	• Layihənin Köçürmə üzrə Fəaliyyət Planında qeyd olunduğu kimi ƏMSS 5 ilə uzlaşan təsirlərin qiymətləndirilməsi, təzminat və bərpa tədbirləri tətbiq ediləcək.

ƏMSS və mövzu	*Əsas tələblər*	*Azərbaycan qanunvericiliyində əsas tələblər/çatışmazlıqlar*	*Layihəyə tətbiq olunacaq qaydalar*
	İcra Qrupunu (LİQ) dəstəkləməsi ilə bağlı tələbləri göstərir		
Şikayətlərə baxılması	• Şikayətlər və narahatlıqlar yerli səviyyədə Şikayətlərin Baxılması Komissiyası (ŞBK), yerli hakimiyyət orqanları və QHT-lər və/yaxud icma əsaslı qurumların vasitəçiliyi ilə icmanın iştirakı ilə həll olunur.	• Şikayətlərin baxılması komissiyası ("Torpaqların dövlət ehtiyacları üçün alınması haqqında" Qanun - TDEA Aktı, Maddə 75, 2010-cu il) lazım olduqda irimiqyaslı layihələrə baxacaq. İcra orqanları, Torpaqların Alınması üzrə Qrup, Nəzarət Orqanı, yerli icra hakimiyyəti orqanları, bələdiyyələr və LİQ şikayətləri və narahatlıqları qəbul edəcək, araşdıracaq və həll edəcəkdir.	• Hazırkı layihə ƏMSS 5 ilə uyğunluğu nəzərdə tutur
ƏMSS 6: Bioloji müxtəlifliyin qorunması və canlı təbii sərvətlərin dayanıqlı idarə edilməsi			
Ümumi	• ƏMSS 6 yaşayış yerlərini dəyişdirilmiş, təbii və kritik növlərə ayırır. ƏMSS tələbləri bütün qruplara bərabər səviyyədə tətbiq edilir və gözlənilən nəticələrin əldə olunması üçün təsirlərin azaldılması və kompensasiya ilə bağlı müvafiq tədbirlərin görülməsini tələb edir; • Kritik yaşayış mühitlərinə təsiretmə üçün ciddi tələblər qoyur, Biomüxtəlifliyin İdarə Edilməsi Planının (BİEP) hazırlanmasını tələb edir	• Azərbaycanda biomüxtəlifliyin qorunması, mühafizəsi və bərpası üzrə güclü normativ-hüquqi baza mövcuddur. Ancaq buna baxmayaraq, yaşayış yerlərinin qorunmasına daha az diqqət yetirilir. Dəyişdirilmiş, təbii və kritik yaşayış yerləri üçün fərqli bir yanaşma yoxdur • Kritik yaşayış mühitlərinə təsiretmə və BİEP-in hazırlanması ilə bağlı heç bir tələb yoxdur	• ƏMSS 6-nın tələbləri Layihəyə, o cümlədən kritik yaşayış yerlərinin qiymətləndirilməsi və müvafiq olduğu halda BİEP-in hazırlanması prosesinə tətbiq ediləcək
İlkin təchizatçılar	• Borcalan təbii resurs materialları satın alarkən ortaya çıxan tələblər	• Bu layihə üçün uyğun deyil	

ƏMSS və mövzu	*Əsas tələblər*	*Azərbaycan qanunvericiliyində əsas tələblər/çatışmazlıqlar*	*Layihəyə tətbiq olunacaq qaydalar*
ƏMSS 7: Yerli xalqlar/Böyük Səhradan cənubdakı Afrikanın tarixən diqqətdən məhrum qalmış ənənəvi yerli icmaları			
Layihə üçün uyğun deyil			
ƏMSS 8: Mədəni irs			
Tətbiqi	• Qanunla qorunub-qorunmamasından və əvvəllər təyin edilib-edilməməsindən asılı olmayaraq, maddi və qeyri-maddi (məhdud) mədəni irsi əhatə edir	• Bərabər səviyyədə uyğunluq. Qeyri-maddi mədəni irs qeydiyyata alına bilər və o, digər mədəni irs obyektlərinin qorunduğu kimi qorunur, lakin təsirlərin qiymətləndirilməsi adətən tələb olunmur, yaxud həyata keçirilmir.	• Hava xətlərinin trassası maddi və qeyri-maddi (məhdud) mədəni irsə müdaxilə etməyəcək formada hazırlanacaq
Ümumi	• Bir tapıntı ortaya çıxdıqda təsadüfi tapıntı prosedurunun hazırlanmasını və bu prosedura əməl edilməsini tələb edir; • Layihə mədəni irs abidələri üçün təsir riskləri yaratdığı təqdirdə, mədəni irs üzrə ekspertlərin cəlb olunmasını tələb edir	• "Azərbaycan Respublikasında mədəni irs nümunələrinin qorunması, bərpası və istifadəsi Qaydası" təsadüfi tapıntı aşkarlandığı halda lazımi prosedurları təmin edir. Layihə çərçivəsində xüsusi təsadüfi tapıntı prosedurlarının hazırlanması ilə bağlı heç bir tələb yoxdur	• Layihənin hazırlanması zamanı mədəni irsə heç bir təsir müəyyən edilməmişdir, kəşfiyyat işləri hazırkı ƏMSSTQ hesabatında göstərildiyi kimi və ƏMSS 8-ə uyğun şəkildə həyata keçiriləcək.
Maraqlı tərəflərlə məsləhətləşmə və mədəni irsin müəyyənləşdirilməsi	• Təsirə məruz qalan və maraqlı tərəfləri müəyyənləşdirmək və onlarla məsləhətləşmək • Zərurət olduğu halda, məxfiliyi qorumaq • Təsirə məruz qalan sahələrin müyəssərliyinin davamlı olmasına imkan yaratmaq	• Maraqlı tərəflərin müəyyənləşdirilməsi və onlarla məsləhətləşməyə dair konkret tələblər mövcud deyil • Məxfiliklə bağlı heç bir müddəa yoxdur	• "Azərenerji" ASC HX-ların trassası boyunca mədəni əhəmiyyətli obyektlərin mövcud olub-olmaması barədə məlumat almaq məqsədilə Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidməti ilə məsləhətləşəcək
ƏMSS 9: Maliyyə vasitəçiləri			
Layihədə hər hansı maliyyə vasitəçiləri olmadığından bu standart layihə üçün uyğun deyil.			
ƏMSS 10: Maraqlı tərəflərin cəlb edilməsi və məlumatların açıqlanması			

ƏMSS və mövzu	*Əsas tələblər*	*Azərbaycan qanunvericiliyində əsas tələblər/çatışmazlıqlar*	*Layihəyə tətbiq olunacaq qaydalar*
Tələblər	• Layihənin həyat dövranı boyunca maraqlı tərəfləri cəlb etmək, onların necə iştirak etmək istədiklərini müəyyənləşdirmək Maraqlı tərəfləri məlumatlandırmaq İştirak barədə sənədləşdirilmiş qeydləri saxlamaq	• Azərbaycanda ictimai iştirakçılığı və məlumatların açıqlanmasını əhatə edən əsas hüquqi baza mövcuddur. • ƏMSSTQ-ni tənzimləyən qanunlar ƏMSSTQ-ni, habelə ƏMTQ haqqında məlumatların açıqlanmasını və bu barədə məsləhətləşmə aparılmasını tələb edir	• Layihənin icrası boyunca Layihə çərçivəsində hazırlanmış MTCP-a əməl ediləcək
Layihənin hazırlanması mərhələsində iştirak	• Maraqlı tərəflərin, o cümlədən əlverişsiz və ya həssas qrupların müəyyənləşdirilməsini və təhlilini tələb edir; • Məlumatların açıqlanması, məsləhətləşmələrin vaxtı, əlverişsiz, yaxud həssas qruplara yönəlmiş tədbirləri və s. ilə bağlı ətraflı tələblərin göstərildiyi Maraqlı Tərəflərin Cəlb Olunması Planının (MTCP) hazırlanması tələb olunur; • Layihələndirilmə mərhələsində məsləhətləşmənin aparılmasına imkan yaratmaq məqsədilə məlumatların erkən açıqlanması • Layihənin tərtibat və icra mərhələlərində bütün maraqlı tərəflərlə faydalı məsləhətləşmələr aparılacaq və əldə edilən nəticələr nəzərə alınacaq.	• Maraqlı tərəflərin müəyyənləşdirilməsi və təhlilinə dair xüsusi tələblərin mövcud olmaması; • Maraqlı tərəflərin cəlb edilməsi və məlumatların açıqlanmasına dair tələblər skrininq, ƏMSSTQ və ƏMTQ prosesinə daxil edilmişdir. MTCP-ın hazırlanması tələb olunmur; • İlkin layihələndirmə mərhələsində məlumatların açıqlanması və məsləhətləşmə prosesinin aparılması tələb olunmur	• Maraqlı tərəflər, o cümlədən həssas və əlverişsiz qruplar layihənin işlənib hazırlanması mərhələsində müəyyənləşdirilmiş və təhlil edilmişdir. • Maraqlı Tərəflərin Cəlb Olunması Planı (MTCP) ƏMSS 10-un təlimatlarına uyğun şəkildə hazırlanmışdır. • Layihənin MTCP-ında qeyd edildiyi kimi, layihə dövrü boyunca maraqlı tərəflərlə faydalı məsləhətləşmələr və məlumat mübadiləsi aparılacaq.
Layihənin icrası və xarici hesabatvermə zamanı iştirak	• Plana uyğun olaraq, icra mərhələsi boyunca maraqlı tərəflərin cəlb olunması və məlumatların açıqlanması	• Bənzər bir tələb yoxdur	• Layihənin icrası boyunca Layihə çərçivəsində hazırlanmış MTCP-a əməl ediləcək

ƏMSS və mövzu	Əsas tələblər	Azərbaycan qanunvericiliyində əsas tələblər/çatışmazlıqlar	Layihəyə tətbiq olunacaq qaydalar
Şikayətlərin Həlli Mexanizmi Ümumi	• Operativ, effektiv, mədəni baxımdan uyğun və çevik ŞM yaratmaq və tətbiq etmək; • Həm qeyri-rəsmi, həm də rəsmi şikayətlər eyni dərəcədə həll edilməlidir. Anonim şikayətlərin həlli prosedurları tələb olunur	• ŞHM-nin yaradılması və davam etdirilməsinə dair tələblərin olmaması; • Yalnız rəsmi yazışmalar və müraciətlər qeydə alınır və həll edilir.	• "AZURE" layihəsi çərçivəsində ƏMSS 10-un tələblərinə uyğun olaraq və MTCP-da göstərildiyi şəkildə şikayətlərin həlli mexanizmi fəaliyyət göstərəcək. • "Azərenerji" ASC-LİQ tərəfindən yerli səviyyədə ən azı aşağıdakıların nümayəndələrindən ibarət bir ŞBK yaradılacaq: (i) tanınmış yerli liderlərin (məs., yerli icra hakimiyyətinin səlahiyyətli şəxsləri) vasitəçiliyi ilə xalq; (ii) Podratçı; (iii) "Azərenerji" ASC-LİQ-i təmsil etmək üçün Sifarişçinin nümayəndəsi (SN). ŞBK zərərçəkmiş tərəflər arasında vasitəçi rolunu oynayacaq və münaqişələri qarşılıqlı razılıq əsasında həll etməyə səy göstərəcək. • Son həll yolu kimi məhkəməyə müraciət ediləcək. Prinsipcə layihənin təsirinə məruz qalan tərəflər (LTMT) Layihə İcraçılarının fəaliyyəti, yaxud hərəkətsizliyi ilə razılaşmadıqları vaxt müvafiq məhkəməyə müraciət edə bilərlər. • Ciddi şikayətlərlə bağlı protokollar və prosedurlar işlənib hazırlanacaq.

5. ƏTRAF MÜHİTƏ VƏ SOSİAL SAHƏYƏ TƏSİRİN QİYMƏTLƏNDİRİLMƏSİ PROSESİ VƏ METODOLOGİYASI

Layihənin ekoloji və sosial riski əhəmiyyətli olaraq qiymətləndirilir ki, bu da Ətraf Mühitə və Sosial Sahəyə Təsirin Qiymətləndirilməsinin (ƏMSSTQ) tam şəkildə həyata keçirilməsini və Ətraf Mühit və Sosial İdarəetmə Planının (ƏMSİP) hazırlanmasını tələb edir. ƏMSSTQ-nin əsas məqsədi Layihənin işlənib hazırlanması və həyata keçirilməsinin ekoloji, sosial, texniki və iqtisadi baxımdan məqsədəuyğun olub-olmadığını müəyyən etməkdən ibarətdir. Əsas vəzifə müsbət təsirləri artırmaqla yanaşı, ətraf mühitə və sosial sahəyə potensial mənfi təsirləri müəyyən etmək, qarşısını almaq, minimuma endirmək və idarə etməkdir. ƏMSSTQ-nin əsas mərhələləri aşağıdakılardır:

1-ci mərhələ: Ətraf Mühit və Sosial Təsirlərin qiymətləndirilməsi üzrə işlərin həcminə dair hesabat (Skopinq Hesabatı)

Bu, potensial problemlərin ekoloji və sosial təhlilinin məsləhətləşmə yolu ilə qiymətləndirildiyi mərhələdir. Burada ictimaiyyət layihə barədə məlumatlandırılır. Məsləhətləşmə ictimaiyyətin rəylərini/narahatlıqlarını öyrənməyə, həmçinin layihənin işlənməsinin təsirinə məruz qalma ehtimalı olan insanları müəyyənləşdirməyə kömək edir. İctimai məsləhətləşmə ƏMSSTQ prosesini ətraf mühit və sosial problemlər və yarana biləcək digər ekoloji narahatlıqlar barədə məlumatla təmin edir. Mənfi və ya müsbət olmasından asılı olmayaraq, layihədən yarana biləcək bütün təsirlərin adekvat şəkildə aradan qaldırılmasını təmin etmək üçün ictimaiyyət və ya maraqlı tərəflərin töhfəsi olduqca mühüm əhəmiyyət kəsb edir. Dünya Bankı ilə əldə olunmuş razılığa əsasən Skopinq Hesabatı həm Azərbaycan Hökuməti tərəfindən maliyyələşdirilən hissə üçün, həm də Dünya Bankı tərəfindən maliyyələşdiriləcək hissə üçün hazırlanmışdır.

2-ci mərhələ: ƏMSSTQ/ƏMSİP
Prosesin ikinci mərhələsi sorğuların keçirilməsi və ƏMSSTQ hesabatının tərtib edilməsini ehtiva edir. Anket sorğuları, müsahibələr və s. vasitəsilə cəmiyyətlə məsləhətləşmələrin davamı olan sosial-iqtisadi sorğular kimi müxtəlif sorğular keçirilir. Toplanmış bütün məlumatlar daha sonra ƏMSSTQ hesabatının tərtib edilməsi üçün istifadə olunur. ƏMSSTQ hesabatında layihənin ətraf mühitə göstərə biləcəyi müsbət və mənfi təsirlər müəyyən edilir. Daha sonra müsbət təsirləri artırmaq və mənfi təsirləri minimuma endirmək və ya onların qarşısını almaq üçün görüləcək tədbirlərlə bağlı təklif irəli sürmək üçün ƏMSİP hazırlanır. ƏMSSTQ və ƏMSİP hesabatları baxılması üçün Dünya Bankına təqdim olunur. Dünya Bankı hesabatların layihənin bütün təsirlərini adekvat şəkildə əhatə etdiyinə qane olduqdan sonra hesabatlar ictimai baxış üçün təqdim olunur.

3-cü mərhələ: İctimai baxış
Bu, bütün ictimai rəylərin və ətraf mühitlə bağlı məsələlərin həllini tapmasını təmin etmək üçün hazırlanmış ƏMSSTQ/ƏMSİP sənədinin nəzərdən keçirilməsini əhatə edir. Dünya Bankı tərəfindən baxıldıqdan sonra sənədlər maraqlı və təsirə məruz qalan tərəflər tərəfindən nəzərdən keçirilmək üçün strateji yerlərdə yayılır. Bu, 1-ci mərhələdə qaldırılan məsələlərin ƏMSSTQ-də adekvat şəkildə həll olunmasını təmin etməyə kömək edir. Avropa Ətraf Mühit Agentliyi layihə ilə bağlı narahatlıq doğuran bütün ictimai məsələlərin ƏMSSTQ-də adekvat şəkildə həll olunduğundan əmin olduqda, müvafiq dövlət qurumu tərəfindən ekoloji ekspertiza rəyi verilir.

Yerli qanunvericilikdə nəzərdə tutulan proses Dünya Bankının tələblərinə uyğunlaşdırılır. Sonrakı məsləhətləşmələr bu layihə üçün işlənib hazırlanmış Ətraf Mühit və Sosial Məsələlər üzrə Öhdəlik Planında (ƏMSÖP) qeyd olunduğu kimi həyata keçiriləcək.

5.1 Skrininq qiymətləndirməsi

Skrininq qiymətləndirməsində nəzərə alınan əsas aspektlər layihənin miqyası, fəaliyyətlərin xüsusiyyəti, ətraf mühitə və sosial sahəyə potensial təsirlər, maraqlı tərəflərin iştirakı və normativ-hüquqi konteksti ehtiva edir. Layihə ərazisi əsasən kənd və yarımsəhra zonasını əhatə edir. 2-ci və 3-cü altlayihələrin yaxınlığında icmalar vardır. Hava xətlərinin bəziləri mühafizə olunan ərazilərin hüdudlarına yaxın keçir.

İlkin yoxlama və layihə üzrə vacib olan əsas məlumatların toplanması üçün aşağıdakı metodologiya tətbiq olunmuşdur:

- Layihənin "AzərEnerji" ASC və Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən Azərbaycan qanunvericiliyinə, Dünya Bankı tərəfindən isə layihənin təsnifatı və lazım olan təsirin qiymətləndirilməsi səviyyəsi baxımından Dünya Bankının tələblərinə uyğun olaraq skrininqi və təsnifləşdirilməsi.
- 2024-cü ilin əvvəlində "AzərEnerji"nin Energetika İnstitutu tərəfindən həyata keçirilən ilkin layihələndirmə zamanı təsirə məruz qalan əsas sahələr və potensial təsirlərin ilkin skrininqi.
- 2024-cü ilin əvvəlində layihə əraziləri daxilində və onlara bitişik olan ərazilərdə ətraf mühitin ilkin vəziyyətinin ətraflı öyrənilməsi.

Bu hesabatda torpaqdan istifadə ilə bağlı dəyişikliklər, havaya atılmalar, sudan istifadə, səs-küy, cəmiyyətlə əlaqələrin pozulması və s. daxil olmaqla, lakin bununla məhdudlaşmayan, layihə ilə bağlı bir sıra potensial təsirlər müəyyən edilmişdir. Təsirləri aradan qaldırmaq üçün aşağıdakılar da daxil olmaqla, lakin bununla məhdudlaşmayaraq, təsirlərin azaldılması tədbirləri təklif edilmişdir:

- Mümkün olduqda, meşə massivlərində naqillərin ağacların üzərindən hündür məsafədən keçə bilməsi və ağacların kəsilməsini tələb etməməsi üçün hündür yerlərə direklərin yerləşdirilməsi;
- Yüksək gərginlikli elektrik verilişi xətlərinin mühafizə zonaları ilə bağlı Azərbaycan Respublikası Nazirlər Kabinetinin 10 iyun 2005-ci il tarixli, 103 nömrəli qərarının tələbləri ilə birlikdə külək nəticəsində keçiricinin maksimum məsafəsini nəzərə alaraq keçirici məsafələrinə dair EN 50341-1:2012 saylı Avropa Standartı ilə müəyyən edilmiş qaydalar tətbiq ediləcəkdir;
- Tikinti sahəsinin tələb olunan mütləq minimuma qədər məhdudlaşdırılması Buraya bütün tikinti sahələri və yollarının sərhədlərinin müəyyən edilməsi və işarələnməsi, habelə işçilərin icazə verilən sərhədlənmiş ərazilərdə qalmaları üçün təlimlər də daxil olacaqdır.
- Bütün tikinti texnikası və avadanlıqlarının hazırlanmış yollarda və tikinti sahələrində saxlanması və onlara bitişik sahələrə hərəkətin qadağan edilməsi, habelə mövcud yol şəbəkəsində nəqliyyatın idarə olunmasında icmanın effektiv iştirakı;
- Drenaj və eroziyaya nəzarət etməklə, qazıntıların və tullantıların idarə olunması üzrə müvafiq təcrübələri tətbiq etməklə tikinti zonalarından kənarda təsirlərin məhdudlaşdırılması;
- Məhsula və ya əmlaka dəyən zərərin əvəzinin operativ şəkildə ödənilməsinin təmin edilməsi;
- Yerli icmaların narahatlığı və onlara dəyən zərəri minimuma endirmək üçün tikinti işçilərinin düşərgələri və mal-materialların saxlanma sahələrinin yerləşdirilməsi və istismarı;
- Mümkün qədər yerdəyişmənin qarşısını almaq üçün hava xətlərinin istiqamətləndirilməsi;
- Hava xətlərinin quşları mühafizə qurğularının təmin edilməsi və yırtıcılar kimi iri quşlar üçün qonma yerlərinin (izolyatorlar arası məsafə və s.) nəzərə alınması ilə bağlı qabaqcıl beynəlxalq təcrübənin tətbiqi ilə quşlarla toqquşma və elektrik cərəyanı vurmasının minimuma endirilməsi şəklində layihələndirilməsi.

Layihə komponentlərinin ətraf mühit və sosial kateqoriyasını qiymətləndirmək məqsədilə onların ehtimal olunan ekoloji və sosial aspektlərini qiymətləndirmək üçün layihənin spesifik xüsusiyyətlərinə uyğunlaşdırılmış səciyyəvi skrininq matrisi istifadə edilmişdir. O, layihə komponentlərinin təsnifatını dəstəkləmək məqsədi ilə onların xüsusiyyətləri, yeri, həssaslığı və miqyasını əks etdirən xüsusi ekoloji və sosial meyarlara əsaslanır. Bu skrininq aşağıdakı cədvəldə ümumiləşdirilmişdir.

Kompleks yoxlama və təhlildən sonra müəyyən edilmişdir ki, təklif olunan təsirlərin azaldılması tədbirləri ilə adekvat şəkildə aradan qaldırıla bilməyən əhəmiyyətli ekoloji və sosial təsir potensialına görə layihə ƏMSSTQ meyarlarına tam cavab verir.

Cədvəl 5-1: Layihənin skrininqi

Skrininq bəndi	***Layihənin komponentləri (Alt—Layihələr)***															
	Alt-Layihə 1				*Alt-Layihə 2*				*Alt-Layihə 3*				*Alt-Layihə 4*			
	Layihə fazası				*Layihə fazası*				*Layihə fazası*				*Layihə fazası*			
	Tikinti		*İstismar*		*Tikinti*		*İstismar*		*Tikinti*		*İstismar*		*Tikinti*		*İstismar*	
	Hə	*Yox*	*Hə*	*Yox*	*Hə*	*Yox*	*Hə*	*Yox*	*Hə*	*Yox*	*Hə*	*Yox*	*Hə*	*Yox*	*Hə*	*Yox*
1. Yer																
Layihənin yerləşdiyi sahə aşağıdakı həssas ərazilərdən hər hansı birinə bitişik və ya onun daxilindədir?		X		X	X		X		X		X			X		X
İnsanlar və yaşayış məntəqələrinin yaxınlığı		X		X		X		X		X		X		X		X
Qanunla mühafizə olunan və ya qanuni mühafizəsi təklif olunan ərazi (məsələn, milli park, təbiət abidəsi və s.)		X		X	X		X		X		X			X		X
Beynəlxalq siyahıya daxil edilən ərazi (YUNESKO-nun Ümumdünya İrs Siyahısında olan ərazi, Ramsar ərazisi və s.) və ya beynəlxalq səviyyədə tanınan ərazi (zümrüd ərazisi, əsas botanika ərazisi, quşların əsas ərazisi, prioritet kəpənək ərazisi və s.)		X		X	X		X		X		X			X		X
Digər maraq dairəsində olan təbiəti mühafizə əraziləri		X		X	X		X		X		X			X		X
Mədəni irs obyekti		X		X	X		X		X		X			X		X
Əhəmiyyətli torpaq yerində məskunlaşma		X		X	X		X		X		X			X		X
Layihənin yerləşdiyi yer ekstremal təbiət hadisələrinə (zəlzələ, torpaq sürüşməsi, eroziya, daşqınlar və ya ekstremal və ya əlverişsiz iqlim şəraiti) qarşı həssasdırmı?		X		X	X		X		X		X			X		X
2. Potensial ekoloji və social təsirlər																
Layihədə bərpa olunmayan və ya çatışmayan təbii ehtiyatlardan istifadə ediləcəkmi?		X		X		X		X		X		X		X		X

Skrininq bəndi	Layihənin komponentləri (Alt—Layihələr)															
	Alt-Layihə 1				Alt-Layihə 2				Alt-Layihə 3				Alt-Layihə 4			
	Layihə fazası				Layihə fazası				Layihə fazası				Layihə fazası			
	Tikinti		İstismar		Tikinti		İstismar		Tikinti		İstismar		Tikinti		İstismar	
	Hə	Yox	Hə	Yox	Hə	Yox	Hə	Yox	Hə	Yox	Hə	Yox	Hə	Yox	Hə	Yox
Layihə havanın keyfiyyətinə əhəmiyyətli təsir göstərəcəkmi (toz səviyyəsi və ya hava çirkləndiricilərinin səviyyəsini artıracaqmı)?		X		X		X		X		X		X		X		X
Layihə çirkləndiricilərin yerə, səth sularına və ya yeraltı sulara atılması nəticəsində torpağın və ya suyun əhəmiyyətli dərəcədə çirklənməsi risklərinə səbəb olacaqmı?		X		X		X		X		X		X		X		X
Layihə səth su hövzələrinin dəyişməsinə, axıntı və eroziya nəticəsində suyun bulanıqlığının artmasına səbəb olacaqmı?		X		X		X		X		X		X		X		X
Layihə ekoloji xüsusiyyətlərinə görə vacib və ya həssas olan hər hansı digər ərazilərdə və ya onların ətrafında olan yer (məs. prioritet / kritik yaşayış mühitləri, bataqlıqlaşmış sahələr, çay yataqları, sahil zonası, dağlar, meşələr və ya meşəliklər) üçün risklərə səbəb olacaqmı?		X		X		X		X		X		X		X		X
Layihə bitki örtüyünün əhəmiyyətli itkisinə və/və ya yaşayış mühitinin parçalanmasına səbəb olacaqmı?		X		X		X		X		X		X		X		X
Layihə qiymətli landşaftda əhəmiyyətli vizual dəyişikliklərə səbəb olacaqmı?		X		X		X		X		X		X		X		X

Skrininq bəndi	Layihənin komponentləri (Alt—Layihələr)															
	Alt-Layihə 1				Alt-Layihə 2				Alt-Layihə 3				Alt-Layihə 4			
	Layihə fazası				Layihə fazası				Layihə fazası				Layihə fazası			
	Tikinti		İstismar		Tikinti		İstismar		Tikinti		İstismar		Tikinti		İstismar	
	Hə	Yox	Hə	Yox	Hə	Yox	Hə	Yox	Hə	Yox	Hə	Yox	Hə	Yox	Hə	Yox
Layihə əhəmiyyətli miqdarda tullantıların əmələ gəlməsinə səbəb olacaqmı?	X			X		X		X		X		X		X		X
Layihə əhəmiyyətli miqdarda təhlükəli tullantıların (o cümlədən transformatorların polixlor bifenilləri) əmələ gəlməsinə səbəb olacaqmı?		X		X		X		X		X		X		X		X
Layihə səs-küyə və/və ya vibrasiyaya səbəb olacaqmı?	X			X	X			X	X			X	X			X
Layihə elektromaqnit şüalarının yayılmasına səbəb olacaqmı?		X		X		X		X		X		X		X		X
Layihə təhlükəli və partlayıcı maddələrin istifadəsini, saxlanmasını, idarə edilməsini, daşınmasını və ya istehsalını ehtiva edəcəkmi?		X		X		X		X		X		X		X		X
Layihə hər hansı daimi və/və ya müvəqqəti torpaq alınmasına səbəb olacaqmı?		X		X	X		X		X		X			X		X
Layihə hər hansı fiziki yerdəyişməyə səbəb olacaqmı?		X		X		X		X		X		X		X		X
Layihə (demoqrafiya, ənənəvi həyat tərzi, məşğulluq və s.-də) sosial dəyişikliklərlə nəticələnəcəkmi?	X			X		X		X		X		X		X		X
Layihə üçün yeni giriş-çıxış yol(lar)ı tələb ediləcəkmi?		X		X		X		X		X		X		X		X
Layihə təsirə məruz qalan ərazidə mövcud yol hərəkətinin/nəqliyyatın pozulmasına səbəb olacaqmı?		X		X		X		X		X		X		X		X

Skrininq bəndi	***Layihənin komponentləri (Alt—Layihələr)***															
	Alt-Layihə 1				*Alt-Layihə 2*				*Alt-Layihə 3*				*Alt-Layihə 4*			
	Layihə fazası				*Layihə fazası*				*Layihə fazası*				*Layihə fazası*			
	Tikinti		*İstismar*		*Tikinti*		*İstismar*		*Tikinti*		*İstismar*		*Tikinti*		*İstismar*	
	Hə	*Yox*	*Hə*	*Yox*	*Hə*	*Yox*	*Hə*	*Yox*	*Hə*	*Yox*	*Hə*	*Yox*	*Hə*	*Yox*	*Hə*	*Yox*
Layihə peşə və/və ya icmanın sağlamlığı və əməyinin təhlükəsizliyi ilə bağlı risklərə səbəb olacaqmı?	X			X		X		X		X		X		X		X
Layihə icmanın sağlamlığı və təhlükəsizliyi ilə bağlı mövcud risklərə dair yaxşılaşmaya səbəb olacaqmı?	X		X			X		X		X		X		X		X

5.2 Ətraf mühitə və sosial təsirlərin qiymətləndirilməsi

Təklif olunan infrastruktur obyektlərinin biofiziki və sosial mühitə təsirini qiymətləndirərkən layihənin müxtəlif aspektləri nəzərə alınmışdır. Aşağıdakı cədvəldə Azərbaycan Hökuməti tərəfindən maliyyələşdiriləcək komponentləri əhatə edən təklif olunan elektrik şəbəkə infrastrukturu obyektlərinin (yarımstansiyalar və hava xətləri) genişləndirilməsi, tikintisi və istismarı ilə bağlı əsas ekoloji və sosial-iqtisadi aspektlər göstərilmişdir. Bu məsələlərin hər biri ƏMSSTQ Hesabatında ətraflı təsvir edilmişdir.

Cədvəl 5-2: Əsas ekoloji və sosial-iqtisadi aspektlər

Mövzu	Əsas məsələlər/qeydlər
İqlimlə bağlı məsələlər	İqlim dəyişikliyinin qiymətləndirilməsi - tikinti zamanı istixana qazlarının əsas emissiya mənbələri. Layihənin tikinti fazası zamanı İXQ emissiyaları generatorlar, nəqliyyat, sahədəki avadanlıq və maşınlar kimi aspektlər üçün yanacağın istifadəsi ilə əlaqədardır. Emissiyaların miqdarları hesablanmasa da, əvvəlki təcrübə və mövcud ədəbiyyat əsasında onların aşağı və 25,000 ton CO2 ekvivalentindən (t CO2ekv) əhəmiyyətli dərəcədə az olacağı gözlənilir. İstismar fazası ərzində texniki xidmət və təmir işləri zamanı maşınların hərəkəti ilə məhdudlaşan minimal İXQ emissiyaları olacaq. EVX və yarımstansiya obyektlərinin xarakterinə görə, istismar mərhələsində heç bir emissiya buraxılmayacaq.
Havanın keyfiyyəti	Layihənin normal istismarı zamanı cüzi emissiyalara malik olacağına görə havanın keyfiyyətinə təsirlərin ƏMSSTQ-dən kənarlaşdırılması təklif edilir. - Tikinti zamanı - uçan toz (nəqliyyat vasitələrinin hərəkəti; hazırlıq işləri; torpaq işləri; giriş-çıxış yollarının, yarımstansiyaların və direklərin qurulması; üzlük işləri) və nəqliyyat vasitələrinin işlənmiş qazları ilə əlaqədar havanın keyfiyyətinin dəyişməsi. Əhəmiyyətli olacağı gözlənilmədiyinə görə bunlar hazırkı ƏMSSTQ-nin əhatə dairəsindən çıxarılmışdır. - İstismar zamanı - əhəmiyyətli olacağı gözlənilmədiyinə görə hazırkı ƏMSSTQ-nin əhatə dairəsindən çıxarılmışdır.
Geologiya və torpaqlar	- Tikinti zamanı - Layihə üzrə tikinti ilə əlaqədar geoloji çöküntülərin pozulması; torpaqlar üçün risklər (çöküntülərin itirilməsi; eroziya; çirklənmə riski) - İstismar zamanı - Layihə ərazisi geoloji təhlükələrə (məsələn, eroziya, torpaq sürüşməsi və s.) həssas olmadığından əhəmiyyətli olacağı gözlənilmir və buna görə də, hazırkı ƏMSSTQ-nin əhatə dairəsindən çıxarılmışdır.
Su mühiti	- Tikinti zamanı - su mühiti üçün risk (qazıntı, çirklənmə riski, fiziki dəyişkənlik - İstismar zamanı - yarımstansiyada çirklənmə riski (transformator yağlarının təsadüfən dağılması)

Mövzu	Əsas məsələlər/qeydlər
Səs-küy və vibrasiya	- Tikinti zamanı - sahənin təmizlənməsi, torpaq işləri, giriş-çıxış yollarının, yarımstansiya və direklərin qurulması, keçiricilərin bağlanması, eləcə də tikintidə nəqliyyatın hərəkəti nəticəsində yaranan səs-küy və/və ya vibrasiya - İstismar zamanı - "tac boşalması" səbəbindən istismarla bağlı səs-küy
Biomüxtəliflik və təbii irs	- Tikinti zamanı - biomüxtəlifliyə təsirlər (yaşayış areallarının, flora və faunanın itirilməsi, növlərin pozulması, meşə yanğınları riski, çirklənmə riski) - İstismar zamanı – yaşayış mühitinin dəyişməsi və parçalanması, quş faunası üçün potensial risk (quşların toqquşması və elektrik cərəyanı vurması), çirklənmə riski
Landşaft	- Tikinti zamanı - az əhəmiyyət kəsb edən landşaftda müvəqqəti fiziki və vizual dəyişiklik olduğuna görə hazırkı ƏMSSTQ-nin əhatə dairəsindən çıxarılmışdır. - İstismar zamanı - yeni strukturların tikintisini ehtiva edəcək layihə elementləri üçün vizual aspektlərdə dəyişikliklər - əhəmiyyətli olacağı gözlənilmədiyinə görə hazırkı ƏMSSTQ-dən çıxarılmışdır.
Tullantılar	- Tikinti zamanı - tullantıların əmələ gəlməsi - İstismar zamanı - layihənin istismar müddəti ərzində tullantıların əmələ gəlməsinin çox az olacağı və layihənin istismar müddəti ərzində heç bir təhlükəli tullantı (məsələn, polixlor bifenillər) əmələ gəlməyəcəyinə görə əhəmiyyətli olacağı gözlənilmir. Buna görə də, hazırkı ƏMSSTQ-nin əhatə dairəsindən çıxarılmışdır.
Sosial-iqtisadi aspektlər	Layihənin həyata keçirildiyi müddətdə: - Müsbət təsirlər (milli/regional elektrik sisteminin təkmilləşdirilməsi, tikinti zamanı məşğulluq imkanları, yerli iqtisadiyyat və təchizat zənciri imkanları (tikinti zamanı yerli malların/meyvələrin/tərəvəzlərin işçilərə çatdırılması və satışı) - Təsirə məruz qalan icmalar, yerli hakimiyyət orqanları və müvafiq təşkilatlarla məsləhətləşmələr də daxil olmaqla maraqlı tərəflərin hərtərəfli iştirakını əhatə edəcək yaxşı SSTQ təcrübəsinin layihə ərazilərinə gətirilməsi. - İcmanın sağlamlığı və təhlükəsizliyi, dolanışıq və sosial birliyin yaxşılaşdırılması.
Əmək və iş şəraiti	İşçilərə təsir (əmək standartları və iş şəraiti, o cümlədən əməyin mühafizəsi və texniki təhlükəsizlik) Tikinti, təmir və istismar işləri zamanı işçilər üçün peşə təhlükələri baş verir (məs.): hündürlükdə iş, elektrik cərəyanı vurması, gərginlik altında olan elektrik cərəyanı xətləri ilə təmas
İcmanın sağlamlığı və təhlükəsizliyi	Tikintidə nəqliyyatın hərəkəti

Mövzu	Əsas məsələlər/qeydlər
	Layihənin həyata keçirilməsi zamanı insanların/yerli icmaların sağlamlığı, əməyinin təhlükəsizliyi və mühafizəsi Tikinti işləri Layihə üzrə tikinti zamanı insanların / yerli icmaların / işçilərin sağlamlığı, əməyinin təhlükəsizliyi və mühafizəsi
Torpağın alınması və dolanışıq	- Şəxsi aktivlərin müvəqqəti və ya daimi əldə edilməsi - məcburi iqtisadi yerdəyişmə, habelə torpağın (əkinə yararlı kənd təsərrüfatı torpaqları) istifadədən çıxarılması və istifadə hüququnun məhdudlaşdırılması.
Torpaqdan istifadə / torpaqdan istifadə təyinatının dəyişdirilməsi	- Tikinti zamanı - torpaqdan istifadənin dəyişdirilməsi, yaşayış mühitinin itirilməsi, torpaqların müvəqqəti və daimi istifadədən çıxarılması nəticəsində kənd təsərrüfatı təyinatlı torpaqların itirilməsi. - İstismar zamanı - ictimai təhlükəsizlik və layihənin təhlükəsiz istismarını təmin etmək üçün torpaqdan istifadənin məhdudlaşdırılması
Mədəni irs	Tikinti zamanı - naməlum irs aktivlərinin (aşkar edilməmiş arxeoloji sahələr) qismən və ya tamamilə çıxarılması riski Girişin məhdudlaşdırılması
Kumulyativ təsirlər	Əsas kumulyativ təsirlər - layihələrarası təsirlər - layihənin yaxınlığında oxşar növdə və miqyasda bir sıra digər layihələrin təsiri və layihənin özündə qarşılıqlı təsir.
Transsərhəd təsirlər	Layihə transsərhəd xarakterə malik deyil və layihə müddəti ərzində heç bir transsərhəd təsir olmayacağına görə hazırkı ƏMSSTQ-nin əhatə dairəsindən çıxarılmışdır.

5.3 Tədqiqat dəhlizi

5.3.1. Dəhlizin hərtərəfli ekoloji və sosial-iqtisadi tədqiqi metodologiyası

2024-cü ilin aprel-may ayları ərzində masaüstü araşdırma, daha sonra çöl tədqiqatı aparılmışdır. Ekoloji sərvətlər üçün şərtləri xarakterizə etmək və təsirləri qiymətləndirmək baxımından 200 metrlik dəhlizin yetərli olduğu hesab edilmişdir.

Dirək üçün son təsdiqlənmiş yerlər yekun layihələndirməyə qədər müəyyən edilməsə də, 200 metrlik dəhliz elə seçilmişdir ki, dirəklərin olduğu yerlərdə onların indikativ yerlərinə nisbətən kiçik dəyişikliklər təhlilin nəticələrində əhəmiyyətli fərqlər yaratmasın. Dəhlizin bir hissəsi boyunca tədqiqat sahəsi Şəkil 5-1-də təsvir edilmişdir. Xarici xətlər 200 metr enində dəhlizi, mavi xətlər binaların qadağan olunacağı 60 metrlik "təhlükəsizlik zonası"nı, yaşıl və mavi xətlər isə dirəklər və elektrik verilişi xətlərinin indikativ yerlərini göstərir.

Şəkil 5-1. 60 metrlik təhlükəsizlik zonasını göstərən 200 metrlik tədqiqat dəhlizinin səciyyəvi bölməsi

5.4. ƏMSSTQ üzrə əsas məsləhətləşmə mərhələsi

ƏMSSTQ-nin əsas mərhələsində sonradan həyata keçirilən cəlb etmə fəaliyyətləri layihələndirmə haqqında layihənin təsirinə məruz qalan və layihədən faydalanan şəxslər də daxil olmaqla, əsas maraqlı tərəflərin məlumatlandırılması, onların narahatlıqları və yüksək səviyyəli məsələlərin öyrənilməsi və layihə üçün təsirlərin azaldılması tədbirlərinin işlənib hazırlanması üçün əsas formalaşdırmaq məqsədilə nəzərdə tutulmuş məsləhətləşmələrdən ibarət olmuşdur. Bu məsləhətləşmə ƏMSSTQ qrupuna ƏMSSTQ yanaşması, əsas məsələlər və potensial təsirlərin təhlili (məsələn, onların nisbi əhəmiyyətinin qiymətləndirilməsi) haqqında əlavə rəy formalaşdırmaqla ƏMSSTQ təhlilini aparmağa imkan vermişdir.

5.4.1. Maraqlı tərəflərin müəyyənləşdirilməsi

Maraqlı tərəflər layihənin nəticələri və effektivliyinə təsir göstərə bilən və ya onların təsirinə məruz qalan və ya qanuni marağı olan şəxslər və ya qruplardır. Bəzi maraqlı tərəflər, məsələn, icazənin verilməsinə cavabdeh olan hökumət orqanları və layihəyə yaxın olan yerli icmalar aşkardır. Bununla belə, maraqlı tərəflərin ilkin müəyyənləşdirilməsində birbaşa cəlb olunmayan digər qrupların, təşkilatların və fərdi şəxslərin əhatə edilməsi nəzərdə tutulur. Məsələn, səhiyyə mütəxəssisləri və pedaqoqlar layihənin işlənib hazırlanmasında bilavasitə iştirak etməyə bilərlər, lakin onlar mövcud icma və sosial-iqtisadi dinamika ilə tanışdırlar və təsirin təhlilinin keyfiyyətini yaxşılaşdırmağa kömək edə bilərlər. Bu cür məsləhətləşmə həm də təsirlərin azaldılması və sosial investisiyaların mövcud təşəbbüslərlə əlaqələndirilməsini təmin etməyə kömək edir. Hökumət və yerli sakinlərlə məhdudlaşmadan digər maraqlı tərəflərin müəyyən edilməsi Layihənin işlənib hazırlanmasında geniş spektrli maraqların və rəylərin nəzərə alınması ehtimalını artırır.

Layihənin hər bir komponenti üzrə aşağıdakı maraqlı tərəflər müəyyənləşdirilmiş və təhlil edilmişdir. Bu maraqlı tərəflərə təsirə məruz qalan tərəflər (5.4.2.1-ci bölmədə müəyyən edilən), digər maraqlı tərəflər (6.2-ci bölmədə müəyyən edilən) və əlverişsiz vəziyyətdə olan/həssas şəxslər və ya qruplar (6.3-cü bölmədə müəyyən edilən) daxildir.

5.4.2. Təsirə məruz qalan tərəflər

Təsirə məruz qalan tərəflərə yerli icmalar, icma üzvləri və layihənin birbaşa təsirlərinə məruz qala biləcək digər tərəflər daxildir. Xüsusilə aşağıdakı fərdi şəxslər və qruplar bu kateqoriyaya aiddir:

Cədvəl 5-3: 1-ci komponent üzrə layihənin təsirinə məruz qalan tərəflər

Maraqlı tərəflərin əsas qrupu	Layihə sahəsi üzrə maraqlı tərəf
Hava xətləri trassaları boyunca mülkiyyət sahibləri	*Xüsusi torpaq mülkiyyətçiləri*
	Torpağı və ya əmlakı tikinti işlərinin təsirinə məruz qala biləcək dövlət və özəl torpaqların mülkiyyətçiləri (kənd, rayon və ya respublika səviyyəsində)
	Mülkiyyətində torpaqlar olan təşkilatlar (dini, sosial-vətəndaş və digər qruplar)

Maraqlı tərəflərin əsas qrupu	Layihə sahəsi üzrə maraqlı tərəf
Layihənin həyata keçirildiyi ərazilərdə yaşayan insanlar	*Hazırkı layihə çərçivəsində layihənin təsirinə məruz qalan tərəflərin (LTMT) ikinci əsas kateqoriyası elektrik verilişi xətti istiqaməti, giriş-çıxış yolları və nəzərdə tutulan yarımstansiyaların yaxınlığında yaşayan insanlardan ibarət olacaq. Bu LTMT-lər, güman ki, layihədə istifadə olunan ağır nəqliyyat vasitələrinin hərəkəti, tikintinin təsirləri və s. nəticəsində yaranan narahatlıqların təsirinə məruz qalsa da, layihə ilə bağlı məşğulluq imkanlarından da yararlana bilərlər.*
Bələdiyyə və kənd nümayəndələri	*Mühüm LTMT-lərin üçüncü kateqoriyası kənd nümayəndəlikləri olacaqdır. Onlar rayon icra hakimiyyəti başçısının nümayəndəsi tərəfindən təmsil edilir.*
Layihə ərazisində yerləşən və layihənin müsbət və ya mənfi təsir göstərə biləcəyi biznes müəssisələri	*Restoranlar və ictimai iaşə obyektləri*
	Mağazalar
	Avtoyuma məntəqələri
	Fərdi məhsullar
	Turistlər üçün kiçik özəl mehmanxanalar
	(Fermerlərin) bazarları (həm rəsmi, həm də qeyri-rəsmi ticarətçilər)
	Digər xidmətlər
Layihənin müsbət və ya mənfi təsir göstərə biləcəyi hədəf rayonlarda yerləşən biznes müəssisələri	*Sakinlər və icma üzvləri*
	(Fermerlərin) bazarları (həm rəsmi, həm də qeyri-rəsmi ticarətçilər)
	Restoranlar
	Digər xidmətlər

5.4.3. Digər maraqlı tərəflər

Digər maraqlı tərəflər layihədə marağı ola biləcək, layihənin təsirləri, təsirlərin azaldılması mexanizmləri və faydaları ilə bağlı müxtəlif narahatlıqları və prioritetləri ola biləcək və fərqli və ya ayrı-ayrı iştirak formaları tələb edə biləcək şəxslərdir (ƏMSS 10. 5 və 11-ci bəndlər). Ümumiyyətlə, bunlar layihənin həyata keçirilməsinə təsir etmək və qərar qəbul etmək imkanına malik olan və/və ya layihədə marağı ola biləcək insanlar, sosial qruplar və təşkilatlardır. Bu qrupa layihədən faydalana biləcək dövlət qurumları, QHT-lər və özəl biznes müəssisələri daxildir. AZURE-un hər üç komponentinin aşağıda göstərilən eyni digər maraqlı tərəfləri ehtiva etməsi nəzərdə tutulur:

Cədvəl 5-4: "AZURE" layihəsi üzrə digər maraqlı tərəflər

Maraqlı tərəflərin əsas qrupu	Layihənin maraqlı tərəfi
Nazirliklər və dövlət qurumları	*Energetika Nazirliyi*
	"Azərbaycan Dəmir Yolları" QSC
	Mədəniyyət Nazirliyi
	Dövlət Turizm Agentliyi
	Maliyyə Nazirliyi

Maraqlı tərəflərin əsas qrupu	Layihənin maraqlı tərəfi
	İqtisadiyyat Nazirliyi
	Fövqəladə Hallar Nazirliyi
	Kənd Təsərrüfatı Nazirliyi
	Ekologiya və Təbii Sərvətlər Nazirliyi
	Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi
	Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi
	Rayon İcra Hakimiyyətləri
Vətəndaş cəmiyyəti təşkilatları	*Yerli QHT-lər, Sosial İqtisadiyyat Təşkilatları Həmkarlar İttifaqı, fondlar; sosial müəssisələr; kooperativlər və kredit ittifaqları.*
Layihələrin hazırlanması ilə məşğul olan digər qurumlar Beynəlxalq QHT-lər və icraçı təşkilatlar	*Layihələrin hazırlanması ilə məşğul olan digər qurumlar, beynəlxalq QHT-lər və icraçı təşkilatlar (məsələn, BMT-nin İnkişaf proqramı, Almaniya Beynəlxalq Əməkdaşlıq Cəmiyyəti, BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı və s.)*

5.4.4. Əlverişsiz/həssas vəziyyətdə olan fərdlər və ya qruplar

Əlverişsiz/həssas vəziyyətdə olan fərdlər və ya qruplar öz narahatlıqlarını ifadə etmək imkanına və ya layihənin təsirlərini başa düşmək üçün potensiala malik olmaya və beləliklə, maraqlı tərəflərin cəlb olunması prosesindən və layihənin faydalarından kənarda qala biləcək şəxslərdir.

Bu layihə çərçivəsində həssas qruplara aşağıdakılar daxil ola bilər: (i) qadınlar: icmaların iştirak qruplarının gender baxımından balanslaşdırılmış olmasını təmin etmək və bu qruplar çərçivəsində qadınların liderliyini təşviq etmək, ödənişsiz qulluq işində çalışan qadınların iştirak edə bilməsi üçün onlayn və şəxsi sorğular və digər iştirak yönümlü fəaliyyətlər tərtib etmək; hər hansı şəxsi icmanın iştirakı ilə bağlı fəaliyyətlər üçün uşağa qulluq, nəqliyyat və təhlükəsizlik müddəalarını nəzərdən keçirmək; layihə ilə bağlı potensial olaraq istisna edilmə və risklərə qarşı xüsusilə həssas olan qadın və qız qrupları da daxil olmaqla, qadınların və qızların sərbəst və əlverişli iştirakına imkan verən gender seqreqasiyalı məsləhətləşmələri və digər yanaşmaları təşviq etmək; qadın təşkilatları, o cümlədən zərərçəkmiş şəxslərin hüquqlarını müdafiə edən təşkilatlarla məsləhətləşmək (ii) Yaşlılar və mövcud tibbi sağlamlıq problemləri olan insanlar: xüsusi ehtiyaclar haqqında məlumat hazırlayın və onların nə üçün daha çox risk altında olduqlarını və onlara qayğı göstərmək üçün hansı tədbirlərin görüləcəyini izah etmək; mesajları uyğunlaşdırın və onları xüsusi yaşayış şəraiti (o cümlədən qocalar evi) və sağlamlıq vəziyyəti üçün münasib etmək; ailə üzvünü hədəfə almaq; (iii) Əlilliyi olan şəxslər: məlumatı brayl şrifti, iri çap kimi əlçatan formatlarda təqdim etmək; mətn altyazıları və ya imzalı videolar, eşitmə qüsurlu insanlar üçün mətn yazıları, köməkçi texnologiyadan istifadə edən insanlar üçün onlayn materiallar kimi çoxsaylı ünsiyyət formaları təklif etmək; genderi və şəxsiyyətin və həssaslığın digər ölçülərini nəzərə və diqqətə almaq.

Layihə bu qrupların layihə ilə bağlı məlumat almasını, onlarla məsləhətləşməni və layihədə iştirak etmək və öz fikirləri və narahatlıqlarını ifadə etmək vasitələrinə malik olmasını təmin etmək üçün diferensiallaşdırılmış tədbirləri özündə birləşdirmişdir.

Məsləhətləşmələr yerli icmalarla (açıq ictimai görüşlər) və icmalardakı əsas maraqlı tərəflərin kiçik qrupları (əsas məlumat verənlər və fokus-qruplar), nümunələri tədqiq olunan ərazi daxilində yerləşən torpaq mülkiyyətçiləri ilə aparılmışdır. Bu icmaların riskə uyğun profil nümunəsi olan nümayəndələri bu görüşlərə dəvət olunmuşdur. Bu görüşlərin məqsədi bu maraqlı tərəfləri daha yaxşı başa düşmək üçün həyata keçiriləcək ilkin sosial araşdırma üçün əsas yaratmaqdan ibarət olmuşdur. İctimai dinləmələr barədə xəbər yerli media və bələdiyyələr də daxil olmaqla müvafiq kanallar vasitəsilə elan edilmişdir. Dinləmələr ictimaiyyət üçün açıq olmuşdur. Hesabat layihəsi və yekun hesabatlar ictimaiyyətə təqdim olunmuşdur.

5.5 Cari vəziyyət barədə məlumatların toplanması

Layihənin həyata keçirildiyi regionlarda mövcud ekoloji və sosial şəraitin hərtərəfli başa düşülməsi təklif olunan altlayihələrin potensial təsirlərinin dəqiq müəyyən edilməsi və qiymətləndirilməsi üçün vacib ilkin şərtdir. Cari şəraitin başa düşülməsi layihənin səbəb ola biləcəyi dəyişikliklərin ölçülməsinə imkan verir.

Əsas ekoloji və sosial məlumatların toplanması prosesi aşağıdakılara əsaslanır:

- Masaüstü tədqiqatlar (yəni, ətraf mühit üçün qanunla müəyyən edilmiş keyfiyyət standartları və emissiya həddi dəyərləri; mövcud ədəbiyyat, strateji/planlaşdırma sənədləri, statistika, məlumat bazaları və müxtəlif müvafiq təşkilatların hesabatları; həmçinin mövcud internet mənbələri və digər oxşar layihələr).

- Təsir zonasını (tədqiqat sahəsini) müəyyən etmək və yarımstansiyanın yerləşdiyi yerdə və hava xətlərinin dəhlizləri boyunca tələb olunan əlavə məlumatların (məsələn, biomüxtəlifliyin tədqiqi; landşaftın qiymətləndirilməsi; torpaqdan istifadənin müşahidəsi və s.) toplanması, eləcə də mühəndis layihələndirmə məqsədləri üçün aparılan müxtəlif çöl tədqiqatlarından faydalanmaq üçün sahəyə baxış və müşahidələr.

5.5.1 İlkin tədqiqatlar

Tədqiqat sahələri daxilində müvafiq ilkin ekoloji və sosial vəziyyəti müəyyən etmək üçün ƏMSSTQ zamanı aşağıdakı cədvəldə qeyd olunan hərtərəfli tədqiqatlar aparılmışdır. Bu sorğuların əhatə dairəsi 2024-cü ilin mart-may ayları ərzində aparılan masaüstü tədqiqat və ilkin çöl tədqiqatı vasitəsilə müəyyən edilmişdir. Çöl tədqiqatları 2024-cü ilin aprel ayında aparılmışdır. Hər bir müvafiq mövzu üzrə sorğulardan əldə edilən nəticələr bu ƏMSSTQ-nin müvafiq bölmələrində təqdim olunur.

Cədvəl 5-5: Keçirilən vizual yoxlamaların nəticələri

İlkin tədqiqat	Məqsəd və əhatə dairəsi
	Havaya atılmaların əsas mənbələri elektrik verilişi xətlərinin ox xəttindən 200 m məsafədə və yarımstansiyanın təklif olunan yerinin

İlkin tədqiqat	Məqsəd və əhatə dairəsi
Havanın keyfiyyəti	ətrafında 200 m məsafədə - havanın keyfiyyəti ilə bağlı ilkin vəziyyətin göstəricisini əldə etmək üçün müşahidə edilmişdir. Tədqiqat sahəsində və ya daha geniş bölgədə atmosfer havasının keyfiyyətinin ölçülməsi aparılmır. Havanın əsas çirklənmə mənbəyi nəqliyyat şəbəkəsidir. Ətraf mühitdə havanın mövsümi çirklənməsinin digər mənbələri istilik mövsümündə və kənd təsərrüfatı fəaliyyətləri nəticəsində atmosferə atılmalardan ibarətdir. Ərazidə əhəmiyyətli sənaye obyektləri yoxdur. Ərazidə sıx məskunlaşma yoxdur və əsasən kənd xüsusiyyətinə malikdir.
Geoloji və su mühiti	Yarımstansiyanın təklif olunan yeri də daxil olmaqla, elektrik verilişi xətləri boyunca 500 m genişlikdə dəhliz daxilində geoloji mühit (trassanın mərkəzi xəttindən 250 m məsafədə) müşahidə edilmişdir. Düzənliyin səthini neosen və antropogen çöküntülər əhatə edir. Layihə ərazisi boz-qəhvəyi, boz-çəmən, şoran torpaqlardan ibarətdir. Tədqiqat aparılan ərazidə bütövlükdə relyef geoloji təhlükələr (sürüşmə və torpaq sürüşməsi, eroziya) baş vermir və sabit hesab olunur. Sahə ilə bağlı spesifik məsələlər yarana bilər, lakin layihənin işlənib hazırlanması mərhələsində bunlar nəzərə alınmamışdır. Layihə sahəsində və hava xətləri trassalarında aparılan vizual yoxlamalar zamanı tədqiqatların aparıldığı ilin dövrlərində (fevral-aprel) qrunt sularının səviyyəsinin gözlənilən həddə olduğu aşkar olunmuşdur. Layihənin təsirinə məruz qalacaq, artıq məlum olan böyük su hövzələrindən əlavə, axın xüsusiyyəti ilə (davamlı və ya arabir) birgə daha kiçik su axınları qeydə alınmışdır.
Səs-küy	Səs-küyün ilkin vəziyyətini öyrənmək üçün yarımstansiyanın nəzərdə tutulan yeri (trassanın mərkəzi xəttindən 1000 m məsafədə) də daxil olmaqla, elektrik verilişi xətləri boyunca 2000 m genişlikdə dəhliz daxilində əsas səs-küy mənbələri müşahidə edilmişdir. Nə tədqiqat sahəsi daxilində, nə də daha geniş bölgədə ətraf mühitin səs-küyünün ölçülməsi aparılmır. Əsas səs-küy mənbəyi nəqliyyat şəbəkəsi, eləcə də kənd təsərrüfatı fəaliyyətləridir. Ərazidə əhəmiyyətli sənaye obyektləri yoxdur. Ərazidə sıx məskunlaşma yoxdur və əsasən kənd xüsusiyyətinə malikdir.
Torpaqdan istifadə / torpaq örtüyü	Torpaq örtüyü yarımstansiyanın nəzərdə tutulan yerləşmə yeri də daxil olmaqla, elektrik verilişi xətləri boyunca 1000 m enində dəhliz daxilində (trassanın mərkəzi xəttindən 500 m məsafədə) qiymətləndirilmişdir. Torpaq örtüyü "ArcGIS" proqram təminatında hər iki altlayihə üçün ayrıca hesablanmışdır. Bu ƏMSSTQ-də torpaq örtüyü xəritəsi də işlənib hazırlanmış və təqdim edilmişdir. Altlayihə 1-də torpaq örtüyündə kənd təsərrüfatı torpaqları (40 faiz) və

İlkin tədqiqat	Məqsəd və əhatə dairəsi
	qaraşoran örtüyü (30 faiz) üstünlük təşkil edir. Altlayihə 2 və altlayihə 3-də torpaq örtüyündə kənd təsərrüfatı torpaq örtüyü növləri və sənaye sahələrinin kiçik faizi üstünlük təşkil edir. EVX-lərin trassaları boyunca hər hansı meşə massivləri yerləşmir.
Biomüxtəliflik və təbii irs	Biomüxtəlifliyin ilkin vəziyyətini daha geniş kontekstdə təqdim etmək üçün daha geniş ərazidə mövcud biomüxtəlifliyin vəziyyətini müəyyən etmək və layihənin dolayı təsirlərini qiymətləndirmək üçün səciyyəvi və kifayət qədər hesab olunan, elektrik verilişi xətləri boyunca 1000 m genişlikdə dəhlizdən (trassanın mərkəzi xəttindən 500 m məsafədə), o cümlədən Nəvahi yarımstansiyasının təklif olunan yerindən istifadə edilmişdir. İlkin vəziyyət ədəbiyyata, Azərbaycanın ekosistemlərinin xəritəsi və biomüxtəliflik sahəsində aparılan çöl tədqiqatlarına əsaslanır. Bu ƏMSSTQ-də təqdim olunan yaşayış yerləri və növlər haqqında məlumatların əksəriyyəti masaüstü tədqiqatlardan, kiçik hissəsi isə çöl müşahidələrindən əldə edilmişdir. Altlayihələr bitki örtüyü, flora və yaşayış mühitləri, habelə mühafizə olunan və təyin edilmiş ərazilərin (milli və ya beynəlxalq əhəmiyyətə malik) mövcudluğu nöqteyi-nəzərindən ayrıca təhlil edilmişdir. Yaşayış mühitləri müxtəlif təsnifat sistemlərinə (EUNIS, Ramsar, CLC) uyğun olaraq müəyyən edilmiş və ƏMSS 6-nın müddəalarına uyğun olaraq təsnifləndirilmişdir. Yarımsəhra yaşayış mühitlərində yovşan (*Artemisia* fragrans) üstünlük təşkil edir, ya tək başına, ya da şoran ot (*Salsola* spp) və ya qırtıcla (*Bothriochloa*) birlikdə olur. Bu ərazidə daha səciyyəvi səhra bitkilərinin ocaqlarına də rast gəlinir. Çöl bitkiləri 300-700 m arasında olan aran və dağətəyi ərazilərdə yaranır və əsasən meşəlik və kolluq ərazilərə antropogen təsirin nəticəsidir. Üstünlük təşkil edən növlər otlardır (*Bothriochloa* spp). *Bothriochloa ischaemum/ Glycyrrhiza glabra* aran çöllərində zəngin floristik icmalar inkişaf etmişdir. Tikanlı kollar, xüsusən də yemişan (*Paliurus spina-christii*) səciyyəvidir. Hazırda ərazinin 58 faizindən çoxu kənd təsərrüfatı üçün (pambıq, üzüm, taxıl, tərəvəz sahələri) əkilir. Xeyli ərazi ev heyvanları üçün qış otlaqları kimi istifadə olunur. Altlayihə 3 (330 kV-luq hava xətləri) fars ceyranı, sudaüzən quş və Şirvan düzünün bitkilərinə xidmət edən Şirvan Milli Parkının əraizisindən keçməsə də Şirvan Təbiət Qoruğunun hüdudlarına paralel keçməklə 4 dayaq qoruq ərazisinə düşür. O, yarımsəhra çəmənlikləri və bataqlıq ekosisteminə aiddir. Azərbaycanda landşaftlar dağlıq və düzənlik növlərinə bölünür. Onların arasında bir sıra landşaft tipləri və yarımtipləri fərqləndirilir. Tədqiqat sahəsi daxilində üç landşaft növü müəyyən edilmişdir -

İlkin tədqiqat	Məqsəd və əhatə dairəsi
Landşaft	yarımstansiyanın təklif olunan yeri də daxil olmaqla, elektrik verilişi xətləri boyunca 1000 m enində dəhliz (trassaların mərkəzi xəttinin 500 metrliyində): (i) aran yarımsəhra landşaftı; (ii) düzənliklərin quru-səhra landşaftı; (iii) aran və düzənliklərin yarımsəhra landşaftı. Bu landşaft tipləri onların görünüşü, matrisası və hissələri, əlaqəliliyi, eləcə də altlayihələrdə mövcudluğu baxımından təsvir edilmişdir.
Sosial-iqtisadi kontekst: Yaşayış məntəqələri	Sakinlərin ümumi həyat tərzini, dolanışıq təminatını, yaşayış yerini, kommunal infrastrukturun vəziyyətini, yol birləşmələrini, sosial obyektlərin mövcudluğunu və onlardan istifadəni, inzibati obyektləri və yerli həyat və bu insanların ehtiyaclarının/istəklərinin düzgün başa düşülməsini uğurla asanlaşdıracaq digər xüsusiyyətləri müəyyən etmək üçün tədqiqat sahəsi daxilində potensial təsirə məruz qalan bütün yaşayış məntəqələrinə, o cümlədən elektrik verilişi xətləri boyunca 1000 m enində dəhlizə (trassaların mərkəzi xəttindən 5,00 m məsafədə), yarımstansiyanın təklif olunan yerinə baş çəkilmiş və yerində müşahidə aparılmışdır. Toplanmış məlumatlar müvafiq qaydada qeydə alınmış və təhlil edilmişdir. Tədqiqat ərazisinə daxil olan kənd yaşayış məntəqələrinin hər biri tədqiq edilmişdir və potensial olaraq təsirə məruz qalmış bütün yaşayış məntəqələrində təsadüfi seçilmiş/görüş keçirilmiş yerli sakinlərlə (1-3 nəfər) strukturlaşdırılmamış müsahibə (qeyri-rəsmi) aparılmışdır. Hər bir kənd üzrə icra nümayəndəsindən kənd sakinləri haqqında toplanan məlumatlar kəndlərdə əhalinin həssas qruplarının müəyyən edilməsi üçün istifadə olunmuşdur. Yeni yarımstansiyanın (altlayihə 1) təklif olunan yerləşmə yerinin yaxınlığında onun gələcək təkmilləşməsi üçün məhdudiyyətlər yaradacaq heç bir yaşayış obyekti və ya digər əmlak müəyyən edilməmişdir.
Sosial-iqtisadi kontekst: Yaşayış sahələri və digər əmlaklar	Tikinti üçün təklif olunan mövcud elektrik verilişi xətləri boyunca aparılan çöl tədqiqatları göstərmişdir ki, layihənin birbaşa təsirinə məruz qalacaq yaşayış obyektləri yoxdur. Yaxınlıqdakı bütün yaşayış evləri və digər obyektlər elektrik verilişi xətlərindən təhlükəsiz məsafədə yerləşir.
Sosial-iqtisadi kontekst: Həssas qruplar	Ən yaxın yaşayış məntəqəsi layihə ərazisindən (Nəvahi yarımstansiyası) ən azı 1 km aralıda (vizual müşahidələr) olmaqla, hava xətləri qeyri-yaşayış sahələrindən keçir. Ona görə də müəyyən edilmişdir ki, burada əhalinin həssas qrupları yaşamır. Aktivlərə girişin məhdudlaşdırılması yolu ilə təsirlər ƏMSSTQ çərçivəsində də öyrənilmişdir.

İlkin tədqiqat	Məqsəd və əhatə dairəsi
Mədəni irs	Aparılan çöl tədqiqatları elektrik verilişi xətti dəhlizlərinin müəyyən mədəni irs obyektlərinin mövcudluğunun görünən elementləri ilə bağlı hərtərəfli yoxlamanı ehtiva etmişdir. Layihə çərçivəsində tikiləcək infrastruktur obyektlərinin yaxınlığında heç bir mədəni irs abidəsinə rast gəlinmir. Layihənin əhatə etdiyi rayonlarda və kəndlərdə mövcud olan tarixi-mədəni irs abidələri barədə ətraflı məlumat Əlavə D-də verilmişdir.

5.6 Layihələndirmə və qərar qəbuletmə ilə qarşılıqlı əlaqə

Ətraf mühit və sosial sahəyə təsirin qiymətləndirilməsi və hərtərəfli layihələndirmə prosesi bir-biri ilə qarşılıqlı əlaqədə olur, hər ikisində ikitərəfli kommunikasiya vasitəsilə məlumatlandırma həyata keçirilir və layihənin müxtəlif müvafiq maraqlı tərəfləri ilə davamlı məsləhətləşmələr və müzakirələr aparılır. Ətraf mühit və sosial sahəyə təsirin qiymətləndirilməsi potensial (mənfi) təsirləri müəyyən edir ki, bu da potensial olaraq bu təsirlərin əhəmiyyətini azaltmaq və ya qarşısını almaq üçün layihələndirmənin təkmilləşdirilməsinə səbəb ola bilər. Bu sinergiya prosesi ətraf mühit və sosial sahəyə təsirin qiymətləndirməsindən əldə edilən fikirlərə/rəylərə əsaslanaraq layihənin ən erkən işlənib hazırlanma mərhələsindən başlayaraq layihələndirmə prosesi ilə qarşılıqlı əlaqədə olmuşdur. Bu cür yanaşma layihə üzrə üstünlük verilən seçimlərin, xüsusilə də elektrik verilişi xətlərinin dəhlizləri üçün seçilməsi prosesi çərçivəsində, ilkin ekoloji və sosial təkliflərlə layihələndirmə prosesinə töhfə verib və beləliklə təsirin qarşısının alınması üçün "layihələndirmə yolu ilə təsirlərin azaldılması" ehtiyat məqsədinə nail olunub. Layihənin qarşısı alına bilən mənfi ekoloji və sosial təsirlər əsasında layihələndirilməsi ehtimalını azaltmaq üçün bu yanaşma növbəti mərhələlərdə də davam etdiriləcəkdir. Sinergiya prosesi texniki layihələndirilməyə ƏMSSTQ və ƏMSİP üzrə tövsiyələri lazımi qaydada daxil etməyə imkan vermişdir. ƏMSSTQ hesabatı həmçinin yerli resurs (işçi qüvvəsi) üçün məlumat əldə etməyə kömək edəcək.

5.7 Təsirlərin qiymətləndirilməsi və azaldılması

ƏMSSTQ təhlili aşağıdakıları əhatə etmişdir:

- 500/330 kV-luq yarımstansiya və elektrik verilişi xətlərinin yerləşdiyi ərazilərə baxış
- Sahəyə baxış zamanı iş yerlərinin həcmi və altlayihə komponentlərinin uzlaşdırılması ilə bağlı geniş mühəndis heyəti ilə müzakirələr
- Layihə İnstitutu tərəfindən təqdim olunan layihə məlumatlarına baxış
- DB-nin beynəlxalq ətraf mühit mütəxəssislərinin peşəkar rəyi və təcrübəsi
- Ətraf mühitə təsir potensialı az olan altlayihə komponentlərinin çoxluğunu və oxşarlığını nəzərə alaraq ƏMSSTQ tədqiqatının metodologiyasının DB ilə razılaşdırılması.
- Ətraf mühit və sosial sahə üzrə mütəxəssislər də daxil olmaqla DB-nin layihə mütəxəssisləri ilə müzakirələr

ƏMSSTQ təhlilinin ümumi təsbitləri qısa şəkildə aşağıda ümumiləşdirilmişdir:

- Təklif olunan yeni 500/330 kV-luq yarımstansiya “Azərenerji” ASC-yə məxsus torpaq sahəsinin hüdudlarında yerləşir.
- Nəvahi YS ilə birləşdiriləcək yarımstansiyada təklif olunan genişləndirmələr mövcud yarımstansiya sahələrinin hüdudlarında yerləşir.
- Genişləndirmə işləri aparılacaq yarımstansiyaların sahəsi və təklif olunan Nəvahi yarımstansiyasının sahələri aşağı ekoloji dəyərlərə malik sənaye, şəhərətrafı və ya kənd əraziləri kimi təsvir edilə bilən yerlərdə yerləşir.
- Nəzərdə tutulan yeni 330 kV-luq xətlərin əhəmiyyətli hissəsi mövcud dəhlizlər boyunca çəkiləcək.
- Bankə-Nəvahi EVX-si Şirvan Dövlət Təbiət Qoruğunun sərhədlərinə paralel keçir, 7 dayaq isə Şirvan Milli Parkının kənar ərazisinə düşmüşdür.
- Sahədə aparılan müşahidələrə və layihə institutu ilə aparılan müzakirələrə əsasən, ümumi layihənin təsiri asanlıqla yumşaldıla bilən mülayim müvəqqəti ekoloji təsirlərə səbəb olacağı ehtimal edilir.
- Ətraf mühitə ən ciddi potensial təsir Şirvan Milli Parkının ərazisindən keçəcək Bankə-Nəvahi elektrik verilişi xəttinin tikintisi ilə bağlı olacaq.
- Hava xətlərinin qabaqcıl beynəlxalq sənaye standartlarına uyğun olaraq, quşları mühafizə qurğuları daxil edilməklə və elektrik cərəyanı vurması riskləri nəzərə alınmaqla, habelə tikinti işlərinin quşların miqrasiya və çoxalma vaxtlarının nəzərə alınmaqla layihələndirilməsi vacib olacaqdır.
- Bütün tikinti işçilərinin düşərgələri və mal-materialların saxlanma sahələri yerli icmalara təsirlərin və narahatlığın minimuma endirilməsi şəklində layihələndiriləcək.
- Layihə dayaqların özülləri üçün torpağın alınmasını (servitut qaydasında) labüd edəcəkdir
- Layihə məşğulluq imkanlarının yaradılması, asfalt yolların salınmasına səbəb olacaq Nəvahi YS-in tikintisi hesabına Nəvahi kəndində yerli infrastrukturu yaxşılaşdıracaq.
- Layihə bərpa olunan enerji mənbələrindən əldə edilən təmiz enerjinin olacağı, layihənin əhatə etdiyi ərazinin investisiya baxımından cəlbediciliyini artıracaq.

Azərbaycan Hökumətinin maliyyələşdirdiyi hissələr üzrə ekoloji və sosial təsirlərin qiymətləndirilməsi müvafiq milli qanunvericiliyə və DB-nin ƏMSÇ standartlarına uyğun olaraq həyata keçirilmişdir. Belə ki, Azərbaycan Hökuməti tərəfindən maliyyələşdirilən altlayihələr (500/330 kV-luq Nəvahi yarımstansiyasının 330 kV-luq tərəfi; Biləsuvar GES - Nəvahi YS hava xətti (90 km), Bankə GES - Nəvahi YS hava xətti (80), Nəvahi YS – Abşeron YS (65 km) üçün Azərbaycanın milli ekoloji qanunvericiliyinə uyğun olaraq Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Dövlət Ekoloji Ekspertiza Agentliyi tərəfindən təsdiq olunacaq ƏMSSTQ/ƏMSİP hazırlanmışdır. "Azərenerji" tərəfindən Hökumətin maliyyələşdirdiyi alt-layihələr üzrə ƏMSSTQ/ƏMSİP-lər üçün, habelə Masdar şirkətinin öz obyektləri üçün hazırladığı ƏMSSTQ hesabatları üçün işlərə başlamazdan əvvəl korrektiv tədbirlərin görülməsi məqsədilə müstəqil məsləhətçi şirkət hesabatların ekoloji və sosial kompleks yoxlanmasını aparacaqdır.
"Azərenerji" ASC Dünya Bankının Ətraf Mühit və Sosial Çərçivəsinə uyğun olaraq Bank tərəfindən maliyyələşdirilən alt-layihələr üçün ayrıca ƏMSSTQ və ƏMSİP hazırlayacaq.

Bundan əlavə, Masdar tərəfindən Bankə, Biləsuvar və Abşeron rayonlarında günəş və külək elektrik stansiyalarının tikintisi və istismarı üçün ayrıca ƏMSSTQ sənədləri hazırlanacaq.

Əlaqədar layihələr üçün hazırlanmış ƏMSSTQ-lər arasında uyğunluğu təmin etmək üçün "Azərenerji"-nin LİQ-i bütün qiymətləndirmələrdə ardıcıl metodologiyaları, paylaşılan məlumatları və uzlaşdırılmış

məqsədləri birləşdirən uyğunlaşdırılmış yanaşma tətbiq etmişdir. Bu, hər bir layihədə iştirak edən ƏMSSTQ qrupları arasında müntəzəm əlaqə və məlumat mübadiləsini asanlaşdıran mərkəzi koordinasiya çərçivəsinin yaradılmasını nəzərdə tutur. İlkin məlumatların toplanması, təsirin qiymətləndirilməsi meyarları və təsirin azaldılması tədbirlərini standartlaşdırmaqla komanda kumulyativ və sinergistik təsirlər haqqında vahid anlayış formalaşdırmışdır. Bundan əlavə, maraqlı tərəflərin cəlb edilməsi proseslərinin uyğunlaşdırılması şəffaflığı və etimadı gücləndirməklə, ictimaiyyətin narahatlıqları və rəylərinin bütün layihələrdə ardıcıl şəkildə həllini təmin etmişdir. Müntəzəm birgə baxış sessiyaları və inteqrasiya olunmuş hesabat mexanizmləri ƏMSSTQ-lərin nəinki hərtərəfli fərdi sənədlər kimi qalmasını, həm də ardıcıl və vahid ətraf mühit və sosial idarəetmə strategiyasına birgə töhfə verməsini təmin etmişdir.

5.8 Layihənin yerləşdiyi yerə görə təsirlər və təsirlərin azaldılması tədbirləri

Açıq-bənövşəyi xətt - Nəvahi YS - Biləsuvar GES HX - 90 km
Yaşıl xətt - Bankə GES - Nəvahi YS HX - 80 km
Tünd bənövşəyi xətt - Nəvahi YS - Abşeron YS HX - 65 km

500/330/10 kV-luq Nəvahi YS-nin yerləşdiyi yer

Bankə GES

Biləsuvar GES

Şirvan Milli Parkının yerləşdiyi yer

Abşeron (Qobustan) SES

Şəkil 5-2. Layihənin alt-layihələrinin yerləşdiyi yer

5.8.1. Alt-layihə 1: 500/330/10kV-luq Nəvahi yarımstansiyası

Bu altlayihədə "Azərenerji"yə məxsus torpaq sahəsinin hüdudlarında yeni yarımstansiyanın tikintisi nəzərdə tutulur. Sahə ekoloji dəyərləri aşağı olan kənd ərazisində yerləşir. Torpağın dəyərinə hər hansı təsir gözlənilmir.

Qiymətli ekoloji ərazilərə və ya tarixi/mədəni dəyərə malik ərazilərə heç bir müdaxilə yoxdur. Yarımstansiya sahəsinin yaxınlığında, yarımstansiyanın tikintisi və ya istismarı nəticəsində təsirə məruz qalacaq ekoloji cəhətdən həssas ərazilər və ya tarixi/mədəni abidələr də daxil olmaqla əhəmiyyətli həssas obyektlər yoxdur.

Digər kommunal xidmətlərə və nəqliyyatın hərəkətinə müdaxilə. Azərbaycan Hökumətinin qəbul etdiyi qaydalara əsasən, "Azərenerji"nin tikintidən əvvəl dəmir yolları, avtomobil yolları, telekommunikasiya qurumlarından və zərurət olduqda elektrik ötürücü infrastrukturun tikintisinin təsirinə məruz qala biləcək aviasiya qurumlarından müvafiq icazə alması məcburidir. Yeni yarımstansiya

“Azərenerji”yə məxsus mövcud torpaq sahəsinin hüdudlarında tikiləcəyindən, digər kommunal xidmətlərə və nəqliyyatın hərəkətinə ciddi müdaxilə gözlənilmir.

Su drenaj rejimlərinə müdaxilə. “Azərenerji”yə məxsus torpaq sahəsinin hüdudlarında yeni yarımstansiya infrastrukturunun tikintisi əraziyə daxil olan və ərazidən çıxan yağış sularının təbii axınında minimal dəyişikliklərin baş verəcəyi effektiv drenaj layihəsinin təmin edilməsini ehtiva edəcəkdir. Drenaj giriş-çıxış yollarının və yaxınlıqdakı ərazilərin su altında qalmasının qarşısını almaq üçün yarımstansiyadan su axınının təyin olunmuş yerlərə aparılması şəklində layihələndiriləcəkdir. Yağış sularının idarə edilməsi dövlət qurumlarının tələblərinə uyğun olmalıdır. Su drenaj rejimlərinə ciddi təsirlər gözlənilmir.

Giriş-çıxış yollarının salınması. Nəvahi yarımstansiyasından 500 metr məsafədə yerləşən kərpic zavoduna gedən və Ələt-Qazax-Gürcüstan sərhədi avtomobil yolundan ayrılan yol layihə sahəsinə giriş-çıxış yoludur. Ağır yük maşınlarının (yük nəqliyyat vasitələri, təchizat və ya iri qabaritli texnika və s.) sahəyə daxil olmasına imkan vermək üçün giriş-çıxış yoluna (təxminən 150 m) bütünlüklə asfalt örtüyünün döşənməsi lazım olacaq.

Şəkil 5-3: Nəvahi YS-in yeri

5.8.2. Alt-layihə 2: 500kV-luq elektrik verilişi xətti

Bu alt-layihə üzrə işlər elektrik verilişi xəttinin tikintisi və naqillərlə birgə direklərin/Dayaqların quraşdırılmasını əhatə edir. Bəzi bölmələrdə yeni xətlər “Azərenerji” tərəfindən idarə olunan mövcud elektrik verilişi xətlərinə paralel olaraq keçəcək. Xətt yaşayış ərazilərindən aralı, kənd təsərrüfatı sahələri və yaxın gələcəkdə torpaq istifadəsinin dəyişməsi ehtimalı az olan quru-şoran torpaqlardan keçir. Torpağın dəyərinə təsir olacağı gözlənilir və bu təsirlər xətlər üçün ayrıca hazırlanacaq Köçürmə Fəaliyyət Planlarında öyrəniləcəkdir.

Dəyərli ekoloji ərazilərə və ya tarixi/mədəni ərazilərə müdaxilə olmayacaq. 500 kV-luq paylayıcı xətlərin trassaları daxilində və ya yaxınlığında əhəmiyyətli həssas reseptorlar, o cümlədən ekoloji həssas ərazilər və ya tarixi/mədəni abidələr yoxdur. Beləliklə, bu ekoloji dəyərlərə heç bir təsir olmayacaqdır.

Sosial və iqtisadi dəyərlərə təsir. 500 kV-luq EVX-bin tikintisinin əhəmiyyətli sosial və iqtisadi dəyəri olan ərazilərdən keçmir. Əsas narahatlıq sahələri kənd təsərrüfatı torpaqları və mədəni əhəmiyyətli ərazilərdir. Təklif olunan trassa boyunca yerləşən mədəni irs əraziləri (Qobustan palçıq vulkanları) də yerli ənənələri və tarixi qoruyub saxlamaq üçün qorunacaqdır.

Digər kommunal xidmətlərə və nəqliyyatın hərəkətinə müdaxilə. Azərbaycan Hökumətinin qəbul etdiyi qaydalara əsasən, "Azərenerji"nin tikintidən əvvəl dəmir yolları, avtomobil yolları, telekommunikasiya qurumlarından və zərurət olduqda elektrik paylayıcı infrastrukturun tikintisinin təsirinə məruz qala biləcək aviasiya qurumlarından müvafiq icazə alması məcburidir. Bununla belə, yeni xəttin nəqliyyat xətlərinin mövcud vəziyyətinə hər hansı bir müdaxiləyə səbəb olacağı ehtimal olunmur.

Elektrik verilişi xətti dəmir yolu relsindən keçdiyi yerlərdə dəmir yolları idarəsindən icazə alınmışdır. Yeni xətt qaz/neft/su paylayıcı xətlər və dəmir yolları, mülki aviasiya və mülki müdafiə qurğuları arasında kifayət qədər məsafənin saxlanılması üçün müvafiq şəkildə planlaşdırılmış və icra olunmuşdur. Yeni EVX-nin marşrutu boyunca hava limanları yerləşmir.

Su drenajı rejimlərinə müdaxilə. Yeni 500 kV-luq EVX havada tikildiyi və qüllə təməlləri üçün yer səthində çox kiçik bir sahə tutulduğu üçün drenaj rejimlərinə təsirlər cüzi olacaq. Drenajın təsirə məruz qaldığı nadir hallarda, axın təhlükəsiz zonalara yönləndiriləcək.

Giriş-çıxış yollarının tikintisi. Elektrik verilişi xətti üçün giriş-çıxış yollarının tikintisinə ehtiyac olmayacaq. Qüllə yerlərinə maşın və avadanlıqların getməsi üçün mövcud yollardan və cığırlardan istifadə ediləcək. Zərurət olduqda, giriş-çıxış yolları tikiləcək. Yolların qurulması açıq torpaq sahələrindən keçən cığırların yaradılmasını və ya buldozerlə yol açılmasını tələb edə bilər.

Təmir və xidmət işlərini yerinə yetirmək üçün nəqliyyat vasitələri və avadanlıqlarının elektrik Dayaqlarının yerlərinə gəlməsi zəruri ola bilər.

İlkin tikintidə olduğu kimi, mövcud yollar və cığırlardan istifadə olunacaq; lakin bəzi hallarda müvəqqəti yollardan istifadə zəruri ola bilər. Təmir və xidmət əməliyyatları zamanı torpağa dəyən hər hansı zərər işlər tamamlandıqdan sonra aradan qaldırılacaq və torpaq qatı əvvəlki vəziyyətinə qaytarılacaqdır.

5.8.3. Alt-layihə 3: 330kV-luq elektrik verilişi xətləri

Bu alt-layihə üzrə görüləcək işlər elektrik verilişi xətlərinin tikintisi və naqillərlə birgə direklərin/Dayaqların quraşdırılmasını əhatə edir. Bəzi bölmələrdə yeni xətlər "Azərenerji" tərəfindən idarə olunan mövcud elektrik verilişi xətlərinə paralel olaraq keçəcək. Xətlər yaşayış və qeyri-yaşayış ərazilərindən (sanitar zona qorunmaqla), kənd təsərrüfatı sahələrindən və gələcəkdə istifadə olunmayacaq çöl-şoran torpaqlardan keçir. Torpağın dəyərinə təsir olacağı gözlənilir və bu təsirlər xətlər üçün ayrıca hazırlanacaq Köçürmə Fəaliyyət Planlarında öyrəniləcəkdir.

Dəyərli ekoloji ərazilərə və ya tarixi/mədəni ərazilərə müdaxilə olmayacaq. 330 kV-luq paylayıcı xətlərin (Nəvahi YS – Bankə GES EVX) və Nəvahi YS – Biləsuvar GES EVX) trassaları əhəmiyyətli həssas reseptorlar, o cümlədən ekoloji həssas ərazilərə (milli park və qoruqlar, köçəri quşların dincəlmə yerləri) yaxın keçir. Görüləcək xüsusi yumşaldıcı tədbirlər sayəsində bu ekoloji aktivlərə təsir minimal olacaqdır. EVX-lərin traslarına tarixi/mədəni abidələr yoxdur.

Sosial və iqtisadi dəyərlərə təsir. 330 kV-luq EVX-lərin tikintisinin əhəmiyyətli sosial və iqtisadi dəyəri olan müxtəlif ərazilərdən keçəcəyi gözlənilir ki, bu da diqqətli nəzərdən keçirilmə və idarəetmə tələb edir. Əsas narahatlıq sahələri kənd təsərrüfatı torpaqları, yaşayış icmaları və mədəni əhəmiyyətli ərazilərdir. Elektrik verilişi xəttinin trassası yerli ərzaq məhsullarının istehsalı və dolanışıq vasitələri üçün mühüm olan aqrar bölgələrdən keçir. Bu ərazilərə müdaxilə fermerlər üçün iqtisadi itkilərə və kənd təsərrüfatı məhsullarının istehsalının azalmasına səbəb ola bilər. Təklif olunan trassa boyunca yerləşən təbiət qoruğuna (Şirvan Təbiət Qoruğu) təsirlər minimum olacaqdır və qoruğun sərhədlərinə yaxın ərazidən keçən xəttin tikintisi zamanı xüsusi yumşaldıcı tədbirlər görüləcəkdir.

Digər kommunal xidmətlərə və nəqliyyatın hərəkətinə müdaxilə. Azərbaycan Hökumətinin qəbul etdiyi qaydalara əsasən, "Azərenerji"nin tikintidən əvvəl dəmir yolları, avtomobil yolları, telekommunikasiya qurumlarından və zərurət olduqda elektrik paylayıcı infrastrukturun tikintisinin təsirinə məruz qala biləcək aviasiya qurumlarından müvafiq icazə alması məcburidir. Bununla belə, yeni xətlərin digər kommunikasiya xətlərinə və nəqliyyata mövcud vəziyyətdən əlavə, hər hansı bir müdaxiləyə səbəb olacağı ehtimalı azdır.

Elektrik verilişi xətti dəmir yolu relsindən keçdiyi yerlərdə dəmir yolları idarəsindən icazə alınmışdır. Yeni xətt qaz/neft/su paylayıcı xətlər və dəmir yolları, mülki aviasiya və mülki müdafiə qurğuları arasında kifayət qədər məsafənin saxlanılması üçün müvafiq şəkildə planlaşdırılmış və icra olunmuşdur. Yeni EVX-nin marşrutu boyunca hava limanları yerləşmir.

Su drenajı rejimlərinə müdaxilə. Yeni 330 kV-luq EVX havada tikildiyi və qüllə təməlləri üçün yer səthində çox kiçik bir sahə tutulduğu üçün drenaj rejimlərinə təsirlər cüzi olacaq. Drenajın təsirə məruz qaldığı nadir hallarda, axın təhlükəsiz zonalara yönləndiriləcək.

Giriş-çıxış yollarının tikintisi. Naqilləri və dayaqları öz yerlərinə daşımaq üçün 330 kV HX-lərin trassası boyunca mövcud giriş-çıxış yollarından istifadə ediləcək.

5.8.4. Alt-layihə 4: Mövcud yarımstansiyada genişləndirmə işləri

Bu alt-layihə çərçivəsində görüləcək işlər mövcud yarımstansiyanın sərhədləri daxilində yeni genişləndirmə yuvalarının quraşdırılmasını ehtiva edir.

Bu alt-layihənin qiymətli ekoloji ərazilərə və ya tarixi / mədəni dəyəri olan sahələrə heç bir müdaxiləsi olmayacaq, buna görə də bu aktivlərə heç bir təsir olmayacaq. Bütün genişləndirmə işləri və yuvaların quraşdırılması mövcud yarımstansiyanın ərazisində həyata keçiriləcək.

Digər kommunikasiya xətlərinə və nəqliyyata heç bir təsir olmayacaq. Əksinə, xidmət xətlərinin cari vəziyyətindən qaynaqlanan hər hansı mövcud təsirlər bərpa işləri sayəsində azaldılacaq.

Bu alt-layihənin su drenajı rejimlərinə heç bir təsiri olmayacaq.

Bütün xətlər və yuvalar yarımstansiyaların mövcud giriş-çıxış yollarında və daxilində olduğu üçün yeni giriş-çıxış yollarına ehtiyac olmayacaq.

5.9 Layihələndirmə fazası ilə əlaqəli təsirlər və təsir azaltma tədbirləri

5.9.1. Altlayihə 1: 500/330/10 kV-luq yarımstansiya

500/330 kV-luq yarımstansiyasının tikintisi ətraf mühitin dayanıqlılığı üzrə ciddi prinsiplər əsasında həyata keçiriləcək və onun ekoloji təsirlərini minimuma endirmək üçün Mövcud Ən Yaxşı Üsullar (MƏYÜ) tətbiq ediləcək. Layihə sahəsinin yaxınlığındakı həssas ekosistemləri, yerli vəhşi təbiəti və təbii resursları müəyyən etmək və qorumaq üçün genişmiqyaslı ətraf mühit qiymətləndirmələri aparılacaq. Yerli bitki örtüyünün qorunmasına, su resurslarının idarə olunmasına və tikinti və istismar dövründə torpaq eroziyasının və çirklənmənin qarşısının alınmasına xüsusi diqqət yetiriləcək.

MƏYÜ-lərə riayət etməklə, yarımstansiyanın layihəsi yüksək ətraf mühit standartlarını təşviq edən qabaqcıl texnologiyalar və təcrübələri ehtiva edəcək. Buraya hava və səs-küy çirklənməsini minimuma endirmək üçün aşağı səs-küy və aşağı emissiyalı avadanlıqların istifadəsi, enerji səmərəliliyini artıran və istixana qazı emissiyalarını azaldan müasir izolyasiya və soyutma sistemləri daxildir. Bundan əlavə, tikinti fəaliyyətlərində modul əsaslı tikinti və tikinti materiallarının təkrar emalı kimi torpaqlara müdaxiləni və tullantıların yaranmasını azaldan metodlardan istifadə ediləcək.

Ətraf mühitlə bağlı normativ-hüquqi sənədlərə və standartlarına uyğunluğu təmin etmək üçün ekoloji monitorinq sistemləri quraşdırılacaq, bu da ətraf mühit parametrlərinin real vaxtda izlənməsinə və aşkar edilən hər hansı təsirlərin sürətlə aradan qaldırılmasına imkan verəcək. Bu ekoloji və MƏYÜ komponentlərini özündə birləşdirməklə, yarımstansiya layihəsi dayanıqlı inkişafı dəstəkləməyi, eyni zamanda elektrik şəbəkəsinin etibarlılığını və səmərəliliyini təmin etməyi hədəfləyir.

Çirkləndirici materialların sızması. Yarımstansiyanın tikintisindən qaynaqlanan əsas potensial çirkləndirici material mənbəyi yarımstansiya drenaj sistemi vasitəsilə ya birbaşa, ya da dolayı yolla torpağa və yeraltı sulara daxil olan yarımstansiya transformatorlarından yağ sızmasıdır. Beynəlxalq standartlara uyğun olaraq heç bir PXB (polixlorlaşdırılmış benefillər) yağları istifadə edilməsə də, alternativ yağlar da ətraf mühitə yayıldıqda torpaq və suyun keyfiyyətinə mənfi təsir göstərə bilər.

Transformatorların yağ ilə doldurulması avadanlıqlar ilkin olaraq quraşdırıldıqda baş verir. Düzgün izolyasiya xüsusiyyətlərinin qorunub saxlanılması üçün dövri olaraq yağın yenidən emalı və ya əvəz edilməsi tələb oluna bilər. Normal istismar şəraitində, kipkəc və araqatlardan sızma vasitəsilə zamanla çox kiçik yağ itkiləri baş verə bilər. Digər tərəfdən, elektrik nasazlığı və ya qəza/yanğın ətraf mühitə daha irimiqyaslı yağ sızmasına səbəb ola bilər. Yeni yarımstansiyalarda transformatorlardan və ya digər yağla dolu avadanlıqlardan sızan yağı saxlamaq və sahədən çıxmamasını təmin etmək üçün adekvat yağ tutucu sistemlər tələb olunur. Layihə çərçivəsindəki bütün yeni yarımstansiyalar üçün Elektrik və Elektronika Mühəndisləri İnstitutunun (IEEE) aşağıdakı Təlimatlarına riayət edilməlidir:

- IEEE Təlimatı № 1127-2013: IEEE-nin İcma üçün məqbulluq və ətraf mühitə uyğunluq üçün elektrik yarımstansiyalarının layihələndirilməsi, tikintisi və istismarı üzrə Təlimatı
- IEEE Təlimatı № 980-12013: IEEE-nin Yarımstansiyalarda yağ sızmalarının lokallaşdırılaması və ona nəzarətə dair Təlimatı.

Transformator yağı, həmçinin yarımstansiyalarda istifadə oluna biləcək sürtkü yağı, həlledicilər və yanacaq ehtiyatları bu məqsəd üçün nəzərdə tutulmuş beton və ya kərpic tikililərdə saxlanılmalıdır.

Sahədə eyni vaxtda ən çoxu təxminən 500 litr transformator yağı və 100 litr yanacaq və sürtkü yağı saxlanılacağı gözlənilir. Yağ/yanacaq saxlanılan tikili yaxşı havalandırılan, dam örtüyü olan, keçirici olmayan beton döşəməyə malik bir struktur olmalıdır. Giriş yoluna beton bənd quraşdırılmalıdır ki, yağ və ya yanacaq məhsulları qəza nəticəsində çəllək və ya çəndən sızdıqda, töküldükdə dayaz bir saxlama çəni yaratsın. Yağ və ya yanacaq yanğını ilə mübarizə üçün uyğun olan yanğınsöndürmə balonları hər hansı yağ/yanacaq saxlama tikilisinin içərisində və xaricində yerləşdirilməlidir.

Yağ sızıntısının təmizlənməsi üçün nəzərdə tutulan materiallar (uducu bezlər, uducu dənəvər materiallar və s.) hər hansı yağ/yanacaq saxlama tikilisində aydın şəkildə etiketlənmiş konteynerlərdə yerləşdirilməlidir. Yarımstansiya operatorları yaxşı təmizlik təcrübələri, o cümlədən yağ/yanacaq sızmalarının təmizlənməsi və çirklənmiş uducu materialların utilizasiyası barədə təlimdən keçməlidirlər.

Ətraf torpaq və su hövzələrinə heç bir qəbuledilməz təsir olmaması üçün maye tullantıların idarəolunması sistemləri quraşdırılacaq. Yarımstansiyanın drenaj sistemi mümkün subasmaların qarşısını almaq üçün diqqətlə layihələndirilməli və sahədən kənarda yerə axıdılmazdan əvvəl duru və qatı yağ separatoru vasitəsilə yönəldilməlidir.

Yuxarıda göstərilən tədbirlər həyata keçirildiyi halda yarımstansiyalardan çirkləndirici materialların sızması nəticəsində potensial təsirlər əhəmiyyətsiz olacaq.

Partlayış/yanğın təhlükələri. Müasir transformatorlar yağla soyudulan qurğulardır və bir transformatoru digərindən ayıran yanğın divarları (brandmauer) da daxil olmaqla yanğına nəzarət sistemləri ilə təchiz edilir. Bu tədbirlər transformatorların qızıb yanmasının qarşısını almağa və nadir hallarda yanğın baş verdikdə, yanğının qonşu transformatorlara yayılmamasına kömək edir.

Yarımstansiyaların layihələrinə IEEE-nin 979 nömrəli standartında (IEEE-nin "Yarımstansiyalar üçün yanğından mühafizə Təlimatı (2012).) göstərilən müasir yanğına nəzarət sistemləri daxil ediləcək. Yağla doldurulan transformatorlar və ya digər yağla doldurulan avadanlıqların istifadə olunduğu yerlərdə yağ və ya yanacaq yanğını ilə mübarizə üçün uyğun yanğınsöndürmə balonları yerləşdirilməlidir. Yarımstansiya üçün yanğın hadisəsi üzrə fəaliyyət planı hazırlanacaq və əməkdaşlara yanğınsöndürmə avadanlıqlarından istifadə qaydası və fəaliyyət planının icrası üzrə təlim veriləcək.

Səs-küy/Vibrasiya narahatlıqları. Yarımstansiyalarda quraşdırılan avadanlıqların əksəriyyəti statikdir və layihələndirilərkən səs səviyyəsinin həmişə icazə verilən hədlər daxilində olması təmin edilib. Bundan əlavə, tikiləcək yarımstansiya sahəsi yaşayış məntəqələrindən və digər səs-küyə həssas reseptorlardan kifayət qədər uzaq məsafədə yerləşdiyindən səs-küy təsirləri əhəmiyyətsiz olacaq.

Təklif olunan yeni 500/330 kV-luq yarımstansiya kənd ərazilərində, potensial həssas reseptorlardan kifayət qədər uzaqda yerləşir.

5.9.2. Altlayihə 2 və 3 – 500 və 330 kV-luq elektrik verilişi xətləri

Layihə çərçivəsində təklif olunan bütün elektrik verilişi xətlərinin yeni trassalarının layihələndirilməsi beynəlxalq səviyyədə qəbul edilən layihələndirmə və təhlükəsizlik standartlarına uyğun olacaq. Bu, bütün elektrik verilişi infrastrukturuna münasibətdə icma təhlükəsizliyinin və istismar səmərəliliyinin, həmçinin enerji ötürülməsinin yaxşılaşmasına səbəb olacaq.

5.9.3. Altlayihə 4: Mövcud yarımstansiyada genişləndirmə işləri

Mövcud yarımstansiyadakı yeni yuvaların layihələndirilməsi mərhələsində ətraf mühit amillərinin nəzərə alınması layihələrin dayanıqlı və məsuliyyətli şəkildə hazırlanmasının təmin edilməsində mühüm rol oynayır. Layihələndirmə prosesi ətraf mühitə potensial təsirlərin minimuma endirilməsinə yönələn müxtəlif ekoloji təsir azaltma tədbirlərini ehtiva edir. Bu tədbirlər ətraf mühitin məsuliyyətli idarə olunması və resursların qorunmasını təşviq etmək üçün normativ tələblər, qabaqcıl sənaye təcrübələri və ekoloji standartlarla uzlaşır.

Yeni yuvanın layihələndirilməsində enerji səmərəliliyi, resursların qorunması və "yaşıl tikinti" prinsipləri prioritetləşdirilmişdir. Enerji səmərəliliyi yüksək olan avadanlıqlar, bərpa olunan enerjinin inteqrasiyası və passiv soyutma üsulları kimi dayanıqlı layihələndirmə xüsusiyyətləri ətraf mühitə təsiri azaltmaq və uzunmüddətli dayanıqlılığı təşviq etmək üçün nəzərdən keçirilmişdir.

Yeni yuvaların heç bir səs-küy təsiri olmayacaq.

5.10 Tikinti fəaliyyətləri ilə əlaqəli təsirlər və təsir azaltma tədbirləri

5.10.1. Altlayihə 1: 500/330/10 kV-luq yarımstansiya

Eroziya və çöküntü ilə bağlı təhlükələr. Çox məhdud qazma işləri tələb olunacaq və bu, yarımstansiya sahəsində transformatorlar və yarımstansiya strukturları/paylayıcı qurğular və s. üçün torpağın çıxarılması və platformanın hazırlanması ilə məhdudlaşacaq. Məhdud qazıntı işləri və mövcud quru iqlim şəraiti tikinti fəaliyyətləri nəticəsində eroziya və çöküntü ilə bağlı potensial təsirlərin cüzi olacağını göstərir.

Eroziya və çöküntünü minimuma endirmək üçün tədbirlər müqavilə sənədlərinə daxil ediləcək. Bu tədbirlərə mövcud bitki örtüyünün və üst torpaq qatının çıxarılmasının minimuma endirilməsi, qazma işlərinin aparıldığı ərazilərin yenidən örtülməsi daxil olacaq. Tikinti zamanı pozulan üst qatı torpaq qazılan ərazinin səthinin bərpası üçün istifadə olunacaq. Bəhrəsiz və qayalıq material təyin olunmuş lisenziyalı tullantı sahələrinə atılacaq və ya uyğun olduqda doldurucu material kimi istifadə olunacaq.

Yaxınlıqdakı əmlaklar üçün narahatlıq. Tikinti zamanı yaxınlıqdakı əmlaklara potensial narahatlıq aşağıdakılardan ibarət olacaq:

- Tikinti işlərindən və materialları sahələrə daşıyan ağır tonnajlı nəqliyyat vasitələrindən gələn səs-küy və vibrasiya
- Qazıntı və materialların daşınması zamanı yaranan toz
- Tikinti qurğuları və ağır tonnajlı nəqliyyat vasitələrindən xaric olan işlənmiş qazlar səbəbindən hava çirklənməsi
- Qaynaq işləri zamanı yaranan qaz emissiyaları

Tikinti fəaliyyətləri mexaniki avadanlıqların müvəqqəti və dövri olaraq qısamüddətli istifadəsini ehtiva edəcək, işlərin əksəriyyəti əl əməyindən istifadə edilərək həyata keçiriləcək. Əsas səs-küy və toz

yaradan fəaliyyətlər platformaların hazırlanması üçün kiçik qazıntılar və materialların və avadanlıqların sahələrə vaxtaşırı daşınması ilə əlaqəli olacaq. Bu fəaliyyətlərdən yaranan səs-küy, toz narahatlığı və hava çirklənməsinin yaxınlıqdakı icmalara potensial təsiri cüzi və ya az olacaq və vaxtaşırı meydana çıxacaq. Lakin, bu təsirləri minimuma endirmək üçün nümunəvi tikinti təcrübələri müqavilə sənədlərində göstəriləcəkdir.

Azərbaycan səs-küy standartlarına[7] görə, yaşayış məntəqələrində gündüz saatlarında (07:00-23:00) maksimal icazə verilən səs-küy səviyyəsi 50 dB (A) və gecə saatlarında (23:00-07:00) isə 40 dB (A) təşkil edir. Bu altlayihələrin tikintisi zamanı platforma hazırlığı üçün qazıntılar və avadanlıqların sahələrə çatdırılması kimi səs-küylü tikinti fəaliyyətləri dövründə vaxtaşırı səs-küy monitorinqi (tikinti dövründə ən azı 4 dəfə) həyata keçiriləcək. Monitorinq nöqtələri tikinti sahəsindən 100 metrdən az məsafədə yerləşən ən yaxın yaşayış evinin fasadında yerləşdiriləcək. Əgər səs-küy monitorinqi zamanı icazə verilən standartdan yüksək səs-küy səviyyələri qeydə alınarsa və bu, layihənin tikinti fəaliyyəti ilə dəqiq əlaqələndirilərsə, podratçı əlavə səs-küy azaltma tədbirləri həyata keçirməlidir (məsələn, səs-küy standartına uyğunluğu təmin etmək üçün iş üsullarına düzəliş edilməsi və ya müvəqqəti səs-küy baryerlərinin yerləşdirilməsi).

Səs-küy üçün təsir azaltma tədbirlərinə aşağıdakılar daxil olmalıdır:

- Fəaliyyətlərin gündüz iş saatlarına təyin edilməsi
- Səs-küyü minimum səviyyədə saxlamaq üçün maşın və nəqliyyat vasitələrinə texniki qulluğun gücləndirilməsi

Toz/hava çirklənməsi üçün təsir azaltma tədbirlərinə aşağıdakılar daxil olmalıdır:

- Tikinti materiallarını daşıyan nəqliyyat vasitələrinin keçdiyi icmaların yaxınlığında tozu yatırmaq üçün döşənməmiş yollara su püskürdülməsi
- Tikinti materiallarını daşıyan nəqliyyat vasitələri örtülməlidir.
- Nəqliyyat vasitələri və tikinti avadanlıqlarına müntəzəm olaraq texniki xidmət göstərilməli və onlar saz vəziyyətdə saxlanılmalıdır
- Nəqliyyat vasitələri və tikinti avadanlıqları qanunvericilikdə müəyyən olunmuş emissiya standartlarına uyğun olmalıdır

Suyun keyfiyyətinə təsirlər. Tikinti zamanı yaranan tullantı suları sahə işçilərinin məişət tullantı sularından, yağ və digər sürtkü materiallarının sızması nəticəsində yaranan çirklənmədən, tikinti tullantılarının atılması və tikinti avadanlıqları və nəqliyyat vasitələrinin yuyulmasından yaranan tullantı sularından ibarət olacaq. Bu cür tullantı suları düzgün idarə olunmazsa, yaxınlıqdakı su obyektlərini, drenaj kanallarını və suvarma kanallarını çirkləndirə bilər.

Podratçılardan tikinti zamanı yaranan tullantı sularının yaxınlıqdakı drenaj kanallarına və suvarma kanallarına birbaşa daxil olmasının qarşısını almaq üçün tədbirlər həyata keçirmək tələb olunacaq. Bu tədbirlər aşağıdakılardan ibarət olmalıdır:

- Sahədə lazımi sanitariya şəraitinin, o cümlədən septik çənlər və süzdürücü quyular və ya təmizlənməmiş tullantı sularının yaxınlıqdakı su hövzələrinə axıdılmasına imkan verməyən alternativ sanitariya qurğularının təmin edilməsi

[7] *Dövlət Ümumi Standartları və Tələbləri (DÜST) 17187, 8 iyul 2008-ci il tarixli, 796 nömrəli Prezident Fərmanı)*

- Bərk məişət tullantılarının və tikinti tullantılarının toplanması və kənarlaşdırılması üçün uyğun sistemin təmin edilməsi
- Avadanlıqlara texniki qulluq, yanacaq doldurulması və onların yuyulması üçün bərk örtüklü sahələrin təmin edilməsi. Burada drenaj yağ və sürtkü yağı tutucuları vasitəsilə istiqamətləndirilərək, xarici drenaj kanallarına, ardınca çöküntü hovuzuna axıdılır.
- Tikinti avadanlıqları üçün yaxşı istismar və texniki baxım təcrübələrinin tətbiqi
- Yağ sızması üçün cavab planının hazırlanması

Yuxarıda göstərilən tədbirlərin düzgün tətbiqi tikinti zamanı suyun keyfiyyətinə potensial təsirlərin əhəmiyyətsiz olmasını təmin edəcək.

Kommunal xidmətlərə müdaxilə, giriş-çıxış yollarının bağlanması. Təklif olunan yeni yarımstansiya sahəsinə ictimai yollarla giriş-çıxış mümkündür və sahəyə tikinti ilə əlaqədar nəqliyyat vasitələrinin hərəkəti minimal olacaq və vaxtaşırı baş verəcək. Podratçılardan lazım olduqda ictimaiyyətin və işçilərin hərəkətinin təhlükəsizliyini təmin etmək üçün nişanlar qoymaq və nəqliyyatın hərəkətini tənzimləmək tələb olunacaq. Podratçılardan tikinti müddətində ictimai və özəl obyektlərə mövcud giriş-çıxış yollarının saxlanılmasını təmin etmək tələb olunacaq.

Sağlamlıq və təhlükəsizlik. Tikinti işçiləri və ictimaiyyət tikinti zamanı baş verə biləcək qəzalar nəticəsində bir sıra təhlükəsizlik riskləri ilə üzləşə bilər. Bunlara, digər məsələlərlə yanaşı, partlayışlar, dirəklərdən və binalardan yıxılma, təhlükəsiz olmayan enerji təchizatı və avadanlıqların sıradan çıxması daxildir. Potensial sağlamlıq risklərinə qeyri-kafi sanitariya şəraiti və yoluxucu xəstəliklər daxildir. Bu cür riskləri minimuma endirmək üçün "Azərenerji" podratçıların qanunvericilikdə elektrik enerjisi infrastrukturu ilə əlaqədar işçilərin və əhalinin təhlükəsizliyi ilə bağlı nəzərdə tutulan tələblərə və digər beynəlxalq səviyyədə qəbul edilən təhlükəsizlik təlimatlarına riayət etmələrini təmin edəcək.

Əmək və iş şəraiti. Podratçı işçilərə və əməkdaşlara təhlükəsizlik eynəkləri, dəbilqələr, maskalar, çəkmələr, əlcəklər və s. kimi bütün zəruri təhlükəsizlik ləvazimatlarını təmin etməlidir. Elektrik cərəyanı vurması ilə bağlı təhlükənin qarşısını almaq üçün lazımi ehtiyat tədbirləri görüləcək. İşçilərin və əhalinin qorunması üçün nişan lövhələri, təhlükə işıqları/qırmızı işıqlar, hasarlama və işıqlar kimi tədbirlər təmin ediləcək. Podratçılardan tikinti işlərinə başlamazdan əvvəl İşçi Sağlamlığı və Təhlükəsizliyi Planını təsdiq üçün təqdim etmək tələb olunacaq. Bundan əlavə, podratçılardan işçilər üçün kifayət qədər sağlamlıq və təhlükəsizlik təlimi təmin etmək tələb olunacaq.

Layihə həm iş yerində, həm də işçilərlə yerli icma arasında qarşılıqlı əlaqələrdə cinsi istismar və zorakılıq və seksual qısnamanın (CİZ/SQ) qarşısının alınmasının və aradan qaldırılmasının vacibliyini qəbul edir.

Sıfır Tolerantlıq Siyasəti: Layihə hər hansı formada cinsi istismar və zorakılıq və seksual qısnamaya (CİZ/SQ) qarşı sıfır tolerantlıq siyasətini tətbiq edir. Bütün işçilər, vəzifələrindən asılı olmayaraq, bu siyasətə riayət etməlidirlər.

Təlim və maarifləndirmə: Bütün işçilər üçün CİZ/SQ haqqında maarifləndirmə və onun qarşısının alınması mövzusunda icbari təlim proqramları keçiriləcək. Bu təlimlərdə CİZ/SQ davranışlarının ayırd edilməsi, nəticələrini anlamaq və hadisə barədə məlumat vermək qaydası əhatə olunacaq.

Şikayət mexanizmləri: CİZ/SQ hadisələri barədə məlumat vermək üçün işçilər üçün məxfi və əlçatan şikayət mexanizmi yaradılacaq. Bu mexanizm hadisə barədə şikayət edənlər üçün anonimliyi və qisasdan qorunmağı təmin edəcək.

Dəstək xidmətləri: CİZ/SQ qurbanları məsləhət və hüquqi yardım daxil olmaqla dəstək xidmətlərinə çıxış əldə edəcəklər. Layihə zərər çəkmiş şəxslərə hərtərəfli dəstək göstərmək üçün yerli təşkilatlarla əməkdaşlıq edəcək.

Davranış Qaydaları: Məqbul davranışı və CİZ/SQ-nin nəticələrini təsvir edən aydın davranış qaydaları bütün işçilərə paylanılacaq. Bu Qaydalara riayət etmək işə qəbul üçün şərt olacaq.

İcma ilə qarşılıqlı əlaqə tədbirləri

İcmanın cəlb olunması: Layihənin CİZ/SQ siyasətləri və şikayət mexanizmləri barədə məlumat vermək üçün yerli icma ilə müntəzəm iş aparılacaq. İcma üzvləri layihə işçiləri ilə bağlı hər hansı CİZ/SQ hadisələrini bildirməyə təşviq ediləcək.

İşçi Davranışı Təlimi: İşçilər icma üzvləri ilə qarşılıqlı təmas zamanı məqbul hesab edilən davranışlar haqqında xüsusi təlim alacaqlar. Bu təlim hörmət, mədəni həssaslıq və peşəkar sərhədlərin qorunmasının vacibliyini vurğulayacaq.

Yerli hakimiyyət orqanları ilə əməkaşlıq: Layihə, CİZ/SQ məsələlərini tez və effektiv həll etmək üçün yerli hakimiyyət orqanları və icma liderləri ilə sıx əməkdaşlıq edəcək. Həm işçilər, həm də icma üzvləri üçün təhlükəsiz mühit yaratmaq məqsədilə birgə səylər göstəriləcək.

Monitorinq və Qiymətləndirmə: Potensial məsələləri müəyyən etmək və düzəldici tədbirlər tətbiq etmək üçün CİZ/SQ risklərinin davamlı monitorinqi və qiymətləndirilməsi aparılacaq. Davamlı təkmilləşməni təmin etmək üçün icmanın rəyləri bu prosesə inteqrasiya ediləcək.
İctimai maarifləndirmə kampaniyaları: Layihə, CİZ/SQ haqqında icmanı maarifləndirmək, sıfır tolerantlıq mədəniyyətini təşviq etmək və bu cür davranışlara qarşı kollektiv fəaliyyətə təşviq etmək üçün ictimai maarifləndirmə kampaniyalarını dəstəkləyəcək.

5.10.2. Alt-layihə 2 və Alt-layihə 3: 500 və 330 kV-luq elektrik verilişi xətləri

Sosial təsirlər. 500 kV və 330 kV hava xətləri üçün dayaqların tikintisi və əlaqədar servitut məhdudiyyətlərinin təsirlənmiş icmalara əhəmiyyətli sosial təsirləri olacağı gözlənilir. Dayaqların quraşdırılması üçün tələb olunan torpağın alınması bir çox yerli ailə üçün mühüm dolanışıq mənbəyi olan kənd təsərrüfatı torpaqlarının bir hissəsinin itirilməsinə səbəb ola bilər. Mövcud əkin sahələrinin azalması kənd təsərrüfatı məhsuldarlığının azalmasına və fermerlər üçün iqtisadi çətinliklərə səbəb ola bilər.

Bundan əlavə, hava xətlərinin ətrafında yaradılan servitut zonaları torpaq istifadəsinə məhdudiyyətlər qoyacaq, tikinti işləri, ağac əkilməsi və bəzi kənd təsərrüfatı təcrübələri kimi fəaliyyətləri məhdudlaşdıracaq. Bu məhdudiyyətlər icma inkişafı planlarını poza bilər, yerli bizneslərə mane ola bilər və sakinlərin ümumi həyat keyfiyyətinə təsir göstərə bilər. Yüksək gərginlikli elektrik xətlərinin

görünüşü pozması və onlarla bağlı fərz edilən sağlamlıq riskləri səbəbindən, elektrik xəttinin yaxınlığındakı əmlakların dəyərləri də mənfi təsirə məruz qala bilər.

Bu sosial təsirləri azaltmaq məqsədilə, təsirə məruz qalmış icmaların narahatlıqlarını və ehtiyaclarını anlamaq üçün maraqlı tərəflərlə geniş məsləhətləşmələri ehtiva edən hərtərəfli Köçürmə Fəaliyyət Planları hazırlanmışdır. Torpaq itkisi və dolanışıq vasitələrinin ədalətli həlli üçün kompensasiya sxemləri hazırlanacaq. Bundan əlavə, layihə haqqında aydın məlumat vermək, yanlış təsəvvürləri aradan qaldırmaq və iş yerlərinin yaradılması və infrastrukturun təkmilləşdirilməsi kimi yerli faydalar üçün imkanları araşdırmaq üçün icmaların cəlb edilməsi proqramları yaradılacaq.

Torpağın alınması və servitut məhdudiyyətlərinin sosial təsirlərini proaktiv şəkildə idarə etməklə, layihə mənfi təsirləri minimuma endirmək və yerli icmalarla müsbət münasibətləri gücləndirmək məqsədi daşıyır.

Eroziya və çöküntü ilə bağlı təhlükələr. Layihə çərçivəsində, torpaq eroziyasına töhfə verə biləcək və su axarlarında çöküntü potensialına malik minimal qazıntı işləri olacaq. Qazıntılar əsasən aşağıdakılarla məhdudlaşacaq:

- təsir dəhlizində hər bir torşəkilli dayağın beton özülləri üçün dörd çuxurun qazılması

Dayaq özülləri üçün qazıntılar dayağın ayaqları ətrafında olan sahə ilə məhdudlaşacaq. 500 kV və 330 kV dayaqların maksimum ayaq izi təxminən 20 m² olacağından, eroziya qüvvələrinə məruz qalacaq sahə məhduddur.

Mümkün qədər, dayaq/dirək yerlərinə giriş-çıxış üçün mövcud xəttin texniki xidmət yollarından istifadə olunacaq.

Dayaq/dirək özülləri üçün tələb olunan qazıntı işlərinin kiçik miqyası və ümumiyyətlə quru iqlim şəraitini nəzərə alaraq, nəzarətsiz eroziya və lil axını ilə əlaqəli təsirlər kiçik və ya əhəmiyyətsiz olacaq.

Eroziya və çöküntünü minimuma endirmək üçün tədbirlər müqavilə sənədlərinə daxil ediləcək. Bu tədbirlərə mövcud bitki örtüyünün və üst torpaq qatının çıxarılmasının minimuma endirilməsi, qazma işlərinin aparıldığı ərazilərin yenidən örtülməsi daxil olacaq. Tikinti zamanı pozulan üst qatı torpaq qazılan ərazinin səthinin bərpası üçün istifadə olunacaq. Bəhrəsiz və qayalıq material təyin olunmuş tullantı sahələrinə atılacaq və ya uyğun olduqda doldurucu material kimi istifadə olunacaq.

Yaxınlıqdakı əmlaklar üçün narahatlıq. Tikinti zamanı yaxınlıqdakı əmlaklara potensial narahatlıq aşağıdakılardan ibarət olacaq:

- Tikinti qurğusundan və materialları sahələrə daşıyan ağır tonnajlı nəqliyyat vasitələrindən gələn səs-küy və vibrasiya
- Qazıntı və materialların daşınması zamanı yaranan toz
- Tikinti qurğuları və ağır tonnajlı nəqliyyat vasitələrindən xaric olan işlənmiş qazlar səbəbindən hava çirklənməsi
- Qaynaq işləri zamanı yaranan qaz emissiyaları

Elektrik verilişi xətləri üçün tikinti fəaliyyətləri mexaniki avadanlıqların (məsələn, şnekli burov və mobil kran) müvəqqəti və vaxtaşırı istifadəsini ehtiva edəcək. Əsas səs-küy və toz yaradan fəaliyyətlər materialların və avadanlıqların sahələrə vaxtaşırı daşınması ilə əlaqəli olacaq. Bu fəaliyyətlərdən yaranan səs-küy, toz narahatlığı və hava çirklənməsinin yaxınlıqdakı icmalara potensial təsiri cüzi və ya az olacaq və vaxtaşırı meydana çıxacaq. Lakin, bu təsirləri minimuma endirmək üçün nümunəvi tikinti təcrübələri müqavilə sənədlərində göstərilməlidir.

Azərbaycan səs-küy standartlarına[8] görə, yaşayış məntəqələrində gündüz saatlarında (07:00-23:00) maksimal icazə verilən səs-küy səviyyəsi 50 dB (A) və gecə saatlarında (23:00-07:00) isə 40 dB (A) təşkil edir. Bu altlayihələrin tikintisi zamanı çuxurların qazılması və mobil krandan istifadə kimi səs-küylü tikinti fəaliyyətləri dövründə vaxtaşırı səs-küy monitorinqi (tikinti dövründə ən azı 4 dəfə) həyata keçiriləcək. Monitorinq nöqtələri tikinti sahəsindən 100 metrdən az məsafədə yerləşən ən yaxın yaşayış evinin fasadında yerləşdiriləcək. Əgər səs-küy monitorinqi zamanı icazə verilən standartdan yüksək səs-küy səviyyələri qeydə alınarsa və bu, layihənin tikinti fəaliyyəti ilə dəqiq əlaqələndirilərsə, podratçı əlavə səs-küy azaltma tədbirləri həyata keçirməlidir (məsələn, səs-küy standartına uyğunluğu təmin etmək üçün iş üsullarına düzəliş edilməsi və ya müvəqqəti səs-küy baryerlərinin yerləşdirilməsi).

Səs-küy üçün təsir azaltma tədbirlərinə aşağıdakılar daxil olmalıdır:

- Fəaliyyətlərin gündüz iş saatlarına təyin edilməsi
- Səs-küyü minimum səviyyədə saxlamaq üçün maşın və nəqliyyat vasitələrinə texniki qulluğun gücləndirilməsi

Toz/hava çirklənməsi üçün təsir azaltma tədbirlərinə aşağıdakılar daxil olmalıdır:

- Tikinti materiallarını daşıyan nəqliyyat vasitələrinin keçdiyi icmaların yaxınlığında tozu yatırmaq üçün döşənməmiş yollara su püskürdülməsi
- Tikinti materiallarını daşıyan nəqliyyat vasitələri örtülməlidir.
- Nəqliyyat vasitələri və tikinti avadanlıqlarına müntəzəm olaraq texniki xidmət göstərilməli və onlar saz vəziyyətdə saxlanılmalıdır
- Nəqliyyat vasitələri və tikinti avadanlıqları qanunvericilikdə müəyyən olunmuş emissiya standartlarına uyğun olmalıdır

Suyun keyfiyyətinə təsirlər. Tikinti zamanı yaranan tullantı suları sahə işçilərinin məişət tullantı sularından, yağ və digər sürtkü materiallarının sızması nəticəsində yaranan çirklənmədən, tikinti tullantılarının atılması və tikinti avadanlıqları və nəqliyyat vasitələrinin yuyulmasından yaranan tullantı sularından ibarət olacaq. Bu cür tullantı suları düzgün idarə olunmazsa, yaxınlıqdakı su obyektlərini, drenaj kanallarını və suvarma kanallarını çirkləndirə bilər.

Podratçıdan tikinti zamanı yaranan tullantı sularının yaxınlıqdakı drenaj kanallarına və suvarma kanallarına birbaşa daxil olmasının qarşısını almaq üçün tədbirlər həyata keçirmək tələb olunacaq. Bu tədbirlər aşağıdakılardan ibarət olmalıdır:

- Sahədə lazımi sanitariya şəraitinin, o cümlədən səyyar tualetlər və ya təmizlənməmiş tullantı sularının yaxınlıqdakı su hövzələrinə axıdılmasına imkan verməyən alternativ sanitariya qurğularının təmin edilməsi

[8] *Dövlət Ümumi Standartları və Tələbləri (DÜST) 17187, 8 iyul 2008-ci il tarixli, 796 nömrəli Prezident Fərmanı)*

- Bərk məişət tullantılarının və tikinti tullantılarının toplanması və kənarlaşdırılması üçün uyğun sistemin təmin edilməsi
- Avadanlıqlara texniki qulluq, yanacaq doldurulması və onların yuyulması üçün bərk örtüklü sahələrin təmin edilməsi. Burada drenaj yağ və sürtkü yağı tutucuları vasitəsilə istiqamətləndirilərək, xarici drenaj kanallarına, ardınca çöküntü hovuzuna axıdılır.
- Tikinti avadanlıqları üçün yaxşı istismar və texniki baxım təcrübələrinin tətbiqi
- Yağ sızması üçün cavab planının hazırlanması

Yuxarıda göstərilən tədbirlərin düzgün tətbiqi tikinti zamanı suyun keyfiyyətinə potensial təsirlərin əhəmiyyətsiz olmasını təmin edəcək.

Kommunal xidmətlərə müdaxilə, giriş-çıxış yollarının bağlanması. Yeni dayaq/dirək və xətlərin quraşdırılması proqressiv qaydada, bir yerdə tamamlandıqdan sonra digər yerdə həyata keçirilir və buna görə də, tikinti heyəti tərəfindən materialların yükləndiyi və boşaldıldığı yollarda hərəkətə maneə törədilməsi cüzi olacaq. Podratçılardan lazım olduqda ictimaiyyətin və işçilərin hərəkətinin təhlükəsizliyini təmin etmək üçün xəbərdarlıq nişanları qoymaq və nəqliyyatın hərəkətini tənzimləmək tələb olunacaq.

Əgər naqillərin çəkilməsi yollar və ya çaylar üzərində nəqliyyatın hərəkəti üçün potensial risk yaradırsa, həmin vaxtda piyada və nəqliyyat vasitələrinin (həmçinin naqillərin özlərinin) mümkün xəsarət və zədələrdən qorunması üçün körpücüklər inşa ediləcək. Podratçılardan tikinti müddətində ictimai və özəl obyektlərə mövcud giriş-çıxış yollarının saxlanılmasını təmin etmək tələb olunacaq.

Sağlamlıq və təhlükəsizlik. Tikinti işçiləri və ictimaiyyət tikinti zamanı baş verə biləcək potensial qəzalar nəticəsində bir sıra təhlükəsizlik riskləri ilə üzləşə bilər. Bunlara, digər məsələlərlə yanaşı, partlayışlar, dirəklərdən və binalardan yıxılma, təhlükəsiz olmayan enerji təchizatı və avadanlıqların sıradan çıxması daxildir. Potensial sağlamlıq risklərinə aşağıdakılar daxildir: qeyri-adekvat sanitariya şəraiti və əməkçi miqrantlardan cinsi yolla ötürülən xəstəliklər. Bu cür riskləri minimuma endirmək üçün "Azərenerji" podratçıların qanunvericilikdə elektrik enerjisi infrastrukturu ilə əlaqədar işçilərin və əhalinin təhlükəsizliyi ilə bağlı nəzərdə tutulan tələblərə və digər beynəlxalq səviyyədə qəbul edilən təhlükəsizlik təlimatlarına riayət etmələrini təmin edəcək.

Əmək və iş şəraiti. Podratçı işçilərə və əməkdaşlara təhlükəsizlik eynəkləri, dəbilqələr, maskalar, çəkmələr və s. kimi bütün zəruri təhlükəsizlik ləvazimatlarını təmin etməlidir. Elektrik cərəyanı vurması ilə bağlı təhlükənin qarşısını almaq üçün lazımi ehtiyat tədbirləri görüləcək. İşçilərin və əhalinin qorunması üçün nişan lövhələri, təhlükə işıqları/qırmızı işıqlar, hasarlama və işıqlar kimi tədbirlər təmin ediləcək. Podratçılardan tikinti işlərinə başlamazdan əvvəl İşçi Sağlamlığı və Təhlükəsizliyi Planını təsdiq üçün təqdim etmək tələb olunacaq. Bundan əlavə, podratçılardan işçilər üçün kifayət qədər sağlamlıq və təhlükəsizlik təlimi təmin etmək tələb olunacaq.

Layihə həm iş yerində, həm də işçilərlə yerli icma arasında qarşılıqlı əlaqələrdə cinsi istismar və zorakılıq və seksual qısnamanın (CİZ/SQ) qarşısının alınmasının və aradan qaldırılmasının vacibliyini qəbul edir.

Sıfır Tolerantlıq Siyasəti: Layihə hər hansı formada cinsi istismar və zorakılıq və seksual qısnamaya (CİZ/SQ) qarşı sıfır tolerantlıq siyasətini tətbiq edir. Bütün işçilər, vəzifələrindən asılı olmayaraq, bu siyasətə riayət etməlidirlər.

Təlim və Maarifləndirmə: Bütün işçilər üçün CİZ/SQ haqqında maarifləndirmə və onun qarşısının alınması mövzusunda icbari təlim proqramları keçiriləcək. Bu təlimlərdə CİZ/SQ davranışlarının ayırd edilməsi, nəticələrini anlamaq və hadisə barədə məlumat vermək qaydası əhatə olunacaq.

Şikayət mexanizmləri: CİZ/SQ hadisələri barədə məlumat vermək üçün işçilər üçün məxfi və əlçatan şikayət mexanizmi yaradılacaq. Bu mexanizm hadisə barədə şikayət edənlər üçün anonimliyi və qisasdan qorunmağı təmin edəcək.

Dəstək xidmətləri: CİZ/SQ qurbanları məsləhət və hüquqi yardım daxil olmaqla dəstək xidmətlərinə çıxış əldə edəcəklər. Layihə zərər çəkmiş şəxslərə hərtərəfli dəstək göstərmək üçün yerli təşkilatlarla əməkdaşlıq edəcək.

Davranış Qaydaları: Məqbul davranışı və CİZ/SQ-nin nəticələrini təsvir edən aydın davranış qaydaları bütün işçilərə paylanılacaq. Bu Qaydalara riayət etmək işə qəbul üçün şərt olacaq.

İcma ilə qarşılıqlı əlaqə tədbirləri

İcmanın cəlb olunması: Layihənin CİZ/SQ siyasətləri və şikayət mexanizmləri barədə məlumat vermək üçün yerli icma ilə müntəzəm iş aparılacaq. İcma üzvləri layihə işçiləri ilə bağlı hər hansı CİZ/SQ hadisələrini bildirməyə təşviq ediləcək.

İşçi Davranışı Təlimi: İşçilər icma üzvləri ilə qarşılıqlı təmas zamanı məqbul hesab edilən davranışlar haqqında xüsusi təlim alacaqlar. Bu təlim hörmət, mədəni həssaslıq və peşəkar sərhədlərin qorunmasının vacibliyini vurğulayacaq.

Yerli hakimiyyət orqanları ilə əməkaşlıq: Layihə, CİZ/SQ məsələlərini tez və effektiv həll etmək üçün yerli hakimiyyət orqanları və icma liderləri ilə sıx əməkdaşlıq edəcək. Həm işçilər, həm də icma üzvləri üçün təhlükəsiz mühit yaratmaq məqsədilə birgə səylər göstəriləcək.

Monitorinq və Qiymətləndirmə: Potensial məsələləri müəyyən etmək və düzəldici tədbirlər tətbiq etmək üçün CİZ/SQ risklərinin davamlı monitorinqi və qiymətləndirilməsi aparılacaq. Davamlı təkmilləşməni təmin etmək üçün icmanın rəyləri bu prosesə inteqrasiya ediləcək.

İctimai maarifləndirmə kampaniyaları: Layihə, CİZ/SQ haqqında icmanı maarifləndirmək, sıfır tolerantlıq mədəniyyətini təşviq etmək və bu cür davranışlara qarşı kollektiv fəaliyyətə təşviq etmək üçün ictimai maarifləndirmə kampaniyalarını dəstəkləyəcək.

5.11 İstismar məshələsinin təsirləri və təsir azaltma tədbirləri

İstismar və Texniki Xidmət (İTX) heyətinin/qabiliyyətlərinin məqbul səviyyədə olmaması nəticəsində müxtəlif mənfi təsirlər:

İTX ilə bağlı potensial təsirlərin qarşısı "Azərenerji" tərəfindən aşağıdakı tədbirlərin həyata keçirilməsi yolu ilə alınacaq:

(i) Bütün elektrik verilişi xətlərinin istismar və texniki xidməti "Azərenerji"nin müxtəlif Regional Elektrik Xidməti və Təchizatı Şöbələrinin (REXTŞ) təcrübəli və təlim keçmiş heyəti tərəfindən həyata keçirilir.

(ii) 500/300 kV-luq yarımstansiyanın istismar və texniki xidməti "Azərenerji"nin müxtəlif Regional Elektrik Xidməti və Təchizatı Şöbələrinin (REXTŞ) təcrübəli və təlim keçmiş heyəti tərəfindən həyata keçirilir.

(iii) Bütün yarımstansiyaların texniki xidməti yalnız REXTŞ-lər tərəfindən təlim keçmiş heyət tərəfindən yerinə yetirilir.

Elektromaqnit sahələrə (EMS) məruzqalma:

Hava xətlərindən elektromaqnit şüalanmasına məruzqalmanın xərçəng riskini artırması ilə bağlı bəzi narahatlıqlar mövcuddur. Bu məsələyə dair dünyanın hər yerində tədqiqatlar aparılıb. Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) 1996-cı ildə apardığı icmal belə nəticəyə gəldi: "*Mövcud elmi ədəbiyyata əsasən, radiasiya sahəsinə məruz qalmanın insan ömrünü qısaltdığı və ya xərçəngə səbəb olduğu və ya onu stimullaşdırdığına dair inandırıcı sübutlar yoxdur*".

Azərbaycan Respublikasının Əhalinin Radiasiya Təhlükəsizliyi Haqqında Qanunu (1997) hökumətin radiasiya təhlükəsizliyi tələblərinə və radioaktiv mənbələrin istifadə edildiyi ərazilərdə işçilərin və əhalinin təhlükəsizliyini təmin edən ekoloji normalara cavab vermə siyasətinin əsas prinsiplərini müəyyən edir. Qanun qəzalar zamanı sağlamlığına, əmlakına və həyatına zərər dəymiş insanların kompensasiya tələb edə bilməsini təmin edir.

Azərbaycan Respublikasında elektromaqnit sahəsinə məruzqalma ilə bağlı təlimatlar qaydaları müəyyən edilməsə də, Azərbaycan Respublikasından kənarda aşağıdakı təlimatlar müəyyən edilib:

- *ABŞ-da elektrik verilişi xətlərinə dair dövlət standartları və təlimatları;*
- *Qeyri-İonlaşdırıcı Radiasiyadan Müdafiə üzrə Beynəlxalq Komissiya (ICNIRP);*
- *ABŞ Milli Radiasiya Şurası;*
- *Amerika Hökumət və Sənaye Gigiyenistləri Konfransı (ACGIH).*

ICNIRP-nin təlimatları elektromaqnit sahəsinə məruzqalmanı məhdudlaşdırmağı tövsiyə edir, lakin eyni zamanda qeyd olunan səviyyələrin "təhlükəsiz" və "təhlükəli" EMS səviyyələrini fərqləndirmək kimi

qəbul edilməməli olduğunu əlavə edir. ICNIRP-nin təlimatlarına görə ümumi əhali üçün (gündə 24 saata qədər) maksimum məruzqalma səviyyələri 1000 mQs və ya 100 µT-dir. EMS-nin təsiri həmçinin məruz qalma müddətindən də asılıdır və buna görə də əhəmiyyətli mənfi təsir gözlənilmir. "Azərenerji" sahə intensivliyi hədləri üzrə beynəlxalq normalara uyğun olaraq fəaliyyət göstərir. "Azərenerji", həmçinin, təsdiq edilmiş beynəlxalq layihələndirmə standartlarına riayət edir və Dünya Bankı Qrupunun Ətraf Mühit, Sağlamlıq və Təhlükəsizlik (ƏMST) Qaydalarına uyğun fəaliyyət göstərir.

Məskunlaşmış icmalarda, mövcud mühitə bir sıra mənbələrdən, o cümlədən elektrik cihazları və avadanlıqların istifadəsindən, yaşayış ərazilərindəki su borularında torpaq cərəyanı və yaşayış evlərinə xidmət edən elektrik paylayıcı dövrələrindən qaynaqlanan EMS daxildir. Paylayıcı dövrələrdən yaranan EMS icmalarda fazaların sayına və dövrənin hava xətti və ya yeraltı olmasına görə, geniş şəkildə dəyişə bilər. Tipik 12.5kV-luq paylayıcı hava xətti 300 amper cərəyanla xəttin altında 22mQs, xəttdən 7.5 metr məsafədə 15mQs və 14 metr məsafədə isə 8mQs maqnit sahəsi yarada bilər.[9]

Layihə yüksək gərginlikli elektrik şəbəkəsi tərəfindən yaradılan elektromaqnit sahələrinin (EMS) potensial sağlamlıq riskləri ilə bağlı ictimaiyyətin narahatlıqlarını qəbul edir. Aşağıdakı tədbirlər və kommunikasiya strategiyaları bu təsəvvürləri əhatə etmək və elmi sübutlara əsaslanan dəqiq məlumatlar təqdim etmək üçün həyata keçirilən tədbirləri əks etdirir.

İcma ilə iş və maarifləndirmə

- Elmi məlumatların yayılması Layihə elektromaqnit sahələri (EMS) və onların sağlamlığa təsiri ilə bağlı ən son elmi araşdırmalar və tanınmış səhiyyə təşkilatlarının, o cümlədən Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) və Qeyri-İonlaşdırıcı Radiasiyadan Müdafiə üzrə Beynəlxalq Komissiyasının (ICNIRP) təlimatlarına əsaslanan aydın və əlçatan məlumatlar təqdim edəcək.
- **İctimaiyyətlə görüşlər və məsləhətləşmələr:** İcma üzvləri ilə EMS narahatlıqlarını müzakirə etmək üçün müntəzəm ictimai görüşlər və məsləhətləşmələr keçiriləcək. Mütəxəssislər suallara cavab vermək, yanlış təsəvvürləri aradan qaldırmaq və elmi sübutlara əsaslanaraq təminat vermək üçün əlçatan olacaqlar.
- Məlumat materialları: EMF-nin nə olduğunu, yüksək gərginlikli elektrik xətləri ilə əlaqəli EMS səviyyələrini və sağlamlıq riski qiymətləndirmələrinin nəticələrini izah etmək üçün broşuralar, məlumat vərəqələri və onlayn resurslar hazırlanacaq və paylanacaq.
- **Şəffaflıq və monitorinq:** Layihə elektrik verilişi xətləri/yarımstansiyaların yaxınlığında müntəzəm EMS ölçmələri aparacaq və nəticələri ictimaiyyətə təqdim edəcək. Bu şəffaflıq beynəlxalq standartlarla müəyyən edilmiş təhlükəsiz limitlər daxilində olan EMS səviyyələrini göstərməklə inam yaratmağa kömək edəcək.
- **Səhiyyə orqanları ilə iş:** İcma üçün təqdim olunan məlumatların dəqiq və səhiyyə mütəxəssisləri tərəfindən təsdiqlənmiş olmasını təmin etmək üçün yerli və milli səhiyyə orqanları ilə əməkdaşlıq ediləcək.

Risklərin azaldılması tədbirləri

- **Layihələndirmə və yerin seçilməsi:** Elektrik verilişi xətləri əhalinin çox olduğu yerlərə EMS təsirini minimuma endirməyə imkan verəcək şəkildə layihələndiriləcək və yerləşdiriləcək. Bura

[9] *Vaşinqton Ştatı Elektrik Verilişi üçün Tədqiqat Ehtiyacları üzrə İşçi Qrupu.*

yaşayış yerlərindən, məktəblərdən və digər həssas yerlərdən uyğun məsafələrin saxlanması daxildir.

- **Standartlara uyğunluq:** Layihə beynəlxalq və milli tənzimləyici orqanlar tərəfindən müəyyən edilmiş bütün müvafiq EMS-ə məruzqalma qaydalarına və standartlarına əməl edəcək. Bu standartlar əhali sağlamlığını qorumaq və təhlükəsiz EMS səviyyələrini təmin etmək üçün nəzərdə tutulub.
- **İcma üçün əks əlaqə mexanizmi:** İcma üzvlərinin öz narahatlıqlarını səsləndirməsi və vaxtında cavablar alması üçün əks əlaqə mexanizmi yaradılacaq. Bura sorğuların və rəylərin göndərilməsi üçün xüsusi qaynar xəttin və onlayn portalın yaradılması daxil olacaq.

"Azərenerji" sahə intensivliyi hədləri üzrə beynəlxalq normalara uyğun olaraq fəaliyyət göstərir. "Azərenerji" təsdiqlənmiş və tamamilə təhlükəsiz olan beynəlxalq standartlara və layihələndirmə həllərinə əməl edir. Sağlamlığa EMS ilə əlaqəli təsirlər barədə ətraflı müzakirələr ƏMSSTQ-nin müvafiq bölmələrində təqdim olunur.

İcmaya təsirlər

ƏMSSTQ mərhələsi çərçivəsində, layihənin həyata keçiriləcəyi 6 rayonda (Hacıqabul, Salyan, Neftçala, Biləsuvar, Qaradağ və Qobustan) ictimai dinləmə prosesi aparılmışdır. MTCP-də qeyd olunan müxtəlif maraqlı tərəf qruplarını təmsil edən məsləhətləşmələrin iştirakçıları Layihəni dəstəklədilər. Layihə ərazilərində yaşayan insanlar müxtəlif layihə elementlərinin enerji təchizatını yaxşılaşdıracağını, iqtisadi inkişafı stimullaşdıracağını və beləliklə, birbaşa və dolayı faydalar əldə etməyi gözləyirlər.

Təklif olunan elektrik verilişi layihəsinin sosial-iqtisadi mühitə təsiri əhəmiyyətli dərəcədə faydalı olacaq. Layihə elektrik verilişi şəbəkəsini və sistemin istismarını gücləndirəcək, layihənin icrasına və potensialın artırılmasına dəstək verəcək. Layihə paralel olaraq "Azərenerji" ASC-nin sistemin fəaliyyətini yaxşılaşdırması və planlaşdırılmış dəyişən bərpa olunan enerji mənbələrinin növbəti 10 il ərzində enerji şəbəkəsinə inteqrasiyasına nəzarət etməsinə dəstək göstərəcək. Fasiləsiz bərpa olunan elektrik enerjisinə çıxışın yaxşılaşdırılması, xüsusən də bölgələrin kənd ərazilərində iqtisadi artım üçün böyük bir stimul olacaq. Əgər podratçı tikinti işçilərini yerli əhali arasından işə götürsə, tikinti zamanı yerli insanlara faydalar maksimuma çatdırıla bilər, Mümkün olduqda, podratçılar qadınların işə qəbulu baxımından ayrı-seçkiliyə yol verməməlidirlər. Təklif olunan layihənin yoxsulluğun azaldılmasına uzunmüddətli təsirlərinin əhəmiyyətli dərəcədə müsbət olması gözlənilir.

5.12. İqlimlə əlaqəli aspektlər

Prinsip etibarilə, iqlim mövzusu iki ayrı qiymətləndirməni əhatə edir:

- İstixana qazlarının (İQ) təsirinin qiymətləndirilməsi – layihədən yaranan İQ emissiyalarının iqlimə təsirləri.
- İqlimə davamlılığın qiymətləndirilməsi – layihənin dəyişən iqlimdən qaynaqlanan təsirlərə uyğunlaşma qabiliyyəti, o cümlədən layihə planının iqlim dəyişikliyinin gözlənilən təsirlərini necə nəzərə alması.

Bu bölmə layihənin iqlimlə bağlı təsirlərinin ümumi icmalını təmin edir və bu təsirlərin qiymətləndirilmədən kənarda qalmasının səbəblərini göstərir.

İstixana qazlarının (İQ) təsirinin qiymətləndirilməsi

Tədqiq olunan ərazi

İQ təsirinin qiymətləndirilməsi üçün tədqiq olunan ərazi layihənin tikintisi, istismarı və texniki xidməti zamanı layihə sərhədləri daxilində həyata keçirilən fəaliyyətlərdən yaranan bütün birbaşa İQ emissiyalarını əhatə etməlidir. Bu, "həyat dövranı" yanaşmasına əsaslanan emissiyaları əhatə etməlidir.

Potensial təsirlər və əsas təsir azaltma tədbirləri

Layihə ilə əlaqəli əsas İQ emissiya mənbələri və/və ya fəaliyyətlər "həyat dövranı" yanaşmasına əsaslanaraq aşağıdakı cədvəldə təqdim edilmişdir.

Cədvəl 5-6: İQ emissiyası mənbələri və/və ya fəaliyyətlər

Həyat dövranının mərhələsi	Layihə fəaliyyəti	Əsas İQ emissiyası mənbələri
Hazırlıq mərhələsi	Tikinti sahəsinin hazırlıq işləri	Yanacaq istifadəsi - nəqliyyat vasitələri, generatorlar və s. üçün
	Təmizləmə işləri 1. Bitki örtüyünün təmizlənməsi 2. Torpaq istifadəsinin dəyişməsi	Karbon çanağının itirilməsi - İQ emissiyalarını udmaq qabiliyyətinə malik olan təbii mühitin (məsələn, meşəlik ərazilər) ləğvi
Prefabrik mərhələsi	Layihəni tikmək üçün tələb olunan məhsul və/və ya materialların istifadəsi (məsələn, beton, polad, naqillər, digər metal materiallar, izolyatorlar və s.)	Tikinti materialları daxilindəki İQ emissiyaları - materialların emal edilərək ikincili/son məhsullara çevrilməsi və bu materialların daşınması nəticəsində yaranan emissiyalar

Həyat dövranının mərhələsi	Layihə fəaliyyəti	Əsas İQ emissiyası mənbələri
Tikinti mərhələsi	Sahədə tikinti fəaliyyəti, məsələn: - Materialların və avadanlıqların tikinti sahəsinə daşınması; - Tikinti işçi qüvvəsinin tikinti sahəsinə daşınması; - Tikinti sahəsində tikinti nəqliyyat vasitələri və texnikasının istifadəsi; - Tikinti proseslərindən yaranan hər hansı tullantıların utilizasiyası.	- Nəqliyyat vasitələri və texnikanın istifadəsindən yaranan İQ emissiyaları - Tullantıların utilizasiyasından yaranan İQ emissiyaları
İstismar və texniki xidmət mərhələsi	- Yarımstansiyanın istismarı, o cümlədən işıqlandırma - Texniki xidmət əməliyyatları, o cümlədən nəqliyyat vasitələrinin səfərləri, yarımstansiya və hava xətti avadanlıqlarının dəyişdirilməsi	- Enerji və yanacaq istifadəsindən yaranan İQ emissiyaları. - Avadanlıqların/materialların dəyişdirilməsi ilə əlaqədar yaranan İQ emissiyaları (məsələn, hava xətti dayağının elementləri, naqillər, izolyatorlar, yarımstansiya avadanlıqları) Bu emissiyaların minimal olacağı gözlənilir

Layihənin müxtəlif mərhələlərində İQ emissiyalarını azaltmaq üçün əsas təsir azaltma tədbirləri aşağıdakılardan ibarət olacaq:

- Daha aşağı səviyyəli İQ emissiyalarına malik alternativ materialların, məsələn, yerli məhsulların və daha yüksək təkrar emal edilmiş tərkibə malik materialların göstərilməsi.
- Enerji istehlakını və texniki xidməti azaltmaq və hissələri dəyişdirmə dövrlərini azaltmaq üçün enerjidən səmərəli istifadə edən işıqlandırma (yarımstansiyada) və dayanıqlı tikinti materialları kimi aşağı karbonlu layihələndirmə spesifikasiyaları.
- Seçilmiş tikinti podratçısı tərəfindən hazırlanan və həyata keçirilən Tikintidə Ekoloji və Sosial İdarəetmə Planı (TESİP) İQ emissiyalarını azaltmaq məqsədi ilə müxtəlif nümunəvi tikinti təcrübəsi tədbirlərini əhatə etməlidir.

Tikinti mərhələsi

Layihənin tikinti fazası zamanı İXQ emissiyaları generatorlar, nəqliyyat, sahədəki avadanlıq və maşınlar kimi texnikalar üçün yanacağın istifadəsi ilə əlaqədardır. Emissiyaların miqdarları hesablanmasa da əvvəlki təcrübə və mövcud ədəbiyyat əsasında onların aşağı və 25,000 ton CO2 ekvivalentindən (tCO2ekv) əhəmiyyətli dərəcədə az olacağı gözlənilir.

İstismar və texniki xidmət mərhələsində İQ emissiyalarının çox az olacağı gözlənilir və bunlar əsasən Layihənin istismarı zamanı texniki xidmət və təmir işləri zamanı maşınların hərəkəti ilə məhdudlaşan minimal İXQ emissiyaları olacaq. Buna görə də, bunlar ƏMSSTQ-dən çıxarılıb.

İqlimə davamlılığın qiymətləndirilməsi

Tədqiq olunan ərazi

İqlimə davamlılığı qiymətləndirmək üçün tədqiq olunan ərazi layihəni təşkil edən bütün elementləri (yarımstansiyalar və EVX-lər) əhatə edir.

Potensial təsirlər və əsas təsir azaltma tədbirləri

Layihə ərazisi iqlim dəyişikliyi risklərinə qarşı həssas ola bilər. Bura ekstremal hadisələr, məsələn, uzunmüddətli və/yaxud güclü yağıntı hadisələrinin tezliyinin və şiddətinin artması və ildırım, istilik dalğaları, yüksək külək sürəti və s.).

Gözlənilən iqlim dəyişiklikləri ilə əlaqəli bu ekstremal hava hadisələri aşağıdakı əsas təsirlərə səbəb ola bilər:

- Yüksək temperatur və həmçinin güclü yağışlar səbəbindən materialların pisləşməsi.
- Yarımstansiya yerində subasma riski və drenaj sistemlərinin və avadanlıqların zədələnməsi.
- Struktur təməllərin eroziyası və çökməsi.
- HX strukturlarına və yarımstansiya avadanlıqlarına və layihənin digər aktivlərinə tufan nəticəsində zərər dəyməsi.
- İstiyə məruz qalma səbəbindən aktivlərin pisləşməsi.

Quru hava dövrləri və güclü küləklər Layihənin infrastrukturuna zərər verə bilər. Bu ekstremal hava hadisələrindən sığortalanmaq və bununla da orta və yüksək təsirləri aşağı səviyyəyə endirmək nəzərdə tutulur.

Hava temperaturunun yüksəlməsi və qeyri-müntəzəm yağıntı suyun mövcudluğuna təsir göstərə bilər. Tikinti zamanı suyun konservasiya tədbirləri, o cümlədən suyun təkrar emalı da daxil olmaqla həyata keçiriləcəkdir (məsələn, tələb olunduqda tozun nəmləndirilməsi tədbirləri üçün boz sudan istifadə).

Qalıcı təsirlər və xülasə

Yumşaldıcı tədbirlərin görülməsi sayəsində Layihə üçün iqlim dəyişikliyi ilə bağlı qalıcı risklərin aşağı olacağı gözlənilir. Əhəmiyyətli qalıcı təsirlər gözlənilmir. Bundan əlavə, layihənin oynadığı rol ölkənin İXQ emissiyalarını azaltmaq və NDC hədəfinə nail olmaq tələblərinə cavab verməsini təmin edəcək.

6. MARAQLI TƏRƏFLƏRİN CƏLB EDİLMƏSİ

Maraqlı tərəflərlə konstruktiv iş və davamlı dialoq qabaqcıl işgüzar təcrübələrin və korporativ məsuliyyətin mühüm bir hissəsidir və bərpa olunan ehtiyatların inteqrasiyası üzrə layihələrin, o cümlədən hazırkı layihənin uğuru üçün mühüm əhəmiyyət kəsb edir.

İstənilən infrastruktur layihəsinin maraqlı tərəfləri çoxsaylı və müxtəlifdir. Onların sırasına, ilk növbədə, layihədən təsirlənə biləcək yerli insanlar, habelə həyata keçiriləcək layihə üzərində yurisdiksiyaya malik yerli səlahiyyətli orqanlar, ətraf mühit, sosial məsələlər və enerji ilə bağlı qanunları icra edən və icrasını təmin edən milli səlahiyyətli orqanlar, qeyri-hökumət təşkilatları, bu məsələlər üzrə təcrübəyə malik olan elmi ictimaiyyətin üzvləri və digər maraqlı tərəfləri daxildir.

Maraqlı tərəflərin cəlb olunması layihənin hazırlanması və icrasının ayrılmaz bir hissəsidir və layihənin hazırlanmasının mümkün qədər erkən mərhələsində başlamalı və layihənin bütün həyat dövranı boyunca davam etməlidir. 2023-cü ilin noyabr ayından etibarən "Azərenerji" ötürmə xətləri və yarımstansiya üçün planlaşdırmaya başlayıb və ilkin iş həcmi 2024-cü ilin əvvəlində hazırlanıb. 2024-cü ilin fevral ayından etibarən, "Azərenerji" və onun ƏMSSTQ qrupu layihə haqqında məlumat toplamaq və insanların narahatlıqlarını öyrənmək məqsədilə yerli hakimiyyət orqanları və yerli icmalarla rəsmi və qeyri-rəsmi formada işləməyə başlayıb. Müxtəlif orqanlara göndərilən məktublarla Əlavə C-də tanış ola bilərsiniz.

6.1 Maraqlı tərəflərin cəlb olunmasının məqsədləri

Maraqlı tərəflərin iştirakının və onlarla məsləhətləşmənin effektiv olmasının təklif olunan Layihənin uğuru üçün fundamental əhəmiyyət daşıdığı hesab edilir.

Layihənin müxtəlif maraqlı tərəfləri (qanunvericiliyə əsasən məsləhətləşmə aparılması icbari olan qurumlar, yerli icmalar, əmlak sahibləri və torpaq sahibləri, bizneslər və digər təsirə məruz qalan qruplar) var. Onların fərqli maraqları müxtəlif səviyyələrdə məlumatları şərtləndirəcək. Buna görə də, xüsusi kommunikasiya tədbirləri müəyyən fərdlərin və qrupların, xüsusən də həssas qrupların ehtiyaclarını qarşılamağa yönəldilməlidir. Bu, maraqlı tərəflərin və onların təklif olunan layihəyə maraqlarının başa düşülməsini tələb edir.

- Layihə üçün maraqlı tərəflərin cəlb olunması aşağıdakı prinsiplərə əsaslanacaq:
- Layihənin hazırlanması prosesində istifadə üçün məlumat təmin etmək və prosesə təsir etmək üçün müvafiq maraqlı tərəflərin erkən və davamlı olaraq cəlb olunması;
- Layihənin hazırlanmasının hər bir mərhələsində zəruri səviyyədə rəylər əldə etməyə səy göstərərək, qəbul edilən şərhlərin və narahatlıqların nəzərə alınmasını təmin etməklə, təkrarlanan layihələndirmə prosesinə nail olmaq.
- Əsas maraqlı tərəflərin baxışlarını daha yaxşı başa düşməyə imkan yaratmaq üçün layihənin müxtəlif mərhələləri boyunca onlarla uzunmüddətli münasibətlərin qurulması;
- Mümkün və praktiki olduqda, narahatlıqların həll olunmasını təmin etmək;
- Milli tələblərə və qabaqcıl beynəlxalq təcrübələrə uyğun olaraq qanunvericilikdə nəzərdə tutulan qurumlarla məsləhətləşmənin aparılmasını təmin etmək.

“Azərenerji” maraqlı tərəfləri cəlb etmək və bütün layihə müddətində nümunəvi kommunikasiya təcrübələrini qorumaq məqsədilə Layihəni ötürmə infrastrukturunun inkişaf etdirilməsində qabaqcıl təcrübə nümunəsi kimi həyata keçirməyi planlaşdırır. Bu səbəbdən, maraqlı tərəflərin cəlb olunması prosesi skopinq mərhələsində başlayıb və bu günə qədər həyata keçirilən texniki təhlil və ekoloji və sosial qiymətləndirmələr əsasında davam etdirilmişdir.

6.2 ƏMSSTQ üçün maraqlı tərəflərin cəlb olunması yanaşması

Bu proses ƏMSSTQ mərhələsində hazırlanmış Maraqlı Tərəflərin Cəlb olunması Planına (MTCP) əsasən nizamlanacaq. Bu MTCP (Əlavə 2) həm Dünya Bankının standartlarına, həm də maraqlı tərəflərin cəlb olunması üzrə milli tələblərə cavab vermək üçün hazırlanmışdır.

Bu ƏMSSTQ və MTCP əsas ƏMSSTQ sənədinin icrasına başlamazdan əvvəl, çox erkən mərhələdə açıqlanmış və ictimai məsləhətləşmələr aparılmışdır. Həyata keçirilmiş açıqlama və məsləhətləşmə fəaliyyətləri MTCP-nin yenilənmiş versiyasına əlavə olunmuşdur.

ƏMSSTQ mərhələsində aşağıdakı tədbirlər həyata keçirilmişdir:

- Skopinq Hesabatının məzmunu və ƏMSSTQ üçün texniki tapşırığın müzakirəsi üçün ETSN-in Dövlət Ekoloji Ekspertiza Agentliyinə (DEEA) məktub ünvanlanmışdır.
- DEEA sədrinin müavini və aidiyyəti işçilərlə görüş keçirilmiş, ƏMSSTQ-nin məzmunu və hava xətlərinin trassaları auditoriyaya təqdim olunmuş və qaldırılan məsələlər LİQ üzvləri tərəfindən müvafiq olaraq cavablandırılmışdır.
- İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinin tabeliyində olan "Daşınmaz Əmlakın Dövlət Kadastrı və Reyestri" Publik Hüquqi şəxsə (DƏDKR) layihənin əhatə etdiyi 3 hava xəttinin təklif olunan trassası boyunca torpaq mülkiyyətinin statusu ilə bağlı kadastr məlumatlarının təqdim edilməsi üçün məktubla müraciət edilmişdir.
- 1980-ci illərdə “Azərenerji” ASC-yə atom elektrik stansiyasının tikintisi üçün verilmiş köhnə sovet tipli torpaq hüququ sənədi əsasında “Nəvahi” yarımstansiyasının təyin olunmuş ərazisinə yeni formatda (milli) torpaq sahəsinə mülkiyyət hüququ sənədinin təqdim edilməsi müraciəti ilə DƏDKR-ə məktub göndərilmişdir.
- Layihə üzrə hava xətləri üçün tələb olunan məlumatların təqdim edilməsi üçün trassanı müzakirə etmək və prioritetləri müəyyənləşdirmək üçün DƏDKR-nin rəhbərliyi ilə görüş keçirilmişdir.
- Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin rəisinə hava xətlərinin nəzərdə tutulan trassaları üzrə mədəni irs obyektlərinə aid mövcud məlumatlar və onların siyahısının təqdim edilməsi üçün məktubla müraciət edilmişdir.
- “Azərenerji” ASC layihənin əhatə etdiyi rayonlar üzrə dəmir yolu xətlərinin hava xətləri ilə kəsişməsi ilə bağlı texniki şərtlərin alınması üçün “Azərbaycan Dəmir Yolları” QSC-yə müraciət etmişdir. Müvafiq texniki şərtlər “Azərbaycan Dəmir Yolları” QSC tərəfindən təmin edilmiş və hava xətlərinin layihələndirilməsində baxılması üçün layihələndirmə qrupuna ötürülmüşdür.
- “Azərenerji” ASC Layihənin əhatə etdiyi rayonlar üzrə EVX-lərin strateji əhəmiyyətli neft-qaz kəmərləri ilə kəsişməsi üçün texniki şərtlərin alınması məqsədilə Strateji Obyektlərin Mühafizəsi üzrə Dövlət Agentliyinə müraciət edib. Müvafiq texniki şərtlər Agentlik tərəfindən təmin edilmiş

və hava xətlərinin layihələndirilməsində nəzərə alınması üçün layihələndirmə qrupuna verilmişdir.

- "Azərenerji" ASC Layihənin əhatə etdiyi rayonlar üzrə EVX-lərin çay və kanallarla kəsişmələri üçün texniki şərtlərin alınması məqsədilə Su Ehtiyatları üzrə Dövlət Agentliyinə müraciət etmişdir. Müvafiq texniki şərtlər Agentlik tərəfindən təmin edilmiş və hava xətlərinin layihələndirilməsində nəzərə alınması üçün layihələndirmə qrupuna verilmişdir.
- "Azərenerji" Layihənin əhatə etdiyi rayonlar üzrə neft və qaz kəmərlərinin elektrik hava xətləri ilə kəsişmələri üçün texniki şərtlərin alınması məqsədilə SOCAR-a müraciət etmişdir. Müvafiq texniki şərtlər SOCAR tərəfindən təmin edilmiş və hava xətlərinin layihələndirilməsində nəzərə alınması üçün layihə qrupuna verilmişdir.
- "Azərenerji" Layihənin əhatə etdiyi regionlar üzrə neft və qaz boru kəmərlərinin elektrik hava xətləri ilə kəsişmələri üçün texniki şərtlərin alınması məqsədilə BP-yə müraciət etmişdir. Müvafiq texniki şərtlər BP tərəfindən təmin edilmiş və hava xətlərinin layihələndirilməsində nəzərə alınması üçün layihələndirmə qrupuna verilmişdir.
- Nəvahi yarımstansiyası/əlaqədar hava xətlərinin tikintisi ilə bağlı məlumatlandırma və narahatlıq doğuran məsələlərin müzakirəsi və ilkin məlumatların toplanması məqsədilə Nəvahi kənd bələdiyyəsinin sədri ilə görüş keçirilmişdir.

Skopinq Hesabatı DEEA və MN-ə təqdim edilmiş və onların tövsiyələri və rəyləri toplanaraq ƏMSSTQ-də öz əksini tapmışdır. Xüsusən MN-nin müraciətinə əsasən, Orta əsr Ağsu şəhəri Arxeoloji Turizm Kompleksindən təhlükəsiz məsafəni təmin etmək üçün Nəvahi-Mingəçevir hava xətlərinin trassası dəyişdirilmişdir. Skopinq Hesabatının DEEA-yə açıqlanması həm də ilkin olaraq Şirvan Milli Parkı ərazisindən keçən Bankə-Nəvahi hava xəttinin istiqamətinin dəyişdirilməsi ilə nəticələnmişdir.

Layihə üçün ƏMSSTQ-nin ictimai açıqlama zərfi aşağıdakılardan ibarət olacaq:

- ƏMSSTQ Hesabatı
- Qeyri-Texniki Xülasə (QTX)
- Maraqlı Tərəflərin Cəlb olunması Planı (MTCP), o cümlədən Layihə Şikayət Forması
- Ətraf Mühit və Sosial İdarəetmə Planı (ƏMSİP)
- Ətraf Mühit və Sosial Öhdəlik Planı (ƏMSÖP)
- Köçürülmə üzrə Siyasət Çərçivəsi (KSÇ).

6.3 Layihənin maraqlı tərəfləri

Azərbaycan Hökuməti tərəfindən maliyyələşdirilən Layihə və AZURE layihəsi üçün aşağıdakı maraqlı tərəflər müəyyən edilmiş və hər bir layihə komponenti üzrə təhlil edilmişdir. Bu maraqlı tərəflərə təsirlənən tərəflər, digər maraqlı tərəflər və əlverişsiz/həssas vəziyyətdə olan fərdlər və ya qruplar daxildir. Aşağıdakı cədvəllərdə əsas maraqlı tərəflər qrupları təqdim olunur:

Cədvəl 6-1: Layihə üçün layihənin təsirinə məruz qalan tərəflər

Maraqlı tərəflərin əsas qrupu	Layihə sahəsi üzrə maraqlı tərəf
Hava xətləri trassaları boyunca əmlak sahibləri	*Şəxsi torpaq mülkiyyətçiləri*
	Torpağı və ya əmlakı tikinti işlərinin təsirinə məruz qala biləcək dövlət və özəl torpaqların mülkiyyətçiləri (kənd, rayon və ya respublika səviyyəsində)

Maraqlı tərəflərin əsas qrupu	Layihə sahəsi üzrə maraqlı tərəf
	Mülkiyyətində torpaqlar olan təşkilatlar (dini, sosial-vətəndaş və digər qruplar)
Layihə ərazilərində yaşayan insanlar	*Hazırkı layihə çərçivəsində layihənin təsirinə məruz qalan tərəflərin (LTMT) ikinci əsas kateqoriyası elektrik verilişi xətti trassası, giriş-çıxış yolları və nəzərdə tutulan yarımstansiyaların yaxınlığında yaşayan insanlardan ibarət olacaq. Bu LTMT-lər, güman ki, layihədə istifadə olunan ağır nəqliyyat vasitələrinin hərəkəti, tikintinin təsirləri və s. nəticəsində yaranan narahatlıqların təsirinə məruz qalsa da, layihə ilə bağlı məşğulluq imkanlarından da yararlana bilərlər.*
Bələdiyyə və kənd nümayəndələri	*Mühüm LTMT-lərin üçüncü kateqoriyası kənd nümayəndəlikləri olacaqdır. Onlar rayon icra hakimiyyəti başçısının nümayəndəsi tərəfindən təmsil edilir.*
Layihə ərazisində yerləşən və layihənin müsbət və ya mənfi təsir göstərə biləcəyi biznes müəssisələri	*Restoranlar və ictimai iaşə obyektləri*
	Mağazalar
	Avtoyuma məntəqələri
	Şəxsi məhsullar
	Turistlər üçün kiçik özəl otellər
	(Fermerlərin) bazarları (həm rəsmi, həm də qeyri-rəsmi ticarətçilər)
	Digər xidmətlər
Layihənin müsbət və ya mənfi təsir göstərə biləcəyi hədəf rayonlarda yerləşən biznes müəssisələri	*Sakinlər və icma üzvləri*
	(Fermerlərin) bazarları (həm rəsmi, həm də qeyri-rəsmi ticarətçilər)
	Restoranlar
	Digər xidmətlər

Cədvəl 6-2: Layihə üzrə digər maraqlı tərəflər

Maraqlı tərəflərin əsas qrupu	Layihənin maraqlı tərəfi
Nazirliklər və dövlət orqanları	*Energetika Nazirliyi*
	"Azərbaycan Dəmir yolları" QSC
	Mədəniyyət Nazirliyi
	Dövlət Turizm Agentliyi
	Maliyyə Nazirliyi
	İqtisadiyyat Nazirliyi
	Fövqəladə Hallar Nazirliyi
	Kənd Təsərrüfatı Nazirliyi
	Ekologiya və Təbii Sərvətlər Nazirliyi
	Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi
	Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi

	Rayon icra hakimiyyətləri
Vətəndaş cəmiyyəti təşkilatları	*Yerli QHT-lər, Sosial İqtisadiyyat Təşkilatları Həmkarlar İttifaqı, fondlar; sosial müəssisələr; Kooperativlər*
Layihələrin hazırlanması ilə məşğul olan digər qurumlar *Beynəlxalq QHT-lər və icraçı təşkilatlar*	*Layihələrin hazırlanması ilə məşğul olan digər qurumlar, beynəlxalq QHT-lər və icraçı təşkilatlar (məsələn, BMT-nin İnkişaf proqramı, Almaniya Beynəlxalq Əməkdaşlıq Cəmiyyəti, BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı və s.)*

Əlverişsiz/həssas vəziyyətdə olan fərdlər və ya qruplar

Əlverişsiz/həssas vəziyyətdə olan fərdlər və ya qruplar öz narahatlıqlarını ifadə etmək imkanına və ya layihənin təsirlərini başa düşmək üçün potensiala malik olmaya və beləliklə, maraqlı tərəflərin cəlb olunması prosesindən və layihənin faydalarından kənarda qala biləcək şəxslərdir.

6.4 ƏMSSTQ üçün Maraqlı Tərəflərin Cəlb olunması Prosesi

Maraqlı tərəflərin cəlb olunması prosesi aşağıdakı mərhələləri əhatə etmişdir: ƏMSSTQ, Tikinti, İstismar və Ləğv. Yeniləmələr əvvəlki ildə qaldırılan məsələlərin, narahatlıqların və sualların qısa xülasələrini, eləcə də planlaşdırılan fəaliyyətlər və faktiki keçirilən fəaliyyətlər və tədbirlər arasında dəyişikliklər barədə məlumatları təmin edəcəkdir. Maraqlı tərəflərin cəlb olunması davamlı ətraf mühit və sosial idarəetmə prosesləri üçün məlumat təmin edən təməl proseslərdən biridir. Layihə üçün hazırlanmış MTCP müntəzəm olaraq ictimaiyyətə açıqlanan ətraf mühit və sosial hesabatların siyahısını təqdim edəcəkdir.

6.5 Əks əlaqə mexanizmi

Effektiv əks əlaqə mexanizmi səmərəli kommunikasiyaya şərait yaratmaq, dəyərli rəylər toplamaq, narahatlıqları aradan qaldırmaq və cəlbetmə səylərimizdə davamlı təkmilləşdirməni təşviq etmək üçün Maraqlı Tərəflərin Cəlb olunması Planımızın (MTCP) vacib komponentidir. Əks əlaqə mexanizminin layihələrdə iştirak edən maraqlı tərəflərin müxtəlif baxış və ehtiyaclarına cavab verməsi, inklüziv və şəffaf olması nəzərdə tutulub. Əks əlaqə mexanizminin əsas elementləri aşağıdakılardır:

- **Rəy toplama kanalları**: Maraqlı tərəflərdən məlumatlar toplamaq üçün sorğular, əks əlaqə formaları, xüsusi elektron poçt ünvanları, onlayn portallar və interaktiv seminarlar kimi müxtəlif rəy toplama kanallarının tətbiqi. Bu kanallar fəal iştirakı təşviq etmək üçün əlçatan və istifadəçi yönümlü olacaqdır.

- **Müntəzəm əks əlaqə sessiyaları:** Maraqlı tərəflərin layihə fəaliyyətləri, qərarlar və nəticələrlə bağlı fikirlərini ifadə etmələri, rəy vermələri, suallarını vermələri və ideyalarını bölüşmələri üçün müntəzəm əks əlaqə sessiyaları, fokus qrup müzakirələri və maraqlı tərəflərlə forumlar təşkil etmək.

- **Rəylərin təhlili və hesabatvermə:** Ortaq məsələləri, narahatlıqları, prioritetləri və təklifləri müəyyən etmək üçün maraqlı tərəflərdən alınan rəyləri toplamaq, təhlil etmək və icmallaşdırmaq. Maraqlı tərəflərin töhfələrinin nizamlanmasında şəffaflığı və hesabatlılığı

nümayiş etdirmək üçün icmallaşdırılmış əks əlaqə hesabatları hazırlanacaq və maraqlı tərəflərlə paylaşılacaqdır.

- **Cavab və fəaliyyət planları:** Maraqlı tərəflərdən alınan rəyləri tez və effektiv şəkildə nizamlamaq üçün cavab və fəaliyyət planları hazırlamaq. Maraqlı tərəflərin fikirlərinin qərar qəbulu prosesinə daxil edilməsinə verdiyimiz əhəmiyyəti nümayiş etdirmək üçün praktiki addımlar, vaxt çərçivələri, öhdəliklər və nəticələr aydın şəkildə qeyd ediləcək.

- **Davamlı cəlb olunma prosesi:** Layihənin həyat dövranı boyunca əsas mərhələlərdə maraqlı tərəflərin cəlb olunduğu davamlı əks əlaqə zənciri yaratmaq. Alınan rəylər maraqlı tərəflərin gözləntilərinə və ehtiyaclarına uyğunluğu təmin etmək üçün cari cəlbetmə strategiyalarında, kommunikasiyalarda və düzəlişlərin hazırlanmasında istifadə ediləcək.

- **Potensialın gücləndirilməsi və dəstək:** Maraqlı tərəflərin əks əlaqə mexanizmində faydalı şəkildə iştirak etmələrinə şərait yaratmaq üçün potensialın gücləndirilməsi resursları, istiqamətləndirici materiallar və təlim sessiyaları təmin etmək. Buraya əks əlaqənin məqsədi, konstruktiv rəy verməyin üsulları və maraqlı tərəflərin rəylərinin layihə nəticələrinə təsiri haqqında maarifləndirmə daxildir.

- **Rəylərin qərar qəbuluna inteqrasiyası:** Maraqlı tərəflərin rəylərinin qərar qəbulu proseslərinə, layihənin planlaşdırılmasına, risklərin idarə olunmasına və fəaliyyətin qiymətləndirilməsinə inteqrasiya edilməsini təmin etmək. Maraqlı tərəflərin rəyləri onların maraqlarını və prioritetlərini əks etdirən siyasətlərin, təşəbbüslərin və tədbirlərin formalaşdırılmasında nəzərə alınacaqdır.

Maraqlı Tərəflərin Cəlb olunması Planında təsvir edilmiş əks əlaqə mexanizmi maraqlı tərəflərin rəylərini dəyərli hesab etməklə, ehtiyaclarını nəzərə alınmaqla və cəlbetmə təcrübələrimizdə hesabatlılığı nümayiş etdirməklə, maraqlı tərəflərlə etimad, əməkdaşlıq və müsbət münasibətlər yaratmağı hədəfləyir.

Bu hesabat hökumət qurumları, yerli bələdiyyələr və ümumi ictimaiyyət üçün "Azərenerji" ASC-nin veb saytında əlçatandır. Həmçinin, aşağıdakı ünvanlardan çap nüsxəsi şəklində də əldə edilə bilər:

- "Azərenerji" ASC-nin baş ofisi, A.Əlizadə küç. 10, Bakı 1005, Azərbaycan;
- Aşağıdakı rayonların bələdiyyə idarələri:

○ Neftçala	○ Salyan	○ Hacıqabul
○ Biləsuvar	○ Abşeron	○ Qobustan

Hazırkı hesabat, Layihə və ya təklif olunan tədqiqatlarla bağlı hər hansı şərhlər aşağıdakı əlaqə məlumatlarından istifadə etməklə "Azərenerji"yə yönləndirilə bilər:

- Yusif Qayıbov, Layihə İdarəetmə Qrupunun Direktoru, "Azərenerji" ASC-nin baş ofisi, A.Əlizadə küç. 10, Bakı 1005, Azərbaycan;
- E-mail: yusif.qayibov@azerenerji.gov.az

6.6 Açıqlama və məsləhətləşmə fəaliyyətləri

Maraqlı tərəflərin cəlb olunması prosesinin növbəti mərhələsi ƏMSSTQ prosesinin ilkin nəticələrinin açıqlanması və məsləhətləşmələrə yönəlir. Bu mərhələ "ictimai açıqlama" adlanır. ƏMSSTQ-nin ictimai açıqlama mərhələsində cəlb olunma üçün xüsusi məqsədlər aşağıdakılardır:

- Maraqlı tərəfləri təsirlərin qiymətləndirməsinin ilkin versiyası və təsirlərin idarə olunması/azaldılması üzrə müvafiq tədbirlərlə tanış etmək; və
- Maraqlı tərəflərin təsirlərin qiymətləndirməsinin ilkin versiyası və təsirlərin idarə olunması/azaldılması üzrə müvafiq tədbirlərlə bağlı rəy və fikirlərini toplamaq.

Bu mərhələdə, açıqlama və məsləhətləşmə fəaliyyətləri aşağıdakı ümumi prinsiplərə əsasən hazırlanmışdır:

- Məsləhətləşmə tədbirləri və imkanları geniş şəkildə və qabaqcadan elan ediləcək - xüsusilə layihədən təsirlənən tərəflər arasında və hər hansı görüşdən ən azı 2 həftə əvvəl.
- Hər hansı tədbirdən əvvəl, insanların qiymətləndirmənin məzmunu və nəticələri haqqında məlumatlandırılması üçün qeyri-texniki xülasə hazırlanacaq və əlçatan olacaq;
- Hər hansı görüşün yeri və vaxtı layihədən təsirlənən maraqlı tərəflərə müyəssərliyi maksimuma çatdırmaq üçün zəruri şəkildə planlaşdırılmış;
- Təqdim olunan məlumatlar aydın və texniki olmayan dildə olacaq və Azərbaycan və ingilis dillərində təqdim edilmiş;
- Maraqlı tərəflərin narahatlıqlarını ifadə edə bilmələri üçün tədbirdə moderatorluq təmin edilmiş; və
- Qaldırılan məsələlər ya görüşdə cavablandırılmış, ya da tədbirdən sonra lazımi addımlar fəal şəkildə atılmış və izlənilmişdir.

İctimaiyyətə açıq ƏMSSTQ Hesabatı aşağıdakı qaydada əlçatan olacaq: (i) “Azərenerji”nin veb saytı (www.azerenerji.gov.az) vasitəsilə onlayn formada həm Azərbaycan, həm də ingilis dillərində; (ii) Layihənin keçdiyi hər bir bələdiyyə idarəsində, çap formada.

7. LAYİHƏ ƏRAZİLƏRİNDƏ ƏTRAF MÜHİTİN MÖVCUD VƏZİYYƏTİNİN QİYMƏTLƏNDİRİLMƏSİ

Bu Fəsildə layihənin komponentlərinin ətraf mühit və sosial sahə ilə bağlı təsir edə biləcəyi mövcud vəziyyət təsvir edilir.

Hacıqabul rayonu

Hacıqabul rayonu ərazisinə görə respublikanın Kürdəmir, Sabirabad, Salyan, Ağsu, Şamaxı, Qobustan, Abşeron rayonları, Bakı şəhərinin Qaradağ rayonu və Şirvan şəhəri ilə həmsərhəddir. Rayonda inzibati ərazi bölgüsü baxımından 1 şəhər, 5 qəsəbə, 25 kənd yaşayış məntəqəsi vardır. Mərkəzi Hacıqabul şəhəridir. Hacıqabul rayonunda 18 inzibati ərazi dairəsi, 15 bələdiyyəsi fəaliyyət göstərir.

Hacıqabul rayonu Kür-Araz düzənliyinin Cənub-Şərqində, Şirvan ovalığı kimi tanınmış ərazidə yerləşir. Rayon ərazisinin böyük bir hissəsi dəniz səviyyəsindən aşağıdır. Dağlıq ərazilərdə çoxlu sayda palçıq vulkanlarına rast gəlmək olar. Burada quru, isti yarımsəhra və quru çöl subtropik iqlimi hökm sürür. Ərazidə orta illik temperatur 14-15 dərəcədir. Atmosfer yağıntıları əsasən yağış formasında düşür və miqdarı ildə 200 millimetrdən çox olmur.

Nisbi illik orta rütubət 72% təşkil edir və il ərzində 52-80% arasında dəyişir. Rayonda illik yağıntının miqdarı 300-400 mm təşkil edir. Yağıntılar əsasən yaz və payız aylarının payına düşür. Potensial buxarlanma yayda 1000-1100 mm, qışda isə 198-236 mm təşkil edir.

Şirvan ovalığının əksər yerlərində torpağın əmələ gəlməsinə fərqli amillər təsir edir. Quru iqlim torpaqdan tərkibində həll olunmuş duz olan nəmin buxarlanmasına səbəb olur. Buna görə də, bu yarımsəhra ərazilərin torpaqları son dərəcədə duzludur və burada çürüyən bitki örtüyü olmadığı üçün qaratorpaq da yoxdur. Torpaq əmələ gəlməsi proseslərinin nəticəsində əsasən boz kül rəngli boz torpaq əmələ gəlir. Buna baxmayaraq, bu cür ağımtıl torpaqların bəziləri münbitdir, çünki torpaqdakı çox sayda həll olunmayan minerallar suvarmada istifadə üçün münasibdir. Düzənlik bir çox çayın həm yeni, həm də qədim çöküntülərinin təsirinə məruz qalıb.

7.1 500/330 kV-luq Nəvahi yarımstansiyasının yerləşdiyi ərazinin təsviri

Layihə ərazisi coğrafi baxımdan Hacıqabul rayonunun cənub hissəsində, Nəvahi qəsəbəsinin şərq tərəfində yerləşir. Ərazinin torpağı dövlət mülkiyyətindədir və Azərbaycan SSR Nazirlər Sovetinin 18 may 1984-cü il tarixli, 166 nömrəli qərarı ilə "AzərBaşEnerji"nin (indiki "Azərenerji" ASC) istifadəsinə verilmişdir (Qanununun 3.4 saylı Əlavəsində qeyd olunub). Ərazi boşdur. Ərazi Hacıqabul rayonunun şimal-şərqində Nəvahi qəsəbəsindən 1,2 km, Hacıqabul şəhərindən 20 km, cənub-şərq istiqamətində isə Bakı şəhərindən 90 km məsafədə yerləşir. Sovet İttifaqı dövründə bu ərazidə AES-in tikilməsi nəzərdə tutulurdu. Çernobıl AES-də baş verən qəzadan sonra stansiyanın tikintisi dayandırılıb. Layihə ərazisindən 500 m aralıda kərpic zavodu və anbar binaları yerləşir. 1,25 km məsafədən Bakı-Qazax dəmir yolu keçir. Şəkil 7.1-də layihənin yeri, 7.2-də isə sahənin görünüşü göstərilib.

Nəvahi qəsəbəsində layihə ərazisinin ekosistemlərinin inkişafi və formalaşmasında radiasiya, və istilik balansının, temperatur, yağıntı və külək rejiminin rolu böyükdür. Günəş radiasiyası bütün təbii proseslərin inkişafı üçün əsas mənbədir. Respublikamızın düzən ərazilərində günəşli saatların miqdarı çoxdur. Tədqiqat ərazisində onun qiyməti 2200 – 2500 saat/il təşkil edir. Günəşli saatların əsas miqdarı yay aylarına düşür və gələn istiliyin demək olar ki, 1/3 hissəsi bu dövrdə olur. Ümumi günəş

radiasiyasının miqdarı 125-134 kkal/sm2 təşkil edir ki, bunun da 90-95 kkal/sm2 ilin isti dövrünə təsadüf edir (Ə.M.Şıxlınski 1968). Effektiv şüalanma Kür-Araz ovalığında 55-56 kkal/sm2 olduğu halda, Xəzərsahili ərazilərdə onun qiyməti 38-43 kkal/sm2 təşkil edir.

Şəkil 7-1: Layihənin yeri

Şəkil 7-2: Yarımstansiya ərazisinin görünüşü

7.2 EVX-lərin traslarının keçdiyi ərazilərin təsviri

Bu bölmədə elektrik verilişi xətlərinin nəzərdə tutulan trassaları boyunca mövcud olan şərait nəzərdən keçirilir. Trasların təsviri aşağıdakı bölmələrdə verilmişdir:

7.2.1. 90 km uzunluğunda 330 kV-luq ikidövrəli “Bankə GES-Nəvahi YS” EVX

Bu EVX vasitəsilə Neftçala rayonu Bankə qəsəbəsində quraşdırılacaq gücü 390 MVt olan Bankə GES-də istehsal olunacaq elektrik gücünü enerji sistemə inteqrasiya etmək üçün Nəvahi YS-na ötürəcək. Bu EVX Neftçala, Salyan və Hacıqabul rayonlarının inzibati ərazilərindən keçəcək.

Çöl-torpaq sahələri

Çöllük ərazi

Kol-kos

Trasın Səlyan rayonu ərazisi

Şəkil 7.3. Bankə GES - Nəvahi YS EVX-nin trası boyu görüntülər

EHX-nin trasının Neftçala, Səlyan və Hacıqabul rayonlarının ərazisinə düşən hissəsi müvafiq icra yerli hakimiyyətlərii ilə aparılan yazışmalarla razılaşdırılmışdır (bax Əlavə 1). Trasın ümumi uzunluğu 90 km-dir.

Şəkil 7-4: Bankə GES - Nəvahi YS EVX-nin Şirvan Milli Parkının ərazisindən keçidi

EVX-nin trassasının düşdüyü ərazidə əhalinin sıx məskunlaşma şəraiti nəzərə alınaraq zərurətdən irəli gələrək trassanın kiçik bir hissəsi 2 nöqtədə Şirvan Milli Parkının ərazisindən keçir və həmin ərazilərdə hər birinin oturacaq ölçüləri 5,5 m x 3,5 m olan 4 (dörd) və 7 ədəd dayaq qoyulacaqdır. Həmin EVX-Milli Park ərazisində hazırda mövcud olan Azərenerji ASC-yə məxsus 110 kV-luq EVX-yə paralel (20 m məsafədə) çəkiləcəkdir və bu trassa üçün ərazidə hazırda mövcud olan xidməti yoldan istifadə olunacaqdır. Bu dayaqların qoyulması və xətlərin çəkilməsi zamanı qoruq ərazisindəki heyvanları və bitkiləri qorumaq üçün xüsusi yumşaldıcı tədbirlər görüləcəkdir.

Bankə GES – Nəvahi YS EVX-nin Şirvan Milli Parkına düşən dayaqları üçün Azərenerji ASC tərəfindən Ekologiya və Təbii Sərvətlər Nazirliyinə məktub ünvanlanmış və nazirlik tərəfindən Milli Parkın ərazisinə düşən dayaqlar və hava xətti üçün müvafiq razılıq verilmişdir.

Şəkil 7-5: Bankə GES – Navahi YS EVX-nin Şirvan Milli Parkının ərazisinə düşən hissəsi

7.2.2. 90 km uzunluğunda 330 kV-luq ikidövrəli Biləsuvar GES - Nəvahi YS EVX

Bu EVX vasitəsilə Biləsuvar rayonunda quraşdırılacaq gücü 445 MVt olan Biləsuvar GES-də istehsal olunacaq elektrik gücünü enerji sistemə inteqrasiya etmək üçün Nəvahi YS-na veriləcək. Bu EVX Biləsuvar, Salyan və Hacıqabul rayonlarının inzibati ərazilərindən keçəcək.

EHX-nin trasının Biləsuvar, Səlyan və Hacıqabul rayonlarının ərazisinə düşən hissəsi müvafiq yerli icra hakimiyyətləri ilə aparılan yazışmalarla razılaşdırılmışdır (bax Əlavə 1). Trasın ümumi uzunluğu 90 km-dir.

Şəkil 7-6: Biləsuvar GES – Nəvahi YS EVX-nin trası (bənövşəyi rəngli xətt)

90 km uzunluğunda olan "Biləsuvar GES-Nəvahi YS" 330 kV-luq EHX-nin marşrutunda 1 saylı marşruta bənzərdir. Yəni tras çöllük, yüngül kolları olan ərazidən 110,35,10 kV-luq EHX-nin üstündən, Kür çayının üstündən, "Mil-Muğan" kollektorunun üstündən, əkin sahəsindən, Səlyan Aqro Park ərazisinin yanından, 220 kV-luq "Şirvan-Səlyan" HX-nin üstündən, köhnə balıq vətəgəsinin yanından, istixana kompleksindən aralı, kiçik ağaclıq ərazidən, kiçik bataqlıq ərazidən keçir. Trass daha sonra "Astara-Ələt" avtomaqistralına paralel 70 metr aralıdan keçir. Balıq vətəgəsinin 300 metr məsafədə dönərək keçir.

Biləsuvar GES – Navahi YS xətti ilə Bankə GES – Navahi YS xətti Nəvahi 500/330 kV-luq yarımstansiyaya 22-23 km qalmış paralel marşrutla gedirlər. Bu xətt paralel marşrutla 110,35,10 kV-luq EHX-ni, "Bakı-Astara" yolunu, bəzi yeraltı kommunikasiyaları, qum karxana yaxınlığından, əkin sahələrindən keçərək gölməçə kənarı ilə Nəvahi YS-nın 330 kV-luq portallarına daxil olur. Bütün kommunikasiyalarla kəsişmə, 330 kV-luq xəttin mühafizə zonası nəzərəalınmaqla EQQQ-ПУЭ normalarına uyğun olaraq layihələndirilir.

Biləsuvar GES – Navahi YS hava xəttinə dair görüntülər aşağıda verilmişdir.

Çöl, düzənlik ərazi

Əkin sahəsinin kənarı

Şirvan Kollektorun üstü ilə

Şəkil 7-7: Biləsuvar GES – Nəvahi YS EVX-nin trası boyunca görüntülər

7.2.3. 65 km uzunluğunda 330 kV-luq təkdövrəli Abşeron YS - Nəvahi YS EVX

Bu EVX Nəvahi yarımstansiyasından elektrik enerjisinin Abşeron yarımstansiyasına ötürülməsi üçün çəkiləcəkdir. Tras düz və bir qədər dağlıq ərazidə çəkiləcək və trasa asanlıqla çıxış əldə etmək mümkün olacaq. O, Hacıqabul, Qobustan və Abşeron rayonlarının inzibati ərazilərindən keçəcək.

EHX-nin trasının Hacıqabul, Qobustan və Abşeron rayonlarının ərazisinə düşən hissəsi müvafiq icra yerli hakimiyyətləri ilə aparılan yazışmalarla razılaşdırılmışdır (bax Əlavə 1). Trasın ümumi uzunluğu 65 km-dir.

Şəkil 7-8: Abşeron YS – Nəvahi YS EVX-nin trası

Abşeron YS - Nəvahi YS EVX-nin trassasının keçdiyi ərazidə relyef əsasən alçaq və orta təpəliklərdən və düzənlikdən ibarətdir, relyefin mütləq yüksəklik qiymətləri 21.2 (Nəvai y/s)-223.0 (Qobustan) m arasında dəyişir.

Şəkil 7-9: Abşeron YS – Nəvahi YS EVX-nin trası boyu görüntülər

Aşağıdakı bölmələrdə trassaların optimallaşdırılması və ətraf mühitin ilkin tədqiqatı zamanı həyata keçirilən çöl kəşfiyyatı işləri çərçivəsində qeydə alınmış ilkin şərtlər təsvir edilib.

7.3. Bioloji mühit

7.3.1. Flora

Azərbaycan Respublikasının ərazisi zəngin floraya malikdir. Dünyanın demək olar ki, bütün bitki növləri bu kiçik ölkənin ərazisində yayılıb. Azərbaycanda bitən 4500-ə yaxın ali sporlu, çiçəkli bitkilər 125 qrup və 920 cinsə aiddir.

Respublikada təsadüf edilən bitki növləri Qafqazda yetişən bitki növlərinin ümumi sayının 66%-ni təşkil edir. Azərbaycanda Qafqazda və digər bölgələrdə geniş yayılmış bitki növləri ilə yanaşı, yalnız bu ərazi üçün xarakterik olan 240-a yaxın endemik bitki növü də yetişir.

Bitki örtüyünün zənginliyi regionun fiziki-coğrafi xüsusiyyətləri, müasir torpaq-iqlim şəraiti, şaquli zonallaşma və bir sıra digər amillərin təsiri altında formalaşıb. Belə ki, respublikanın aran hissəsində 200 metr hündürlüyə qədər səhra və yarımsəhra bitki növləri və bataqlıq bitkiləri yayılıb.

Səhra tipli bitki qruplarına əsasən Xəzər dənizi sahillərində, cənub-şərqi Şirvanda, Mil, Muğan və Şirvan düzənliklərində təsadüf olunur. Torpağın şoranlığından asılı olaraq ərazidə böyürtkən, sukkulentlər, halofitlər, qış ot bitkiləri geniş yayılıb. Yarımsəhra bitkiləri Şirvan, Selyan, Muğan, Mil və Qarabağ çöllərində, həmçinin Ceyrançöl, Qobustan və Arazboyu düzənliklərində böyük əraziləri tutur. Kür-Araz, Qobustan və Ceyrançöldə yovşan yarımsəhralıqları üstünlük təşkil edir. Digər törəmələrlə müqayisədə Qaraqan (Kür-Araz) və Dengiz (Qobustan, Naxçıvan) törəmələri Azərbaycan üçün daha xarakterikdir. Yarımsəhra ərazilərdə geniş yayılmış digər bitkilər arasında soğanaqlı qumotu, yapon tonqalotu, bərk quramat, şərq bozağı, çilingburnu, dənli otlar və bir sıra şoranlıq otlarını (çəran, xasevdi, sarıbaş, armudgülü və s.) qeyd etmək olar. Bu ərazilərdə unikal tuğay meşələri yerləşir. Kür, Araz və Qabırrı çaylarının vadilərində yayılmış meşələrin əsas ağacları palıd, ağcaqayın, söyüd və s.-dir.

Böyük Qafqazın və Kiçik Qafqazın dağətəyi düzənliklərində birillik və çoxillik kserofit bitki və kol bitkiləri əsasən 200 m-dən 600-700 m-ə qədər, bəzən isə 1200 m-ə qədər hündürlükdə yetişir. 1800-2200 metr hündürlükdə olan ərazilərdə meşələr var.

Azərbaycan Respublikasının ümumi sahəsi 86,6 milyon hektardır və bunun 1213,7 min hektarını meşələr təşkil edir. Ərazinin 989,5 min hektarı meşələrlə örtülüdür, yəni meşələr respublikanın ümumi ərazisinin 11,4 faizini təşkil edir. Adambaşına düşən meşə sahəsi təxminən 0,12 ha təşkil edir və bu müvafiq qlobal orta göstəricidən (0,48 ha) 4 dəfə azdır.

Azərbaycanda meşələrin ərazisi kiçik olsa da, onlar növlərin zənginliyi ilə məşhurdur. Burada 435 növ ağac və kol bitir, onlardan 70-i endemik növdür. Respublikanın bütün ərazisi üçün enliyarpaqlı meşələr xarakterikdir. Bu növ meşələr Böyük və Kiçik Qafqaz, Talış dağlarında geniş yayılıb.

Meşələr üç əsas ağac növündən - fıstıq, vələs və palıddan təşkil olunur. Onlar bütün meşə örtüyünün 86,2 faizini təşkil edir. Bunlarla yanaşı ağcaqayın, qarağac, cökə, qızılağac, qovaq, cökə, söyüd və digər enliyarpaqlı ağaclar da geniş yayılıb. İynəyarpaqlı meşələr respublika meşələrinin 1,7 faizini təşkil edir. Azərbaycanda təbii şərtlərdə bitən 107 ağac növündən 7-si iynəyarpaqlıdır. Bunlara Avropa qara şamı, Eldar şamı, qarmaqvarı şam, çoxmeyvəli, qırmızımeyvəli və hündür ardıc daxildir.

Layihə üzrə EVX-lərin keçdiyi ərazidə meşə massivlərinə rast gəlinmir.

7.6.2 Fauna

Respublika ərazisində 97 növ məməli, 357 növ quş, 67 növ suda-quruda yaşayan və sürünən, 1 növ dəyirmiağızlı, 97 növ balıq, 15000-dən çox onurğasız heyvan növünün yaşaması məlumdur.

Daha öncə qeyd edildiyi kimi, layihə ərazilərinin əksəriyyəti yüksək antropogen təsirə məruz qalmış şəhər ərazilərində yerləşir. Buna görə də, layihə ərazisinin ətrafındakı yerlərdə məskunlaşan məməli heyvanlar aləmində adi tülkü (*Vulpes vulpes*), zolaqlı ot siçanı (*Apodemus agrarius*) və taxıl siçanı (*Microtus socialis*) kimi kənd təsərrüfatına öyrəşmiş növlər üstünlük təşkil edir.

Azərbaycanda 10 növ su heyvanı və 54 növ sürünən var. Layihə əraziləri müxtəlif sürünənlər, xüsusilə də sarı koramal (*Pseudopus apodus*), cəld kərtənkələcik (*Eremias velox*) üçün münasib yaşayış mühitinə malik yarımquraq quru ərazilərdə yerləşir. Göl qurbağası (*Rana ridibunda*) və ya adi ağacqurbağası (*Hyla arborea*) kimi adi su heyvanlarına yaxınlıqdakı gölməçələrdə və digər su hövzələrində rast gəlmək mümkündür.

Azərbaycanda 60 ailəyə məxsus 394 quş növünün qeydə alındığı zəngin ornitofauna var. Bu növlərin təxminən 40%-i Azərbaycanda doğulur, qalanları isə miqrasiya edir. Ayrı-ayrı növlər qeyd edilməsə də, layihə ərazilərində çox sayda quşlar müşahidə olunur. Kənd təsərrüfatının olduğu ərazilərdə digər ərazilərə nisbətən daha çox quş olur.

Azərbaycanda 108 növ heyvanın adı Azərbaycan Respublikasının "Qırmızı Kitabı"na daxil edilib. Onlardan 14 növ məməlilər, 36 quşlar, 13 sürünənlər və suda-quruda yaşayanlar, 5 balıqlar, 40 həşəratlara aiddir.

Antropogen fəaliyyət nəticəsində ərazinin faunası davamlı şəkildə azalmaya məruz qalıb. Əhalinin sıxlığı ilə əlaqədar olaraq ərazidə yaşayan vəhşi heyvanların sayı azalıb. Ümumiyyətlə ətraf ərazilərdə yaşayan vəhşi heyvanların növləri aşağıdakılardır:

- Məməlilər – çaqqal, tülkü, dovşan, kirpi, ağboyun yarasa, adi siçovul və qırmızıquyruqlu qum siçanı;
- Quşlar – adi müşgül, göyərçin, anbar bayquşu, ağ quyruqsallayan, qaraquş, bülbül, sağca, boz qarğa, adi sığırçın və ev sərçəsi;
- Sürünənlər – Aralıq dənizi tısbağası, Xəzər gekkonu və gürzə ilanı;
- Suda-quruda yaşayanlar - yaşıl qurbağa.
- Heyvan və quşların çoxu şəxsi evlərin bağlarında yaşayır. Yaxınlıqdakı yamaclarda iki əsas məməli (adi tülkü və qızıl tülkü) müşahidə olunur. Onlara layihə ərazisində yalnız gecə vaxtı rast gəlmək mümkündür.

Layihə ərazisində tapılan tısbağa növlərindən biri olan Aralıq dənizi tısbağası (*Testudo graeca*) həm beynəlxalq, həm də yerli səviyyədə qorunan növdür, lakin yalnız şəxsi meyvə və tərəvəz bağlarında yaşayır. Yuxarıda qeyd edilənlərə əsasən layihənin bu heyvan növlərinə təsiri minimaldır. Bununla belə, Podratçılar layihənin tikinti mərhələsində ağır texnika ilə işləyərkən layihə ərazilərindən keçən heyvanlara xəsarət yetirməmək üçün son dərəcə diqqətli və ehtiyatlı olmalıdırlar. Analoji şəkildə, digər növlərə təsirin də az olacağı gözlənilir. Bundan başqa, quş yuvalarının zədələnməməsi üçün çoxalma mövsümündə (aprelin sonundan iyulun sonuna qədər) ağacların kəsilməməsi tövsiyə olunur.

Şəkil 7-10: Azərbaycanın zoocoğrafi xəritəsi

7.6.2.1 Layihə ərazisində rast gəlinən fauna növləri

Aşağıda verilən cari vəziyyətin qiymətləndirməsi layihə əraziləri üçün xarakterik olan növlərə yönəlib: məməlilər, sürünənlər, suda-quruda yaşayanlar və quşlar.

Məməlilər

Ümumiyyətlə, daha geniş Tədqiqat Sahəsini xarakterizə edən yaşayış areallarında yalnız məhdud sayda kiçik və orta ölçülü məməlilərə rast gəlinmişdir. Bunun əksinə olaraq, təsir dəhlizinin orta və böyük ölçülü növlər tərəfindən istifadəsini nadir təsadüfi ziyarətlərlə məhdudlaşmasını ehtimal etmək olar. Adi məməlilərə qoyun sürülərinin ardınca qışlama yerlərinə gedən çaqqallar (Canis aureus, aşağı narahatlıq) və canavarlar (Canis lipus, aşağı narahatlıq) və tədqiqatın daimi sakinlərindən biri olan adi (qırmızı) tülkü (Vulpes vulpes, aşağı narahatlıq) daxildir. Ərazidə rast gəlinən digər tipik məməlilərə ev siçanı növləri, yarasalar, dovşanlar, safsarlar, zəlilər və porsuqlar misal ola bilər.

Şəkil 7-10-da göstərildiyi kimi, çöl tədqiqatları zamanı qırmızı tülkü (Vulpes vulpes) və Avropa dovşanına (Lepus europaeus) aid bir neçə iz və nəcis müşahidə edilmişdir. Bütün tədqiq edilən ərazilərdə bir neçə siçan yuvası aşkar edilmişdir.

Mövcud ədəbiyyatın icmalına və əraziyə səfərlər zamanı toplanmış sübutlara əsasən, təsir zonası daxilində ümumilikdə 38 məməli növünün (bax Cədvəl 7-1) potensial olaraq mövcud olduğu qənaətinə gəlmək olar. Bu növlərdən:

- Safsar (Vormela peregusna) IUCN Qırmızı Siyahısına əsasən qlobal səviyyədə həssas hesab edilən yeganə növdür (həssas). Bu növ təsir dəhlizində aşkar edilməmişdir, lakin bəzən az antropogen təsir görən ərazilərdə rast gəlinir.
- İki növ (safsar, həssas - Vormela peregusna və əyri qanadlı yarasa (nəsli tükənmə təhlükəsi) - Miniopterus schreibersii) Azərbaycanın Qırmızı Kitabına daxil edilmişdir, bunlara təsir dəhlizi daxilində rast gəlinməmişdir.
- Üç məməli növü (boz canavar, aşağı narahatlıq - Canis lupus, safsar, (həssas) - Vormela peregusna və iri burunlu yarasa, nəsli tükənməkdə olan - Miniopterus schreibersii) Bern Konvensiyasının II Əlavəsinə daxil edilmişdir, sadalanan digər iki növ isə (avropa porsuğu, aşağı narahatlıq – Meles meles və safsar) Bern Konvensiyasının III Əlavəsinə daxil edilmişdir.
- Təsir dəhlizində, xüsusən də yaxınlıqdakı heyvandarlıq təsərrüfatlarında zolaqlı çöl siçanı (Apodemus agrarius) və boz dovşanın (Cricetulus migratorius Pallas) məhdud çeşidli növlərinin olması təsdiq edilmişdir.
- Təsir dəhlizi daxilində heç bir endemik və ya areal üzrə məhdud növ aşkar edilməmişdir və ya olması gözlənilmir.

Adi (qırmızı) tülkü izləri (vulpes vulpes)

Siçan yuvaları

Çaqqal yuvaları

Gəmiricilərə aid yuvalar

Şəkil 7-11: Məməlilərin izləri

Cədvəl 7-1: Təsir zonasında potensial mövcud məməlilərin növləri

Dəstə	Ailə	Növlər	End.	Konservasiya statusu		Mühafizə statusu		Müş. / ədby.
				IUCN	Az. RDB	BERN	CITES	
Carnivora	*Canidae*	Qızıl çaqqal (*Canis aureus)*	-	Aşağı narahatlıq	yox	-	-	L
		Canavar (*Canis lupus)*	-	Aşağı narahatlıq	yox	Qoşma II	Qoşm. II	L
		Adi tülkü (*Vulpes vulpes)*	-	Aşağı narahatlıq	yox	-	-	L
	Felidae	*Çöl pişiyi (Felis chaus)*	-	Aşağı narahatlıq	yox	-	Qoşm. II	L
	Mustelidae	Avropa porsuğu (*Meles meles)*	-	Aşağı narahatlıq	yox	Qoşma III	-	L
		Safsar (*Vormela peregusna)*	-	Həssas	Hə	Qoşma II	-	L
		Zəli (*Mustela nivalis)*	-	Aşağı narahatlıq	yox	Qoşma III	-	L
Cetartiodactyla	*Suidae*	Çöl donuzu (*Sus scrofa)*	-	Aşağı narahatlıq	yox	-	-	L

Chiroptera	*Miniopteridae*	Ümumi əyri qanadlı yarasa *(Miniopterus schreibersii)*	-	Nəsli kəsilmə təhlükəsi	Hə	Qoşma II	-	L
	Vespertilionidae	Asiya iriburunlu yarasa *(Barbastella leucomelas)*	-	Aşağı narahatlıq	yox	Qoşma II	-	L

Sürünənlər

Mövcud ədəbiyyatın icmalına əsasən daha geniş tədqiqat sahəsində mövcud olduğu bildirilən növlərə ilan və kərtənkələ ilə təmsil olunan bir neçə sürünən daxildir. Ədəbiyyat icmalı və yerində aparılan müşahidələr əsasında toplanmış məlumatlara əsasən, tədqiq edilən ərazidə cəmi 18 sürünən növü potensial olaraq mövcud ola bilər (Cədvəl 7-2). Bu növlərdən:

- İki növ müşahidə edilmişdir (Şəkil 7-1) – Layihə ərazilərində şahmar ilanı (Dolichophis schmidti, aşağı narahatlıq) və Avropa gölməçə tısbağasına (Emys orbicularis) rast gəlmək mümkündür.
- Adi tısbağa (Testudo graeca) IUCN Qırmızı Siyahısına əsasən qlobal səviyyədə təhlükə altında olan (Həssas) yeganə növdür və Azərbaycanın Qırmızı Kitabına daxil edilmişdir. Müşahidələr zamanı heç bir tısbağaya rast gəlinməmiş və onların təsir dəhlizində mövcudluğuna dair heç bir əlamət yoxdur.
- İki növ ilan (dam ilanı, LC - Telescopus fallax və damalı su ilanı - Natrix tessellata) və iki növ tısbağa (Avropa gölməçə tısbağası - Emys orbicularis və Adi tısbağa - Testudo graeca) daxildir. Demək olar ki, bütün sadalanan növlər Bern Konvensiyasının III Əlavəsinə daxil edilmişdir.
- Öyrənilən ərazidə heç bir endemik və ya yayılma arealı məhdud olan növ aşkar edilməmişdir və ya olması gözlənilmir.

Təsir dəhlizində sürünənlər üçün həssas dövrlərin çoxalma və inkubasiyanın baş verdiyi aprel-avqust ayları, həmçinin qazıntı işləri təqdirdə qışlama dövrləri (oktyabrın ortalarından mart ayına qədər) nəzərə alınmalıdır.

Avropa göl tısbağası	Şahmar ilan

Şəkil 7-12: Layihə ərazisində rast gəlinən sürünənlər

Cədvəl 7-2. Layihə ərazilərində potensial mövcud ola bilən sürünənlərin növləri

Dəstə	Ailə	Növlər	End.	Konservasiya Statusu		Mühafizə Statusu		Müş.Ədb
				IUCN	Az. Qırm. kitab	BERN	CITES	
Squamata	*Gekkonidae*	Xəzər təlxəsi/Sarıqarın təlxə *(Tenuidactylus caspius)*	-	Aşağı narahatlıq	Yox	Qoşm. III	-	Ədby.
	Lacertidae	Rəngli kərtənkələ *(Eremias arguta)*	-	NT	Yox	Qoşm. III	-	Ədby.
		Mərkəzi asiya rəngli kərtənkələsi *(Eremias velox)*	-	Aşağı narahatlıq	Yox	Qoşm. III	-	Ədby.
		İlan gözlü kərtənkələ *(Ophisops elegans)*	-	Aşağı narahatlıq	Yox	Qoşm. II	-	Ədby.
		Dəyirmibaş kərtənkələ *(Phrynocephalus helioscopus)*	-	Aşağı narahatlıq	Yox	Qoşm. III	-	Ədby.
	Boidae	Qum boa ilanı *(Eryx jaculus)*	-	Aşağı narahatlıq	Yox	Qoşm. III	Qoş m. II	Ədby.
	Colubridae	Qırmızıqarın/ Qızılı təlxə *(Dolichophis schmidti)*	-	Aşağı narahatlıq	Yox	Qoşm. III	-	M/ Ədby.
		Yaxalı cırtdan ilan *(Eireniscollaris)*	-	Aşağı narahatlıq	Yox	Qoşm. III	-	Ədby.
		Üzük başlı cırtdan ilan *(Eirenis modestus)*	-	Aşağı narahatlıq	Yox	Qoşm. III	-	Ədby.

Squamata		Zeytuni təlxə *(Platyceps najadum)*	-	Aşağı narahatlıq	Yox	Qoşm. III	-	Ədby.
		Dam ilanı *(Telescopus fallax)*	-	Aşağı narahatlıq	Yox	Qoşm. I	-	Ədby.
	Natricidae	Sarı koramal *(Natrix tessellata)*	-	Aşağı narahatlıq	Yox	Qoşm. II	-	Ədby.
	Psammophiidae	Kələz ilan *(Malpolon monspessulanus)*	-	Aşağı narahatlıq	Yox	Qoşm. III	-	Ədby.
Testudines	*Scincidae*	Uzunayaqlı sçink *(Eumeces schneideri)*	-	Aşağı narahatlıq	Yox	Qoşm. III	-	Ədby.
	Viperidae	Nəhəng gürzə *(Macrovipera lebetina)*	-	Aşağı narahatlıq	Yox	Qoşm. III	-	Ədby.
	Emydidae	Avropa bataqlıq tısbağası *(Emys orbicularis)*	-	Nəsli tükənmə kdə olan	Yox	Qoşm. I	-	Müş
	Emydidae	Xəzər tısbağası *(Mauremys caspica)*	-	Ölkə səviyyəsində qiymətləndirilməyib	Yox	-	-	Ədby.
	Testudinidae	Adi tısbağa *(Testudo graeca)*	-	Həssas	Hə	Qoşm. II	Qoşm. II	Ədby.

Suda-quruda yaşayanlar

Suda-quruda yaşayan fauna növlərinin meydana gəlməsi ciddi şəkildə sulu ərazilərin və bataqlıq bitki örtüyünün olması ilə bağlıdır, çünki həmin fauna növləri ən azı çoxalmaları üçün sudan asılıdırlar.

Layihə ərazisində suda-quruda yaşayan fauna növləri üçün həssas dövrlərin çoxalma və inkubasiyanın baş verdiyi aprel-avqust ayları, həmçinin qazıntı işlərinin aparıldığı təqdirdə qışlama dövrləri (oktyabrın ortalarından mart ayına qədər) nəzərə alınmalıdır.

Mövcud ədəbiyyatın təhlili zamanı toplanmış məlumatlara əsasən layihə ərazisində potensial olaraq mövcud olan dörd müxtəlif suda-quruda yaşayan fauna növü müəyyən edilmiş olsa da, sahələrə səfər zamanı heç bir suda-quruda yaşayan növ müşahidə edilməmişdir (Cədvəl 7-3).

Aşağıdakı cədvəldə sadalanan növlərin heç biri IUCN standartlarına uyğun olaraq təhlükə altında olan növ hesab edilmir. Bununla belə, Avropa ağac qurbağasının (Hyla arborea) Azərbaycanın Qırmızı Kitabına daxil edilmişdir, həmçinin bütün məlumat verilmiş növlər Bern Konvensiyasının II və III Qoşmalarına daxil edilmişdir. Tədqiqat sahəsində heç bir endemik növ aşkar edilməmişdir və ya olması gözlənilmir.

Layihə ərazisində heç bir endemik və ya yayılma arealı məhdud olan növ aşkar edilməyib və ya olması gözlənilmir.

Cədvəl 7-3. Layihə ərazilərində potensial mövcud ola bilən suda-quruda yaşayanlar

Dəstə	Cins	End.	Konservasiya Statusu		Mühafizə statusu		Müşahidə/ədəbiyyat
			IUCN	Az. Qırm.K.	BERN	CITES	
Quyruqsuzlar	Avrasiya yaşıl qurbağası (Bufotes varia bilis)	-	Məlumat azdır	yox	-	-	ədəbiyyat
	Avropa ağac qurbağası (Hyla arborea)	-	Aşağı narahatlıq	Hə	Qoşma II	-	ədəbiyyat
	Uzun ayaqlı ağac qurbağası (Rana macrocnemis)	-	Aşağı narahatlıq	yox	Qoşma III	-	ədəbiyyat
	Bataqlıq qurbağası (Pelophylax ridibundus)	-	Aşağı narahatlıq	yox	Qoşma III	-	ədəbiyyat

7.8 Biomüxtəliflik, mühafizə olunan ərazilər, bataqlıqlar

Layihənin biomüxtəlifliyə (yaşayış yerləri, flora və fauna növləri) təsir etmək potensialı vardır. Qlobal, Avropa və ya milli əhəmiyyətli (beynəlxalq sənədlərə və Azərbaycan qanunvericiliyinə əsasən) ayrılmış ərazilərə, mühüm növlərə və yaşayış yerlərinə xüsusi diqqət yetirilməlidir. Layihə çərçivəsində ayrıca sənəd kimi biomüxtəlifliyin qorunması planı hazırlanacaqdır.

2020-ci ildə AMEA-nın Coğrafiya İnstitutunu tərəfindən təbii-texnogen təhlükələr əsasında Azərbaycanın ekoloji risklər xəritəsi (baş Şəkil 7-7) işlənib hazırlanıb. Bu, Azərbaycanın ilk dəfə çoxparametrli məlumatlar əsasında tərtib edilmiş iri miqyaslı rəqəmsal ekoloji risklər xəritəsidir. Həmin xəritəyə əsasən layihə əraziləri zəif və orta ekoloji risklər zonasında yerləşir.

Şəkil 7-13: Azərbaycanın ekoloji risklər xəritəsi

7.8.1 Tədqiqat sahəsi

ƏMSSTQ-nin bu mərhələsi üçün ilkin vəziyyəti daha geniş kontekstdə təqdim etmək üçün yarımstansiyanın yeri də daxil olmaqla 1000 metr enində Yerüstü Hava Xətləri dəhliz(lər)indən (ötürücü xəttin uzununa oxundan hər iki tərəfdə 500 metr) istifadə olunur. Bu, geniş ərazidə mövcud biomüxtəlifliyin vəziyyətini müəyyən etmək və Layihənin dolayı təsirlərini qiymətləndirmək üçün yetərli hesab olunur. Əsas Biomüxtəliflik Xüsusiyyətləri və Əsas Yaşayış Yerləri üçün Ekoloji Baxımdan Uyğun Qiymətləndirmə Sahəsi (EBUQS) müəyyənləşdirilmişdir. İlkin vəziyyət sahəsi mövcud olan məlumatlara, Azərbaycanın eko-sistemlərinin xəritəsinə və 2024-cü ilin fevral-aprel ayları ərzində aparılan biomüxtəliflik üzrə tədqiqatlara əsaslanır. Yaşayış yerləri və növlər haqqında məlumatların əksəriyyəti tədqiqatlar zamanı aparılmış müşahidələr nəticəsində əldə edilib.

Bu ƏMSSTQ-də yaşayış yerlərinin və növlərin tərkibinə dair verilmiş təsvir yalnız sahə işləri zamanı aparılmış müşahidələrə əsaslanmışdır. Yaşayış yerləri sahə işləri zamanı mövcud bitki assosiasiyaları, dominant (edifikator) bitki növləri, yaşayış mühitinin bütün təbəqələrində (ağaclar, kollar və ot təbəqələri) bitki növlərinin qorunma vəziyyəti və tərkibinə əsasən müəyyən edilmişdir.

ƏMSSTQ Hesabatının məqsədləri üçün, infrastruktur dəhlizləri daxilindəki tədqiqat sahəsi (bu qiymətləndirmənin məqsədi üçün 100 metr enliyində dəhliz kimi müəyyən edilmişdir) Layihənin təsirinə məruz qalan əsas biomüxtəliflik komponentlərinə, xüsusən yaşayış yerlərinə birbaşa təsirlərin nəzərə alınması üçün istifadə olunacaqdır. Bu sahə ümumilikdə Layihənin əhəmiyyətli ekoloji təsirlərini, o cümlədən yaşayış yerinin itirilməsi və ya deqradasiyası nəticəsində baş verə biləcək ekoloji təsirləri

əhatə edən təsir zonası kimi qəbul edilir. Bununla belə, tədqiqat sahəsi mühüm yaşayış yerləri (daha böyük ərazilər), növlərin pozulması və s. baxımından daha geniş konteksti əhatə edə bilər.

ƏMSSTQ-nin məqsədləri üçün təbiətin mühafizəsi maraqları baxımından təyin edilmiş və ya təyin edilməsi təklif olunan (qanunla mühafizə olunan ərazi və/yaxud beynəlxalq səviyyədə tanınmış ərazi) və Layihənin təsirinə məruz qalma ehtimalı olan hər bir ərazi layihənin onun qorunma məqsədinə və bütövlüyünə təsir etmək potensialı nöqteyi-nəzərindən bütövlükdə tədqiqat sahəsi kimi nəzərə alınır.

7.8.2 Mühafizə olunan ərazilər

Qafqaz Ümumdünya Təbiəti Mühafizə Fondu (WWF) tərəfindən ekoloji məhsuldarlıq baxımından dünyanın 25 qaynar nöqtəsindən biri kimi müəyyən edilmişdir. Qafqaz regionu növlərin müxtəlifliyi, endemizm və taksonomik nadirlik kimi meyarlara əsasən əsas qlobal ekoloji ərazi kimi tanınmışdır.

İctimai ərazilərin mühafizəsi sistemi, bir çox ölkələrdə olduğu kimi, müxtəlif kateqoriyalara tətbiq olunan müxtəlif səviyyəli istifadə və mühafizəyə malik çoxsaylı strukturlara əsaslanır.
Kateqoriyalar "Xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri haqqında" qanuna (2000) uyğun olaraq müəyyən edilmişdir[10]. Azərbaycanda mühafizə olunan ərazilər aşağıdakılardır:

- **Milli parklar**: dövlət, ekoloji, tarixi və digər xüsusi əhəmiyyət kəsb edən quru və su əraziləri. Bu ərazilərdən təhsil, elm və mədəniyyət məqsədləri üçün istifadə olunur.
- **Məhdud girişli ərazilər**: Bu ərazilər milli parklara bənzəsə də, onların dövlət mülkiyyətində olmasına ehtiyac yoxdur.
- **Dövlət Təbiət Qoruğu** təbiəti, vəhşi heyvanları və bitki örtüyünü, ətraf mühiti qorumaq məqsədi ilə yaradılmışdır. Yalnız elmi-tədqiqata icazə verilir.
- **Dövlət Təbiət Yasaqlığı** nəsli kəsilməkdə olan heyvan və ya bitki növlərini qorumaq üçün nəzərdə tutulmuşdur. Azərbaycan qanunvericiliyinə görə, hər hansı sənaye fəaliyyəti, heyvan və bitki örtüyünə müdaxilə qəti qadağandır.
- **Dövlət Ovçuluq Təsərrüfatı**: Bu ərazilərdə vəhşi heyvanların davamlı olaraq ovlanmasına icazə verilir.
- Nadir ağaclar, mağaralar və ya paleontoloji obyektlər **"təbiət abidələri"** adı altında mühafizə olunur.

Azərbaycanın xüsusi mühafizə olunan təbiət ərazilərinin ümumi sahəsi 892546,49 ha və ya ölkə ərazisinin 10,3%-ni təşkil edir. 10 Milli Park (ərazinin 4,87%-i), 10 Dövlət Təbiət Qoruğu (1,39%) və 24 Dövlət Təbiət Yasaqlığı (4,05%) mövcuddur(Cədvəl 8). Bundan əlavə, 1038 mühafizə olunan ağac (Təbiət Abidələri) və 37 mühafizə olunan geoloji və paleontoloji obyekt mövcuddur. Şəkil 7-9-da Azərbaycanda mühafizə olunan ərazilərin yeri göstərilib.

[10] *Azərbaycan Respublikasının Bioloji Müxtəliflik Konvensiyasına (GEF) və Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramına (BMTİP) 5-ci Milli Hesabatı. 2014 https://www.cbd.int/doc/world/az/az-nr-05-en.pdf*

Şəkil 7-14: Azərbaycanda mühafizə olunan ərazilərin xəritəsi

Cədvəl 7-4: Azərbaycan Respublikasında mühafizə olunan ərazilər

	2008	2009	2010	2011	2012	2013	2014	2015	2016
Milli parkların sayı	*8*	*8*	*8*	*8*	*9*	*9*	*9*	*9*	*9*
Sahə, min hektarla	*265,3*	*296*	*310,5*	*310,5*	*322,3*	*322,3*	*322,3*	*322,3*	*322,3*
Dövlət təbiət qoruqlarının sayı	*12*	*11*	*11*	*11*	*11*	*11*	*11*	*11*	*11*
Sahə, min hektarla	*177,4*	*216,8*	*209,3*	*209,3*	*209,1*	*209,1*	*209,1*	*209,1*	*209,1*
Dövlət təbiət qoruqlarının sayı	*x*	*24*	*24*	*24*	*24*	*24*	*24*	*24*	*24*
Sahə, min hektarla	*x*	*363,4*	*361,2*	*361,2*	*361,2*	*361,2*	*361,2*	*361,2*	*361,2*

Yuxarıdakı cədvəldən göründüyü kimi, Azərbaycanda bir sıra beynəlxalq/milli əhəmiyyətli mühafizə olunan ərazilər mövcuddur. ƏMSSTQ mərhələsi çərçivəsində Şirvan Milli Parkının ərazisi ilə (buraya Şirvan Dövlət Təbiət Qoruğu da daxildir) kəsişmənin qarşısını almaq məqsədilə 3-cü altlayihənin marşrutu dəyişdirilmiş və alternativ trassanı nəzərdən keçirmək üçün layihə qrupu ilə məsləhətləşmələr aparılmışdır. Sözügedən hava xətti üçün seçilmiş ilkin tras İqtisadiyyat Nazirliyi yanında ƏMDX-nin "Daşınmaz Əmlakın Dövlət Kadastrı və Reyestri" PHŞ-nin "Kadastr və Yerquruluşu Layihə-Tədqiqat Mərkəzi" MMC tərəfindən yer quruluşu planı hazırlandıqdan sonra 57 ədəd dayağın Şirvan Dövlət Təbiət Qoruğunun ərazisinə düşdüyü məlum olmuşdur. Bu səbəbdən hava xəttinin trassasına dəyişiklik edilərək həmin dayaqlar Qoruğun ərazisindən çıxarılmışdır. Vurğulamaq istərdik ki, başqa alternativ olmadığı (əks halda yaşayış məskənlərindən keçid qaçılmaz olur ki, bu da mühafizə zonası tələblərini pozur) üçün hava xəttinin trası məcburiyyət qarşısında 7 dayaq olmaqla bir nöqtədə Şirvan Milli Parkının ərazisinə düşmüşdür. Yeni tras Milli Parkın cənub-qərb hissəsindən keçəcəkdir.

EVX-nin Milli Parkın hüdudlarından keçməsinə razılıq verilməsi məqsədilə Azərenerji ASC tərəfindən ETSN-nə müraciət olunmuş və nazirlik tərəfindən müvafiq razılıq verilmişdir. Aşağıdakı şəkildə 330 kV-luq Bankə-Nəvahi hava xəttinin köhnə və yeni trasları göstərilir.

Şəkil 7-15: Bankə-Nəvahi hava xəttinin köhnə və dəyişdirilmiş trassaları (Qoruqdan çıxış)

7.8.3 Bataqlıqlar

Azərbaycanın bataqlıq əraziləri daşqınlara qarşı mübarizə, suyun təmizlənməsi, suyun tənzimlənməsi, balıq istehsalı və s. funksiyaları yerinə yetirir. Onlar çay deltalarında marşlardan tutmuş alp bölgələrində bataqlıqlara, göllərə və çaylara qədər bütün yüksəklik zonalarında mövcuddur. Ümumi sahəsi 250 km^2 olan dağ gölləri də daxil olmaqla 250 bataqlıq ərazisi var. Onlardan 10-un sahəsi 5 km^2-dən çoxdur. Göllərin bəziləri şirin, digərləri isə duzlu su gölləridir. Bataqlıqlar aşağıdakı kimi təsnif edilir:

1. Kür-Araz ovalığının bataqlıqları
2. Abşeronun bataqlıq əraziləri
3. Dağ bataqlıqları

Layihə çərçivəsində alt-layihə 1 və alt-layihə 3-ə (Nəvahi yarımstansiyası və Bankə-Nəvahi və Biləsuvar-Nəvahi EVX-ləri) ən yaxın bataqlıq Hacıqabul gölüdür. Göl Şirvan şəhəri yaxınlığında, Şirvan düzünün cənub – şərqində Kür çayının sol sahilində yerləşmişdir. Göl süni kanallar vasitəsilə Kür çayından su alır. Mingəçevir su anbarı istifadəyə verilənə qədər daşqın suları birbaşa Kür çayına daha yaxın yerləşmiş Hacıqabul gölünə axırdı. Gölə gətirilən sülb maddələr bütövlükdə burada çökür və yalnız Kürdə səviyyə aşağı düşdükdən sonra əks istiqamətdə axın başlayır. Göldə dib çöküntülərinin qalınlığı hər yerdə 1 m-dən artıqdır və onların ümumi həcmi 9 mln. m^3- dən çoxdur. Beləliklə, mövcud olduğu müddət ərzində lillənmə və bitki kütləsinin toplanması hesabına Hacıqabul gölü öz həcminin 40%-ni itirmişdir.

Hacıqabul gölündə əsas çirkləndiricilərdən olan neft məhsulları, pestisidlər və fenolların normalları dəfələrlə çox olması müşahidə edilmişdir. Bundan əlavə 2000-ci ildə Hacıqabuldakı hərbi hissənin gölə tulladığı zəhərli maddələr nəticəsində göldəki bioloji aləm demək olar ki, məhv olmuşdur.

Şəkil 7-16: 1-ci və 3-cü alt-layihələrin yaxınlığında yerləşən bataqlıq ərazilər.

Yuxarıdakı Şəkil 7-12-dən göründüyü kimi, bataqlıq ərazi 1-ci və 3-cü alt-layihələrdən (Nəvahi ys və Bankə GES-Nəvahi EVX, Biləsuvar GES-Nəvahi ys) kifayət qədər uzaqdadır (təxminən 20-25 km) və layihə çərçivəsində tikinti işlərinin təsirinə məruz qalmayacaq. Bundan əlavə, bataqlıq ərazilərə hər hansı təsirin qarşısını almaq üçün onların bilavasitə yaxınlığında layihə ilə bağlı infrastruktur (məsələn, tikinti düşərgələri, giriş yolları, material zavodları və s.) obyektləri yerləşdirilməyəcəkdir. Təsirazaldıcı tədbirlər ilə bağlı təfərrüatlar müvafiq sahə üzrə ƏMSSTQ/ƏMSİP-də təqdim olunacaq.

Layihənin komponentlərindən biri olan Biləsuvar GES – Navahi YS EVX-nin Biləsuvar GES-dən enerji götürmə nöqtəsinə yaxın olan vacib quş qışlama sahəsi olan Mahmudçala gölü EVX-dən təqribən 1 km məsafədə yerləşir. Bu göl kiçik bəzgək quşlarının təbii areal sahəsidir. EVX-nin GES-dən şərqə doğru çəkilməsi variantı araşdırılsa da həmin ərazi əhəmiyyətli kənd təsərrüfatı təyinatlı torpaqlar olduğu üçün EVX-nin əvvəlki trasında qalması və hava xəttində quşlar üçün xüsusi qoruyucu tədbirlər görülməsinə qərar verilmişdir.

Şəkil 7-17: Biləsuvar GES – Navahi YS EVX-nin yaxınlığında yerləşən göl.

7.9 Geologiya və torpaqlar

Bu bölmə geologiya və süxurların ilkin vəziyyəti ilə bağlı əsas aspektlərdən, eləcə də Layihə sahəsində həmin reseptorlara potensial təsirlərin qiymətləndirilməsindən bəhs edir.

7.9.1. Qiymətləndirmə metodologiyası

Cari vəziyyətə dair məlumatlar sahəyə səfərlərdən və masa üstü tədqiqatlardan, xüsusən Layihə İnstitutunun 2024-cü ilin mar-aprel aylarında həyata keçirilən geotexniki və geoloji sahə tədqiqat fəaliyyətləri sayəsində toplanıb.

7.9.2. Geologiya

Goğrafi olaraq Layihə Böyük Qafqazın şərq qurşağının yamacında yerləşir. Layihə dəhlizinin landşaftı tam olaraq yastı, təxminən 100m yüksəklikdə yerləşir. Lakin ətraf landşaft daha çox quraq təpələr kimi xarakterizə olunur və üzərində palçıq vulkanları yerləşir.

Xəzər regionunun dominant geoloji strukturları Qafqaz dağlarının və Xəzər dənizini və ona bitişik quru rayonları təşkil edən onlarla əlaqəli hövzə və yayla strukturlarının formalaşması ilə nəticələnən tektonik hərəkətlər dövründə formalaşmışdır. İlkin strukturlar formalaşdıqdan sonra landşaftda çoxsaylı eroziya dəyişiklikləri baş vermişdir. Sonrakı tektonik sıxılma dövrləri (əsasən Son Pliosen dövründə) bölgə daxilində bir sıra qırışıq strukturların əmələ gəlməsi ilə nəticələnərək bir sıra antiklinallar (yuxarıya doğru uzanan qıvrımlar) əmələ gətirmişdir.

Layihə ərazilərində Neogen və Antropogen çöküntüləri yayılmışdır.

Torpaq boz-qonur tiplidir. Bu torpaqlar adətən maksimum 100 m hündürlükdə müşahidə olunur. Boz-qonur tipli torpaqlar illik yağıntı maksimum 350 mm təşkil edən quru iqlim üçün xasdır. Bio-klimatik potensial göstərici Azərbaycan üçün ən aşağı torpaq indeksi olaraq 0.8 təşkil edir. Boz-qonur tipli torpaqların bəzi səciyəvi xüsusiyyətləri bunlardır: nəmişlik: 0.10 - 0.15; çüruntü əmsalı 1.0 (3% çox olmayaraq); ph: 8.7 - 9.0; strukturda su stabilliyi: 22 (bu o deməkdir ki, su stabilliyi qurğuların tərkibi 22% təşkil edir, və bu şoran və duzlaq istisna olmaqla ən aşağı göstəricidir); qranulometrik tərkib: gilin miqdarı – 0.78; ağır gilin miqdarı – 0.60; orta gilin miqdarı – 1.0; yüngül gilin miqdarı – 0.73; gilli qum yoxdur. Aşınma axıcılığı 0 və 0.20 km/km2 arasında dəyişir (bu 1 km2 ərazidə yarğan uzunluğunu göstərir), duzluluq 0.42 və 1.0 g/m3 arasında dəyişir.

Layihənin Qobustan və Abşeron rayonlarından keçən sahələri Abşeron yarımadasının cənub-şərq hissəsində, Böyük Qafqaz dağlarının cənub-şərq ucunda, Samaxı-Qobustan struktur zonası daxilində yerləşir. Bu bölgədə topoqrafiya sahil xəttinə yaxın nisbətən düzdür. Daşmərdan, Qalacıq-Barıdaş, Qılıç-Qoltuq, Solaxay, Ayrantokan, Qoturdağ və Daşgil-Dələniz antiklinal yüksəklikləri ilə təmsil olunan subzonanın ən asimmetrik hissəsindən keçir. Bu antiklinalların apikal hissələri bir sıra tərs qırılmalar və aşırmalar və eninə qırılmalar və sürüşmələrlə mürəkkəbləşir. Adətən bu dislokasiyalar arasındakı qovşaqlarda böyük palçıq vulkanik təpələr olur.

7.9.3. Palçıq vulkanları

Azərbaycanın şərq ərazisi bütün mövcud palçıq vulkanlarının mövcudluğu ilə səciyyələnir. Azərbaycanda palçıq vulkanlarının və palçıq vulkanik təzahürlərinin ümumi sayı 353-dür (onlardan 154-ü dənizdədir).

Digər coğrafi bölgələrlə müqayisədə Azərbaycanın palçıq vulkanları püskürmə sayına və gündəlik qrifon, sopka və salse aktivliyinə görə də fərqlənir.

Palçıq vulkanının püskürməsi adətən güclü partlayış, bir neçə kilometrə qədər uzanan dərin çatlar, 300-350 m hündürlüyündə alov (karbon üstünlük təşkil edir, püskürmə alovsuz baş verir) və böyük həcmdə palçığın buraxılması ilə müşayiət olunur.

Ləngəbiz-Ələt sub-zonasının digər hissələri və Şamaxı-Qobustan zonasının qalan hissəsi kimi, xüsusilə Layihə ərazisinin Qobustan və Abşeron rayonlarına düşən hissələri yüksək palçıq vulkanik fəaliyyəti ilə xarakterizə olunur.

Nəvahi-Abşeron xəttinin və Abşeron yarımstansiyasının ətrafında müxtəlif ölçüləri və fəaliyyət xüsusiyyətləri ilə seçilən 30-dan çox palçıq vulkanı var. Bütün vulkan təpələri qırılmalarla məhdudlaşır.

Ən böyük vulkanlar 500 m-ə qədər hündürlüyü olan konusvari relyef formalarını vulkanik ejektorlarla örtülmüş yamaclarla, məs. gilli palçıq qaya parçaları ilə müşahidə olunur.

Layihə ərazisinin (Nəvahi ys - Abşeron ys xətti) yaxınlığında dörd vulkan məlumdur, o cümlədən üçü şərqdə (Göyarçın, Diləngəz və Daşgil – sonuncusu rəsmi olaraq Qobustan Palçıq Vulkanıdır) və bir vulkan cənubda yerləşir (Qoturdağ), lakin ərazi ölkədə ən çox yayılmış palçıq vulkanları zonasıdır. Qoturdağ və Daşgil də turistik maraq kəsb edir, digər iki vulkan isə həssas ekoloji elementlərdir. Qoturdağ və qismən Daşgil də ərazidə potensial təhlükə mənbəyi kimi qiymətləndirilə bilər. Dörd vulkandan yalnız ikisi (Daşgil və Qoturdağ) aktiv hesab olunur.

Göstərilən vulkanların ən böyüyü olan Qoturdağ vulkanının hündürlüyü 153 m, ərazidən 4,7 km cənubda yerləşir və Cənubi Qobustandakı ən böyük palçıq vulkanlarından biri kimi tanınır. Vulkanın tarixən qeydə alınmış ilk püskürməsi 1989-cu ildə baş verib. O vaxtdan bəri daha bir neçə püskürmə, o cümlədən 235 min m3 brekçiya hasil edən 2005-ci ildəki ən güclü püskürmə baş vermişdir.

7.9.4. Geomorfologiya

Layihə ərazisi Şəkil 8-1-də göstərildiyi kimi Zaqafqaziya çökəkliyinin cənub-şərq hissəsində, alçaq təpələrlə səciyyələnən Bakı-Ələt-Astara və Bakı-Ələt-Qazax avtomobil yolunun qərb tərəfində yerləşir. Ərazi bir qədər maili, qeyri-bərabər relyefli yayla sahəsidir və çəmənlikdə cənub-şərq, cənub, cənub-qərb istiqamətində ərazi şimala doğru yamaclı təpələrlə əvəz olunur. Ümumiyyətlə, Layihə sahəsinin cənub-qərb tərəfləri nisbətən hündür, təpələrlə xarakterizə olunur.

Topoqrafik plana əsasən, ərazinin yüksəklik qiymətləri minimum 60 m AMSL ilə maksimum 149,0 m AMSL arasında dəyişir. Relyefin mailliyi ümumi sahə üçün 1-2˚ arasında dəyişir. Geomorfoloji cəhətdən mülayim və zəif parçalanmış sinklinal yaylalarda və silsilələrdə yerləşən neogen deformasiyaya uğramış çöküntü süxurlarından ibarətdir.

Şəkil 7-18. Azərbaycanin geomorfoloji xəritəsi

7.9.5. Seysmislik

Azərbaycan Respublikasının ərazisi Alp-Himalay dağ qırışları kompleksinin Qafqaz seqmentində yerləşir. Bölgədə müxtəlif intensivliyə malik zəlzələlər bir sıra amillərdən, o cümlədən tektonik quruluş və geoloji mühitin xüsusiyyətlərindən, seysmik fokusun dərinliyindən, tektonik hərəkət amplitudasından, deformasiya növündən və s. asılıdır.

Azərbaycan ərazisində tarixən çoxlu fəlakətli zəlzələlər (M≥6) olub. Son illərdə dağıdıcı zəlzələlərə Ağdaş (iyun, 1999), Lənkəran (1999), Bakı (noyabr, 2000) və Zaqatala (2012) daxildir. Layihə ərazilərində müxtəlif intensivlik səviyyələri müntəzəm olaraq müşahidə olunur.

Azərbaycan Respublikasının Seysmik Fəaliyyət Təsnifatı Xəritəsinə əsasən, Böyük Bakının Qaradağ rayonu Rixter şkalası üzrə baş verə biləcək 8 ballıq zəlzələlər zonasındadır. Zəlzələ episentrlərinin əksəriyyəti dənizdə yerləşir, lakin bəziləri Acıçay-Ələt qırılma dislokasiyaları zonasına düşə bilər.

Ərazidə tarixən baş vermiş ən güclü zəlzələ 2000-ci ildə Bakı zəlzələsi olmuşdur. Bu, noyabrın 25-də yerli vaxtla saat 22:09-da (UTC 18:09) baş vermiş və zəlzələnin episentri Bakı şəhəri və Xəzər dənizi olmuşdur. Bu zəlzələ an miqyası şkalası ilə 6,8 ölçüsündə və maksimum hiss olunan intensivlik Mercalli intensivliyi şkalası üzrə VII olmuşdur. Bundan üç dəqiqə sonra 5,9 bal gücündə zəlzələ baş verdi.

7.9.6. Layihə ərazilərində vəziyyət

Seysmik tədqiqatlar Layihə İnstitutu tərəfindən 2024-ci ilin mart-aprel aylarında aparılan çöl tədqiqat işləri zamanı aparılıb. Layların sərhədləri və qalınlıqları Sınıq Dalğa Metodundan (RDM) və Səth Dalğalarının Çoxkanallı Analizindən istifadə etməklə müəyyən edilib (MASW). Azərbaycan Respublikasının seysmik rayonlaşdırma xəritəsinə əsasən ərazinin fon seysmikliyi 82 baldır (1000 ildə bir dəfə 8 ballıq zəlzələ).

Tədqiqatlar nəticəsində Azərbaycanın yerli normalarına (AzDTN Sesimik xəritə) uyğun olaraq seysmik qrunt sinfi hesablamalar üçün 2 kimi təsnif edilə bilər. Əsas xüsusiyyətlər bunlardır:

- Torpaqlar: Quruluşunda boşluqlar olan, nəmliyi az olan və ya nəmli, iri və orta sıxlıqlı, qaba və orta dənəli qumlu, çınqıllı qumlu, konsistensiya əmsalı iL ≤ 0,5 olan qaya qruntları; məsaməlilik əmsalı e < 0,9 olan bərk gillər və gillər, e <0,7 olan qumlar;
- Yayılma sürəti (m/s): 500-800;
- Qruntların hesablanmış müqaviməti (R0kqq/sm2): 3-10.

ThinkHazard vebsaytı[11] təfərrüatı ilə layihə rayonlarının zəlzələ təhlükəsi üzrə orta və yüksək təsnifatda olduğunu göstərir. Bu o deməkdir ki, yaxın 50 ildə potensial dağıdıcı zəlzələ ehtimalı 10%-dir. Bu məlumatlara əsasən, zəlzələlərin təsiri Layihənin bütün mərhələlərində, xüsusən layihələndirmə və tikinti zamanı nəzərə alınmalıdır.

[11] https://thinkhazard.org/en/report/19-azerbaijan/EQ

Şəkil 7-19: Azərbaycanın seysmoloji xəritəsi

7.9.7. Layihə komponentlərinin mühəndisi-geoloji şəraiti

7.9.7.1. 500/330/10 kV-luq Nəvahi yarımstansiyası

Layihələndirilən obyektlərin yerləşdiyi ərazinin mühəndisi – geoloji şəraitini qiymətləndirmək ücün mühəndisi–geodezik və mühəndisi-geoloji axtarış işləri institutun Mühəndis - Axtarış İdarəsi tərəfindən 2024-ci ilin yanvar-fevral aylarında yerinə yetirilmişdir.

Çöl və laboratoriya tədqiqatlarının kameral işlənilməsi idarənin kameral qrupu tərəfindən yerinə yetirilmişdir.

Mühəndisi-geoloji tədqiqat işlərinin qarşısında duran əsas vəzifələr tədqiqat ərazisinin geoloji-litoloji guruluşunu müəyyənləşdirmək, qurğuların əsasında yatan qruntların fiziki-mexaniki (geotexniki), kimyəvi xassələrini öyrənmək, hidrogeoloji şəraiti və ekzogen geoloji prosesləri tədqiq etməkdən ibarət olmuşdur.

Qarşıda duran məsələləri yerinə yetirmək üçün ilkin olaraq tədqiqat sahəsinə aid olan geoloji fond materialları toplanmış, öyrənilmiş, ümumiləşdirilərək nəticələr çıxarılmışdır. Sonra sahədə mühəndisi-geoloji qazıma işləri, çöl-sınaq tədqiqat işləri yerinə yetirilmişdir, stasionar laboratoriya şəraitində qazıma prosesində quyulardan götürülən nümunələrin fiziki-mexaniki və kimyəvi təhlilləri aparılmışdır. Daha sonra kameral şəraitdə laboratoriya təhlillərinin nəticələrinin statistik hesablanmaları aparılmış, quyuların geoloji-litoloji sütunları və geoloji-litoloji kəsilişləri tərtib olunmuş, hazırki texniki hesabat tərtib edilmişdir. Nəzərdə tutulan mühəndisi-geoloji tədqiqat işlərinin tərkibi, həcmi və qazıma quyularının yerləri normativ sənədlərə müvafiq olaraq aparılmış, bu zaman konkret geoloji şəraitə uyğun olaraq bir qədər korrektirovka olunmuşdur. Digər tərəfdən, tədqiqat sahəsi üçün mühəndısi-

geoloji axtarış işləri və sınaqlar yerinə yetirilərkən Azərbaycan Respublikasının mövcud Dövlət texniki norma, qayda və standartlarına da riayət edilmişdir.

Qeyd etmək lazımdır ki, mühəndis-geoloji tədqiqatlar aparılarkən işlərin təhlükəsiz yerinə yetirilməsindən ötrü və həmçinin, çöl işləri prosesində ətraf mühitin ekoloji vəziyyətinin pozulmaması üçün zəruri tədbirlər həyata keçirilmişdir.

500/300/10 kV-luq "Nəvai" yarımstansiyası inzibati cəhətdən,Hacıqabul rayonunda Pirsaat çayın sol sahilində yerləşən Navai qəsəbəsindən təxminən 5 km şərqdə, Hacıqabul şəhər mərkəzindən ≈20 km və Baki şəhərindən 119 km cənub-şərq istiqamətində yerləşir.

Yarımstansiyanın sahəsi düzbucaqlı şəklində olmaqla, ölçüləri 435 x 600 metr, sahəsi 26.1 hektar təşkil edir. Yarımstansiyanın sahəsində aşağıdakı bina və qurğuların tikilməsi nəzərdə tutulur:

- 500kV-luq APQ;
- 330kV-luq APQ;
- ölçüləri 38.4×32.6m olan 3.0m dərinlikli zirzəmiyə malik 1 mərtəbəli ümumi idarəetmə məntəqəsi;
- nasosxana, ölçüləri 6.0×6.5 metr;
- nəzarət buraxılış məntəqəsi, ölçüləri 15.0×8.0 metr;.
- təssarufat-içməli və yanğın əleyhinə su anbarları və s.;
- 500/330/10 kV-luq "Nəvai" yarımstansiyanın mühəndisi-geoloji əsaslandırılması üçün aşağıdakı həcmdə tədqiqat işləri yerinə yetirilmişdir:

Sıra sayı	Tədqiqat işinin adı	İşin həcmi, miqdarı və ya sayı
1	**2**	**3**
	A. Çöl işləri	
1	UQB-50VS-01 qurğusu vasitəsilə 127 mm diametrlik quyuların sütunlu üsul ilə qazılması (80 m x 71 quyu)	568 poq.m.
2	Quyulardan nümunələrin götürülməsi: a) gilli qruntlar	93 nümunə
	B. Kameral işlər	
3	Qruntların fiziki-mexaniki xassələrinin laboratoriya sınaqları	93 nümunə
4	Çöl və laboratoriya tədqiqatlarının kameral işlənilməsi	
5	Mühəndisi-geoloji hesabatın tərtibi.	1 hesabat

7.9.7.2. Tədqiqat sahəsinin fiziki-coğrafi şəraiti və geoloji quruluşu haqqında qısa məlumat

Oroqrafiya

Tədqiqat sahəsinin tərkibinə daxil olduğu Hacıqabul rayonunun ərazisi Kür-Araz ovalığının cənub-şərqində, Şirvan düzənliyinin və Böyük Hərəmi silsiləsinin cənub – şərq hissəsini əhatə edir. Ərazisinin ovalıq hissəsi dəniz səviyyəsində aşağıda yerləşir.

Yarımstansiyanın yerləşdiyi ərazidə relyef alçaq təpələrdən və əsasən düzənlikdən ibarətdir, relyefin mütləq yüksəklik qiymətləri 19.5-21.5 m arasında dəyişir.

Hacıqabul rayonun iglimi yarımsəhra və quru çöl iqlimə aiddir. Ən isti aylar iyul-avqust aylarıdır, maksimum 42 dərəcəyə çatır və ən soyuq aylar isə, orta aylıq temperatur 2,0-3,6 dərəcə ilə, yanvar və fevral aylarıdır. Bəzi illərdə minimum temperatur -23 dərəcəyə qədər düşür. Hacıqabula yerləşən ən yaxın meteostansiyanın məlumatına görə, havanın orta illik temperaturu 14,5 dərəcə təşkil edir.

Uzunmüddətli orta illik yağıntının miqdarı 254mm-dir təşkil edir. Yağıntının maksimum miqdarı yaz və payızda yağış şəklində, minimumu isə yayda düşür. Yalnız çox sərt qış aylarında yağıntı qar şəklində düşür.

Əsas küləklər şimal-şərq və şərq istiqamətlərindən əsən küləklərdir, təkrarlanması təxminən 50% -dir. Qərb istiqamətlərindən əsən küləyin təkrarlanması 15-20%-dən çox deyil. Küləyin orta sürəti 3,7 m/san təşkil edir. Yayda 4,0-4,3 m/san, qışda isə 2,7-3,4 m/san-dan çox deyil. Soyuq dövrdə havanın nisbi rütubəti 85%-ə çatır, yayda isə 51%-i keçmir.

Hidrologiya

Ərazidən Pirsaat çayı axır, onun uzunluğu 119 km, hövzəsinin sahəsi 2280 km²-dir. Mənbəyi Baş Qafqazın cənub yamacından (2400 m) başlayır. Axımının çox hissəsi yağış (70%), qismən də qar (14%), yeraltı (16%) sulardan əmələ gəlir. İl ərzində yağan yağışlar çayda daşqın əmələ gətirir. Çayın orta illik su sərfi 1,55 kub m/san-dir. Yaz-yay fəsillərində illik axımının 60-70%-i keçir. Suyu sulfatlı-natriumlu olmaqla yüksək minerallaşmaya (1000 mq/l-dən artıq) malikdir. Üzərində su anbarı tikilmişdir.

Torpaq-bitki örtüyü

Tədqiqat ərazisində boz-qonur, boz-çəmən , çəmən-batağlıq, şoran torpaqlar yayılmışdır. Bitki örtüyü səhra və yarımsəhra tiplidir.

Tektonika, stratiqrafiya və litologiya

<u>Tektonika.</u> Baxılan rayon tektonik cəhətdən Böyük Qafqaz meqantiklinoriumunun cənub-şərq kənarında yerləşən Şamaxı-Qobustan sinklinoriumu daxilindədir. Yarımstansiya ərazisi Nəvai sinklinalı hüdudlarındadır ki, bu da şimaldan Ləngəbiz-Ələt antiklinoriumunun braxiantiklinal qirişiqliqları ilə, cənubdan Hərəmi- Mişovdağ-Kalmas antiklinal qırışıqlarla məhdudlaşır. Antiklinal qırışıqlıqlar güclü sıxılmışdır, bəzən çevrilmiş vəziyyətdədirlər və tağ üzrə parçalanmışlar.Qırışıqlıqların nüvələri üst təbaşir-neogen çöküntülərindən təşkil olunmuşdur. Ərazinin əsasının səthi şimal-şərqdə dərin cənub-şərq istiqamətli Acıçay-Ələt qırılması ilə kəsilmişdir, cənub-şərqdə isə cənub-şərq istiqamətli Qərbi Xəzər qırılması ilə kəsilib.

Tədqiqat ərazisində mezozoy çöküntülərinin tavanı iri antiklinal qalxımın nisbətən az maili qanadından ibarətdir. Bu antiklinal cənub-şərqdə rayon ərazisindən kənarda dərin sinklinala keçir. Paleogen-nepgenin üstü muldadaan ibarətdir, şimaldan və cənubdab antiklinal qalxmalarla əhatələnib, onlar da iri qırılmalarla mürrəkkəbləşib ki, bu qırılmalarada palçıq vulkanları bağlıdır.

Nəvai sinklinal çökəklik xəzər dövründə müasir şəklini almış, ətraf Hərami və Mişovdağ silsilələrindən ayrılm, Kalmas və K.Mişovedağ palçıq vulkanlarının konusları yaranmışdır.

Tədqiqat aparılan rayonun geoloji quruluşunda paleogen-neogen yaşlı süxurlardan başlayaraq, müasir çöküntüülərə qədər iştirak edir. Paleogen-neogen göküntülərinin ümumi qalınlığı 5-10 km-ə çatır.Ən qədim qum, qumdaşı və gil çöküntüləri kiçik adacıqlar şəklində Ələt silsiləsi qalxmasında yer səthinə çıxır. Ərazinin əsas hissəsini dördüncü dövr çöküntüləri tutur.Onlar dəniz və kontinental fasiyadan ibarətdir. Onların qalınlığı Nəvai vadisinin talverqi üzrə şimal-qərbdə 31 metrdən sinklinalın mərkəzində 400 metrə qədər dəyişir.

Xvalın trransqressiyasının areolu xəzər transqressiyasından bir qədər az olsa da, üst dördüncü dövrün Xvalın mərtəbəsinin çöküntüləri Nəvai sinklinalında daha geniş yayılmışdır. Sinklinal hüdudlarında onlar bir qədər cənub-şərqə doğru yayılmışlar, qalınlıqları 30-40 metrrə çatır. Əsasən nazik gilcə araqatlı gillərdən ibarətdirlər, aşağıdakı layların üzərində fasilələrlə və bucaq uyğunsuzluğu ilə yatırlar.
Xvalının terrasları Ələt hündürlüyü boyu və Lənqəbiz sira dağlarında 14-33 metr hündürlüklərdə qeyd olunur.

Geomorfologiya

Tədqiqat rayonu Pirsaatçayın allüvial-prolüvial vadisinin aşağı hissəsində yerləşir və Nəvai vadisi adlandırılır. Bu düzənlik dağlararası çökəkliklərə bağlıdır, şimal-qərbdən və şimaldan Ələt hündüryüyü ilə, cənubdan Mişovdağ-Kalmas silsiləsi ilə hüdudlanır.

Nəvai düzənliyi şimal-qərbdən cənub-şərqə doğru 35 km uzanaraq eni 8-14 km arasında dəyişir. Onun səthi düzənlikdir, bəzi yerlərdə xırda təpəliklər qeyd olunur, Pirsaatçayın qədim məcrasına bağlı çoxlu çökəkliklər mövcuddur. Relyefin hündürlüyü şimal-qərb kənarlarda 43-45 metrdən cənub-şərqdə 0-mənfi 10 metr arasında dəyişir ki, burada vadi genişlənərək Xəzəryanı çökəkliklə birləşir. Ətraf zirvələrin hündürlüyü 200-300 metr arasındadır.

Ələt silsiləsinin qalxmaları ssubmeridional bstiqamətlidir, şərq yamacları az mailidir, Nəvai çökəkliyi tərəfdə cənub-qərb yamacları dikdir, çoxlu sayda yarğanlarla parçalanmışdır. Onlarda bəzi yerlərdə dördüncü dövr terraslarının qalıqları müşahidə olunur. Vadini əhatə edən silsilələrin ən hündür yerləri palçıq vulkanlarının konuslarına aiddir.

Fəaliyyətdə olan palçıq vulkanlarının tullantı məhsulları Nəvai vadisinə çatmır. Lakin sel suları vadiyə sopka brekçiyalarını və kollüvial çöküntüləri gətirir. Bu çöküntülər vadini ensiz şleyflə əhatə edir. Pirsaat çayının məcrası öz ilkin formasını saxlamayıb.Bu məcra aparıcı suvarma kanalları ilə güclü dəyişdirilib. 3-4 metr enə malik mövcud məcra 12 metr (bəzən 4 metr) hündürlüklü dik sahillərə malikdir. Daşqın dövlərində sular çayın məcrasından və aparıcı kanallardan çıxaraq ətraf alçaq relyefə malik sahələri basır. Bundan başqa, sahələr suvarma zamanı xüsusi olaraq su altında saxlanılır.

Qruntlar az sukeçiriciliyə malik olduğundan ərazi baataqlıqlaşmaya məruz qalır. İntensiv buxarlanma yer səthini qurudur və eyni zamanda şoranlıqların yaranmasınaa səbəb olur.

7.9.8. Mühəndisi-geoloji tədqiqat işlərinin həcmi və metodikası

7.9.8.1. Mühəndisi-geoloji quyuların qazılması, nümunələrin götürülməsi

Beləliklə, tikintisi layihə olunan 500/330/10 kV-luq "Nəvai" yarımstansiyasının mühəndisi-geoloji və hidrogeoloji əsaslandırılması üçün, ərazidə çöl qazıma işləri yerinə yetirilmişdir. Dərinlikləri 8.0 olmaqla 71 qazıma quyusu qazılmışdır, cəmi qazıma işləri – 568.0 p.m. təşkil edir. Quyular fırlanan rotor tipli UQB-2A tipli özügedən qazıma qurğusu vasitəsi ilə, sütunlu boru qazıma üsulu ilə 127 mm diametrdə qazılmışdır. Qazıma işləri, əsasən, quyuya su tökmədən aparılmışdır.

Çıxarılan kernlərdən laboratoriya analizləri üçün götürülən süxur nümunələri, təbii nəmliyi saxlanılmaqdan ötrü 2 qat salafan paketlərin içərisində yarlıklarla qutulara qoyularaq Bakı şəhərində yerləşən stasionar laboratoriyaya göndərilmişlər.

Bu quyulardan götürülən 93 qrunt nümunələrinin fiziki-mexaniki xassələrinin laboratoriya analizləri yerinə yetirilmişdir.
Bütövlükdə mühəndis-geoloji quyuların qazılması, süxur nümunələrının götürülməsi, qablaşdırılması, nəql edilməsi, saxlanılması və qazıma ilə əlaqədar yerinə yetirilən digər işlərin həcmi və metodikası Azərbaycan Dövlət standartlarının tələblərinə uyğun yerinə yetirilmişdir.

7.9.8.2. Laboratoriya işlərinin həcmi və aparılma metodikası

Çöl qazıma işlərinin nəticələrinə görə tədqiq edilən sahədə tökmə və xırdadənəli qum qruntları aşkar olunmuşdur. Bu qruntlardan götürülən nümunələrdən aşağıdaki tərkibdə və həcmdə (miqdarda) laboratoriya təhlilləri aparılmışdır.

№	Laboratoriya sınaqlarının tərkibi	Həcmi (miqdarı)
	A.Qruntların fiziki-mexaniki xassələrinin təyini	
1	Gilli süxurların fiziki xassələrinin təyini	93 təyin
2	Gilli süxurların fiziki xassələrinin tam kompleks təyini	41 tam fiziki xassələr
3	Gilli süxurların tam kompleks fiziki-mexaniki xassələrinin təyini (kəsilmə müqavimətinin təyini sınaqları daxil olmaqla)	12 tam kompleks
4	Gilli süxurların tam kompleks fiziki-mexaniki xassələrinin təyini (kompressiya sınaqları daxil olmaqla)	9 tam kompleks
5	Gilli süxurların qranulometrik tərkibinin təyini	93 təyin
6	Gilli süxurlarda şişmə parametrlərin təyini	24 təyin
7	**B. Qruntların su ekstraktlarının kimyəvi təhlili**	13 təhlil

7.9.9. <u>Tədqiqat sahəsinin mühəndisi-geoloji şəraiti</u>

7.9.9.1. Sahənin geoloji-litoloji quruluşu

Qeyd olunduğu kimi, ərazinin geoloji-litoloji quruluşunu müəyyənləşdirmək məqsədi ilə dərinlikləri 8.0 m olmaqla 71 qazıma quyusu qazılmış, quyulardan götürülən qrunt nümunələrinin fiziki-mexaniki və kimyəvi xassələrinin laboratoriya analizləri yerinə yetirilmişdir.

Bunların əsasında sahənin geoloji quruluşunu əks etdirən geoloji-litoloji kəsilişləri (sahə üzrə 29 profil), 71 quyu üzrə geoloji-litoloji sütün tərtib edilmişdir.

Fond materiallarina əsasən və yerinə yetirilən mühəndisi-geoloji tədqiqatlardan göründüyü kimi keçilmiş 8,0 m dərinliyə qədər sahənin geoloji-stratiqrafik quruluşunda dördüncü dövrün Xvalın mərtəbəsinin (Q_3 hv) çöküntüləri iştirak edir. Bu çöküntüləri litoloji tərkibinə görə əsasən gilcəli torpaq-bitki örtüyündən və alt hissədə Xvalın mərtəbəsinin gilli çöküntülərindən ibarətdir.

Tədqiqat sahəsində 8,0 m dərinliyə qədər qazılan quyulara əsasən qruntları 2 tip laya ayırmaq olar:

- lay 1 – gilcə sarımtil-boz rəngli, bərk və bəzən yarımbərk konsistensiyalı, bəzən bitki kökləri ilə. Yer səthisindən 0.9 m-ə qədər dərinlikdə rast gəlir və qalınlığı 0.3-0.9m-ir arasında dəyişir, əsasən 0.5-0.6 metr təşkil edir. Bu qruntların fiziki-mexaniki göstəriciləri sahə və dərinlik üzrə dəyişir, tərkibində bitki kökləri qeyd olunur. Bu səbəbdən bina və qurğuların əsasından çıxarılması tövsiyyə olunur, ayrıca MGE kimi qeyd olunmur.
- lay 2 – gil sarımtil-boz , tünd-sarımtıl rəngli, bərk və bəzən yarımbərk konsistensiyalı, bəzən gilcə araqatları ilə, əsasən zəif və orta şişəndir.

7.9.10. Qruntların fiziki-mexaniki xassələri

Fiziki-mexaniki göstəricilərinə və xassələrinə görə ayrılmış lay-2 növünə ayrıca mühəndisi-geoloji element (MGE-1) kimi baxılır.

Belə ki,

<u>MGE-1</u> - gil sarımtıl-boz və tünd- sarımtıl rəngli, əsasən ağır, bərk bəzən yarımbərk konsistensiyalı, gilcə araqatları ilə, bəzən çaqıl-çınqıllı (Q_3hv).

MGE-1 tədqiqat sahəsinin əsasını təşkil edən qruntlardı, qazılmış bütün quyularda rast gəlinmişdir. Quyularda açılmış qalınlığı 7.0-8.0 metr arasında dəyişir.

Aparılan 20 sayda nümunələrdə şişmə sınaqlarının nəticələrinə görə, bu qruntlar şişmə xassəlidir.Nisbi sərbəst şişmənin qiyməti 0,02-0,117 diapazonunda dəyişir,nadir hallarda 0,22 -ə çatır (Q-71).Belə ki, aparılan sınaqların göstəricilərinə görə, MGE-1 qruntları zəif və əsasən orta şişəndir. Şişmə təzyiqi də dəyişkəndir (Ps=50÷150 kPa).

MGE-1- gil boz rəngli, bərk konsistensiyalı, bəzən 10%-dən çox çaqıl-çınqılla, orta şişmə xassəli;

Sıra N-si	Göstəricilər			İndeks	Təyinatın sayı	Orta qiyməti	Həddi qiymətləri
			1-0.5mm	D	93	0.1	0.0-0.2

	Dənəvər tərkib,%		0.5-0.25mm	D	93	0.1	0.0-0.7
			0.25-0.1mm	D	93	0.2	0.1-1.1
			0.1-0.05mm	D	93	6.0	1.8-14.6
		Toz	0.05-0.01mm	D	93	15.7	5.0-52.1
			0.01-0.002mm	D	93	26.0	18.8-34.3
		Gil	<0.002mm	D	93	51.8	21.0-67.3
2	Təbii nəmlik, v.h.			W	93	0.186	0.107-0.319
3	Plastiklik ədədi,vahid			İp	93	0.24	0.19-0.29
4	Axıcılıq göstəricisi, vahid			İL	93	-0.21	-0.58- 0.24
5	Məsaməlik əmsalı, vahid			e	41	0.759	0.598-0.957
6	Sıxlıq, q/sm^3	Təbii nəmlikdə		ρ_W	41	1.90	1.80-2.03
		Quru qruntun		ρ_d	41	1.57	1.41-1.72
7	Nisbi şişmə, faiz			εsw	24	8.9	2.2-22.4
8	Şişmə təzyiqi, kPa			Ps	10	100	50-150

AzDTN2.15-1-ə və laboratoriya tədqiqinə əsasən bu qrunt üçün (MGE-1) aşağıdakı normativ qiymətləri qəbul etmək olar:

Sıxlıq təbii nəmlikdə ρ^n_w=1.90 q/sm^3
Sıxlıq quru halda ρ^n=1.57 q/sm^3
Daxili sürtünmə bucağı ϕ^n=18^0 55$'$
İlişmə qüvvəsi c^n=53.5kPa
Ümumi deformasiya modulu E(təbii)=20.8 MPa
Nisbi şişmə=8.9 %
Şişmə təzyiqi=100 kPa
Şərti hesabi təzyiq R_o=340kPa
Qruntların xüsusi elektrik müqaviməti ρ_0=100 Om*m

Qruntların laboratoriya sınaqlarının nəticələri,xassələrinin statistik işlənmələrinin yekunları, ayrılmış MGE-1 üçün normativ və hesablama qiymətləri bu hesabata əlavə olunmuş cədvəllərdə əks etdirilmişdir (cədvəl 1÷5).

MGE-nin fiziki xassələrinin normativ və hesablama qiymətləri statik hesablamalara əsasən, MGE-1 üçün mexaniki göstəricilərinin normativ və hesablama qiymətləri "TN və Q 2.02.01-83" saylı normativ sənədə əsasən verilmişdir.

7.9.11. Qruntların tikinti konstruksiyalarına qarşı kimyəvi aqressivliyi

Sahəni təşkil edən qruntların tikinti konstruksiyalarına qarşı kimyəvi aqressivliyini təyin etmək məqsədi ilə yer səthindən 2.5 m-dən 7.5 m dərinliyə qədər qruntlardan götürülən 13 nümunədən su ekstraktlarının kimyəvi təhlilləri aparılmışdır (cədvəl 3).

Kimyəvi təhlillərin nəticələrindən göründüyü kimi, qruntların tərkibində suda tez və orta həll olan duzların miqdarı görə orta hesabla 1.97 % təşkil etməklə 0.54-2.92 % arasında dəyişir.

Göstəricilərin bu qiymətinə görə 25100-95 Dövlət standartına uyğun olaraq qruntlar şoranlaşmayan hesab edilirlər.

Qruntların tərkibində sulfat duzlarının miqdarı 3127.0-16007.0 mq/kq arasında yerləşir, orta qiyməti isə 11078.0 mq/kq təşkil edir. Qruntlar sulfat duzlarının miqdarına görə TN və Q 2.03.11-85-ə əsasən W4, W6, W8 markabetona qarşı güclü aqressivlikli, xloridin miqdarına görə dəmir-beton konstruksiyalara qarşı güclü aqressiv kimi qiymətləndirilirlər.

7.9.12. Sahənin hidrogeoloji şəraiti

Sahədə 8.0 metr dərinliyə qədər qazılmış quyularda qrunt sularına rast gəlinməmişdir.

7.9.13. Qruntların işlənməyə qarşı qrupu

Tikinti çalalarının açılması zamanı qruntların işlənməyə qarşı qrupu TN və Q IV-2-91-ə əsasən:

-MGE-1 - 8 ”d” (IV)

7.9.14. Nəticə və tövsiyyələr

1. Yerinə yetirilən mühəndisi-geoloji və hidrogeoloji axtarış işləri tədqiqat sahəsinin litoloji quruluşunu, hidrogeoloji şəraitini, qruntların fiziki və möhkəmlik xassələrini kifayət qədər dəqiqliklə işıqlandırmağa imkan verir.

   Tədqiqat aparılan sahədənin geoloji-stratiqrafik quruluşunda Dördüncü dövrün Xvalın mərtəbəsinin çöküntüləri **(Q_3hv)** geniş yayılmışdır. Bu çöküntülər bərk bəzən yarımbərk konsistensiyalı, arasında nazik gilcə araqaları ilə qeyd olunan, əsasən orta bəzən zəif şişən gillərdən ibarətdir. Üstdən 0.3-1.0 metr, əsasən 0.5-0.6 metr qalınlıqda tərkibində bitki kökləri olan gilcə qatı ilə örtülmüşdur. Bu üst qatın qruntların fiziki-mexaniki göstəriciləri sahə və dərinlik üzrə dəyişir. Bu səbəbdən bina və qurğuların əsasından çıxarılması tövsiyyə olunur, ayrıca MGE kimi qeyd olunmur.

2. Tədqiqat sahəsində litoloji tərkibinə, sıxlıq dərəcəsinə və mühəndisi-geoloji xassələrinə görə seçilən 1 əsas tip qrunt layı qeyd olunur:
   - MGE-1 (gil bərk konsistensiyalı, bəzən gilcə araqatları ilə), **Q_3hv**.

   MGE-1-in gilləri orta, bəzən zəif şişmə xüsusiyyətinə malikdir. Şişmə təzyiqi orta hesablaa 100 kP təşkil edir.

   Gillərin su ilə təmasda şişmə xüsusiyyətini nəzərə alaraq, bina və qurğuların əsasında qoruyucu konstruktiv tədbirlərin görülməsi tövsiyyə olunur.

3. Müxtəlif qrunt laylarının fiziki-mexaniki və kimyəvi xassələrinin laboratoriya tədqiqatlarının nəticələri bu mətnə əlavə olunmuş 1÷3 saylı cədvəllərdə, qruntların normativ və hesablama qiymətləri bu hesabata əlavə olunmuş 4÷5 saylı cədvəllərdə əks etdirilmişdir.

4. Sahədə 8.0 metr dərinliyə qədər qrunt sularına rast gəlinməyib.

5. Qruntların tərkibində sulfat duzlarının miqdarı 3127-16007 mq/kq arasında yerləşir, orta qiyməti isə 11078 mq/kq təşkil edir. Qruntlar sulfat duzlarının miqdarına görə TN və Q 2.03.11-85-ə əsasən betona, xlorun miqdarına görə dəmir-beton konstruksiyalara qarşı güclü aqressivlikli kimi qiymətləndirilirlər.

6. Tədqiqat sahəsinin inzibati cəhətdən tərkibinə daxil olduğu Hacıqabul rayonu Azərbaycan Respublikası ərazisində fəaliyyət göstərən AzDTN 2.3-1 normativ sənədinin 1 saylı əlavəsinə əsasən 8_2 ballıq (MSK şkalası üzrə) seysimik zonaya aiddir.Fiziki xassələrin əsasında tədqiqat sahəsini təşkil edən qruntlar AzDTN 2.3-1 normativ sənədinin 1-ci cədvəlinə uyğun olaraq seysmiklik xüsusiyyətlərinə görə II sinfə aid edilirlər.

7. Sahədə layihələndirilən binanın bünövrəsinin dərinliyi və növü qruntların fiziki-mexaniki və normativ göstəricilərinə, sahənin mühəndisi-geoloji və seysmik şəraitinə əsasən seçilməlidir.

8. Tikinti çalalarının açılması zamanı qruntların işlənməyə qarşı qrupu:

   - MGE-1 - 8 ”d” (IV)

Beləliklə, 500/330/10kV-luq “Nəvai” yarımstansiya layihələndirilən sahənin mühəndisi-geoloji şəraiti nisbətən mürəkkəb sayılır, lakin yuxarıda qeyd olunan tövsiyyələrin (qruntun şişmə xüsusiyyəti, betona qarşı güclü aqressivlik) nəzərə alınması şərti ilə layihələndirilən qurğuların tikintisi üçün əks göstəriciyə malik deyildir.

7.10. 500 kV-luq Nəvahi YS – Abşeron YS EVX

Hazırki 500 kV–luq hava xətti, 500/330/220/1010kV-luq "Abşeron" yarımstansiyasından başlayaraq 500/330/10kV-luq "Nəvai"YS -nin birləşənə qədər layihələndirilmişdir, hava xəttin ümumi uzunluğu 59 500 m-dir.

HX-nin trassası üzrə mühəndisi-geoloji qazıma işləri 2024-ci ilin mart-aprel aylarında , mühəndisi-geoloji kameral işləri 2024-ci ilin iyul ayında mühəndisi-geologiya şöbəsinin işçiləri tərəfindən yerinə yetirilmişdir.

Bu məqsədlə layihə olunan 500kV-luq "Abşeron"YS–"Nəvai"YS hava xəttinin mühəndisi-geoloji əsaslandırılması üçün aşağıdakı həcmdə tədqiqat işləri yerinə yetirilmişdir:

Sıra sayı	*Tədqiqat işinin adı*	*İşin həcmi, miqdarı və ya sayı*
1	***2***	***3***
	C. Çöl işləri	
1	*UQB-50VS-01 qurğusu vasitəsilə 127 mm diametrlik quyuların sütunlu üsul ilə qazılması (6.0 m x 208 quyu)*	*1248.0 poq.m.*
2	*Quyulardan nümunələrin götürülməsi:* *14 gilli qruntlar* *15 çaqıl-çınqıl qruntları* *16 qaya tip qruntlar*	 *200nümunə* *18 nümunə* *3 nümunə*
	D. Kameral işlər	
3	*Qruntların fiziki-mexaniki xassələrinin laboratoriya sınaqları*	*221 nümunə*
4	*Çöl və laboratoriya tədqiqatlarının kameral işlənilməsi*	
5	*Mühəndisi-geoloji hesabatın tərtibi*	

HX-nin trassası üzrə mühəndisi-geoloji tədqiqat işlərinin qarşısında duran əsas vəzifələr tədqiqat ərazisinin geoloji-litoloji guruluşunu müəyyənləşdirmək, qurğuların əsasında yatan qruntların fiziki-mexaniki (geotexniki), kimyəvi xassələrini öyrənmək, hidrogeoloji şəraiti və ekzogen geoloji prosesləri tədqiq etməkdən ibarət olmuşdur.

Qarşıda duran məsələləri yerinə yetirmək üçün ilkin olaraq tədqiqat sahəsinə aid olan geoloji fond materialları toplanmış, öyrənilmiş, ümumiləşdirilərək nəticələr çıxarılmışdır. Sonra sahədə mühəndisi-geoloji qazıma işləri, çöl-sınaq tədqiqat işləri yerinə yetirilmişdir, stasionar laboratoriya şəraitində qazıma prosesində quyulardan götürülən nümunələrin fiziki-mexaniki və kimyəvi təhlilləri aparılmışdır. Daha sonra kameral şəraitdə laboratoriya təhlillərinin nəticələrinin statistik hesablanmaları aparılmış,

quyuların geoloji-litoloji sütunları və geoloji-litoloji kəsilişləri tərtib olunmuş, hazırki texniki hesabat tərtib edilmişdir. Nəzərdə tutulan mühəndisi-geoloji tədqiqat işlərinin tərkibi, həcmi və qazıma quyularının yerləri normativ sənədlərə müvafiq olaraq aparılmış, bu zaman konkret geoloji şəraitə uyğun olaraq bir qədər korrektirovka olunmuşdur. Digər tərəfdən, tədqiqat sahəsi üçün mühəndısi-geoloji axtarış işləri və sınaqlar yerinə yetirilərkən Azərbaycan Respublikasının mövcud Dövlət texniki norma, qayda və standartlarına da riayət edilmişdir.

Qeyd etmək lazımdır ki, mühəndis-geoloji tədqiqatlar aparılarkən işlərin təhlükəsiz yerinə yetirilməsindən ötrü və həmçinin, çöl işləri prosesində ətraf mühitin ekoloji vəziyyətinin pozulmaması üçün zəruri tədbirlər həyata keçirilmişdir.

7.10.1 Tədqiqat sahəsinin fiziki-coğrafi şəraiti və geoloji quruluşu haqqında qısa məlumat

500 kV-luq HX-nin 500/330/220/10 kV-luq "Abşeron" yarımstansiyası - 500/330/10 kV "Nəvai" yarımstansiyası arasında olan trassası inzibati cəhətdən Abşeron və Hacıqabul rayonlarının ərazisindən keçir. Trassanın ümumi uzunluğu təxminən 59.5 km-dir.

Belə ki, 500/330/220/10 kV-luq "Abşeron" yarımstansiyası Baki şəhərindən 39 km şimal-qərbdə, Bakı-Şamaxı avtomobil yolundan 4 km cənub istiqamətində yerləşir. Bu ərazi inzibati cəhətdən Abşeron rayonuna aiddir.

500/300/10 kV-luq "Nəvai" yarımstansiyası inzibati cəhətdən,Hacıqabul rayonunda Pirsaat çayın sol sahilində yerləşən Nəvai qəsəbəsindən təxminən 5 km şərqində, Hacıqabul şəhər mərkəzindən ≈20 km və Baki şəhərindən 119 km cənub-şərq istiqamətdə yerləşir. Ərazidə bəzi yerlərdə əkin sahələrinə rast gəlinir. Eyni zamanda HX-nin keçdiyi ərazinin bəzi yerlərində komunikasiya xətləri keçir.

Oroqrafiya

Abşeron rayonundan HX-nin trassasının keçdiyi ərazi Böyük Qafqazın cənub-şərq dağətəyinə aid olmaqla, oroqrafik cəhətdən bu rayon nisbətən alçaq yüksəklik qiymətlərinə malik dağlıq ərazidən və Xəzəryanı çökəkliyin terraslaşmış düzənliyindən ibarətdir, dənizə doğru tədricən enir. Ərtaf ərazilərdə terraslar vertikal üzrə bir-birindən təxminən 10-20 metr hündürlüklə ayrılır. Tədqiqat sahəsi hüdudlarında yer səthi hamardır, relyefin mütləq yüksəklik qiymətləri 174-190 m arasında dəyişərək ümumi meyli cənub-şərqə doğrudur.

Tədqiqat sahəsinin tərkibinə daxil olduğu Hacıqabul rayonunun ərazisi Kür-Araz ovalığının cənub-şərqində, Şirvan düzənliyinin və Böyük Hərəmi silsiləsinin cənub – şərq hissəsini əhatə edir. Ərazisinin ovalıq hissəsi dəniz səviyyəsində aşağıda yerləşir.

Hava xəttinin trassasının keçdiyi ərazidə relyef əsasən alçaq və orta təpəliklərdən və düzənlikdən ibarətdir, relyefin mütləq yüksəklik qiymətləri 21.2 (Nəvai y/s)-223.0 (Qobustan) m arasında dəyişir.

İqlim

HX-nin trassasının keçdiyi Abşeron və Hacıqabul rayonlarının iqlimi mülayim—isti yarımsəhra və quru çöl iqlimlə yarımsəhra və quru çöl iqlimlə xarakterizə olunur.

"Abşeron"YS sahəsinin iqliminin əsas elementlərinin (havanın temperaturu, nəmlik, atmosfer çöküntüləri, külək) qısa səciyyəsi yarımstansiyanın ərazisindən 20 km aralıda yerləşən Şubanı meteoroloji stansiyasının (Baltik yüksəklik sistemi üzrə 237 m yüksəklikdə yerləşir, flyügerin hündürlüyü 110 m) apardığı müşahidələr əsasında verilir.

Aşağıdaki cədvəllərdə Abşeron rayonun iqlim göstəriciləri verilir:

Orta aylıq və illik yağıntı (mm)

Sıra sayı	*Məntəqə-nin adı*	*I*	*II*	*III*	*IV*	*V*	*VI*	*VII*	*VIII*	*IX*	*X*	*XI*	*XII*	*Orta illik*
1	*Abşeron*	*16*	*12*	*14*	*14*	*7*	*6*	*3*	*4*	*9*	*22*	*22*	*16*	*145*

Havanın orta aylıq və illik temperaturu, C^0

Sıra sayı	*Məntəqə-nin adı*	*I*	*II*	*III*	*IV*	*V*	*VI*	*VII*	*VIII*	*IX*	*X*	*XI*	*XII*	*Orta illik*
1	*Abşeron*	*1.7*	*2.0*	*4.1*	*9.2*	*16.0*	*20.8*	*23.9*	*23.7*	*19.5*	*14.4*	*8.7*	*4.3*	*12.4*

Havanın nisbi nəmliyi, %

Sıra sayı	*Məntəqə-nin adı*	*I*	*II*	*III*	*IV*	*V*	*VI*	*VII*	*VIII*	*IX*	*X*	*XI*	*XII*	*Orta illik*
1	*Abşeron*	*78*	*78*	*77*	*69*	*64*	*57*	*58*	*63*	*68*	*74*	*77*	*76*	*70*

Müxtəlif istiqamətli küləklərin və tam sakitliyin il ərzində təkrarlanması (%-lə)

Sıra sayı	*Məntəqə-nin adı*	*Şm*	*ŞmŞ*	*Ş*	*CŞ*	*C*	*CQ*	*Q*	*ŞmQ*	*Tam sakitlik*
1	*Abşeron*	*44*	*6*	*3*	*6*	*18*	*12*	*3*	*8*	*4*

Hacıqabul ən isti aylar iyul-avqust aylarıdır, maksimum 42 dərəcəyə çatır və ən soyuq aylar isə, orta aylıq temperatur 2,0-3,6 dərəcə ilə, yanvar və fevral aylarıdır.

Bəzi illərdə minimum temperatur -23 dərəcəyə qədər düşür. Hacıqabula yerləşən ən yaxın meteostansiyanın məlumatına görə, havanın orta illik temperaturu 14,5 dərəcə təşkil edir.

Uzunmüddətli orta illik yağıntının miqdarı 254mm-dir təşkil edir. Yağıntının maksimum miqdarı yaz və payızda yağış şəklində, minimumu isə yayda düşür. Yalnız çox sərt qış aylarında yağıntı qar şəklində düşür.

Əsas küləklər şimal-şərq və şərq istiqamətlərindən əsən küləklərdir, təkrarlanması təxminən 50% -dir. Qərb istiqamətlərindən əsən küləyin təkrarlanması 15-20%-dən çox deyil. Küləyin orta sürəti 3,7 m/san təşkil edir. Yayda 4,0-4,3 m/san, qışda isə 2,7-3,4 m/san-dan çox deyil. Soyuq dövrdə havanın nisbi rütubəti 85%-ə çatır, yayda isə 51%-i keçmir. Qışda torpağın donma dərinliyi 0,4 m-dən artıq olmur.

Hidrologiya

500 kV-luq HX-nin trassasının keçdiyi ərazidə hidroqrafik şəbəkə çox zəifdir.

500/330/220/10 kV-luq "Abşeron" yarımstansiyasının yerləşdiyi Abşeron yarımadasının qərb hissəsində iri su arteriyası Ceyrankeçməz çayı (aşağı axarında Sumqayıtçay) sayılır ki, bu da tədqiqat ərazisindən 5-6 km şimal tərəfdən keçir.

500/330/10 kV "Nəvai" yarımstansiyasının yerləşdiyi ərazidən Pirsaat çayı axır, onun uzunluğu 119 km, hövzəsinin sahəsi 2280 km²-dir. Mənbəyi Baş Qafqazın cənub yamacından (2400 m) başlayır. Axımının çox hissəsi yağış (70%), qismən də qar (14%), yeraltı (16%) sulardan əmələ gəlir. İl ərzində yağan yağışlar çayda daşqın əmələ gətirir. Çayın orta illik su sərfi 1,55 kub m/san-dir. Yaz-yay fəsillərində illik axımının 60-70%-i keçir. Suyu sulfatlı-natriumlu olmaqla yüksək minerallaşmaya (1000 mq/l-dən artıq) malikdir. Üzərində su anbarı tikilmişdir.

Torpaq-bitki örtüyü

500 kV-luq HX-nin trassasının ərazisi qumlu-gilli və qumsal boz torpaq tipli torpaq qatı ilə örtülmüşdür. Burada yarımsəhralara xas olan bitki növləri mövcuddur. Bitki örtüyü demək olar ki, otlardan ibarətdir, çəmən-batağlıq, şoran torpaqlar yayılmışdır. Bitki örtüyü səhra və yarımsəhra tiplidir. Yalnız yaşayış məntəqələrində süni yaşıllıqlar vardır.

7.10.2. Tektonika, stratiqrafiya və litologiya

500kV-luq "Abşeron"YS - "Nəvai"YS HX-nin trassasının**, Abşeron rayonundan** keçdiyi hissəsinin ərazisi, Azərbaycanın mühəndisi-geoloji rayonlaşdırılmasının taksonometrik sxeminə əsasən tədqiqat rayonu Qobustan-Qaradağ dağətəyi əyalətinə aid edilir. Bu əyalət Abşeron yarımadasının qərb hissəsini, Qobustanın şərq dağətəyi və qismən alçaq dağlıq hissəsini əhatə edir. Tektonik cəhətdən bu əyalət Şamaxı-Qobustan sinklinoriumunun tərkibinə daxildir. Burada dördüncü dövrə qədərki pliosen süxurları qırılmalarla mürəkkəbləşən günbəz şəkilli braxiantiklinallarda toplanıb. Bu braxiantiklinallar enli az maili sinklinallarla bir-birilərindən ayrılıblar. Əyalətdə əsasən mollas formasiyasının çöküntüləri yayılmışdır, yer səthinin çöküntüləri isə dağ yamaclarının palçıq vulkanlarının və Xəzər dənizinin transqressiyasının formasiyalarından ibarətdir. Burada köklü süxurlardan üst təbaşirin gilləri, mergelləri, qumları, qravelitləri, paleogen-neogenin qumlu-gilli çöküntüləri, abşeron və aqçaqıl mərtəbələrinin gillərinə, orta və üst abşeronun detrus əhəngdaşılarına rast gəlinir.

Bilavasitə ərazi yer səthindən 25-30 m dərinliyə qədər dördüncü dövrün xəzər mərtəbəsinin çöküntülərindən təşkil olunmuşdur. Bu çöküntülər gilcələrdən, gillərdən və gil-gilcə dolduruculu çaqıl-çınqıllardan ibarətdir.

Trassanın keçdiyi ərazinin relyefi, əsasən, təpəli düzənlik və dağlıqdır. Ərazinin səthi geniş düzənliklərdən, bir-birindən dərə və çökəkliklərlə ayrılan tirə, yayla və təpəliklərdən ibarətdir.

Hacıqabul rayonu tektonik cəhətdən Böyük Qafqaz meqantiklinoriumunun cənub-şərq kənarında yerləşən Şamaxı-Qobustan sinklinoriumu daxilindədir. Yarımstansiya ərazisi Nəvai sinklinalı hüdudlarındadır ki, bu da şimaldan Ləngəbiz-Ələt antiklinoriumunun braxiantiklinal qirişiqliqları ilə, cənubdan Hərəmi- Mişovdağ-Kalmas antiklinal qırışıqlarla məhdudlaşır. Antiklinal qırışıqlıqlar güclü sıxılmışdır, bəzən çevrilmiş vəziyyətdədirlər və tağ üzrə parçalanmışlar.Qırışıqlıqların nüvələri üst təbaşir-neogen çöküntülərindən təşkil olunmuşdur. Ərazinin əsasının səthi şimal-şərqdə dərin cənub-şərq istiqamətli Acıçay-Ələt qırılması ilə kəsilmişdir, cənub-şərqdə isə cənub-şərq istiqamətli Qərbi Xəzər qırılması ilə kəsilib.

Tədqiqat ərazisində mezozoy çöküntülərinin tavanı iri antiklinal qalxımın nisbətən az maili qanadından ibarətdir. Bu antiklinal cənub-şərqdə rayon ərazisindən kənarda dərin sinklinala keçir. Paleogen-nepgenin üstü muldadan ibarətdir, şimaldan və cənubdab antiklinal qalxmalarla əhatələnib, onlar da iri qırılmalarla mürrəkkəbləşib ki, bu qırılmalarada palçıq vulkanları bağlıdır.

Nəvai sinklinal çökəklik xəzər dövründə müasir şəklini almış, ətraf Hərami və Mişovdağ silsilələrindən ayrılm, Kalmas və K.Mişovedağ palçıq vulkanlarının konusları yaranmışdır.

Tədqiqat aparılan rayonun geoloji quruluşunda paleogen-neogen (P_2+N_1) yaşlı süxurlardan başlayaraq, müasir çöküntüülərə qədər iştirak edir. Paleogen-neogen töküntülərinin ümumi qalınlığı 5-10 km-ə çatır.Ən qədim qum, qumdaşı və gil çöküntüləri kiçik adacıqlar şəklində Ələt silsiləsi qalxmasında yer səthinə çıxır. Ərazinin əsas hissəsini dördüncü dövr çöküntüləri tutur.Onlar dəniz və kontinental fasiyadan ibarətdir. Onların qalınlığı Nəvai vadisinin talverqi üzrə şimal-qərbdə 31 metrdən sinklinalın mərkəzində 400 metrə qədər dəyişir.

Xvalın trransqressiyasının areolu xəzər transqressiyasından bir qədər az olsa da, üst dördüncü dövrün Xvalın mərtəbəsinin çöküntüləri Nəvai sinklinalında daha geniş yayılmışdır. Sinklinal hüdudlarında onlar bir qədər cənub-şərqə doğru yayılmışlar, qalınlıqları 30-40 metrrə çatır. Əsasən nazik gilcə araqatlı gillərdən ibarətdirlər, aşağıdakı layların üzərində fasilələrlə və bucaq uyğunsuzluğu ilə yatırlar.
Xvalının terrasları Ələt hündürlüyü boyu və Ləngəbiz sira dağlarında 14-33 metr hündürlüklərdə qeyd olunur.

Tədqiqat aparılan ərazidə köklü süxurlarda tektonik pozuntular qeyd edilməyib.

Beləliklə,fond materiallarına əsasən və yerinə yetirilən mühəndisi-geoloji tədqiqatlardan göründüyü kimi, keçilmiş 6,0 m dərinliyə qədər, sahənin geoloji-stratiqrafik quruluşunda ,əsasən dördüncü dövrün Xəzər və Xvalın mərtəbəsinin (Q_{2+3}) çöküntüləri iştirak edir, litoloji baxımdan tərkibinə görə gilcə, qil və çaqıl-çınqıl çöküntülərindən və Paleogen-neogen (P2+N11) yaşlı dövrün çöküntüləri iştirak edirlər və litoloji baxımdan yarımqaya tip (zəif qumdaşı) qruntlarla təmsil olunublar.

7.10.3. Geomorfologiya

HX-nin trassasının keçdiyi Abşeron rayonu ərazisi geomorfoloji cəhətdən alçaq dağlığa aiddir. Burada əsasən arid-denudasiya, erroziya-denudasiya, abraziya və akkumlyasiya relyefəmələgətirici proseslər üstünlük təşkil edir. Sahil prosesləri, xüsusən, müasir Xəzər çöküntülərindən ibarət sahil valının yaranması burada laqunların yaranmasına səbəb olmuşdur. Beləki, nisbətən kiçik laqunlar Giləzi burnunun ətrafındadır. Ərazidə ekzogen geoloji proseslərdən bəzi yerlərdə bataqlaşmanı qeyd etmək lazımdır.

Eyni zamanda, tədqiqat ərazisinin bir hissəsi (Hacıqabul rayonu) Pirsaatçayın allüvial-prolüvial vadisinin aşağı hissəsində yerləşir və Nəvai vadisi adlandırılır. Bu düzənlik dağlararası çökəkliklərə bağlıdır, şimal-qərbdən və şimaldan Ələt hündüryüyü ilə, cənubdan Mişovdağ-Kalmas silsiləsi ilə hüdudlanır.

Nəvai düzənliyi şimal-qərbdən cənub-şərqə doğru 35 km uzanaraq eni 8-14 km arasında dəyişir. Onun səthi düzənlikdir, bəzi yerlərdə xırda təpəliklər qeyd olunur, Pirsaatçayın qədim məcrasına bağlı çoxlu çökəkliklər mövcuddur. Relyefin hündürlüyü şimal-qərb kənarlarda 43-45 metrdən cənub-şərqdə 0-mənfi 10 metr arasında dəyişir ki, burada vadi genişlənərək Xəzəryanı çökəkliklə birləşir. Ətraf zirvələrin hündürlüyü 200-300 metr arasındadır.

Ələt silsiləsinin qalxmaları ssubmeridional bstiqamətlidir, şərq yamacları az mailidir, Nəvai çökəkliyi tərəfdə cənub-qərb yamacları dikdir, çoxlu sayda yarğanlarla parçalanmışdır. Onlarda bəzi yerlərdə dördüncü dövr terraslarının qalıqları müşahidə olunur.

Vadini əhatə edən silsilələrin ən hündür yerləri palçıq vulkanlarının konuslarına aiddir.

Fəaliyyətdə olan palçıq vulkanlarının tullantı məhsulları Nəvai vadisinə çatmır. Lakin sel suları vadiyə sopka brekçiyalarını və kollüvial çöküntüləri gətirir. Bu çöküntülər vadini ensiz şleyflə əhatə edir. Pirsaat çayının məcrası öz ilkin formasını saxlamayıb.Bu məcra aparıcı suvarma kanalları ilə güclü dəyişdirilib. 3-4 metr enə malik mövcud məcra 12 metr (bəzən 4 metr) hündürlüklü dik sahillərə malikdir. Daşqın dövlərində sular çayın məcrasından və aparıcı kanallardan çıxaraq ətraf alçaq relyefə malik sahələri basır. Bundan başqa, sahələr suvarma zamanı xüsusi olaraq su altında saxlanılırr.
Qruntlar az sukeçiriciliyə malik olduğundan ərazi baataqlıqlaşmaya məruz qalır. İntensiv buxarlanma yer səthini qurudur və eyni zamanda şoranlıqların yaranmasınaa səbəb olur.

Ərazidə ekzogen geoloji proseslərdən bəzi yerlərdə bataqlaşmanı qeyd etmək lazımdır.

7.10.4. Mühəndisi-geoloji tədqiqat işlərinin həcmi və metodikası

7.10.4.1 Mühəndisi-geoloji quyuların qazılması, nümunələrin götürülməsi

500 kV-luq "Abşeron"YS–"Nəvai"YS HX-nin mühəndisi-geoloji və hidrogeoloji əsaslandırılması üçün ərazidə aşağıdakı həcmdə tədqiqatların yerinə yetirilmişdir:

- ərazitə dərinlikləri 6.0 metr olmaqla 208 qazıma quyusu qazılmışdır; cəmi qazıma işləri – 1 248.0 метр;
- strukturu pozulmuş və pozulmamış nümunələr – 221 nümunə.

Quyular fırlanan rotor tipli UQB-2A tipli özügedən qazıma qurğusu vasitəsi ilə, sütunlu boru qazıma üsulu ilə 127 mm diametrdə qazılmışdırlar. Qazıma işləri, əsasən, gilli qruntlarda quyuya su tökmədən, "quru" üsul ilə, çınqıl-çaqıl qruntlarında quyuya su tökməklə aparılmışdır. Kernlərin diametri 127 mm olmaqla iki qat sütunlu boruların vasitəsi ilə, qazımanı asta fırlatma aparmaq üsulu ilə əldə edilmişlər.

Çıxarılan kernlərdən laboratoriya analizləri üçün götürülən strukturu pozulmamış süxur nümunələri tənzifə bükülərək parafinlənmiş, daha sonra yarlıklarla təchiz olunaraq, salafan paketlərin içərisində kerna qutularına qablaşdırılaraq, Bakı şəhərində yerləşən stasionar laboratoriyaya göndərilmişlər.

Bütövlükdə mühəndis-geoloji quyuların qazılması, süxur nümunələrinin götürülməsi, qablaşdırılması, nəql edilməsi, saxlanılması və qazıma ilə əlaqədar yerinə yetirilən digər işlərin həcmi və metodikası Azərbaycan Dövlət standartlarının tələblərinə uyğun yerinə yetirilmişdir.

7.10.4.2. Laboratoriya işlərinin həcmi və aparılma metodikası

Çöl qazıma işlərinin nəticələrinə görə tədqiq edilən sahədə tökmə və xırdadənəli qum qruntları aşkar olunmuşdur. Bu qruntlardan götürülən nümunələrdən aşağıdaki tərkibdə və həcmdə (miqdarda) laboratoriya təhlilləri aparılmışdır.

№	Laboratoriya sınaqlarının tərkibi	Həcmi (miqdarı)
	A.Qruntların fiziki-mexaniki xassələrinin təyini	
1	Süxurların fiziki xassələrinin təyini	221 təyin
2	Gilli süxurların fiziki xassələrinin tam kompleks təyini	95tam fiziki xassələr
3	Gilli süxurların tam kompleks fiziki-mexaniki xassələrinin təyini (kəsilmə müqavimətinin təyini sınaqları daxil olmaqla)	22 tam kompleks
4	Gilli süxurların tam kompleks fiziki-mexaniki xassələrinin təyini (kompressiya sınaqları daxil olmaqla)	20tam kompleks
5	Süxurların qranulometrik tərkibinin təyini	218 təyin
6	Qaya tip süxurların fiziki xassələrinin təhini	3 təyin

7	**B. Qruntların su ekstraktlarının kimyəvi təhlili**	37təhlil

7.10.5. Tədqiqat sahəsinin mühəndisi – geoloji şəraiti

7.10.5.1. Sahənin geoloji-litoloji quruluşu

Qeyd olunduğu kimi, ərazinin geoloji-litoloji quruluşunu müəyyənləşdirmək məqsədi ilə dərinlikləri 6.0 m olmaqla 208 qazıma quyusu qazılmış, quyulardan götürülən qrunt nümunələrinin fiziki-mexaniki və kimyəvi xassələrinin laboratoriya analizləri yerinə yetirilmişdir.

Bunların əsasında razinin geoloji quruluşunu əks etdirən geoloji-litoloji kəsilişləri (EVX xətti üzrə 12 profil), 208 quyu üzrə geoloji-litoloji sütün tərtib edilmişdir.

Beləliklə, fond materiallarına əsasən və yerinə yetirilən mühəndisi-geoloji tədqiqatlardan göründüyü kimi, keçilmiş 6,0 m dərinliyə qədər, sahənin geoloji-stratiqrafik quruluşunda ,əsasən dördüncü dövrün Xəzər və Xvalın mərtəbəsinin (Q_{2+3}) çöküntüləri və Paleogen-neogen (P_2+N^1_1) yaşlı dövrün çöküntüləri iştirak edirlər.

7.10.5.2. Qruntların fiziki-mexaniki xassələri

Tikintisi nəzərdə tutulan 500 kV-luq “Abşeron”YS-“Nəvai”YS HX trassası üzrə 6.0 m dərinliyə qədər qazılan quyulara əsasən 4 tip laya ayırmaq olar:

- lay 1 – gilcə bozumtul-qəhvəyi rəngli, bərk bəzən yarımbərk konsistensiyalı, tərkibində bəzən çaqıl-çınqılla;
- lay 2 – gil qəhvəyi rəngli, bərk və bəzən yarımbərk konsistensiyalı, tərkibində bəzən çaqıl-çınqılla;
- lay 3 – çaqıl-çınqıl çöküntüsü gilcə dolduruculu;
- lay 4 – yarımqaya tip qrunt – qumdaşı,zəif bərklikli, gilli-karbonatlı sementdə.

Fiziki-mexaniki göstəricilərinə və xassələrinə əsasən ayrılmış 4 lay növünə ayrıca mühəndisi-geoloji element (MGE) kimi baxılır.

Belə ki,

- MGE-1 – gilcə bozumtul-qəhvəyi rəngli, bərk bəzən yarımbərk konsistensiyalı, tərkibində bəzən çaqıl-çınqılla (Q_{2+3});
- MGE-2 – gil qəhvəyi rəngli, bərk və bəzən yarımbərk konsistensiyalı, tərkibində bəzən çaqıl-çınqılla (Q_{2+3});
- MGE-3 – çaqıl-çınqıl çöküntüsü gilcə dolduruculu (Q_{2+3});
- MGE-4 - yarımqaya tip qrunt – qumdaşı,zəif bərklikli, gilli-karbonatlı sementdə ((P_2+N^1_1).

Aşağıda mühəndisi-geoloji elementlər üzrə qruntların fiziki-mexaniki xassələri verilir.

MGE-1 – gilcə bozumtul-qəhvəyi rəngli, bərk bəzən yarımbərk konsistensiyalı, tərkibində bəzən çaqıl-çınqılla (Q_{2+3}). Bu element HX trassının kəsilişində əsasını təşkil edən süxurlardandır və bütün xətt boyu izlənilir. Bu element trass yer səthindən birinci lay kimi rast gəlinir , layın quyularla açılmış qalınlığı 0.9-6.0 metr arasında dəyişir və yer səthindən 0.0-4.0m dərinlikdə rast gəlinir.

Sıra N-si	Göstəricilər			İndeks	Təyinatın sayı	Orta qiyməti	Həddi qiymətləri
1	Dənəvərlik tərkibi, %	Çaqıl-çınqıl	40-20mm	D	105	2.6	0.0-14.1
			20-10mm	D	105	2.9	0.0-0.4
			10-5mm	D	105	2.5	0.0-11.0
			2-5mm	D	105	3.2	0.0-17.0
		Qum	2-1 mm	D	105	4.0	0.0-17.0
			1-0.5mm	D	105	2.8	0.1-15.1
			0.5-0.25mm	D	105	3.2	0.1-+16.6
			0.25-0.1mm	D	105	2.7	0.1-20.9
			0.1-0.05mm	D	105	23.3	1.5-51.3
		Toz	0.05-0.01mm	D	105	24.8	4.4-42.9
			0.01-0.002mm	D	105	17.8	4.7-29.8
		Gil	<0.002mm	D	105	22.3	8.7-29.9
2	Təbii nəmlik, v.h.			W	105	0.124	0.073-0.175
3	Plastiklik ədədi,vahid			İp	105	0.13	0.08-0.16
4	Axıcılıq göstəricisi, vahid			İL	105	-0.53	-0.98- (-)0.21
5	Məsaməlik əmsalı, vahid			e	50	0.641	0.547-0.729
6	Sıxlıq, q/sm^3	Təbii nəmlikdə		ρ_W	50	1.86	1.76-1.93
		Quru qruntun		ρ_d	50	1.66	1.58-1.75

Bu qruntlarda qrunt hissəciklərinin sıxlığı 2.72 q/sm^3-a bərabərdir.

TN və Q 2-02.01-83-ə və laboratoriya tədqiqinə əsasən bu qrunt üçün (MGE-1) aşağıdakı normativ qiymətləri qəbul etmək olar:

Şərti hesabi təzyiq R_o=265 kPa
İlişmə qüvvəsi c^n=31.5 kPa
Daxili sürtünmə bucağı $\phi^n=24^0$
Ümumi deformasiya modulu E(təbii)=22.5 MPa
Sıxlıq təbii nəmlikdə ρ^n_w=1.86 q/sm
Sıxlıq quru halda ρ^n=1.66 q/sm^3

MGE-2 – gil qəhvəyi rəngli, bərk və bəzən yarımbərk konsistensiyalı, tərkibində bəzən çaqıl-çınqılla (Q_{2+3}). Trass xətti boyu bu suxurları kəsilişin sonuna kimi, bəzən lokal xarakter daşımaqla, izləmək olur. Layın açılmış qalınlığı 2.0-6.0 metr arasında dəyişir və yer səthindən 0.0-0.9m dərinlikdə rast gəlinir.

Sıra N-si	Göstəricilər			İndeks	Təyinatın sayı	Orta qiyməti	Həddi qiymətləri
1	Dənəvərlik tərkibi, %	Çaqıl-çınqıl	40-20mm	D	95	0.4	0.0-0.4
			20-10mm	D	95	1.5	0.0-3.6
			10-5mm	D	95	0.7	0.0-1.3
			2-5mm	D	95	2.5	0.0-5.0
		Qum	2-1 mm	D	95	3.8	0.0-10.5
			1-0.5mm	D	95	1.4	0.0-9.1
			0.5-0.25mm	D	95	1.6	0.0-+11.0
			0.25-0.1mm	D	95	1.2	0.1-7.3
			0.1-0.05mm	D	95	11.4	2.3-26.6
		Toz	0.05-0.01mm	D	95	19.2	5.0-34.3
			0.01-0.002mm	D	95	21.7	9.7-31.0
		Gil	<0.002mm	D	95	43.1	30.5-62.6
2	Təbii nəmlik, v.h.			W	95	0.171	0.134-0.300
3	Plastiklik ədədi,vahid			İp	95	0.21	0.18-0.29
4	Axıcılıq göstəricisi, vahid			İL	95	-0.29	-0.56- 0.15
5	Məsaməlik əmsalı, vahid			e	45	0.641	0.547-0.729
6	Sıxlıq, q/sm^3	Təbii nəmlikdə		ρ_W	45	1.86	1.76-1.93
		Quru qruntun		ρ_d	45	1.66	1.58-1.75

Bu qruntlarda qrunt hissəciklərinin sıxlığı 2.74 q/sm^3-a bərabərdir.

TN və Q 2-02.01-83-ə və laboratoriya tədqiqinə əsasən bu qrunt üçün (MGE-2) aşağıdakı normativ qiymətləri qəbul etmək olar:

Şərti hesabi təzyiq R_o=460 kPa
İlişmə qüvvəsi c^n=68.0 kPa
Daxili sürtünmə bucağı $\phi^n=20^0$
Ümumi deformasiya modulu E(təbii)=24.0 MPa
Sıxlıq təbii nəmlikdə ρ^n_w=1.95q/sm
Sıxlıq quru halda ρ^n=1.66 q/sm^3

<u>MGE-3</u> – çaqıl-çınqıl çöküntüsü gilcə dolduruculu (Q_{2+3}).

Bu elementin trassa üzrə yayılması ,kəsilişin yalnız Pk 527÷Pk 577 (Q-185÷ Q-202) qədər olan hissəsində izlənilir. Elementin açılmış qalınlığı 1.0-4.5 metr təşkil edir.

Sıra N-si	Göstəricilər			İndeks	Təyinatın sayı	Orta qiyməti	Həddi qiymətləri
	D q	Çaqıl-çınqıl	40-20mm	D	18	16.0	1.7-22.9

1			20-10mm	D	18	24.9	3.0-37.9
			10-5mm	D	18	19.0	11.9-23.0
			2-5mm	D	18	4.5	2.0-18.2
		Qum	2-1 mm	D	18	2.5	0.7-15.3
			1-0.5mm	D	18	1.4	0.1-3.1
			0.5-0.25mm	D	18	1.4	0.3-3.1
			0.25-0.1mm	D	18	2.2	0.3-23.9
			0.1-0.05mm	D	18	28.0	1.5-27.3
		Toz	0.05-0.01mm				
			0.01-0.002mm				
		Gil	<0.002mm				
2	Plastiklik ədədi (doldurucu),vahid			İp	18	0.15	0.05-0.24

TN və Q 2-02.01-83-ə və laboratoriya tədqiqinə əsasən bu qrunt üçün (MGE-3) aşağıdakı normativ qiymətləri qəbul etmək olar:

Şərti hesabi təzyiq R_o=450 kPa
İlişmə qüvvəsi c^n=2 kPa
Daxili sürtünmə bucağı $\phi^n=43^0$
Ümumi deformasiya modulu E(təbii)=50 MPa
Sıxlıq təbii nəmlikdə ρ^n_w=2.00q/sm^3
Sıxlıq quru halda ρ^n=1.82 q/sm^3
Hissəciklərinin sıxlığı ρ_s=2.66 q/sm^3

MGE-4 – Yarımqaya tip qrunt –qumdaşı,zəif bərklikli, gilli-karbonatlı sementdə , suda yumşalan ((P_2+N^1_1). Bu element kəsilişdə lokal xarakter daşıyir və yalnız 4 quyuda (Q-131÷134) rast gəlinir, qalınlığı 1.5-4.0m arasında dəyişir.

Biroxlu sıxılmağa qarşı müqavimət quru halda orta hesabla 2.5 MPa, su ilə doymuş halda 1.1 MPa, bu zaman yumşalma əmsalı 0.43 təşkil edir.

Beləliklə, su ilə doymuş halda biroxlu sıxılmağa qarşı müqavimətinə görə bu qrunt (DÜİST 25100-a əsasən) zəif bərklikli, suda yumşalan yarımqaya tip qrunt kimi təsnif olunur.

Qaya tip qruntlar üçün tətbiq olunan СНиП 2-02.02-85-ə (Hidrotexniki qurğuların əsası) və laboratoriya tədqiqqtlarının statik işlənilməsinə əsasən bu qrunt üçün (MGE-4) aşağıdakı normativ qiymətləri qəbul etmək olar:

İlişmə qüvvəsi c^n=30 kPa
Daxili sürtünmə bucağı $\phi^n=26^o24'$
Ümumi deformasiya modulu E(təbii)=1000 MPa
Sıxlıq təbii nəmlikdə ρ^n_w=1.80 q/sm
Sıxlıq quru halda ρ^n=1.71 q/sm^3
Quru halda biroxlu sıxılmaya qarşı müqavimət-2.5 MPa
Su ilə doymuş halda biroxlu sıxılmaya qarşı müqavimət-1.1 MPa

Bu qrunt üçün şərti hesabi təzyiq R_o=210 kPa.

7.10.5.3. Qruntların tikinti konstruksiyalarına qarşı kimyəvi aqressivliyi

Ərazini təşkil edən qruntların tikinti konstruksiyalarına qarşı kimyəvi aqressivliyini təyin etmək məqsədi ilə yer səthindən 1.0 m-dən 3.5 m dərinliyə qədər gilli qruntdan və çaqıl-çınqıl çöküntüsünün doldurucusundan götürülən 37 nümunədən su ekstraktlarının kimyəvi təhlilləri aparılmışdır.

Kimyəvi təhlillərin nəticələrindən göründüyü kimi, qruntların tərkibində suda tez və orta həll olan duzların miqdarı orta hesabla 0.26 % təşkil etməklə 0.14-0.44% arasında dəyişir. Göstəricilərin bu qiymətinə görə 25100-96 Dövlət standartına uyğun olaraq qruntlar şoranlaşmayan hesab edilirlər.

Qruntların tərkibində sulfat duzlarının miqdarı 4 670-26 109 mq/kq arasında dəyişir, orta qiyməti isə 12 428 mq/kq təşkil edir. Qruntlar sulfat duzlarının miqdarına görə TN və Q 2.03.11-85-ə əsasən W_4 markalı betona qarşı (portlandsementə) güclü aqressivdir. Xloridlərin miqdarına görə dəmir-beton konstrukssiyalara qarşı güclü aqressiv sayılır.

7.10.5.4. Ərazinin hidrogeoloji şəraiti

Tikintisi nəzərdə tutulan 500 kV-luq “Abşeron”YS - “Nəvai”YS HX xəttinin trassası üzrə 6.0 metr dərinliyə qədər qazılmış quyularda qrunt sularına rast gəlinməmişdir.

7.10.5.5. Qruntların işlənməyə qarşı qrupu

Maşın mexanizmlərə və əl ilə torpaq qazma (çala qazma) işlərinin çətinliyə görə TN və Q IV-02-91; IV-05-91 (torpaq işləri)-nin 1-ci cədvəlinin əsasında qruntların aid olduqları bəndlər və qruplar (əl ilə) “N-H” cədvəlində əks etdirilmişdir. Qruntların işlənməyə qarşı qrupu:

- MGE-1- 35q(III) ;
- MGE-2- 8d(IV);
- MGE-3- 6a(I);
- MGE-4- 30a(V) .

7.10.5.6. Nəticə və tövsiyyələr

1. Yerinə yetirilən mühəndisi-geoloji və hidrogeoloji axtarış işləri sahənin litoloji quruluşunu, hidrogeoloji şəraitini, qruntların fiziki və möhkəmlik xassələrini kifayət qədər dəqiqliklə işıqlandırmağa imkan verir.

   Trassanın keçdiyi ərazinin, 6,0 m dərinliyə qədər, sahənin geoloji-stratiqrafik quruluşunda ,əsasən dördüncü dövrün Xəzər və Xvalın mərtəbəsinin (Q_{2+3}) çöküntüləri iştirak edir, litoloji

baxımdan tərkibinə görə gilcə, qil və çaqıl-çınqıl çöküntülərindən və Paleogen-neogen ($P_2+N^1_1$) yaşlı dövrün çöküntüləri iştirak edirlər və litoloji baxımdan yarımqaya tip (zəif qumdaşı) qruntlarla təmsil olunublar.

2. Tədqiqat sahəsində litoloji tərkibinə, sıxlıq dərəcəsinə və mühəndisi-geoloji xassələrinə görə seçilən 4 əsas tip qrunt layı qeyd olunur:
   - **MGE-1** – gilcə bozumtul-qəhvəyi rəngli, bərk bəzən yarımbərk konsistensiyalı, tərkibində bəzən çaqıl-çınqılla (Q_{2+3});
   - **MGE-2** – gil qəhvəyi rəngli, bərk və bəzən yarımbərk konsistensiyalı, tərkibində bəzən çaqıl-çınqılla (Q_{2+3});
   - **MGE-3** – çaqıl-çınqıl çöküntüsü gilcə dolduruculu (Q_{2+3});
   - **MGE-4** - yarımqaya tip qrunt – qumdaşı,zəif bərklikli, gilli-karbonatlı sementdə (($P_2+N^1_1$).

3. HX-nin trassası üzrə ərazidə 6.0 m dərinliyə qədər qazılmış quyularda qrunt sularına rast gəlinməmişdir.

4. Qruntların tərkibində sulfat duzlarının miqdarı 4 670-26 109mq/kq arasında dəyişir, orta qiyməti isə 12 428 mq/kq təşkil edir. Qruntlar sulfat duzlarının miqdarına görə TN və Q 2.03.11-85-ə əsasən W_4 markalı betona qarşı (portlandsementə) güclü aqressivdir. Xloridlərin miqdarına görə dəmir-beton konstrukssiyalara qarşı güclü aqressiv sayılır.

5. Tədqiqat sahəsinin inzibati cəhətdən tərkibinə daxil olduğu Abşeron və Hacıqabul rayonları Azərbaycan Respublikası ərazisində fəaliyyət göstərən AzDTN 2.3-1 normativ sənədinin 1 saylı əlavəsinə əsasən 8_2 ballıq (MSK şkalası üzrə) seysimik zonaya aiddir.

   Fiziki xassələrin əsasında tədqiqat sahəsini təşkil edən qruntlar AzDTN 2.3-1 normativ sənədinin 1-ci cədvəlinə uyğun olaraq seysmiklik xüsusiyyətlərinə görə II sinfə aid edilirlər.

   Sahə alçaq və orta dağlıq qurşağda yerləşir. Ərazidə ekzogen geoloji proseslər və təzahürlərdən yarğanların əmələ gəlməsini misal göstərmək olar.

6. Tikinti çalalarının açılması zamanı qruntların işlənməyə qarşı qrupu TN və Q IV-02-9; IV-05-91-ə əsasən:
   - MGE-1- 35q(III) ;
   - MGE-2- 8q(IV)
   - MGE-3- 6a(I)
   - MGE-4- 30a(V)

Beləliklə, tikintisi nəzərdə tutulan 500V-luq i "Abşeron" YS – "Nəvai"YS hava xəttinin ərazisinin mühəndisi-geoloji şəraiti tikinti üçün əks göstəriciyə malik deyildir.

7.11. 330 kV-luq Bankə GES – Nəvahi YS və Biləsuvar GES – Nəvahi YS EVX-ləri

HX-nin trassası üzrə mühəndisi – geoloji şəraitini qiymətləndirmək ücün mühəndisi–geodezik və mühəndisi-geoloji axtarış işləri institutun Mühəndis - Axtarış İdarəsi tərəfindən 2024-ci ilin iyun - iyul aylarında yerinə yetirilmişdir. Hava xəttinin uzunluğu 89 km-dir.

Çöl və laboratoriya tədqiqatlarının kameral işlənilməsi idarənin kameral qrupu tərəfindən yerinə yetirilmişdir.

Mühəndisi-geoloji tədqiqat işlərinin qarşısında duran əsas vəzifələr tədqiqat ərazisinin geoloji-litoloji guruluşunu müəyyənləşdirmək, qurğuların əsasında yatan qruntların fiziki-mexaniki (geotexniki), kimyəvi xassələrini öyrənmək, hidrogeoloji şəraiti və ekzogen geoloji prosesləri tədqiq etməkdən ibarət olmuşdur.

Qarşıda duran məsələləri yerinə yetirmək üçün ilkin olaraq tədqiqat sahəsinə aid olan geoloji fond materialları toplanmış, öyrənilmiş, ümumiləşdirilərək nəticələr çıxarılmışdır. Sonra sahədə mühəndisi-geoloji qazıma işləri, çöl-sınaq tədqiqat işləri yerinə yetirilmişdir, stasionar laboratoriya şəraitində qazıma prosesində quyulardan götürülən nümunələrin fiziki-mexaniki və kimyəvi təhlilləri aparılmışdır. Daha sonra kameral şəraitdə laboratoriya təhlillərinin nəticələrinin statistik hesablanmaları aparılmış, quyuların geoloji-litoloji sütunları və geoloji-litoloji kəsilişləri tərtib olunmuş, hazırki texniki hesabat tərtib edilmişdir. Nəzərdə tutulan mühəndisi-geoloji tədqiqat işlərinin tərkibi, həcmi və qazıma quyularının yerləri normativ sənədlərə müvafiq olaraq aparılmış, bu zaman konkret geoloji şəraitə uyğun olaraq bir qədər korrektirovka olunmuşdur. Digər tərəfdən, tədqiqat sahəsi üçün mühəndısi-geoloji axtarış işləri və sınaqlar yerinə yetirilərkən Azərbaycan Respublikasının mövcud Dövlət texniki norma, qayda və standartlarına da riayət edilmişdir.

Qeyd etmək lazımdır ki, mühəndis-geoloji tədqiqatlar aparılarkən işlərin təhlükəsiz yerinə yetirilməsindən ötrü və həmçinin, çöl işləri prosesində ətraf mühitin ekoloji vəziyyətinin pozulmaması üçün zəruri tədbirlər həyata keçirilmişdir.

Mühəndisi-geoloji əsaslandırılması üçün aşağıdakı həcmdə tədqiqat işləri yerinə yetirilmişdir:

Sıra sayı	Tədqiqat işinin adı	İşin həcmi, miqdarı və ya sayı
1	**2**	**3**
	E. Çöl işləri	
1	UQB-50VS-01 qurğusu vasitəsilə 127 mm diametrlik quyuların sütunlu üsul ilə qazılması (6 m x 298 quyu)	1788 poq.m.
2	Quyulardan nümunələrin götürülməsi: b) gilli qruntlar c) qum qruntlar d) qaya tip qrunt	 248nümunə 42 nümunə 3nümunə
	F. Kameral işlər	
3	Qruntların fiziki-mexaniki xassələrinin laboratoriya sınaqları	293 nümunə
4	Çöl və laboratoriya tədqiqatlarının kameral işlənilməsi	
5	Mühəndisi-geoloji hesabatın tərtibi.	1 hesabat

7.11.1. Tədqiqat sahəsinin fiziki-coğrafi şəraiti və geoloji quruluşu haqqında qısa məlumat

Layihə olunan 330 kV-luq hava xətti "Nəvahi YS"- "Neftçala GES" HX-nin arasındadır, uzunluğu 89.002 km-dir. Beləliklə, 330 kV-luq "Nəvahi YS"- "Neftçala GES" HX-nin trassası inzibati cəhətdən Hacıqabul, Salyan və Neftçala rayonları ərazisindən keçir.

Nəvai qəsəbəsi Hacıqabul rayonu ərazisinin şimal-şərqində Pirsaat çayının sol istiqamətində yeləşir. Hacıqabul rayonundan 20 km, Bakı şəhərindən isə cənub-şərq istiqamətində 90 km məsafədə yerləşir.

Bakıdan Salyan rayonunun mərkəzinədək məsafə 126 km-dir. Rayonun ərazisi Kür-Araz ovalığında Muğan və Cənub-Şərqi Şirvan düzlərində yerləşir.

Neftçala rayonu Azərbaycan Respublikasının cənub-şərq hissəsində Kür çayının Xəzər dənizinə töküldüyü ərazidə, Kür-Araz ovalığının şərqində yerləşir. Şərqdən Xəzər dənizi ilə əhatələnir, şimaldan Şirvan Dövlət Qoruğu, cənubdan Qızılağac Dövlət Qoruğu ilə həmsərhəddir.

Rayon ərazisinin səthi düzənlikdir. Cənub-şərqi Şirvan və Salyan düzü, qismən Muğan düzündə yerləşir. Ərazisi dəniz səviyyəsindən 23 m aşağıda yerləşir.

7.11.2. İqlim

Tədqiqat sahəsinin iqliminin əsas elementlərinin (havanın temperaturu, nəmlik, atmosfer çöküntüləri, külək) qısa səciyyəsi Hacıqabul (A) və Salyan (B) meteoroloji stansiyalarının (Baltik yüksəklik sistemi üzrə müvafiq olarq (-7) m və (-21) m hündürlükdə yerləşirlər)apardıqları müşahidələr əsasında verilir.

Havanın temperaturu. Aşağıdakı cədvəldə havanın coxillik orta aylıq və illik temperaturları (t^0s) əks etdirilir.

№	I	II	III	IV	V	VI	VII	VIII	IX	X	XI	XII	Il
A	**2.7**	**4.1**	**7.5**	**13.6**	**19.7**	**24.7**	**27.8**	**26.8**	**22.5**	**16.2**	**10.1**	**5.0**	15.0
B	**3.2**	**4.2**	**7.4**	**13.1**	**19.0**	**23.8**	**26.6**	**25.8**	**21.9**	**15.9**	**10.5**	**5.6**	14.7

Aşağıdakı cədvəldə havanın mütləq maksimum və mütləq minimum temperaturları (t^0s) əks etdirilir.

№	I	II	III	IV	V	VI	VII	VIII	IX	X	XI	XII	İL
M ü t l ə q m a k s i m u m													
A	19	25	31	36	37	40	42	42	38	36	27	25	42
B	22	26	30	32	37	40	41	40	37	32	30	24	41
M ü t l ə q m i n i m u m													
A	-23	-20	-7	-2	5	7	12	12	9	-3	-10	-20	-23
B	-22	-20	-8	-2	4	6	13	14	6	-3	-12	-18	-22

Havanın nəmliyi. Aşağıdakı havanın nisbi nəmliyi %-lə əks etdirilir.

№	I	II	III	IV	V	VI	VII	VIII	IX	X	XI	XII	Il
A	**85**	**82**	**79**	**70**	**62**	**53**	**41**	**54**	**63**	**75**	**82**	**85**	70
B	**84**	**83**	**80**	**74**	**68**	**61**	**60**	**64**	**70**	**77**	**82**	**83**	**74**

Atmosfer çöküntüləri. Yağıntının aylar üzrə, soyuq və isti dövrlərdə paylanması (mm) aşağıdakı cədvəldə verilir.

№	I	II	III	IV	V	VI	VII	VIII	IX	X	XI	XII	XI-III	IV-X	Il
A	17.9	20.4	28.6	30.2	26.6	19.3	5.9	6.2	14.4	30.6	27.3	22.5	116.7	133.2	249.9
B	23.8	27.0	30.1	33.7	26.7	17.6	4.0	7.8	14.2	37.2	35.0	28.1	144.0	141.2	285.2

Küləк. Küləyin orta aylıq və illik surəti (m/s) aşağıdakı cədvəldə verilir.

№	I	II	III	IV	V	VI	VII	VIII	IX	X	XI	XII	Il
A	2.8	3.4	4.0	3.8	4.0	4.3	4.2	4.2	4.1	3.7	3.1.	2.7	3.7
B	2.9	3.3	3.6	3.2	3.3	3.3	3.2	3.0	3.0	2.9	2.9	2.6	3.1

Hacıqabul və Salyan meteoroloji stansiyalarının müşahidələrinə görə, ərazidə şərq , şimal-şərq, qərb və cənub-şərq istiqamətli küləklər üstünlük təşkil edir.

Aşağıldakı cədvəldə küləklərin istiqamətinin il ərzində təkrarlanması və tam sakitlik %-lə əks etdirilir.

№	Ş	ŞŞr	Şr	CŞr	C	CQ	Q	ŞQ	Tam sakitlik
A	1	23	26	8	12	7	15	8	21
B	6	16	26	14	12	4	12	10	11

Hacıqabul və Salyan meteoroloji stansiyalarının müşahidələri üzrə tədqiqat ərazisi üçün müxtəlif istiqamətli küləklərin il ərzində təkrarlanması 1 və 2 saylı qrafiklərdə göstərilmişdir.

İl ərzində əsən güclü küləkli (≥ 15m/s) günlərin orta sayı aşağıdakı cədvəldə verilmişdir.

№	I	II	III	IV	V	VI	VII	VIII	IX	X	XI	XII	Il
A	1.3	1.1	2.7	1.9	2.5	2.0	2.1	2.6	1.9	1.6	1.9	1.2	23
B	0.4	0.7	1.7	0.9	1.1	0.8	1.0	0.9	1.0	1.3	1.0	0.7	12

Hacıqabul şəhəri üçün orta çoxillik küləklər rozası.

Qrafik 1

Salyan şəhəri üçün orta çoxillik küləklər rozası.

Qrafik 2

Neftçala rayonunda yayı quraq keçən mülayim isti yarımsəhra və quru çöl iqliminə malikdir. Orta temperatur yanvarda təqribən 3 °C, iyulda 25–36°C -dir. İllik düşən yağıntının miqdarı 300 mm-dir. Ərazinin küləkli olması iqliminin kəskin dəyişməsinə səbəb olur. Yarımsəhra çöl və şoran torpaqlar geniş yayılmışdır.

Bankə qəsəbəsinin iqlimi quru səhra və yarım səhra iqlimidir. Xəzər dənizinə yaxın ərazilərin torpaqları şorandır.Ümumiyyətlə qəsəbə dəniz səviyyəsindən 26 və ya 28 metr aşağıdır. Burada yağış ildə 250–400 mm düşür. Qışı mülayim və çoxda soyuq olmur.

Oroqrafiya

Tədqiqat sahəsinin tərkibinə daxil olduğu Hacıqabul rayonunun ərazisi Kür-Araz ovalığının cənub-şərqində, Şirvan düzənliyinin və Böyük Hərəmi silsiləsinin cənub – şərq hissəsini əhatə edir. Ərazisinin ovalıq hissəsi dəniz səviyyəsində aşağıda yerləşir.

Salyan rayonu Şərqdən kiçik sahədə Xəzər dənizi ilə hüdudlanır. Tirə və təpəliklər Babazanlı, Xıdırlı, Bəndovan və s. var. Ərazinin çox hissəsi okean səviyyəsindən 28 metrə qədər aşağıda yerləşir. Neogen və Antropogen çöküntüləri yayılmışdır. Kürsəngi, Qalmas, Xıdırlı, Babazanlı və s. palçıq vulkanları var. Rayonun ərazisi neft və qaz yataqları ilə zəngindir.. Kürsəngi, Bəndovan, Qalmas, Mişovdağ, Durovdağ (İlandağ), Ağzıbir, Aralıq, Babazənən, Qırlıq, Dovşandağ palçıq vulkanları burada yerləşir.

Neftçala rayonu Azərbaycan Respublikasının cənub-şərq hissəsində Kür çayının Xəzər dənizinə töküldüyü ərazidə, üstündə Kür-Araz ovalığının şərqində yerləşir. Şərqdən Xəzər dənizi ilə əhatələnir.

Rayon ərazisinin səthi düzənlikdir. Cənub-şərqi Şirvan və Salyan düzü, qismən Muğan düzündə yerləşir. Ərazisi dəniz səviyyəsindən 22 m aşağıda yerləşir. Antropogen çöküntüləri yayılmışdır. Rayon ərazisi dəniz səviyyəsindən aşağıda olduğu üçün Xəzər dənizinin səviyyəsinin qalxması və azalması rayona birbaşa təsir göstərir. Rayon ərazisində yerləşən Kür Dili bəzən su səviyyəsi yuxarı qalxdıqda adaya, düşdükdə isə yarımadaya çevrilir. Rayon ərazisində quruda bir neçə palçıq vulkanları vardır. Xəzər dənizində isə Neftçala rayonu sahilinə yaxın Kür daşı adası var. Bu ada palçıq vulkanları nəticəsində formalaşmışdır.

Palçıq vulkanlarının təsnifatındakı Bakı arxipelaqı vilayəti Xəzərin şimalda Balıqçı burnundan başlamış cənubda Qızılağac körfəzinədək uzanan geniş qərb hissəsini əhatə edir. Bu vilayətin palçıq vulkanları, konusları su səthindən baş qaldıran ada və ya sualtı saylardan ibarətdir. Neftçala sahillərində də bir çox sualtı saylar mövcuddur. Bunlar Borisov, Kalmıçkov, Karagedov, Kornilov–Pavlov, Kür, Poqorelaya Plita rifi, Qolovaçev sualtı saylardan ibarətdir. Xəzər dənizində su səviyyəsi aşağı olduğu vaxtlar bu saylar adaya çevrilir.

Babazənən və Durovdağ yüksəkliyi arasında Salyan rayonuyla olan sərhəddə duzlu göl olan Duzdağ gölü var. Bankə qəsəbə dəniz səviyyəsindən 26 və ya 28 metr aşağıdır

Hidrologiya

Rayonun hidroqrafik şəbəkəsini Azərbaycanın mühüm baş su arteriyası olan Kür çayı təşkil edir. Onun keçmiş qolu olan Bala Kürdən suvarmada geniş istifadə edilir.

Ərazidən Pirsaat çayı axır, onun uzunluğu 119 km, hövzəsinin sahəsi 2280 km²-dir. Mənbəyi Baş Qafqazın cənub yamacından (2400 m) başlayır. Axımının çox hissəsi yağış (70%), qismən də qar (14%), yeraltı (16%) sulardan əmələ gəlir. İl ərzində yağan yağışlar çayda daşqın əmələ gətirir. Çayın orta illik su sərfi 1,55 kub m/san-dir. Yaz-yay fəsillərində illik axımının 60-70%-i keçir. Suyu sulfatlı-natriumlu olmaqla yüksək minerallaşmaya (1000 mq/l-dən artıq) malikdir. Üzərində su anbarı tikilmişdir.

Babazənən və Durovdağ yüksəkliyi arasında Salyan rayonuyla olan sərhəddə duzlu göl olan Duzdağ gölü var.
Ərazi qrunt sularının geniş yayılması ilə xarakterizə olunur.

Kür çayı - Uzunluğu 1515 km olub üç ölkə - Türkiyə, Gürcüstan və Azərbaycan - ərazisindən axır. Onun 906 km-i Azərbaycan Respublikası ərazisindən keçir. Öz başlanğıcını Türkiyənin şimal-şərqindəki buzlaqlardan götürür, Neftçala rayonu ərazisində Xəzər dənizinə tökülür.. Hövzəsinin sahəsi 188 min km²-dir. Kür çayının qidalanmasında əsas yeri qar (36%) və yeraltı sular (30%) tutur. Yağış suları (20%) və buzlaqların əriməsindən

yaranan sular (14%) Kürün qidalanmasının üçdə birini təşkil edir. Çayın gursulu dövrü mart ayının sonundan başlayır, iyun ayına qədər davam edir.

Kür-Araz ovalığında çayda suyun sürəti çox zəif olduğundan, özü ilə gətirdiyi asılı materialları yatağın kənarlarında çökdürmüş və yataq boyu akkumlyativ yastı tirə əmələ gətirmişdir. Çayın yatağı bu akkumliyativ tirənin ox zonasına kəsilmişdir. Yataq boyu üzrə tirə ətraf sahələrdən bir neçə metr hündürdür. Buna görə də çayda çox güclü daşqınlar baş verən zaman, o yataqdan daşıb ətraf ərazilər su altında qoyur.

Kür çayının aşağı axarında çayın hər iki sahilində çoxsaylı axmazlar mövcuddur. Daşqın suları hesabına bu hissədə bir sıra göllər də yaranmışdır.

Hacıqabul gölü- sahəsi 16 km^2 yaxın olan bu göldə suyun səviyyəsini sabit saxlamaq üçün Kür çayından bura su axıdılır. Gölün suyu şirindir.

Neftçala rayon ərazisi dəniz səviyyəsindən aşağıda olduğu üçün Xəzər dənizinin səviyyəsinin qalxması və azalması rayona birbaşa təsir göstərir.

Torpaq-bitki örtüyü

Tədqiqat ərazisində boz-qonur, boz-çəmən , çəmən-batağlıq, şoran torpaqlar yayılmışdır. Bitki örtüyü səhra və yarımsəhra tiplidir.

7.11.3. Tektonika, stratiqrafiya və litologiya

Tektonika. Baxılan rayon tektonik cəhətdən Böyük Qafqaz meqantiklinoriumunun cənub-şərq kənarında yerləşən Şamaxı-Qobustan sinklinoriumu daxilindədir. Yarımstansiya ərazisi Nəvai sinklinalı hüdudlarındadır ki, bu da şimaldan Ləngəbiz-Ələt antiklinoriumunun braxiantiklinal qirişiqliqları ilə, cənubdan Hərəmi- Mişovdağ-Kalmas antiklinal qırışıqlarla məhdudlaşır. Antiklinal qırışıqlıqlar güclü sıxılmışdır, bəzən çevrilmiş vəziyyətdədirlər və tağ üzrə parçalanmışlar.Qırışıqlıqların nüvələri üst təbaşir-neogen çöküntülərindən təşkil olunmuşdur. Ərazinin əsasının səthi şimal-şərqdə dərin cənub-şərq istiqamətli Acıçay-Ələt qırılması ilə kəsilmişdir, cənub-şərqdə isə cənub-şərq istiqamətli Qərbi Xəzər qırılması ilə kəsilib.

Tədqiqat ərazisində mezozoy çöküntülərinin tavanı iri antiklinal qalxımın nisbətən az maili qanadından ibarətdir. Bu antiklinal cənub-şərqdə rayon ərazisindən kənarda dərin sinklinala keçir. Paleogen-neogenin üstü muldadan ibarətdir, şimaldan və cənubdab antiklinal qalxmalarla əhatələnib, onlar da iri qırılmalarla mürrəkkəbləşib ki, bu qırılmalarada palçıq vulkanları bağlıdır.

Nəvai sinklinal çökəklik xəzər dövründə müasir şəklini almış, ətraf Hərami və Mişovdağ silsilələrindən ayrılm, Kalmas və Mişovedağ palçıq vulkanlarının konusları yaranmışdır.

Tədqiqat aparılan rayonun geoloji quruluşunda paleogen-neogen yaşlı süxurlardan başlayaraq, müasir çöküntüülərə qədər iştirak edir. Paleogen-neogen çöküntülərinin ümumi qalınlığı 5-10 km-ə çatır.Ən qədim qum, qumdaşı və gil çöküntüləri kiçik adacıqlar şəklində Ələt silsiləsi qalxmasında yer səthinə çıxır. Ərazinin əsas hissəsini dördüncü dövr çöküntüləri tutur.Onlar dəniz və kontinental fasiyadan ibarətdir. Onların qalınlığı Nəvai vadisinin talveqi üzrə şimal-qərbdə 31 metrdən sinklinalın mərkəzində 400 metrə qədər dəyişir.

Xvalın transqressiyasının oreolu xəzər transqressiyasından bir qədər az olsa da, üst dördüncü dövrün Xvalın mərtəbəsinin çöküntüləri Nəvai sinklinalında daha geniş yayılmışdır. Sinklinal hüdudlarında onlar bir qədər cənub-şərqə doğru yayılmışlar, qalınlıqları 30-40 metrrə çatır. Əsasən nazik gilcə araqatlı gillərdən ibarətdirlər, aşağıdakı layların üzərində fasilərlə və bucaq uyğunsuzluğu ilə yatırlar.

Xvalının terrasları Ələt hündürlüyü boyu və Lənqəbiz sira dağlarında 14-33 metr hündürlüklərdə qeyd olunur.

7.11.3.1 Geomorfologiya

Tədqiqat rayonu Pirsaatçayın allüvial-prolüvial vadisinin aşağı hissəsində yerləşir və Nəvai vadisi adlandırılır. Bu düzənlik dağlararası çökəkliklərə bağlıdır, şimal-qərbdən və şimaldan Ələt hündüryüyü ilə, cənubdan Mişovdağ-Kalmas silsiləsi ilə hüdudlanır.

Nəvai düzənliyi şimal-qərbdən cənub-şərqə doğru 35 km uzanaraq eni 8-14 km arasında dəyişir. Onun səthi düzənlikdir, bəzi yerlərdə xırda təpəliklər qeyd olunur, Pirsaatçayın qədim məcrasına bağlı çoxlu çökəkliklər mövcuddur. Relyefin hündürlüyü şimal-qərb kənarlarda 43-45 metrdən cənub-şərqdə 0-mənfi 10 metr arasında dəyişir ki, burada vadi genişlənərək Xəzəryanı çökəkliklə birləşir. Ətraf zirvələrin hündürlüyü 200-300 metr arasındadır.

Ələt silsiləsinin qalxmaları submeridional istiqamətlidir, şərq yamacları az mailidir, Nəvai çökəkliyi tərəfdə cənub-qərb yamacları dikdir, çoxlu sayda yarğanlarla parçalanmışdır. Onlarda bəzi yerlərdə dördüncü dövr terraslarının qalıqları müşahidə olunur. Vadini əhatə edən silsilələrin ən hündür yerləri palçıq vulkanlarının konuslarına aiddir.

Fəaliyyətdə olan palçıq vulkanlarının tullantı məhsulları Nəvai vadisinə çatmır. Lakin sel suları vadiyə sopka brekçiyalarını və kollüvial çöküntüləri gətirir. Bu çöküntülər vadini ensiz şleyflə əhatə edir. Pirsaat çayının məcrası öz ilkin formasını saxlamayıb.Bu məcra aparıcı suvarma kanalları ilə güclü dəyişdirilib. 3-4 metr enə malik mövcud məcra 12 metr (bəzən 4 metr) hündürlüklü dik sahillərə malikdir. Daşqın dövlərində sular çayın məcrasından və aparıcı kanallardan çıxaraq ətraf alçaq relyefə malik sahələri basır. Bundan başqa, sahələr suvarma zamanı xüsusi olaraq su altında saxlanılır.

Qruntlar az sukeçiriciliyə malik olduğundan ərazi bataqlıqlaşmaya məruz qalır. İntensiv buxarlanma yer səthini qurudur və eyni zamanda şoranlıqların yaranmasına səbəb olur.

7.11.4. Mühəndisi-geoloji tədqiqat işlərinin həcmi və metodikası

7.11.4.1 Mühəndisi-geoloji quyuların qazılması, nümunələrin götürülməsi

Layihə olunan 330 kV-luq ikidovrəli “Nəvahi YS”- “Neftçala GES” HX-nin tikintisinin mühəndisi-geoloji və hidrogeoloji əsaslandırılması üçün ərazidə aşağıdakı həcmdə tədqiqatların yerinə yetirilmişdir:

- ərazidə dərinlikləri 6.0 metr olmaqla 298 qazıma quyusu qazılmışdır; cəmi qazıma işləri – 1788 p. metr;
- strukturu pozulmuş və pozulmamış nümunələr –293 nümunə.

Quyular fırlanan rotor tipli UQB-50M özügedən qazıma qurğusu vasitəsi ilə, sütunlu boru qazıma üsulu ilə 132 mm diametrdə qazılmışdır. Qazıma işləri, əsasən, quyuya su tökmədən, “quru” üsul ilə aparılmışdır. Kernlərin diametri 127 mm olmaqla iki qat sütunlu boruların vasitəsi ilə, qazımanı asta fırlatma aparmaq üsulu ilə əldə edilmişlər.

Çıxarılan kernlərdən laboratoriya analizləri üçün götürülən strukturu pozulmamış süxur nümunələri tənzifə bükülərək parafinlənmiş, daha sonra yarlıklarla təchiz olunaraq, salafan paketlərin içərisində kerna qutularına qablaşdırılaraq, Bakı şəhərində yerləşən stasionar laboratoriyaya göndərilmişlər.

Bütövlükdə mühəndis-geoloji quyuların qazılması, süxur nümunələrinin götürülməsi, qablaşdırılması, nəql edilməsi, saxlanılması və qazıma ilə əlaqədar yerinə yetirilən digər işlərin həcmi və metodikası Azərbaycan Dövlət standartlarının tələblərinə uyğun yerinə yetirilmişdir.

7.11.5. Laboratoriya işlərinin həcmi və aparılma metodikası

Çöl qazıma işlərinin nəticələrinə görə tədqiq edilən sahədə gilli süxurlar aşkar olunmuşdur. Bu süxurlardan götürülən nümunələrdən aşağıdaki tərkibdə və həcmdə (miqdarda) laboratoriya təhlilləri aparılmışdır.

№	Laboratoriya sınaqlarının tərkibi	Həcmi (miqdarı)
	A.Qruntların fiziki-mexaniki xassələrinin təyini	
1	Gilli süxurların tam kompleks fiziki-mexaniki xassələrinin təyini (kəsilmə müqavimətinin təyini sınaqları daxil olmaqla)	34 tam kompleks
2	Gilli süxurların natamam kompleks fiziki-mexaniki xassələrinin təyini (kompressiya sınaqları daxil olmaqla)	32 natamam kompleks
3	Gilli süxurların fiziki xassələrinin tam kompleks təyini	248 tam fiziki xassələr
4	Gilli süxurların qranulometrik tərkibinin təyini	89 təhlil
5	Qum süxurların qranulometrik tərkibinin təyini	42 təhlil
6	Qaya tip süxurlarda fiziki xassələrin təyini	3 təhlil
7	Qaya tip süxurlarda sıxılmağa qarşı müqavimətin təyini	3 təhlil
8	Qruntlarda üzvi maddələrin təyini	35 təhlil
9	**B. Qruntlarin su ekstraktlarının kimyəvi təhlili**	61 təhlil
10	**C. Suyun kimyəvi təhlili**	33 təhlil

7.12. Ərazinin sosial-iqtisadi inkişaf prespektivləri

7.12.1. İlkin sosial iqtisadi mühit

Layihə çərçivəsində tikiləcək elektrik şəbəkəsi infrastruktur obyektləri yerləşdikləri və keçdikləri rayonlarda yerli əhalinin və icmaların yaşayışına təsir etmək potensialına malikdir. Belə ki, torpaqların satın alınmasına ehtiyac yaranır ki, bu da tikinti mərhələsində icmaların həyatında mümkün kiçik narahatlıqların yaranmasına səbəb olur. Bu bölmədə yerli icmaların və fərdlərin cari sosial vəziyyəti və məruz qaldıqları potensial təsirlərin xülasəsi aparılır və təsirlərin azaldılması ilə bağlı prinsipial yanaşma təsvir edilir.

Azərbaycan Respublikasında 2019-cu ilin siyahıyaalmasının nəticələrinə əsasən əhalinin hesablanmış sayı 2023-cü ilin əvvəlinə 10127,1 min nəfər (Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi Azərbaycan Respublikası ərazisində yaşayan əhali istisna olmaqla) təşkil etmişdir. Əhalinin 5527,2 min nəfəri və ya 54,6 faizi şəhərlərdə, 4599,9 min nəfəri və ya 45,4 faizi kənd yerlərində yaşayır. Ölkə əhalisinin 5039,6 min nəfərini və ya 49,8 faizini kişilər, 5087,5 min nəfərini və ya 50,2 faizini qadınlar təşkil edir. Hər 1000 kişiyə 1010 qadın düşür[12]. 2023-cü ilin əvvəlində əhalinin Azərbaycan Respublikasının inzibati ərazi vahidləri üzrə bölgüsü aşağıdakı Şəkildə verilmişdir.

Şəkil 7-20: Əhalinin inzibati ərazi vahidləri üzrə bölgüsü

[12] https://www.stat.gov.az/source/demography/

7.12.2. Tədqiqat sahəsi

Qiymətləndirmə məqsədləri üçün, tədqiqat sahəsi Layihə elementlərindən (yarımstansiyanın yeri və hava xətti dəhlizləri) 500 metr məsafəyə qədər genişləndirilir. Burada məqsəd Layihənin icrası zamanı potensial təsirə məruz qala biləcək şəxsi əmlakların (məsələn, yaşayış obyektləri, digər obyektlər və müəssisələr) və ya icma obyektlərinin (məsələn, məktəblər, dini məbədlər, qəbiristanlıqlar) daxil olduğu yaşayış məntəqələrini əhatə etməkdir.

7.12.3. Cari vəziyyət

Layihə ərazisi Azərbaycanın cənub və mərkəzi hissəsində yerləşməklə altı rayonun (bələdiyyənin) ərazisini əhatə edir: Neftçala, Biləsuvar, Salyan, Hacıqabul, Qaradağ və Qobustan.

Məşğulluq

2023-cü il iyulun 1-nə olan ilkin məlumatlara əsasən, Azərbaycanda iqtisadi fəal əhalinin sayı 5 milyon 224,3 min nəfər təşkil edib ki, onlardan 4 milyon 934,5 min nəfəri məşğul, 289,8 min nəfəri (və ya 5,5 faizi) isə işsiz olub. 2022-ci ildə Azərbaycanın ümumi ÜDM-i 78 milyard ABŞ dollarından bir qədər çox olub. ÜDM-in illik artım tempi 2019-cu ildə 2,2%, 2020-ci ildə -5%, 2021-ci ildə 1,9% və 2022-ci ildə 4,5% təşkil edib. Adambaşına düşən gəlir son illərdə əhəmiyyətli dərəcədə artaraq 2023-cü ildə 7,762,07 ABŞ dollarına çatmışdır. Ən yüksək işsizlik səviyyəsi Bakıda (21%) müşahidə olunub. Layihənin əhatə etdiyi regionlar üzrə məşğulluq səviyyəsi aşağıdakı cədvəldə göstərilmişdir.

Cədvəl 7-5: İqtisadi rayonlar və inzibati-ərazi vahidləri üzrə işsiz əhalinin sayı[13]

Ərazi vahidi	2018	2019	2020	2021	2022
Azərbaycan Respublikası	253827	252076	368667	310485	293286
Bakı şəhəri - cəmi	74906	57861	86459	74959	70931
o cümlədən:					
Abşeron rayonu	4187	10236	15557	12560	11744
o cümlədən:					
Biləsuvar rayonu	*2194*	*2379*	*3578*	*2944*	*2787*
Hacıqabul rayonu	*1795*	*2123*	*3098*	*2595*	*2457*
Neftçala rayonu	*2300*	*2572*	*3738*	*3079*	*2917*
Salyan rayonu	*2902*	*3470*	*5078*	*4181*	*3964*

Nəzərdə tutulan elektrik xətlərinə bitişik kəndlərdə məşğulluq səviyyəsi bələdiyyələr üçün göstərilən orta göstəricilərlə eynidir. Kənd yerlərində yaşayan insanlar əsasən qeyri-intensiv kənd təsərrüfatı işləri ilə məşğul olurlar. Kənd təsərrüfatı fəaliyyətinin əsas sahələri maldarlıq və qarğıdalı, lobya və tərəvəz kimi birillik bitkilərin becərilməsi ilə bağlıdır. Qeyd etmək lazımdır ki, gənclərin iş axtarmaq üçün ölkənin əsas şəhərlərinə və ya xaricə miqrasiya etməsi səbəbindən əhalinin əksəriyyətini yaşlılar, əsasən də təqaüdçülər təşkil edir.

[13] *Azərbaycan Dövlət Statistika Komitəsi*

Qaradağ rayonu istisna olmaqla, yerli əhalinin əsas gəlir mənbəyi kənd təsərrüfatı sahəsində özünüməşğulluqdur. Yerli əhali əsasən süd məhsullarını yerli bazarlarda və ya Azərbaycanın cənub və mərkəzi şəhərlərinə satır. Hədəf olunan kəndlərdə məşğul əhalinin sayı çox azdır. Sənaye obyektləri və ya iri fermer təsərrüfatları praktiki olaraq mövcud deyil və məşğulluq imkanları regionda daha çox dövlət strukturları, təhsil sektoru və xidmətlərlə bağlıdır.

Qaradağ rayonunun iqtisadiyyatında sənaye sektoru, əsasən neft və qaz üstünlük təşkil edir (Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin ("SOCAR") obyektləri). Digər sahələrə sement istehsalı zavodları və daş karxanaları, xidmət sahələri (məs., məktəb, uşaq bağçası, mağazalar), kənd təsərrüfatı və turizm (Qobustan qoruğu, palçıq vulkanları və yaradılacaq yeni geopark) sektorları daxildir. Yerli idarəetmə orqanları ilə (icma rəhbərləri və bələdiyyə nümayəndələri) və əməliyyat şirkətləri ilə aparılan müsahibələr əsasında toplanmış məlumatlara əsasən, Qobustan və Ələt bələdiyyələrinin ərazisində əsas yerli məşğulluq sahələrinə ticarət, kiçik təsərrüfat, heyvandarlıq (yəni qoyunçuluq) və çınqıl və qumun ağır nəqliyyat vasitələri ilə daşınması daxildir.

İşçilərin əksəriyyətini yerli sakinlər və ya ölkənin digər bölgələrindən olan sakinlər təşkil edir. Xarici mütəxəssislər isə ümumiyyətlə azdır. Bununla belə, Qaradağın yerli əhalisi arasında belə bir fikir var ki, Azərbaycanın digər bölgələrindən daha çox işçi qüvvəsi cəlb olunduğu üçün yerli sakinlər işsiz qalırlar. Tədqiq olunan ərazidə orta gündəlik gəlir təxminən 10-30 AZN arasında dəyişir ki, bu da təxminən 6-18 ABŞ dollarına bərabərdir (quraqlıq zamanı çobanların payına düşən orta gündəlik gəlir xeyli aşağıdır). Ümumiyyətlə, əmək şəraiti cəlb olunmuş maraqlı tərəflər tərəfindən yaxşı hesab olunur. Gəlir/məşğulluq baxımından gender bərabərsizliyi müşahidə olunmur.

Son beş ildə Qobustan və Ələt bələdiyyələrində elektrik, xarici dil müəllimi, kran operatoru, qaynaqçı, kompüter elmləri mütəxəssisi və dəmirçi kimi vəzifələr üzrə iş imkanları bir qədər artıb.

1) **1-ci Altlayihə: 500/330kV Yarımstansiya - Yeni 500/330 kV Nəvahi yarımstansiyası**

Cədvəl 7-6: Nəvahi qəsəbəsi üzrə əsas sosial-iqtisadi məlumatlar

Hacıqabul rayonunda 1-ci altlayihəyə yaxın yaşayış məntəqələri
- Yeni 500/330 kV Nəvahi yarımstansiyası

Region	Yaşayış məntəqəsi	Əhali	Yaşayış məntəqəsinə qədər təxmini məsafə (m)
Hacıqabul	Nəvahi	3000	1200

2) **2-ci altlayihə – 500 kV-luq hava xəttinin tikintisi**

Altlayihə 2 aşağıdakı rayonların ərazisindən keçir: Hacıqabul, Qobustan və Qaradağ. Layihəyə yaxın və tədqiqat sahəsi daxilindəki yaşayış məntəqələri, eləcə də onların Layihəyə nisbi məsafəsi aşağıdakı Cədvəldə verilmişdir.

Cədvəl 7-7. Altlayihə 2-yə yaxın rayonlar üzrə yaşayış məntəqələri

Rayonlar	Yaşayış məntəqəsi	2022-ci ildə əhali	Yaşayış məntəqəsinə nisbi məsafə
500 kV-luq təkdövrəli "Abşeron yarımstansiyası - Nəvahi yarımstansiyası" hava xəttinin tikintisi - 65 km			
Hacıqabul	Nəvahi	3000	1200 m
Qobustan	---		
Qaradağ	Lökbatan	42000	25 km
Abşeron	Qobu	18900	22 km
	Atyali	12000	1.5 km
	28 may	2400	1.5 km
Ümumi		78300	

3) 3-cü altlayihə – 330 kV-luq elektrik verilişi xətlərinin tikintisi

Altlayihə 3 aşağıdakı rayonların ərazisindən keçir: Neftçala, Biləsuvar, Salyan, Hacıqabul, Qobustan, Abşeron və Qaradağ. Layihəyə yaxın və tədqiqat sahəsi daxilindəki yaşayış məntəqələri, eləcə də onların Layihəyə nisbi məsafəsi aşağıdakı Cədvəldə verilmişdir.

Cədvəl 7-8. Altlayihə 3-yə yaxın rayonlar üzrə yaşayış məntəqələri

Yaşayış məntəqələri – rayonlar üzrə – 3-cü altlayihəyə yaxın – 330 kV-luq hava xətlərinin tikintisi:

Rayonlar	Yaşayış məntəqəsi	2022-ci ildə əhali	Yaşayış məntəqəsinə nisbi məsafə
330 kV-luq ikidövrəli Biləsuvar GES - Nəvahi YS hava xətlərinin tikintisi - 90 km			
Biləsuvar	Biləsuvar şəhəri	23600	20 km
Salyan	Aşağı Noxudlu	700	1 km
	Salmanlı	1000	1 km
	Qardili	500	1 km
	Xələc	1300	500 m
	Kürsəngi	400	1 km
Hacıqabul	Nəvahi	3000	1200 km
330 kV-luq təkdövrəli Bankə GES - Nəvahi YS hava xəttinin tikintisi - 80 km			
Neftçala	Bankə	3700	700 m
Salyan	Xıdırlı	10000	500 m
Hacıqabul	Nəvahi	3000	1200 m

7.12.4. Rayonlar üzrə sosial-iqtisadi xülasə

Neftçala

Neftçala rayonu Aran iqtisadi rayonuna daxil olan 18 rayondan biridir. Neftçala neft, qaz və balıqçılıqla tanınır. 2021-ci ilin göstəricilərinə görə rayonda sənaye sahəsində 12 müəssisə fəaliyyət göstərir. Sənaye sahəsində əsasən mədənçıxarma, xam pambığın emalı, qazın təchizatı və bölüşdürülməsi, qeyri məhsullarının istehsalı başlıca yer tutur. Burada neftçıxarma sənayesi, balıqyetişdirmə zavodları və başqa müəssisələr fəaliyyət göstərir. Rayonda texniki yod istehsal edən "Azər-Yod" MMC, xam pambığın emalı üzrə fəaliyyət göstərən "MKT İstehsal Kommersiya" MMC, quş və yumurta istehsal edən "Qaraqaşlı-broyler" ASC, əmtəəlik balıq istehsalı ilə məşğul olan "Xıllı Balıq" MMC fəaliyyət göstərir. Rayonun ərazisində neftlə yanaşı, qaz, yod müalicəvi əhəmiyyətli yodlu sular, xörək duzu kimi faydalı qazıntılar mövcuddur.

330 kV-luq Bankə-Nəvai elektrik verilişi xətti Neftçalanın Şirvanlı kəndindən keçir. Bankə kəndinin ərazisi nisbətən kiçikdir, cəmi 270 ha (Şirvanlıda 1000 ha), əhalisi isə Şirvanlıdan çoxdur (7067 və 540). Şirvanlı kəndində tam orta məktəb və fəaliyyət göstərən kitabxana, tibb bacısı ilə kənd sakinlərinə xidmət göstərən tibb məntəqəsi var. Bankə kəndində tam orta məktəb, uşaq bağçası, klub və kitabxana fəaliyyət göstərir; tibbi xidmətlər iki həkim və yeddi tibb bacısı olan sağlamlıq mərkəzi tərəfindən həyata keçirilir. Hər iki kəndin əsas iqtisadi fəaliyyəti əkinçilik, heyvandarlıq və balıqçılıqdır.

Cədvəl 7-9. Sənaye müəssisələri üzrə əsas texniki-iqtisadi göstəricilər

№	*Müəssisənin adı*	*İstehsal gücü (natural şəkildə və ya min manatla) illər üzrə*			*Ərazisi, ha*
		2011	*2018*	*2030*	
1	*"Azər Yod" MMC (Həsənabad qəsəbəsi)*	*280 t*	*300 t*	*330 t*	*550*
2	*"Ziya" çörək firması*	*220 t*	*240 t*	*270 t*	*0,75*
3	*"Neftçala əməliyyat şirkəti" (Həsənabad qəsəbəsi)*	*14,53 mln man*	*15 mln man*	*18 mln man*	*0,27*
4	*Kürağzı nərə balıqartırma zavodu.*	*6 mln*	*6,5 mln*	*8 mln*	*60*
5	*Bankə Balıq kombinatı*				
6	*Bankə çəllək zavodu*				
7	*Neftçala yanacaq doldurma məntəqəsi.*				
8	*"Leqno- Neftçala"MMC, pambıq zavodu. Qədim kəndi*	*4062 t*	*5000 t*		*4,0*
9	*"Xəzər" MMC, kərpic zavodu*				
10	*"Qaraqaşlı-broyler" ASC*				
11	*"Neftçala-Avtonəqliyyat" ASC*				

Biləsuvar

Rayonun iqtisadiyyatını əsasən kənd təsərrüfatı təşkil edir. Son illərdə ölkə iqtisadiyyatının sürətli inkişafı nəticəsində Biləsuvar rayonunda da kənd təsərrüfatı məhsullarının istehsalı edən sənaye müəssisələri yaradılmışdır ("Biləsvar-Aqro" süd emalı zavodu, "Natural Qreland MMC"-nin konserv zavodu). Bundan əlavə rayonda mebel fabriki, beton zavod fəaliyyət göstərir. 2021-ci ildə mövcud olan

sənaye müəssisələrindən 12-nin fəaliyyəti olmuşdur. Aran iqtisadi rayonunda yerləşən Biləsuvar 1 şəhər və 25 kənddən ibarətdir. İri yaşayış məntəqələri Biləsuvar şəhəri, Xırmandalı, Bəydili və İsmətli kəndləridir.

Salyan

Hökumət tərəfindən maliyyələşdirilən Layihənin keçdiyi Salyan rayonunun ən məskunlaşdığı kənd 1660 ha ərazi ilə Çuxanlıdır (3373 nəfər). Kəndin əhalisi əsasən əkinçilik və heyvandarlıqla məşğuldur. Kənddə 2 natamam və 1 tam məktəb var, tibbi xidmət 1 tibb məntəqəsi və 1 həkim tərəfindən həyata keçirilir. Salmanlı ən böyük kənddir (2140 ha), əhalisi cəmi 950 nəfərdir. Kənddə 1 natamam orta məktəb, 1 tibb bacısı olan 1 tibb məntəqəsi var. Yerli iqtisadiyyat kənd təsərrüfatı, heyvandarlıq və istixana fəaliyyəti arasında bölünür. Yenikənd və Şəkərli kəndlərinin əhalisi, təsərrüfat fəaliyyəti və sosial-iqtisadi xidmətləri ilə bağlı demək olar ki, oxşar məlumatlar var, Yenikənd (3210 ha) ilə Şəkərli (2430 ha) ərazisi cüzi üstünlük təşkil edir. Kəndlərin əhalisi müvafiq olaraq 830 və 870 nəfərdir. Hər iki kəndin sakinlərinin əsas məşğuliyyəti əkinçilik, heyvandarlıq və üzümçülükdür. Hər kənddə 2 məktəb (1 natamam və 1 tam) və 1 həkim məntəqəsi var. Xələc və Abadkəndin əhalisi demək olar ki, eynidir (1320-yə qarşı 1302) və ərazisi (3349-a qarşı 3259). İqtisadi fəaliyyət eynidir - əkinçilik, heyvandarlıq və üzümçülük. Hər iki kəndin əhalisinə hər birində 1 həkim olmaqla 1 tibb məntəqəsi tibbi xidmət göstərir. Xələcdə 2, Abadkənddə 1 məktəb var. Aşağı Noxudlu və Yuxarı Noxudlu müvafiq olaraq 840 ha və 630 ha ərazisi olan iki qonşu kənddir. Aşağı Noxudlunun əhalisi Yuxarı Noxudlunun əhalisindən demək olar ki, iki dəfə çoxdur (2103 və 1004). Hər iki kəndin əsas iqtisadi fəaliyyəti əkinçilik və heyvandarlıqdır. Aşağı Noxudluda 1 tam orta məktəb, Yuxarı Noxudluda 1 natamam orta məktəb var. Hər kənddə AN-da həkim, YN-də isə tibb bacısı olmaqla 1 tibb məntəqəsi fəaliyyət göstərir. Xurşudun əhalisi 985 nəfər, ərazisi 1515 hektardır. Əsas iqtisadi fəaliyyət sahələri əkinçilik və heyvandarlıqdır. 1 natamam orta məktəb və 1 tibb məntəqəsi kənd əhalisinə xidmət göstərir.

Rayonun kənd təsərrüfatının əsasını pambıqçılıq, taxılçılıq, tərəvəzçilik və heyvandarlıq təşkil edir. Quru subtropik meyvəçilik, bostançılıq da mühüm kənd təsərrüfatı sahələridir. Salyan rayonunda plastik kütlə emalı, pambıqtəmizləmə və kərpic istehsalı zavodları fəaliyyət göstərir. Vaxtilə rayonda böyük balıqçılıq təsərrüfatları olub. Hazırda isə respublikada realizə olunan balıq məmulatlarının böyük bir hissəsi Salyanın payına düşür.

Cədvəl 7-10: Salyan rayonuna dair ümumi məlumat

Salyan rayonunun yarandığı tarix	*08.08.1930*
Ərazisi, min kv.km	*1,6*
Əhalinin sayı, min nəfər (2023-cü ilin əvvəlinə)	*138,6*
1 kv.m-ə düşən əhalinin sıxlığı, nəfər	*87*
Salyan rayonu ilə Bakı şəhəri arasında olan məsafə, km	*126*
Şəhər	*1*
Qəsəbələrin sayı	*2*
Şəhər İnzibati Ərazi Dairəsi	*1*
Qəsəbə İnzibati Ərazi Dairəsi	*1*
Kənd İnzibati Ərazi Dairələri	*18*

Kənd yaşayış məntəqələrinin sayı	*48*
Bələdiyyələrin sayı	*20*

Cədvəl 7-11: Salyan rayonu üzrə əsas sosial-iqtisadi göstəricilər

	2018	***2019***	***2020***	***2021***	***2022***
Əhalinin sayı, min nəfər (ilin sonuna)	*138,6*	*135,8*	*136,7*	*137,4*	*138,6*
Hər 1000 doğulan uşaq arasında ölüm halları (1 yaşa qədər)	*17,0*	*17,1*	*8,1*	*8,4*	*8,7*
Qeydə alınmış cinayətlərin sayı, hadisə cəmi:	*262*	*255*	*296*	*402*	*437*
Əhalinin hər 10000 nəfərinə	*19*	*18,3*	*21,1*	*28,5*	*31,7*
Həkimlərin sayı, nəfər	*249*	*243*	*233*	*232*	*219*
Orta tibb işçilərinin sayı, nəfər	*753*	*791*	*787*	*754*	*738*
Xəstəxanaların sayı	*6*	*6*	*6*	*2*	*2*
Xəstəxana çarpayılarının sayı	*503*	*503*	*503*	*440*	*440*
Əhaliyə ambulator-poliklinika yardımı göstərən müalicə müəssisələrinin sayı	*29*	*29*	*29*	*27*	*27*
Ambulator-poliklinik müəssisələrinin gücü	*1797*	*1797*	*1797*	*1797*	*1797*
Əhalinin hər 10000 nəfərinə					
Həkimlər	*18*	*17,4*	*16,5*	*16,4*	*15,8*
Orta tibb işçiləri	*54,3*	*56,5*	*55,9*	*53,2*	*53,3*
Xəstəxana çarpayıları	*36,3*	*35,9*	*35,7*	*31,1*	*31,8*
Ambulator-poliklinik müəssisələrinin gücü	*129,6*	*128,4*	*127,6*	*126,9*	*129,7*
Daimi məktəbəqədər təhsilmüəssisələrinin sayı	*17*	*17*	*17*	*17*	*17*
onlarda uşaqların sayı, nəfər	*799*	*797*	*797*	*765*	*684*
Məktəbəqədər müəssisələrdə hər 100 yerə düşən uşaqların sayı	*91*	*91*	*89*	*85*	*76*
Əyani ümumi təhsil məktəblərinin sayı	*54*	*54*	*54*	*54*	*54*
onlarda təhsilalanların sayı, nəfər	*20725*	*21584*	*22049*	*22341*	*22362*
II növbədə təhsilalanların xüsusi çəkisi, faizlə	*9,1*	*8,2*	*13,6*	*7,8*	*8,3*
Kütləvi kitabxanaların sayı	*44*	*44*	*44*	*45*	*44*

Kitab və jurnalların sayı, min nüsxə	*499,8*	*500,3*	*501,0*	*502,4*	*503,4*
Orta hesabla hər 1000 sakinə düşən kitab və jurnallar, nüsxə	*3606*	*3575*	*3559*	*3548*	*3633*
Peşəkar teatrların sayı	*1*	*1*	*1*	*1*	*1*
Klub müəssisələrinin sayı	*29*	*28*	*28*	*28*	*28*

Hacıqabul

Hacıqabul rayonunun iqtisadiyyatının əsas hissəsini kənd təsərrüfatı təşkil edir. Rayonun iqtisadiyyatında taxılçılıq, pambıqçılıq, tərəvəzçilik, bostançılıq və heyvandarlıq aparıcı rol oynayır. Bununla yanaşı rayonun təsərrüfatlarında qarğıdalı, kartof, meyvə və üzüm məhsulu da istehsal edilir. Hacıqabul rayonu ərazisində şəkər çuğunduru və vələmir bitkilərinin əkininə də başlanılmışdır. Belə ki, cari ildə rayon üzrə 3115,8 hektar sahəyə yazlıq bitkilər, o cümlədən 885,8 hektar sahəyə cari ilin çoxillik otları, 305 hektar sahəyə dən üçün qarğıdalı, 82 hektar sahəyə sorqo, 50 hektar sahəyə vələmir, 518 hektar sahəyə tərəvəz, 471 hektar sahəyə bostan bitkiləri, 40 hektar sahəyə kartof, 504 hektar sahəyə şəkər çuğunduru, 260 hektar sahəyə pambıq əkilmişdir.Keçən ilə nisbətən 2020-ci ildə bəzi yazlıq bitkilərin əkin sahələrində artım müşahidə olunur. Keçən illə müqayisədə cari ilin vələmir sahəsi 85,1 faiz, sorqo sahəsi 9,3 faiz, çoxillik otlar 10,7 faiz, şəkər çuğunduru isə 2,9 dəfə çox olmuşdur. Əkilmiş 28618 hektar sahənin 23898 hektarını və ya 83,5 faizini payızlıq və yazlıq dənli və dənli paxlalı bitkilərin, 518 hektarını və ya 1,8 faizini tərəvəz, 471 hektarını və ya 1,7 faizini ərzaq üçün bostan, 40 hektarını və ya 0,1 faizini kartof, 846 hektarını və ya 3,0 faizini texniki bitkilərin, 2845 (360 hektarı xəsil) hektarını və ya 9,9 faizini keçmiş illərin əkinləri də nəzərə alınmaqla yem bitkilərinin əkin sahəsi təşkil edir.

Layihə çərçivəsində tikiləcək EVX-lər Hacıqabulun cəmi iki kəndini kəsir. Nəvahi kəndinin əhalisi Qızılburundan daha azdır (1800-ə qarşı 1902), lakin ərazisi daha böyükdür (2208 ha qarşı 1600 ha). Hər iki kəndin əhalisi əsasən əkinçilik və heyvandarlıqla məşğuldur. Hər kənddə 1 tam orta məktəb, Nəvaidə 1 körpələr evi var. Hər bir kənddə 1 tibb məntəqəsi var, orada həkim əhaliyə tibbi xidmət göstərir.

İqtisadi fəaliyyətlər və gender seqreqasiyası üzrə digər məlumatlar haqqında ətraflı məlumat kənd səviyyəsində mövcud olan çox məhdud məlumat səbəbindən əldə edilə bilmədi.

Qobustan

Rayonda əkinçilik ənənəvi sahələrdən biridir. Rayon öz əhalisini maksimum səviyyədə taxılla təmin edir. Belə ki, hər il adam başına müntəzəm olaraq 1 tondan artıq taxıl istehsal olunur. Taxılçılıq əsasən dəmyə şəraitində becərilir. Rayonda ildə 40 min tona yaxın taxıl məhsulu əldə olunur ki, bu da heyvandarlığın və quşçuluğun inkişaf etdirilməsi üçün əsaslı zəmin yaradır. Qobustan rayonunun mövcud yay-qış otlaq sahələri burada heyvandarlığın inkişaf etdirilməsi, əsasən qoyunçuluq üçün çox əhəmiyyətlidir. Qış otlaq sahələrinin bitki örtüyü çox zəngindir. Elə bunun nəticəsində sentyabr ayından iyun ayına kimi davarları əlavə xərcə yol vermədən bəsləyib yüksək məhsuldarlığa nail olmaq olar. Hal-hazırda rayonda 179805 baş xırda buynuzlu heyvan mövcuddur. Rayon qoyunçuları əsasən yerli şəraitə yüksək məhsuldarlığa malik olan, yaxşı bala bəsləyən çəki artımı qabiliyyəti olan Qala cinsinə daha çox üstünlük verirlər.

Maldarlıq sahəsi də rayonda aparıcı sahələrdən biridir. Hazırda rayonda qara malın baş sayı 28362 baş təşkil edir. Mal-qara əsasən yerli cinsdən, 20-30% şivis cinsindən olan heyvanlardır. Rayonda quşçuluğu da inkişaf etdirmək üçün əlverişli şərait vardır. Hal-hazırda 67000 min başdan yuxarı quşlar mövcuddur.

Qaradağ

Qaradağ rayonunun ərazisi – 1080 km2 və əhalisi 109371 nəfərdir. Son illər sürətli inkişaf yolu götürmüş bu rayon öz potensialını layiqincə reallaşdırmaqdadır. Belə ki, 11 qəsəbədən ibarət olan Qaradağ respublikanın əsas nəqliyyat şəbəkəsi üzərində yerləşir. Ümumilikdə hesablasaq, bu gün rayon ərazisində 90 sənaye müəssisəsi var ki, onlardan 22-si respublika əhəmiyyətli iri istehsal obyektidir ki, onlardan Hazırda Qaradağ rayonunda iki böyük sement zavodu, Səngəçal terminalı, Yeni Bakı Beynəlxalq Dəniz Ticarət Limanı, Yeni Gəmiqayırma Zavodu, Heydər Əliyev adına Dərin Dəniz Özülləri Zavodu, Qaz Emalı zavodu, metal konstruksiyalar zavodunun adlarını çəkmək olar.

Abşeron rayonunun iqtisadiyyatının əsasını quru və qeyri-münbit torpaqlar səbəbindən ekstensiv kənd təsərrüfatı yolu ilə məhsullarının istehsalı təşkil edir. Kənd təsərrüfatı iki istiqamətdə inkişaf edib: əkinçilik və heyvandarlıq. Burada əkinçiliyin əsas prioritetlərini bağçılıq və əsasən zeytunçuluq təşkil edir. Rayonun 1489 hektarını zeytun bağları, 2132 hektarını isə bağ sahəsi təşkil edir. Zeytun emalının orta illik miqdarı cəmi 1800-2000 ton təşkil edir. Zeytun plantasiyaları əsasən Hövsan, Qala, Bilgəh, Maştağa və Zığ qəsəbələrinin yaxınlığında yerləşir. Rayonda demək olar ki, bütün mal-qara şəxsi təsərrüfatlarda saxlanılır. Qoyunçuluqda yarımqabayunlu və qabayunlu qoyun cinsləri, xüsusilə qala cinsli qoyunlar üstünlük təşkil edir. “Qobu” dəvəçilik üzrə damazlıq dövlət kənd təsərrüfatı istehsalı müəssisəsində dəvələr yetişdirilir. Rayonda donuz əti, mal əti, süd və yun istehsal olunur.

Abşeron rayonunda layihənin keçdiyi üç yaşayış məntəqəsi Qobu, Atyalı və 28 Maydır. Ən böyük yaşayış məntəqəsi olan Qobunun ərazisi 3835 ha, əhalisi isə 18900 nəfərdir. Qəsəbədə üç tam orta məktəb, iki uşaq bağçası və mədəniyyət evi var. Tibbi xidmət üç həkim və dörd tibb bacısı olan poliklinika tərəfindən həyata keçirilir. Qəsəbədə 30 müxtəlif mağaza fəaliyyət göstərir. Yerli əhalinin əsas iqtisadi fəaliyyəti əkinçilik, heyvandarlıq və toxuculuqdur. 28 May və Atyalı kəndlərinin sakinləri müxtəlif sosial-iqtisadi və səhiyyə tədbirləri üçün yaxınlıqdakı Hökməli, Müşviqabad və ya Qobu qəsəbələrinə üz tuturlar.

4) Altlayihə 4: Mövcud yarımstansiyanın genişləndirilməsi işləri

“Abşeron” yarımstansiyasında nəzərdə tutulan genişləndirmə işləri “Azərenerji” ASC-yə məxsus mövcud yarımstansiyanın hüdudlarında həyata keçiriləcək.

7.12.5. EVX-lərin traslarına yaxın yerləşən kəndlərin sosial-iqtisadi vəziyyəti

Alt-layihə 3 (330 kV Bankə GES – Nəvahi YS EVX və 330 kV Biləsuvar GES – Nəvahi YS EVX) öz trassı boyunca Salyan rayonunun 4, Hacıqabulun 2 və Neftçala rayonunun 1 kəndinə yaxın ərazidən keçir.

Neftçala

Bankə qəsəbəsinin ərazisi 279 ha-dır. Əhalisi isə 7067 nəfər təşkil edir. Qadın kişi nisbəti 51/49-dur. Bankə qəsəbəsinin iqlimi quru səhra və yarım səhra iqlimidir. Kür çayı və ona yaxın ərazilərdə geniş əkinçilik tarlaları və otlaqlar var. Xəzər dənizinə yaxın ərazilərin torpaqları şorandır. Ümumiyyətlə qəsəbə dəniz səviyyəsindən 26 və ya 28 metr aşağıdır. Burada yağış ildə 250–400 mm düşür. Qışı mülayim və çoxda soyuq olmur. Əhalinin əsas məşğuliyyəti əkinçilik, heyvandarlıq və balıqçılıqdır. Büdcə təşkilatlarında da xeyli insan işləyir. Qəsəbədə 1 uşaq bağçası, 1 klub, 2 kitabxana, 1 tam orta məktəb, 1 stadion, 1 həkim məntəqəsi, 25 market var. Qəsəbədə 7 tibb bacısı və 2 həkim əhaliyə xidmət göstərir.

Salyan

Xələc və Abadkənd kəndlərinin əhalisi demək olar ki, eynidir (müvafiq olaraq 3349 və 3259 min nəfər) və ərazisi müvafiq olaraq 1320 və 1302 ha-dır). Əhalinin məşğulluğu da oxşardır - əkinçilik, heyvandarlıq və üzümçülük. Hər iki kəndin əhalisinə hər birində 1 həkim olan 1 tibb məntəqəsi tibbi xidmət göstərir. Xələcdə 2, Abadkənddə 1 orta məktəb var.

Həsənli kəndi alt-layihə 3-ün trasının yanından keçdiyi ən az məskunlaşan kənddir və ümumi əhalisi 1500 nəfərdir. Sahəsi 650 hektardır. Kəndlilərin əsas iqtisadi fəaliyyəti əkinçilik və heyvandarlıqdır. Kənddə 1 natamam orta məktəb və 1 tibb bacısı işləyən 1 tibb məntəqəsi fəaliyyət göstərir.

Şəkərli kəndinin əhalisi 2430 nəfər, ərazisi 870 hektardır. Əsas iqtisadi fəaliyyət əkinçilik və heyvandarlıqdır. Kənddə 1 natamam orta məktəb və 1 tam orta məktəb, 1 həkim olmaqla 1 tibb məntəqəsi fəaliyyət göstərir.

Salyan

Cədvəl 7-12: Salyan rayonun layihəyə yaxın kəndləri haqqında məlumat

s/s	Kənd	Sahəsi (ha)	Əhalisi	Əsas məşğulluq		Sosial reseptorlar (məktəb və uşaq bağçası)	Səhiyyə müəsssisəsi
				Qadın	Kişi		
1	Abadkənd	1,302	3,259	əkinçilik, heyvandarlıq və üzümçülük		1 tam orta məktəb	həkimin xidmət göstərdiyi 1 tibb məntəqəsi
2	Xələc	1,320	3,373	əkinçilik, heyvandarlıq və üzümçülük		2 məktəb (1 tam və 1 natamam)	həkimin xidmət göstərdiyi 1 tibb məntəqəsi

3	Şəkərli	870	2,430	əkinçilik, heyvandarlıq və üzümçülük	2 məktəb (1 tam və 1 natamam)	həkimin xidmət göstərdiyi 1 tibb məntəqəsi
4	Həsənli	650	1,500	Əkinçilik və heyvandarlıq	1 natamam orta məktəb	Tibb bacısının xidmət göstərdiyi 1 tibb məntəqəsi

Hacıqabul

Alt-layihə 3 (330 kV Bankə GES – Nəvahi YS EVX və 330 kV Biləsuvar GES – Nəvahi YS EVX) Hacıqabul rayonunun cəmi iki kəndini kəsir. Nəvai kəndinin əhalisi Qızılburundan iki dəfə çox (3561-ə qarşı 1500), kəndlərin ərazisi isə demək olar ki, eynidir (2208 ha qarşı 2100 ha). Hər iki kəndin əhalisi əsasən əkinçilik və heyvandarlıqla məşğuldur. Hər kənddə 1 tam orta məktəb, Nəvaidə 1 körpələr evi var. Hər bir kənddə həkim tərəfindən əhaliyə tibbi xidmətin göstərildiyi 1 tibb məntəqəsi var.

Hər iki kənddə əhali nisbətən orta və yaşlı nəsildən ibarətdir. Əhali ə və heyvandarlıqla məşğuldurlar. Əhali sayında 51% kişilər 49% qadınlar təşkil edir.

s/s	Kənd	Sahəsi (ha)	Əhalisi	Əsas məşğulluq		Sosial reseptorlar (məktəb və uşaq bağçası)	Səhiyyə müəsssisəsi
				Qadın	Kişi		
1	Qızılburun	2,100	1,500	əkinçilik və maldarlıq	Oil sector, farming, animal husbandry	1 tam orta məktəb	həkimin xidmət göstərdiyi 1 tibb məntəqəsi
2	Nəvahi kəndi	2,208	3,561	əkinçilik və maldarlıq		1 tam orta məktəb; 1 uşaq bağçası	həkimin xidmət göstərdiyi 1 tibb məntəqəsi

Alt-layihə 2 və alt-layihə 3-ün trasları boyunca Qobustan və Biləsuvar rayonlarına aid heç bir kənd yoxdur.

7.12.6. İcmanın sağlamlığı və təhlükəsizliyi

Layihə ərazilərində əhalinin sağlamlığına əsasən içməli su təchizatı təsir göstərir. Səhiyyə müəssisələri, o cümlədən sanitar-gigiyenik vəziyyət ümumilikdə yaxşı kimi qiymətləndirilir. Layihə ərazisinə aid olan 6 regionun heç birində su ilə ötürülən xəstəliklərə rast gəlinmir.

Bir neçə donor, o cümlədən Dünya Bankı tərəfindən maliyyələşdirilən milli su təchizatı və kanalizasiya proqramı çərçivəsində hökumətə kənd yerlərində su təchizatı və kanalizasiya şəbəkəsini yaxşılaşdırmaqda köməklik göstərilib. Layihə ərazisinə daxil olan iri şəhərlər və böyük yaşayış məntəqələri üçün bu layihə həyata keçirilməkdə davam edəcək. 2019-cu ilin əvvəlində Su Resurslarının İnteqrasiyalı İdarə Olunması (IWRM) prinsiplərinə və Avropa İttifaqının Su Çərçivəsi Direktivinə uyğun olaraq 2035-ci ilə qədər olan dövr əhatə edəcək Azərbaycan Respublikasının Dövlət Su Strategiyası

qəbul edilmişdir. Bu ərazilərdə insanların baza məktəb təhsili almaq imkanı vardır. Lakin istirahət obyektləri, məsələn, klublar, teatrlar, kino evləri, gimnaziyalar və s. məhdud saydadır.

Layihə ərazisinin bütün rayonlarında Səhiyyə Nazirliyinin regional bölmələri fəaliyyət göstərir. Bölgələrdə həyat fəaliyyətinin təhlükəsizliyinə Gigiyena və Epidemiologiya Mərkəzləri nəzarət edir. Bütün rayonlarda xəstəxanalar, insanların müalicəsi üçün istifadə olunan böyük tibb müəssisələri mövcuddur. Gigiyena və Epidemiologiya mərkəzləri içməli suyun keyfiyyətini yoxlayır, xəstəliklərə səbəb ola biləcək hallarla mübarizə aparır və lazımi tədbirlərin görülməsi üçün müvafiq tövsiyələr hazırlayır. İnfeksiyaya yoluxma halları aşkar edildikdə, onlar rayonun digər səhiyyə müəssisələri ilə birlikdə onlarla mübarizə üçün adekvat tədbirlər görürlər.

Bərk tullantıların idarə olunması başqa bir problem yaradır. Təmizlənməmiş məişət, sənaye, tibbi və kənd təsərrüfatı tullantılarının atılması nəticəsində suyun keyfiyyətinə zərər dəymiş olur. Gübrələrin nizamsız istifadəsi və mal-qara və donuz təsərrüfatlarından heyvan peyininin axıdılması kənd təsərrüfatı çirklənməsi ilə bağlı vəziyyəti daha da ağırlaşdırır. Xüsusən də yazda qar əridiyi zaman bu özünü daha çox büruzə verir (UN-Water, 2007). Bakıda fəaliyyət göstərən yeni sistemlərdən başqa, Layihənin əhatə etdiyi rayonlarda tullantıların böyük hissəsi açıq zibilliklərə yığılır ki, burada da torpağa basdırılan tullantıların çirkləndiriciləri qrunt suları ilə qarışır. Bəzi zibilliklər bilavasitə çayların və çayətrafı ərazilərin kənarında yerləşir və xüsusi diqqət tələb edir.

7.12.7. Tikintidə yol hərəkəti

Hazırda əsas çirklənmə mənbəyi motorlu nəqliyyat vasitələri, neft və qaz, kimya və polad sənayesi, elektrik stansiyaları, kiçik və orta ölçülü müəssisələrdir. Havanı çirkləndirən əsas sektorlar, nəqliyyat və sənaye ən böyük şəhərlərdə cəmləşmişdir. Atmosferə atılan tullantıların 96%-nin mənbəyi olan şəhərlər qrupuna Qaradağ, Abşeron rayonları, Sumqayıt və Mingəçevir şəhərləri daxildir. Lakin, elektrik verilişi xətlərinin ümumi sahəsi bu ərazilərdən kənarda, əsasən az və ya çirklənməmiş kənd ərazilərində yerləşir.

Son onilliklər ərzində ölkədə, xüsusən də kənd yerlərində keyfiyyətsiz yanacaqdan istifadə edən və yaxşı vəziyyətdə olmayan köhnə avtomobillərin sayında kəskin artım müşahidə edilmişdir. Bütün nəqliyyat vasitələrinin 90%-dən çoxunun yaşı 5 ildən artıqdır. Nəqliyyat vasitələrinin orta yaşı təxminən 15 ildir.

Azərbaycanda xüsusilə nəqliyyat, enerji və şəhərsalma layihələrində infrastruktur baxımından əhəmiyyətli inkişaf müşahidə olunur. İşğaldan azad edilmiş ərazilərdə tikinti materialları və yüklərin daşınması üçün Layihənin əhatə etdiyi rayonların yollarından istifadə edilməklə genişmiqyaslı infrastruktur işləri aparılır. Tikinti fəaliyyətindəki bu artım yollarda tikinti ilə bağlı hərəkətin artmasına səbəb olub ki, bu da yerli icmalar üçün yol təhlükəsizliyi, nəqliyyatın sıxlığı kimi fəsadlara yol açır. Bu bölmədə Azərbaycanda tikintidə yol hərəkəti ilə bağlı mövcud vəziyyət və onun təsirini idarə etmək üçün görülən tədbirlər haqqında ümumi məlumat verilir.

Əsas Tikinti Layihələri

Dəmir yolunun modernləşdirilməsi: Bakı-Ağalı dəmir yolu və ölkədaxili dəmir yolu sisteminin təkmilləşdirilməsi kimi layihələr tikinti ilə bağlı yol hərəkətinə öz töhfəsini verir.

Limanın inkişafı: Bakı Limanının genişləndirilməsi və digər sahil infrastrukturu layihələri (Ələt AİZ) Qaradağ rayonunda (Ələt qəsəbəsi) ağır texnikaların hərəkətinin artmasına səbəb olur.

Enerji sektoru

Bərpa Olunan Enerji Layihələri: Külək və günəş enerjisi layihələri, eləcə də bu layihələrlə bağlı olan uzun turbin qanadlarının daşınması tikinti ilə bağlı yol hərəkətinə töhfə verir.

"Azərenerji" Mingəçevir şəhərində Azərbaycan İES (1280 MVt) üçün yeni blokların tikintisini həyata keçirir ki, bu da Mingəçevir şəhərində tikinti ilə bağlı yol hərəkətinin artmasına öz töhfəsini verir.

Regional İnkişaf: Kiçik şəhərlərin və kənd yerlərinin inkişafı təşəbbüsləri də yerli səviyyədə tikinti ilə bağlı yol hərəkətinə öz töhfəsini verir.

Tikintidə yol hərəkətinin təsirləri

Yollarda sıxlıq: Tikinti ilə bağlı yol hərəkətinin artması əsas magistral yollarda, şəhər yollarında və tikinti sahələrinə giriş yollarında, xüsusən də pik saatlarda sıxlığa səbəb olub.

Yol Təhlükəsizliyi: Ümumi istifadədə olan yollarda ağır nəqliyyat vasitələrinin və tikinti texnikasının hərəkət etməsi təhlükəsizliklə bağlı narahatlıqları artırır və bu, yol hərəkətinin daha sərt idarə edilməsini və təhlükəsizlik protokollarını zəruri edir.

Narahatlıq: Səs-küy, toz və nəqliyyatın artan hərəkəti yerli icmalar, xüsusən də böyük tikinti sahələrinin yaxınlığında yerləşən icmalar üçün narahatlıq törədir.

Aparılan tikinti işləri, ağır texnika və iriqabaritli nəqliyyat vasitələri, hərəkət intensivliyi və sıxlığının artması Layihə ərazisində normal yol hərəkəti rejiminə təsir göstərəcək. Layihə ərazisində kifayət qədər inkişaf etmiş yol şəbəkəsinin mövcudluğu və hava xətti dəhlizləri boyunca yerlərə avadanlıq və materialların çatdırılması üçün tələb olunan çeviklik səbəbindən layihə tikintisinə xidmət üçün təklif olunan əsas nəqliyyat vasitələrinin avtomobil nəqliyyatı olacağı gözlənilir.

Aydındır ki, aparılan tikinti işləri bəzi yollarda, xüsusən də yerli yol şəbəkəsində və hərəkət sıxlığının adətən aşağı olduğu daxili yollarda avtomobil hərəkətinin artmasına səbəb olacaq. Tikinti işləri zamanı nəqliyyatın yaşayış məntəqələrinə təsirini minimuma endirmək üçün bir sıra təsirazaldıcı tədbirlər təklif edilməli və Layihənin Tikinti, Ətraf Mühit və Sosial İdarəetmə Planının (TƏMSİP) bir hissəsi kimi müfəssəl Nəqliyyatın İdarə Olunması Planı hazırlanmalıdır. Bu plan (i) tikinti nəqliyyatı vasitələri və sahə mexanizmlər parkının xüsusiyyətlərini müəyyən edəcək, (ii) Layihə çərçivəsində gözlənilən yol hərəkətini təsvir edəcək (səfərlərin tezliyi, iş saatları, konvoylar) və (iii) icmalarda tikinti nəqliyyatı parkının səbəb olduğu narahatlıqları minimuma endirmək və qəza riskini azaltmaq üçün tikinti dövründə həyata keçiriləcək bütün sahəyə aid tədbirləri ətraflı təsvir edəcək.

7.12.8. Əhalinin elektromaqnit (EM) şüalanmasına məruz qalması

Azərbaycanda heç bir enerji obyekti radioaktiv və ionlaşdırıcı şüalarla işləmir. Layihə çərçivəsində bölgədəki yaşayış sahələri və digər əmlaklardan yan keçilməsi, beləliklə də elektromaqnit sahəsinə məruz qalmanın artması ilə bağlı hər hansı narahatlığın minimuma endirilməsi nəzərdə tutulmuşdur.

Azərbaycanda əhalinin Elektromaqnit (EM) şüalanması haqqında təsəvvürləri müxtəlifdir. Buna ictimai məlumatlılıq, elmi məlumatlara çıxış imkanları və mədəni inanclar kimi amillər təsir edir. Yüksək gərginlikli ötürmə xətlərinin və telekommunikasiya infrastrukturunun genişləndirilməsi ilə meydana çıxan elektromaqnit şüalanması səbəbindən potensial sağlamlıq risklərinin yaranması ilə bağlı ictimai narahatlıq artmaqdadır. Bu bölmədə mövcud qavrayışlar və onları formalaşdıran amillər araşdırılır.

İctimai maarifləndirmə və bilik

Məhdud anlayış: Azərbaycanda bir çoxları elektromaqnit radiasiyasının nə olduğu və onun sağlamlığa necə təsir etdiyi barədə məhdud anlayışa malikdir. Geniş ictimaiyyət tez-tez müxtəlif radiasiya növlərini çaşdırmaqla yanlış təsəvvürlərin və yersiz qorxuların yaranmasına səbəb olur.

Sağlamlıqla bağlı narahatlıqlar: Elektromaqnit radiasiyasının potensial sağlamlıq riskləri, xüsusən də xərçəng xəstəliyinə yoluxma, nevroloji xəstəliklər və digər xroniki xəstəliklərə təsiri ilə bağlı geniş yayılmış narahatlıq var. Bu narahatlıqlara çox vaxt elmi araşdırmalardan daha çox mediada dərc olunan məlumatlar və qeyri-rəsmi sübutlar səbəb olur.

Təhsildə boşluqlar. Elektromaqnit radiasiyasını sadə, əlçatan şərtlərlə izah etmək üçün təhsil və ictimai məlumatlandırma tədbirlərində nəzərəçarpacaq bir boşluq var. Bu boşluq rəsmi açıqlamalara və elmi izahatlara inamsızlığa səbəb olur.

Medianın təsiri

- **Sensasiya**: Azərbaycanda mediada bəzən balanslaşdırılmış, elmi əsaslandırılmış məlumatlara istinad olunmadan elektromaqnit radiasiyasının potensial riskləri vurğulana bilər ki, bu da sensasiyaya səbəb ola bilər. Bu, ictimai qorxuları gücləndirə və dezinformasiyaya səbəb ola bilər.
- **Yanlış məlumat**: Sosial media və onlayn platformalar tez-tez elektromaqnit radiasiya ilə bağlı təsdiqlənməmiş məlumat və konspiroloji nəzəriyyələr yayır ki, bu da ictimai qavrayışa və anlayışa daha da mənfi təsir göstərir

Mədəni və Sosial Amillər

Mədəni inanclar: Yeni texnologiyalara qarşı ənənəvi inanclar və mədəni münasibətlər elektromaqnit radiasiyasının necə qəbul edilməsinə təsir edə bilər. Bəzi icmalarda texnoloji irəliləyişlərə və onların potensial gizli təhlükələrinə qarşı ümumi bir şübhə mövcuddur.

Hakimiyyətlərə inam: Hökumətə və elmi orqanlara inam səviyyəsi ictimai rəyin formalaşmasında mühüm rol oynayır. Rəsmi açıqlamalara dair skeptisizmin olduğu bölgələrdə elektromaqnit radiasiyası ilə bağlı layihələrə qarşı ictimai qorxu və müqavimət daha qabarıq şəkildə ifadə oluna bilər.

Hökumət və institusional tədbirlər

Tənzimləmə Standartları: Azərbaycan hökuməti Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) və Qeyri-İonlaşdırıcı Radiasiyadan Mühafizə üzrə Beynəlxalq Komissiya (ICNIRP) kimi təşkilatlar tərəfindən müəyyən edilmiş elektromaqnit radiasiyasına məruz qalma ilə bağlı beynəlxalq standartlara və təlimatlara əməl edir. Lakin əhalinin bu qaydalarla bağlı məlumatlılığı aşağı səviyyədədir.

İctimai İştirak: İctimaiyyətlə əlaqə qurmaq və onların narahatlıqlarını həll etmək səyləri ardıcıl deyildir. Etimad yaratmaq və elektromaqnit radiasiyası məsələlərinə aydınlıq gətirmək üçün hökumət və səhiyyə orqanları tərəfindən daha fəal və şəffaf kommunikasiyanıın aparılmasına ehtiyac vardır.

Elmi Tədqiqat: Davam edən yerli tədqiqatlar və beynəlxalq ekspertlərlə əməkdaşlıq Azərbaycanda elektromaqnit radiasiyasının spesifik təsirlərini daha yaxşı başa düşməyə və sübuta əsaslanan tövsiyələr verməyə kömək edə bilər.

Təsirazaldıcı strategiyalar

Maarifləndirici kampaniyalar: Elektromaqnit radiasiyası, onun mənbələri və sağlamlığa təsirlərinə dair elmi konsensus haqqında ictimaiyyətin məlumatlandırılması məqsədilə hərtərəfli maarifləndirici kampaniyaların həyata keçirilməsi yersiz qorxuları azaltmağa kömək edə bilər. Bu kampaniyalarda məktəblər, icma mərkəzləri və media da daxil olmaqla bir çox kanaldan istifadə edilməlidir.

Şəffaflıq və kommunikasiya: Elektromaqnit radiasiya ilə bağlı hökumətin hərəkətlərində və qərarlarında şəffaflığın artırılması, eləcə də tədqiqat nəticələrinin və monitorinq məlumatlarının ictimaiyyət üçün əlçatan edilməsi ictimai etimadın yaradılmasına kömək edə bilər.

İcmanın iştirakı: Yerli icmaların yeni ötürmə xətləri və ya telekommunikasiya infrastrukturu kimi EM ilə bağlı layihələrin planlaşdırılması və həyata keçirilməsinə cəlb edilməsi narahatlıqları aradan qaldıra və qərar qəbul etmə proseslərində ictimai rəyin nəzərə alınmasına yol aça bilər.

Sağlamlıq Mütəxəssisləri ilə əməkdaşlıq: Xəstələri və ictimaiyyəti EM radiasiyası haqqında maarifləndirmək üçün səhiyyə təminatçıları ilə əməkdaşlıq insanların öz həkimlərinə və səhiyyə sistemlərinə olan etimadını gücləndirə bilər.

Bu amilləri nəzərə almaqla, Azərenerji EM radiasiyası ilə bağlı ictimai qavrayışı və anlayışı yaxşılaşdıra, əsas infrastrukturun genişləndirilməsinin ictimaiyyət tərəfindən razılıqla qarşılanmasını və ictimai narahatlığın azaldılmasını təmin edə bilər.

7.12.9. Əmək və iş şəraiti

Layihənin əhatə etdiyi regionlarda əmək və iş şəraiti müxtəlif sosial-iqtisadi, mədəni və tənzimləyici amillərlə şərtlənir. Son illərdə bu sahədə irəliləyişlər olsa da, qeyri-rəsmi məşğulluq, əmək hüquqlarının qeyri-adekvat müdafiəsi və resurslara və infrastruktura məhdud çıxış da daxil olmaqla bir sıra problemlər qalmaqdadır. Bu bölmədə Layihənin əhatə etdiyi regionlarda əmək və iş şəraitinin cari vəziyyətinin icmalı təqdim edilir.

Məşğulluq modelləri

Kənd təsərrüfatının üstünlüyü: Kəndlərdəki işçi qüvvəsinin əhəmiyyətli bir hissəsi kənd təsərrüfatı ilə məşğuldur və bu, əsas məşğulluq mənbəyi olaraq qalır. Buraya bitkiçilik, heyvandarlıq və bağçılıq daxildir.

Mövsümi məşğulluq: Bir çox kənd təsərrüfatı işləri mövsümi xarakter daşıyır ki, bu da işsizlik və ya pik təsərrüfat mövsümlərindən başqa natamam məşğulluq dövrlərinə səbəb olur. Bu, kənd işçilərinin gəlirlərinin stabilliyinə və maliyyə təminatına təsir göstərir.

Qeyri-rəsmi sektor: Kənd yerlərində məşğulluğun böyük faizi qeyri-rəsmi sektorun payına düşür ki, burada işçilər çox vaxt rəsmi müqavilələr, sosial təminat və hüquqi müdafiədən məhrum olunurlar. Bu sektora kiçik fermer təsərrüfatı, yerli bazarlar və ailə biznesi daxildir.

İş şəraiti

Əmək haqqı və müavinətlər: Kənd yerlərində maaşlar ümumiyyətlə şəhər mərkəzlərinə nisbətən aşağıdır və bir çox işçilər səhiyyə, pensiya və ya ödənişli məzuniyyət kimi imtiyazlara malik deyillər. Kənd yerlərində yaşayış xərcləri də aşağıdır ki, bu da aşağı əmək haqqını qismən kompensasiya edir, lakin maliyyə rifahı baxımından problem olaraq qalır.

İş saatları: Kənd təsərrüfatı işləri çox vaxt uzun və qeyri-müntəzəm saatlar tələb edir, xüsusən əkin və məhsul yığımı mövsümlərində. İşçilər məhdud istirahət müddətləri ilə səhər tezdən axşama qədər işləyə bilərlər.

Sağlamlıq və təhlükəsizlik: Əməyin mühafizəsi və təhlükəsizlik standartları çox vaxt kənd yerlərində ciddi şəkildə tətbiq edilmir. İşçilər müxtəlif risklərə, o cümlədən ağır maşınlar, pestisidlər və fiziki cəhətdən çətin işlərə məruz qalırlar. Səhiyyə müəssisələrinin əlçatanlığı məhduddur ki, bu da sağlamlıq risklərini daha da artırır.

Uşaq əməyi: Uşaqların ailə gəlirlərini dəstəkləmək üçün kənd təsərrüfatı işlərinə cəlb edildiyi bəzi kənd yerlərində uşaq əməyi problem olaraq qalmaqdadır. Bu, onların təhsilinə və uzunmüddətli perspektivlərinə təsir edir.

Hüquqi və tənzimləyici çərçivə

Əmək qanunvericiliyi: Azərbaycanda iş şəraiti, əmək haqqı və işçilərin hüquqlarını tənzimləyən əmək qanunvericiliyi mövcuddur. Bununla belə, hökumətin iştirakı və resurslarının məhdud olması səbəbindən kənd yerlərində qanunların icrası çox vaxt zəif olur.

İşçilərin hüquqları: Kənd işçiləri arasında əmək hüquqları haqqında məlumatlılıq ümumiyyətlə aşağı səviyyədədir. Həmkarlar ittifaqları və işçi assosiasiyaları şəhər yerləri ilə müqayisədə kənd yerlərində o qədər geniş yayılmış və ya effektiv deyil.

Hökumət təşəbbüsləri: Azərbaycan hökuməti kənd yerlərində əhalinin güzəranının yaxşılaşdırılması üçün müxtəlif proqramlara, o cümlədən kənd təsərrüfatına subsidiyaların ayrılmasına, təlim proqramlarının icrasına və kənd yerlərinin inkişafı üzrə layihələrin həyata keçirilməsinə başlayıb. Bu təşəbbüslər məhsuldarlığı və iş şəraitini yüksəltmək məqsədi daşıyır, lakin heç də bütün yerlərdə eyni müvəffəqiyyətlə icra olunmayıb.

Sosial və iqtisadi çağırışlar

Yoxsulluq: Kənd yerlərində yoxsulluq səviyyəsi şəhər mərkəzlərinə nisbətən daha yüksəkdir. Kənd yerlərində bir çox ailə təsərrüfatları natural təsərrüfatla məşğul olmaqla bazara, kreditlərə və maliyyə xidmətlərinə məhdud çıxışa malikdirlər.

Miqrasiya: Xüsusilə daha yaxşı iş imkanları axtaran gənclər arasında kənddən şəhərə miqrasiya tendensiyası müşahidə olunur. Bu miqrasiya prosesi kənd yerlərində işçi qüvvəsinin çatışmazlığına səbəb ola və ənənəvi kənd təsərrüfatı təcrübələrini sıradan çıxara bilər.

Təhsil və bacarıqlar: Kənd yerlərində keyfiyyətli təhsilə və peşə hazırlığına çıxış məhduddur ki, bu da işçi qüvvəsinin bacarıq səviyyələrinə mənfi təsir göstərir. Bu, daha yüksək maaşlı iş və iqtisadi artım imkanlarını məhdudlaşdırır.

7.13 Mədəni irs

Nəzərdə tutulan Nəvahi-Abşeron elektrik hava xəttinin yaxınlığında yerləşən mədəni əhəmiyyətli obyekt 2007-ci ildə Ümumdünya İrs Siyahısına daxil edilmiş və UNESCO-nun Mədəni Mülkiyyətin Mühafizəsi Komitəsinin 2019-cu ilin dekabrında Parisdə keçirilmiş səkkizinci sessiyası zamanı gücləndirilmiş mühafizə statusunu almış Qobustan Qaya Sənəti Mədəni Landşaftıdır. Məsul dövlət qurumu Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin Mədəni İrs Şöbəsidir. Qoruq hər il dünyanın onlarla ölkəsindən yüzlərlə turisti cəlb edir.

Şəkil 7-16-da göstərildiyi kimi, rəsmi olaraq Qobustan Milli Parkının bir hissəsi olan və Ümumdünya İrs Siyahısına daxil edilmiş Qobustan Qaya Sənəti Mədəni Landşaftı hava xəttindən təxminən 10 km şimal-şərqdə yerləşən, qiymətsiz tarixi eksponatların böyük kolleksiyasına malik açıq səma altında muzeydir. Bu, Böyük Qafqaz dağ silsiləsinin cənub-şərq ucunu əhatə edən təpəli və dağlıq ərazidir. Bu ərazi tarixdən əvvəlki dövrlərə aid ovçuluq, fauna, flora və həyat tərzi barədə məlumatların əks olunduğu qayaüstü təsvirlər toplusu kimi və tarixdən əvvəlki dövr və orta əsrlər arasındakı mədəni davamlılığa dair əsaslı sübut kimi universal dəyərə malikdir. Qobustan qoruğunda aparılan arxeoloji tədqiqatlar nəticəsində 1000 ədəd qaya üzərində altı mindən çox oyma, qədim yaşayış məskənləri-mağaralar, 40-a yaxın kurqan və 100 mindən çox maddi mədəniyyət obyekti aşkar edilmişdir. Ən qədim oymalar Mezolit dövrünə aiddir.

Şəkil 7-21: Hava xəttinin yeri və Qobustan Qaya Sənəti Mədəni Landşaftına qədər olan məsafə

Ərazinin əsas turistik yerlərindən biri dünyaca məşhur palçıq vulkanlarıdır. Bu vulkanların əksəriyyəti Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən qorunur. Onlar ölkə prezidentinin sərəncamı ilə təbii sərvətlər elan edilib. Bu, unikal dəyərə malik olmaqla turistlər üçün cəlbedici ərazidir. HX-lərin yaxınlığında aşkarlanmış dörd vulkandan Qoturdağ və Daşgil turistlərin marağını cəlb edən təbii sərvət hesab edilir; bu vulkanlar HX-dən 3 km cənubda və təxminən 2 km şimal-qərbdə yerləşir (Şəkil 7-17).

Şəkil 7-22: Hava xətlərinin trassası və mühüm palçıq vulkanlarının yeri (Qoturdağ və Daşgil)

8. ƏTRAF MÜHİTƏ VƏ SOSİAL SAHƏYƏ POTENSİAL TƏSİRLƏR

Ətraf mühitə və Sosial Sahəyə Təsirlərinin Qiymətləndirilməsi (ƏMSSTQ) təklif olunan layihə ilə əlaqəli potensial ekoloji və sosial təsirləri sistemli şəkildə müəyyən edərək qiymətləndirib. Bu proses layihənin bütün mərhələlərində, o cümlədən tikinti və istismar zamanı birbaşa və dolayı təsirlərin hərtərəfli təhlilini əhatə edib. Əsas potensial ekoloji təsirlər havanın və suyun keyfiyyətində dəyişikliklər, torpaq aşınması, yaşayış mühitinin pozulması və biomüxtəlifliyin itirilməsindən ibarət olub. Sosial təsirlər icma əsaslı sağlamlıq və təhlükəsizliyə, yerdəyişməyə, iqtisadi imkanlara və mədəni irsə təsir baxımından qiymətləndirilib. Müvafiq layihə ilə ərazidəki mövcud və ya planlaşdırılan layihələr arasındakı qarşılıqlı əlaqə nəticəsində yarana bilən kumulyativ təsirlərə xüsusi diqqət yetirilib. Potensial təsirlərin müəyyən edilməsi ilkin vəziyyət məlumatlarına, maraqlı tərəflərlə məsləhətləşmələrə və ekspert qiymətləndirmələrinə əsaslanıb. Bu hərtərəfli yanaşma bütün mühüm təsirlərin erkən müəyyən edilməsini təmin edərək ətraf mühit və yerli icmalar üçün mənfi nəticələri minimuma endirmək və müsbət təsirləri artırmaq məqsədilə effektiv təsirazaldıcı və idarəetmə strategiyalarının işlənib hazırlanmasına imkan yaradıb.

8.1 Ekoloji və sosial resurslar və reseptorlar

ƏMSSTQ prosesi təklif olunan layihənin təsirinə məruz qala biləcək ekoloji və sosial resursları və reseptorları diqqətlə müəyyənləşdirib və qiymətləndirib. Buraya təbii mühit, məsələn, havanın keyfiyyəti, su ehtiyatları, torpaq, biomüxtəliflik və ekosistemlər, həmçinin yerli icmaları, mədəni irs obyektlərini və sosial-iqtisadi şəraiti əhatə edən sosial mühit daxildir. Əsas ekoloji resurslar flora və faunaya, xüsusən mühafizə olunan növlərə və həssas yaşayış mühitlərinə potensial təsirlər baxımından qiymətləndirilib. Dayanıqlı istifadəni və çirklənmədən mühafizəni təmin etmək üçün həm səth sularının, həm də yeraltı suların keyfiyyəti və mövcudluğu qiymətləndirilib.

Layihənin ƏMSSTQ mərhələsi zamanı potensial olaraq Layihənin təsirinə məruz qala biləcək icmaları və maraqlı tərəfləri müəyyən etmək və anlamaq üçün sosial reseptorların xəritələşdirilməsi vacib addımdır. Sosial reseptorlara yerli sakinlər, müəssisələr, məktəblər, səhiyyə müəssisələri daxildir və layihə çərçivəsindəki fəaliyyətlərin birbaşa və ya dolayı təsirinə məruz qala biləcək həssas qruplara, məsələn, uşaqlara, yaşlılara və qadınlara xüsusi diqqət yetirilir. Bu proses qarşılıqlı əlaqə və təsir sahələrini müəyyənləşdirmək üçün hərtərəfli demoqrafik məlumatların toplanmasını, maraqlı tərəflərlə məsləhətləşmələri və sosial məkanın təhlilini əhatə edir. Sosial reseptorları layihənin ilkin mərhələlərində müəyyən etməklə biz onların narahatlıqlarının və ehtiyaclarının layihənin planlaşdırılmasına və layihələndirməyə inteqrasiyasını təmin edə bilərik. Bu yanaşma mənfi sosial təsirləri minimuma endirmək, bununla da Layihənin ümumi sosial məqbulluğunu və dayanıqlılığını artırmaq üçün icmanın iştirakını təşviq edir, şəffaflığı artırır və məqsədyönlü təsirazaldıcı strategiyaların hazırlanmasına kömək edir.

Mədəni irs obyektləri xəritələşdirilib və onları layihə ilə əlaqəli fəaliyyətlərdən mühafizə etmək üçün tədbirlər hazırlanıb. Potensial olaraq Layihənin təsirinə məruz qala biləcək mühüm mədəni, tarixi və arxeoloji sərvətləri müəyyənləşdirmək və mühafizə etmək üçün mədəni irs obyektlərinin xəritələşdirilməsi vacibdir. Mədəni irs obyektlərinin xəritələşdirilməsi prosesi layihə ərazisində maddi və qeyri-maddi resursların hərtərəfli araşdırılması və sənədləşdirilməsini, müvafiq maraqlı tərəflərlə məsləhətləşmələri əhatə edib. Bu resurslara tarixi tikililər, abidələr, arxeoloji obyektlər, müqəddəs landşaftlar və yerli icmalar üçün mədəni əhəmiyyət kəsb edən ərazilər daxildir.

Ekoloji və sosial konteksti dərindən dərk etməklə, ƏMSSTQ effektiv təsirazaldıcı strategiyaların hazırlanması üçün zəmin yaradır və layihənin dayanıqlı, ədalətli şəkildə icra edilməsini və həm təbii, həm də insan yaşayış mühitinə hörmətlə yanaşmasını təmin edir.

8.2 Ekoloji, sosial, sağlamlıq və mədəni irslə bağlı təsirlər

Təklif olunan Layihənin hərtərəfli qiymətləndirmə və idarəetmə tələb edən bir neçə ekoloji, sosial, sağlamlıq və mədəni irslə bağlı təsirlərə səbəb olacağı gözlənilir. Ekoloji cəhətdən elektrik veriliş xətlərinin çəkilməsi və istismarı yaşayış yerlərinin parçalanmasına, torpaq aşınmasına və yerli canlı təbiət dəhlizlərinin pozulmasına səbəb ola bilər. Bu təsirlər, əsaslı təsirazaldıcı tədbirlərin görülməsini, məsələn, meşələrin bərpası, aşınmaya nəzarət üsulları və canlı təbiət keçidlərinin yaradılmasını zəruri edir.

Layihə, sosial baxımdan, torpağın alınması, yerdəyişmə və istifadədə olan torpaqdan istifadədə dəyişiklik yolu ilə yerli icmalara təsir göstərə bilər. Təsirə məruz qalan icmaların cəlb olunması onların problemlərini həll etmək, ədalətli kompensasiyanı təmin etmək və dolanışıq vasitələrinin bərpası proqramlarını həyata keçirmək üçün vacibdir. Bundan əlavə, işçilərin axını və hərəkət intensivliyinin artması yerli infrastruktur və xidmətlərin həddindən artıq yüklənməsinə səbəb ola bilər ki, bu da ictimai obyektlərin diqqətlə planlaşdırılmasını və dəstəklənməsini tələb edir.

Sağlamlığa təsirlər tikinti və istismar mərhələlərində elektromaqnit sahələrinə (EMS), səs-küyə və toza potensial məruz qalmadan ibarətdir. Elektrik veriliş xətlərindən elektromaqnit sahələrə məruz qalma ümumiyyətlə beynəlxalq təhlükəsizlik qaydalarına uyğun olsa da, icmanın narahatlıqlarının aradan qaldırılması üçün davamlı monitorinq və ictimaiyyətin məlumatlandırılması çox vacibdir. Toz və səs-küyə nəzarət tədbirləri, həmçinin işçilər üçün sağlamlıq və təhlükəsizlik protokollarına riayət etmək sağlamlığa mənfi təsirləri minimuma endirəcək.

Mədəni irsə təsirlər də mühümdür, çünki elektrik veriliş xətti trassaları arxeoloji, tarixi və ya mədəni əhəmiyyətə malik ərazilərdən keçə bilər. Trassaları diqqətlə seçməklə, bufer zonaları yaratmaqla və mədəni irs ekspertləri və yerli icmalarla əməkdaşlıq etməklə bu obyektlərin xəritələşdirilməsi və qorunması bu dəyərli resursların mühafizəsinə kömək edəcək. Mədəni irsə təsirlərin hörmətlə və yerli adət və qanunvericilik tələblərinə uyğun olaraq idarə edilməsini təmin etmək təsirə məruz qalan ərazilərin mədəni bütövlüyünün qorunması üçün vacibdir.

Təsirlərin əhəmiyyəti – Ümumi yanaşma

Ekoloji və sosial təsirlərin əhəmiyyəti, bir qayda olaraq, reseptorun "dəyərindən" və ya "həssaslığından" və təsirin "böyüklüyündən" və ya "miqyasından" asılıdır.

Reseptorun dəyərə həssaslığı

Reseptorun həssaslığı onun əhəmiyyəti, yəni ekoloji dəyəri / xüsusiyyətləri ilə bağlıdır. Həssaslıq ümumiyyətlə konkret bir sahəyə xasdır və reseptorun dəyişikliklərə uyğunlaşma qabiliyyətindən asılıdır. Həssaslıq, obyekt təsirə məruz qaldığı halda, onun bərpa olunmaq qabiliyyətini əks etdirir və aşağıdakı amillərlə müəyyən edilir:

- Uyğunlaşma qabiliyyəti – reseptorun təsirdən qaça, ona uyğunlaşa və ya təsirə məruz qaldıqdan sonra bərpa oluna bilmə dərəcəsidir.

- Tolerantlıq – reseptorun müvəqqəti və ya daimi dəyişikliklərə uyğunlaşma qabiliyyətidir.
- Bərpa olunma qabiliyyəti – reseptorun təsirə məruz qaldıqdan sonra bərpa olunma müddəti və dərəcəsidir.

Layihə üzrə qiymətləndirmə məqsədləri üçün reseptorun həssaslığını müəyyən etmək üçün ümumi meyarlara dair təlimatlar aşağıdakı Cədvəldə təqdim edilir. Prinsipcə, reseptorun həssaslığının qiymətləndirilməsi, təklif olunan layihənin təsirinə məruz qalan müvafiq əraziyə fərdi yanaşma əsasında peşəkar mütəxəssislər tərəfindən tətbiq olunan mühakimə mövzusudur.

Cədvəl 8-1: Reseptorun həssaslığını/dəyərini müəyyən etmək üçün ümumi meyarlar və səciyyəvi xüsusiyyətlər

Reseptorun həssaslığı / dəyəri	**Təsvir - səciyyəvi xüsusiyyətlər**
Çox yüksək	*Reseptorun dəyişikliklərə (təsirlərə) uyğunlaşmaq qabiliyyəti çox məhduddur və ya ümumiyyətlə yoxdur - çox yüksək əhəmiyyətlidir və nadirdir, beynəlxalq miqyaslıdır və əvəz edilmə/dəyişdirilmə potensialı çox məhduddur.*
Yüksək	*Reseptorun dəyişikliklərə (təsirlərə) uyğunlaşmaq qabiliyyəti məhduddur - yüksək əhəmiyyətlidir və nadirdir, milli miqyaslıdır və əvəz edilmə/dəyişdirilmə potensialı məhduddur*
Orta	*Reseptorun dəyişikliklərə (təsirlərə) uyğunlaşmaq qabiliyyəti məhduddur - yüksək və ya orta əhəmiyyətlidir və nadirdir, regional miqyaslıdır və əvəz edilmə/dəyişdirilmə potensialı məhduddur.*
Aşağı	*Reseptorun dəyişikliklərə (təsirlərə) uyğunlaşmaq qabiliyyəti ortadır - aşağı və ya orta əhəmiyyətlidir və nadirdir, yerli miqyaslıdır və potensial olaraq əvəz edilə/dəyişdirilə biləndir.*
Çox aşağı	*Reseptor ümumiyyətlə dəyişikliklərə və ya təsirlərə qarşı tolerantdır və onlara uyğunlaşa bilir - çox aşağı əhəmiyyətlidir və nadirdir, yerli miqyaslıdır, müəyyən edilmir və asanlıqla əvəz edilmir/dəyişdirilmir.*

Təsirin böyüklüyü və ya miqyası

Təsirin böyüklüyü adətən aşağıdakı bir sıra amillərlə müəyyən edilir, lakin bunlarla məhdudlaşmır:

- Məkan – təsirin baş verdiyi ərazi.
- Müddət – təsirin baş verdiyi vaxt.
- Ehtimal – baş vermə ehtimalı.
- Geri qaytarıla bilmə qabiliyyəti – ilkin vəziyyətinə qayıtmaq qabiliyyəti.
- İntensivlik – mövcud ekoloji şəraitlə əlaqəli dəyişiklik dərəcəsi.

Ətraf mühitin müxtəlif elementləri üçün səciyyəvi bir təsir qiymətləndirmə matrisası Layihənin təsirin qiymətləndirilməsi prosesinə rəhbərlik etmək üçün hazırlanıb və aşağıdakı Cədvəldə təqdim olunur.

Cədvəl 8-1: Səciyyəvi təsir qiymətləndirmə matrisası

Təsirin böyüklüyünü müəyyən edən amil	Təsvir - səciyyəvi xüsusiyyətlər	
Məkan (Təsir dairəsi)	Məhdud (yarımstansiya ərazisində və ya hava ötürmə xətləri dəhlizi boyunca)	Layihənin tikinti və istismar ərazisində və ərazinin ətrafında
	Yerli	Bələdiyyə / qonşu bələdiyyələr daxilində
	Regional	Azərbaycan və qonşu ölkələr
	Qlobal	Qitə və daha geniş miqyasda
Müddət	Çox qısa	Bir neçə dəqiqədən bir neçə saata qədər
	Qısa	Bir neçə saatdan bir neçə həftəyə qədər
	Orta müddət	Bir neçə həftədən bir neçə aya qədər
	Uzun	Bir neçə aydan bir neçə ilə qədər
	Çox uzun	Onilliklər / əsrlər
Baş vermə ehtimalı (Ehtimal)	Ehtimal yoxdur	Normal istismar fəaliyyət və şəraitdə baş verməməlidir
	Aşağı ehtimal	Mümkündür, lakin ehtimal azdır
	Orta ehtimal	Bəzən baş verə bilər
	Yüksək ehtimal	Layihənin həyat dövrü ərzində baş vermək ehtimalı var
	Mütləq ehtimal	Baş vermə ehtimalı mütləqdir
Geri qaytarıla bilmə qabiliyyəti	Əvvəlki vəziyyətə geri qaytarıla bilən (təsir)	Resurs / reseptor üzərində əvvəlki vəziyyətə geri qaytarıla bilən təsir, yəni ətraf mühitin əvvəlki vəziyyətə geri qaytarıla biləcəyi təsir
	Əvvəlki vəziyyətə geri qaytarıla bilməyən (təsir)	Resurs / reseptor üzərində əvvəlki vəziyyətə geri qaytarıla bilməyən təsir, yəni ətraf mühitin əvvəlki vəziyyətə geri qaytarıla bilməyəcəyi təsir
İntensivlik	A (çox aşağı / əhəmiyyətsiz)	Resursa / reseptora zərər vermədən heç bir dəyişiklik baş vermir və ya əhəmiyyətsiz zəif təsir baş verir
	B (aşağıdan ortaya)	Təsir ölçülə biləndir, lakin düzgün planlaşdırma ilə resursa / reseptora zərər vermir
	C (ortadan yüksəyə)	Təsir əhəmiyyətlidir, lakin müvafiq tədbirlər görməklə nəzarət edilə biləndir
	D (çox yüksək)	Təsir resursa / reseptora zərər verir
	E (kompensasiya)	Təsir kompensasiya tədbirləri tələb edir

Qiymətləndirmə məqsədləri üçün təsirin böyüklüyünü müəyyən etmək baxımdan səciyyəvi meyarlar və xüsusiyyətlər aşağıdakı Cədvəldə təqdim edilir. Bu Cədvəldə ümumi xarakterli təlimatlar verilsə də, qeyd etmək lazımdır ki, zəruri hesab edildiyi təqdirdə, təsirin böyüklüyü ilə bağlı konkret mövzular üçün xüsusi təlimatlar tələb oluna bilər.

Cədvəl 8-2: Təsirin böyüklüyünü / miqyasını müəyyən etmək üçün ümumi meyarlar və səciyyəvi xüsusiyyətlər

Təsirin böyüklüyü	Təsvir - səciyyəvi xüsusiyyətlər
Yüksək	Resursun və/yaxud resursun keyfiyyətinin və bütövlüyünün itirilməsi; əsas xüsusiyyətlərə, keyfiyyətlərə və ya elementlərə ciddi zərər (Mənfi)

Təsirin böyüklüyü	Təsvir - səciyyəvi xüsusiyyətlər
	Resursun geniş miqyaslı və ya əhəmiyyətli dərəcədə yaxşılaşdırılması; geniş miqyaslı bərpa və ya təkmilləşdirmə, xüsusiyyətlərin keyfiyyətinin əhəmiyyətli dərəcədə yaxşılaşdırılması (Faydalı)
Orta	Resursun itirilməsi, lakin bütövlüyə təsir etməməsi, əsas xüsusiyyətlərin, keyfiyyətlərin və ya elementlərin qismən itirilməsi/zədələnməsi (Mənfi)
	Əsas xüsusiyyətlərə, keyfiyyətlərə və ya elementlərə müsbət təsir və ya əlavələrin edilməsi; xüsusiyyətlərin keyfiyyətinin yaxşılaşdırılması (Faydalı)
Aşağı	Xüsusiyyətlərdə, keyfiyyətdə və ya həssaslıqda ölçülə bilən bəzi dəyişikliklər, bir (bəlkə də bir neçə) əsas xüsusiyyətin, keyfiyyətin və ya elementin cüzi itirilməsi və ya dəyişməsi (Mənfi)
	Bir (bəlkə də bir neçə) əsas xüsusiyyətə, keyfiyyətə və ya elementə cüzi müsbət təsir və ya əlavələrin edilməsi, keyfiyyət üzərində müəyyən faydalı təsir və ya mənfi təsirin baş vermə riskinin azalması (Faydalı)
Çox aşağı	Bir və ya bir neçə xüsusiyyət, keyfiyyət və ya elementdə çox cüzi itki və ya zərərli dəyişiklik (Mənfi)
	Bir və ya bir neçə xüsusiyyətə, keyfiyyət və ya element üzərində çox cüzi müsbət təsir və ya əlavələr (Faydalı)
Heç biri / dəyişiklik yoxdur	Xüsusiyyətlərin, keyfiyyətlərin və ya elementlərin itirilməməsi və ya dəyişməməsi, hər iki istiqamətdə nəzərə çarpan təsirin olmaması

Layihənin ətraf mühitə təsirlərini qiymətləndirərkən təsirin əhəmiyyəti həm tikinti, həm də istismar mərhələsində nəzərə alınır. Aşağıdakı hallarda təsirlərin əhəmiyyətli olması ehtimalı var:

- Geniş məkanı və ya zamanı əhatə etdikdə və ətraf mühitin assimilyasiya qabiliyyəti ilə əlaqədar intensiv olduqda.
- Ekoloji və ya sanitar standartları və ya hədləri aşdıqda.
- Ekoloji və sosial siyasətlərə / torpaqdan istifadə planlarına əməl etmədikdə.
- Ekoloji cəhətdən həssas / mühüm ərazilərə və ya təbii irs resurslarına mənfi təsir göstərdikdə.
- İcmanın həyat tərzinə, ənənəvi torpaqdan istifadəyə və dəyərlərə mənfi təsir göstərdikdə.

Potensial təsirin əhəmiyyəti (və ya səviyyəsi) onun proqnozlaşdırılan böyüklüyü və təsirə məruz qalan resursun / reseptorun həssaslığı / dəyəri ilə bağlıdır. Reseptorun həssaslığı nə qədər yüksəkdirsə və miqyas nə qədər böyükdürsə, təsir də bir o qədər əhəmiyyətli olur. Təsiri əhəmiyyəti müəyyən bir kontekstdə müəyyənləşdirilməlidir və nisbi və müəyyən dərəcədə subyektiv ola bilər.

Ümumiyyətlə, təsir aşağıdakı əhəmiyyətlilik kateqoriyalarına (aşağıdakı Cədvəl) bölünə bilər:

- Əhəmiyyətsiz (neytral): ətraf mühitdə aşkar edilə bilən dəyişiklik baş vermir;
- Cüzi: ətraf mühitdə aşkar edilə bilən, lakin qeyri-maddi dəyişiklik baş verir;
- Orta: ətraf mühitdə maddi, lakin əsas olmayan dəyişiklik baş verir;
- Əhəmiyyətli: ətraf mühitdə əsas dəyişiklik baş verir.

Cədvəl 8-3: Səciyyəvi təsirin əhəmiyyəti matrisası

Reseptorun həssaslığı	Təsirin böyüklüyü				
	Yüksək	Orta	Aşağı	Çox aşağı	Yoxdur
Çox yüksək	Əhəmiyyətli	Əhəmiyyətli	Orta	Orta	Əhəmiyyətsiz
Yüksək	Əhəmiyyətli	Orta	Orta	Cüzi	Əhəmiyyətsiz
Orta	Orta	Orta	Cüzi	Cüzi	Əhəmiyyətsiz
Aşağı	Cüzi	Cüzi	Cüzi	Əhəmiyyətsiz	Əhəmiyyətsiz
Çox aşağı	Cüzi	Əhəmiyyətsiz	Əhəmiyyətsiz	Əhəmiyyətsiz	Əhəmiyyətsiz

Yuxarıdakı Cədvəl resursun və ya reseptorun həssaslığı / dəyəri ilə dəyişikliyin böyüklüyünün təsirin əhəmiyyətlilik kateqoriyasını necə yaratdığını göstərir.

Təsirin əhəmiyyətini müəyyənləşdirmək üçün hava və ya suyun keyfiyyəti, səs-küy, elektromaqnit şüalanması kimi bəzi mövzularda kəmiyyət baxımından ölçülə bilən (ölçülə bilən) hədlər və ya qanunla müəyyən edilmiş meyarlardan istifadə edilə bilər. Buna baxmayaraq, biomüxtəliflik və ya landşaft kimi digər mövzularda kəmiyyət və keyfiyyət əsaslı meyarlardan istifadə etmək zəruridir – hər bir halda peşəkar mühakiməyə əsaslanılmalıdır.

Təsirin əhəmiyyətinin müəyyən edilməsi əsaslandırılmış arqumentə, peşəkar mühakiməyə və səlahiyyətli təşkilatların fikir və tövsiyələrinin nəzərə alınmasına əsaslanır. Hər bir təsiri dörd əhəmiyyətlilik kateqoriyasından birinə təsnif etmək, birbaşa müqayisəyə imkan vermək üçün müxtəlif mövzulardakı məsələləri eyni bir şkalaya düzməyə imkan verir. Dörd əhəmiyyətlilik kateqoriyası aşağıdakı Cədvəldə təsvir olunur. Təsirin əhəmiyyətini müəyyən edərkən qiymətləndirici onun birbaşa və ya dolayı, qısamüddətli, orta və ya uzunmüddətli, daimi və ya müvəqqəti, müsbət və ya mənfi və ya kumulyativ olub-olmadığını da nəzərə almalıdır.

Cədvəl 8-4: Təsirin səciyyəvi əhəmiyyətlilik kateqoriyaları və onların qərar qəbuletmə aspektləri

Təsir əhəmiyyətlilik kateqoriyası	Səciyyəvi meyarlar	Təsvir - səciyyəvi xüsusiyyətlər
Əhəmiyyətli	Ətraf mühitdə əsas dəyişiklik	Normal şəraitdə yalnız mənfi təsirlərə bu əhəmiyyətlilik səviyyəsi təyin edilir və qərar qəbul etmə prosesində əsas amilləri təmsil edir. Bu təsirlər adətən, lakin müstəsna olaraq, ən zərərli təsirlərə və bütövlüyün itirilməsinə məruz qala bilən beynəlxalq, milli və ya regional əhəmiyyətli əraziləri və ya obyektləri əhatə edir. Lakin yerli əhəmiyyətli ərazidəki və ya obyektdəki əhəmiyyətli dəyişiklik də bu kateqoriyaya aid edilə bilər.
Orta	Ətraf mühitdə maddi, lakin əsas olmayan dəyişiklik baş verir	Bu faydalı və ya mənfi təsirlər vacib ola bilər, lakin əsas qərar qəbuletmə amilləri olmaq ehtimalı azdır. Belə amillərin kumulyativ təsirləri müəyyən bir resursa və ya obyektə ümumi mənfi təsirlərin artmasına səbəb olarsa, qərar qəbuletmə prosesinə təsir göstərə bilər.
Cüzi	Ətraf mühitdə aşkar edilə bilən, lakin qeyri-maddi dəyişiklik baş verir	Bu faydalı və ya mənfi təsirlər yerli amillərə aid edilə bilər. Onların qərar qəbuletmə prosesində həlledici olmaq ehtimalı azdır, lakin layihənin sonrakı mərhələlərində planlaşdırmanı yaxşılaşdırmaq üçün vacibdir.
Əhəmiyyətsiz (və ya neytral)	Ətraf mühitdə aşkar edilə bilən dəyişiklik baş vermir	Heç bir təsir yoxdur və ya təsir nəzərə çarpmayacaq dərəcədə, normal müxtəliflik diapazonu çərçivəsində və ya proqnozlaşdırma xətası həddindədir.

8.2.1. Havanın keyfiyyəti

Layihənin havanın keyfiyyətinə təsiri elədir ki, onun Ətraf Mühit və Sosial İdarəetmə Planında (ƏMSİP) müəyyənləşdiriləcək və nümunəvi sənaye təcrübələrini əhatə edəcək təsirazaldıcı tədbirlərlə idarə olunması əhəmiyyətli təsirlərin baş verməsinin qarşısını alacaq. Buna görə də, havanın keyfiyyətinin qiymətləndirilməsi ƏMSSTQ hesabatına daxil edilmir. Bu barədə aşağıda daha ətraflı məlumat verilir. Tikinti mərhələsində havanın keyfiyyətinə əhəmiyyətli dərəcədə təsir göstərə biləcək narahatlıq doğuran əsas çirkləndiricilər aşağıdakılardır:

- Tikinti ilə əlaqəli fəaliyyətlər nəticəsində yaranan havadakı tozlar (insan reseptorlarına və ekoloji reseptorlara təsir göstərən), o cümlədən torpaq işləri, məsələn torpağın üst qatının soyulması, qruntun nivelirlənməsi və qazıntı işləri, tikinti fəaliyyətləri, o cümlədən yeni bir strukturun tikilməsi və ya mövcud struktura dəyişikliyin edilməsi ilə bağlı hər hansı fəaliyyət və hər hansı Layihə üzrə yaşayış kompleksindən və ya sahənin girişindən ümumi yol şəbəkəsinə toz və kir daşıyan tikinti maşınları, bu zaman toz və kir yola çökə və yerli yollardan istifadə edən digər nəqliyyat vasitələri ilə yenidən qarışa bilər;

- Tikinti maşınlarının, xüsusən də ağırçəkili nəqliyyat vasitələrinin (ANV) hərəkəti nəticəsində yaranan azot oksidlərinin (NOx) işlənmiş qaz emissiyaları (insan reseptorlarına və ekoloji reseptorlara təsir göstərən) və kiçik bərk hissəciklər (ağciyərin funksiyalarına təsir göstərən) ; və

- Magistraldan kənarda istifadə edilən mobil texnikadan (insan reseptorlarına və ekoloji reseptorlara təsir göstərən) havaya buraxılan işlənmiş qaz emissiyaları.

Podratçı (Podratçılar) hər bir tikinti fəaliyyəti üçün müəyyən edilmiş toz təsiri riskindən, hər bir fəaliyyət üçün tələb olunan toza nəzarət səviyyələrini müəyyən etmək üçün istifadə edəcək və tozun əmələ gəlməsinə səbəb olan tikinti fəaliyyətləri nəticəsində əhəmiyyətli təsirin olmamasını təmin edəcək. Əhəmiyyətli təsirin olmamasını təmin etmək üçün aşağı səviyyədən yüksək səviyyəyədək bütün risklər üçün təsirazaldıcı tədbirlər görüləcək.

Layihənin tikinti mərhələsi ilə bağlı gözlənilən nəqliyyat vasitələrinin sayı hələ tam məlum olmasa da, tikinti işlərinin əksəriyyəti mövcud yol-nəqliyyat səviyyəsinin aşağı olduğu və ümumilikdə havanın keyfiyyətinin hazırda yaxşı olduğu ucqar ərazilərdə aparılacaq. Bundan əlavə, hava ötürmə xətlərinin çəkilməsi müvəqqəti xarakter daşıyacaq, çünki istənilən yerdə iş qısamüddətli olacaq. Azərbaycanın və ya Kreditorların göstərişi olmadığı halda, nəqliyyat vasitələrinin sayına dair Böyük Britaniya təlimatına (Böyük Britaniya Hava Keyfiyyətinin İdarə Edilməsi İnstitutunun (IAQM) "Torpaqdan istifadənin planlaşdırılmasına və inkişafına nəzarət: Havanın keyfiyyətinin planlaşdırılması" üzrə rəhbər sənədi) uyğun olaraq, həssas ərazidə hərəkət edən orta illik gündəlik nəqliyyat vasitələrinin sayı 100-dən çox olduqda, havanın keyfiyyətinin qiymətləndirilməsi zəruridir. Bu həddə aşılmamalıdır. Buna görə də, belə hesab edilir ki, Layihə ilə bağlı nəqliyyat vasitələrinin hərəkəti ilə əlaqədar olaraq kiçik bərk hissəciklərin və azot oksidlərinin qısa və uzunmüddətli səviyyələrinə təsirlərin azaldılması yolu ilə havanın keyfiyyət həddinin aşması ehtimalı azdır və buna görə də yerli hava keyfiyyəti üzrə nəqliyyat vasitələrinin emissiyalarının qiymətləndirilməsi sonrakı qiymətləndirməyə daxil edilmir.

İstismar mərhələsində Layihənin icrası nəticəsində havaya heç bir əhəmiyyətli emissiyanın buraxılacağı gözlənilmir:

- Tikinti bitdikdən sonra istismarla bağlı nəqliyyat vasitələrinin hərəkəti yalnız yüngül çəkili nəqliyyat vasitələri ilə aylıq yoxlamalardan ibarət olacaq. Buna görə də, istismar mərhələsinin təsirlərinin qiymətləndirməyə daxil edilməməsi və ƏMTQ-nin bir hissəsi kimi qəbul edilməməsi təklif olunur;
- Təklif olunan yarımstansiyalara elektrik izolyatoru kimi kükürd heksaflorid qazından (SF6) istifadə edən qapalı qaz izolyasiyalı paylayıcı qurğular (GIS) daxil ola bilər. Bu, yerli hava çirkləndiricisindən daha çox istixana qazıdır. Hal-hazırda istehsalçılar sızmanın olmayacağına və ya minimum səviyyədə olacağına zəmanət verilən və yerli havanın keyfiyyətinə heç bir təsiri olmayan GIS paylayıcı qurğularını istehsal edirlər. Buna görə də, bunu hava keyfiyyətinin qiymətləndirilməsinə daxil etməmək təklif olunur; və
- Kəskin qoxulu rəngsiz bir qaz olan ozon, hava ötürmə xətlərində tac boşalması (keçiricini əhatə edən havanın ionlaşması nəticəsində yaranan elektrik boşalması) nəticəsində də əmələ gələ bilər, lakin əmələ gələn qazın miqdarı insan sağlamlığına zərər verə biləcək səviyyədə deyil. Layihəyə daxil olan tikinti fəaliyyətləri qoxuya səbəb ola biləcək xarakter daşımır və belə üsul və ya proseslərdən istifadə etməyəcək (qoxu qarşılıqlı təsir göstərən və qoxuya səbəb olan kimyəvi maddələrin qarışığından qaynaqlanır).

Beləliklə, Layihənin tikinti, istismar və istismardan çıxarılma mərhələsində belə bir təsirə səbəb ola biləcək əhəmiyyətli qoxu mənbələrinin olacağı gözlənilmir. Buna görə də, qoxu qiymətləndirməsinin ƏMSSTQ-yə daxil edilməməsi təklif olunur.

8.2.2. İqlim

Bütün ərazisindəki yüksəklik, geomorfoloji fərqlər və subtropiklərin şimal sərhədində yerləşməsi səbəbindən Azərbaycan çox dəyişkən bir iqlimə malikdir. Xəzər dənizi iqlimə daha çox təsir göstərir. Maksimum temperatur 44°C-ə çatır, minimum temperatur isə mənfi 42°C-dək enə bilir. Yağıntıların miqdarı 200-1800 mm arasında dəyişə bilir. Bu məhdudiyyətlərə baxmayaraq, Böyük Qafqaz dağ silsiləsi şimaldan gələn soyuq hava axını üçün təbii maneədir, Kiçik Qafqaz dağları isə cənubdan gələn isti tropik hava axınlarının qarşısını kəsir. Relyefin mürəkkəb təsiri nəticəsində ölkənin əksər hissəsində quru və isti subtropik iqlim üstünlük təşkil edir.

Neftçala

Neftçala rayonu Azərbaycan Respublikasının cənub-şərq hissəsində Kür çayının Xəzər dənizinə töküldüyü ərazidə, qədim karvan yolunun üstündə Kür-Araz ovalığının şərqində yerləşir. Şərqdən Xəzər dənizi ilə əhatələnir. Rayon 390531, 390331 şimal enlikləri ilə 480361, 490271 şərq uzunluqlar arasında yerləşir.

Yayı quraq keçən mülayim isti yarımsəhra və quru çöl iqliminə malikdir. Orta temperatur yanvarda təqribən 3 °S, iyulda 25-36°S-dir. İllik düşən yağıntının miqdarı 300 mm-dir. Ərazinin küləkli olması iqliminin kəskin dəyişməsinə səbəb olur. Yarımsəhra çöl və şoran torpaqlar geniş yayılmışdır.

Biləsuvar

Biləsuvar Muğan düzünün cənub-qərb və cənub hissəsini tutur. Ərazisi şimaldan İmişli rayonu, şimal-qərbdən Saatlı və Sabirabad rayonu, şərqdən Salyan və Neftçala rayonu, cənubdan Cəlilabad rayonu,

qərbdən isə İran İslam Republikası ilə həmsərhəddir. Biləsuvar rayonu-nun ərazisi Muğan düzünün cənub-qərb və cənub hissəsini tutur.

Rayonun iqlimi isti və quru iqlimdir. İyul ayında orta temperatur +35 °C olur. Qışı mülayim keçir. Yanvar ayının orta temperaturu +7 °C. Yağıntıların miqdarı ildə 220–275 mm təşkil edir.

Hacıqabul

Hacıqabul rayonu Kür-Araz düzənliyinin Cənub-Şərqində, Şirvan ovalığı kimi tanınmış ərazidə yerləşir. Rayon ərazisinin böyük bir hissəsi dəniz səviyyəsindən aşağıdır. Dağlıq ərazilərdə çoxlu sayda palçıq vulkanlarına rast gəlmək olar. Burada quru, isti yarımsəhra və quru çöl subtropik iqlimi hökm sürür. Ərazidə orta illik temperatur 14-15 dərəcədir. Atmosfer yağıntıları əsasən yağış formasında düşür və miqdarı ildə 200 millimetrdən çox olmur.

Şəkil 9-1: Azərbaycanın iqlim zonası

Bölgədə bir neçə iqlim tipi hökm sürür: mülayim-isti, quraq yarımsəhra və yayı quraq keçən quru çöl iqlimi, qışı quraq keçən mülayim-isti, qışı rütubətli keçən soyuq iqlim. Havanın orta illik temperaturu cənubda və aranda 14°C-dən şimalda və yüksək dağlıq ərazilərdə 2°C-ə qədər dəyişir. Mütləq minimum temperatur müvafiq olaraq -18° C və -26° C, mütləq maksimum temperatur isə müvafiq olaraq 40° C və 30° C təşkil edir. İl ərzində yağıntıların miqdarı cənubdan (300 mm) şimala (900 mm) sürətlə artır (aşağıda bax: Şəkil 8-2). Burada orta illik sürəti 15 metr/saniyəyə qədər olan qərb küləkləri üstünlük təşkil edir.

Şəkil 9-2: Azərbaycanda orta illik yağıntı miqdarı və temperatur

Azərbaycanda havanın keyfiyyəti ümumilikdə yaxşıdır, lakin Bakıda və Abşeron yarımadasında havanın keyfiyyəti ciddi problem hesab olunur. Havanın çirklənməsinin əsas səbəbi sənayedir, mobil mənbələrdən buraxılan emissiyaların 60%-dən çoxu nəqliyyatın payına düşür (UNECE, 2020).

Ümumiyyətlə, kənd təsərrüfatının yüksək səviyyədə, sənayenin isə aşağı səviyyədə inkişafı səbəbindən layihənin həyata keçirildiyi əksər ərazilərdə havanın keyfiyyəti çox yaxşıdır.

8.2.3. Səs-küy və vibrasiya

Layihə ilə bağlı tikinti işləri nəticəsində tikinti zamanı proqnozlaşdırılan səs-küyün və vibrasiyanın əsas mənbələrinə aşağıdakılar daxildir:

- İşçilərin, materialların, tikinti qurğuları və texnikasının təchizatı;
- Tikinti sahəsinin hazırlanması və komplekslərin və giriş yollarının tikintisi;
- Qüllələr üçün təməllər (qazma və ya dayaqlar ilə);
- Yarımstansiyaların təməllərinin hazırlanması;
- Mövcud hava ötürmə xətlərinin sökülməsi;
- Yarımstansiya avadanlıqlarının və Dayaqların quraşdırılması;
- Qaynaq və cilalama; və
- Bərpa işləri.

Bu fəaliyyətlərin əksəriyyəti həssas reseptorlardan uzaq yerlərdə həyata keçiriləcək. Xüsusi hallar istisna olmaqla, gecə vaxtı işləmək ümumiyyətlə təklif edilmir.

Layihə ilə əlaqədar tikinti zamanı səs-küyün təsirləri Beynəlxalq Maliyyə Korporasiyasının (BMK) Ətraf Mühit, Sağlamlıq və Təhlükəsizlik (ƏMST) qaydalarına uyğun olaraq Podratçı (Podratçılar) tərəfindən

idarə olunacaq [14](tikinti səs-küyü ilə bağlı Azərbaycan standartları olmadığı halda). Podratçı (Podratçılar) müvafiq qaydaları tətbiq etmək və bununla da əhəmiyyətli təsirlərin qarşısını almaq üçün nümunəvi sənaye təcrübəsindən və təsirazaldıcı tədbirlərdən istifadə edəcək. Tikinti zamanı səs-küyün qiymətləndirilməsi ƏMSSTQ hesabatına daxil edilmir. Vızıltı və ya uğultu səsi çıxara bilən yarımstansiyalar və yüksək gərginlikli hava ötürmə xətləri (330/500 kV) üçün istismar mərhələsi ilə əlaqəli səs-küyün yüksək səviyyədə kameral qiymətləndirilməsi aparılacaq. Səs-küy səviyyəsi BMK-nin ƏMST qaydalarına və Azərbaycan standartları (2008-ci il 8 iyul tarixli 796 nömrəli Fərman) uyğun olaraq nəzərə alınacaq[15]. Layihə ilə bağlı yaranan səs-küy davamlı olacağından, yaşayış yerləri üçün gecə vaxtı səs-küy səviyyələrinə aşağıdakı kimi daha sərt məhdudiyyətlər qoyulacaq:

- BMK-nın ƏMST qaydalarına uyğun səviyyə 45dB(A)
- Azərbaycanda yolverilən səviyyə (yaşayış otaqları və yataq otaqları üçün) 30dB(A)

BMK-nın ƏMST qaydalarına uyğun səviyyə binalardan kənarda əməl edilməli olan səviyyədir. Azərbaycanda yolverilən səviyyə daxili məhdudiyyətlə əlaqəlidir və açıq pəncərədən səs-küyün zəifləməsini nəzərə alsaq (yəni 15 dB azalma[16]), onda bu da gecə vaxtı binalardan kənarda 45 dB(A) həddinə uyğundur.

Gecə vaxtı 45 dB(A) səs-küy həddinə əlavə olaraq, BMK-nın ƏMST qaydaları, həmçinin Layihə ərazisindən kənarda reseptorların təsirə məruz qaldığı ən yaxın yerdə mövcud səs-küy səviyyəsində maksimum 3 dB artım təyin edir. Beləliklə, Layihənin icrası nəticəsində yaranan səs-küy səviyyəsi bu məhdudiyyətlər çərçivəsində nəzərə alınacaq.

Aşağı gərginlikli hava ötürmə xətləri (yəni Layihə çərçivəsində istifadə olunan 110 kV-lıq elektrik xətləri) bu xətlərdə nisbətən aşağı elektrik gərginliyi səbəbindən istismarda "praktik olaraq səssiz" hesab olunur. Müəyyən şərtlərdə, 330 kV-lıq bir xətdən aşağı səviyyədə səs-küy yarana bilər ki, bu da yalnız xəttə yaxın olduqda nəzərə çarpa bilər. Bu səs-küyün səviyyəsi, baş vermə tezliyi və müddəti əhəmiyyətli hesab edilməyəcək dərəcədədir. Beləliklə, bu xətlərin istismarı nəticəsində yaranan səs-küyün qiymətləndirilməsi bu qiymətləndirməyə daxil edilmir.

8.2.4. Geologiya, torpaq və yeraltı sular

Suyun keyfiyyətinə (həm səth sularının, həm də yeraltı suların) təsirlər və daşqın riski ilk növbədə tikinti mərhələsi ilə, daha sonra isə torpağın strukturunun pozulması, drenaj işləri, su keçirməyən səthlərin yaradılması və çirkləndiricilərin təsadüfən buraxılması və ya su axarlarının yaxınlığında və ya daxilində görülən işlərlə əlaqəli olacaq. Bu təsirlər ümumiyyətlə infrastruktur tikinti layihələri ilə əlaqəlidir və bu səbəbdən ekoloji təsirlərin qarşısını almaq üçün tədbirlər diqqətlə hazırlanıb və həyata keçirilir. Qabaqlayıcı tədbirlərin, qabaqcıl beynəlxalq təcrübələrin və layihə üzrə xüsusi təsirazaldıcı tədbirlərin ƏMSİP-ə daxil edilməsi təklif olunur. Bunlar, Layihənin icrası nəticəsində əhəmiyyətli təsirlərin yaranmaması üçün həssas reseptorlara təsirlərin azaldılmasını təmin etməkdə kifayət qədər təsirli hesab edilir. Buna görə Layihənin suyun keyfiyyətinə və daşqın riskinə təsirinin ətraflı

[14] *https://www.ifc.org/content/dam/ifc/doc/2000/2007-general-ehs-guidelines-en.pdf*
[15] *https://www.ifc.org/content/dam/ifc/doc/2000/2007-general-ehs-guidelines-en.pdf*
[16] *Ümumdünya Səhiyyə Təşkilatı (ÜST), B.BerQlund, T.Lindvall, D.H.Şvela, Məişət səs-küyünə dair Qaydalar, 1999 http://www.who.int/docstore/peh/noise/Comnoise-4.pdf*

qiymətləndirilməsi qiymətləndirməyə daxil edilmir. Buna baxmayaraq, zəruri təsirazaldıcı yanaşmaları əsaslandırmaq üçün ehtimal olunan məhdudiyyətlərin qoyula bilməsi məqsədilə əsas hidroloji xüsusiyyətlər (məsələn, çay keçidləri) xəritələşdirilmiş və ƏMSSTQ hesabatında təsvir edilmişdir.

Layihənin icrası nəticəsində geologiya və torpaqlara təsirlər də ilk növbədə tikinti mərhələsi ilə əlaqəlidir və potensial olaraq torpağın qeyri-sabitliyi və strukturunun pozulması nəticəsində baş verə bilər. İşlərin əksəriyyəti torpağın çirklənməsi probleminin yaranmadığı və əvvəllər işlənməmiş torpaqlarda aparılacaq. Potensial təsirlər elədir ki, onların ƏMSİP-ə daxil ediləcək qabaqlayıcı tədbirlər, qabaqcıl beynəlxalq təcrübələr və layihə üzrə xüsusi təsirazaldıcı tədbirlər vasitəsilə idarə edilməsi, ehtimal ki, həssas reseptorlar üçün Layihənin icrası nəticəsində əhəmiyyətli təsirlərin olmamasını təmin etmək məqsədilə təsirlərin kifayət qədər azaldılmasını təmin edəcək. Buna görə də, geologiyaya və torpağa təsirlərin ətraflı qiymətləndirilməsi bu qiymətləndirməyə daxil edilmir.

Buna baxmayaraq, məhdudiyyətləri müəyyənləşdirmək və zəruri təsirazaldıcı yanaşmaları əsaslandırmaq üçün kifayət qədər ilkin məlumat əldə etmək məqsədilə geoloji risklərin (yamacın sabitliyi, aşınma) qiymətləndirilməsi aparılacaq və bu qiymətləndirməyə əsas xüsusiyyətlərin xəritələşdirilməsi daxil ediləcək.

8.2.5. Səth suları

Hidroqrafik cəhətdən, Azərbaycan Respublikası Xəzər dənizi hövzəsinə aiddir. Respublikanın hidroqrafik şəbəkəsi (çayları, gölləri) uzun geoloji dövrdə yaranmış və bu müddətdə xeyli dəyişikliklərə uğramışdır. Hazırda rast gəlinən bir sıra qədim çay dərələrinin qalıqları buna sübutdur. İndi də hidroqrafik şəbəkə təbii amillər və insanların təsərrüfat fəaliyyəti nəticəsində dəyişməkdədir. Süni su axarları (kanallar) və su anbarları da Azərbaycanın hidroqrafik şəbəkəsinə aid edilir.

Çaylar Azərbaycan Respublikasının hidroqrafik şəbəkəsinin əsasını təşkil edir. Respublika ərazisindən müxtəlif uzunluqlarda 8359 çay axır. Bunlardan 8188 çayın hər birinin uzunluğu 25 km-dən azdır. Uzunluqları 100 km-dən çox olan 24 çay var. Kür, Araz, Qanıx (Alazan),Qabırrı (İori), Samur, Tərtər, Türyan, Ağstafa, Həkəri, Viləş və s. Respublikanın ərazisindən axan ən böyük çaylardır. Ümumilikdə, Azərbaycanın çayları 3 qrupa bölünür:

- Kür hövzəsinin çayları, (Qanıx, Qabırrı, Türyan, Ağstafa, Şəmkir, Tərtər, Xaçın və s.);
- Araz hövzəsinin çayları (Arpaçay, Naxçıvan, Oxçu, Həkəri, Köndələnçay və s.);
- Bilavasitə Xəzər dənizinə tökülən çaylar (Samur, Qudyal, Vəlvələ, Viləş, Lənkəran və s.).

Kür (1515 km), Araz (792 km) və Samur (200 km) çayları Azərbaycanın ən uzun üç transsərhəd çayıdır, Kür çayı Zaqafqaziyanın ən böyük su arteriyasıdır. Azərbaycanın ən böyük su anbarı olan, sahəsi 605 km2 olan Mingəçevir su anbarı Kür çayının Qərbi Azərbaycan ərazisindən axması nəticəsində yaradılıb. Kür çayında 7, Araz çayında 4, Samur çayında isə 1 bənd var. Kür çayının su anbarlarında təqribən 1000 meqavat hidroenerji istehsal olunur.

Kür çayı hövzəsinin sahəsi (86.000 km2) Arazla qovuşana qədər Arazın hövzəsinin sahəsindən (101.937 km2) azdır. Lakin Kürün sululuğu Araz çayından iki dəfə çox olduğundan, onlar qovuşduqdan sonra da çay Kür adlanır.

Biləsuvar rayonu ərazisindən keçən Bolqarçay mənbəyini İran İslam Respublikasından götürməklə, mənsəbi Mahmudçalada bitir. Mənbəyinin Araz çayından götürən uzunluğu 101 km olan Əzizbəyov adına kanal rayon əhalisinin içməli suya olan tələbatını ödəməklə yanaşı, əkinlərin suvarılması üçün yeganə mənbədir.

Salyan rayonun ərazisindən Kür çayından ayrılan qol olan Akuşa və ya Bala Kür çayı axır və uzunluğu 63 km-dir. Keçmişdə Bala Kür çayı Qızılağac körfəzinin bir hissəsi olmuş Xurşudçalaya tökülürdü. Sonralar Kürün səviyyəsi aşağı düşdüyündən bu çaya su axmamışdır. Hazırda Bala kür çayının yatağına nasosla su vurub, ondan suvarma kanalı kimi istifadə edilir.

Neftçala rayonu ərazisində Kür çayı delta əmələ gətirərək Xəzər dənizinə tökülür. Bala Kür kanalı, Muğan-Salyan kollektoru rayonun ərazisindən keçir.

Abşeron yarımadasında yerləşən Ceyranbatan Su Anbarı Bakı və Sumqayıt şəhərlərində içməli və texniki suya tələbatın kəskin artması ilə əlaqədar olaraq 1955-ci ildə yaradılmışdır. Su anbarının sututumu 186 mln m³, faydalı həcmi 150 mln. m³-dur. Anbarın uzunluğu 8,74 km, maksimum eni 2,15 km, sahil xəttinin uzunluğu 23,3 km, maksimum dərinliyi 28,5 metr, ölü həcmi səviyyəsində isə 14,5 metrdir, su güzgüsünün sahəsi 1389 hektar təşkil edir. Qidalanma mənbəyi Samurçay, Vəlvələçay və Qudyalçay çaylarından su götürən Samur-Abşeron kanalıdır. Ceyranbatan su anbarı içməli su mənbəyi olduğuna görə, 1960-cı ildə onun ətrafında üç zolaqdan ibarət sanitar-mühafizə zonası yaradılmışdır. 2001-ci ildə Ceyranbatan su anbarının 1-ci sanitar-mühafizə zonası genişləndirilərək hasara alınmışdır. Eyni zamanda, Ceyranbatan su anbarının ekoloji vəziyyətini yaxşılaşdırmaq üçün müvafiq tədbirlər (meşəsalma, sututucu kanallar və s.) həyata keçirlişmişdir.

Qaradağ və Qobustan rayonlarının ərazisi ən az axım zonasına daxildir. Burada il ərzində axım 1 l/san km²-dən azdır. Qobustanın şimalında çay şəbəkəsinin sıxlığı 0,20 km/km²-ə çatırsa, onun cənub şərqində və Abşeronda bu rəqəm sıfra enir. Qobustan ərazisindən Sumqayıtçay, Pirsaatçayları keçir. Dövrü olaraq quruyan Ceyrankeçməz çayı Qobustan ərazisində formalaşır. Birinci hər iki çay ilin isti yarısında (xüsusilə iyul və avqust aylarında) quruyur. Ceyrankeçməz çayı isə yağış və qar sularıdan qidalandığından burada su ancaq ilin soyuq yarısında olur. Leysan yağışlar zamanı Ceyrankeçməz çayından geclü su-palçıq axınlı sel keçir. Bu sellər təsərrüfata ziyan vurmaqla bəzən insan tələfatı ilə də nəticələnir. Qobustan çayları (Sumqayıtçay, Pirsaat və s.) Xəzər dənizinə birbaşa tökülən çaylardır.

Sular öz kimyəvi tərkibinə görə natrium-sulfatlıdır. Bəzi quru dərələrin suyu (xüsusilə ilin yay aylarında) çox acı olub istifadəyə tam yararsızdır. Suyu acı olduğundan dərələrin birini Acı dərə adalandırmışlar. Qobustanda üzə çıxan şirin qrunt suları ancaq onun şimal, şimal-qərb hissəsindədir. Ərazidə suların codluğu çox yüksəkdir.

Azərbaycanda 250-dən çox göl var. Bunların əksəriyyəti kiçikdir, lakin Hacıqabul, Sarısu, Candargöl, Göygöl və bir çox digərləri nisbətən böyük göllərdir. Azərbaycanda çayların axımını tənzimləmək məqsədilə 60-dan artıq su anbarı var.

Layihə ərazisində yeganə göl Hacıqabul gölüdür. Hacıqabul rayonu və Şirvan şəhərinin ərazisində yerləşən göldür. Şirvan düzünün şimal hissəsində, Kür çayının sol tərəfində yerləşir. Gölə su Qarasudan və Kür çayından buraxılır. Cənub hissəsində Şorşor kanalı vasitəsilə Kür çayı ilə birləşir. Gölün ətrafı bataqlıq və qamışlıqdır. Göl yaxınlıqdakı Hacıqabul yaşayış məntəqəsinin adı ilə adlanmışdır.

Layihə ərazisindəki yerüstü su obyektləri (çaylar və kanallar şəbəkəsi, göllər) Şəkil 8-3-də təqdim edilir.

Şəkil 9-3: Layihə ərazisindəki yerüstü su obyektlərinin xəritəsi

Yeraltı sular: Azərbaycanda içməli və zəif minerallaşmış yeraltı suların əsas hissəsi Kür-Araz ovalığının düzənliklərində və Samur-Qusarçay vadisi hövzəsindədir və Şəkil 15-də göstərilir.

Şəkil 9-4: Layihə ərazisində yeraltı su ehtiyatlarının göstərildiyi xəritə

Əsasən Qarabağ, Mill və Şirvan düzənliklərinin gətirmə konuslarının periferik zonalarında yuxarıdakı xüsusiyyətlərdən asılı olaraq təzə və zəif minerallaşmış yerlər çox duzlu və ya qismən duzlu sularla əvəz olunur. Qarabağ və Mil düzənliklərində olan biri məhdudlaşmayan və ikisi məhdudlaşan su qatının tərkibində minerallaşmış su var və onlar şirin su qatı ilə üst-üstə yerləşir.

Azərbaycanda yeraltı sular quyular və kəhrizlər vasitəsilə çıxarılır. Qarabağ, Mil və Gəncə-Qazax düzənliklərində qrunt sularının yaranması Azərbaycanın bütün digər hidrogeoloji bölgələrindən daha çoxdur. Məişət suyu təchizatı üçün yeraltı suların 8-10 faizi istifadə olunur; 3-4%-i sənaye məqsədləri üçün, 86-88%-i isə suvarma üçün istifadə olunur. Bununla yanaşı, su mənbələrinin qeyri-bərabər paylanması və su götürmə qurğularının olmaması səbəbindən əhalinin böyük bir hissəsi çay və kanal sularından məişət ehtiyacları üçün istifadə etmək məcburiyyətində qalır.

Layihə əraziləri ölkənin müxtəlif regionlarında geniş yayıldığı üçün layihənin icra ediləcəyi rayonlardan bir neçə irili-xırdalı çay axır. Lakin əksər hallarda çaylar və digər su obyektləri layihə komponentlərinin yerləşdiyi yerlərdən çox uzaqdır və layihə su obyektlərinə mənfi təsir göstərə bilməyəcək.

Təklif olunan hava ötürmə xətlərinin trassası bir neçə nöqtədə bir neçə çaydan keçir. Keçid məntəqələri boyunca ən yaxın yaşayış məntəqələri ötürmə xəttindən təqribən 700-800 metr nisbi məsafədə yerləşir. Aşağıdakı cədvəldə Layihənin hava ötürmə xətlərinin çay və kanallarla kəsişmə nöqtələri və onlara ən yaxın yaşayış məntəqələri göstərilir:

Cədvəl 8-5: EVX-lərin çaylarla kəsişmələri

№	Hava ötürmə xətti	Kəsişən çay	Yer	Koordinatlar
1	330 kv-lıq ikidövrəli Biləsuvar-Nəvahi HX (90 km)	Kür	Salyan rayonunun Salmanlı kəndi	39°40'50.47"N 48°57'31.21"E
2	330 kv-lıq ikidövrəli Biləsuvar-Nəvahi HX (90 km)	Muğan-Salyan kanalı	Biləsuvar rayonu	39°33'30.18"N 48°45'44.83"

Regiondakı bütün çaylar sel rejimi ilə əlaqəlidir. Yazda qarın intensiv əriməsi və leysan yağışları zamanı tez-tez daşqınlar baş verir. Payızda güclü yağışlar sellərə səbəb ola bilər. İsti və quraq yay mövsümündən sonra torpağın səthi rütubətliliyini itirir və asanlıqla su ilə yuyulur və yamaclar və çay yataqları boyunca toplanmış digər eroziv materiallarla birlikdə yayılır. Bu, çox vaxt yaşayış sahələrinə, iqtisadiyyata və kənd təsərrüfatına təsir edən güclü sel axınlarına səbəb olur.

8.2.6. Ehtiyatlar (elektrik, su, yanacaq və s.)

Azərbaycanın təqribən 7025 MVt elektrik enerjisi istehsal etmək gücü var ki, bunun da 6299 MVt-sı istilik elektrik stansiyaları, qalanı isə su elektrik stansiyaları tərəfindən təchiz edilir. Ölkənin şimalında 400 MVt gücündə kombinə edilmiş elektrik stansiyasının tikintisi aparılır. Beləliklə, sistemin ümumi mümkün gücü tezliklə 7500 MVt-a yaxınlaşacaq. Yuxarıda qeyd edilənlərə əlavə olaraq, müxtəlif dövlət və özəl müəssisələr ölkənin elektrik enerjisi istehsalı gücünü daha 170 MVt artırır.

Hazırda Azərbaycanda enerji istehsalının 80%-i onun qərb hissəsində yerləşir. Lakin enerji istehlakının 70%-i ölkənin şərqində, şimal-şərqində və cənub-şərqində cəmlənmişdir. Bununla əlaqədar olaraq, Abşeron yarımadasından yüzlərlə kilometr qərbdə böyük istilik elektrik stansiyalarına yanacaq nəql olunur. Sonra istehsal olunan enerji yenidən Abşeron yarımadasına ötürülür və şimal və cənub bölgələrinə paylanır. Azərbaycanın qərbi və şərqi 500 kv (bəzən 330 kv) gərginlikli iki elektrik veriliş xətti ilə birləşdirilir və nisbətən böyük enerji itkiləri baş verir.

Ölkənin paylayıcı şəbəkələri 7 regional paylayıcı şəbəkədən (yəni Bakı, Şimal, Cənub, Şimal-Qərb, Mərkəzi Aran, Aran və Qərb) və Naxçıvan şəbəkəsindən ibarətdir. Kiçik şəhərlərdə və kənd yerlərində mövcud paylayıcı şəbəkələr köhnəlmiş və zəifdir, istehlakçılara daimi və yüksək keyfiyyətli xidmət göstərə bilmir, bu da ailələrin yaşayış şəraitinə təsir göstərir və yeni iqtisadi fəaliyyət növlərinin inkişafına mane olur.

Su ehtiyatları qeyri-bərabər şəkildə paylanır. Qobustan və Qaradağ rayonlarının su ehtiyatları çox məhduddur və adambaşına ildə cəmi 50 m3 təşkil edir.

Azərbaycanda yeraltı mənbələrdən təqribən 1,2 milyard m3 su götürülür. Adambaşına düşən orta içməli su istehlakı gündə təqribən 130 litrdir ki, bu da beynəlxalq standartlara görə nisbətən aşağıdır. Bölgənin yeraltı suları əsasən dağlarda miqdarı çox olan yağıntılar hesabına əmələ gəlir. Dağlıq Şirvan rayonunda illik istifadəyə yararlı yeraltı suların ümumi potensialı 400-500 milyon m3 təşkil edir. Hazırda yeraltı suların istifadəsi çox aşağı səviyyədədir.

8.2.7. Çirkab suları

Su təchizatı və sanitariya: Təhlükəsiz su təchizatı və sanitariya xidmətlərinə çıxış icmaların sağlamlığına və gigiyenasına təsir göstərir. ÜST-nin 2014-cü il üzrə statistikası göstərir ki, Azərbaycanda əhalinin 80%-nin dayanıqlı və yaxşılaşdırılmış su mənbələrinə (ev təsərrüfatlarının su təchizatına çıxış nöqtələri, ümumi istifadədə olan su kranları, qazma quyuları, mühafizə olunan qazma quyuları, mühafizə olunan bulaqlar və yağış suyu yığımı) çıxış imkanı var. Gigiyena və sanitariya vəziyyətinə gəldikdə, vəziyyət bir qədər yaxşıdır, belə ki, əhalinin 82%-i yaxşılaşdırılmış sanitariya xidmətlərinə çıxış imkanına malikdir. Bu göstəricilər şəhər və kənd yerləri arasındakı böyük fərqi əks etdirmir (şəhərlərdə göstəricilər kənd yerlərindən xeyli yüksəkdir). "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nda deyilir ki, son 10 ildə 3,4 min km yeni su və 1,2 min km yeni kanalizasiya xətləri çəkilmişdir.

Son 5 ildə hökumət Hacıqabul, Salyan, Biləsuvar, Qaradağ və Qobustan rayonlarında su təchizatı və kanalizasiya infrastrukturunun yaxşılaşdırılması üzrə beynəlxalq maliyyə institutları tərəfindən maliyyələşdirilən layihələr həyata keçirib. Bu layihələr sayəsində sadalanan rayonlarda, xüsusən də rayon mərkəzləri olan şəhərlərdə su təchizatı, xüsusən kanalizasiya baxımından şərait nisbətən yaxşıdır.

8.2.8. Tullantıların idarə olunması

Tullantı "sahibinin atdığı və ya atmaq üçün nəzərdə tutduğu və ya atmalı olduğu hər hansı maddə və ya obyekt" kimi tərif olunur.[17] Layihə, tullantıların qarşısının alınmasının prioritetləşdirilməsinə, ardınca təkrar istifadə, təkrar emal və bərpaya hazırlıq və nəhayət beynəlxalq səviyyədə qəbul edilmiş tullantı iyerarxiyasına uyğun olaraq poliqonda utilizasiyaya yönəldiləcək (aşağıdakı Şəklə bax).

Şəkil 9-5: Tullantıların iyerarxiyası

Azərbaycanda tullantıların idarə olunması sistemi ümumiyyətlə zəifdir. Hökumət əsasən paytaxtda bir sıra layihələr həyata keçirir, lakin bir qayda olaraq, bütün ölkədə müasir bir sanitar poliqon yoxdur. Bu baxımdan, layihə bölgələrindəki məişət tullantılarının böyük bir hissəsinin kiçik yerli poliqonlara atılması, qismən yandırılması və torpağa basdırılması gözlənilir. Zibillərin yığılması müvafiq bələdiyyə tərəfindən və görünür ki, məqbul tezliklə həyata keçirilir.

Layihənin həyat dövrü ərzində müxtəlif fəaliyyətlər nəticəsində yarana biləcək tullantı növləri aşağıdakı Cədvəldə qısaca təqdim olunur.

Cədvəl 8-6: Tullantıların əmələ gəlməsinin əsas növləri

Layihə fəaliyyəti	Tullantıların əmələ gəlməsi
Sahənin hazırlanması / torpaq işləri / sahənin bərpası	- Artıq qazılmış materiallar. - Torpağın üst və alt qatının soyulması.
Sökmə / Tikinti	- Yenidənqurma işləri aparılacaq xətlərdə sökülmə işləri zamanı yaranan söküntü tullantıları. - Sahəyə gətirilən materialların qablaşdırmaları. - Artıq və qırılmış/zədələnmiş tikinti materialları. - Tikinti məqsədləri üçün istifadə olunan əlavələrin tullantıları və tənzimləyici maddələr. - Tikinti işçilərinin tullantıları.
İstismar və texniki xidmət	İstismar və texniki xidmət nəticəsində yaranan tullantılar (minimum olacağı gözlənilir).

[17] *Aİ-nin Tullantılar üzrə Direktivi - Tullantı üzrə Çərçivə Direktivi (2008/98/EC)*

Yuxarıda göstərilən fəaliyyətlərin potensial təsirləri aşağıdakı prinsiplərə əsaslanan tullantıların idarə edilməsi planını ehtiva edən Layihənin Tikinti, Ətraf Mühit və Sosial İdarəetmə Planına (TƏMSİP) uyğun olaraq tikinti işləri aparmaqla azaldıla bilər:

- Hər hansı bir materialın təkrar istifadəsi və təkrar emalı yolu ilə mümkün olduğu hər halda tullantıların miqdarı minimuma endiriləcək.
- Bütün tullantılar müəyyənləşdiriləcək, təsnif ediləcək, kəmiyyətcə ölçüləcək və praktik olaraq mümkün olduğu halda müvafiq şəkildə ayrılacaq.
- Tikinti sahələrindən çıxarılan bütün tullantılar tullantıların idarə olunması və ətraf mühitin mühafizəsi üzrə müvafiq milli qaydalara uyğun olmalıdır.
- Tullantılar qeydiyyatdan keçmiş tullantı daşıyıcıları vasitəsilə lisenziyalı utilizasiya sahəsinə və ya tullantı emalı qurğusuna daşınacaq.

Layihə 1000 tondan çox inert tullantılar yaradacağı ehtimal olunur və bu tullantıllar əsasən dayaqlar üçün özüllərin qazılması nəticəsində yaranan tullantılar olacaqdır Bu hallar üçün Azərenerji və/yaxud tikinti podratçısı tullantıların idarə olunması planını işləyib hazırlayacaq və baxış və təsdiq etmək üçün aidiyyəti dövlət orqanına təqdim edəcəkdir. Bu plan ictimaiyyətə açıqlanmalıdır. Tullantıların idarə olunması planının icrasına həm LİQ-in, həm də texniki nəzarətə cavabdeh olacaq şirkətin ətraf mühit üzrə mütəxəssis nəzarət edəcəkdir. Əgər layihə bir tondan çox təhlükəli tullantı əmələ gətirəcəksə (bu ehtimal edilmir) Azərenerji tərəfindən təhlükəli tullantıların ayrılması və toplanması sistemi işlənib hazırlanacaq və tətbiq ediləcək, bu barədə işçilərə məlumat və müvafiq təlimlər veriləcəkdir.

Layihənin istismar mərhələsi zamanı əmələ gələn tullantıların çox az olacağı gözlənildiyindən, bu cəhətlər ƏMSSTQ-yə daxil edilmir.

8.2.9. Yol hərəkəti və nəqliyyat

Layihə ərazilərində nəqliyyat əsasən avtomobil yolları vasitəsilə həyata keçirilir. M1, M2, M3 və M4 magistral yolları bu ərazilərdən keçən avtomagistralı təşkil edir. Layihə əraziləri və layihə ərazilərinin yaxınlığında yerləşən yaşayış evlərinin əksəriyyəti ikinci dərəcəli yolların və ya bir çox hallarda torpaq kənd yollarının kənarında yerləşir. Kiçik şəhər və kəndlərdəki yerli yollar adətən çox köhnəlmiş asfalt örtüyünə malikdir və ya asfalt örtüyü yoxdur və sadəcə torpaq yollardır. Bu yollar yayda tozlu, qışda palçıqlı olur ki, bu da sakinlər üçün narahatlıq yaradır.

Şəkil 9-6: Azərbaycanın nəqliyyat və kommunikasiya xətləri

8.2.10. Biomüxtəliflik, mühafizə olunan ərazilər, bataqlıqlar

Azərbaycan mürəkkəb geoloji tarixi, fərqli iqlimi və Asiya ilə Avropanın sərhədindəki mövqeyinə görə ekoloji resurslarla nisbətən zəngindir. Burada endemizmin əhəmiyyətli bir hissəsi müşahidə edilir və ölkədə çox sayda relikt növü yaşayır. Lakin, ümumiyyətlə, bu resurslar sovet və postsovet hakimiyyəti dövründə çirklənmə və zəif idarəetmə nəticəsində qismən tükənmişdir. Təkmilləşdirmələr aparılır və biomüxtəlifliyə həm milli, həm də beynəlxalq səviyyədə daha çox diqqət yetirilir, lakin irəliləyişin sürəti yavaşdır. Azərbaycan bir sıra müvafiq beynəlxalq sazişlər, xüsusilə Bioloji Müxtəliflik haqqında Konvensiya imzalayıb.

Təklif olunan layihənin biomüxtəlifliyə, mühafizə olunan ərazilərə və bataqlıqlara potensial təsirinin ətraflı qiymətləndirilməsi ƏMSSTQ-yə daxil edilmişdir. Bu qiymətləndirmə, həssas və kritik yaşayış yerlərini, o cümlədən biomüxtəliflik baxımından dəyəri yüksək olan sahələr, nəsli kəsilməkdə olan növlərin yaşayış yerləri və əsas xidmətlər göstərən ekosistemləri müəyyənləşdirmişdir. Bu ƏMSSTQ-də bioloji və ekoloji cəhətdən əhəmiyyətli ərazilərin (məsələn, mühafizə olunan ərazilər, su hövzəsi keçidləri, bataqlıqlar) xəritələşdirilməsi təqdim edilir (bax: Şəkil 8-7).

Şəkil 9-7: Azərbaycanda mühafizə olunan ərazilərin xəritəsi

Suyun təmizlənməsində, daşqına qarşı mübarizədə həlledici rol oynayan və müxtəlif növlərin yaşayış yerləri olan bataqlıqlar mümkün pozuntular üçün diqqətlə araşdırılacaq. Əsas məsələlər arasında yaşayış yerlərinin parçalanması, çirklənmə, su axınında və keyfiyyətində dəyişikliklər və insanların bu həssas ərazilərə çıxış imkanının artırılması yer alır. Müəyyənləşdirmə prosesində çöl tədqiqatları, uzaqdan zondlama məlumatları və biomüxtəliflik mütəxəssisləri və yerli maraqlı tərəflərlə məsləhətləşmələrdən istifadə ediləcək. Bu potensial təsirləri hərtərəfli anlamaqla, müvafiq ESTQ/ƏMSİP-lər çərçivəsində biomüxtəlifliyin qorunub saxlanılması, mühafizə olunan ərazilərin bütövlüyünün qorunması və bataqlıqların dayanıqlılığının təmin edilməsi üçün məqsədyönlü təsirazaldıcı tədbirlər və mühafizə strategiyaları işlənib hazırlanacaq.

Layihə ərazisinin yaxınlığında 1 təbiət qoruğu və 1 milli park var. Şirvan Milli Parkı elektrik veriliş xəttinin şimalında və aran ərazidədir[18]. Elektrik veriliş xətlərinin dəhlizləri və yarımstansiyalar milli parklara, qoruqlara və ya mədəni və ya biomüxtəliflik dəyərinə görə qorunan və ya tanınan digər ərazilərə təsir göstərməyəcək. Beləliklə, yeni elektrik veriliş xətləri bu təbiət qoruğunun ərazisindən keçmədən və onlara heç bir təsir göstərmədən kifayət qədər uzaq məsafədə yerləşir.

Şirvan Milli Parkı

[18] Azərbaycan Ornitoloji Cəmiyyəti; www.aos.az

Şirvan Milli Parkı Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 5 iyul tarixli Sərəncamı ilə Qaradağ, Salyan və Neftçala inzibati rayonlarının ərazisində 543,74 km2 sahədə yaradılmışdır. Onun yarımsəhra landşaftı və təqribən 40 km2 sahəsi olan su hövzəsi var. Milli park son dərəcə zəngin ornitoloji faunaya malikdir. Nadir və qiymətli quş növləri (turac, bəzgək, dovdaq, qu quşu, flaminqo, ağ və qara leyləklər və s.) bataqlıq ərazilərdə və suvarma zonaları ətrafında qışlayır və yuva qurur. Ceyranlar bu bölgədə ən çox yayılmış məməli heyvanlardır. Bölgənin ərazisi dağlıq və düzənlik hissələrə bölünür. Bu bölgə quraq keçən isti yayı və mülayim rütubətli qışı ilə xarakterizə olunur. Havanın orta illik temperaturu 9° C-dən 12° C-ə qədər dəyişir. Şirvan bölgəsinin ümumi sahəsi təqribən 1 milyon 340 min hektardır, bunun da 652 min hektarı kənd təsərrüfatı torpaqlarının payına düşür. Əkin sahəsi 246,5 min hektardır. Təqribən 174,6 min hektar əlavə sahə pambıqçılıq, taxılçılıq, üzümçülük və heyvandarlıq üçün istifadə olunur.

Şirvan Dövlət Təbiət Qoruğu

Şirvan Dövlət Təbiət Qoruğu Kür-Araz ovalığının cənub-şərqi Şirvan düzənliyində yerləşir. Hələ 1961-ci ildə Kür-Araz ovalığının həmin hissəsində alimlərin həyata keçirdiyi sayğının nəticələrinə əsasən ceyranların sayının 77 baş olduğu bir vaxtda, Azərbaycan Hökumətinin xüsusi qərarı ilə Bəndovan Dövlət Yasaqlığı yaradılmışdı. 8 ildən sonra, burada ceyranların sayının 400 başa çatdığı vaxtda Respublika hökumətinin 30 aprel 1969-cu il tarixli müvafiq qərarı ilə 17700 min hektar sahədə Şirvan Dövlət Təbiət Qoruğu təşkil edildi. 1982-ci ildə dövlət təbiət qoruğunun sahəsi genişləndirlərək. 25761 hektara çatdırıldı. 2003-cü ildə Şirvan Dövlət Təbiət Qoruğunun bazasında və ətraf ərazilərində Şirvan Milli Parkı yaradılmışdır. Hazırda Şirvan Dövlət Təbiət Qoruğunun sahəsi 4657 hektardır.

Qoruğun yaradılmasında əsas məqsəd Azərbaycan Respublikasının «Qırmızı kitab»ına düşmüş gözəllik rəmzi olan ceyranların və bu ərazi üçün səciyyəvi olan digər fauna növlərinin mühafizəsini və bərpasını təmin etməkdir.

Şirvan Dövlət Təbiət Qoruğunun ərazisində relyefin, bitki və torpaq örtüyünün müxtəlifliyi burada bir sıra təbii lanşaft sahələrini ayırmağa imkan verir. Ərazinin əsas hissəsini yovşanlı yarımsəhra xırda təpəlikləri, şoranotlu yarımsəhra xırda təpəlikləri və şoranotlu yarımsəhra düzənliyi təşkil edir. Hər bir təbii landşaft sahələrinin ceyranlar üçün xüsusi əhəmiyyəti vardır.

Geoloci dövr ərzində qoruğun ərazisi bir neçə dəfə Xəzərin suları altında olmuşdur. Xəzərin səviyyəsinin azalması ilə əlaqədar ərazi dəniz, qismən sel və allüvial çöküntülər nəticəsində quruya çevrilmişdir. Ərazi dəniz səviyyəsindən aşağıda yerləşir. Burada mikrorelyef yaxşı nəzərə çarpır. Külək vasitəsilə yaranan dyun təpəciklərinin hündürlüyü 0,5-1,2 m-ə qədərdir və onlar ceyranların mühafizəsi və sığınacağı üçün çox sərfəlidir.

Qoruq ərazisində əsasən boz, boz-çəmən və çəmən-bataqlıq torpaqları və qumluqlar yayılmışdır.

Ərazidə yayı quraq keçən mülayim-isti yarımsəhra və quru bozqır iqlim tipi hakimdir. Bu iqlim tipi az və ya zəif nəmliyi, qışının mülayim, yayının isə quru və isti keçməsilə səciyyələnir. Qoruq ərazisi yarımsəhra zonasında, düzənlik ərazidə yerləşdiyindən burada çay və bulaq yoxdur. Qoruğun ərazisindən bir neçə kollektorlar keçir. Onların vasitəsilə qoruqda olan Çala gölü su ilə təmin olunur. Xəzərin, kanalların suyu qışda donmur, bu da ceyran və quşlar üçün çox əhəmiyyətlidir.

Bəndovan Dövlət Yasaqlığının və Şirvan Dövlət Təbiət Qoruğunun ərazilərində yerləşən Çala gölünün sahəsi 100 hektardan çoxdur və onun dərinliyi 0,3-1,0 m çatır. Göldə qamış və digər su bitkiləri yaxşı

inkişaf etmişlər. Həmin gölün köçəri su-bataqlıq quşları üçün çox böyük əhəmiyyəti vardır.

Qoruğun ərazisində əsasən yovşanlı yarımsəhra, şoranotlu yarımsəhra, yovşan-şoranotlu yarımsəhra, qismən də səhra, çəmən-çala və qumluq bitkiləri yayılmışdır.

Şirvan Dövlət Təbiət Qoruğu yarımsəhra zonasında yerləşsə də, heyvanlar aləmi çox zəngindir. Burada xeyli miqdarda məməlilər, sürünənlər və suda-quruda yaşayanlar vardır.

Qoruqda ceyran, qunduz, çöl donuzu, dovşan, Xəzər suitisi, canavar, çaqqal, tülkü, porsuq və s. heyvanlar məskunlaşmışdır. Qoruq ərazisində oturaq və köçəri quşlar daha çoxdur. Quş növlərindən turac, bəzgək, dovdaq, qu quşu, boz qaz, qızıl qaz, Quba qazı, qızılbaş ördək, boz ördək, anqut, qaşqaldaq, böyük ağ vağ, kiçik ağ vağ, boz vağ, sarı vağ, bizquyruq ördək, enliburun ördək və s. məskən salmışdır. Qoruqda Azərbaycan Respublikasının «Qırmızı Kitabı»na daxil edilmiş çəhrayı qutan, qara leylək, bəzgək, dovdaq, soltan toyuğu, ərsindimdik, qızılqaz, qırmızıdöş qaz, fısıldayan qu, kiçik qu kimi köçəri quşlar mühafizə olunur.

330 kV-luq ikidövrəli Bankə GES – Nəvahi EVX-nin trassasının düşdüyü ərazidə əhalinin sıx məskunlaşma şəraiti nəzərə alınaraq zərurətdən irəli gələrək trassanın 1.5 kilometri Şirvan Təbiət Qoruğunun ərazisindən keçir ki, həmin ərazidə hər birinin oturacaq ölçüləri 5,5 m x 3,5 m olan 4 (dörd) ədəd dayaq qoyulacaqdır. Həmin EVX- qoruq ərazisində hazırda mövcud olan Azərenerji ASC-yə məxsus 110 kV-luq EVX-yə paralel (20 m məsafədə) çəkiləcəkdir və bu trassa üçün ərazidə hazırda mövcud olan xidməti yoldan istifadə olunacaqdır. Bu dayaqların qoyulması və xətlərin çəkilməsi zamanı qoruq ərazisindəki heyvanları və bitkiləri qorumaq üçün xüsusi yumşaldıcı tədbirlər görülməklə bərabər həmin xətt üçün ayrıca sənəd kimi biomüxtəlifliyin qorunması planı hazırlanacaqdır. Azərenerji ASC tərəfindən Ekologiya və Təbii Sərvətlər Nazirliyinə müraciət ünvanlanaraq həmin 11 ədəd dayağın Milli Parkın ərazisinə düşməsinə razılıq verilməsi xahiş edilmişdir.

4 dayaq

7 dayaq

Şəkil 8-8: Bankə GES – Navahi YS EVX-nin Şirvan Milli Parkının ərazisinə düşən hissələri

Quşlar

Azərbaycan ərazisində 360-dan çox quş növü məskunlaşıb. Köç və qışlama dövründə bölgənin sahil xəttinin və su-bataqlıq ərazilərinin əhəmiyyəti artır. Bunun səbəbi bütün il boyu mövcud olan quş növləri ilə yanaşı, çox sayda köçəri quşların da buraya gəlməsidir. Layihənin əhatə etdiyi ərazilər Şəkil 8-7-də geniş qırmızı xəttlə göstərildiyi kimi, düzənlikdən keçən əsas miqrasiya yolundan uzaqda yerləşir. Ələt ərazisində və Abşeron Yarımadasında payız köçü avqust ayının ikinci yarısından başlayır və dekabr ayının ortalarına qədər, yaxud qışda sərt hava şəraiti müşahidə edildiyi halda, yanvar ayının ortalarına qədər davam edir. Quşların payız köçünün ən pik vaxtı noyabr ayında müşahidə edilir. Şimal, şimal-qərb və ya şimal-şərq istiqamətində baş tutan yaz köçü isə fevral ayının ikinci yarısında başlayır və aprel ayında sona çatır. Bu zaman köçün ən pik dövrü mart ayında müşahidə edilir. Ümumiyyətlə, quşların çoxalma dövrü mart-avqust aylarına təsadüf edir, yaz və payız köçü isə müvafiq olaraq, mart-aprel və avqust-oktyabr ayları arasında baş tutur. Qışlayan quşlar oktyabr ayından mart ayına qədər sahil xəttində çox sayda olmaqla məskunlaşır.

Şəkil 8-9: Payız fəslində quşların mühüm miqrasiya yolları[19]

Nəvahi kəndində olan Nəvahi YS və "Nəvahi YS - Abşeron YS" EVX-si quşların miqrasiya yollarına yaxın yerləşir.

[19] *"2007-ci ilin oktyabrında Azərbaycan Respublikasının Xəzər dənizi bölgəsində sahil quşlarının köçü", Maykl Heys və Kay Goger - 2011.*

Şəkil 8-10: Quşların miqrasiya yollarına yaxın yerləşən EVX-lər

Nəvahi YS – Abşeron YS xəttinin tikinti dövrü: Bu xəttin tikintisi üçün quşların ehtimal olunan miqrasiya dövrlərində (**oktyabr-noyabr və mart-aprel ayları**) tikinti işlərinin aparılması qadağan olunacaqdır. Podratçıdan həmin xətt üçün tikinti planlaşdırılması tələb olunacaq və həmin hissədə tikinti işlərinə xüsusə nəzarət tətbiq olunacaqdır.

Ümumiyyətlə, yayda yuvalayan quşlardan ən çox adi kəkilli torağay (*Galerida cristata*, ən az narahatlıq doğuran) və oynaq çaxraqçıl (*Oenanthe isabellina*, ən az narahatlıq doğuran), qışda isə tarla torağayısı (*Alauda arvensis*, ən az narahatlıq doğuran), adi sığırçın (*Sturnus vulgaris*, ən az narahatlıq doğuran) və zağcaya (*Corvus frugilegus*, ən az narahatlıq doğuran) rast gəlinir Ev sərçəsi (*Passer domesticus*, ən az narahatlıq doğuran) və adi (Avrasiya) qaratoyuq (*Turdus merula*, ən az narahatlıq doğuran) bütün il ərzində ərazidə daimi yaşayan quşlardır. Quş faunasına həmçinin, adi qızılquş (*Falco tinnunculus*, ən az narahatlıq doğuran), çöl göyərçini (*Columba livia*, ən az narahatlıq doğuran), adi qurqur (Streptopelia turtur, həssas), dam xarabaçılı (*Athene noctua*, ən az narahatlıq doğuran) və adi kəkilli torağay (*Galerida cristata*, ən az narahatlıq doğuran) aiddir. Yayda yumurtlayan quşlardan ən çox oynaq çaxraqçıl (*Oenanthe isabellina*, ən az narahatlıq doğuran), səhra qızılquşu (*Falco naumanni*, ən az narahatlıq doğuran), yaşıl qızlarquşu (*Merops superciliosus*, ən az narahatlıq doğuran), pəsnək arıquşu (*Remiz pendulinus*, ən az narahatlıq doğuran), adi alaçöhrə (*Lanius collurio*, ən az narahatlıq doğuran) və qaraalın alaçöhrə (*Lanius minor*, ən az narahatlıq doğuran) geniş yayılmışdır.

Həmçinin, Biləsuvar GES – Navahi YS EVX-nin Biləsuvar GES-dən enerji götürmə nöqtəsinə yaxın olan vacib quş qışlama sahəsi olan Mahmudçala gölü EVX-dən təqribən 1 km məsafədə yerləşir. Bu göl kiçik bəzgək quşlarının təbii areal sahəsidir. EVX-nin GES-dən şərqə doğru çəkilməsi variantı araşdırılsa da həmin ərazi əhəmiyyətli kənd təsərrüfatı təyinatlı torpaqlar olduğu üçün EVX-nin əvvəlki trasında qalması və hava xəttində quşlar üçün xüsusi qoruyucu tədbirlər görülməsinə qərar verilmişdir. Bu xəttin tikintisi üçün quşların ehtimal olunan miqrasiya dövrlərində (**oktyabr-noyabr və mart-aprel**

ayları) tikinti işlərinin aparılması qadağan olunacaqdır. Podratçıdan həmin xətt üçün tikinti planlaşdırılması tələb olunacaq və həmin hissədə tikinti işlərinə xüsusə nəzarət tətbiq olunacaqdır.

Nə üçün hava elektrik xətlərində və dayaq dirəklərində quşları elektrik vurur?

Bütün dünyada olduğu kimi Azərbaycanda da hava elektrik xətlərinin səbəb olduğu quş ölümləri iki qrupa bölünür:

- Elektrik naqilləri ilə toqquşmadan qaynaqlanan;

- Qısaqapanma (elektrik cərəyanı) zamanı baş verən elektrik boşalması nəticəsində

Elektrik veriliş xətləri ilə toqquşma riski müxtəlif quş növlərinə görə dəyişir. Bu risk adətən, quşun ölçüsündən, çəkisindən, uçuş tərzindən, görmə sahəsindən, günün saatından və elektrik xətlərinin yaxınlığındakı yaşayış mühitlərinin xüsusiyyətlərindən asılı olur.

Riskləri/təsirləri azaltmaq üçün əsas vasitələr

- Bütün xətlərə (Özbəkistan kimi yaxın ölkələrdə presedent) və ya ən azı daha yüksək riskli ərazilərdə yüksək keyfiyyətli Quş Uçuş Yönləndiricilərini (BFD) quraşdırmaq
- Ən azı daha yüksək riskli ərazilərdə 1-3 il ərzində Tikintidən Sonra Ölüm Hadisələrinin Monitorinqi (PCFM)
- Monitorinq nəticəsində müəyyən edilmiş əhəmiyyətli sayda ölüm hallarının kompensasiyası üzrə aydın öhdəlik. Kompensasiyanın yalnız kiçik bəzgək quşları üçün lazım olacağı gözlənilir – bu növ üçün BFD-lərin məhdud effektivliyini nəzərə alaraq, ən yaxşı kompensasiya vasitəsi yüksək riskli ərazilərdə kabellərin yeraltı quraşdırılması olacaqdır.

8.2.11. Layihənin sosial-iqtisadi aspektləri

Bu bölmədə layihənin sosial-iqtisadi şəraitə, yəni əhaliyə və iqtisadiyyata ehtimal olunan təsirləri müəyyənləşdirilir və qiymətləndirilir. Tikinti və/və ya istismar zamanı əraf mühitə təsirlər kimi, sosial-iqtisadi təsirlər də baş verə bilər və bu təsirlər müsbət və mənfi olaraq iki yerə bölünür. Bu təsirlər yerləşmədən, ölçüdən, müddətdən, məskunlaşma ərazilərinə olan məsafədən, torpaq mülkiyyətindən və digər amillərdən asılı olaraq dəyişəcək.

Azərbaycan əhalisinin çox hissəsini 30-34 yaşlı şəxslər təşkil edir (Şəkil 8-8). Bütün əhaliyə nəzər saldıqda görürük ki, ölkədə qadın-kişi nisbəti kifayət qədər bərabərdir (50,1% qadınlar və 49,9% kişilər). Bununla belə, əhalinin siyahıyaalınmasından əldə edilən faiz məlumatlarına əsasən, gənclər (0-25 yaş) arasında kişilər, 35 və yuxarı yaşda olan əhali arasında isə qadınlar daha çox üstünlük təşkil edir. Azərbaycanda Respublikasında gözlənilən orta ömür uzunluğu son iyirmi ildə ardıcıl olaraq artmış və 2019-cu ildə qadınlar üçün 78,8 yaş, kişilər üçün isə 74,0 yaş təşkil etmişdir (Şəkil 8-8). Bu şəkillər Layihənin əhatə etdiyi rayonlara da aid edilir.

Şəkil 8-11: 2020-ci ilin əvvəlinə Azərbaycan Respublikası əhalisinin cins və yaş qrupları üzrə tərkibi (min nəfər)

Azərbaycanda "Böyük Qayıdış" adlanan bu köçürmə proqramı, dövlətin yüz minlərlə Azərbaycanlının öz yurd-yuvalarından didərgin düşdüyü 1990-cı illərdəki münaqişə tarixinin aradan qaldırılmasına yönəlmiş yanaşmasının əsas hissəsidir. Proqrama 2022-ci ilin iyul ayında, 100-ə yaxın ailənin Zəngilan rayonunun yeni salınmış Ağalı kəndinə köçürülməsi ilə start verilib. O vaxtdan bəri ailələr həmçinin Füzuli, Talış (Tərtər şəhəri yaxınlığındakı kənd) və Laçına, eləcə də qonşu Zabux kəndinə geri qayıdıblar. 2024-cü ilin aprel ayına olan məlumatlara əsasən, 6500-dən çox sakinin təxminən yarısı Füzuliyə, 2500-dən çoxu isə Laçına/Zabuxa köçürülüb. Azərbaycan hökuməti 2024-cü ilin sonuna kimi 5 şəhər və 15 kəndə 20 000, 2026-cı ilin sonuna qədər isə daha da qətiyyətli şəkildə 140 000 insanın torpaqlarına geri qaytarılmasını planlaşdırır.

Layihənin icra olunması nəticəsində əhalinin bu kimi həssas qrupları mənfi təsirə məruz qalmayacaq. Əksinə, yaxşılaşdırılmış elektrik təchizatı və layihə nəticəsində ötürülən yaşıl enerji Qarabağda və Azərbaycanın qalan hissəsində məskunlaşan bu icmalara böyük faydalar verəcək.

Potensial təsirlər və əsas təsir azaltma tədbirləri

<u>Müsbət təsirlər</u>

- Tikinti zamanı yaranan iş imkanları

Tikinti zamanı Layihə istər ixtisaslı, istər yarımixtisaslı, istərsə də ixtisassız işçilər üçün müvəqqəti məşğulluq imkanları yaradacaqdır. Əsas sosial təsirlərdən biri işçilər və onların ailələri üçün gəlir mənbəyi təmin etmək, onların rifahına və həyat keyfiyyətinin yaxşılaşdırılmasına töhfə vermək olacaqdır. Bu imkanları artırmaq üçün tədbirlərə müxtəlif alətlər (məs., xüsusi Yerli İşə Qəbul Planına uyğun olaraq yerli işçi qüvvəsinin işə götürülməsinə üstünlük verilməsi, gələcək iş perspektivləri üçün faydalı hesab olunacaq təlim) daxil ediləcək.

- Yerli iqtisadiyyat və Təchizat Zənciri İmkanları

Layihənin icrası milli və ola bilsin ki, regional səviyyədə şirkətlərə mal və xidmətlər təqdim etmək imkanı verəcək. Layihə və tikinti zamanı işçilər tərəfindən bilavasitə yerli mal və xidmətlərin satın alınması yerli iqtisadiyyatın inkişafına töhfə verəcək. Bu, xüsusilə Layihənin bilavasitə təsirinə məruz qalan icmalara, eləcə də Layihə sahəsinə yaxın ərazidə yerləşən digər icmalara (məs., mümkün yaşayış məntəqələrindəki yerli yaşayış sahələri) aid olacaq.

- Milli/Regional Elektrik Enerjisi Sistemi

Layihə elektrik enerjisinə artan tələbatı ödəmək və mövcud, eləcə də planlaşdırılan enerji layihələrini, əsasən də bərpa olunan enerji mənbələrinin artımını inteqrasiya etmək məqsədilə Azərbaycanın Cənub-Şərqi və Mərkəzi Regionunda regional elektrik ötürücü şəbəkəsini gücləndirmək üçün "Azərenerji" tərəfindən bir neçə il ərzində həyata keçiriləcək strateji proqramın bir hissəsidir.

Daha dəqiq desək, Layihə aşağıdakıları təmin edəcəkdir:

- Təchizatın etibarlılığının artırılması və
- Ölkənin cənub-şərq regionunda planlaşdırılan bərpa olunan enerji mənbələrinin təhlükəsiz və etibarlı inteqrasiyası, nəticədə CO2 emissiyalarının azalmasına dəstək.

Bütövlükdə, elektrik verilişi xətləri və yarımstansiyalar Azərbaycanın bütün elektrik ötürücü sistemini müasirləşdirəcək və etibarlılığını artıracaq ki, bu da bütün ölkə əhalisinə faydalı təsir göstərəcək.

Torpaqların alınması

Layihə fəaliyyətləri müxtəlif əməliyyatlar üçün istifadə edilən müəyyən bir torpaq sahəsini daimi olaraq əhatə edəcək. EVX dayaqlarının tikiləcəyi ərazilərə girişi təmin etmək məqsədilə tikinti zamanı torpaqların bir hissəsi yalnız müvəqqəti olaraq tutulacaq. Buna görə də, Layihə torpağın müvəqqəti və daimi olaraq alınmasını tələb edəcək ki, bu da Layihə ilə əlaqədar torpaqların alınması nəticəsində ictimaiyyətə xüsusi iqtisadi təsirlər (aktivlərin itirilməsi) və/və ya torpaqdan istifadəyə məhdudiyyətlərlə[20] nəticələnə bilər. İnsanların fiziki yerdəyişməsi (köçürülmə və ya evsiz qalma) gözlənilmir.

Daimi və ya müvəqqəti olaraq bütün torpaq sahəsinin alınması müvafiq Azərbaycan qanunvericiliyinə[21] və beynəlxalq tələblərə (DB ƏMSS 5) uyğun şəkildə həyata keçiriləcək. Əgər torpaqların alınması icmaların iqtisadi yerdəyişməsinə səbəb olarsa, yaşayış vasitələri və həyat səviyyəsinin bərpasına kömək etmək məqsədilə uyğun tədbirlər Layihənin təfərrüatlı planına baxıldıqdan və təsirə məruz qalmış torpaq mülkiyyəti, habelə onun dəyəri haqqında ətraflı məlumat əldə edildikdən sonra hazırlanacaq müvafiq torpaqların alınması və köçürülməsi üzrə sənədlərə daxil ediləcək.

---

[20] Torpaqların alınmasına həm əmlakın birbaşa satın alınması, həm də giriş hüququ, məsələn, servitutlar və ya keçid hüquqlarının əldə edilməsi daxildir. (Mənbə: Beynəlxalq Maliyyə Korporasiyası (BMK), 5-ci fəaliyyət standartı: Torpaq sahələrinin əldə edilməsi və məcburi köçürülmə, 1 yanvar 2012-ci il)

[21] "Torpaqların dövlət ehtiyacları üçün alınması haqqında" Azərbaycan Respublikasının Qanunu, 20 aprel 2010-cu il № 987-IIIQ

[22]Azərbaycan Respublikasının müvafiq qanunvericiliyinə əsasən, 330 kV-luq elektrik verilişi xəttinin yaşayış məntəqələrində, o cümlədən əkin üçün yararlı torpaqlarda yerdən minimum şaquli boşluqları 20 metrdir. Bu minimum şaquli boşluq adətən iki dayaq arasındakı orta məsafədən hesablanır. Buna görə də, sahədə hündürlüyü təqribən 10 metrə çatmayan mədəni bitkilər (məsələn, əkinlər, üzüm bağları, meyvə bağları, digər qiymətli ağaclar və s.) daxil olmaqla, bütün kənd təsərrüfatı fəaliyyətlərinin ləğvinə ehtiyac olmayacaq və elektrik ötürücü xəttin çəkilişindən əvvəlki kimi gələcəkdə də istifadə oluna bilər. Bundan əlavə, cərgələr daxilində əkinçilik və mal-qaranın otarılmasının müxtəlif formaları mövcud milli qanunvericiliklə məhdudlaşdırılmır və ya tənzimlənmir. Bununla belə, LTMQİ-lərə kompensasiya ödənilməklə ailə kəndli təsərrüfatları ilə fərdi müqavilələrdə öz əksini tapacaq servitut mexanizmi vasitəsilə torpaqdan istifadə məhdudlaşdırılacaq və hüquqlar azaldılacaq.

EVX-lər üçün torpaqların alınması məqsədilə Layihə çərçivəsində beynəlxalq standartlar əsasında Köçürülmə Siyasəti üzrə Çərçivə sənədi hazırlanmışdır. Həmçinin, hər bir xətt üzrə EVX-lərin marşrutunun keçdiyi torpaqların kadastr siyahısı tərtib olunmuşdur və bu siyahı əsasında hər bir EVX üçün ayrıca Köçürülmə Fəaliyyət Planı hazırlanmışdır. Planda hər bir dayaq üçün alınacaq torpaq sahəsinin ölçüsü, ödəniləcək kompensasiya məbləği aydın şəkildə göstərilmişdir.

8.2.12. Gender və əhalinin həssas qrupları

Gender

Layihə ərazisində qadınlar ümumi əhalinin 51%-ni təşkil edir, layihə ərazisində ümumi əhalinin qadın-kişi nisbəti 0,980 nəfərdir (1000 qadına 980 kişi), tədqiqat sahəsində həm qadınların, həm də kişilərin savadlılıq səviyyəsi 99%-dir. Sorğuda iştirak edən əhalinin işçi qüvvəsində iştirakının təhlili göstərir ki, qadınların əksəriyyəti işçi qüvvəsi rolunda çıxış etmir. Məsləhətləşmələr isə bir çox qadının ödənişsiz ev işləri və marjinal işlərlə məşğul olduğunu ortaya çıxarır. Buna görə də, qadınlar işçi qüvvəsində demək olar ki, heç təmsil olunmurlar.

Cədvəl 8-7: Azərbaycan Respublikasının iqtisadi rayonları və inzibati ərazi vahidləri üzrə cinslərə görə əhalinin tərkibi (min nəfər) (1 iyul 2023-cü il tarixinə)[23]

Rayonlar	***Ümumi***		***Şəhərlər***		***kənd***	
	qadın	***kişi***	***qadın***	***kişi***	***qadın***	***kişi***
Azərbaycan Respublikası	***5087,5***	***5039,6***	***2807,9***	***2719,3***	***2279,6***	***2320,3***
Abşeron rayonu	*213,2*	*218,3*	*157,6*	*160,5*	*55,6*	*57,8*
Qobustan rayonu	*23,0*	*23,4*	*5,0*	*5,1*	*18,0*	*18,3*
Biləsuvar rayonu	*52,5*	*53,0*	*11,7*	*11,9*	*40,8*	*41,1*
Hacıqabul rayonu	*38,2*	*37,1*	*19,1*	*18,0*	*19,1*	*19,1*
Neftçala rayonu	*44,7*	*42,1*	*20,8*	*19,1*	*23,9*	*23,0*
Salyan rayonu	*69,6*	*69,0*	*23,1*	*21,4*	*46,5*	*47,6*

[22] "Gərginliyi 1000 voltadək olan elektrik şəbəkələrinin mühafizəsi Qaydaları"nın və "Gərginliyi 1000 voltdan yuxarı olan elektrik şəbəkələrinin mühafizəsi Qaydaları"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 10 iyun tarixli 103 nömrəli Qərarı

[23] https://www.stat.gov.az/source/gender/

Müxtəlif layihələr çərçivəsində, Ailə və Qadın Problemləri üzrə Dövlət Komitəsi 6 rayonda (Biləsuvar, Neftçala, Salyan, Hacıqabul, Qobustan, Qaradağ layihə rayonları daxil olmaqla) yaratdığı Qadın Resurs Mərkəzləri kənd və şəhərlərdə yaşayan qadınların iqtisadi və sosial həyatda fəal iştirakının dəstəklənməsi, onların işgüzar və sosial imkanlarının artırılması, eləcə də eləcə də iqtisadi fəal, sahibkar qadınlar arasında şəbəkə yaradılması istiqamətində fəaliyyətlərini genişləndirib.

Həssas əhali qrupları

Layihənin həssas əhali qruplarına təsir etmə ehtimalı var. Həssas qruplar digərlərinə nisbətən sabit iqtisadi vəziyyətin dəyişməsinin öhdəsindən çətinliklə gəldiyindən xüsusi köçürülmə yardımına ehtiyac duya bilərlər:

Torpaqdan istifadə məhdudiyyətləri və torpaqdan istifadə qaydasının dəyişdirilməsi ilə Layihənin potensial olaraq birbaşa təsirinə məruz qala biləcək həssas qrupların siyahısı tərtib edilib və aşağıda göstərilib:

- Yaşlı şəxslər.
- Hər iki valideynini itirmiş ailələr (atası-anası, yaxud atası və ya anası ölmüş şəxslər).
- Əlil övladı və ya əlil valideyni olan ailələr.
- Milli yoxsulluq həddində yaşayan aztəminatlı ailə. Dövlət Statistika Komitəsinin 2020-ci il üzrə təsnifatına (ən son dərc edilmiş məlumatlar) əsasən, bura ailə gəliri aylıq 195 manat (115 ABŞ dolları) və ya daha az olan yaxud da böyük miqdarda borcu olan ailələr daxil edilir.
- 14 yaşına çatmamış iki və ya daha artıq uşaq böyüdən, digər qohumlarından ayrı yaşayan dul qadın.
- Tək valideynli ailələrdə uşaq böyüdən analar və ya atalar.
- Hər iki valideynin işsiz olduğu ailələr.
- Təkbaşına yaşayan təqaüdçülər.
- Məcburi köçkün ailələri.
- Sağlamlıq vəziyyəti pis olan və ya fermer yaxud da maldar ailəsindəki öyrənməkdən məhrum edilən şəxslər; və
- Etnik mənsubiyyətinə, inanc sisteminə, sağlamlıq vəziyyətinə (İİV daxil olmaqla), cinsi və ya gender oriyentasiyasına/kimliyinə görə cəmiyyətdə ayrı-seçkiliyə məruz qalan şəxslər.

8.2.13. Köçürülmə də daxil olmaqla, torpaqdan istifadə

Layihə yenidən qurulacaq/təkmilləşdiriləcək və yeni tikiləcək elementlər arasında əhəmiyyətli fərqlərlə tikinti və istismar mərhələləri zamanı mövcud torpaq örtüyü formalarına və istifadə xüsusiyyətlərinə təsir göstərəcək. Bu bölmə Layihənin torpaq örtüyünün cari ilkin şəraitinin, habelə potensial təsirlərin icmalını təqdim edir və təsirin azaldılmasına dair prinsipial yanaşmanı təsvir edir.

ƏMSSTQ-nin bu mərhələsində ilkin vəziyyəti daha geniş kontekstdə təqdim etmək üçün yarımstansiyanın yerləşdiyi yer (Altlayihə 1) də daxil olmaqla, 1000 metr enində Yerüstü Hava Xətləri dəhliz(lər)indən (elektrik ötürücü xəttin uzununa oxundan hər iki tərəfdə 500 metr) istifadə olunur. Bu,

daha geniş ərazi üzrə mövcud torpaq istifadəsini və strukturunu müəyyənləşdirmək və Layihənin dolayı təsirlərini qiymətləndirmək üçün nümunəvi xarakter daşıyır və kifayətdir.

ƏMSSTQ Hesabatının məqsədləri üçün infrastruktur dəhlizi daxilində tədqiqat sahəsi (bu qiymətləndirmənin məqsədi üçün 100 metr enliyində dəhliz kimi müəyyən edilmişdir) cari əsas torpaq idarəçiliyi (məsələn, kənd təsərrüfatı torpaqları, meşələr, şəhər torpaqları və s.) birbaşa təsirləri və dəyişiklikləri nəzərə almaq üçün istifadə olunacaqdır. Bu zona Layihənin bilavasitə təsirinə məruz qalması gözlənilən, yəni elektrik verilişi xətlərinin tikintisi, istismarı və texniki qulluğu üçün müvəqqəti və/və ya daimi olaraq zəruri hesab olunan və əməliyyat zamanı hava elektrik xətlərinin texniki təhlükəsizliyini, insanların və ətraf mühitin mühafizəsini təmin etmək məqsədilə xüsusi torpaqdan istifadə qaydalarının müəyyən ediləcəyi torpaq sahələrinə əsaslanır.

Cari vəziyyət

Layihə komponentlərinin tədqiqat sahəsi daxilində torpaq örtüyünün müqayisəli şəkildə qiymətləndirilməsi torpaq örtüyünün nəzərdən keçirilməsi aşağıda təqdim olunan vebsayta əsasən aparılır[24].

Altlayihə 1 - Yeni 500/330 kV-luq Nəvahi yarımstansiyası

Bu altlayihə üçün ilkin torpaq örtüyü şərtləri aşağıda göstərilmişdir.

- Təsirə məruz qalan ərazinin nisbətən kiçik olması səbəbindən burada bitki örtüyünün yalnız bir sinfi - ot bitkiləri yer alır. Rayonun torpaqları boz-qəhvəyi, boz-çəmən, şoran torpaqlardan ibarətdir.

Altlayihə 2: 500 kV-luq Nəvahi YS – Abşeron YS elektrik verilişi xətti

Layihənin bu komponentinin tədqiqat sahəsindəki torpaq örtüyündə (aşağıdakı şəkil) ot bitkiləri örtüyü növləri (80%) üstünlük təşkil etməkdədir. Xəttin keçdiyi ərazilərdə torpaqlar əsasən əkin və örüş üçün istifadə olunur və kənd təsərrüfatı təyinatlı torpaq fonduna aiddir.

[24] *https://lcviewer.vito.be/2015/Azerbaijan*

Şəkil 8-12: Altlayihə 2 üçün nəzərdə tutulan trassanın torpaq örtüyü

Altlayihə 3: Yeni 330 kV-luq elektrik verilişi xətləri (Bankə GES-Nəvahi və Biləsuvar GES – Nəvahi ys)

Layihənin bu komponentlərinin tədqiqat sahəsindəki torpaq örtüyündə (aşağıdakı şəkil) ot bitkiləri (80%) üstünlük təşkil edir. Bu ərazilər, həmçinin əkin sahələrinin böyük payı (80%) və qismən otlaq sahələri (20%) ilə xarakterizə olunur.

Şəkil 8-13: Altlayihə 3 üçün nəzərdə tutulan trassanın torpaq örtüyü

Altlayihə 4: Mövcud yarımstansiyanın genişləndirilməsi işləri

Bu Altlayihə torpaqdan istifadə strukturunda heç bir dəyişiklik tələb etmir, çünki layihə komponentləri "Azərenerji"yə məxsus mövcud yarımstansiyanın hüdudları daxilində həyata keçiriləcəkdir.

Potensial təsirlər və əsas təsir azaltma tədbirləri

Ümumilikdə, Layihənin tikintisi və istismarı yeni 500/330 kV-luq yarımstansiya və nəzərdə tutulan yeni elektrik ötürücü xətlərlə əlaqədar olan müəyyən, lakin məhdudlaşdırılmış torpaqdan istifadəyə təsir göstərəcək. Bununla belə, bu hallarda torpağın transformasiyasının çox cüzi dərəcədə olması təxmin edilir və bu təsirlərin əhəmiyyəti çox güman ki, əhəmiyyətsizdir. Prinsipcə, Layihənin həyata keçirilməsi həm dövlət, həm də özəl torpaqlara təsir edəcək. Layihənin hazırlanması nəticəsində torpaqdan istifadədə yaranan dəyişikliklər həm ekoloji, həm də sosial elementləri nəzərdə tutur və prinsipcə, adətən aşağıdakı mövzuları əhatə edəcək:

- Yaşayış sahəsinin məhv edilməsi. Layihə tikinti işləri (o cümlədən giriş yolları) üçün bitki örtüyünün çıxarılmasını və hava xəttinin təmizlənməsi dəhlizinin yaradılmasını tələb edəcək. Bu da yaşayış sahəsinin, o cümlədən meşəlik ərazilərin müvəqqəti və daimi məhvi ilə nəticələnəcək. Yeni giriş yollarının tikintisi (zəruri hallarda) və mövcud yolların bərpası qeyri-qanuni ağac kəsmə, ov və ağacdan başqa, meşə məhsullarının toplanması hallarının artmasına kömək edə bilər. Bununla belə, Layihə ərazilərinin cari geniş əlçatanlıq səviyyəsinə görə bu risk ehtimalı aşağı kimi qiymətləndirilir.
- Yeni 500/330 kV-luq elektrik verilişi xətti şəbəkəsi (Altlayihə 2 və 3) olduqda, tədqiqat ərazisində üstünlük təşkil edən torpaq istifadəsi forması kimi kənd təsərrüfatı təyinatlı torpaqlar da daxil olmaqla, torpaqların istifadədən çıxarılması səbəbindən torpağın təyinatının dəyişdirilməsi. Layihənin tikintisi kənd təsərrüfatı torpaqlarının müvəqqəti istifadəsi və tikinti fəaliyyətləri üçün torpaqdan istifadə (o cümlədən, giriş yollarının mövcud olmaması) səbəbindən torpağın təyinatının dəyişdirilməsini tələb edəcəkdir. Zərurət yaranarsa, elektrik verilişi xətlərinin elektrik stansiyalarına dar zolaqlı şəkildə yanaşmasına yol açmaq üçün köçürülmə, eləcə də mövcud strukturların təmizlənməsi tələb oluna bilər. Toz əkin sahələrinə təsir edə, tikinti zamanı yaranan səs-küy və hərəkət sıxlığı mal-qaranı narahat edə bilər. Bundan əlavə, Layihə komponentləri çərçivəsində kənd təsərrüfatı torpaqlarının, əsasən kənd təsərrüfatı fəaliyyətini daimi olaraq poza biləcək yeni EVX dayaqlarının tikintisi üçün lazım olan torpaq sahəsinin daimi alınması (torpaqların istifadədən çıxarılması) tələb olunacaq. Bu, uzunmüddətli əməliyyat təsirləri ilə nəticələnən kənd təsərrüfatı fəaliyyətlərini qalıcı şəkildə pozacaq. Bundan əlavə, bu torpaq sahələrinin bölünməsinə də gətirib çıxara bilər.

Layihə üçün tələb olunan torpaqların istifadədən çıxarılması nəticəsində yaranan birbaşa qalıcı torpaq dəyişikliklərini/itkilərini azaltmaq üçün universal şəkildə tətbiq olunan heç bir tədbir yoxdur. Kənd təsərrüfatı və ya meşə torpaqlarının zəbt edilməsinin qarşısını almaq və insanların iqtisadi yerdəyişməsini mümkün qədər minimuma endirmək üçün əsas inkişaf prinsipi kimi torpaqların istifadədən çıxarılmasının təsirlərini azaltma tədbirləri Layihənin gələcək layihələndirmə prosesinə (yəni, HX dəhlizinin yerinin dəqiq tənzimlənməsi) daxil edilməlidir.

Azərbaycan Respublikasının müvafiq qanunvericiliyinə əsasən[25], 330 kV-luq elektrik verilişi xəttinin yaşayış məntəqələrində, o cümlədən əkin üçün yararlı torpaqlarda yerdən minimum şaquli boşluqları 20 metrdir. Bu minimum şaquli boşluq adətən iki dayaq arasındakı orta məsafədən hesablanır. Buna görə də, sahədə hündürlüyü təqribən 10 metrə çatmayan mədəni bitkilər (məsələn, əkinlər, üzüm bağları, meyvə bağları, digər qiymətli ağaclar və s.) daxil olmaqla, bütün kənd təsərrüfatı fəaliyyətlərinin ləğvinə ehtiyac olmayacaq və elektrik ötürücü xəttin çəkilişindən əvvəlki kimi gələcəkdə də istifadə oluna bilər. Torpaqdan istifadə qaydasının dəyişdirilməsi üçün təsirin azaldılması tədbirləri tikinti dövründə müvəqqəti istifadə edilmiş torpaqların bərpası ilə bağlı olacaq.

8.2.14. Əmək və iş şəraiti

Əmək və iş şəraiti dedikdə, işçilərin təhlükəsizliyi, sağlamlığı və rifahının qorunması ilə əlaqəli multidissiplinar sahə nəzərdə tutulur.

Tikinti fəaliyyətləri, düzgün idarə edilmədikdə, inşaatçıların rifahı baxımından potensial təhlükə yaradır. Ağır texnikanın, avadanlığın və kranların istifadəsindən yaranan fiziki zərərli amillərə məruz qalma, alətlər və avadanlıqlardan istifadə edərkən elektrik cərəyanına məruz qalma, hündürlükdə işləyərkən ilişib yıxılma, tikinti işləri zamanı səs-küyə məruz qalma, hündürdən düşən obyektlər də daxil olmaqla, Layihənin hər hansı tikinti sahəsində insan xəsarəti və yaralanması ilə əlaqədar əməyin mühafizəsi və texniki təhlükəsizliyə (ƏMTT) mənfi təsir riskləri mövcuddur.

Elektrik ötürücü qurğuların tikintisi üçün xarakterik olan əsas ƏMTT təhlükələrinə ilk növbədə aşağıdakılar daxildir:

Hündürlükdə iş: İşçilər dayaqların tikilməsi və elektrik xətlərinin çəkilməsi əməliyyatları zamanı hündürlükdə işləyərkən istehsalat travmasına məruz qala bilərlər.

Elektrik cərəyanı vurması: İşçilər xəttin elektrikləşdirilməsi və sınaqdan keçirilməsi ilə istismara vermə işləri zamanı cərəyanlı elektrikötürücü xətlərlə təmas nəticəsində istehsalat travmasına məruz qala bilərlər.

İstismar zamanı **ƏMTT riskləri** tikinti mərhələsindəki risklərlə bənzər olub, vaxtaşırı həyata keçiriləcək və/və ya az sayda işçinin cəlb ediləcəyi elektrik verilişi xəttinin istismarı və texniki qulluq fəaliyyətləri ilə məhdudlaşacaqdır. Ən əhəmiyyətli riskin elektrikləşdirilmiş hava elektrik xətlərindən mümkün elektrik cərəyanı vurması olduğu güman edilir.

İş şəraiti və işçilərin yerləşdirilməsi şəraiti Azərbaycan Respublikasının mövcud Əmək Qanunvericiliyinə əsasən müəyyən ediləcəkdir. Layihənin icrası zamanı potensial mənfi təsirləri azaltma tədbirləri Ümumi sosial idarəetmə üzrə Layihənin TƏMSSİP-i çərçivəsində bir sıra tematik planların yaradılmasını əhatə edəcəkdir. Həmin planlar (ən azı) aşağıdakılardır:

- Əməyin mühafizəsi və texniki təhlükəsizliyin idarə edilməsi planı

[25] *"Gərginliyi 1000 voltadək olan elektrik şəbəkələrinin mühafizəsi Qaydaları"nın və "Gərginliyi 1000 voltdan yuxarı olan elektrik şəbəkələrinin mühafizəsi Qaydaları"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 10 iyun tarixli 103 nömrəli Qərarı*

- Əmək resurslarının idarə edilməsi planı
- İşçilərin yerləşdirilməsinin idarə edilməsi planı
- Fövqəladə hallara hazırlıq və cavab tədbirləri planı

Bu sənədlərdə mənfi təsirləri azaltma tələbləri müəyyənləşdiriləcək və Layihənin icrasının əmək və iş şəraiti sahəsindəki müvafiq standartlara və qanunvericiliyə uyğunluğunun təmin edilməsi üçün tədbirlər göstəriləcəkdir.

Layihənin icrası zamanı əməyin mühafizəsi və texniki təhlükəsizlik göstəriciləri Azərbaycan Respublikasının qanunvericiliyinin tələblərinə və eyni zamanda, digər məsələlərlə yanaşı əməyin mühafizəsi və texniki təhlükəsizliyin idarə edilməsi sistemini də əhatə edən "Azərenerji" ASC-nin müvafiq siyasətlərinə uyğun gələcəkdir[26].

8.2.15. Əmək miqrasiyasının idarə edilməsi

Kənar bölgədən gələn işçilərin kobud rəftar etməsi, xüsusən də kiçik icmalar daxilində yerli icma birliyinə xələl gətirə bilər. Bu, gender əsaslı zorakılıq da daxil olmaqla, qeyri adi və ya zorakı davranış formaları və/və ya yoluxucu xəstəliklərin artması səbəbindən baş verə bilər. Bu kimi hallar işçilərin müəyyən davranışları nəzərdə tutan, eləcə də digər işçilərdən buna riayət etməsini tələb edən İşçinin Davranış Kodeksinə uyğun davranmalarını təmin etməklə idarə olunacaq; podratçıdan Məcəlləyə əməl etməsi tələb ediləcək və əks təqdirdə, o, işdən azad edilmə daxil olmaqla, cərimələrə məruz qalacaqdır. Bundan əlavə, "Azərenerji", Sifarişçinin nümayəndəsi və podratçı yerli hakimiyyət orqanları və icma liderləri ilə məsləhətləşəcək. Bu, onların (yəni, layihə menecerlərinin) insidentlərdən xəbərdar olmasını və problem baş verərsə, müvafiq tədbirlər həyata keçirməsini təmin edəcək. Yekunda, "Azərenerji" (Sifarişçinin nümayəndəsi vasitəsilə) və podratçı yerli hüquq-mühafizə orqanları ilə əlaqə saxlayacaq ki, onlar işçi qüvvəsinin axını, o cümlədən harada işləyib, yaşayacaqları barədə məlumatlı olsun və bu barədə müvafiq tədbirlər həyata keçirə bilsin.

Əmək miqrasiyası və bununla əlaqəli gender əsaslı zorakılıq (GƏZ), eləcə də uşaq əməyinin istismarı mövcud qanunlara əsasən aşağı kimi qiymətləndirilir. Tikinti işləri üzrə tender sənədlərində podratçıların məcburi əməkdən istifadəsini qadağan edən müddəalar yer almaqdadır. Məcburi əmək və gender əsaslı zorakılıq podratçılara nəzarət edən Layihənin İcra Qrupu (LİQ) rəsmiləri tərəfindən yoxlanılacaq və bu barədə hesabat veriləcəkdir. İcmanın əmək miqrasiyası və ya layihə ilə bağlı hər hansı digər məsələ ilə əlaqədar şikayətlərini həll etmək məqsədilə layihə səviyyəsində Şikayətlərin Həlli Mexanizmi (ŞHM) yaradılacaq.

Xüsusilə "Nəvahi" yarımstansiyasının tikintisi üçün işçilərin axını nəticəsində yoluxucu xəstəliklərin yayılması riskinin yüksəlməsi və qeyri-qanuni davranış, eləcə də cinayət səviyyəsinin artması ehtimalı var; lakin gələn işçi qüvvəsinin sayı və keyfiyyətləri bu ehtimalı azaldır. Bütün işçilərdən işçinin davranış kodeksini imzalamaları tələb olunacaq və onlara davranış kodeksi qaydalarının pozulması halında

[26] *"Azərenerji" müvafiq beynəlxalq standartlara (ISO 9001 - keyfiyyət idarəetmə, ISO 14001 - ətraf mühiti idarəetmə, ISO 45001 - peşə sağlamlığı və təhlükəsizliyi idarəetmə) əsasən sertifikatlaşdırılmış, keyfiyyət, ətraf mühit, sağlamlıq və təhlükəsizliyi özündə birləşdirən Siyasətlərə malikdir.*

görüləcək intizam tədbirləri barədə məlumat veriləcək. Yerdən qalan bütün təsirlər əhəmiyyətsiz hesab olunur.

İşçi qüvvəsinin axını daxili və qısamüddətli və ya ortamüddətli olmaqla dolayı mənfi təsir göstərir. Təsirin əhəmiyyəti (mənfi) həm tikinti zamanı, həm də istismar zamanı əhəmiyyətsiz kimi qiymətləndirilir.

8.2.16. Əməyin mühafizəsi və texniki təhlükəsizlik

İşçinin üzləşəcəyi əsas risklərin tikinti işləri zamanı fiziki, kimyəvi və bioloji təhlükələrə (ağır avadanlıqlardan istifadə, sürüşüb yıxılma təhlükəsi, səs-küyə və toza məruz qalma, hündürdən düşən obyektlər, təhlükəli materiallara, eləcə də alətlər və avadanlıqlardan istifadə edərkən elektrik təhlükələrinə məruz qalma) məruz qalma kimi elektrik verilişi xətlərinin qurulmasına dair sağlamlıq və təhlükəsizlik riskləri ilə əlaqədar olacağı təxmin edilir. Tikinti işləri təhlükəli olduğundan 18 yaşına çatmamış şəxslər layihəyə qəbul edilməyəcək. “Azərenerji”nin lazımi araşdırmalar aparmaq məqsədilə layihə sahələrinə planlaşdırılmamış səfərlər edəcək daxili audit və keyfiyyətə nəzarət departamenti fəaliyyət göstərir. Bir çox işçi iş yerində aşağıdakılar daxil olmaqla, lakin bunlarla məhdudlaşmayan, sağlamlıq və təhlükəsizlik risklərinə məruz qalacaq:

- Dartma işləri
- Hündürlükdə iş
- Elektrik cərəyanı və qövs xətası yanıqları
- Elektrik işləri
- Kimyəvi maddələrin təsirinə məruz qalma (boyalar, həlledicilər, transformator və açarlar üçün soyutma mayesi sürtkü yağları və yanacaq kimi)
- Taxtaların mişarla kəsilməsi və hündürdən düşməsi
- Sıldırım və təhlükəli ərazilərdə iş
- Yol qəzaları
- Qazıntı təhlükələri
- Ağır konstruksiyaların qaldırılması
- Qəzalar
- Tikinti sahəsinin havasında olan maddələrə (toz, silisium və asbest) məruz qalma
- Tikinti zamanı erqonomik təhlükələr
- Əlverişsiz ekoloji şəraitə məruz qalma təhlükəsi (ilan, arı, əqrəb və s.)
- Qaynaq təhlükələri (dumanlar, yanıqlar və güclü radiasiya şüası)
- Dayaqların quraşdırılması ilə əlaqəli təhlükələr (metal konstruksiyalar).
- Polad konstruksiyaların quraşdırılması zamanı təhlükələr

Bundan əlavə, Azərbaycanda tikinti layihələrinin həyata keçirilməsi təcrübəsinə əsasən, işçilərin məlumatlılığının olmaması, habelə FMV-nin taxılması və təhlükəsiz iş yeri təcrübəsi kimi ƏMTT tələblərinin yerinə yetirilməməsinin işçilər üçün potensial risk yarada biləcəyi güman olunur. İş yerindəki bu risklər "Əmək Fəaliyyətinin İdarə Edilməsi Planı"na daxil olan Siyasət və Qaydalara uyğun şəkildə azaldılmalıdır.

Torpaq işləri, qazma, polad quraşdırma və hündürlükdə iş kimi Layihənin aspektləri ilə bağlı bütün potensial risklər də daxil olmaqla, bu tip işlərin Əməyin Mühafizəsi və Texniki Təhlükəsizlik (ƏMTT) standartlarına tam uyğun olaraq həyata keçiriləcəkdir. ƏMTT siyasət və qaydaları ƏMSS 2-də göstərilən yanaşmaya əsaslanaraq, bu sahə üzrə ən yaxşı təcrübə mexanizmlərini, standart idarəetmə risklərinin qiymətləndirilməsi iyerarxiyası və əlaqəli təcrübələr, o cümlədən zəruri hallarda bütün işçilər üçün xüsusi tapşırıqlar üzrə maarifləndirmə və təlimləri əhatə etməlidir.

İlkin qiymətləndirməyə və "Azərenerji"nin təchizatçı və podratçılara tətbiq etdiyi sosial məsuliyyət proqramına əsasən, digər əmək riskləri əhəmiyyətli hesab olunmur. Uşaq əməyi və məcburi əməkdən istifadəni qadağan edən Əmək Məcəlləsinə əməl ediləcəyini nəzərə alsaq, əmək miqrasiyası və bununla əlaqədar yaranan gender əsaslı zorakılıq (GƏZ) və uşaq əməyi də daxil olmaqla, əmək resursları ilə bağlı risklər aşağıdır. GƏZ risklərinin azaldılmasına yönəlmiş təsir azaltma tədbirləri həmçinin Şirkətin Sosial Məsuliyyət Siyasəti və Ayrı-seçkilik, Təqib və Cavab Siyasətinə daxil edilmişdir. Layihə üçün hazırlanmış "Əmək Fəaliyyətinin İdarə Edilməsi Planı" layihədə iştirak edən bütün podratçılar və digər işəgötürənlər tərəfindən qəbul edilməli olan Korporativ Etik Davranış Kodeksini ehtiva edir.

8.2.17. İcmanın sağlamlığı və təhlükəsizliyi

Ümumilikdə, tikinti və aparılan əməliyyatların yerli icmalara və onların üzvlərinə potensial təsiri insanların elektrik veriliş xəttindən yaşadıqları məsafədən asılı olaraq dəyişir. Cədvəl 8-4-də elektrik veriliş xəttindən müəyyən məsafədə yerləşən kəndlər/yaşayış məntəqələri göstərilir. Cədvəldən göründüyü kimi, qeyd olunan kənd/yaşayış məntəqələrində yerləşən ailə kəndli təsərrüfatlarına birbaşa və ya dolayı təsir olmayacaq.

Cədvəl 8-8: Rayonlar üzrə yaşayış məntəqələri və onların altlayihəyə yaxınlıq məsafəsi

Rayonlar üzrə yaşayış məntəqələri və onların altlayihələrə yaxınlıq məsafəsi			
Rayonlar	**Yaşayış məntəqəsi**	**2022-ci ildə əhali**	**Yaşayış məntəqəsinə nisbi məsafə**
330 kV-luq ikidövrəli Biləsuvar GES - Nəvahi YS hava xətlərinin tikintisi - 90 km			
Biləsuvar	Biləsuvar şəhəri	23600	20 km
Salyan	Aşağı Noxudlu	700	1 km
	Salmanlı	1000	1 km
	Qardili	500	1 km
	Xələc	1300	500 m
	Kürsəngi	400	1 km
Hacıqabul	Nəvahi	3000	1200 m
330 kV-luq təkdövrəli Bankə GES - Nəvahi YS hava xəttinin tikintisi - 100 km			
Neftçala	Bankə	3700	700 m
Salyan	Xıdırlı	10000	500 m
Hacıqabul	Nəvahi	3000	1200 m
500 kV-luq təkdövrəli Nəvahi YS - Abşeron YS hava xəttinin tikintisi - 65 km			
Hacıqabul	Nəvahi	3000	1200 m

Rayonlar üzrə yaşayış məntəqələri və onların altlayihələrə yaxınlıq məsafəsi			
Rayonlar	**Yaşayış məntəqəsi**	**2022-ci ildə əhali**	**Yaşayış məntəqəsinə nisbi məsafə**
Qobustan	Yaşayış məntəqəsi yoxdur		
Abşeron	Qobu	18900	1500 m
	Atyalı	3700	1500 m
	28 may	2400	1500 m

Tikintidə nəqliyyatın hərəkəti

Aparılan tikinti işləri, ağır texnika və iriqabaritli nəqliyyat vasitələri, hərəkət intensivliyi və sıxlığının artması Layihə ərazisində normal yol hərəkəti rejiminə təsir göstərəcək. Tikinti düşərgəsində kifayət qədər inkişaf etmiş yol şəbəkəsi, habelə avadanlıq və materialların dəhliz boyunca daşınmasında çeviklik tələb olunduğundan Layihənin icrasında istifadə edilən əsas nəqliyyat növünün avtomobil nəqliyyatı olması proqnozlaşdırılır.

Aydındır ki, aparılan tikinti işləri bəzi yollarda, xüsusən də yerli yol şəbəkəsində və hərəkət sıxlığının adətən aşağı olduğu daxili yollarda avtomobil hərəkətinin artmasına səbəb olacaq. Tikinti işləri zamanı nəqliyyatın yaşayış məntəqələrinə təsirini minimuma endirmək üçün bir sıra təsirazaldıcı tədbirlər təklif edilməli və Layihənin Tikinti, Ətraf Mühit və Sosial İdarəetmə Planının (TƏMSİP) bir hissəsi kimi müfəssəl Nəqliyyatın İdarə Olunması Planı hazırlanmalıdır. Bu plan (i) tikinti nəqliyyatı vasitələri və sahə mexanizmlər parkının xüsusiyyətlərini müəyyən edəcək, (ii) Layihə çərçivəsində gözlənilən yol hərəkətini təsvir edəcək (səfərlərin tezliyi, iş saatları, konvoylar) və (iii) icmalarda tikinti nəqliyyatı parkının səbəb olduğu narahatlıqları minimuma endirmək və qəza riskini azaltmaq üçün tikinti dövründə həyata keçiriləcək bütün sahəyə aid tədbirləri ətraflı təsvir edəcək.

Elektromaqnit sahəsi (EMS)

Elektromaqnit sahəsi (EMS) hər hansı elektrik cihazı, o cümlədən elektrik xətləri tərəfindən yayılır. Elektrik sahəsi (ES) iki nöqtə arasındakı potensiallar fərqindən (yəni gərginlikdən) yaranır və kV/metr ilə ölçülür. Maqnit sahəsi (MS) elektrik cərəyanı ilə yaradılır və mikrotesla (µT) və ya nanotesla (nT) ilə ölçülür — bir tesla (T) 10.000 Qaussa bərabərdir. Elektrik sahələrindən fərqli olaraq, maqnit sahələr əksər materiallardan keçir və onlardan qorunmaq çətindir. Həm elektrik, həm də maqnit sahələri məsafənin kvadratı ilə tərs mütənasib şəkildə azalır. Buna görə də gərginliyin azalması Şəkil 8-11-də göstərildiyi kimi çox qısa məsafələrdə sürətlə baş verir. Birbaşa yüksək gərginlikli xəttin altında EMS 100 µT və ya daha yüksək səviyyələrə çatır, lakin 25 metrdən sonra adətən 10-20 µT olsa da, 1 µT qədər aşağı ola bilər.

Son 30 il ərzində EMS-yə məruz qalmanın sağlamlığa və ya ətraf mühitə mənfi təsirlərinin olub-olmadığını müəyyənləşdirmək üçün Avropa İttifaqında, ABŞ-da, eləcə də bütün dünyada geniş spektrdə tədqiqat işləri aparılmışdır. Ümumiyyətlə, EMS-yə məruzqalma elektrik mənbələrinin növləri, mənbəyə olan məsafə və bu mənbələrin yaxınlığında sərf olunan vaxtın miqdarından asılı olaraq dəyişir. Elmi

tədqiqatlarda diqqət daha çox maqnit sahələrinə yönəldilir, çünki ağac və divar kimi obyektlər elektrik sahələrini asanlıqla bloklayan və qoruyan fiziki maneələrdir.

Şəkil 8-13: 500 kV-luq gərginlikli dövrədən məsafə ilə elektromaqnit sahəsinin gücünün azalması (Üfüqi ox futla (0,331), Şaquli ox mq (Miqyasa bax) ilə göstərilir)

Maqnit sahələrinin intensivliyi mənbədən uzaqlaşdıqda sürətli şəkildə azaldığından HX-lərin, eləcə də yarımstansiyanın elektrik verilişi xətlərindən kifayət qədər uzaqda yerləşdiyini nəzərə alsaq (bax. yuxarıda Cədvəl 8-4), Layihənin ailə kəndli təsərrüfatlarında maqnit sahəsinin səviyyəsinə təsir etməsi gözlənilmir. Əksinə, yaşayış məntəqələrində maqnit sahəsi səviyyələrinin əsas mənbələri evin içərisindəki elektrik cihazlarıdır. Aydınlıq gətirmək üçün qeyd edək ki, əksər evdə AC maqnit sahəsinin səviyyəsi orta hesabla 0,1 ilə 10 µT arasındadır. Bunun səbəbi isə elektrik cərəyanının ev və məişət texnikası daxilindəki naqillərdən, habelə evdən kənarda elektrik xətlərindən keçməsidir. Gündəlik ortalama məruzqalma miqdarı ani, daha yüksək səviyyədə (məsələn, elektrik xəttinin altında avtomobil idarə etmək kimi) və uzunmüddətli, aşağı səviyyədə məruzqalma müddətinin (məsələn, ev daxilindəki naqillər kimi) cəmidir.

"Azərenerji" bütün layihələrində həm BMK, həm də Avropa İttifaqının tövsiyə etdiyi kimi, Qeyri-İonlaşdırıcı Radiasiyadan Mühafizə üzrə Beynəlxalq Komissiyanın (ICNIRP) Zamanla Dəyişən Elektrik, Maqnit və Elektromaqnit Sahələrinin Təsirinin Məhdudlaşdırılması üzrə Təlimatlarına əməl etməyi öhdəsinə götürür[27]. Bununla yanaşı, "Azərenerji" Azərbaycan Respublikası Səhiyyə Nazirliyi tərəfindən hələ də istifadə olunan keçmiş Sovet İttifaqının sənədi olan Əhalinin sənaye tezlikli dəyişən cərəyanın hava elektrik veriliş xətlərinin yaratdığı elektrik sahəsinin təsirindən qorunması üçün sanitariya Normaları və Qaydalarına əməl etməyi öhdəsinə götürür.

Elektrik avadanlıqlarından istifadə nəticəsində yaranan EMS-lər təyin edilən məruzqalma qaydalarına cavab verərsə, EMS-lərin təsiri əhəmiyyətli dərəcədə olmayacaq. Hər bir Layihə Komponenti üçün EMS-

[27] *Aİ ŞURASI-NIN (1999) 12 iyul 1999-cu il tarixli "İctimaiyyətin 0 Hs - 300 GHs arasında elektromaqnit sahələrinə məruz qalmanın məhdudlaşdırılması" haqqında Tövsiyə qərarı (1999/519/EC).*

lərin qiymətləndirilməsi ƏMSSTQ hesabatında təqdim ediləcəkdir. "Azərenerji" EMS ilə bağlı ictimai narahatlıqları qəbul edir və Layihələrin ictimaiyyətə açıqlanması üçün EMS haqqında bütün müvafiq məlumatların təqdim edilməsini təklif edir.

8.2.18. Mədəni irs

Tədqiqat sahəsi

İlkin qiymətləndirmə məqsədləri üçün tədqiqat sahəsinə Layihə komponentləri ətrafında 200 metrlik ərazidə qorunan mədəni irs obyektləri daxildir. Bu məsafə fiziki və tarixi keyfiyyətlər, eləcə də tikinti zamanı səs-küy, hava keyfiyyəti və yol hərəkətində baş verən dəyişikliklər səbəbindən təsirə məruz qalma ehtimalı olan ərazi hesab edilir. Şəkil 8-12-də Azərbaycanın HX-ləri və mədəniyyət nümunələri göstərilmişdir.

Azərenerji ASC-nin müvafiq sorğusu əsasında layihənin əhatə etdiyi ərazilərdə yerli və beynəlxalq əhəmiyyətli mövcud tarixi-mədəni irs abidələrinə dair məlumat Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin müvafiq məktubu ilə müvaviq siyahı və koordinatlarla birlikdə Əlavə D-də verilmişdir.

Şəkil 8-15. Azərbaycanın mədəniyyət abidələri və EHX-lər.

Cari vəziyyət

1) Altlayihə 1: 500/330kV-luq yarımstansiya

Nəzərdə tutulan yarımstansiya ərazisində və onun yaxınlığında mədəni irs abidəsi mövcud deyil.

2) Altlayihə 2: 500kV-luq Nəvahi YS – Abşeron YS elektrik verilişi xətti

Nəzərdə tutulan 500 kV-luq EVX-nin trassası (Nəvahi YS - Abşeron YS) heç bir məşhur mədəni irs obyekti və ya mədəni əhəmiyyətli yerlərdən keçmir. EVX-nin yaxınlığında aşkarlanmış dörd vulkandan Qoturdağ və Daşgil turistlərin marağını cəlb edən təbii sərvət hesab edilir; bu vulkanlar EVX-dən 3 km cənubda və təxminən 2 km şimal-qərbdə yerləşir (Bax - aşağıda Şəkil 7-17).

3) Altlayihə 3: 330 kV-luq EVX-lər (Bankə GES-Nəvahi YS və Biləsuvar GES – Nəvahi YS)

Nəzərdə tutulan 330 kV-luq EVX-lərin trassası (90 km uzunluğunda Biləsuvar KES – Nəvahi YS və 100 km uzunluğunda Bankə KES - Nəvahi YS) heç bir məşhur mədəni irs obyekti və ya mədəni əhəmiyyətli yerlərdən keçmir. Şirvan Milli Parkı 330 Kv-luq Nəvahi YS - Bankə GES EVX-nin nəzərdə tutulan trasından təhlükəsiz məsafədə (100 m) yerləşir.

4) Altlayihə 4: Mövcud yarımstansiyada genişləndirilmə işləri

"Abşeron" yarımstansiyası üçün nəzərdə tutulan genişləndirmə işləri "Azərenerji" ASC-yə məxsus mövcud yarımstansiyaların hüdudlarında, mədəni irs obyektləri və ya mədəni əhəmiyyətli artefaktların olmadığı ərazidə həyata keçiriləcək.

Layihə komponentlərin yaxın tarixi-mədəni irs abidələri

Azərenerji ASC tərəfindən Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinə göndərilmiş sorğu əsasında həmin xidmət tərəfindən layihə komponentlərinə yaxın ərazilərdə mövcud olan yerli və beynəlxalq əhəmiyyətli tarixi-mədəni irs abidələrinin siyahısı və koordinatları təqdim olunmuş və həmin koordinatlar kmz-sxemlərə işlənmişdir (bax şəkil 9-16).

Verilmiş siyahıya və koordinatlara əsasən söyləmək olar ki, EVX-lərə ən yaxın tarixi-mədəni irs abidəsi 1 km məsafədə yerləşən Xurşud nekropolu və Yuxarı Xələc yaşayış yeridir. Bu abidələr EVX-lərdən və onların dayaqlarından kifayət qədər uzaq məsafədə yerləşdiyi üçün hər-hansı təsirə məruz qalmayacaqdır.

Şəkil 8-16: Layihə komponentləri və yaxınıqda yerləşən tarixi-mədəni irs abidələri

L=235 km
L=235 km
L=235 km
L=220 km
L=220 km
L=220 km
L=220 km
Shixalibəyli ditch
Nargizava necropol
Shahargah cemetery
residential place
Old cemetery
Pirabağdad
Sofu Sadiq residential place and ovdan
Azərbaycan
Qaradağ
Sıqırlı
Garasu
Mollakənd
Muğan
Atjalar
Suqovuşan
Sabitabad
Şirvan REŞ--9.1 ha
Shirvan
Nizami
Saatlı
Qaracalar
Dədə Qorqud
Varxan
Xanlarkənd
Mircəlal
Azadkənd
Sımada
Moranlı
Sarxanbəyli
Poladtuğay
Qaraçala
Muğan Gəncə
Şalmanlı
Hesenlı
Khurshud necropol
Nokhudlu residence
Salyan SS
Salyan SS
Salyan
Marışlı
Sarvan
Ismatlı
Bilasuvar Solar PV Site
330 kV Biləsuvar GES
330 kV Biləsuvar GES
Bilasuvar
Dayikənd
Shorsulu
Ashagı Surra
Gadımkand
Khillı
Qırxchıraq residence
Shirvan National Park
Nord-Ost-Kultuk
330 kV Neftçala GES
Administrative bldng
Hacı Hashim bath
Nəvahi YS
Nəvahi YS
Nəvahi YS
Bridge
L=22 km
L=22 km
330 kV Ələt AIZ
Ələt
Pirsaat
Peyk
Varlı
Kürsəngi
Yuxarı Xalaj residence
Untitled Placemark
Untitled Placemark
L=80 km
L=80 km
L=92 km
L=92 km
L=92 km
L=65 km
L=65 km
L=65 km
L=62 km
L=62 km
L=62 km
500/330/220 kV Abşeron YS
330 kV Qobu ES
330 kV Qobu ES
330 kV Qobu ES
Qobustan
Sangachal
Bakı
Lökbatan
Zaqatala
Şamaxı
Sumqayıt
Binəqədi
Xırdalan
Şıxlar
Qaraçay
Şıxlı
Qarabağlı
Qushchu
Şıxlı
Şıxlı
Şıxlı

8.2.19 Potensial təsirlər və əsas təsir azaltma tədbirləri

Layihənin icrası zamanı əsas potensial təsir, torpağın qazılması səbəbindən məlum olmayan mədəni irs obyektlərinin (kəşf edilməmiş arxeoloji elementlər) qismən və ya tam çıxarılması və ya məhv edilməsi riski ilə əlaqədardır və bu, təsirin azaldılması yanaşmasının işlənib hazırlanmasını zəruri edir.

Tikinti işləri zamanı Layihənin TƏMSSİP-i çərçivəsində protokol ("təsadüfi tapıntı" proseduru) hazırlanmalı və tətbiq edilməlidir. Bu protokol mədəni irsin qorunmasına dair milli qanunvericiliyə uyğun olmalıdır[28]. İşçilər bu prosedurun tətbiqi ilə əlaqədar təlimatlandırılmalıdır.

Layihənin həyata keçirilməsi zamanı mədəni irs sərvətlərinə dəyən təsir çox az olacağına görə, bu aspektlər qiymətləndirməyə daxil edilməyib.

8.2.20 Kumulyativ təsirlər

Kumulyativ təsirlər dedikdə, qiymətli ekoloji və sosial komponentlər üzərində antropogen dəyişikliklərin zamanla və məkan boyunca ümumiləşdirici və ya interaktiv şəkildə toplanması nəzərdə tutulur. Beləliklə, kumulyativ təsirlər eyni yerə və ya əraziyə yaxın yerləşən iki və ya daha çox tikinti düşərgəsinin ətraf mühitdə yaratdığı dəyişikliklər məcmusudur və tikinti və ya istismara təsir növləri oxşar xarakterə, eləcə də qarşılıqlı təsir potensialına malikdir. Kumulyativ təsirlər, kumulyativ effektlər və ya kumulyativ ətraf mühit dəyişiklikləri sinonim kimi işlədilən ifadələrdir. Bir qayda olaraq, əsas kumulyativ təsirlər Layihələrarası təsirlər kimi baş verir – Layihənin yaxınlığında təklif edilən, tikilməkdə olan və ya razılaşdırılmış oxşar tipli və miqyaslı digər bir sıra tikintinin təsiri tövsiyə olunan layihənin təsirləri ilə birləşdirildikdə tədricən artan əhəmiyyətli təsirə malik ola bilər.

Prinsip etibarilə, bu elektrik ötürücü xəttin qurulması üçün kumulyativ təsirlər çox güman ki, inşaat zamanı tikinti işləri ilə bağlı tipik təsirlər (havanın çirklənməsi, tikinti işlərinin səs-küyündən yaranan narahatlıq, yol hərəkətinin pozulması və s.) şəklində və ya istismar müddətində ətrafdakı oxşar tipli (məsələn, digər elektrik ötürücü xətt layihələr, külək enerjisi sahəsində inkişaflar və s.) və ölçülü layihələrlə qarşılıqlı əlaqə nəticəsində baş verə bilər.

Layihənin Ətraf Mühit və Sosial sahəyə təsirinin qiymətləndirilməsi məqsədilə Layihənin icrası nəticəsində yaranan kumulyativ təsirlərin digər təklif olunan inkişaflarla birlikdə qiymətləndirilməsi, ilk növbədə, qiymətləndirmə ilə əlaqəli hesab olunan planlaşdırma sənədlərinin analitik tədqiqatını təşkil etmişdir. Analitik tədqiqatın mərkəzində müvafiq layihələrin arxa planı, ehtimal olunan başaçatma müddəti və mümkün nəticələri ilə bağlı məlumat toplanmışdır. Bundan əlavə, bu proseslər onların Layihə ilə potensial zaman və məkan qarşılıqlı əlaqəsini qiymətləndirmək məqsədilə nəzərdən keçirilmişdir.

---

[28] *"Azərbaycan Respublikasında mədəni irs nümunələrinin qorunması, bərpası və istifadəsi Qaydası"nın təsdiq edilməsi barədə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 14 iyul tarixli 266 nömrəli qərarı*

8.3. Potensial təsirlərin xülasəsi

Cədvəl 8-9-da layihə komponentlərinin bütün ekoloji və sosial-iqtisadi resurslara potensial təsirləri ümumiləşdirilmişdir. Elektrik verilişi xəttinin və yarımstansiyanın tikintisinin və istismarının bir çox və ya əksər potensial təsirləri ümumiyyətlə əhəmiyyətsiz hesab edilir və adətən onların qarşısını almaq üçün xüsusi tədbirlər tələb etmir və ya ümumi qəbul olunmuş mütərəqqi beynəlxalq sahəvi təcrübələrinin tətbiqi sayəsində təsirin azaldılması təmin edilir.

Bununla belə, bu layihə ilə bağlı bir neçə orta və ya böyük neqativ təsirlər mövcuddur ki, bunlar təsirlərin qarşısını almaq və ya azaltmaq üçün xüsusi tədbirlər tələb edir. Bunlar ilk növbədə biomüxtəlifliyə (flora, fauna və yaşayış arealı) potensial təsirlər və fiziki və iqtisadi yerdəyişmə nəticəsində yaranan təsirlərdir. Mülayim və güclü potensial təsirlər və bu təsirlərin qarşısını almaq və ya azaltmaq üçün tələb olunacaq yumşaldıcı tədbirlər Cədvəl 8-9-da ümumiləşdirilmişdir və aşağıdakıları ehtiva edir:

- 330 kV-luq Bankə GES – Nəvahi YS EVX-sinin bir hissəsi (1750 m, 7 dayaq) Şirvan Milli Parkının ərazisindən, mövcud EVX-yə paralel şəkildə keçir və bu hissədə tikinti zamanı Milli Parkın biomüxtəlifliyinə təsir göstərməmək üçün ciddi qoruyucu tədbirlər görülməlidir. Belə tədbirlər bunlarla məhdudlaşmamaqla aşağıdakıları ehtiva edir:
    - Çoxalma və ya miqrasiya mövsümləri kimi vəhşi təbiət üçün kritik dövrlərdən qaçmaq üçün tikinti işlərini planlaşdırın.
    - Yaşayış areallarının parçalanmasını minimuma endirmək üçün giriş yollarını məhdudlaşdırın və mümkün olan yerlərdə mövcud yollardan istifadə edin.
    - Yaşayış arealının pozulmasını azaltmaq üçün tikinti işçiləri və avadanlıqlarını təyin olunmuş ərazilərdə saxlayın.
    - Bitki örtüyünün itkisini minimuma endirmək üçün selektiv təmizləmə üsullarını tətbiq edin. Böyük torpaq sahələrini təmizləməkdən çəkinin və mümkün qədər çox təbii bitki örtüyü saxlayın.
    - Bitki örtüyünün itkisini kompensasiya etmək üçün tikintidən sonra əraziləri bərpa edin.
    - Torpağın və su obyektlərinin çirklənməsinin qarşısını almaq üçün çirklənməyə ciddi nəzarət tədbirləri həyata keçirin. Buraya tullantıların idarə edilməsi, neft dağılmalarının qarşısının alınması, toz və səs-küy çirklənməsinə nəzarət daxildir.
    - Vəhşi təbiətin mühafizəsi: Quşların toqquşmasının və elektrik cərəyanı vurmasının qarşısını almaq üçün EVX-də quş yönləndiriciləri və ya markerlər quraşdırın.
- 500 kV-luq Nəvahi YS – Abşeron YS EVX-sinin bir hissəsi Qobustan palçıq vulkanlarının yerləşdiyi ərazidən keçir və bu ərazinin biomüxtəlifliyinə təsir göstərməmək üçün ciddi qoruyucu tədbirlər görülməlidir. Belə tədbirlər bunlarla məhdudlaşmamaqla aşağıdakıları ehtiva edir:
    - Əraziyə giriş: Torpaq səthinn pozulmasını minimuma endirmək üçün mövcud yollardan və cığırlardan istifadə edin. Müvəqqəti giriş marşrutlarını yalnız zəruri hallarda yaradın və onların sabit olmasını təmin edin.
    - Püskürmələrin qarşısını almaq üçün aktiv palçıq vulkanı sahələrinin yaxınlığında ağır texnikanın işləməsindən çəkinin.
    - Eroziya və Çöküntülərə Nəzarət: Yaxınlıqdakı su hövzələrində torpaq eroziyasının və çökmənin qarşısını almaq üçün lil hasarları, çöküntü tələləri və eroziyaya nəzarət örtükləri kimi eroziyaya qarşı mübarizə tədbirlərini həyata keçirin.

- Bitki örtüyü və ya digər uyğun materiallardan istifadə edərək, pozulduqdan dərhal sonra açıq torpağı sabitləşdirin.
- Çirklənmənin qarşısının alınması: Tullantıları idarə etmək, neft dağılmalarının qarşısını almaq, toz və səs-küy çirklənməsinə nəzarət etmək üçün ciddi protokollar tətbiq edin.
- Torpağın və suyun çirklənməsinin qarşısını almaq üçün təhlükəli materialların düzgün saxlanmasını və idarə olunmasını təmin edin.
- Sağlamlıq və təhlükəsizlik: Potensial püskürmələr və yerin qeyri-sabitliyi də daxil olmaqla palçıq vulkanı əraziləri ilə bağlı unikal təhlükələr barədə işçiləri məlumatlandırın.
- Palçıq vulkanı ərazilərində və ətrafında işləmək üçün təhlükəsizlik protokollarını hazırlayın və tətbiq edin.

Cədvəl 8-9: Potensial təsirlərin xülasəsi

Reseptor	Reseptorun həssaslığı	Potensial təsir	Təsirin şiddəti və müddəti	Əhəmiyyəti
Landşaft və görünüş				
Sakinlər	Orta	Tikinti, ərazidə Dayaqların və naqillərin olması səbəbindən mövcud mənzərə görünüşlərinin pozulması	Az və daimi	Az neqativ
Yarımstansiya yaxınlığında sakinlər	Aşağı	Tikinti, qüllələr, naqillər və yarımstansiyaya görə kənd təsərrüfatı torpaqlarının cari görünüşlərinin pozulması	Az və daimi	Cüzi neqativ
Torpaqdan istifadə				
Yaşayış sahələri	Yüksək	Evlərin və binaların köçürülməsi və sökülməsi	Dəyişiklik yoxdur	yoxdur
Biomüxtəliflik dəyərinə görə qorunan ərazilər	Yüksək	Şirvan Dövlət Təbiət Qoruğu istisna olmaqla, birbaşa təsir görünmür	Çox və aşağı (fərdlər üçün müvəqqəti)	Cüzi neqativ
Mədəni və ya təbii irs baxımdan qorunan ərazilər	Yüksək	Birbaşa təsir yoxdur, lakin bəzi nöqtələrdən uzaqda xətt görünəcək	Çox aşağı (fərdlər üçün müvəqqəti)	Mülayim neqativ
İllik əkin üçün istifadə olunan kənd təsərrüfatı torpaqları	Orta	Dayaqların özülləri üçün xüsusi mülkiyyətdə olan torpaqlar itiriləcək (Azerenerji tərəfindən alınır), məhdudiyyətlər qoyulur, lakin 60 m dəhlizdə digər torpaqların istifadəsində dəyişiklik olmayacaq.	Az və daimi	Az neqativ
Əkin olunmayan kənd təsərrüfatı torpaqları	Aşağı	Dayaqların özülləri üçün xüsusi mülkiyyətdə olan torpaqlar itiriləcək (Azerenerji tərəfindən alınır), məhdudiyyətlər qoyulur, lakin 60 m dəhlizdə digər torpaqların istifadəsində dəyişiklik olmayacaq.	Aşağı və daimi	Az neqativ
Çoxillik bitkilər	Yüksək	Meyvə bağları <8m-ə qədər kəsiləcək	Aşağı və daimi	Az neqativ
Otlaq/ kolluq/ boş torpaq	Aşağı	Dayaqların özülləri üçün xüsusi mülkiyyətdə olan torpaqlar itiriləcək (Azerenerji tərəfindən alınır),	Aşağı və daimi	Az neqativ

Reseptor	Reseptorun həssaslığı	Potensial təsir	Təsirin şiddəti və müddəti	Əhəmiyyəti
		məhdudiyyətlər qoyulur, lakin 60 m dəhlizdə digər torpaqların istifadəsində dəyişiklik olmayacaq.		
Digər torpaqlar	Aşağı	Təhlükəsizlik zonasında torpaqdan istifadəyə məhdudiyyətlər	Çox aşağı və daimi	Cüzi neqativ
Süxurlar və geoloji şərait				
Dik və mülayim yamaclar üzrə qüllələrdə və yollarda yer səthi (daş-qaya və torpaq) (torpağın düzlənməsindən təsirlənmiş)	Yüksək	Torpağın əhəmiyyətli dərəcədə eroziyası, bitki örtüyünün dəstəklənməsi qabiliyyətinin pozulması, torpaq sürüşməsi	Yüksək və daimi	Çox neqativ
Az maili yamaclarda və düz torpaqda yer səthi	Orta	Torpağın üst qatının cüzi və ya orta dərəcədə aşınması, bitki örtüyünün dəstəklənməsi qabiliyyətinin pozulması	Orta və müvəqqəti	Mülayim neqativ
Hava keyfiyyəti				
Sakinlər və qonaqlar	Yüksək	Tikinti və texniki xidmət zamanı uçan toz əmələ gəlməsi	Aşağı və müvəqqəti	Az neqativ
		Tikinti və texniki xidmət zamanı avtomobil emissiyaları	Çox aşağı və müvəqqəti	Cüzi neqativ
		Yarımstansiyanın istismarı zamanı SF6 emissiyaları	Çox aşağı və daimi	Cüzi neqativ
		EVX-nin istismarı zamanı ozon və NOx emissiyaları	Çox aşağı və daimi	Cüzi neqativ
		Uçan toz bitki üzərinə çökür və böyüməyə mane olur	Aşağı və daimi	Az neqativ
Səs-küy				

Reseptor	Reseptorun həssaslığı	Potensial təsir	Təsirin şiddəti və müddəti	Əhəmiyyəti
Kənd ərazilərində sakinlər və qonaqlar	Yüksək	EVX, yol və yarımstansiya tikinti səs-küyü	Aşağı və müvəqqəti	Az neqativ
		İstismar zamanı korona səs-küyü	Aşağı və daimi (dəhlizdə) Cüzi (dəhlizdən aralıda)	Dəhlizdə az, Kənarda cüzi
Yarımstansiya yaxınlığında sakinlər və qonaqlar	Ortadan aşağıya qədər	Tikinti səs-küyü	Aşağı və müvəqqəti	Cüzi neqativ
		İstismar zamanı korona səs-küyü	Çox aşağı (>50m) ilə aşağı (<50m) və daimi	Az və ya cüzi neqativ
100-200 m məsafədə fauna	Ortadan yüksəyə qədər	Tikinti səs-küyü	Orta və müvəqqəti	Mülayim neqativ
		İstismar zamanı korona səs-küyü	Aşağı və daimi	Az neqativ
Su təchizatı və keyfiyyəti				
İri axınlar və çaylar	Aşağı	Kipləşdirmə və torpağın strukturunun pozulması nəticəsində eroziyadan axınların çöküntü ilə dolması	Aşağı və müvəqqəti	Cüzi neqativ
		Daşqın axınlarının pozulması	Cüzi və daimi	Cüzi neqativ
		Daşmalara görə çirklənmə	Aşağı və müvəqqəti	Cüzi neqativ
		Herbisidlərdən istifadə nəticəsində çirklənmə	Aşağı və müvəqqəti	Yoxdur
Kiçik axınlar və drenaj yolları	Yüksək	Kipləşdirmə və torpağın strukturunun pozulması nəticəsində eroziyadan axınların çöküntü ilə dolması	Orta və müvəqqəti	Az neqativ
		Daşqın axınlarının pozulması	Aşağı və daimi	Cüzi neqativ
		Daşmalara görə çirklənmə	Orta və müvəqqəti	Az neqativ
		Herbisidlərdən istifadə nəticəsində çirklənmə	Yüksək və müvəqqəti	Yoxdur

Reseptor	Reseptorun həssaslığı	Potensial təsir	Təsirin şiddəti və müddəti	Əhəmiyyəti
Yeraltı sular	Yüksək	Torpağın kipləşdirilməsi səbəbindən dolmanın azalması	Aşağı və müvəqqəti	Az neqativ
		Daşmalar nəticəsində çirklənmə	Aşağı və daimi	Az neqativ
		Su çəkmə səbəbindən suyun mövcudluğunun azalması	Aşağı və daimi	Cüzi neqativ
İqlim				
İqlim	Yüksək	Artan istixana qazı emissiyaları (CO2, SF6), bitki örtüyünün çıxarılması yolu ilə karbon "uducusunun" yoxa çıxması	Cüzi və daimi	Cüzi neqativ
Ötürücü xətt	Orta	Fırtına və sürüşmə nəticəsində qüllənin çökməsi və ya külək nəticəsində xətlərin qırılması səbəbindən artan elektrik kəsilməsi	Orta və müvəqqəti	Az neqativ
Flora				
Ümumi ağac növləri	Aşağı	- Qüllələrdə, tikinti zonalarında, giriş yollarında, yarımstansiyada kəsiləcək bütün ağaclar - Koridorda 1-8 m-dən çox ağac kəsilir	Orta və daimi	Mülayim neqativ
Ümumi kol növləri	Aşağı	- Qüllələrdə, tikinti zonalarında, giriş yollarında, yarımstansiyada kəsiləcək bütün ağaclar - Koridorda 1-8 m-dən çox ağac kəsilir	Orta və daimi	Mülayim neqativ
Konservasiya qayğısı olan ağac növləri	Yüksək	- Qüllələrdə, tikinti zonalarında, giriş yollarında, yarımstansiyada kəsiləcək bütün ağaclar - Koridorda 1-8 m-dən çox ağac kəsilir	Orta və daimi	Çox neqativ
Konservasiya qayğısı olan kol növləri	Yüksək	- Qüllələrdə, tikinti zonalarında, giriş yollarında, yarımstansiyada kəsiləcək bütün ağaclar - Koridorda 1-8 m-dən çox ağac kəsilir	Yüksək və daimi	Çox neqativ

Reseptor	Reseptorun həssaslığı	Potensial təsir	Təsirin şiddəti və müddəti	Əhəmiyyəti
Meyvə və qoz ağacları (meyvə bağları)	Yüksək	- Qüllələrdə, tikinti zonalarında, giriş yollarında, yarımstansiyada kəsiləcək bütün ağaclar - Koridorda 1-8 m-dən çox ağac kəsilir	Az və daimi	Az neqativ
Yaşayış arealları				
Təbii areal	Orta	Təbii yaşayış mühitinin itirilməsi	Orta və daimi	Mülayim neqativ
		İlkin ekoloji funksiyaların və növ tərkibinin modifikasiyası	Orta və daimi	Mülayim neqativ
		İnvaziv növlərin gəlməsi və ya artması	Aşağı və daimi	Az neqativ
Dəyişən areal	Aşağı	Biomüxtəliflik dəyərinin azalması	Aşağı və daimi	Az neqativ
Quru faunasının ümumi növləri	Orta-aşağı	Əzilmə və ya birbaşa təsir nəticəsində heyvan ölümü	Aşağı və daimi	Az neqativ
		Tikintinin yaratdığı pozuntu səbəbindən təbii areal ərazilərinin tərk edilməsi	Aşağı və müvəqqəti	Az neqativ
		Tikintinin yaratdığı pozuntu səbəbindən heyvanların öz yuvasını tərk etməsi/yuvanın dağıdılması	Aşağı və müvəqqəti	Mülayim neqativ
		Hündür ağaclardan alçaq bitki örtüyünə dəyişməyə görə növ tərkibində dəyişiklik	Aşağı və daimi	Mülayim neqativ
		İşçinin heyvanlara və ya yuvalara müdaxiləsi	Aşağı və müvəqqəti	Mülayim neqativ
Konservasiya qayğısı olan quru fauna növləri	Yüksək	Əzilmə və ya birbaşa təsir nəticəsində heyvan ölümü	Aşağı və daimi	Az neqativ
		Tikintinin yaratdığı pozuntu səbəbindən təbii areal ərazilərinin tərk edilməsi	Aşağı və müvəqqəti	Az neqativ
		Tikintinin yaratdığı pozuntu səbəbindən heyvanların öz yuvasını tərk etməsi/yuvanın dağıdılması	Aşağı və müvəqqəti	Mülayim qarışıq +/-
		Hündür ağaclardan alçaq bitki örtüyünə dəyişməyə görə növ tərkibində dəyişiklik	Aşağı və daimi	Mülayim neqativ

Reseptor	Reseptorun həssaslığı	Potensial təsir	Təsirin şiddəti və müddəti	Əhəmiyyəti
		İşçinin heyvanlara və ya yuvalara müdaxiləsi	Aşağı və müvəqqəti	Mülayim neqativ
Köçəri quşlar (yırtıcılar, su quşları, suda üzən quşlar)	Aşağı-orta	Xətlə toqquşa nəticəsində xəsarət və ya tələf olma	Aşağı və daimi	Az neqativ
Böyük quşlar (yırtıcılar, durnalar və s.)	Orta	Elektrik cərəyan vurması nəticəsində ölüm	Aşağı və daimi	Az neqativ
İcmaların sağlamlığı və təhlükəsizliyi				
İcma	Orta	İşçilərin axını: icma həyatının pozulması, cinayət və s.	Aşağı və müvəqqəti	Az neqativ
		Birbaşa təsirlər: xidmətlərdə sıxlıq, təxirə salınmaz yardımda təzyiqlər	Çox aşağı və müvəqqəti	Cüzi neqativ
İcma üzvləri (fərdlər)	Yüksək	Xəstəliklər	Çox aşağı və müvəqqəti	Az neqativ
		Zorakı davranış (GƏZ daxil)	Aşağı və müvəqqəti	Mülayim neqativ
		Narahatlıq və təhlükəsizlik: səs-küy, toz	Aşağı və müvəqqəti	Mülayim neqativ
Fiziki və iqtisadi yerdəyişmə				
60 m dəhlizdə evlər	Yüksək	Fiziki yerdəyişmə / köçmə	Dəyişiklik yoxdur	Yoxdur
Torpaq sahibləri	Orta-yüksək	Qüllə özüllərində, bəzi yollarda, yarımstansiya sahəsində daimi torpaq itkisi	Orta və daimi	Mülayim neqativ
		60 m dəhlizdə müvəqqəti torpaq itkisi (tikinti)	Aşağı və müvəqqəti	Az neqativ
		250 m dəhlizdə torpaqdan istifadəyə məhdudiyyət	Aşağı və müvəqqəti	Az neqativ
Torpaq istifadəçiləri (torpağın sahibi olmayanlar)	Orta	Azerenerji tərəfindən alınacağı üçün torpaqdan istifadə imkanının itirilməsi	Aşağı və daimi	Az neqativ
		Digər torpaqdan istifadə imkanının itirilməsi	Çox aşağı və müvəqqəti	Cüzi neqativ

Reseptor	Reseptorun həssaslığı	Potensial təsir	Təsirin şiddəti və müddəti	Əhəmiyyəti
İşçilərin sağlamlığı, əmək təhlükəsizliyi və rifahı				
İşçilər (podratçılar və Texniki Nəzarət Məsləhətçisi)	Yüksək	İşçi qüvvənin zəif idarəetmə təcrübələri	Orta və müvəqqəti	Mülayim və çox neqativ
		Təhlükəli iş şəraiti	Yüksək və daimi yaxud müvəqqəti	Çox neqativ
		Narahatlıqları ifadə edə bilməmək	Orta və müvəqqəti	Mülayim neqativ
		Qeyri-standart yaşayış yerləri	Orta və müvəqqəti	Mülayim neqativ
		Antisanitar şərait	Orta və müvəqqəti	Mülayim neqativ
İqtisadi şərtlər				
Gəlir	Aşağı	Məşğulluğun artması hesabına milli və regional gəlir	Çox aşağı və müvəqqəti	Cüzi pozitiv
	Orta	Artan məşğulluq hesabına yerli gəlir	Aşağı və müvəqqəti	Cüzi pozitiv
	Orta	Yerli təchizatçıların artan gəlirləri	Aşağı və müvəqqəti	Cüzi pozitiv
Əsas iqtisadi sektorlar	Aşağı-yüksək	Daha etibarlı enerji təchizatı	Yüksək və daimi	Çox pozitiv
		Kənd təsərrüfatı məhsullarının azalması	Aşağı və müvəqqəti	Az neqativ
		Azalan turizm	Aşağı və müvəqqəti	Cüzi neqativ
İnfrastruktur	Aşağı-orta	Zədələnmiş ictimai yollar	Aşağı və müvəqqəti	Az neqativ
		Zədələnmiş kənd yolları/cığırları	Orta və müvəqqəti	Mülayim neqativ
		Zədələnmiş dəmir yolu xətti və qatar hərəkətinin pozulması	Aşağı və müvəqqəti	Az neqativ
Mədəni irs				
Mədəni və təbii abidələr	Yüksək	Tikinti zamanı səs-küy	Aşağı və müvəqqəti	Mülayim neqativ
		İşçilərin narahatlıq yaratması	Çox aşağı və müvəqqəti	Az neqativ
		Birbaşa təsirlər	Çox aşağı və daimi	Az neqativ
Təsadüfi tapıntılar	Yüksək	Arxeoloji sahənin və ya ayrı-ayrı artefaktların zədələnməsi və ya məhv edilməsi	Aşağı və daimi	Mülayim neqativ

8.4. Ətraf mühitin monitorinqi

Ətraf mühitin monitorinqi Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 2004-cü il 1 iyul tarixli 90 nömrəli qərarı ilə təsdiq edilmiş "Ətraf mühitin və təbii ehtiyatların dövlət monitorinqinin aparılması qaydaları haqqında Əsasnamə"yə əsasən hazırlanmışdır. Adıçəkilən əsasnamə ətraf mühitin və təbii ehtiyatların dövlət monitorinqinin aparılması qaydalarını tənzimləyir.

Ətraf mühitin monitorinqi - təbii və antropogen təsirlər nəticəsində ətraf mühitə yayılan zərərli qaz, maye və bərk haldakı tullantılara kəmiyyət və keyfiyyət cəhətdən nəzarətin elmi əsaslarla həyata keçirilməsi olub, hava, su, torpaq mühitlərinin vəziyyətlərinin qiymətləndirilməsi və proqnozlaşdırılması məqsədilə onların kimyəvi tərkibini, çirklənmə dərəcəsini, radioaktiv, hidrobioloji xüsusiyyətlərini, fiziki xassələrini müəyyən edən müntəzəm müşahidə və tədqiqatlar sistemindən ibarətdir.

Ətraf mühitin və təbii ehtiyatların dövlət monitorinq sistemini Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi yaradır və bu fəaliyyəti Azərbaycan Respublikasının digər müvafiq icra hakimiyyəti orqanları ilə birgə həyata keçirir.

Təbiətdən istifadəçilər ətraf mühitin mühafizəsi sahəsində dövlət nəzarətini həyata keçirən orqanların tələbi ilə ətraf mühitin və təbii ehtiyatların monitorinqi üzrə Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən müəyyən edilmiş formalar əsasında lazımi məlumatlar təqdim edirlər.

Ətraf mühitin və təbii ehtiyatların dövlət monitorinqi Azərbaycan Respublikasının qanunları, Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamları, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamları, ətraf mühitin mühafizəsi sahəsində Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələr (konvensiyalar, sazişlər və s.) və qeyd edilən bu Əsasnamə əsasında həyata keçirilir.

Ətraf mühitin və təbii ehtiyatların dövlət monitorinqi sisteminə aşağıdakılar daxildir:

- atmosfer havasının monitorinqi;
- su obyektlərinin monitorinqi;
- torpaqların monitorinqi;
- mineral-xammal ehtiyatlarının monitorinqi;
- bioloji ehtiyatların monitorinqi;
- atmosfer yağıntılarının (yağış, qar) monitorinqi;
- radioaktivliyin monitorinqi;
- ətraf mühitə zərərli fiziki təsirlərin monitorinqi;
- tullantıların monitorinqi;
- sanitariya-epidemioloji monitorinq;
- ekzogen geoloji və seysmogeodinamik proseslərin ətraf mühitin vəziyyətinə təsirinin monitorinqi;
- xüsusi mühafizə olunan təbiət ərazilərinin monitorinqi.

Cədvəl 8-10. Ətraf mühitin monitorinq proqramı

Tədbir	Nə *(monitorinq ediləcək?)*	Harada *(monitorinq ediləcək?)*	Necə *(monitorinq ediləcək?)*	Nə vaxt *(Hansı tezliklə yoxsa davamlı olaraq?)*	Nə üçün *(monitorinq edilir?)*	Kim *(monitorinqə cavabdehdir?)*
Bütün tikinti işləri	Texniki tərəqqi və təsirlərin azaldılması tədbirlərinin həyata keçirilməsi, Azərbaycanın ƏMS üzrə qanunvericiliyinə, Dünya Bankının Ətraf Mühit və Sosial Çərçivə Sənədinə və P-ƏMSİP-ə əməl olunması	Bütün ərazilər	– Normal fəaliyyət zamanı müşahidələr – Təftişlər – Aylıq hesabatlar və hadisə hesabatları	Davamlı şəkildə və ya zəruri hallarda	Təsirlərin azaldılması tədbirlərinin həyata keçirilməsini yoxlamaq	Nəzarət üzrə məsləhətçi
			ƏMS üzrə monitorinqin auditi	Hər il tikinti müddətində	P-ƏMSİP-in həyata keçirilməsini yoxlamaq	AZƏRENERJİ tərəfindən təyin edilən üçüncü tərəf məsləhətçi
	İş şəraiti Biomüxtəlifliyin idarə edilməsi və eroziyaya nəzarət	Bütün aktiv iş sahələri	Müşahidələr	Gündəlik başçəkmələr zamanı (davamlı)	ƏMTT Planının həyata keçirilməsini yoxlamaq	Podratçının təhlükəsizlik üzrə meneceri AZƏRENERJİ
			Təftişlər	Ən azı həftədə bir dəfə		
		Aktiv və son ağac kəsmə sahələri, dik yamaclarda aktiv iş sahələri, aktiv tikinti sahələri	Müşahidələr	Gündəlik başçəkmələr zamanı	P-ƏMSİP-in müvafiq aspektlərinin həyata keçirilməsini yoxlamaq	Podratçının ƏMS meneceri və/və ya mütəxəssis(lər)i
			Təftişlər	Ən azı həftədə bir dəfə		
		Yeni tikinti sahələri	Təftişlər	Tikinti başlamazdan əvvəl	Nəzarətçilərin tələblər barədə məlumatlı olmasını, mühafizə olunan növlərin nişanlanmasını və s. yoxlamaq	
	İş şəraiti (avadanlıq, alətlər və s.) və işçilər (FMV)	Bütün aktiv iş sahələri	Müşahidələr	Gündəlik başçəkmələr zamanı (davamlı)	– İş şəraitinin və işçilərin təhlükəsizliyini yoxlamaq – Nəzarətçilərə və işçilərə təlimat vermək	Təhlükəsizlik texnikası üzrə mütəxəssislər
			Təftişlər	Ən azı həftədə bir dəfə		Podratçının təhlükəsizlik üzrə meneceri
	İşçilərə və nəzarətçilərə təhlükəsizlik mövzusunda keçilən təlim	Bütün aktiv iş sahələri	Sənədlərin yoxlanması və müsahibələr	Gündəlik olaraq və ya yeni işə başlamazdan əvvəl zəruri hallarda	İşçilərə təhlükəsiz iş üsullarının öyrədilməsini təmin etmək	Nəzarətçi

Tədbir	Nə *(monitorinq ediləcək?)*	Harada *(monitorinq ediləcək?)*	Necə *(monitorinq ediləcək?)*	Nə vaxt *(Hansı tezliklə yoxsa davamlı olaraq?)*	Nə üçün *(monitorinq edilir?)*	Kim *(monitorinqə cavabdehdir?)*
				Yerində xəbərdarlıqsız yoxlamalar (hər iş sahəsində ən azı ayda bir dəfə)		Podratçının təhlükəsizlik üzrə meneceri
Tərəqqi hesabatları/işlərin gedişatı ilə bağlı iclas	Texniki tərəqqi və P-ƏMSİP-in icrası vəziyyəti: – Təhlükəsizlik – Biomüxtəlifliyin tədqiqi və bərpası fəaliyyətləri – Eroziyaya nəzarət və sahənin sabitləşdirilməsi – Sahənin bərpası – Şikayətlərin idarə edilməsi	Aktiv iş sahələri	– Podratçının ƏMS və texniki əməkdaşları ilə müsahibələr – Podratçının və nəzarət üzrə məsləhətçinin aylıq ƏMS hesabatlarını nəzərdən keçirmək – İşçi və maraqlı tərəflərin şikayətləri üzrə reyestrləri nəzərdən keçirmək – Sahə səfərləri	Ayda bir dəfə	Texniki tərəqqini və ƏMS müdafiəsini yoxlamaq	– Məcburi iştirakçılar: – Podratçının ƏMS əməkdaşları – Nəzarət üzrə məsləhətçi – AZƏRENERJİ
Sürücülər və nəqliyyat vasitələrinin təhlükəsizliyi	Sürücü kvalifikasiyaları	Ofis	– Zəruri hallarda etibarlı sürücülük vəsiqəsinin və operator icazəsinin olmasını yoxlamaq – Ehtiyac olarsa, yol polisi ilə dəqiqləşdirmə aparmaq – Ehtiyac olarsa, səriştələri yoxlamaq	– Nəqliyyat vasitələrini/avadanlıqları idarə etməyə icazə verilməzdən əvvəl – İldə bir dəfə	Sürücülərin təlim keçmiş olmasını təmin etmək	Podratçının layihə meneceri və təhlükəsizlik üzrə meneceri
	Səyyar qurğuların/nəqliyyat vasitələrinin təhlükəsizliyi (siqnallar, ehtiyat siqnalizasiya, işıqlar, təkərlər, təhlükəsizlik kəmərləri, yanğınsöndürən, təmizləmə dəsti, ilk yardım dəsti və s.)	İstifadədə olan bütün səyyar qurğular	Baxış keçirmək və yoxlama siyahısını doldurmaq	Hər gün ilk istifadədən əvvəl	Yol-nəqliyyat hadisələrini minimuma endirmək, işçiləri və digər sürücüləri/piyadaları qorumaq	Sürücü/operator
			Yoxlama siyahılarını və nəqliyyat vasitələrini nəzərdən keçirmək	Xəbərdarlıqsız yoxlamalar: hər nəqliyyat vasitəsi üçün ən azı ayda bir dəfə		Podratçının təhlükəsizlik üzrə meneceri
İş sahələrinin hüdudlarının nişanlanması	Hüdudların aydın şəkildə nişanlanması	Bütün aktiv iş sahələri	Müşahidələr və fotoşəkillər	– İşin başlanmasından bir gün əvvəl – Tikinti işlərinin hər mərhələsində ən azı bir dəfə	- Təsir sahələrini məhdudlaşdırmaq - Sahədən kənar ərazilərə ziyanın dəyməməsini yoxlamaq	Podratçının nəzarətçiləri və ƏMS əməkdaşları

Tədbir	Nə *(monitoriną ediləcək?)*	Harada *(monitoriną ediləcək?)*	Necə *(monitoriną ediləcək?)*	Nə vaxt *(Hansı tezliklə yoxsa davamlı olaraq?)*	Nə üçün *(monitoriną edilir?)*	Kim *(monitorinqə cavabdehdir?)*
Havanın keyfiyyəti	– Gözlə görünən toz – Yaxınlıqdakı bitki örtüyünün yarpaqlarını örtən toz	Asfaltlanmamış yollar və digər tikinti sahələri	Müşahidələr	Gündəlik başçəkmələr zamanı davamlı olaraq	Tozun qarşısını almaq üçün yolların isladılmasına ehtiyac olub-olmadığını müəyyənləşdirmək	Podratçının bütün menecerləri, nəzarətçiləri, ƏMS əməkdaşları,
	Nəqliyyat vasitələrindən, avadanlıqlardan və digər mühərriklərdən çıxan qara tüstü	Bütün ərazilər			Mühərrikin təmir olunana qədər istismardan çıxarılmasına zərurəti müəyyənləşdirmək	
Flora və fauna tədqiqatları (layihələndirmə qrupu və tikintidən əvvəl aparılan tədqiqatlar)	– Bitki örtüyünə nəzarət zonasının nişanlanmış hüdudları - Qeydə alınmış, fotoşəkilləri çəkilmiş, nişanlanmış və xəritələşdirilmiş təhlükədə olan flora növləri – Yarasaların/quşların qışladığı/yuvaladığı qeydə alınmış, fotoşəkilləri çəkilmiş və nişanlanmış yetkin ağaclar – Nişanlanmış kəsiləcək ağaclar	Tədqiqatın aparıldığı seçilmiş ərazilər, tədqiqatlar aparılarkən	– Cari tədqiqat ərazilərinə səfərlər – Tədqiqatlardan sonra nümunələrin nişanlanması ilə bağlı xəbərdarlıqsız yoxlama – Tədqiqat qrupu (qrupları) tərəfindən nəticələrin müzakirəsi	- Səfərlər və xəbərdarlıqsız yoxlamalar: hər gün bir iş sahəsi - Nəticələrin müzakirəsi: hər gün, şifahi olaraq və ya e-poçtla/yazılı şəkildə	Tədqiqatların təhlükədə olan növləri, yetkin ağacları, təbii yaşayış mühitini aşkar edib-etmədiyini yoxlamaq	Podratçının ƏMS meneceri və mütəxəssisləri
Torpağın təmizlənməsi fəaliyyətləri (yollar, qüllələr, yarımstansiya və tikinti sahələri)	Torpağın idarə edilməsi və eroziyaya nəzarət planına riayət olunması, o cümlədən: – Tikinti başlamazdan əvvəl hüdudların nişanlanması – İşlərin hüdudlar daxilində aparılması – Torpağın üst qatının saxlanması və yararsız süxurların saxlanması – Eroziyanın qarşısını almaq üçün drenaj nəzarəti	Təmizləmə işləri aparılan bütün ərazilər	– Səfərlər/təftişlər – Nəzarətçilərin ƏMS menecerinə hesabatları	– Təmizləmə işlərindən əvvəl – Hər gün təmizləmə işləri aparılan zaman – Təmizləmə işlərindən sonra və tikintidən əvvəl	– Təmizləmə aparılan sahəni məhdudlaşdırmaq – Torpağın üst qatının çıxarılıb saxlanmasını yoxlamaq – Drenaja nəzarət edilməsini və eroziyanın qarşısının alınmasını yoxlamaq –	– Podratçının ƏMS əməkdaşları – Podratçının layihə meneceri (xəbərdarlıqsız yoxlamalar)
		Tikintinin aparıldığı bütün sahələr	Təftişlər	Ən azı həftədə bir dəfə	Torpağın idarə edilməsi və eroziyaya nəzarət planının həyata keçirilməsini yoxlamaq	Podratçının ƏMS əməkdaşları

Tədbir	Nə *(monitoriniq ediləcək?)*	Harada *(monitoriniq ediləcək?)*	Necə *(monitoriniq ediləcək?)*	Nə vaxt *(Hansı tezliklə yoxsa davamlı olaraq?)*	Nə üçün *(monitoriniq edilir?)*	Kim *(monitorinqə cavabdehdir?)*
	Sahənin hüdudunda torpağın/bitki örtüyünün vəziyyəti		Müşahidələr və fotoşəkillər	Təmizləmə işləri başlamazdan əvvəl	İşlərin hüdudlar daxilində aparılmasının yoxlanmasına imkan vermək	Podratçının ƏMS əməkdaşları
	Sahənin bərpası	Tikinti sahələri	Təftişlər	Müvafiq sahədə tikinti başa çatanda	Sahənin bərpasını yoxlamaq	Podratçının ƏMS əməkdaşları
Qazıntılar və kəsiklər	Nişanlanmış qazıntı sahələri, qazıntı sahələrinin nişanlanmış kənarları (lentlə, daş baryerlərlə və s.)	Bünövrə yerləri, dik yamaclarda kəsiklər	Torpaq qazılmazdan əvvəl,	Qazıntılardan əvvəl	Təsirə məruz qalan sahəni məhdudlaşdırmaq	Podratçının ƏMS əməkdaşları
	İşlərin hüdudlar daxilində aparılması	Qüllə yerləri, yarımstansiyanın yeri	Müşahidə, fotoşəkillər	Hər gün işlər aparılan zaman	Təsirə məruz qalan sahəni məhdudlaşdırmaq	Podratçının ƏMS əməkdaşları və nəzarətçiləri
	Qazılıb çıxarılan və qruntdan/yararsız süxurlardan ayrı saxlanan torpaq	Bütün qazıntılar	Müşahidələr və fotoşəkillər	Hər sahədə işlər zamanı ən azı bir dəfə	Torpağın üst qatının saxlanması və eroziyadan qorunması	Podratçının ƏMS əməkdaşları
	İşçilərə müvafiq təlimin keçilməsi	İş sahələri və sənədlər	Müsahibələr, sənədlərin nəzərdən keçirilməsi	Qazıntı sahələrində işlərin başlanmasından əvvəl	İşçilərin təhlükəsiz şəkildə işləyə bilməsini yoxlamaq	Podratçının təhlükəsizlik üzrə meneceri
	Yıxılmaların qarşısını almaq üçün quraşdırılmış baryerlər (lent, daşlar və s.)	Dərinliyi 1 m-dən artıq olan qazıntıların perimetri	Müşahidə	Qazıntı tamamlananda	İşçiləri yıxılmaqdan qorumaq	Nəzarətçi
				Xəbərdarlıqsız yoxlamalar		Podratçının ƏMS əməkdaşları
Bitki örtüyünün kəsilməsi	Flora və faunanın tədqiqi planının həyata keçirilməsi – Bitki örtüyünə nəzarət zonasının nişanlanmış hüdudları	Ağac və kolların kəsiləcəyi ərazilər	Müşahidə	Kəsimdən/təmizlənmədən bilavasitə əvvəl	Təhlükədə olan növlərin və nümunələrin müəyyən edilməsini yoxlamaq	Podratçının ƏMS əməkdaşları

Tədbir	Nə *(monitoriną ediləcək?)*	Harada *(monitoriną ediləcək?)*	Necə *(monitoriną ediləcək?)*	Nə vaxt *(Hansı tezliklə yoxsa davamlı olaraq?)*	Nə üçün *(monitoriną edilir?)*	Kim *(monitorinqə cavabdehdir?)*
	– Qeydə alınmış, fotoşəkilləri çəkilmiş və nişanlanmış təhlükədə olan flora növləri – Yarasaların/quşların olduğu qeydə alınmış, fotoşəkilləri çəkilmiş və nişanlanmış yetkin ağaclar – Nişanlanmış kəsiləcək ağaclar					
Ağac və kol əkinləri	Kəsilən/çıxarılan hər mühafizə olunan ağaca/kola görə əkilən 2-dən artıq eyni növ ağac və kol	54.5 metrlik bitki örtüyünə nəzarət zonası ilə 74.5 metrlik dəhlizin kənarı arasındakı 20 metrlik zolaq	Müşahidə və fotoşəkillər	Yaz ərzində kəsimdən sonra	Əkinləri yoxlamaq	Podratçı tərəfindən təyin edilmiş botanik
	Kəsilən hər ağaca/kola görə əkilən 2-dən artıq əvəzedicinin yetişmə qabiliyyəti			Demobilizasiyadan əvvəl	Son ödənişə icazə verilməsi üçün tədbirin uğurlu icrasını yoxlamaq	
				Əkindən sonrakı 5 il ərzində hər il	Tədbirin uğurlu icrasını yoxlamaq və ya təkrar əkinə ehtiyacın olub-olmadığını müəyyən etmək	AZƏRENERJİ tərəfindən təyin edilmiş botanik
Yarasa qutularının yerləşdirilməsi	Qışlayan, gecələyən, yuvalayan yarasanın sığa biləcəyi oyuğu olan hər yetkin ağaca görə yerləşdirilmiş 2-dən artıq yarasa qutusu	Kəsilmiş ağacın 50 m radiusunda	Müşahidə	Ağac kəsildikdən sonra bir ay ərzində	Qutuların yerləşdirilməsini yoxlamaq	Podratçı tərəfindən təyin edilmiş biomüxtəliflik üzrə ekspert
				İlkin yerləşdirmədən bir il sonra	Yerində yoxlamaq	
Torpağın bərpası	Torpağın idarə edilməsi və eroziyaya nəzarət planının həyata keçirilməsi - Ehtiyac olduqda, torpağın sabit konturlar əldə edilənə qədər hamarlanması - Torpağın üst qatının açıq qrunt üzərinə verilməsi - Yerli növlərin (toxumlar və ya bitkilər) əkilməsi - Sərbəst yaşaya bilən bitki örtüyünün salınması	Torpağın təsirə məruz qaldığı bütün ərazilər Bitki örtüyünü saxlaya bilməyən yamaclar istisna olmaqla, bütün bərpa edilən ərazilər	Müşahidə və fotoşəkillər	Müvafiq sahədə işlərin başa çatmasından sonra bir ay ərzində	Torpağın bərpasına olan ehtiyacı müəyyən etmək və ya bərpanı yoxlamaq	Podratçının ƏMS əməkdaşları
			Müşahidə və fotoşəkillər	Bitki örtüyünün sərbəst yaşama qabiliyyətinin müəyyən edilməsinə qədər hər ay və bundan bir il sonra	Bitki örtüyünün salınmasını yoxlamaq və əlavə işlərə yaxud torpağın bərpasına ehtiyacı müəyyən etmək	Podratçı tərəfindən təyin edilmiş botanik (və zəruri hallarda tikinti başa çatdıqdan sonra AZƏRENERJİ)

Tədbir	Nə *(monitorinq ediləcək?)*	Harada *(monitorinq ediləcək?)*	Necə *(monitorinq ediləcək?)*	Nə vaxt *(Hansı tezliklə yoxsa davamlı olaraq?)*	Nə üçün *(monitorinq edilir?)*	Kim *(monitorinqə cavabdehdir?)*
Xəttin üzərində quş yönləndiricilərinə ehtiyacın olub-olmadığını müəyyən etmək	Ötürücü xətt dəhlizi boyunca yırtıcı quşların və su quşlarının köçü	Əsas çay dərələri	Müşahidələr (monitorinq planı Cədvəl 8.1.1-in 2.12-ci bəndinə uyğun olaraq hazırlanmalıdır)	Payız köç mövsümündə (ekspertin tövsiyəsinə əsasən), iki mövsüm ərzində	Toqquşmaların qarşısını almaq üçün quş yönləndiricilərinə ehtiyac olub-olmadığını müəyyən etmək	AZƏRENERJİ (məsləhətçi təyin etməklə)
Səs-küyün yaranması	Səs-küy səviyyələri	İş yerləri	Səs-küyün idarə edilməsi planına uyğun olaraq səs-küy ölçən cihazlar	Tipik iş sahələrində hər ay	Səs-küyün standarta uyğun olmasını yoxlamaq və ya azaldılmasına ehtiyac olub-olmadığını müəyyən etmək	Podratçının ƏMS əməkdaşları
		Sahədən kənar yerlər		İşçinin və ya kənar tərəfin tələbi yaxud səs-küylə bağlı şikayətindən sonra 24 saat ərzində		
Elektromaqnit sahəsinin (EMS) yaranması	EMS səviyyələri	Şikayətin verildiyi yerdə, mərkəzi xəttin və yarımstansiyanın 100 m radiusunda	EMS-i ölçən cihaz	İşçinin və ya kənar tərəfin tələb yaxud şikayətindən sonra 24 saat ərzində	EMS-in standarta uyğun olmasını yoxlamaq və ya azaldılmasına ehtiyac olub-olmadığını müəyyən etmək	AZƏRENERJİ
Partlatma işləri	Yamacın sürüşməsi (torpaq sürüşməsi potensialı)	Partlatma işləri aparılan yerin 200 m radiusu	Müşahidə	Partlatmanın həyata keçirildiyi iş növbəsi	Torpaq sürüşməsi riskini və düzəldici tədbirlərə ehtiyacı müəyyən etmək	Partlatma işlərinin rəhbəri tərəfindən təyin olunan işçilər
	Partlatma işlərindən əvvəlki vəziyyət	Partlatmanın həyata keçirildiyi yerin 100 m radiusunda olan binalar	Təftiş və fotoşəkillər	Partlatma işlərindən əvvəl	Partlatma işlərinin vurduğu ziyanın müəyyən edilməsinə imkan vermək	Partlatma işlərinin rəhbəri və layihə meneceri tərəfindən təyin olunan işçilər
	Partlatma işlərindən sonrakı vəziyyət: çatlar, çökmə, sıçrayan daşların vurduğu ziyan və s.		Təftiş və fotoşəkillər	Partlatmanın həyata keçirildiyi iş növbəsi	Partlatma işlərinin vurduğu ziyanı müəyyən etmək	
	Partlatma işləri üzrə podratçı tərəfindən daşınma, saxlama, istifadə ilə bağlı qanunun tələblərinə əməl olunması	Partlayıcı anbarı və partlatma işləri aparılan sahələr	Təftiş	Ayda bir dəfə	Uyğunluğu yoxlamaq, təhlükəsizliyi təmin etmək	Podratçının ƏMS meneceri

Tədbir	Nə *(monitorinq ediləcək?)*	Harada *(monitorinq ediləcək?)*	Necə *(monitorinq ediləcək?)*	Nə vaxt *(Hansı tezliklə yoxsa davamlı olaraq?)*	Nə üçün *(monitorinq edilir?)*	Kim *(monitorinqə cavabdehdir?)*
Lazımi gigiyenanın təmin edilməsi	Sanitar şərait, su və s.	Mətbəxlər, istirahət yerləri, ayaqyolular, yerləşdirmə yerləri	Təftişlər			
	Ayaqyolular və içməli su	İş yerləri	Müşahidələr	Hər gün başçəkmələr zamanı	Sanitar şəraiti yoxlamaq	Təhlükəsizlik texnikası üzrə mütəxəssislər və/və ya ƏMS mütəxəssisləri, nəzarətçilər, menecerlər
			Təftişlər	Ən azı həftədə bir dəfə		Podratçının ƏMS mütəxəssisi və/və ya təhlükəsizlik texnikası üzrə mütəxəssisi
İşçi şikayətlərinin həlli	İşçi şikayətlərinin reyestri	İş sahələri və kargüzarlıq idarəsi	Reyestrin nəzərdən keçirilməsi	Həftədə bir dəfə	Şikayətlərin qeydə alınmasını və həllini yoxlamaq	Podratçının insan resursları üzrə meneceri və layihə meneceri
	Şikayətlərə baxılması və onların həlli		Şikayətlərin həllinə cavabdeh olan menecerlərlə və şikayətçi işçilərlə müsahibələr	İşlərin gedişatı ilə bağlı aylıq iclasdan əvvəl	Şikayətlərə lazımi qaydada baxılmasını yoxlamaq	Podratçının insan resursları üzrə meneceri, nəzarətçiləri
Xarici maraqlı tərəflərin şikayətlərinin həlli	Maraqlı tərəflərin şikayətlərinin reyestri	Kargüzarlıq idarəsi	Reyestrin nəzərdən keçirilməsi	Həftədə bir dəfə	Şikayətlərin qeydə alınmasını və həllini yoxlamaq	Podratçının insan resursları üzrə meneceri və layihə meneceri
	Şikayətlərə baxılması və onların həlli	İcma	Şikayətləri təqdim edən seçilmiş maraqlı tərəflərlə və onlara baxılmasına cavabdeh olan şəxslərlə müsahibələr	İşlərin gedişatı ilə bağlı aylıq iclaslardan əvvəl	Şikayətlərə lazımi qaydada baxılmasını yoxlamaq	Podratçının ƏMS meneceri, sosial məsələlər üzrə mütəxəssisi
Maraqlı tərəflərin cəlb olunması	İşçilərin icmalarda davranışı	İcma	Şikayətlər jurnalının nəzərdən keçirilməsi İcma liderləri ilə müsahibələr	Rübdə bir dəfə	Təlim, işdən çıxarılma və s. ilə bağlı ehtiyacı müəyyən etmək	Podratçının insan resursları üzrə meneceri, layihə meneceri, sosial məsələlər üzrə mütəxəssisləri
	İcmanın layihədən razılığı	İcma	Şikayətlər jurnalının nəzərdən keçirilməsi İcma liderləri və yerli sakinlərlə müsahibələr	Rübdə bir dəfə	İcmanın problemlərini müəyyən etmək	Sosial məsələlər üzrə mütəxəssis, icma ilə əlaqələr üzrə mütəxəssis

Tədbir	Nə *(monitoriną ediləcək?)*	Harada *(monitoriną ediləcək?)*	Necə *(monitoriną ediləcək?)*	Nə vaxt *(Hansı tezliklə yoxsa davamlı olaraq?)*	Nə üçün *(monitoriną edilir?)*	Kim *(monitorinqə cavabdehdir?)*
Köçürülmə və kompensasiya	KFP-yə əməl olunması	KFP-də göstərildiyi kimi				
Eroziyaya nəzarət, torpağın sabitliyi	Eroziyaya nəzarətin və torpağın bərpasının effektivliyi	Qüllə yerləri	Müntəzəm texniki xidmət patrulları zamanı müşahidələr	İstismar müddətində ildə iki dəfə	Torpağın sabitləşdirilməsi və eroziyaya nəzarət üzrə əlavə işlərə ehtiyacın olub-olmadığını müəyyən etmək	Texniki xidmət patrulları

8.5. Ətraf mühitin və Sosial Sahənin İdarə Olunması və Monitorinqi Planı

500 kV və 330 kV EVX-lərin və 500/330/10 kV-luq Nəvahi yarımstansiyasının tikintisi və istismarı nəticəsində yarana biləcək ətraf mühit və sosial təsirlər Fəsil 8-də təsvir edilmiş və Cədvəl 8-1-də ümumiləşdirilmişdir. Həmin Fəsildə təsvir olunduğu kimi, elektrik ötürücü xəttinin və yarımstansiyanın tikintisi, istismarı və texniki xidməti zamanı bəzi fəaliyyətlər xüsusi ətraf mühitə və sosial resurslara orta və ya hətta böyük mənfi təsir göstərə bilər. Bu, əhəmiyyətli mənfi təsirlərin qarşısının alınmasını, azaldılmasını və ya başqa bir şəkildə yumşaldılmasını təmin etmək üçün ehtiyat tədbirlərinin görülməsini zəruri edir. Bu, layihənin satınalma, layihənin hazırlanması, tikinti və istismar mərhələlərində müvafiq dizayn və əməliyyat prosedurlarının həyata keçirilməsini təmin etmək üçün Azərenerji, Texniki Nəzarət Məsləhətçisi və tikinti üçün seçilmiş podratçılar tərəfindən birgə səylər tələb edəcəkdir. Bu fəsildə təklif olunan təsirlərin azaldılması tədbirləri layihələndirmə, tender, tikinti, istismar və xəttlərə və yarımstansiyanın saxlanmasına dair tələblərə daxil edilmişdir.

8.6. Nəticə

Qeyd olunanları ümumiləşdirsək, bu təsirləri idarə etmək üçün lazımi tədbirlər görülməzsə, layihənin insanlara və ətraf mühitə əhəmiyyətli təsirləri ola bilər. ƏMSSTQ hesabatı, Köçürülmə Siyasəti Çərçivəsi və Maraqlı Tərəflərin Cəlb Olunması Planı təsirləri məqbul səviyyələrə endirmək məqsədilə Azərenerji və podratçıların həyata keçirməli olduğu yuxarıda ümumiləşdirilmiş əsas tədbirləri müəyyən edir. ƏMSSTQ hesabatında və Köçürmə Siyasət Çərçivəsində təsvir olunan monitorinq proqramları tələb olunan təsirlərin azaldılması tədbirlərinin tam şəkildə həyata keçirilməsini və hər hansı gözlənilməz təsirlərin tez bir zamanda müəyyən edilməsini və idarə olunmasını təmin edəcək. Bu, layihənin Azərbaycan xalqına xalqına gətirməyi nəzərdə tutduğu faydaları təmin etməyə imkan verəcəkdir.

Cədvəl 8.11. Ətraf mühit və sosial idarəetmə planı (ƏMSİP)

№	Tədbirlər	Potensial mənfi təsir	Təsirin azaldılması tədbirləri/Qabaqcıl idarəetmə təcrübəsi	Təsirin azaldılması tədbirlərinin hədəf nəticəsi	Məsul orqan
1.0 Satınalma mərhələsi					
1.1	Elektrik ötürücü xətti üçün tender/satınalma sənədlərinin hazırlanması	Tender iştirakçılarının ətraf mühit və sosial (ƏMS) məsələlərə dair tələbləri qəbul etməməsi, ƏMS idarəetməsini planlaşdırmaması və qiymət təklifində ƏMS tələblərini nəzərə almaması	Dünya Bankının satınalmalar üzrə standart sənədlərinin tələblərinə uyğun olaraq, satınalma sənədlərinə müvafiq sənədləri (ESIA, RPF, SEP, ESCP) daxil etmək Təkliflərə idarəetmə strategiyaları və icra planının (İSİP) bir hissəsi kimi aşağıdakı planların daxil edilməsini tələb etmək: – Əməyin idarə edilməsi proseduru – Ətraf mühit, sağlamlıq və təhlükəsizlik üzrə davranış kodeksi və işçilərin şikayətlərinə baxılması mexanizmi – Əməyin mühafizəsi və təhlükəsiz texnikası planı Podratçının işlərə başlamazdan əvvəl aşağıdakıları hazırlamasını tələb etmək: - Tullantıların idarə olunması planı - Landşaftın bərpası planı - İcma sağlamlığı və təhlükəsizliyi planı Podratçının layihəyə daxil ediləcək əsas işçi heyətini müəyyən etmək (korporativ səviyyə istisna olmaqla): – ƏMS meneceri – Təhlükəsizlik üzrə menecer – Biomüxtəliflik üzrə mütəxəssis – İcma ilə əlaqə/sosial mütəxəssis – İnsan resursları üzrə menecer	– Tender iştirakçıları ƏMS tələblərini başa düşür və onlara müvafiq təkliflər hazırlayırlar – Tender iştirakçılarının ƏMS sahəsi üzrə potensialının artması	AZƏRENERJİ Dünya Bankı (təsdiq)
1.2	Yarımstansiya üçün tender/satınalma sənədlərinin hazırlanması	Tender iştirakçılarının ətraf mühit və sosial (ƏMS) məsələlərə dair tələbləri qəbul etməməsi, ƏMS idarəetməsini planlaşdırmaması və qiymət təklifində ƏMS tələblərini nəzərə almaması	Dünya Bankının satınalmalar üzrə standart sənədlərinin tələblərinə uyğun olaraq, satınalma sənədlərinə müvafiq sənədləri (ESIA, RPF, SEP, ESCP) daxil etmək Təkliflərə idarəetmə strategiyaları və icra planının bir hissəsi kimi aşağıdakı planların daxil edilməsini tələb etmək: – Əməyin idarə edilməsi proseduru	– Tender iştirakçıları ƏMS tələblərini başa düşür və onlara müvafiq təkliflər hazırlayırlar – Tender iştirakçılarının ƏMS sahəsi üzrə potensialının artması	AZƏRENERJİ Dünya Bankı (təsdiq)

№	Tədbirlər	Potensial mənfi təsir	Təsirin azaldılması tədbirləri/Qabaqcıl idarəetmə təcrübəsi	Təsirin azaldılması tədbirlərinin hədəf nəticəsi	Məsul orqan
			– Ətraf mühit, sağlamlıq və təhlükəsizlik üzrə davranış kodeksi və işçilərin şikayətlərinə baxılması mexanizmi – Əməyin mühafizəsi və təhlükəsizlik texnikası planı Podratçının işlərə başlamazdan əvvəl aşağıdakıları hazırlamasını tələb etmək: - Tullantıların idarə olunması planı - Landşaftın bərpası planı - İcma sağlamlığı və təhlükəsizliyi planı Layihəyə daxil ediləcək əsas işçi heyətini müəyyən etmək (korporativ səviyyə istisna olmaqla): – Ətraf mühit və sosial məsələlər üzrə menecer – Təhlükəsizlik üzrə menecer – İcma ilə əlaqə/sosial mütəxəssis – İnsan resursları üzrə menecer		
1.3	Təkliflərin nəzərdən keçirilməsi və qiymətləndirilməsi	Təkliflərin qiymətləndirilməsi zamanı tender iştirakçılarının ƏMS üzrə kvalifikasiya və təcrübəsinin nəzərə alınmaması	– Təkliflər nəzərdən keçirən qrupa ƏMS mütəxəssis(lər)inin daxil edilməsi və onlara kifayət qədər vaxt ayrılması – Bütün qiymətləndirmə qrupunun əsas ƏMS tələbləri haqqında məlumatlılığı – Qiymətləndirmə zamanı ƏMS üzrə korporativ təcrübə və kvalifikasiyalar, ƏMS əməkdaşlarının təcrübə və kvalifikasiyaları, İSİP üzrə idarəetmə planlarının qiymətləndirilməsi nəzərə alınır – Kvalifikasiyasız tender iştirakçılarının aşkarlanması	– Tender iştirakçılarının ƏMS üzrə kvalifikasiya və təcrübəsi qiymətləndirmələrdə tam nəzərə alınır – Qeyri-kafi ƏMS kvalifikasiyası və təcrübəsinə və ya qeyri-kafi İSİP-ə (yəni tələblərin kifayət qədər başa düşülməməsi) görə diskvalifikasiya olunan tender iştirakçıları	AZƏRENERJİ
1.4	Podratçıların seçilməsi	P-ƏMSİP-i (podratçının ƏMSİP-i) işləyib hazırlamaq və/və ya həyata keçirmək üçün kvalifikasiyası və ya hazırlığı olmayan podratçı ilə müqavilə bağlanması	– Təsirlərin qarşısını almaq və ya onlara nəzarət üçün kifayət edən İSİP planları – Kvalifikasiyalı və əlçatan əsas işçi heyəti – Müqavilənin yalnız xüsusi meyarlara cavab verən, ƏMS üzrə kvalifikasiya və təcrübəyə malik podratçılarla bağlanması	– Müqavilənin bu ƏMSİP-i həyata keçirə bilən podratçı ilə bağlanması – Podratçının yekunda ƏMSİP-i qənaətbəxş şəkildə həyata keçirməsi – Layihənin hazırlanmasında və tikintidə gecikmələrin daha az olması	AZƏRENERJİ Dünya Bankı (təsdiq)
2.0 Layihənin hazırlıq mərhələsi ("tikintiyə hazırlıq mərhələsi")					
2.1	Maraqlı tərəflərin cəlb olunması planının (MTCP) həyata keçirilməsi	– Məlumatsız yerli əhali və digər maraqlı tərəflər	– Müəyyən edilmiş maraqlı tərəflər arasında maarifləndirmə	– Yaxşı məlumatlı və dəstək verən icma	AZƏRENERJİ

№	Tədbirlər	Potensial mənfi təsir	Təsirin azaldılması tədbirləri/Qabaqcıl idarəetmə təcrübəsi	Təsirin azaldılması tədbirlərinin hədəf nəticəsi	Məsul orqan
		– Yerli əhalinin və başqalarının qeyri-real gözləntiləri – Podratçılara və AZƏRENERJİ-yə uzunmüddətli etimadsızlıq – Etirazlar və digər sabitliyin pozulması halları – Vandalizm	– Məşğulluq imkanları haqqında real məlumatlar – Lazımi hallarda icma rəhbərləri və vətəndaşlarla görüşlər – Şikayətlərə baxılması mexanizminin tətbiqi – Podratçının işçilərinə və nəzarətçilərinə MTCP-nin müvafiq tələbləri, o cümlədən şikayətlərin qəbulu və ötürülməsi üzrə təlim keçmək	– Real gözləntilər – Məsələlərin həllində podratçıya və AZƏRENERJİ-yə etimad göstərilməsi – Şikayətlərin vaxtında həlli	ümumi proqramı idarə edir və yüksək səviyyəyə aid şikayətlərə baxır Tikinti zamanı podratçı tərəfindən gündəlik əsasda həyata keçirilir
2.2	ƏMS məsələlərinin idarə olunması	– Məsələləri idarə etmək üçün kifayət qədər vaxtı olan kvalifikasiyalı mütəxəssislərin cəlb olunmaması – ƏMS məsələlərinin yanlış idarə olunması və ya idarə olunmaması səbəbindən ƏMS təsirlərinin həddən artıq olması	– 1.2 (ötürücü xətt) və 1.3 (yarımstansiya) bəndlərində müəyyən edilmiş əsas ƏMS əməkdaşlarını vəzifəyə təyin etmək və vəzifələrin icrası üçün kifayət qədər vaxtla təmin etmək – Təhlükəsizlik texnikası üzrə kifayət qədər mütəxəssis işə qəbul etmək və onlara təlim keçmək: hər bir işçi briqadası üçün ən azı bir nəfər və ümumi nisbət hər 50 işçiyə ən azı 1 mütəxəssis olmaqla – Menecerlərə və nəzarətçilərə/briqadirlərə ƏMS təsirlərinin azaldılmasına dair əsas tələblərlə (yəni, bu ƏMSİP və monitorinq planı) bağlı təlim keçmək – Nəticələrin qeydə alınması məqsədilə ƏMS əməkdaşlarının istifadəsi üçün yoxlama siyahıları hazırlamaq – Nəzarət üzrə məsləhətçiyə aylıq ƏMS hesabatlarının təqdim edilməsi üçün şablonlar hazırlamaq – Ciddi hadisələrin/xəsarətlərin/qəzaların əsas səbəblərinin araşdırılması və aradan qaldırılması üçün şablonlar hazırlamaq – Xarici maraqlı tərəflərin və işçilərin şikayətlərini qeydə almaq üçün reyestrlər hazırlamaq	P-ƏMSİP-in həyata keçirilməsi və buna nəzarət edilməsi üçün kifayət qədər sayda kvalifikasiyalı işçi heyəti	Podratçı

№	Tədbirlər	Potensial mənfi təsir	Təsirin azaldılması tədbirləri/Qabaqcıl idarəetmə təcrübəsi	Təsirin azaldılması tədbirlərinin hədəf nəticəsi	Məsul orqan
2.3	Aşağıdakılara bütün müvafiq texniki detalları daxil etməklə Podratçının ƏMSİP-ni (P-ƏMSİP) yeniləmək: - Tullantıların idarə olunması planı; - Landşaftın bərpası planı; - İcmanın cəlb olunması, sağlamlığı və təhlükəsizliyi planı; və - Əməyin idarə edilməsi proseduru. Aşağıdakılarla bağlı ətraflı metodiki göstərişlər hazırlamaq: – Qüllə və dəhlizin yeri; – Nəqliyyatın hərəkətinin idarə olunması; – Fövqəladə hallara cavabvermə tədbirləri; – Layihənin yekunlaşdırılması üçün aparılması tələb olunan tikintidən əvvəl flora, fauna və yaşayış mühitinin tədqiqi; – Yerüstü su obyektlərində və ya onların yaxınlığında aparılan işlər; – Səs-küyün idarə edilməsi; – Partlayıcılar və partlatma işləri *(əgər partlayıcılardan istifadə ediləcəksə)* – İşçilərin yerləşdirilməsi və işçi düşərgəsinin idarə edilməsi – MESPA-nın verdiyi ekoloji rəylə tələb olunan hər hansı digər məsələ	– Podratçı insan və ətraf mühit resurslarına təsirlərin qarşısının alınması və ya minimuma endirilməsi proqramı olmadan işləri başlayır: – Təhlükəsiz olmayan nəqliyyat vasitələri, qəzalar – Mühafizə olunan floraya zərər vurulması – Subpodratçının ƏMS üzrə fəaliyyət səmərəliliyinin idarə olunmaması – İcmaların səs-küylə narahat edilməsi – İşçilərin axını səbəbindən icmada sabitliyin pozulması, zorakılıq, cinayət, xəstəlik baş verməsi – Təhlükəsiz olmayan və/və ya antisanitar yerləşdirmə yerləri	– Kvalifikasiyalı ƏMS mütəxəssisləri və layihə menecerləri tərəfindən planların hazırlanması – Podratçının təklifində təqdim olunmuş P-ƏMSİP-in, o cümlədən P-İSİP-in nəzarət üzrə məsləhətçi tərəfindən nəzərdən keçirilməsi və təsdiqlənməsi – Bütün planların kvalifikasiyalı ekspertlər tərəfindən nəzərdən keçirilməsi və yekun təsdiqlənməsi – Bütün işçilər üçün gender əsaslı zorakılığa dair maarifləndirmə sessiyalarının keçirilməsi – Davranış kodeksinin sahədəki bütün işçilər (müvafiq olaraq, podratçı, sub-podratçılar, nəzarətçi) tərəfindən qəbulu, təsdiq edilməsi və imzalanması	– ƏMS-in mühafizəsi üzrə müvafiq prosedur və ya plan olmadan heç bir fəaliyyətin həyata keçirilməməsi – Təsirlərin qarşısının alınması və minimuma endirilməsi üzrə podratçının hərtərəfli proqramı – Subpodratçının planlara riayət etməsi – Bütün fəaliyyətlərin P-ƏMSİP-ə uyğun olması – Heç bir qəbuledilməz və ya gözlənilməz təsirlərin olmaması	Podratçı (hazırlayır) Nəzarət üzrə məsləhətçi (təsdiqləyir) AZERENERJI nəzərdən keçirir
2.4	Yüksək riskli yerləri müəyyən etmək üçün geomorfologiyanın/geologiyanın ətraflı tədqiqatını aparmaq (ətraflı məlumat üçün Əlavə 4-də ilkin tədqiqata baxın)	– Bünövrələrin qeyri-sabit qrunt əsası üzərində qurulması – Qüllənin aşması – Torpaq sürüşmələri və/və ya güclü eroziya	Yüksək riskli yerlərdən yayınmağın və ya onların öhdəsindən gəlməyin mümkün olması üçün texniki-iqtisadi əsaslandırmanın bir hissəsi olan ilkin tədqiqatla (Əlavə 4) tövsiyə edilən geoloji araşdırmaların həyata keçirilməsi	Sabit qrunt əsası üzərində sabit qüllələr	Podratçı

№	Tədbirlər	Potensial mənfi təsir	Təsirin azaldılması tədbirləri/Qabaqcıl idarəetmə təcrübəsi	Təsirin azaldılması tədbirlərinin hədəf nəticəsi	Məsul orqan
2.5	Avadanlıqların, Dayaqların, yolların, tikinti sahələrinin/düşərgələrin, 74.5 metrlik dəhlizin və yarımstansiyanın yekun layihəsi/yerləri	– Qüllə və dəhliz yerlərinin biomüxtəlifliyə və insanlara təsirlərin lazımi şəkildə nəzərə alınmadan seçilməsi – Yollar üçün həddən artıq torpağın tələb olunması	Yekun layihələndirmə qrupuna flora və fauna üzrə mütəxəssislər daxil edilməli və tikintidən əvvəl aşağıdakıları da əhatə edən flora/fauna tədqiqatı aparılmalıdır: – Geoloji tədqiqatlar üçün aparılan bəzi qazma işləri istisna olmaqla, qeyri-intruziv vasitələrdən istifadə etməklə bütün dəhlizin tədqiqi – Qüllənin seçilməsi prosesində biomüxtəlifliyə təsirlərin nəzərə alınması – Həssas yerlərin/növlərin xəritələşdirilməsi. Mümkün olduqda, komanda elə qüllə yerləri seçməlidir ki,: – 300 metrlik "tədqiqat" dəhlizi daxilində olsun – Aralıq məsafələri uzun olan və ağacların kəsilməsinə ehtiyac olmaması üçün ötürücüləri onlardan yüksəkdən keçən qüllə yerlərindən maksimum istifadə edilsin – Mövcud yollardan/cığırlardan maksimum istifadə edilsin, yeni giriş yollarına və daimi yollara ehtiyac minimuma endirilsin – Təbii yaşayış mühitinə və mühafizə olunan növlərə təsirlər minimuma endirilsin – İnsanlara və qiymətli əmlaklara birbaşa təsirlər göstərməsin – Qüllələr elə layihələndirilməlidir ki, böyük quşları cərəyan vurmaması üçün ötürücülər bir-birindən ən azı 2.5-3 metr aralı olsun – Mümkün olduğu qədər, izolyasiyaedici maddə kimi SF6-dan istifadə edilməyən elektrik kommutasiya avadanlığı, naqillər və transformatorlar seçilməlidir. Mütləq istifadə edilməli olduqda isə, aşağı sızma əmsalına (99%-dən az) malik avadanlıqdan istifadə edilməlidir.	Dayaqların, dəhlizin, yolların və yarımstansiyanın yerləri insanlara və biomüxtəlifliyə təsiri mümkün qədər minimuma endirir	Podratçılar (layihələndirmə) Nəzarət üzrə məsləhətçi (təsdiq)
2.6	Köçürülmə siyasəti üzrə çərçivə sənədi əsasında köçürülmə və kompensasiya	– Layihənin təsirə məruz qalan insanların (LTMQİ) hamısının müəyyən edilməməsi	– KVKP-nin hazırlanması üçün kvalifikasiyalı məsləhətçinin təyin edilməsi	– Fiziki və iqtisadi yerdəyişmə üçün əvəzetmə dəyərində	AZƏRENERJİ

№	Tədbirlər	Potensial mənfi təsir	Təsirin azaldılması tədbirləri/Qabaqcıl idarəetmə təcrübəsi	Təsirin azaldılması tədbirlərinin hədəf nəticəsi	Məsul orqan
	planını (KVKP) hazırlamaq və həyata keçirmək	– Fiziki və iqtisadi yerdəyişmələrin hamısı üçün kompensasiyanın və ya əvəzetmənin təmin edilməməsi – Qeyri-adekvat kompensasiya – Torpağın alınması və kompensasiya ilə bağlı Azərbaycan qanunvericiliyinin və/və ya Dünya Bankının ESS5 standartının pozulması – Kompensasiya alana qədər LTMQİ-lərin üzləşdiyi çətinliklər – İcmanın dəstəyinin itirilməsi	– Yekun layihə/yerlər əsasında LTMQİ-ləri və təsirləri müəyyən etmək, həssas insanları, torpaq mülkiyyətini, torpaqdan istifadəni, qiymətləndirmələri və s. müəyyən etmək – LTMQİ-lərlə məsləhətləşmə aparmaq – Qiymətləndirmə və kompensasiya ilə bağlı səlahiyyətli orqanlarla məsləhətləşmə aparmaq – Qüllələr, yarımstansiyalar və daimi yollar üçün torpaq almaq: fiziki və/və ya iqtisadi yerdəyişmə baş verməzdən əvvəl yerdəyişmə üçün kompensasiya və ya mütənasib əvəzetmə təmin etmək – 74.5 metrlik mühafizə zonasında və 54.5 metrlik bitki örtüyünə nəzarət zonasında torpaqdan istifadəyə məhdudiyyətlərin qoyulması	və ya bundan daha yüksək yaxud mütənasib kompensasiyanın ödənilməsi – Köçürülmə üzrə Fəaliyyət Planının (KFP) icrasının ESS5 standartının tələblərinə cavab verməsi – Təsirə məruz qalan insanların əvəzetmə dəyəri və ya "torpağa görə torpaq" prinsipi ilə itkilərə görə tam kompensasiya olunması – Podratçıya işlərin icrası üçün icazə verilməzdən əvvəl bütün LTMQİ-lərə kompensasiya ödənilməsi – Prosesdə səlahiyyətli orqanların və LTMQİ-lərin iştirakı – İcmanın dəstəyi	
2.7	Süxurların/qruntun istismarı ilə bağlı yerin təki fondu ilə, meşə torpaqlarına olan ehtiyacla bağlı meşə fondu ilə və tikinti işlərinin həyata keçirilməsi üçün lazım olan icazələrin alınması ilə bağlı digər nazirliklər/səlahiyyətli orqanlarla razılaşma əldə etmək	İcazələrin olmaması səbəbindən işlərin icrasında gecikmələr və/və ya qanunun pozulması halları	Təsdiq tələb edən və/və ya meşə fondunda və ya digər dövlət torpaqlarında aparılan fəaliyyətlərə başlamazdan əvvəl müvafiq səlahiyyətli orqanlarla məsləhətləşmələrin aparılması və razılıqların əldə olunması	– Bütün fəaliyyətlərin qanunun tələblərinə uyğun olması – İşlərin icrasında heç bir gecikmələrin olmaması – Heç bir qanun pozuntusunun olmaması	Podratçı, zəruri hallarda AZƏRENERJİ-nin köməyi ilə
2.8	İşçiləri və subpodratçıları işə qəbul etmək	– Kvalifikasiyasız podratçılar və işçilər – Zəif əmək təcrübələri (standartdan aşağı əmək haqqı, məlumatsız işçilər və s.) – Həddən artıq işçi dövriyyəsi	– Podratçının əməyin idarə edilməsi prosedurunu (ƏİEP) həyata keçirmək – İşə qəbulda yerli əhaliyə, xüsusilə LTMQİ-lərə üstünlük vermək – İşçilərlə ƏİEP-ə və Azərbaycan qanunvericiliyinə uyğun yazılı müqavilələr bağlamaq – Azərbaycan Respublikasının Əmək Məcəlləsində nəzərdə tutulmuş digər müddəaları yerinə yetirmək – Subpodrat müqavilələrinə podratçının ƏİEP-nin və ona əməl olunması tələbinin daxil edilməsi	– LTMQİ-lərin və digər yerli sakinlərin maksimum səviyyədə işə qəbulu: işçi qüvvəsinin ən azı 20%-nin yerli əhalidən olması; – İşçilərin qanuna uyğun olaraq işə götürülməsi (ayrı-seçkiliyə yol verilməməsi, bərabər imkanlar, gəlir və s.) – İşçi dövriyyəsinin aşağı olması	Podratçı

№	Tədbirlər	Potensial mənfi təsir	Təsirin azaldılması tədbirləri/Qabaqcıl idarəetmə təcrübəsi	Təsirin azaldılması tədbirlərinin hədəf nəticəsi	Məsul orqan
			– Subpodrat müqavilələrinə P-ƏMSİP-in və ona əməl olunması tələbinin daxil edilməsi – İşçilərə tam işlə tanışlıq təliminin keçilməsi		
2.9	Tikinti düşərgələrinin/materialların saxlanma sahələrinin, anbar sahələrinin, daimi olmayan giriş yollarının, karxanaların/karxana sahələrinin və s. yaradılması və podratçıya müvəqqəti istifadə/sahiblik üçün lazım olan digər torpaqlar	– Podratçı tərəfindən torpaq sahəsinin hüdudlarının aşılması – Tikinti zonalarının təbii yaşayış mühitində və ya mühafizə olunan floranın kəsilməsini tələb edən ərazilərdə yerləşdirilməsi – Təyin edilmiş ərazinin hüdudlarından kənara olan təsirlər – Biomüxtəlifliyə dəyən qeydə alınmamış zərər – Torpağın üst qatının/qruntun, bitki örtüyünün həddən artıq zədələnməsi, eroziya, dağılmalar və torpağın/suyun çirklənməsi, icmalara təsirlər	– Səs-küy, yanacaq, təhlükəli materiallar, işçilərin təhlükəsizliyi, icmanın təhlükəsizliyi və s.-lə bağlı P-ƏMSİP-in tələblərini yerinə yetirmək, o cümlədən işçilərə təlim keçmək – Torpaqlarında fəaliyyətə başlamazdan əvvəl şəxsi torpaq sahibləri ilə yazılı razılaşmalar əldə etmək – Tikinti məqsədləri üçün tələb olunan torpaqlarda mühafizə olunan floranın və quşların yuvaladığı/gecələdiyi ağacların inventarlaşdırılması və xəritələşdirilməsi üçün flora/fauna tədqiqatlarını həyata keçirmək: təbii yaşayış mühitinin və mühafizə olunan növlərin olduğu ərazilərə ehtiyacı mümkün qədər minimuma endirmək – İşçiləri ərazinin hüdudları daxilində qalmaqla bağlı təlimatlandırmaq/xəbərdar etmək və pozuntulara görə cəzalandırmaq – Mövcud yollardan maksimum istifadə etmək – Nəqliyyatın hərəkətinin idarə edilməsi və ümumi istifadədə olan yolların zədələnməsi ilə bağlı yol idarəsi ilə məsləhətləşmə aparmaq – Yağıntılı şəraitdə asfaltlanmamış yollarda nəqliyyat vasitələrinin və avadanlıqların hərəkətini minimuma endirmək – Nəqliyyatın hərəkətinin pozulmasını minimuma endirmək üçün asfaltlanmamış yollara dəyən təkər izi və digər zədələri mümkün qədər tez aradan qaldırmaq Ən azı aşağıdakılar daxil olmaqla, biomüxtəlifliyin idarə edilməsi planını həyata keçirmək:	– Təsdiqlənmiş P-ƏMSİP-ə əməl olunması – Gözlənilməz və ya qəbuledilməz təsirlərin olmaması – Bütün işlərin nişanlanmış hüdudlar daxilində aparılması – Faunanın çoxalmasına minimal təsir – Yarasalara və bərzəklərə minimal təsir – Mühafizə olunan fauna və floraya minimal təsir – Nəqliyyatın hərəkətinə minimal təsir – Taxta və tezalışan qırıntı materiallarının yanğın təhlükəsi doğurmazdan əvvəl kənarlaşdırılması	Podratçı

№	Tədbirlər	Potensial mənfi təsir	Təsirin azaldılması tədbirləri/Qabaqcıl idarəetmə təcrübəsi	Təsirin azaldılması tədbirlərinin hədəf nəticəsi	Məsul orqan
			– Nəzarət üzrə məsləhətçinin xüsusi icazəsi olmadan obyektlərin təbii yaşayış mühitinə yerləşdirilməsindən çəkinmək – Tədqiqatlar yetkin ağaclarda qışlayan yarasalar və ya yuvalayan bayquşlar, yarasalar və ya yırtıcı quşlar aşkar edərsə, yarasalar gecələmə yerini tərk edənə və/və ya bala quşlar yuvalarını tərk edənə qədər 150 m radiusda kəsim və tikinti işlərini təxirə salmaq – Tədqiqatlar təsirə məruz qalacaq ərazilərdə və ya onların 50 m radiusu daxilində mühafizə olunan faunanın çoxalmasını və ya yuvalamasını aşkar edərsə, balalar yuvaları tərk edənə qədər 50 m radiusda ərazinin təmizlənməsi və digər tikinti işlərini təxirə salmaq - Yetkin ağacların və mühafizə olunan ağacların kəsilməsini minimuma endirmək: bütün kəsilmiş ağacların uçot jurnalını aparmaq - Mühafizə olunan bitkilərin kəsilməsinin foto və yazılı uçot jurnalını aparmaq - Yarasaların qışlama/gecələmə/yuvalama əlamətləri olan hər yetkin ağac üçün kəsilmiş ağacın 50 m radiusunda 2-dən artıq yarasa qutusu yerləşdirmək - Dəhliz daxilində, lakin bitki örtüyünə nəzarət zonasından kənarda, kəsilən hər mühafizə olunan ağac və ya kol üçün yaxud yarasa, bayquş və ya yırtıcı quşların qışladığı/gecələdiyi/yuvaladığı hər yetkin ağac üçün eyni növdən olan 2-dən artıq ağac əkmək Torpağın idarə edilməsi və eroziyaya nəzarət prosedurlarını həyata keçirmək, o cümlədən ən azı:		

№	Tədbirlər	Potensial mənfi təsir	Təsirin azaldılması tədbirləri/Qabaqcıl idarəetmə təcrübəsi	Təsirin azaldılması tədbirlərinin hədəf nəticəsi	Məsul orqan
			– Mümkün qədər sürüşməyə meylli ərazilərdən və ciddi eroziya potensialı olan ərazilərdən qaçınmaq – Tikinti zonasının hüdudlarını müəyyən etmək və nişanlamaq – Bütün fəaliyyətləri bu hüdudlar daxilində aparmaq – Torpağın üst qatını qazıb çıxarmaq və bu hüdudlar daxilində saxlamaq, eroziyadan qorumaq – Qazılıb çıxarılmış qruntu ayrıca saxlamaq, eroziyadan qorumaq – Sahədən kənar ərazilərə təsir edə biləcək eroziya ilə mübarizə üçün lazım olduqda drenaj sistemi qurmaq – Eroziyanın tikinti sahələrindən kənara çıxmasının qarşısını almaq üçün zəruri hallarda qabionlar, divarlar, lil hasarları qurmaq və ya digər tədbirləri görmək		
2.10	Yerləşdirmə yerlərinin, mətbəxlərin, sanitar qovşaqların yaradılması	– İşçinin xəstələnməsi və ya ölümü – İşçilərin narazılığı və aşağı məhsuldarlıq – Torpağın və suyun çirklənməsi	– Yerləşdirmə yerləri təmin ediləcəksə, Dünya Bankı Qrupunun "İşçilərin yerləşdirmə yerləri: proseslər və standartlar (2009)" adlı təlimatına əməl etmək – Yeməkxanaların/mətbəxlərin istismarı və onlara texniki xidmət üzrə yoxlama siyahıları hazırlamaq və istifadə etmək – Yerləşdirmə yerlərinin, mətbəxlərin, yeməkxanaların, istirahət yerlərinin və s. təmizliyinə cavabdeh şəxslər təyin etmək – Bütün iş yerlərində və ya onların yaxınlığında ayaqyolular təmin etmək, işçilərin kollardan istifadəsini qadağan edən qaydaları müəyyən etmək və tətbiq etmək	– Sanitar baxımdan təmiz və tələblərə cavab verən obyektlər və şərait – Sağlam işçilər – Lazım olan yerlərdə ayaqyolular	Podratçı

№	Tədbirlər	Potensial mənfi təsir	Təsirin azaldılması tədbirləri/Qabaqcıl idarəetmə təcrübəsi	Təsirin azaldılması tədbirlərinin hədəf nəticəsi	Məsul orqan
2.11	Giriş yollarının planlaşdırılması və ötürücü xətt dəhlizinin ətraflı tədqiqi	– Biomüxtəlifliyə və mühafizə olunan növlərə lüzumsuz təsir – Həddən artıq eroziya və sahədən kənar ərazilərə təsirlər	– Mövcud yollardan maksimum istifadə etmək – Yolların təbii yaşayış mühitindən keçməsini minimuma endirmək – Təhlükədə olan ağac və kol növlərinə mümkün qədər toxunmamaq – Ərazinin təmizlənməsindən/tikintidən əvvəl flora və fauna tədqiqatını həyata keçirmək: – Mühafizə olunan ağac və kol növlərinin bütün nümunələrini inventarlaşdırmaq və nişanlamaq – Hazırda və bu yaxınlarda yarasaların qışlaması və ya bayquş, yarasa yaxud yırtıcı quşların yuvalaması əlamətləri olan yetkin ağacları müəyyən etmək və nişanlamaq – Mühafizə olunan fauna növləri və yırtıcı quşların yuvaları və digər çoxalma əlamətləri olan ağacları və yerləri müəyyən etmək – Dəhliz mümkün qədər elə salınmalıdır ki, mühafizə olunan fauna növlərinə və mühafizə olunan ağaclara təsirlər minimuma endirilsin – Kəsilməsi lazım gələcək mühafizə olunan bitkilərin foto və yazılı uçot jurnalını aparmaq	– Yollar və dəhliz elə salınmalıdır ki, təbii yaşayış mühitinə və mühafizə olunan növlərə təsirlər minimuma endirilsin – Təhlükədə olan növlərin müəyyən edilməsi və düzgün şəkildə idarə edilməsi	Podratçı
2.12	Köçəri quşlar üçün riskləri müəyyən etmək	Köçəri quşların potensial toqquşma riskləri barədə məlumatın olmaması Toqquşmalar nəticəsində quşların potensial ölüm halları	– Çay dərələrində yırtıcı və su quşlarının keçidinin monitorinqi proqramını hazırlaması üçün ekspert təyin etmək – 2024-cü ilin payız və 2025-ci ilin yaz köç dövrlərində monitorinq proqramının həyata keçirilməsi üçün məsləhətçi(lər) təyin etmək – Nəticələr əsasında, ekspert (a) əhəmiyyətli toqquşma riskini azaltmaq üçün ötürücülərin dərələrdən keçdiyi yerlərdə quş yönləndiricilərinin (fırlanqıclar, sayrışan işıqlar və s.) quraşdırılmalı olub-olmaması	– Ekspertin təyin edilməsi və monitorinq proqramının hazırlanması – Məsləhətçilərin təyin edilməsi və proqramın həyata keçirilməsi – Nəticələrin nəzərdən keçirilməsi və tövsiyələrin hazırlanması – Tövsiyələrin yerinə yetirilməsi (heç bir fəaliyyət həyata	AZƏRENERJİ

№	Tədbirlər	Potensial mənfi təsir	Təsirin azaldılması tədbirləri/Qabaqcıl idarəetmə təcrübəsi	Təsirin azaldılması tədbirlərinin hədəf nəticəsi	Məsul orqan
			və (b) yekun tövsiyələr verilməzdən əvvəl əlavə monitorinq tələb olunub-olunmaması ilə bağlı tövsiyələri özündə əks etdirən xülasə hesabat hazırlamalıdır.	keçirilməsin, monitorinq davam etdirilsin və ya yönləndiricilər quraşdırılsın)	
2.13	Biomüxtəlifliyin idarə edilməsi planını (BİP) hazırlamaq	Mühafizə olunan növlərə və yaşayış mühitlərinə təsirlər	Aşağıdakıları ehtiva edən BİP-in hazırlanması üçün ekspert(lər) təyin etmək: - Kəsilən ağacların/bitkilərin əvəzinə yenilərini əkmə proqramı - Bitki örtüyünün bərpa edilməli/əkin aparılmalı olduğu ərazi - Əvəz edilməli/əkilməli olan növlər - Uğurlu əkinlərin göstəriciləri - Monitorinq proqramı - Proqramın icrasına və monitorinqə cavabdeh olan tərəflərin müəyyən edilməsi - Kəsilən/zədələnən gecələmə yerlərini/yuvaları əvəz etmək üçün yarasa qutularının yerləşdirilməsi proqramı: saylar, yerlər, qutuların dizaynı və s. - İcra qrafiki - İcra və monitorinq üçün büdcə	– Məsləhətçi/ekspert(lər)in təyin olunması – BİP-in hazırlanması və təsdiq edilməsi – Tələblərin yerinə yetirilməsi – Biomüxtəliflikdə xalis itkinin olmaması və ya xalis artımın olması	AZƏRENERJİ
3.0 Tikinti mərhələsi					
3.1	Bütün fəaliyyətlər	– İşçinin xəsarət alması və ya ölümü – Tikinti zonasından kənarda bitki örtüyünün, torpağın, əmlakın zədələnməsi	– Əməyin mühafizəsi və təhlükəsizlik texnikası üzrə planı həyata keçirmək: – İşçilərin onlara verilən tapşırıqları yerinə yetirmələri üçün tibbi icazə – FMV-lərin son çarə olması şərti ilə, bütün tapşırıqlar üçün risklərin qiymətləndirilməsi və təsirin azaldılması tədbirlərinin müəyyən edilməsi – Tapşırıqların maksimum təhlükəsiz iş üçün nəzərdə tutulması – Tapşırıqları təhlükəsiz yerinə yetirmələri üçün işçilərin müvafiq avadanlıq və alətlərlə və FMV ilə təmin olunması	– Tapşırıqların işçilər arasında xəsarət və ya ölüm halları olmadan yerinə yetirilməsi – Tapşırıqların tikinti zonasından kənarda bitki örtüyünə, torpağa və ya əmlaka zərər vurulmadan yerinə yetirilməsi	Podratçı

№	Tədbirlər	Potensial mənfi təsir	Təsirin azaldılması tədbirləri/Qabaqcıl idarəetmə təcrübəsi	Təsirin azaldılması tədbirlərinin hədəf nəticəsi	Məsul orqan
			– Tapşırıqları yalnız təlim keçmiş işçilərin yerinə yetirməsinə icazə verilməsi – Təhlükəsizlik texnikası üzrə mütəxəssislərin bütün işlərə nəzarət etməsi – Zəruri hallarda ilkin tibbi yardım göstərmək üçün kifayət qədər ilk yardım əməkdaşlarının olması – Bütün nəqliyyat vasitələrində və avadanlıqlarda və bütün iş yerlərində tam təchiz olunmuş ilk yardım dəstləri – Həyata keçiriləcək işlərlə bağlı yerli tibb müəssisələri və işçiləri ilə əlaqə qurulması, ehtiyac olduqda yardımın təşkil edilməsi – Təhlükəsizlik statistikasının qeydə alınması (iş saatları, bədbəxt hadisə ilə nəticələnməyən təhlükəli vəziyyətlər, kiçik hadisələr və qəzalar, ölüm halları) – İşçilərin daşınması (yalnız sərnişin avtomobillərindən istifadə edilməsi, ağır texnika ilə getməyin qadağan olması, təhlükəsizlik kəmərinin taxılması və s.) – İşlərə başlamazdan əvvəl tikinti zonasının hüdudlarının nişanlanması – İşlərin hüdudlar daxilində aparılması, hüdudların pozulmasına görə nəzarətçilərin və işçilərin cəzalandırılması – Bədbəxt hadisələrin qarşısını almaq üçün dərin qazıntılarda fiziki baryerlərin quraşdırılması Aşağıdakıları əhatə edən yol hərəkətinin idarə edilməsi prosedurlarını həyata keçirmək: – Nəqliyyat vasitələri və avadanlıqların lisenziyalı sürücülər/operatorlar tərəfindən idarə edilməsi – Sürücüyə zəruri hallarda təlim keçilməsi və ondan imtahan götürülməsi – Nəqliyyat vasitələrinin lazımi lisenziyasının/qeydiyyatının olması – Nəqliyyat vasitələrinin/avadanlığın təhlükəsizlik məqsədilə hər gün sürücülər/operatorlar tərəfindən yoxlanılması (siqnallar, təkərlər, yanğınsöndürmə vasitəsi, ön və arxa faralar, təhlükəsizlik kəmərləri, şüşələrin bütövlüyü və s.) – Zərurətə görə sürət həddinin tətbiq edilməsi		

№	Tədbirlər	Potensial mənfi təsir	Təsirin azaldılması tədbirləri/Qabaqcıl idarəetmə təcrübəsi	Təsirin azaldılması tədbirlərinin hədəf nəticəsi	Məsul orqan
			– Xüsusi ehtiyat tədbirləri görülməli olan həssas ərazilər (xəstəxanalar, məktəblər və s.) – Sürücü/operator olmadıqda açarların heç vaxt nəqliyyat vasitəsində/avadanlıqda saxlanmaması – Ümumi istifadədə olan yollardan istifadə ilə bağlı yol idarələri ilə məsləhətləşmələrin aparılması (istifadə vaxtı, yerləri və s.) – Layihənin nəqliyyat vasitələrinin yollara intensiv şəkildə daxil olduğu və yollardan çıxdığı yerlərdə nəqliyyatın hərəkətinin tənzimlənməsi üçün bayraqla işarə verən şəxslərə təlim keçilməsi və onların ümumi istifadədə olan yollara yerləşdirilməsi		
3.2	Bütün fəaliyyətlərin bir hissəsi kimi müvafiq P-ƏMSİP planlarını həyata keçirmək (bax: 2.1)	– İnsanlara və ətraf mühit resurslarına həddən artıq təsirlər	– İnsanlara və ətraf mühitə potensial təsirlərin qarşısını almaq və ya minimuma endirmək üçün fəaliyyətlərin plana uyğun idarə edilməsi	– Təsirlərin azaldılması tədbirlərinin həyata keçirilməsi – Gözlənilməz təsirlər halında adaptiv idarəetmə – Qanunvericiliyə və ƏMSS-lərə (ətraf mühit və sosial standartlar) riayət olunması	
3.3	Subpodratçıları idarə etmək	– Subpodratçıların ƏMS tələbləri barədə məlumatsız olması – Zəif əmək təcrübələri və zəif təlim keçmiş işçilər – P-ƏMSİP-in həyata keçirilməməsi – ƏMS üzrə fəaliyyət səmərəliliyinin, o cümlədən təhlükəsizliyin aşağı olması, nəticədə ətraf mühitə, yerli icmalara təsirlərin, işçilərin xəsarət və ya ölüm hallarının baş verməsi	– P-ƏMSİP-in müvafiq hissələrini satınalma sənədlərinə və subpodrat müqavilələrinə daxil etmək – Podratçının ƏİEP-nin təhlükəsizliklə bağlı və digər tələblərinə və ya podratçı tərəfindən təsdiq edilmiş ekvivalent tələblərə riayət olunmasını tələb etmək – Podratçı və nəzarət üzrə məsləhətçi tərəfindən P-ƏMSİP-in icrasına nəzarət edilməsi – Mərhələlər üzrə ödənişlər elə strukturlaşdırılmalıdır ki, P-ƏMSİP-in icrası şərti nəzərdə tutulsun və bu şərtə əməl olunmamasına görə ödənişlər dayandırılsın (bax: aşağıda 3.15-ci sətir).	– Subpodratçı tərəfindən P-ƏMSİP-in həyata keçirilməsi – Qəbuledilməz ƏMS təsirlərinin baş verməməsi	Podratçı Nəzarət üzrə məsləhətçi (nəzarət, podratçı ilə)
3.4	Qüllə yerlərində, tikinti zonalarında və yeni giriş yollarında torpaqların təmizlənməsi (ağac və bitki örtüyünün kəsilməsi, torpağın təmizlənməsi, bəzi yerlərdə torpağın daşınması,	– İşçinin xəsarət alması və ya ölümü – Ətraf ərazilərə, o cümlədən biomüxtəlifliyə, şəxsi torpaq və əmlaka həddən artıq ziyan vurulması	– Əməyin mühafizəsi və təhlükəsizlik texnikası üzrə planla bağlı işçilərə təlim keçmək və planı tətbiq etmək: maşın və alətlərlə işləmək, dik yamaclarda işləmək, heyvanlar/bitkilərlə bağlı təhlükələr, isti və ya soyuq mühitlərdə işləmək və s.	– Torpağın təmizlənməsi nəticəsində biomüxtəlifliyə dəyən zərərin minimum olması – Hüdudlardan kənar ərazilərə heç bir zərərin dəyməməsi	Podratçı

№	Tədbirlər	Potensial mənfi təsir	Təsirin azaldılması tədbirləri/Qabaqcıl idarəetmə təcrübəsi	Təsirin azaldılması tədbirlərinin hədəf nəticəsi	Məsul orqan
	avadanlıqların/binaların yerləşdirilməsi və s.)		– Həddən artıq olan oduncaq və tezalışan qırıntıları quraq mövsümə qədər ərazidən çıxarmaq. – Kəsiləcək ağacların hündürlüyü barədə ETSN ilə məsləhətləşmə aparmaq (hündürlüyün ən azı 0.7-1 metr olmasına üstünlük verilməlidir) – Mümkün olduğu qədər, mühafizə olunan floranın kəsilməsini/təmizlənməsini minimuma endirmək üçün tikinti zonasının hüdudlarını mikro səviyyədə müəyyən etmək – Tikinti zonasının və yeni yolların hüdudlarını nişanlamaq və onlardan kənara çıxmamaq – İşçiləri ərazinin hüdudları daxilində qalmaqla bağlı təlimatlandırmaq/xəbərdar etmək, hüdudların pozulmasına görə nəzarətçiləri və işçiləri cəzalandırmaq – Torpağın üst qatını və qruntu/yararsız süxurları qazıb çıxarmaq və ayrı-ayrı yığınlar şəklində tikinti zonasının hüdudları daxilində saxlamaq, eroziyadan qorumaq – Sahədən kənar ərazilərə təsir edə biləcək eroziya ilə mübarizə üçün lazım olduqda drenaj sistemi qurmaq - Ən azı aşağıdakılar daxil olmaqla, biomüxtəlifliyin idarə edilməsi planını həyata keçirmək: – Tədqiqatlar yetkin ağaclarda qışlayan yarasalar və ya yuvalayan bayquşlar, yarasalar və ya yırtıcı quşlar aşkar edərsə, yarasalar gecələmə yerini tərk edənə və/və ya bala yarasalar, yırtıcı quşlar və/və ya	– Torpağın səthinə və kök zonasına məhdud zərər dəyməsi – Tədqiqatın tamamlanması, ağac və kolların nişanlanması – Zərurətə uyğun olaraq, yarasa qutularının yerləşdirilməsi və ağac/kol əkinlərinin aparılması	

№	Tədbirlər	Potensial mənfi təsir	Təsirin azaldılması tədbirləri/Qabaqcıl idarəetmə təcrübəsi	Təsirin azaldılması tədbirlərinin hədəf nəticəsi	Məsul orqan
			mühafizə olunan növlər yuvalarını tərk edənə qədər 150 m radiusda tikinti/təmizləmə işlərini təxirə salmaq – Tədqiqatlar tikinti zonasında və ya onun 50 m radiusu daxilində mühafizə olunan faunanın çoxalmasını və ya yuvalamasını aşkar edərsə, balalar yuvaları tərk edənə qədər 100 m radiusda ərazinin təmizlənməsini və digər tikinti işlərini təxirə salmaq – Mühafizə olunan bitkilərin kəsilməsinin foto və yazılı uçot jurnalını aparmaq – Yarasaların qışlama/gecələmə/yuvalama əlamətləri olan hər yetkin ağac üçün kəsilmiş ağacın 50 m radiusunda 2-dən artıq yarasa qutusu yerləşdirmək – Bitki örtüyünə nəzarət zonasından kənarda, kəsilən hər mühafizə olunan ağac və ya kol üçün eyni növdən olan 2-dən artıq ağac/kol əkmək – Ağacları torpağa qədər kəsməmək, gövdənin mümkün qədər çox hissəsini ETSN ilə razılaşdırıldığı halda ən azı 0.7-1 metrlik hissəsini saxlamaq – Hündürlüyü 4 m-dən az olan kolları kəsməmək – Landşaftın bərpası planına uyğun olaraq, hüdudlardan kənar əraziyə təsadüfən vurulmuş ziyanı aradan qaldırmaq		
3.5	Dəhlizdə bitki örtüyünün kəsilməsi/təmizlənməsi	– Biomüxtəlifliyə (flora, fauna, təbii yaşayış mühitləri) həddən artıq təsir – Landşafta və panoramaya lüzumsuz təsirlər – Həddən artıq eroziya – Torpaq sürüşmələri	– Təmizləmə əməliyyatlarından əvvəl ETSN (yerli idarələr) ilə məsləhətləşmə aparmaq – Yerli meşə idarəçiləri və/və ya torpaq sahibləri ilə qırıntıların/oduncağın necə utilizasiya olunacağını razılaşdırmaq, onların LTMQİ-lərə və ağac tədarükçülərinə ianə olunmasına üstünlük vermək	– Biomüxtəlifliyə minimal təsir – Landşaft və mənzərələrə minimal təsir – Sahədən kənar ərazilərə birbaşa təsirlərin olmaması – Eroziyanın minimal olması, sürüşmələrin olmaması – Torpağın bərpa olunması	Podratçı AZƏRENERJİ (demobilizasiyadan sonrakı monitoring)

№	Tədbirlər	Potensial mənfi təsir	Təsirin azaldılması tədbirləri/Qabaqcıl idarəetmə təcrübəsi	Təsirin azaldılması tədbirlərinin hədəf nəticəsi	Məsul orqan
			– Kəsiləcək ağacların hündürlüyünü ETSN ilə razılaşdırmaq (hündürlüyün ən azı 0.7-1 metr olmasına üstünlük verilməlidir) – Həddən artıq olan oduncaq və qırıntıları quraq mövsümə qədər ərazidən çıxarmaq. – İşçiləri ərazinin hüdudları daxilində qalmaqla bağlı təlimatlandırmaq/xəbərdar etmək, hüdudların pozulmasına görə nəzarətçiləri və işçiləri cəzalandırmaq – Torpağın idarə edilməsi və eroziyaya nəzarət prosedurlarını həyata keçirmək, o cümlədən ən azı: – Bütün fəaliyyətləri bu hüdudlar daxilində aparmaq – Xəttin üzərinə heç bir ağacın aşmamasını təmin etmək şərti ilə, mümkün qədər az ağac kəsmək – Torpaq sahələrinə və torpağa təsirləri minimuma endirmək. Torpaqda təmizlənmə aparılmalı olarsa, torpağın üst qatını və qruntu qazıb çıxarmaq və bu hüdudlar daxilində ayrı-ayrılıqda saxlamaq, eroziyadan qorumaq – Sahədən kənar ərazilərə təsir edə biləcək eroziya ilə mübarizə üçün lazım olduqda drenaj sistemi qurmaq – Nahamar yer səthi üzərinə torpağın üst qatını vermək və yerli bitki növlərini/toxumlarını əkmək Ən azı aşağıdakılar daxil olmaqla, biomüxtəlifliyin idarə edilməsi planını həyata keçirmək: – Tədqiqatlar yetkin ağaclarda qışlayan yarasalar və ya yuvalayan bayquşlar, yarasalar və ya yırtıcı quşlar aşkar edərsə, yarasalar gecələmə yerini tərk edənə və/və ya bala yarasalar, yırtıcı quşlar və/və ya		

№	Tədbirlər	Potensial mənfi təsir	Təsirin azaldılması tədbirləri/Qabaqcıl idarəetmə təcrübəsi	Təsirin azaldılması tədbirlərinin hədəf nəticəsi	Məsul orqan
			mühafizə olunan növlər yuvalarını tərk edənə qədər 100 m radiusda kəsim işlərini təxirə salmaq – Tədqiqatlar təmizlənəcək ərazilərdə və ya onların 50 m radiusu daxilində mühafizə olunan faunanın çoxalmasını və ya yuvalamasını aşkar edərsə, balalar yuvaları tərk edənə qədər 50 m radiusda ərazinin təmizlənməsi və digər tikinti işlərini təxirə salmaq – Mümkün olduğu qədər, yetkin ağacların və mühafizə olunan ağacların kəsilməsini minimuma endirmək üçün dəhlizin hüdudlarını mikro səviyyədə müəyyən etmək – Mühafizə olunan bitkilərin kəsilməsinin foto və yazılı uçot jurnalını aparmaq – Yarasaların qışlama/gecələmə/yuvalama əlamətləri olan hər yetkin ağac üçün kəsilmiş ağacın 50 m radiusunda 2-dən artıq yarasa qutusu yerləşdirmək – Dəhliz daxilində, lakin bitki örtüyünə nəzarət zonasından kənarda, kəsilən hər mühafizə olunan ağac və ya kol üçün eyni növdən olan 2-dən artıq ağac əkmək – Yırtıcı quşların yuvalama əlaməti olan hər bir ağac üçün bitki örtüyünə nəzarət zonasının xaricində qüllələr və ya oxşar ağaclar üzərində 2-dən artıq yuva platforması yerləşdirmək – Ağacları torpağa qədər kəsməmək, gövdənin mümkün qədər çox hissəsini (4 m-ə qədər) saxlamaq – Hündürlüyü 4 m-dən az olan kolları kəsməmək		
3.6	Qüllə bünövrələri və yarımstansiya ilə bağlı qazıntılar	– İşçinin xəsarət alması və ya ölümü – Həddən artıq torpağın və yararsız süxurların çıxarılması	Əməyin mühafizəsi və təhlükəsizlik texnikası üzrə planla bağlı işçilərə və nəzarətçilərə təlim keçmək: – Qazıntıların/qapalı yerlərin içində/yaxınlığında işləmək	– İşlərin təhlükəsiz şəkildə tamamlanması – Hüdudlardan kənar ərazilərə heç bir zərərin dəyməməsi – Əməliyyatların təhlükəsiz və səmərəli şəkildə aparılması	Podratçı

№	Tədbirlər	Potensial mənfi təsir	Təsirin azaldılması tədbirləri/Qabaqcıl idarəetmə təcrübəsi	Təsirin azaldılması tədbirlərinin hədəf nəticəsi	Məsul orqan
			– Ağır avadanlıqların əhatəsində işləmək – İşçilərə bütün alət və avadanlıqlardan istifadənin öyrədilməsi – Həddən artıq dik yamaclarda təhlükəsizlik kanatlarından istifadə – Torpağın idarə edilməsi və eroziyaya nəzarət prosedurlarının müvafiq müddəalarını həyata keçirmək: torpağın üst qatını və yararsız süxurları qazıb çıxarmaq, eroziyadan qorumaq – Hüdudları nişanlamaq və hüdudlar daxilində işləmək		
3.7	Dik və orta maillikli yamaclarda qazıntı və kəsim işləri	– İşçinin xəsarət alması və ya ölümü – Avadanlıqların itirilməsi və ya zədələnməsi – Həddən artıq torpağın təsirə məruz qalması – Torpaq sürüşmələri – Eroziya	– Qüllə və yolların yerlərinin dik yamaclarda işləri mümkün qədər minimuma endirəcək şəkildə seçilməsi – Əməyin mühafizəsi və təhlükəsizlik texnikası üzrə planla bağlı işçilərə və nəzarətçilərə təlim keçmək: – Kəskin maillikli ərazilərdə işləmək – Əl və mexaniki alətlərlə işləmək – Ağır avadanlıqların əhatəsində işləmək Torpağın idarə edilməsi və eroziyaya nəzarət prosedurlarını həyata keçirmək: – Tikinti zonasının hüdudlarını nişanlamaq – Torpağın üst qatını (əgər varsa) və yararsız süxurları qazıb çıxarmaq və sahədə saxlamaq, yamacdan aşağı tökülməsinə imkan verməmək – Torpaq sürüşmələrinin, yamacın uçmasının, kütləvi eroziyanın qarşısını almaq və yamacları sabitləşdirmək üçün səthləri hamarlamaq, zəruri hallarda qabionlar, divarlar, lil hasarları və s. qurmaq – İşlər başa çatanda sahədəki bütün qırıntıları və tullantıları təmizləmək – Torpağı bərpa etmək (sabit kontur alınana qədər hamarlamaq, mümkünsə torpağın üst qatını bərpa etmək, bitkilər sərbəst yaşaya bilənə qədər yerli bitki növlərini əkmək)	– İşlərin təhlükəsiz şəkildə tamamlanması – Tikinti zonası hüdudlarından kənarda heç bir işlərin aparılmaması və zərərin vurulmaması – Torpaq sürüşmələrinin və güclü eroziyanın baş verməməsi – İşlər başa çatdıqdan sonra torpağın bərpa edilməsi və sabit vəziyyətə gətirilməsi	Podratçı

№	Tədbirlər	Potensial mənfi təsir	Təsirin azaldılması tədbirləri/Qabaqcıl idarəetmə təcrübəsi	Təsirin azaldılması tədbirlərinin hədəf nəticəsi	Məsul orqan
3.8	Qüllə yerlərində və ya yollarda partlatma işləri	– İşçinin xəsarət alması və ya ölümü – Sıçrayan daşlar və ya titrəyiş səbəbindən sahədən kənar ərazilərə ziyan dəyməsi – Partlayıcıların oğurlanması	Partlayıcıların və partlatma işlərinin idarə edilməsi prosedurlarını tətbiq etmək *(partlatma işləri tələb olunarsa)*: – Səlahiyyətli orqanlardan müvafiq icazələri olan lisenziyalı subpodratçı – Azərbaycan qanunvericiliyinə uyğun şəkildə daşınma və saxlanma, digər obyektlərdən məsafədə saxlanma – Lisenziyalı partladıcı – İcmalara xəbərdarlıq – Partlayışdan əvvəl və sonra binaların tədqiqi – KFP-yə uyğun kompensasiya	– Partlayıcıların təhlükəsiz şəkildə daşınması və istifadəsi – Sahədən kənar ərazilərə minimal ziyan dəyməsi – Zəruri hallarda, sahədən kənar ərazilərə dəyən ziyanın müəyyən olunması və KFP-yə uyğun kompensasiya edilməsi	Podratçı
3.9	Qüllə bünövrələri və yarımstansiya ilə bağlı qazıntılar	– İşçinin xəsarət alması və ya ölümü – Həddən artıq torpağın və yararsız süxurların çıxarılması	Əməyin mühafizəsi və təhlükəsizlik texnikası üzrə planı həyata keçirmək: – Qazıntıların/qapalı yerlərin içində/yaxınlığında işləmək – Ağır avadanlıqların əhatəsində işləmək – Betonla işləmək – İşçilərə bütün alət və avadanlıqlardan istifadənin öyrədilməsi – Tələb olunduqda, həddən artıq dik yamaclarda təhlükəsizlik kanatlarından istifadə Torpağın təmizlənməsi və eroziyaya nəzarət prosedurlarını həyata keçirmək, o cümlədən: – Mümkün qədər kiçik ərazini təsirə məruz qoymaq – Torpağın üst qatını və yararsız süxurları qazıb çıxarmaq və tikinti zonasında ayrı-ayrılıqda saxlamaq, eroziyadan qorumaq – Dərin qazıntı yeri gecə ərzində açıq qaldıqda, fiziki baryerlər təmin etmək	– İşlərin təhlükəsiz şəkildə tamamlanması – Hüdudlardan kənar ərazilərə heç bir zərərin dəyməməsi – Əməliyyatların təhlükəsiz və səmərəli aparılması	Podratçı
3.10	Dayaqların ucaldılması	– İşçinin xəsarət alması və ya ölümü – Tikinti zonasından kənar ərazilərə ziyan dəyməsi	– Əməyin mühafizəsi və təhlükəsizlik texnikası üzrə planla bağlı işçilərə və nəzarətçilərə təlim keçmək: qaldırma işləri, hündürlükdə işləmək, elektrik təhlükəsizliyi, ümumi işlər, dik yamaclar	– İşlərin təhlükəsiz şəkildə tamamlanması – Hüdudlardan kənar ərazilərə heç bir zərərin dəyməməsi	Podratçı

№	Tədbirlər	Potensial mənfi təsir	Təsirin azaldılması tədbirləri/Qabaqcıl idarəetmə təcrübəsi	Təsirin azaldılması tədbirlərinin hədəf nəticəsi	Məsul orqan
			– Tikinti zonasının hüdudlarını nişanlamaq və hüdudlar daxilində işləmək, hüdudların pozulmasına görə nəzarətçiləri və işçiləri cəzalandırmaq – Tikintini qazılıb çıxarılan qruntun daimi qalaqlar halında saxlanması ehtiyacını minimuma endirəcək şəkildə planlaşdırmaq – Torpağı aşağıdakı 3.11-ci bəndə uyğun olaraq bərpa etmək		
3.11	Tikinti sahələrində torpaqların bərpası (qüllələr, tikinti zonaları/sahələri, müvəqqəti giriş yolları, digər zədələnmiş torpaqlar)	– Bitki örtüyünün bərpa olunmaması – Davamlı eroziya – Əkin sahələrində və otlaqlarda məhsuldarlığın azalması – Torpaq sürüşmələri	Landşaftın bərpası planına uyğun olaraq bütün təsirə məruz qalmış ərazilər bərpa etmək: – Bütün tullantıları və qırıntıları kənarlaşdırmaq – Zəruri hallarda sabit konturlar əldə edilənə qədər səthi hamarlamaq (yollar istisna olmaqla) – Yararsız süxurları və torpağın üst qatını yaymaq (daşlı qeyri-münbit ərazilər istisna olmaqla) – Bütün izafi yararsız süxurları/torpağı başqa yerdə istifadə üçün kənarlaşdırmaq – Ot və kolların yerli növlərini əkmək. – Tikinti zonaları və yollar üçün podratçı tərəfindən istifadə edilən şəxsi torpaqlarda: torpaq sahibi dəyişiklik (məs. tarlalarda əkin aparılmaması, yolların yerində saxlanması və s.) tələb etmədiyi təqdirdə torpağı yuxarıda göstərildiyi kimi bərpa etmək	Torpağın məhsuldar istifadəyə qaytarılması	Podratçı
3.12	Düşərgələrin, anbar sahələrinin, avadanlıqların, əmlakın, yarımstansiyanın və s. mühafizəsi (təhlükəsizlik)	– Yerli əhali və ya işçilərlə kobud rəftar, o cümlədən xəsarət və ya ölüm halları – İcma dəstəyinin itirilməsi, mümkün fəal etirazlar – Podratçı və AZƏRENERJİ-nin məsuliyyətinin yaranması	Əvvəlcədən razılaşdırılmış təhlükəsizlik prosedurlarını həyata keçirmək: – Mühafizə işçilərinin silahlı olmaması – Subpodratçı və mühafizəçilərin lisenziyalara malik olmasının, əvvəllər zorakılıq hallarına yol verib-vermədiyinin yoxlanılması – Gücün düzgün şəkildə tətbiqi ilə bağlı mühafizəçilərə təlim keçilməsi – Yerli hüquq-mühafizə orqanları ilə məsləhətləşmələr	Mühafizə ilə bağlı heç bir vandalizm, oğurluq və ya insidentlərin baş verməməsi	Podratçı Nəzarət üzrə məsləhətçi (mühafizə üzrə subpodratçının təsdiq edilməsi)
3.13	Ötürücülərin yerləşdirilməsi (naqillərin çəkilişi)	– İşçinin xəsarət alması və ya ölümü – Torpağa, əkinlərə və meşələrə həddindən artıq ziyan dəyməsi	– Əməyin mühafizəsi və təhlükəsizlik texnikası üzrə planla bağlı işçilərə və nəzarətçilərə təlim keçmək – İşləri dəhlizin hüdudları daxilində, o cümlədən mümkün qədər yollardan istifadə etməklə görmək	– İşlərin təhlükəsiz şəkildə tamamlanması – Dəhliz daxilində zərərin minimal olması – Dəhlizdən kənar ərazilərə heç bir zərərin dəyməməsi	Podratçı

№	Tədbirlər	Potensial mənfi təsir	Təsirin azaldılması tədbirləri/Qabaqcıl idarəetmə təcrübəsi	Təsirin azaldılması tədbirlərinin hədəf nəticəsi	Məsul orqan
			– Qarşıdan gələn fəaliyyətlər barədə elan lövhələri qoymaq və ya digər formada torpaq sahiblərini xəbərdar etmək – Dəmir yolu xəttinin üzərindən ötürücülərin çəkilişi zamanı qatarların hərəkətinin dayandırılması üçün dəmir yolu idarələri ilə məsləhətləşmə aparmaq – Magistral və ümumi istifadədə olan yollar üzərindən ötürücülərin çəkilişindən əvvəl yol/nəqliyyat idarələri ilə məsləhətləşmə aparmaq – Hava elektrik ötürücü xətləri çəkilərkən və layihənin nəqliyyat vasitələri intensiv şəkildə yollara daxil olarkən və ya yollardan çıxarkən ümumi istifadədə olan yollarda/magistrallarda nəqliyyatın hərəkətinin tənzimlənməsi üçün bayraqla işarə verən şəxslərə təlim keçmək və onları yollara yerləşdirmək – Həmin yerdə əməliyyatlar başa çatdıqdan dərhal sonra yer səthinə dəyən ziyanı aradan qaldırmaq – Quşlar üzrə ekspertin tövsiyəsinə uyğun olaraq, ötürücülərin dərələrdən keçdiyi xüsusi yerlərdə onların üzərində quş yönləndiriciləri quraşdırmaq	– Dəymiş zərərlə əlaqədar itkilərin KFP-yə uyğun kompensasiya edilməsi	
3.14	Əsas təchizatçılar tərəfindən işə götürülən işçilərin qorunması	Əsas təchizatçılarda uşaq əməyi, məcburi əmək və/və ya təhlükəsizliklə bağlı ciddi problemlər	AZƏRENERJİ və ya podratçı əsas təchizatçılar (xüsusilə, qüllələr və ötürücülər) üzərində əhəmiyyətli nəzarət və ya təsirə malik olarsa, podratçı təchizatçıya nəzarət etməli, əməyin mühafizəsi təcrübələrinin təkmilləşdirilməsini və ya uşaq əməyindən və ya məcburi əməkdən istifadə hallarında düzəldici tədbirlərin görülməsini tələb etməlidir	– Əsas təchizatçılarda uşaq əməyi, məcburi əmək və ya təhlükəsizliklə bağlı ciddi problemlərin olmaması	Podratçı (AZƏRENERJİ əhəmiyyətli təsirə və ya nəzarətə malik olarsa, AZƏRENERJİ-nin dəstəyi)
3.15	İşlərin mərhələlərinin tamamlanmasına görə hesab-fakturaların ödənilməsi	Tikinti mərhələləri icra olunarkən P-ƏMSİP-in yerinə yetirilməməsi: yollarda drenaj sisteminin pis olması, tikinti zonasının hüdudlarından kənarda işlərin aparılması/ziyanın vurulması, torpağın/yararsız süxurların yaxşı idarə olunmaması, zəif təhlükəsizlik texnikası, icma üçün risklər və s.	– ƏMS-in idarə olunması ilə bağlı müvafiq tələbləri hər bir tikinti mərhələsinin tərkib hissəsi kimi nəzərdən tutmaq – Təsirin azaldılması tədbirlərinin ilk dəfə yerinə yetirilməməsi hallarında, bu tədbirlər lazımi qaydada yerinə yetirilənə qədər ödənişin qismən dayandırılması yolu ilə cəza tətbiq etmək – Təsirin azaldılması tədbirlərinin təkrar yerinə yetirilməməsi hallarında, tikinti mərhələlərini natamam hesab etməklə və ödənişləri qəti şəkildə rədd etməklə	– P-ƏMSİP-in lazımi qaydada həyata keçirilməsi – Biomüxtəlifliyə, insanlara və əmlaka minimal təsirlər	Nəzarət üzrə məsləhətçi

№	Tədbirlər	Potensial mənfi təsir	Təsirin azaldılması tədbirləri/Qabaqcıl idarəetmə təcrübəsi	Təsirin azaldılması tədbirlərinin hədəf nəticəsi	Məsul orqan
			azaltmaqla cəza tətbiq etmək		
4.0	***Demobilizasiya***				
4.1	Tikinti sahələrinin, düşərgələrin, yerləşdirmə yerlərinin və s. bağlanılması	– Subpodratçı ərazini tərk edəndən sonra çirklənmiş torpağın, suların qalması – AZƏRENERJİ-nin məsuliyyətinin yaranması	Ərazini tərk etməzdən əvvəl landşaftın bərpası planını həyata keçirmək: – Bütün avadanlıqları, saxlama qurğularını/çənlərini, qırıntıları, tullantıları və s. ərazidən çıxarmaq – Çirklənmiş torpaq varsa, onu da ərazidən çıxarmaq – Su yığıntılarını aradan qaldırmaq, konturların sabitliyini və ətraf ərazi ilə maksimal uyğunluğu təmin etmək üçün hamarlama və forma vermə işləri aparmaq – Yararsız süxurları yaymaq və torpağın üst qatını bərpa etmək – Yerli bitki növləri əkmək və ya şəxsi torpaq sahiblərinin tələb etdiyi yekun tədbirləri görmək – Əkinlər kök salana və sərbəst yaşaya bilənə qədər nəzarətdə saxlamaq	– Tikinti əməliyyatları üçün istifadə edilən ərazilərin tikintidən əvvəlki istifadə vəziyyətinə qaytarılması və ya torpaq sahibləri ilə razılaşdırılmış şəkildə bərpası – Qalıq məsuliyyət və ya zərərin olmaması	Podratçı
4,2	Yekun hesab-fakturanın ödənilməsi	Demobilizasiyanın natamamlığı: qalıq zərər, bərpa olunmamış torpaq, düzgün olmayan drenaj və s.	– Nəzarət üzrə məsləhətçi və AZƏRENERJİ tərəfindən demobilizasiyanın ƏMS baxımından tamamlandığı təsdiq edilənə qədər ödənişi dayandırmaq – Podratçı bərpa işlərini tamamlaya bilmədikdə, podratçının hesabına bu işləri tamamlaması üçün üçüncü tərəf təyin etmək	Davam edən və ya qalıq zərərin yaxud çirklənmənin olmaması, tələbə uyğun olaraq torpağın əvvəlki istifadə vəziyyətinə qaytarılması	Nəzarət üzrə məsləhətçi və AZƏRENERJİ
5.0	***İstismar və texniki xidmət***				
5.1	Elektrik ötürücü xəttə və yarımstansiyaya enerji verilişi	– İşçiləri və ya başqalarını elektrik cərəyanı vurması – Meşə yanğınları	– Enerji verilişindən əvvəl meşələrin üzərində keçən xətlə bağlı ETSN ilə məsləhətləşmə aparmaq – Əməyin mühafizəsi və təhlükəsizlik texnikası üzrə planla bağlı işçilərə təlim keçmək: elektrik təhlükəsizliyi, hündürlükdə işləmək, qaldırma işləri – Xətlərə/komponentlərə enerji verilişi üzrə AZƏRENERJİ-nin texniki protokollarına/prosedurlarına əməl olunması	İşlərin təhlükəsiz şəkildə tamamlanması	Podratçı və AZƏRENERJİ

№	Tədbirlər	Potensial mənfi təsir	Təsirin azaldılması tədbirləri/Qabaqcıl idarəetmə təcrübəsi	Təsirin azaldılması tədbirlərinin hədəf nəticəsi	Məsul orqan
			– Prosedur zamanı kənar şəxsləri/müşahidəçiləri dəhlizdən və yarımstansiyadan uzaq saxlamaq – Nasazlıq baş verdikdə, bütün dəhlizə baxış keçirmək		
5.2	ƏİEP-in və Əməyin mühafizəsi və təhlükəsizlik texnikası üzrə Planın yenilənmələri	– Yeni təhlükəsizlik qanununa uyğunluğun olmaması – İşçilərin xəsarət alma və ya ölüm halları – Zəif əmək münasibətləri	– AZƏRENERJİ-nin Təhlükəsizlik Təlimatının yeni ƏMTT (əməyin mühafizəsi və təhlükəsizlik texnikası) qanununa uyğun olaraq yenilənməsi – ƏİEP-in Dünya Bankının ESS2 standartının tələblərinə uyğun olaraq yenilənməsi	– Yenilənmiş idarəetmə proqramları – Təhlükəsiz iş mühiti – Yaxşı əmək münasibətləri	AZƏRENERJİ
5.3	Müntəzəm texniki xidmət və mühafizə patrulları	– İşçinin xəsarət alması və ya ölümü – Yer səthinin və örtüyünün bitki örtüyünün zədələnməsi, torpağın eroziyası – Yol-nəqliyyat hadisəsi – Şəxsi əmlaka (ağaclar, əkinlər və s.) ziyan dəyməsi	– İşçilərə AZƏRENERJİ-nin Təhlükəsizlik Təlimatının onların işlərinə aid tələbləri üzrə təlim keçilməsi – İşçilərə yol hərəkətinin idarə edilməsi prosedurlarının tələbləri ilə bağlı təlim keçilməsi – KFP-yə uyğun kompensasiya	– İşlərin təhlükəsiz şəkildə tamamlanması – Dəymiş ziyanın KFP-yə uyğun olaraq dərhal kompensasiya edilməsi	AZƏRENERJİ
5.4	Dayaqların təmiri və ya dəyişdirilməsi	– İşçinin xəsarət alması və ya ölümü – Yer səthinin, bitki örtüyünün, drenaj sisteminin həddən artıq zədələnməsi və bunun eroziyaya səbəb olması – Elektrik enerjisinin uzunmüddətli kəsilməsi	Yuxarıdakı "Dayaqların ucaldılması" bəndi ilə eyni (bax: 3.10)	– İşlərin təhlükəsiz şəkildə tamamlanması – Qüllənin bilavasitə yaxınlığında minimal ziyanın vurulması, bu ərazidən kənarda isə heç bir ziyanın vurulmaması – Torpaq sahəsinə dəyən ziyanın aradan qaldırılması və torpağın əvvəlki istifadə vəziyyətinə qaytarılması – KFP-yə uyğun olaraq dərhal kompensasiya ödənilməsi	AZƏRENERJİ
5.5	Ötürücülərin dəyişdirilməsi	– İşçinin ölümü və ya xəsarət alması – Avadanlıq və nəqliyyat vasitələrinin torpağa zərər vurması – Elektrik enerjisinin uzunmüddətli kəsilməsi	– Təhlükəsizlik Təlimatının tətbiqi – İşlər tamamlandıqdan dərhal sonra torpağa dəyən ziyanın aradan qaldırılması (torpağın idarə edilməsi və eroziyaya nəzarət planına uyğun olaraq hamarlama, bitki örtüyünün bərpası) – Bitki örtüyünə, əkinlərə, əmlaka dəymiş ziyanla əlaqədar itkilərin dərhal kompensasiya edilməsi	– İşlərin təhlükəsiz şəkildə tamamlanması – Torpaq sahəsinə dəyən ziyanın aradan qaldırılması və torpağın əvvəlki istifadə vəziyyətinə qaytarılması – KFP-yə uyğun olaraq kompensasiya ödənilməsi	AZƏRENERJİ
5.6	Dəhlizdə bitki örtüyünə nəzarət	– İşçinin ölümü və ya xəsarət alması – Ağacların yer səthinə çox yaxın kəsilməsi	– İşçilərə AZƏRENERJİ-nin Təhlükəsizlik Təlimatına uyğun olaraq risklər və onların azaldılması tədbirləri ilə bağlı təlim keçilməsi	– İşlərin təhlükəsiz şəkildə tamamlanması	AZƏRENERJİ

№	Tədbirlər	Potensial mənfi təsir	Təsirin azaldılması tədbirləri/Qabaqcıl idarəetmə təcrübəsi	Təsirin azaldılması tədbirlərinin hədəf nəticəsi	Məsul orqan
		– Bitki örtüyünə nəzarət zonasından kənarda ağacların kəsilməsi – Dəhlizdə qalan tezalışan qırıntılar səbəbindən yanğın təhlükəsi	– İşçilərin uyğun və təhlükəsiz avadanlıq və alətlərlə təmin edilməsi – İşçilərin bitki örtüyünə nəzarət zonasının hüdudlarını bilməsi və zona daxilində qalması – Yanğın təhlükəsini azaltmaq üçün qırıntıların ərazidən tez çıxarılması – Herbisidlərdən və pestisidlərdən istifadə edilməməsi	– Yer səthinə və ağac/bitki köklərinə təsirin minimal olması – Bütün işlərin bitki örtüyünə nəzarət zonasında aparılması – Qırıntıların yanğın təhlükəsi doğurmadan ərazidən çıxarılması	
6.0	***Tikintiyə hazırlıq, tikinti və demobilizasiya mərhələləri***				
6.1	Layihənin ƏMS üzrə fəaliyyət səmərəliliyinə nəzarət	– ƏMS üzrə fəaliyyət səmərəliliyi haqqında operativ məlumatların olmaması – Podratçının və nəzarət üzrə məsləhətçinin ƏMS üzrə fəaliyyət səmərəliliyinin aşağı olması – Kiçik problemlərin böyük problemlərə çevrilməsi	Layihə çərçivəsində ƏMS üzrə fəaliyyət səmərəliliyinə nəzarət üçün kvalifikasiyalı mütəxəssis təyin etmək – Nəzarət üzrə məsləhətçi ilə ən azı həftədə bir dəfə əlaqə saxlamaq – Aylıq tərəqqi hesabatlarını və podratçı hesabatlarını nəzərdən keçirmək – İşlərin gedişatı ilə bağlı aylıq iclaslarda iştirak etmək – Tikinti sahəsinə ən azı rübdə bir dəfə xəbərdarlıqsız səfər etmək – Veb-saytda yerləşdirilmək üçün məlumatlar təqdim etmək – Məsləhətləşmə görüşlərində və qeyri-rəsmi müsahibələrdə iştirak etmək – Bələdiyyə və kəndlərin səlahiyyətli orqanları ilə vaxtaşırı məsləhətləşmələr aparmaq – Şikayətlərin qeydiyyatı jurnallarını vaxtaşırı olaraq nəzərdən keçirmək – Mühüm QHT-lərlə əlaqə saxlamaq – ETSN ilə əlaqə saxlamaq	– AZƏRENERJİ-nin ƏMS üzrə fəaliyyət səmərəliliyi barədə məlumatlı olması – AZƏRENERJİ-nin rəhbərliyinin məsələlər barədə onların problemə çevrilməsindən əvvəl yaxşı məlumatlı olması	AZƏRENERJİ
6.2	Sərnişin avtomobillərinin və ağır nəqliyyat vasitələrinin istismarı	– Yol-nəqliyyat hadisələri – Sürücü və ya sərnişinlərin xəsarət alması və ya ölümü – Piyadalara, digər sürücülərə və sərnişinlərə, əmlaka ziyan dəyməsi	– Təlim keçmiş və lisenziyası olan sürücülər – Sürət hədləri – Təhlükəsizliklə bağlı gündəlik yoxlama siyahısı	– Nəqliyyat vasitələri və avadanlıqların səlahiyyətli işçilər tərəfindən idarə edilməsi – Yol-nəqliyyat hadisələrinin baş verməməsi	Nəqliyyat vasitəsinin Sahibi/ İstismarçısı: Podratçı, Nəzarət üzrə

№	Tədbirlər	Potensial mənfi təsir	Təsirin azaldılması tədbirləri/Qabaqcıl idarəetmə təcrübəsi	Təsirin azaldılması tədbirlərinin hədəf nəticəsi	Məsul orqan
		– Podratçı və layihənin məsuliyyətinin yaranması	– Sərnişinlərin yalnız insanlar üçün nəzərdə tutulmuş oturacaqlarda (təhlükəsizlik kəmərləri və s.) əyləşməsi, yük maşınlarının arxasında və ya avadanlığın üzərində dayanmaması və ya getməməsi – Əhalinin daşınmaması – Sahə nəzarətçisinin icazəsi olmadan heç bir nəqliyyat vasitəsinin/avadanlığın tikinti zonalarından və yollardan kənarda hərəkət etməməsi	– Sürücülərin və sərnişinlərin xəsarət almaması, əmlaka ziyan dəyməməsi	məsləhətçi, AZƏRENERJİ
6.3	Bütün tikinti işləri	Tikinti zonasının hüdudlarından kənarda bitki örtüyünün, yer səthinin, əmlakın zədələnməsi	– Torpağın idarə edilməsi və eroziyaya nəzarət planının müvafiq müddəalarını həyata keçirmək: – Əməyin mühafizəsi və təhlükəsizlik texnikası üzrə planın müvafiq müddəalarını həyata keçirmək – Torpaq/yararsız süxur qalaqlarının üzərini örtməklə və ya bitki örtüyü yaratmaqla, yolları isə islatmaqla tozun qarşısını almaq – Avadanlıq və nəqliyyat vasitələrinə texniki xidmət, işçilərə təlim keçilməsi yolu ilə səs-küyə nəzarət etmək	– Bütün işlərin tikinti zonasının hüdudları daxilində aparılması – Zərərin minimal olması, KFP-yə uyğun kompensasiya edilməsi – İşlərin təhlükəsiz şəkildə tamamlanması	Podratçı Nəzarət üzrə məsləhətçi (ƏMTT)
6.4	Maraqlı tərəflərin cəlb olunması	– Məlumatsız maraqlı tərəflər – AZƏRENERJİ-yə etimadsızlıq – Vandalizmin artması	Maraqlı tərəflərin cəlb olunması planını həyata keçirmək: – Yerli səlahiyyətli orqanları və ETSN-ni cari texniki xidmət və təmir əməliyyatları barədə məlumatlandırmaq – Şikayətlərə baxılması mexanizmini tətbiq etmək: şərh və şikayətləri qəbul etmək və cavablandırmaq	– Məlumatlı maraqlı tərəflər – İctimaiyyətin dəstəyi	AZƏRENERJİ (bütün müddət ərzində idarə etmək, əməliyyat zamanı tətbiq etmək) Podratçı (gündəlik işlər)
6.5	Təhlükəli və təhlükəsiz tullantıların və materialların idarə edilməsi	– Dağılmalar və torpaq və səth sularının çirklənməsi – İtkiyə görə əlavə xərc	Materialların və tullantıların idarə edilməsi prosedurlarını həyata keçirmək: – Təhlükəli materialların istifadəsini minimuma endirmək, mümkün qədər onların təhlükəsiz əvəzedicilərdən istifadə etmək – Təhlükəli materialları (yanacaq daxil olmaqla) su keçirməyən səth üzərində təhlükəsiz yerdə saxlamaq	– Dağılmaların və çirklənmənin minimal olması, zəruri hallarda sürətli və düzgün təmizləmə aparılması – Tullantıların düzgün və təhlükəsiz şəkildə, o cümlədən üçüncü tərəflər tərəfindən idarə olunması	Podratçı

№	Tədbirlər	Potensial mənfi təsir	Təsirin azaldılması tədbirləri/Qabaqcıl idarəetmə təcrübəsi	Təsirin azaldılması tədbirlərinin hədəf nəticəsi	Məsul orqan
			– Təhlükəli materialların saxlandığı və istifadə edildiyi bütün yerlərdə materialların təhlükəsizliyi pasportu saxlanmalıdır – Yalnız səlahiyyətli və təlim keçmiş işçilərin təhlükəli materiallarla işləməsinə icazə verilməsi – Rekuperasiya, təkrar istifadə, təkrar emal qabiliyyətini artırmaq və atılmanı minimuma endirmək üçün istifadə olunmuş materialları/tullantıları çeşidləmək – Tullantıları lisenziyalı poliqon ərazisinə atmaq və ya tullantıları lisenziyalı əraziyə aparmaq üçün lisenziyalı daşıyıcı cəlb etmək (podratçı tərəfindən yoxlanılır) – Daşıyıcının apardığı təhlükəli tullantılar üçün lisenziyasının olub-olmadığını və yekun atılma/təkrar emal yerinin lazımi icazəyə malik olub-olmadığını yoxlamaq		
6.6	Nəqliyyat vasitələri və avadanlıqların yanacaqla doldurulması və onlara texniki xidmət	– Dağılmalar və torpağın və ya suyun çirklənməsi – Yanğın	– Nəqliyyat vasitələri və avadanlıqların yanacaqla doldurulmasının və onlara texniki xidmətin yalnız su keçirməyən səthlər üzərində aparılması. Asfaltlanmış səthin üzərində olmadıqda damcı toplama qablarından istifadə edilməsi. – Bütün nəqliyyat vasitələrində/avadanlıqlarda və bütün yanacaq doldurma yerlərində müvafiq kimyəvi maddələrlə təchiz edilmiş yanğınsöndürənin olması – Yanacaq və təhlükəli kimyəvi maddələrin saxlandığı bütün yerlərdə dağılmaların təmizlənməsi dəstləri – Nəqliyyat vasitələrinə texniki xidmətin istehsalçı tövsiyələrinə uyğun göstərilməsi: səsboğucular, təhlükəsizlik avadanlığı, mühərrik və yanacağın yanması (qara tüstünün olmaması) və s.	– Yanacaq doldurulması ilə bağlı hadisələr nəticəsində çirklənmənin olmaması – Nəqliyyat vasitələrinə zərurətə uyğun olaraq texniki xidmətin göstərilməsi	Podratçı
6.7	Çoxillik və mövsümi axınların və digər səth sularının 50 m radiusunda aparılan bütün fəaliyyətlər	– Yanacaq və ya digər materialların suya dağılması – Axınlara və su obyektlərinə ziyan dəyməsi – Axınlarda və su obyektlərində eroziya	Səth sularında və ya onların yaxınlığında işlərin aparılması prosedurunu həyata keçirmək: – Axar su və ya müvəqqəti drenaj kanalının 50 m radiusunda heç bir tikinti zonalarının olmaması – Səth suları və ya müvəqqəti drenaj kanalının 50 m radiusunda yanacaq doldurmanın aparılmaması	– Suların çirklənməməsi – Axınlara və drenaj kanallarına dəyən ziyanın minimal olması	Podratçı

№	Tədbirlər	Potensial mənfi təsir	Təsirin azaldılması tədbirləri/Qabaqcıl idarəetmə təcrübəsi	Təsirin azaldılması tədbirlərinin hədəf nəticəsi	Məsul orqan
			– Drenaj kanalları və ya kiçik axınlardan nəqliyyat vasitələrinin/avadanlıqların keçid yerlərinin yalnız xüsusi ayrılmış yerlərdə olması – Axın yatağına dəyən ziyanı minimuma endirmək üçün tez-tez keçid edilən yerlərə çınqıl tökülməsi və ya səthin digər bir formada hazırlanması – Yağıntılı havalarda keçidlərin minimuma endirilməsi – Ərazidə işlər başa çatdıqdan sonra dərhal axınların sahil və yatağında təkər izlərinin və digər zədələnmələrin aradan qaldırılması (hamarlama, bitki örtüyünün bərpası)		
6.8	Fövqəladə hallara cavabvermə tədbirlərinin görülməsi	– İşçinin xəsarət alması və ya ölümü – İcma üzvünün xəsarət alması və ya ölümü – Əmlaka və ya insanlara həddən artıq ziyan dəyməsi	Aşağıdakıları ehtiva edən fövqəladə hallara hazırlıq və cavabvermə prosedurlarını həyata keçirmək: – Fövqəladə hallara cavabvermə komandası təyin etmək – İşçilərə fövqəladə hallar zamanı vəzifələri və cavabvermə ilə bağlı təlim keçmək – Mümkün fövqəladə halları və onların mümkün nəticələrini (yanğın, qəzalar, xəsarət və ya ölüm halları, zəlzələ və ya hava hadisəsi, mülki iğtişaşlar, dağılmalar) müəyyən etmək – Fövqəladə hallara hazırlığı yoxlamaq üçün yoxlama siyahıları hazırlamaq və istifadə etmək – Fövqəladə hallara cavabvermə vasitələri (yanğınsöndürənlər, ilk yardım dəstləri, radioqəbuledicilər/rabitə cihazları və s.) yerləşdirmək və onlara texniki xidmət göstərmək – Fövqəladə hallardan, o cümlədən qəzalardan sonra səbəbləri və onlardan yayınma tədbirlərini müəyyən etmək üçün araşdırmalar/baxışlar həyata keçirmək	– Fövqəladə hallardan yayınma – Qəza-xilasetmə avadanlıqlarının mövcudluğu və ehtiyac olduqda xidmətə hazır olması – Fövqəladə hallar zamanı cəld və effektiv cavab tədbirləri	Podratçı və nəzarət üzrə məsləhətçi
6.9	Kəşf edilməmiş mədəni irsin qorunması	– Artefaktların və ya arxeoloji qalıqların zədələnməsi və ya məhvi	Təsadüfi tapıntılarla bağlı proseduru həyata keçirmək: – Tapıntı aşkar ediləndə işi dayandırmaq – İşəgötürəni xəbərdar etmək – İşi İşəgötürənin icazəsindən sonra bərpa etmək – Prosedurla bağlı işçilərə və nəzarətçilərə təlim keçmək	– Mümkün tapıntılar barədə kvalifikasiyalı əməkdaşlar tərəfindən rəy verilməsi – Mədəni irsin qorunması	Podratçı

Cədvəl 8-12. Monitorinq proqramı

Tədbir	Nə *(monitorinq ediləcək?)*	Harada *(monitorinq ediləcək?)*	Necə *(monitorinq ediləcək?)*	Nə vaxt *(Hansı tezliklə yoxsa davamlı olaraq?)*	Nə üçün *(monitorinq edilir?)*	Kim *(monitorinqə cavabdehdir?)*
Bütün tikinti işləri	Texniki tərəqqi və təsirlərin azaldılması tədbirlərinin həyata keçirilməsi, Azərbaycanın ƏMS üzrə qanunvericiliyinə, Dünya Bankının Ətraf Mühit və Sosial Çərçivə Sənədinə və P-ƏMSİP-ə əməl olunması	Bütün ərazilər	– Normal fəaliyyət zamanı müşahidələr – Təftişlər – Aylıq hesabatlar və hadisə hesabatları	Davamlı şəkildə və ya zəruri hallarda	Təsirlərin azaldılması tədbirlərinin həyata keçirilməsini yoxlamaq	Nəzarət üzrə məsləhətçi
			ƏMS üzrə monitorinqin auditi	Hər il tikinti müddətində	P-ƏMSİP-in həyata keçirilməsini yoxlamaq	AZƏRENERJİ tərəfindən təyin edilən üçüncü tərəf məsləhətçi
	İş şəraiti Biomüxtəlifliyin idarə edilməsi və eroziyaya nəzarət	Bütün aktiv iş sahələri	Müşahidələr	Gündəlik başçəkmələr zamanı (davamlı)	ƏMTT Planının həyata keçirilməsini yoxlamaq	Podratçının təhlükəsizlik üzrə meneceri AZƏRENERJİ
			Təftişlər	Ən azı həftədə bir dəfə		
		Aktiv və son ağac kəsmə sahələri, dik yamaclarda aktiv iş sahələri, aktiv tikinti sahələri	Müşahidələr	Gündəlik başçəkmələr zamanı	P-ƏMSİP-in müvafiq aspektlərinin həyata keçirilməsini yoxlamaq	Podratçının ƏMS meneceri və/və ya mütəxəssis(lər)i
			Təftişlər	Ən azı həftədə bir dəfə		
		Yeni tikinti sahələri	Təftişlər	Tikinti başlamazdan əvvəl	Nəzarətçilərin tələblər barədə məlumatlı olmasını, mühafizə olunan növlərin nişanlanmasını və s. yoxlamaq	
	İş şəraiti (avadanlıq, alətlər və s.) və işçilər (FMV)	Bütün aktiv iş sahələri	Müşahidələr	Gündəlik başçəkmələr zamanı (davamlı)	– İş şəraitinin və işçilərin təhlükəsizliyini yoxlamaq – Nəzarətçilərə və işçilərə təlimat vermək	Təhlükəsizlik texnikası üzrə mütəxəssislər
			Təftişlər	Ən azı həftədə bir dəfə		Podratçının təhlükəsizlik üzrə meneceri
	İşçilərə və nəzarətçilərə təhlükəsizlik mövzusunda keçilən təlim	Bütün aktiv iş sahələri	Sənədlərin yoxlanması və müsahibələr	Gündəlik olaraq və ya yeni işə başlamazdan əvvəl zəruri hallarda	İşçilərə təhlükəsiz iş üsullarının öyrədilməsini təmin etmək	Nəzarətçi

Tədbir	Nə *(monitoriną ediləcək?)*	Harada *(monitoriną ediləcək?)*	Necə *(monitoriną ediləcək?)*	Nə vaxt *(Hansı tezliklə yoxsa davamlı olaraq?)*	Nə üçün *(monitoriną edilir?)*	Kim *(monitorinqə cavabdehdir?)*
				Yerində xəbərdarlıqsız yoxlamalar (hər iş sahəsində ən azı ayda bir dəfə)		Podratçının təhlükəsizlik üzrə meneceri
Tərəqqi hesabatları/işlərin gedişatı ilə bağlı iclas	Texniki tərəqqi və P-ƏMSİP-in icrası vəziyyəti: – Təhlükəsizlik – Biomüxtəlifliyin tədqiqi və bərpası fəaliyyətləri – Eroziyaya nəzarət və sahənin sabitləşdirilməsi – Sahənin bərpası – Şikayətlərin idarə edilməsi	Aktiv iş sahələri	– Podratçının ƏMS və texniki əməkdaşları ilə müsahibələr – Podratçının və nəzarət üzrə məsləhətçinin aylıq ƏMS hesabatlarını nəzərdən keçirmək – İşçi və maraqlı tərəflərin şikayətləri üzrə reyestrləri nəzərdən keçirmək – Sahə səfərləri	Ayda bir dəfə	Texniki tərəqqini və ƏMS müdafiəsini yoxlamaq	– Məcburi iştirakçılar: – Podratçının ƏMS əməkdaşları – Nəzarət üzrə məsləhətçi – AZƏRENERJİ
Sürücülər və nəqliyyat vasitələrinin təhlükəsizliyi	Sürücü kvalifikasiyaları	Ofis	– Zəruri hallarda etibarlı sürücülük vəsiqəsinin və operator icazəsinin olmasını yoxlamaq – Ehtiyac olarsa, yol polisi ilə dəqiqləşdirmə aparmaq – Ehtiyac olarsa, sərişt ələri yoxlamaq	– Nəqliyyat vasitələrini/avadanlıqları idarə etməyə icazə verilməzdən əvvəl – İldə bir dəfə	Sürücülərin təlim keçmiş olmasını təmin etmək	Podratçının layihə meneceri və təhlükəsizlik üzrə meneceri
	Səyyar qurğuların/nəqliyyat vasitələrinin təhlükəsizliyi (siqnallar, ehtiyat siqnalizasiya, işıqlar, təkərlər, təhlükəsizlik kəmərləri, yanğınsöndürən, təmizləmə dəsti, ilk yardım dəsti və s.)	İstifadədə olan bütün səyyar qurğular	Baxış keçirmək və yoxlama siyahısını doldurmaq	Hər gün ilk istifadədən əvvəl	Yol-nəqliyyat hadisələrini minimuma endirmək, işçiləri və digər sürücüləri/piyadaları qorumaq	Sürücü/operator
			Yoxlama siyahılarını və nəqliyyat vasitələrini nəzərdən keçirmək	Xəbərdarlıqsız yoxlamalar: hər nəqliyyat vasitəsi üçün ən azı ayda bir dəfə		Podratçının təhlükəsizlik üzrə meneceri
İş sahələrinin hüdudlarının nişanlanması	Hüdudların aydın şəkildə nişanlanması	Bütün aktiv iş sahələri	Müşahidələr və fotoşəkillər	– İşin başlanmasından bir gün əvvəl – Tikinti işlərinin hər mərhələsində ən azı bir dəfə	- Təsir sahələrini məhdudlaşdırmaq - Sahədən kənar ərazilərə ziyanın dəyməməsini yoxlamaq	Podratçının nəzarətçiləri və ƏMS əməkdaşları

Tədbir	Nə *(monitoriną ediləcək?)*	Harada *(monitoriną ediləcək?)*	Necə *(monitoriną ediləcək?)*	Nə vaxt *(Hansı tezliklə yoxsa davamlı olaraq?)*	Nə üçün *(monitoriną edilir?)*	Kim *(monitorinqə cavabdehdir?)*
Havanın keyfiyyəti	– Gözlə görünən toz – Yaxınlıqdakı bitki örtüyünün yarpaqlarını örtən toz	Asfaltlanmamış yollar və digər tikinti sahələri	Müşahidələr	Gündəlik başçəkmələr zamanı davamlı olaraq	Tozun qarşısını almaq üçün yolların isladılmasına ehtiyac olub-olmadığını müəyyənləşdirmək	Podratçının bütün menecerləri, nəzarətçiləri, ƏMS əməkdaşları,
	Nəqliyyat vasitələrindən, avadanlıqlardan və digər mühərriklərdən çıxan qara tüstü	Bütün ərazilər			Mühərrikin təmir olunana qədər istismardan çıxarılmasına ehtiyacı müəyyənləşdirmək	
Flora və fauna tədqiqatları (layihələndirmə qrupu və tikintidən əvvəl aparılan tədqiqatlar)	– Bitki örtüyünə nəzarət zonasının nişanlanmış hüdudları – Qeydə alınmış, fotoşəkilləri çəkilmiş, nişanlanmış və xəritələşdirilmiş təhlükədə olan flora növləri – Yarasaların/quşların qışladığı/yuvaladığı qeydə alınmış, fotoşəkilləri çəkilmiş və nişanlanmış yetkin ağaclar – Nişanlanmış kəsiləcək ağaclar	Tədqiqatın aparıldığı seçilmiş ərazilər, tədqiqatlar aparılarkən	– Cari tədqiqat ərazilərinə səfərlər – Tədqiqatlardan sonra nümunələrin nişanlanması ilə bağlı xəbərdarlıqsız yoxlama – Tədqiqat qrupu (qrupları) tərəfindən nəticələrin müzakirəsi	- Səfərlər və xəbərdarlıqsız yoxlamalar: hər gün bir iş sahəsi - Nəticələrin müzakirəsi: hər gün, şifahi olaraq və ya e-poçtla/yazılı şəkildə	Tədqiqatların təhlükədə olan növləri, yetkin ağacları, təbii yaşayış mühitini aşkar edib-etmədiyini yoxlamaq	Podratçının ƏMS meneceri və mütəxəssisləri
Torpağın təmizlənməsi fəaliyyətləri (yollar, qüllələr, yarımstansiya və tikinti sahələri)	Torpağın idarə edilməsi və eroziyaya nəzarət planına riayət olunması, o cümlədən: – Tikinti başlamazdan əvvəl hüdudların nişanlanması – İşlərin hüdudlar daxilində aparılması – Torpağın üst qatının saxlanması və yararsız süxurların saxlanması – Eroziyanın qarşısını almaq üçün drenaj nəzarəti	Təmizləmə işləri aparılan bütün ərazilər	– Səfərlər/təftişlər – Nəzarətçilərin ƏMS menecerinə hesabatları	– Təmizləmə işlərindən əvvəl – Hər gün təmizləmə işləri aparılan zaman – Təmizləmə işlərindən sonra və tikintidən əvvəl	– Təmizləmə aparılan sahəni məhdudlaşdırmaq – Torpağın üst qatının çıxarılıb saxlanmasını yoxlamaq – Drenaja nəzarət edilməsini və eroziyanın qarşısının alınmasını yoxlamaq	– Podratçının ƏMS əməkdaşları – Podratçının layihə meneceri (xəbərdarlıqsız yoxlamalar)
		Tikintinin aparıldığı bütün sahələr	Təftişlər	Ən azı həftədə bir dəfə	Torpağın idarə edilməsi və eroziyaya nəzarət planının həyata keçirilməsini yoxlamaq	Podratçının ƏMS əməkdaşları

Tədbir	Nə *(monitoriną ediləcək?)*	Harada *(monitoriną ediləcək?)*	Necə *(monitoriną ediləcək?)*	Nə vaxt *(Hansı tezliklə yoxsa davamlı olaraq?)*	Nə üçün *(monitoriną edilir?)*	Kim *(monitorinqə cavabdehdir?)*
	Sahənin hüdudunda torpağın/bitki örtüyünün vəziyyəti		Müşahidələr və fotoşəkillər	Təmizləmə işləri başlamazdan əvvəl	İşlərin hüdudlar daxilində aparılmasının yoxlanmasına imkan vermək	Podratçının ƏMS əməkdaşları
	Sahənin bərpası	Tikinti sahələri	Təftişlər	Müvafiq sahədə tikinti başa çatanda	Sahənin bərpasını yoxlamaq	Podratçının ƏMS əməkdaşları
Qazıntılar və kəsiklər	Nişanlanmış qazıntı sahələri, qazıntı sahələrinin nişanlanmış kənarları (lentlə, daş baryerlərlə və s.)	Bünövrə yerləri, dik yamaclarda kəsiklər	Torpaq qazılmazdan əvvəl,	Qazıntılardan əvvəl	Təsirə məruz qalan sahəni məhdudlaşdırmaq	Podratçının ƏMS əməkdaşları
	İşlərin hüdudlar daxilində aparılması	Qüllə yerləri, yarımstansiyanın yeri	Müşahidə, fotoşəkillər	Hər gün işlər aparılan zaman	Təsirə məruz qalan sahəni məhdudlaşdırmaq	Podratçının ƏMS əməkdaşları və nəzarətçiləri
	Qazılıb çıxarılan və qruntdan/yararsız süxurlardan ayrı saxlanan torpaq	Bütün qazıntılar	Müşahidələr və fotoşəkillər	Hər sahədə işlər zamanı ən azı bir dəfə	Torpağın üst qatının saxlanması və eroziyadan qorunması	Podratçının ƏMS əməkdaşları
	İşçilərə müvafiq təlimin keçilməsi	İş sahələri və sənədlər	Müsahibələr, sənədlərin nəzərdən keçirilməsi	Qazıntı sahələrində işlərin başlanmasından əvvəl	İşçilərin təhlükəsiz şəkildə işləyə bilməsini yoxlamaq	Podratçının təhlükəsizlik üzrə meneceri
	Yıxılmaların qarşısını almaq üçün quraşdırılmış baryerlər (lent, daşlar və s.)	Dərinliyi 1 m-dən artıq olan qazıntıların perimetri	Müşahidə	Qazıntı tamamlananda	İşçiləri yıxılmaqdan qorumaq	Nəzarətçi
				Xəbərdarlıqsız yoxlamalar		Podratçının ƏMS əməkdaşları
Bitki örtüyünün kəsilməsi	Flora və faunanın tədqiqi planının həyata keçirilməsi – Bitki örtüyünə nəzarət zonasının nişanlanmış hüdudları	Ağac və kolların kəsiləcəyi ərazilər	Müşahidə	Kəsimdən/təmizlənmədən bilavasitə əvvəl	Təhlükədə olan növlərin və nümunələrin müəyyən edilməsini yoxlamaq	Podratçının ƏMS əməkdaşları

Tədbir	Nə *(monitorinq ediləcək?)*	Harada *(monitorinq ediləcək?)*	Necə *(monitorinq ediləcək?)*	Nə vaxt *(Hansı tezliklə yoxsa davamlı olaraq?)*	Nə üçün *(monitorinq edilir?)*	Kim *(monitorinqə cavabdehdir?)*
	– Qeydə alınmış, fotoşəkilləri çəkilmiş və nişanlanmış təhlükədə olan flora növləri – Yarasaların/quşların olduğu qeydə alınmış, fotoşəkilləri çəkilmiş və nişanlanmış yetkin ağaclar – Nişanlanmış kəsiləcək ağaclar					
Ağac və kol əkinləri	Kəsilən/çıxarılan hər mühafizə olunan ağaca/kola görə əkilən 2-dən artıq eyni növ ağac və kol	54.5 metrlik bitki örtüyünə nəzarət zonası ilə 74.5 metrlik dəhlizin kənarı arasındakı 20 metrlik zolaq	Müşahidə və fotoşəkillər	Yaz ərzində kəsimdən sonra	Əkinləri yoxlamaq	Podratçı tərəfindən təyin edilmiş botanik
	Kəsilən hər ağaca/kola görə əkilən 2-dən artıq əvəzedicinin yetişmə qabiliyyəti			Demobilizasiyadan əvvəl	Son ödənişə icazə verilməsi üçün tədbirin uğurlu icrasını yoxlamaq	
				Əkindən sonrakı 5 il ərzində hər il	Tədbirin uğurlu icrasını yoxlamaq və ya təkrar əkinə ehtiyacın olub-olmadığını müəyyən etmək	AZƏRENERJİ tərəfindən təyin edilmiş botanik
Yarasa qutularının yerləşdirilməsi	Qışlayan, gecələyən, yuvalayan yarasanın sığa biləcəyi oyuğu olan hər yetkin ağaca görə yerləşdirilmiş 2-dən artıq yarasa qutusu	Kəsilmiş ağacın 50 m radiusunda	Müşahidə	Ağac kəsildikdən sonra bir ay ərzində	Qutuların yerləşdirilməsini yoxlamaq	Podratçı tərəfindən təyin edilmiş biomüxtəliflik üzrə ekspert
				İlkin yerləşdirmədən bir il sonra	Yerində yoxlamaq	
Torpağın bərpası	Torpağın idarə edilməsi və eroziyaya nəzarət planının həyata keçirilməsi – Ehtiyac olduqda, torpağın sabit konturlar əldə edilənə qədər hamarlanması – Torpağın üst qatının açıq qrunt üzərinə verilməsi – Yerli növlərin (toxumlar və ya bitkilər) əkilməsi	Torpağın təsirə məruz qaldığı bütün ərazilər	Müşahidə və fotoşəkillər	Müvafiq sahədə işlərin başa çatmasından sonra bir ay ərzində	Torpağın bərpasına olan ehtiyacı müəyyən etmək və ya bərpanı yoxlamaq	Podratçının ƏMS əməkdaşları

Tədbir	Nə *(monitorinq ediləcək?)*	Harada *(monitorinq ediləcək?)*	Necə *(monitorinq ediləcək?)*	Nə vaxt *(Hansı tezliklə yoxsa davamlı olaraq?)*	Nə üçün *(monitorinq edilir?)*	Kim *(monitorinqə cavabdehdir?)*
	Sərbəst yaşaya bilən bitki örtüyünün salınması	Bitki örtüyünü saxlaya bilməyən yamaclar istisna olmaqla, bütün bərpa edilən ərazilər	Müşahidə və fotoşəkillər	Bitki örtüyünün sərbəst yaşama qabiliyyətinin müəyyən edilməsinə qədər hər ay və bundan bir il sonra	Bitki örtüyünün salınmasını yoxlamaq və əlavə işlərə yaxud torpağın bərpasına ehtiyacın olub-olmadığını müəyyən etmək	Podratçı tərəfindən təyin edilmiş botanik (və zəruri hallarda tikinti başa çatdıqdan sonra AZƏRENERJİ)
Xəttin üzərində quş yönləndiricilərinə ehtiyacın olub-olmadığını müəyyən etmək	Ötürücü xətt dəhlizi boyunca yırtıcı quşların və su quşlarının köçü	Əsas çay dərələri	Müşahidələr (monitorinq planı Cədvəl 8.1.1-in 2.12-ci bəndinə uyğun olaraq hazırlanmalıdır)	Payız köç mövsümündə (ekspertin tövsiyəsinə əsasən), iki mövsüm ərzində	Toqquşmaların qarşısını almaq üçün quş yönləndiricilərinə ehtiyac olub-olmadığını müəyyən etmək	AZƏRENERJİ (məsləhətçi təyin etməklə)
Səs-küyün yaranması	Səs-küy səviyyələri	İş yerləri	Səs-küyün idarə edilməsi planına uyğun olaraq səs-küy ölçən cihazlar	Tipik iş sahələrində hər ay	Səs-küyün standarta uyğun olmasını yoxlamaq və ya azaldılmasına ehtiyac olub-olmadığını müəyyən etmək	Podratçının ƏMS əməkdaşları
		Sahədən kənar yerlər		İşçinin və ya kənar tərəfin tələbi yaxud səs-küylə bağlı şikayətindən sonra 24 saat ərzində		
Elektromaqnit sahəsinin (EMS) yaranması	EMS səviyyələri	Şikayətin verildiyi yerdə, mərkəzi xəttin və yarımstansiyanın 100 m radiusunda	EMS-i ölçən cihaz	İşçinin və ya kənar tərəfin tələb yaxud şikayətindən sonra 24 saat ərzində	EMS-in standarta uyğun olmasını yoxlamaq və ya azaldılmasına ehtiyac olub-olmadığını müəyyən etmək	AZƏRENERJİ
Partlatma işləri	Yamacın sürüşməsi (torpaq sürüşməsi potensialı)	Partlatma işləri aparılan yerin 200 m radiusu	Müşahidə	Partlatmanın həyata keçirildiyi iş növbəsi	Torpaq sürüşməsi riskini və düzəldici tədbirlərə ehtiyacı müəyyən etmək	Partlatma işlərinin rəhbəri tərəfindən təyin olunan işçilər
	Partlatma işlərindən əvvəlki vəziyyət	Partlatmanın həyata keçirildiyi yerin 100 m radiusunda olan binalar	Təftiş və fotoşəkillər	Partlatma işlərindən əvvəl	Partlatma işlərinin vurduğu ziyanın müəyyən edilməsinə imkan vermək	Partlatma işlərinin rəhbəri və layihə meneceri tərəfindən təyin olunan işçilər
	Partlatma işlərindən sonrakı vəziyyət: çatlar, çökmə, sıçrayan daşların vurduğu ziyan və s.		Təftiş və fotoşəkillər	Partlatmanın həyata keçirildiyi iş növbəsi	Partlatma işlərinin vurduğu ziyanı müəyyən etmək	
	Partlatma işləri üzrə podratçı tərəfindən daşınma, saxlama, istifadə ilə bağlı qanunun tələblərinə əməl olunması	Partlayıcı anbarı və partlatma işləri aparılan sahələr	Təftiş	Ayda bir dəfə	Uyğunluğu yoxlamaq, təhlükəsizliyi təmin etmək	Podratçının ƏMS meneceri

Tədbir	Nə *(monitoriną ediləcək?)*	Harada *(monitoriną ediləcək?)*	Necə *(monitoriną ediləcək?)*	Nə vaxt *(Hansı tezliklə yoxsa davamlı olaraq?)*	Nə üçün *(monitoriną edilir?)*	Kim *(monitorinqə cavabdehdir?)*
Lazımi gigiyenanın təmin edilməsi	Sanitar şərait, su və s.	Mətbəxlər, istirahət yerləri, ayaqyolular, yerləşdirmə yerləri	Təftişlər			
	Ayaqyolular və içməli su	İş yerləri	Müşahidələr	Hər gün başçəkmələr zamanı	Sanitar şəraiti yoxlamaq	Təhlükəsizlik texnikası üzrə mütəxəssislər və/və ya ƏMS mütəxəssisləri, nəzarətçilər, menecerlər
			Təftişlər	Ən azı həftədə bir dəfə		Podratçının ƏMS mütəxəssisi və/və ya təhlükəsizlik texnikası üzrə mütəxəssisi
İşçi şikayətlərinin həlli	İşçi şikayətlərinin reyestri	İş sahələri və kargüzarlıq idarəsi	Reyestrin nəzərdən keçirilməsi	Həftədə bir dəfə	Şikayətlərin qeydə alınmasını və həllini yoxlamaq	Podratçının insan resursları üzrə meneceri və layihə meneceri
	Şikayətlərə baxılması və onların həlli		Şikayətlərin həllinə cavabdeh olan menecerlərlə və şikayətçi işçilərlə müsahibələr	İşlərin gedişatı ilə bağlı aylıq iclasdan əvvəl	Şikayətlərə lazımi qaydada baxılmasını yoxlamaq	Podratçının insan resursları üzrə meneceri, nəzarətçiləri
Xarici maraqlı tərəflərin şikayətlərinin həlli	Maraqlı tərəflərin şikayətlərinin reyestri	Kargüzarlıq idarəsi	Reyestrin nəzərdən keçirilməsi	Həftədə bir dəfə	Şikayətlərin qeydə alınmasını və həllini yoxlamaq	Podratçının insan resursları üzrə meneceri və layihə meneceri
	Şikayətlərə baxılması və onların həlli	İcma	Şikayətləri təqdim edən seçilmiş maraqlı tərəflərlə və onlara baxılmasına cavabdeh olan şəxslərlə müsahibələr	İşlərin gedişatı ilə bağlı aylıq iclaslardan əvvəl	Şikayətlərə lazımi qaydada baxılmasını yoxlamaq	Podratçının ƏMS meneceri, sosial məsələlər üzrə mütəxəssisi
Maraqlı tərəflərin cəlb olunması	İşçilərin icmalarda davranışı	İcma	Şikayətlər jurnalının nəzərdən keçirilməsi İcma liderləri ilə müsahibələr	Rübdə bir dəfə	Təlim, işdən çıxarılma və s. ilə bağlı ehtiyacı müəyyən etmək	Podratçının insan resursları üzrə meneceri, layihə meneceri, sosial məsələlər üzrə mütəxəssisləri
	İcmanın layihədən razılığı	İcma	Şikayətlər jurnalının nəzərdən keçirilməsi İcma liderləri və yerli sakinlərlə müsahibələr	Rübdə bir dəfə	İcmanın problemlərini müəyyən etmək	Sosial məsələlər üzrə mütəxəssis, icma ilə əlaqələr üzrə mütəxəssis

Tədbir	Nə *(monitorinq ediləcək?)*	Harada *(monitorinq ediləcək?)*	Necə *(monitorinq ediləcək?)*	Nə vaxt *(Hansı tezliklə yoxsa davamlı olaraq?)*	Nə üçün *(monitorinq edilir?)*	Kim *(monitorinqə cavabdehdir?)*
Köçürülmə və kompensasiya	KFP-yə əməl olunması	KFP-də göstərildiyi kimi				
Eroziyaya nəzarət, torpağın sabitliyi	Eroziyaya nəzarətin və torpağın bərpasının effektivliyi	Qüllə yerləri	Müntəzəm texniki xidmət patrulları zamanı müşahidələr	İstismar müddətində ildə iki dəfə	Torpağın sabitləşdirilməsi və eroziyaya nəzarət üzrə əlavə işlərə ehtiyacın olub-olmadığını müəyyən etmək	Texniki xidmət patrulları

9. İCTİMAİ MƏSLƏHƏTLƏŞMƏLƏR VƏ İŞTİRAK

9.1. Giriş

İctimai məsləhətləşmələr məlumatın yayılması, insanların narahatlıqları və problemləri ilə bağlı müzakirələr, mülkiyyətçilərin hüquqlarının qorunması və iştirakçı qərarların qəbulu vasitəsilə insanların prosesdə iştirakı üçün platforma təmin edir. ƏMSSTQ prosesi ərzində layihə komponentlərinin yerləşdiyi və keçdiyi rayon və kəndlərdə ilkin məsləhətləşmələr Fokus Qrup Müzakirələri (FQD) və layihənin təsirinə məruz qalan insanlarla (LTMQİ), eləcə də layihə ərazisində geniş ictimaiyyətlə görüşlər vasitəsilə həyata keçirilmişdir və bu torpaq satınalmaları, ekoloji və sosial təsirlət və digər əlaqəli məsələlər müzakirə edilmişdir.

Məsləhətləşmələr maraqlı tərəfləri təklif olunan layihə haqqında məlumatlandırmaq və layihə dövrünün bütün mərhələlərində onların iştirakını təmin etmək üçün bir vasitədir. O, alt layihələrlə bağlı problemlərin, eləcə də təsirə məruz qala biləcək əhalinin ehtiyaclarının müəyyən edilməsinə kömək edir.

İctimai müzakirələr insanların çoxlu toplaşa bildiyi yerlərdə keçirilmişdir. Ərazilərdə icmaları məlumatlandırmaq üçün kənd icra nümayəndələri və bələdiyyə sədrləri ilə əlaqə saxlanılmışdır.

İcmaların cəlb edilməsi təkcə icma ilə qarşılıqlı əlaqə ilə məhdudlaşmır, həm də layihə fəaliyyətlərinə aid müvafiq məlumatların açıqlanması və layihə dövrünün bütün mərhələlərində onların iştirakını təmin edir.

9.2. Məsləhətləşmə və iştirak mexanizmləri

ƏMSSTQ məsləhətləşmə prosesi ilə bağlı ətraflı məlumat verir və layihəyə hazırlıq mərhələsində məlumatın açıqlanmasını təsvir edir. Layihənin hazırlıq mərhələsində qurulan məsləhətləşmə prosesində sorğu və müsahibələr kimi müxtəlif məsləhətləşmə vasitələrindən, o cümlədən fokus qrup müzakirələri, seminarlar və görüşlərdən istifadə olunur.

Məsləhətləşmə proqramına aşağıdakılar daxildir:

- Təsirə məruz qalacaq ailə başçıları;
- Ailə üzvləri;
- LTMQİ qrupları;
- Kəndlilər;
- Kənd icra nümayəndələri/bələdiyyə sədrləri
- Dövlət qurumları və idarələri.

Məsləhətləşmə proqramının əsas məqsədləri insanları bərpa olunan enerji mənbələrinin enerji sistemə inteqrasiyası haqqında məlumatlandırmaq və insanların iştirakını təmin etmək idi. Proses zamanı insanların fikirlərini və prioritetlərini öyrənmək üçün səylər göstərilmişdir. İctimai məsləhətləşmənin məqsədləri:

- Təsirə məruz qalan insanların və icma rəhbərlərinin layihənin təsirlərinə dair fikirlərini anlamaq
- Kəndlərin bütün əsas iqtisadi və sosioloji xüsusiyyətlərini müəyyən etmək və qiymətləndirmək
- Torpaqlardan istifadə ilə bağlı məsələləri həll etmək.

9.3. Proses

Məsləhətləşmə prosesi kəndlər səviyyəsində aparılıb və alınan bütün təkliflər və iradlar ƏMSSTQ-yə daxil edilib.

9.3.1. Məsləhətləşmə zamanı qaldırılan məsələlər

- İştirakçılar təklif olunan layihə ərazisində tikiləcək elektrik verilişi xətlərinin altında qalan torpaqlardan istifadə qaydaları haqqında suallar vermişdir.
- LTMQİ-lərin əksəriyyəti layihə dövrü ərzində yerli əhali üçün iş imkanlarının yaradılmasını istəmişdir.
- Yerli əhali və icma rəhbərləri kəndlərdə elektrik verilişində vaxtaşırı baş verən kəsintilərə görə narazılıqlarını ifadə etmişdir
- Alınacaq torpaqlar və sökülləcək obyektlər üçün kompensasiya məbləği

9.4. İcmalarla məsləhətləşmələrin təfərrüatları

Məsləhətləşmələri aparan işçi qrupa bir Sosial Mütəxəssis, Ətraf Mühit üzrə Ekspert və icmalarla iş üzrə mütəxəssis daxil edilmişdir.

İctimai məsləhətləşmənin təfərrüatları Cədvəl 9-1-də verilmişdir.

s/s	Tarix	Məsləhətləşmənin keçirildiyi yer	Qeydlərə əsasən iştirakçıların sayı	İştirakçılar
Nəvahi yarımstansiyası				
1	*04.07.2024*	*Nəvahi qəsəbə 2 saylı orta məktəb*	*32*	*Qəsəbə əhalisi, bələdiyyə sədrləri və ərazi icra nümayəndələri*
Elektrik verilişi xətləri				
2	*04.07.2024*	*Səlyan şəhəri, mərkəzi klub binası*	*24*	*Salyan rayonunun kəndlərinin əhalisi, təsirə məruz qalan insanlar, bələdiyyə sədrləri və ərazi icra nümayəndələri, yerli QHT-lərin nümayəndələri*
3	*11.07.2024*	*Biləsuvar şəhəri*	*25*	*Biləsuvar rayonunun kəndlərinin*

s/s	Tarix	Məsləhətləşmənin keçirildiyi yer	Qeydlərə əsasən iştirakçıların sayı	İştirakçılar
				əhalisi, təsirə məruz qalan insanlar, bələdiyyə sədrləri və ərazi icra nümayəndələri, yerli QHT-lərin nümayəndələri
4	*11.07.2024*	*Neftçala rayonu, Bankə qəsəbəsi*	*30*	*Bankə qəsəbəsinin əhalisi, təsirə məruz qalan insanlar, bələdiyyə sədrləri və ərazi icra nümayəndələri, yerli QHT-lərin nümayəndələri*

9.5. İctimai məsləhətləşmələrdən çıxarılan əsas nəticələr

- İştirakçılar təklif olunan BOEM layihələrindən xəbərdar olsalar da, layihənin təfərrüatlarını bilmirdilər.
- Təsirə məruz qalan torpaq sahiblərinin əksəriyyəti öz torpaq parsellərini təmənnasız olaraq dövlətin istifadəsinə verməyə könüllü şəkildə razıdır.
- İnsanlar təklif olunan BOEM layihələrinin reallaşmasını dəstəkləyir.
- İnsanlar layihədə və ya podratçılarla işləmək istəklərini bildirdilər və mümkün olduqda yerli əhalinin işə cəlb olunmasını xahiş edir.
- Təsirə məruz qalan ərazidə əsasən taxıl və yonca becərilir. Kənd təsərrüfatı əsasən yağışdan və Kür çayından çəkilən kanallardan asılıdır.
- Kəndlərdə zəruri infrastruktur obyektləri (bağça, məktəb, tibb məntəqəsi, poçt şöbələri mövcuddur
- Kəndlərdə əhalinin əsas məşğuliyyəti əkinçilik və maldarlıqdır, lakin neft sənayesində işləyənlər, balıqçılıq təsərrüfatı ilə məşğul olanlar da çoxdur

İctimai məsləhətləşmələrə dair iştirakçıların siyahısı Əlavə C-də verilmişdir.

9.6. İnstitusional təşkilatlarla məsləhətləşmələr

İştirak prosesinin bir hissəsi olaraq kritik məsələlərin müəyyən edilməsi, təsirlərin müəyyən edilməsi, köçürülmə və reabilitasiya layihəsinin planlaşdırılması, icrası, monitorinqi və qiymətləndirilməsi prosesinə cəlb oluna biləcək müxtəlif maraqlı tərəflər müəyyən edilmişdir. İnstitusional çərçivədə mMüəyyən edilmiş maraqlı tərəflərlə görüşlərin təfərrüatları aşağıda təsvir edilmişdir.

s/s	Məsləhətləşmə aparılan idarələr	Tarix
1	Dövlət Ekoloji Ekspertiza Agentliyi	6 iyun 2024
2	Azərbaycan Dəmir Yolları" QSC	7 iyun 2024
3	İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinin tabeliyində olan "Daşınmaz Əmlakın Dövlət Kadastrı və Reyestri" Publik Hüquqi şəxs	7 iyun 2024
4	Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin	21 iyun 2024
5	SOCAR	21 iyun 2024

9.7. Məsləhətləşmələrin fotoşəkilləri

Dövlət Ekoloji Ekspertiza Agentliyində görüş

Nəvahi qəsəbəsində ictimai dinləmə

Salyan rayonunda ictimai dinləmə

Neftçala rayonunda ictimai dinləmə

Biləsuvar rayonunda ictimai dinləmə

10. ƏDƏBİYYAT SİYAHISI

ƏMSSTQ çərçivəsində, təklif olunan layihə ilə əlaqəli potensial təsirlərin hərtərəfli və dəqiq qiymətləndirilməsini təmin etmək üçün bir sıra nüfuzlu mənbələrdən istifadə edilib. Əsas istinad olunan mənbələr:

1. Dünya Bankının Ətraf Mühit və Sosial Çərçivəsi (ESF): Dünya Bankı Qrupu, 2016. Bu çərçivə layihələrin dayanıqlı və inklüziv olmasını təmin etmək üçün ətraf mühit və sosial risklərin idarə olunması üzrə rəhbər qaydaları təmin edir.
2. Ətraf Mühitə və Sosial Sahəyə Təsirlərin Qiymətləndirilməsi (ƏMSSTQ) Təlimatları: Beynəlxalq Maliyyə Korporasiyası (BMK), 2012. Bu təlimatlar ətraf mühitə və sosial sahəyə təsirlərin qiymətləndirmələrinin aparılması üçün ətraflı metodologiya təqdim edir.
3. Təsir Qiymətləndirməsində Biomüxtəliflik və Ekosistem Xidmətləri: Təsirlərin Qiymətləndirilməsi üzrə Beynəlxalq Assosiasiya (IAIA), 2018. Bu sənəd biomüxtəliflik və ekosistem xidmətlərinə təsirlərin qiymətləndirilməsi və azaldılması üçün qabaqcıl təcrübələri təsvir edir.
4. Layihə ilə əlaqədar müvəqqəti işçi axınının icma üzərindəki mənfi təsirlərini idarə etmək üçün təlimat: Dünya Bankı, 2016. Bu sənəd layihə ərazilərində işçi axınının sosial təsirlərini idarə etmək üçün strategiyalar təqdim edir.
5. Ətraf Mühitə Təsirin Qiymətləndirilməsi: İnkişaf Edən Ölkələrdə İnkişaf Layihələri üçün Təlimatlar: Birləşmiş Millətlər Təşkilatının Ətraf Mühit Proqramı (UNEP), 2002. Bu mənbə inkişaf kontekstində ƏMSSTQ aparılması üçün əhatəli təlimatlar təqdim edir.
6. Sosial Təsirin Qiymətləndirilməsi: Integrating Social Issues in Development Projects (İnkişaf layihələrində sosial məsələlərin inteqrasiyası): Vanclay, F. and Esteves, A.M. (Eds.), 2011. Bu kitab effektiv sosial təsir qiymətləndirmələri üçün metodologiyalar və təcrübələr haqqında məlumat verir.
7. "Azərenerji" ASC-nin 2024-2034-cü illər üçün Strateji İnkişaf Proqramı - Proqram "McKinsey" şirkəti tərəfindən hazırlanıb və "Azərenerji" üçün inkişaf istiqamətlərini, o cümlədən planlaşdırılan investisiya layihələrini müəyyən edir.
8. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi, İllik statistik məcmuə "Azərbaycanda nəqliyyat", 2020.
9. USAID, Biodiversity Analysis Update for Azerbaijan, 2010.
10. Coastal Bird Migration at the Caspian Shore of the Azerbaijan Republic in October 2007, Michael Heiss & Kai Gauger – 2011.

Onlayn mənbələr

- http://www.aera.gov.az/en/legal-acts/laws
- http://www.birdlife.org/
- http://www.keybiodiversityareas.org/site/mapsearch
- http://www.ramsar.org/
- http://www.worldwildlife.org/ecoregions
- https://data.worldbank.org/country/AZ
- https://ibat-alliance.org/visual-data-map
- https://issuu.com/zoienvironment/docs/cc-azerbaijan-en
- https://minenergy.gov.az/en/dovlet-proqramlari/azerbaycan-respublikasi-regionlarinin-2019-2023-cuillerde-sosial-iqtisadi-inkisafi-dovlet-proqrami
- https://unfccc.int/resource/docs/natc/azenc3.pdf
- https://weatherspark.com/y/104854/Average-Weather-in-Qobustan-Azerbaijan-Year-Round https://www.adb.org/documents/safeguard-policy-statement
- www.equator-principles.com
- https://www.ebrd.com/news/publications/policies/environmental-and-social-policy-esp.html
- https://www.ilo.org/dyn/normlex/en/f?p=NORMLEXPUB:11200:0::NO::P11200_COUNTRY_ID:102556
- https://www.iucn.org/theme/protected-area
- https://www.meteoblue.com/en/weather/historyclimate/climatemodelled/qobustan_azerbaijan_585223
- https://www.nature.scot/handbook-environmental-impact-assessment-guidance-competentauthorities-consultees-and-other
- https://www.ohchr.org/Documents/Issues/ClimateChange/Impact/Azerbaijan.pdf
- https://www.protectedplanet.net/country/AZ
- https://www.stat.gov.az/
- https://www.stat.gov.az/source/environment/?lang=en
- www.iucnredlist.org
- https://lcviewer.vito.be/2019/Azerbaijan

Əlavə A. Maraqlı tərəflərin siyahısı

Ad	*Kateqoriya*
Komponent 1 üçün Layihənin təsirinə məruz qalan tərəflər	
Hava xətləri istiqamətləri boyunca əmlak sahibləri	*Layihə sahəsi üzrə maraqlı tərəf*
Layihə ərazilərində yaşayan insanlar	*Layihə sahəsi üzrə maraqlı tərəf*
Aşağıdakı bələdiyyə/kəndlərin bələdiyyə və kənd nümayəndələri:	*Layihə sahəsi üzrə maraqlı tərəf*
Nəvahi qəsəbəsinin (Hacıqabul) inzibati nümayəndəsi	*Layihə sahəsi üzrə maraqlı tərəf*
Qızılburun kəndinin (Hacıqabul) inzibati nümayəndəsi	*Layihə sahəsi üzrə maraqlı tərəf*
Bankə qəsəbəsinin (Neftçala) inzibati nümayəndəsi	*Layihə sahəsi üzrə maraqlı tərəf*
Şirvanlı kəndinin (Neftçala) inzibati nümayəndəsi	*Layihə sahəsi üzrə maraqlı tərəf*
Yuxarı Noxudlu (Salyan) kəndinin inzibati nümayəndəsi	*Layihə sahəsi üzrə maraqlı tərəf*
Salmanlı kəndinin (Salyan) inzibati nümayəndəsi	*Layihə sahəsi üzrə maraqlı tərəf*
Xurşud kəndinin (Salyan) inzibati nümayəndəsi	*Layihə sahəsi üzrə maraqlı tərəf*
Çuxanlı kəndinin (Salyan) inzibati nümayəndəsi	*Layihə sahəsi üzrə maraqlı tərəf*
Abadkənd kəndinin (Salyan) inzibati nümayəndəsi	*Layihə sahəsi üzrə maraqlı tərəf*
Xələc kəndinin (Salyan) inzibati nümayəndəsi	*Layihə sahəsi üzrə maraqlı tərəf*
Şəkərli kəndinin (Salyan) inzibati nümayəndəsi	*Layihə sahəsi üzrə maraqlı tərəf*
Yenikənd kəndinin (Salyan) inzibati nümayəndəsi	*Layihə sahəsi üzrə maraqlı tərəf*
Layihə ərazisində yerləşən və layihənin müsbət və ya mənfi təsir göstərə biləcəyi biznes müəssisələri	*Layihə sahəsi üzrə maraqlı tərəf*
AZURE layihəsi üçün digər maraqlı tərəflər	
Hacıqabul rayonunun icra hakimiyyətinin nümayəndəsi	*Yerli səviyyədə hökumət nümayəndələri*
Biləsuvar rayonunun icra hakimiyyətinin nümayəndəsi	*Yerli səviyyədə hökumət nümayəndələri*
Neftçala rayonunun icra hakimiyyətinin nümayəndəsi	*Yerli səviyyədə hökumət nümayəndələri*
Salyan rayonunun icra hakimiyyətinin nümayəndəsi	*Yerli səviyyədə hökumət nümayəndələri*
Qobustan rayonunun icra hakimiyyətinin nümayəndəsi	*Yerli səviyyədə hökumət nümayəndələri*
Abşeron rayonunun icra hakimiyyətinin	*Yerli səviyyədə hökumət nümayəndələri*

Ad	Kateqoriya
nümayəndəsi	
Qaradağ rayonunun icra hakimiyyətinin nümayəndəsi	Yerli səviyyədə hökumət nümayəndələri
Energetika Nazirliyi	Yerli səviyyədə hökumət nümayəndələri
"Azərbaycan Dəmir Yolları" QSC	Yerli səviyyədə hökumət nümayəndələri
Səhiyyə orqanları	Yerli səviyyədə hökumət nümayəndələri
Məktəb nümayəndələri	Yerli səviyyədə hökumət nümayəndələri
DEEA/Ekologiya və Təbii Sərvətlər Nazirliyi	Milli səviyyədə hökumət nümayəndələri
Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi	Milli səviyyədə hökumət nümayəndələri
Mədəniyyət Nazirliyi	Milli səviyyədə hökumət nümayəndələri
Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi	Milli səviyyədə hökumət nümayəndələri
Gigiyena və Epidemiologiya Mərkəzi	Yerli səviyyədə hökumət nümayəndələri
"Masdar" Azərbaycan	Yerli səviyyədə özəl sektor nümayəndələri
"Azərenerji" ASC-nin əməkdaşları	Layihə heyəti
QHT-lər, həmkarlar ittifaqları və s.	QHT
KİV nümayəndələri	KİV
Komponent 2 və 3 üçün Layihənin təsirinə məruz qalan tərəflər	
"Azərenerji" ASC-nin əməkdaşları	Layihə heyəti
Konsaltinq şirkətləri	Layihə heyəti
Komponent 2 və 3 üçün digər maraqlı tərəflər	
Energetika Nazirliyi	Yerli səviyyədə hökumət nümayəndələri
Fövqəladə Hallar Nazirliyi	Yerli səviyyədə hökumət nümayəndələri

ƏLAVƏ B. MARAQLI TƏRƏFLƏRLƏ YAZIŞMALAR

Dövlət Ekoloji Ekspertiza Agentliyinə ƏMSSTQ-nin iş həcminin müzakirəsinə dair görüş üçün müraciət məktubu

AZƏRBAYCAN RESPUBLİKASI
«AZƏRENERJİ» AÇIQ SƏHMDAR CƏMİYYƏTİ

AZ 1005, Bakı şəhəri, Akademik Əbdülkərim Əlizadə küçəsi 10
Tel: (+99412) 490-09-22
Faks: (+99412) 598-55-23
azerenerji@azerenerji.gov.az
Web: www.azerenerji.gov.az

«10» May 2024 il № 139/2-1420/9/2024

Azərbaycan Respublikasının
Ekologiya və Təbii Sərvətlər Nazirliyi
Dövlət Ekoloji Ekspertiza Agentliyinin
İdarə Heyətinin sədri

cənab Mirsalam Qənbərova

Hörmətli Mirsalam müəllim,

Bildiyiniz kimi, **Möhtərəm cənab Prezidentin** apardığı uğurlu beynəlxalq siyasət əsasında iqlim dəyişikliyi üzrə mötəbər COP29 tədbirinin ölkəmizdə keçirilməsinə qərar verilmiş və **cənab Prezident tərəfindən** 2024-cü il "Yaşıl Dünya naminə həmrəylik ili" elan edilmişdir. "Azərenerji" ASC tərəfindən bu tədbirlərlə əlaqədar yaşıl enerjiyə sürətli keçid istiqamətində zəruri addımlar atılır.

Energetika naziri cənab Pərviz Şahbazov "Masdar" şirkətinin tikəcəyi cəmi gücü 1000 MVt olan BOEM əsaslı 3 elektrik stansiyasının (445 MVt "Biləsuvar" GES, 315 MVt "Bankə" GES və 240 MVt "Qobustan" KES) enerji sisteminə təhlükəsiz inteqrasiyasını təmin etmək məqsədilə Dünya Bankının rəhbərliyi ilə müzakirələr apararaq, bu layihələr üçün kredit vəsaitinin cəlb olunmasını razılaşdırmışdır.

Dünya Bankının maliyyə dəstəyi ilə həyata keçirilməsi planlaşdırılan "Bərpa olunan enerji mənbələrinin şəbəkəyə inteqrasiyası" layihəsinin (AZURE layihəsi) icrası Azərenerji ASC-yə tapşırılmaqla layihə çərçivəsində tələb olunan işlərin və xidmətlərin satınalınması üçün Dünya Bankının siyasət və qaydalarına uyğun tender keçirilməsi məqsədilə hazırlıq işlərinə başlamaq göstərişi verilmişdir.

Məlumat üçün bildiririk ki, Energetika nazirliyi və Dünya Bankı ilə razılaşdırılmış iş həcmi əsasında 1000 MVt BOEM layihələrinin enerjisistemə inteqrasiyası üçün 500/330 kV-luq "Nəvahi" yarımstansiyasının, 500 kV-luq birdövrəli "Nəvahi-Abşeron" (65 km), 500 kV-luq "Nəvahi-Az İES" (235 km), 330 kV-luq birdövrəli "Nəvahi-Mingəçevir SES" (220 km), 330 kV-luq birdövrəli "Nəvahi-Ələt AİZ" (20 km), 330 kV-luq ikidövrəli "Bankə GES – Nəvahi YS" (80 km), 330 kV-luq ikidövrəli "Biləsuvar GES – Nəvahi YS" (90 km), 330 kV-luq birdövrəli "Qobustan KES – Nəvahi YS" (60 km), 330 kV birdövrəli "Qobustan KES – Qobu ES" (20 km) EVX-lərin tikintisi, eləcə də 500/330/220 kV-luq "Abşeron" YS-da və "Qobu" ES-də 330 kV-luq tərəfdə genişlənmə işlərinin həyata keçirilməsi planlaşdırılır.

Bildirmək istərdik ki, Bank daxili prosedurlara əsasən bütövlükdə layihə üçün Ekoloji və Sosial Təsirlərin Qiymətləndirilməsi aparılmalı və müvafiq hesabat hazırlanaraq Banka təqdim edilməlidir. Azərenerji ASC tərəfindən sözügedən ekoloji və sosial qiymətləndirmənin aparılması üçün texniki tapşırıq hazırlanmış və Bankla razılaşdırılmışdır. Bildiyiniz kimi, bu tip irimiqyaslı layihələrin icrasına başlamazdan əvvəl maraqlı tərəflərlə görüşlərin keçirilməsi və müzakirələr aparılması, onların tövsiyə və təkliflərinin alınması mühüm əhəmiyyət kəsb edir. Bu məqsədlə Azərenerji ASC nəzdində yaradılmış Layihə İcra Qrupunun əməkdaşları rəhbərlik etdiyiniz qurumun aidiyyəti məsul şəxsləri ilə görüşərək layihə çərçivəsində aparılacaq ekoloji və sosial qiymətləndirmə üçün hazırlanmış texniki tapşırığı və hazırlanacaq ƏMSTQ hesabatında əhatə olunması nəzərdə tutulan məsələləri müzakirə etmək niyyətindədir.

Hörmətli Mirsalam müəllim,

Diqqətinizə çatdırmaq istərdim ki, Masdar şirkətinin icra qrafikinə əsasən sözügedən BOEM layihələri 2026-cı ilin I rübündə enerji istehsalına başlayacaqdır və Azərenerji ASC-nin qarşısında həmin tarixədək yuxarıda qeyd olunan ötürücü infrastruktur obyektlərini vaxtında tikib istismara vermək kimi mühüm vəzifə dayanır. Vaxt məhdudiyyətini nəzərə alaraq rəhbərlik etdiyiniz qurumun nümayəndələri və Layihə İcra Qrupunun əməkdaşları ilə bu görüşün ən qısa vaxtda keçirilməsi üçün aidiyyəti üzrə göstəriş verməyinizi xahiş edirik.

Qoşma: ƏMSTQ üçün Texniki Tapşırıq (15 vərəq)

Hörmətlə,

Ziyəddin Quliyev

"Azərenerji" ASC-nin
vitse-prezidenti

500/330 kV-luq Nəvahi YS-ə daxil olan/çıxan xətlərin təklif olunan trassasının razılaşdırılmasının koordinasiyasına rayon məsul şəxsləri tərəfindən köməklik göstərilməsinə dair Hacıqabul Rayon İcra Hakimiyyətinə göndərilmiş məktub və icra hakimiyyətinin başçısının təsdiq cavabı

AZƏRBAYCAN RESPUBLİKASI

HACIQABUL RAYONU İCRA HAKİMİYYƏTİ BAŞÇISININ APARATI

AZ 2400 Hacıqabul şəhəri, İ.Qayıbov küçəsi, 7 tel: /021/ 204-32-33
e-Poçt: **mail@haciqabul-ih.gov.az** faks: /021/ 204-12-40

№ 5-48/a-VIII-10-214/2024 « 03 » aprel 2024-cü il

"Azərenerji" ASC-nin
vitsə-prezidenti
cənab Ziyəddin Quliyevə

Hörmətli Ziyəddin müəllim,

"Azərenerji" ASC-nin 4 mart 2024-cü il 13-9/2-655/17/2024, 13-9/2-662/17/2024, 13-9/2-664/17/2024, 14 mart 2024-cü il 13-9/2-813/17/2024, 13-9/2-814/17/2024, 13-9/2-823/17/2024 və 13-9/2-832/17/2024 nömrəli məktublarına əsasən Hacıqabul rayonunun Nəvai qəsəbəsində tikiləcək **500/330/10 kV-luq "Nəvai" yarımstansiyasının** enerjisistemə inteqrasiyası və dayanıqlığının möhkəmləndirilməsi, eyni zamanda Biləsuvar GES və Bankə GES-in enerjisistemə inteqrasiyası məqsədilə çəkiləcək 500 kV-luq bir dövrəli "Azərbaycan İES- Nəvai YS", 500 kV -luq iki dövrəli "Abşeron YS- Nəvai YS", 330 kV -luq bir dövrəli "Mingəçevir SES- Nəvai YS", 330 kV -luq iki dövrəli "Biləsuvar GES-Nəvai YS", 330 kV -luq iki dövrəli "Bankə GES-Nəvai YS", 330 kV-luq bir dövrəli "Ələt AİZ-Nəvai YS", 330 kV -luq bir dövrəli "Qobustan KES-Nəvai YS" HX-lərinin **Hacıqabul rayonunun inzibati ərazisinə düşən hissəsinin** trassası (təqdim edilən dönge nöqtələrinin koordinatları üzrə) dövlət, bələdiyyə, icarə və xüsusi mülkiyyətdə olan torpaq sahələrindən keçir.

HX-lərinin trassalarının Hacıqabul rayonunun inzibati ərazisinə düşən hissəsinin dövlət mülkiyyəti istisna olmaqla, digər marəğına toxunulan icra hakimiyyəti orqanları, o cümlədən, bələdiyyə, mülkiyyətçilər və torpaq istifadəçiləri ilə razılaşdırmaq şərti ilə ayrılmasına etiraz etmirik.

Hörmətlə,

İcra Hakimiyyəti Başçısının birinci müavini: **Saleh Ələskərov**

"AZƏRENERJİ" ASC
ÜMUMİ ŞÖBƏ
№ 02 DAXİL OLMA № 13-9/1-334/2024
«03» 04 2024

500/330 kV-luq Nəvahi YS-ə daxil olan/çıxan xətlərin təklif olunan trassasının razılaşdırılmasının koordinasiyasına rayon məsul şəxsləri tərəfindən köməklik göstərilməsinə dair Biləsuvar Rayon İcra Hakimiyyətinə göndərilmiş məktub və icra hakimiyyətinin başçısının təsdiq cavabı

AZƏRBAYCAN RESPUBLİKASI BİLƏSUVAR RAYON İCRA HAKİMİYYƏTİ

AZ1300, Biləsuvar şəhəri, M.A.İbrahimov küçəsi 50, Tel.: (025) 295-01-83 Faks: (025) 295-01-83 Elektron poçt: mail@bilesuvar-ih.gov.az

1 aprel 2024-cü il **5-39/2-214/2024**

Azərbaycan Respublikası "Azərenerji" Açıq Səhmdar Cəmiyyətinin vitse-prezidenti cənab Ziyəddin Quliyevə

(Sizin 04 mart 2024-cü il tarixli 13-9/2-678/17/2024 nömrəli məktubunuza cavab)

Hörmətli Ziyəddin müəllim,

Biləsuvar rayonunun inzibati ərazisində tikintisi planlaşdırılmış "Biləsuvar Günəş Elektrik Stansiyası"nın enerji sisteminə inteqrasiyası məqsədilə çəkiləcək 330 kV-luq "Biləsuvar GES-Nəvai YS" HX-nin Biləsuvar rayonunun inzibati ərazisinə düşən hissəsinin trassasına mütəxəssislərin iştirakı ilə yerində baxış keçirilmiş və sözügedən ərazidə heyvandarlıq fəaliyyəti ilə məşğul olan fermerlərlə söhbətlər aparılmışdır.

Bildiririk ki, 330 kV-luq "Biləsuvar GES-Nəvai YS" HX-nin Biləsuvar rayonunun inzibati ərazisinə düşən hissənin trassasının ayrılmasına etiraz etmirik.

Hörmətlə,

Faiq Qürbətov

№ 02 "AZƏRENERJİ" ASC ÜMUMİ ŞÖBƏ DAXİL OLMA № 13-9/L-339/2024 «03» 04 2024-cü il

Elektron Sənəd Dövriyyəsi Sistemi
İmzalayan şəxs: Faiq Qurbatov / Rəhbərlik / İcra başçısı

Qeyd: "Elektron imza və elektron sənəd haqqında" Azərbaycan Respublikası Qanununun 3-cü maddəsinə əsasən elektronimza əlimzası ilə bərabər hüquqi qüvvəyə malikdir. Elektronimza çəkən kağız daşıyıcı üzərindəki mətnlə tərcümə edilərə əlimzasına bərabər hüquqdur.

Sənədin elektron yüklənməsi ünvanı:
https://verify2.esd.asan.gov.az/#/sign?TjVqRkLSCfBNCSuv3vgaTT7EmyGTBMSYzDCTVVGc%3D

500/330 kV-luq Nəvahi YS-ə daxil olan/çıxan xətlərin təklif olunan trassasının razılaşdırılmasının koordinasiyasına rayon məsul şəxsləri tərəfindən köməklik göstərilməsinə dair Salyan Rayon İcra Hakimiyyətinə göndərilmiş məktub və icra hakimiyyətinin başçısının təsdiq cavabı

Azərbaycan Respublikası

Salyan Rayon İcra Hakimiyyətinin Başçısı

Az-5200, Salyan şəhəri, T.Xəlilbəyli küçəsi, 126. Telefon: 021-255-50-10. Faks: 021-255-50-31. E-mail: salyan@ilham.az

№ 5-716-273/2024 "04" aprel 2024-cü il

"Azərenerji" ASC-nin
vitse-prezidenti
cənab Ziyəddin Quliyevə

Hörmətli Ziyəddin müəllim,

"Azərenerji" ASC-nin 13-9/2-653/17/2024 və 13-9/2-663/17/2024 nömrəli, 4 mart 2024-cü il tarixli məktublarına əsasən müvafiq olaraq Neftçala rayonunda tikiləcək Banka GES və Biləsuvar rayonunda tikiləcək Biləsuvar GES-in enerji sisteminə inteqrasiyası məqsədilə çəkiləcək 330 kV-luq iki dövrəli "Banka GES-Nəval YS" və 330 kV-luq iki dövrəli "Biləsuvar GES-Nəval YS" HX-lərinin Salyan rayonunun inzibati ərazisinə düşən hissəsinin trassası (təqdim edilən dönə nöqtələrinin koordinatları üzrə) dövlət, bələdiyyə və xüsusi mülkiyyətdə olan torpaq sahələrindən keçir.

HX-lərinin trassalarının Salyan rayonunun inzibati ərazisinə düşən hissəsinin dövlət mülkiyyəti istisna olmaqla, digər marağına toxunulan hüquqi və fiziki şəxslər, o cümlədən, bələdiyyə, mülkiyyətçilər və torpaq istifadəçiləri ilə razılaşdırmaq şərti ilə ayrılmasına etiraz etmirik.

Hörmətlə,

Sevindik Hətəmov

"AZƏRENERJİ" ASC
ÜMUMİ ŞÖBƏ
№ 02 DAXİL OLMA № 13-01/1-358 04.24
04 04 2024

500/330 kV-luq Nəvahi YS-ə daxil olan/çıxan xətlərin təklif olunan trassasının razılaşdırılmasının koordinasiyasına rayon məsul şəxsləri tərəfindən köməklik göstərilməsinə dair Neftçala Rayon İcra Hakimiyyətinə göndərilmiş məktub və icra hakimiyyətinin başçısının təsdiq cavabı

AZƏRBAYCAN RESPUBLİKASI
NEFTÇALA RAYON İCRA HAKİMİYYƏTİ

Poçt indeksi Az.4700, Neftçala şəhəri, H.Əliyev pr.25 Tel: 02126 – 3-42-43
Faks:02126 – 3-42-43, elektron poçtu mail@neftchala-ih.gov.az

"01" aprel 2024-cü il

№ 5-67/2-444/2024

"Azərenerji"ASC-nin vitse-prezidenti
cənab Ziyəddin Quliyevə

04 mart 2024-cü il tarixli 13-9/2-667/17/2024 nömrəli
məktubun icrası barədə

Hörmətli Ziyəddin müəllim,

Neftçala rayonunun inzibati ərazisində tikiləcək Bankə Günəş Elektrik Stansiyasının enerjisistemə inteqrasiyası məqsədilə çəkiləcək 330 kV-luq iki dövrəli "Bankə GES-Nəvai YS" hava xəttinin, Neftçala rayonunun inzibati ərazisinə düşən hissəsinin trassası (təqdim edilən dönüş nöqtələrinin koordinatları üzrə) dövlət, bələdiyyə, icarə və xüsusi mülkiyyətdə olan torpaq sahələrindən keçir.

Belə ki, hava xəttinin trassasının 4,7 km-i Neftçala rayonunun inzibati ərazisinə daxil olan Şirvan Milli Parkının sanitar zonasına, 3,05 km-i Neftçala rayonu Yenikənd Bələdiyyəsinin mülkiyyətində olan kənd təsərrüfatı təyinatlı örüş uqodiyalı torpaq sahəsinə, 3,25 km-i 46 fiziki şəxsin xüsusi mülkiyyətində olan kənd təsərrüfatı təyinatlı əkin uqodiyalı pay torpaq sahəsinə, 0,8 km-i Yenikənd Bələdiyyəsinin mülkiyyətində olmaqla icarə hüququ ilə 1 fiziki şəxsin istifadəsində olan kənd təsərrüfatı təyinatlı örüş uqodiyalı torpaq sahəsinə düşür.

Hava xəttinin trassasının Neftçala rayonunun inzibati ərazisinə düşən hissəsinin dövlət mülkiyyəti istisna olmaqla, digər marağına toxunulan icra hakimiyyəti orqanları, o cümlədən, bələdiyyə, mülkiyyətçilər və torpaq istifadəçiləri ilə razılaşdırmaq şərti ilə ayrılmasına etiraz etmirik.

Xahiş edirik nəzərə alasınız.

Əlavə : 2 vərəq

Hörmətlə,

Neftçala rayonu İcra Hakimiyyəti başçısının müavini - Sosial-iqtisadi inkişafın təhlili və proqnozlaşdırılması şöbəsinin müdiri **Burcalı Ağayev**

№ 01 "AZƏRENERJİ" ASC ÜMUMİ ŞÖBƏ DAXİL OLMA № 13-9/2-552/24 «03» 04 2024-cü il

EKOLOGİYA VƏ TƏBİİ SƏRVƏTLƏR NAZİRLİYİ İLƏ YAZIŞMALAR

AZƏRBAYCAN RESPUBLİKASI
«AZƏRENERJİ» AÇIQ SƏHMDAR CƏMİYYƏTİ

AZ 1005, Bakı şəhəri, Akademik Əbdülkərim Əlizadə küçəsi 10
Tel: (+99412) 490-09-22
Faks: (+99412) 598-55-23
azerenerji@azerenerji.gov.az
Web: www.azerenerji.gov.az

«29» 08 2024 il № 13-9/2-2697/9/24

Azərbaycan Respublikasının
Ekologiya və Təbii Sərvətlər naziri
cənab Muxtar Babayevə

"Bərpa olunan enerji mənbələrinin şəbəkəyə inteqrasiyasına hazırlıq işlərinə dair"

Hörmətli Muxtar müəllim,

Bildiyiniz kimi, Nazirlər Kabineti tərəfindən bərpa olunan enerji mənbələrinin şəbəkəyə inteqrasiyasının təmin edilməsi məqsədilə ötürücü şəbəkənin gücləndirilməsi, Hacıqabul rayonunda 500/330 kV-luq Nəvahi yarımstansiyasının tikilməsi və enerji sistemi ilə əlaqələndirilməsi üçün elektrik verilişi xətlərinin tikintisi və "Masdar" şirkəti tərəfindən həyata keçiriləcək MEQA layihə üzrə 1 Qvt gücündə günəş və külək elektrik stansiyalarının enerji sistemə inteqrasiyası (AZURE layihəsi) ilə bağlı 30 iyul 2024-cü il tarixli 420s nömrəli Sərəncam qəbul edilmiş və həmin Sərəncama əsasən layihə-smeta sənədlərinin hazırlanması və tikinti-quraşdırma işlərinin yerinə yetirilməsi istiqamətində zəruri tədbirlər görmək "Azərenerji" ASC-yə tapşırımışdır.

"Azərenerji" ASC tərəfindən MEQA layihə üzrə 315 MVt gücündə "Bankə" GES-in tikiləcək Navahi yarımstansiyasına birləşdirilməsi üçün 330 kV-luq ikidövrəli Bankə GES – Navahi YS elektrik verilişi xəttinin layihələndirilməsi aparılmış və hava xətti üçün yüksək gərginlikli elektrik xətlərinin mühafizə zonası nəzərə alınmaqla ən optimal tras seçilmişdir.

Belə ki, sözügedən hava xətti üçün seçilmiş ilkin tras İqtisadiyyat Nazirliyi yanında ƏMDX-nin "Daşınmaz Əmlakın Dövlət Kadastrı və Reyestri" PHŞ-nin "Kadastr və Yerquruluşu Layihə-Tədqiqat Mərkəzi" MMC tərəfindən yer quruluşu planı hazırlandıqdan sonra 57 ədəd dayağın Şirvan Dövlət Təbiət Qoruğunun ərazisinə düşdüyü məlum olmuşdur. Bu səbəbdən hava xəttinin trassasına dəyişiklik edilərək həmin dayaqlar Qoruğun ərazisindən çıxarılmışdır. Vurğulamaq istərdik ki, başqa alternativ olmadığı (əks halda yaşayış məskənlərindən keçid qaçılmaz olur ki, bu da mühafizə zonası tələblərini pozur) üçün hava xəttinin trası məcburiyyət qarşısında hər birində 4 dayaq və 7 dayaq (cəmi 11 dayaq) olmaqla iki nöqtədə Şirvan Milli Parkının ərazisinə düşmüşdür.

Diqqətinizə çatdırmaq istərdik ki, layihə üçün beynəlxalq standartlar əsasında ƏMSTQ hesabatı hazırlanmış və hesabatda Milli Park ərazisində aparılacaq tikinti-quraşdırma işləri üçün müvafiq yumşaldıcı tədbirlər nəzərdə tutulmuş, eləcə də ƏMSTQ çərçivəsində ayrıca biomüxtəlifliyin qorunması planı hazırlanmışdır. Podratçılar tərəfindən aparılacaq tikinti quraşdırma işləri ərzində yumşaldıcı tədbirlərə və biomüxtəlifliyin qorunması planına əməl olunmasına tərəfimizdən xüsusi nəzarət olunacaqdır.

Qeyd olunanları diqqətinizə çatdıraraq, 330 kV-luq Bankə GES - Navahi yarımstansiyası HX-nin 11 dayağının Şirvan Milli Parkının ərazisindən keçməsinə köməklik göstərməyinizi Sizdən xahiş edirik.

Qoşma: HX-nin yeni trası.

Hörmətlə,

Baba Rzayev

"Azərenerji" ASC-nin
prezidenti

AZƏRBAYCAN RESPUBLİKASININ
EKOLOGİYA VƏ TƏBİİ SƏRVƏTLƏR NAZİRLİYİ

Az1073 Bakı şəhəri, K.Kazımzadə küç.100A
E-poçt: info@eco.gov.az
Tel: +99412 538-85-08
Faks: +99412 492-59-07

23.09.2024 - cü il **3-14/2-4396-D-03-21/2024**

Azərbaycan Respublikası "Azərenerji"
Açıq Səhmdar Cəmiyyətinin prezidenti
cənab Baba Rzayevə

Hörmətli Baba müəllim,

"Neftçala rayonunun inzibati ərazisində tikintisi planlaşdırılmış "Neftçala Günəş Elektrik Stansiyası"nın enerjisistemə inteqrasiyası məqsədilə 330 kv-luq "Neftçala GES-Nəvai YS" HX tikintisi ilə bağlı Şirvan Milli Parkının ərazisindən iki yerdə trassanın ümumilikdə 3.1 kilometrinin keçməsi, həmin ərazilərdə 11 (on bir) ədəd elektrik dayağının quraşdırılmasının nəzərdə tutulması və bununla bağlı müvafiq icazənin verilməsinə köməklik göstərilməsi barədə" Ekologiya və Təbii Sərvətlər Nazirliyinə ünvanladığınız 29 avqust 2024-cü il tarixli 13-9/2-2708/12/24 və 13-9/2-2697/9/24 nömrəli eyni məzmunlu müraciətlərinizə tərəfimizdən baxılmışdır.

Məlumat üçün bildiririk ki, 330 kv-luq "Neftçala GES-Nəvai YS" HX tikintisi ilə bağlı Şirvan Milli Parkının ərazisindən iki yerdə ümumilikdə 3.1 kilometrlik trassanın keçməsi və ərazilərdə 11 (on bir) ədəd elektrik dayağın quraşdırılması ilə bağlı həmin əraziyə yerində baxış keçirilmişdir. Baxış zamanı elektrik dayaqlarının yerləşdiriləcəyi ərazinin Milli parkın nüvə zonasından kənarda təsərrüfat zonasına düşdüyü müəyyən edilmişdir. Bununla əlaqədar, Ekologiya və Təbii Sərvətlər Nazirliyinin və Azərenerji ASC-nin aidiyyəti əməkdaşları arasında ətraflı müzakirələr aparılmış və müzakirələrin nəticəsi olaraq 3,1 km HX-nın trassası (elektrik xətti) ilə bağlı nəzərdə tutulan 11 (on bir) ədəd elektrik dayağının yalnız 7 (yeddi) ədədinin Milli parkın ərazisində quraşdırılması razılığına gəlinmişdir. Bununla bağlı təqdim olunmuş layihəyə əsasən aparılacaq işlər nəticəsində Milli parka ümumilikdə 13608 (on üç min altı yüz səkkiz) manat məbləğində ziyan vurulacağı hesablanmışdır.

Bildiririk ki, Şirvan Milli Parkının ərazisi xüsusi mühafizə olunan təbiət ərazilərinə aiddir. Azərbaycan Respublikası Prezidentinin 3 avqust 2004-cü il tarixli 106 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Şirvan Milli Parkı haqqında Əsasnamə"nin tələblərinə əsasən onun ərazisində fəaliyyəti ilə əlaqəli olmayan bu cür işlərin aparılmasına məhdudiyyətlər nəzərdə tutulur və bu halda yalnız Milli park üçün elektrik verilişi xəttinin ayrılması öhdəliyi nəzərdə tutulmaqla ərazidə qeyd olunan tikinti işlərinin aparılması mümkündür.

Odur ki, məsələnin dövlət əhəmiyyətli olmasını nəzərə alaraq, təbiətə dəyəcək ziyanın ödənilməsi və Milli parkın enerjiyə olan tələbatının "Nəvai YS"-dən təmin edilməsi şərti ilə Şirvan

İmzalayan şəxs:
Vüqar Kərimov Nazir / Nazirin müavini

Qeyd: "Elektron imza və elektron sənəd haqqında" Azərbaycan Respublikası Qanununun 3-cü maddəsinə əsasən elektron imza əl imzası ilə bərabər hüquqi qüvvəyə malikdir. Elektron imza şəxsin kağız daşıyıcısı üzərindəki möhürlə təsdiq edilmiş əl imzasına bərabər tutulur.
Təhlükəsizlik kodu: 0FBC90

Milli Parkının ərazisində 1.7 km HX-nın trassası (elektrik xətti) üçün 7 (yeddi) ədəd elektrik dayağının quraşdırılması ilə bağlı müvafiq işlərin aparılmasına etiraz etmirik.

Eyni zamanda bildiririk ki, müvafiq işlər aparılan zaman texnikanın yalnız mövcud yollardan istifadə etməsi, mümkün qədər səssizliyə riayət olunması, inşaat və məişət tullantılarının ərazidən kənarlaşdırılması, müvafiq işlərin Şirvan Milli Parkının əməkdaşlarının iştirakı və nəzarəti ilə aparılması və ərazidə mütəmadi olaraq monitorinqlərin təşkil edilməsi zəruridir.

Hörmətlə,

Nazir müavini Vüqar Kərimov

Əlavə C. İctimai məsləhətləşmə görüşlərinin protokolları

Məkan: Hacıqabul rayonu, Nəvai qəsəbəsi, 2 saylı orta məktəb

Tarix və vaxt: 04 iyul 2024-cü il, saat 10.30

İştirakçılar:

Vüsal Qubadov, Azərbaycan Regional Elektrik Şəbəkəsi İdarəsinin direktoru
Yusif Qayıbov, LİQ direktoru
İlahə İlyasova, LİQ Sosial inkişaf mütəxəssisi

32 nəfər (Nəvai qəsəbəsi və Nəvai kəndindən kənd sakinləri, maraqlı tərəflərin nümayəndələri və müxtəlif maraqlı tərəflər)

- İcra Hakimiyyətinin yerli ərazi nümayəndələri;
- Bələdiyyələrin üzvləri;
- kənd sakinləri;
- qəsəbə və kəndin işsiz əhalisi;
- Regional Elektrik Şəbəkəsi İdarəsinin nümayəndələri;
- Digər təşkilatların nümayəndələri.

İclasın protokolu

Yusif Qayıbov iştirakçıları salamladı və gəldikləri üçün təşəkkür etdi. İştirakçılara layihə, onun birbaşa və dolayı, yerli iqtisadi faydaları və ümumi konsepsiyası, müddət və icra prosedurları haqqında qısa məlumat verdi. Layihənin miqyasını tam başa düşmək üçün layihənin xəritə-sxemini və qoşulma diaqramını auditoriya ilə paylaşdı.

İlahə İlyasova iştirakçılara layihənin sosial və ekoloji təsirləri, mümkün müvəqqəti və daimi təsirlər və onların əhatə dairəsi, eləcə də təsirlərin azaldılması tədbirləri haqqında məlumat verib. İnsanlar təsirlərin qarşısını almaq və minimuma endirmək üçün alternativlər və tədbirlər haqqında məlumatlandırıldı, təsirlərin qaçınılmaz olduğu halda isə təsirlərin idarə edilməsi üçün nəzərə alınmalı olan milli proseduralar, KTP-nin hazırlanması və onun sonrakı mərhələlərdə açıqlanması kimi müddəaları auditoriya ilə bölüşdü.

Vüsal Qubadov günəş enerjisindən danışdı. Günəş enerjisinin inkişafı bu gün bütün dünyada, xüsusən də Azərbaycanda daha aktualdır. Layihənin başqa bir üstünlüyü ətraf mühitə daha az mənfi təsir göstərməsidir.

Görüş sual-cavab şəklində davam edib.

Suallar	***Cavablar (LİQ/ RES)***
İsmayılova Səmayə Qoçu (Nəvai qəsəbə bələdiyyəsinin sədri) *– İstərdik ki, layihənin tikinti işlərində yerli əhali məşğul olsun. Biz burada müxtəlif layihələrin həyata keçirildiyinin şahidi olmuşuq və həmişə Podratçılar Bakıdan və ya digər bölgələrdən işçilər gətirirdilər. Arzu edirik ki, kəndlilərimiz layihədən faydalansınlar və işlə təmin olunsunlar ki, bu da öz növbəsində yerli əhalinin rifahını yaxşılaşdırsın*	*Yusif Qayıbov – Podratçılara əsas tövsiyələrdən biri olacaq ki, yerli ixtisaslı və adi işçiləri öz qabiliyyətlərinə uyğun olaraq tikinti işlərinə cəlb etsinlər.* *Vüsal Qubadov – Podratçılar da yerli sakinləri maksimum dərəcədə cəlb etməkdə maraqlı olacaqlar, çünki bu, yaşayış xərclərinə qənaət etməklə onlar üçün sərfəlidir.* *İlahə İlyasova – Tikinti fəaliyyəti də yerli iqtisadiyyata müsbət təsir göstərəcək. Layihə üzrə işçi qüvvəsini qidalandırmaq üçün kənd təsərrüfatı məhsullarına tələbat artacaq ki, bu da öz növbəsində yerli kənd təsərrüfatı məhsullarının*

Suallar	Cavablar (LİQ/ RES)
	satışını artıracaq. Yerləşdirmə / düşərgə salmaq üçün torpaq və şəxsi əmlakın icarəsi də yerli əhalinin büdcəsinə fayda verəcəkdir.
Səmədov Azər (Hacıqabulun Rəncər kənd İcra Hakimiyyətinin nümayəndəsi) *- Biz çox şadıq ki, nəhayət, Regional Elektrik Şəbəkə İdarəsinin rəisi vəzifəsində peşəkar kadrlarımız var. Əvvəllər heç vaxt şikayətlərimizə müvafiq qaydada baxılmırdı, amma indi REŞ rəhbəri vəzifəsində bizim qaldırdığımız məsələlərə kifayət qədər cavab verməyə qadir olan peşəkarımız var. Odur ki, qarşıdan gələn layihədə biz də istərdik ki, layihənin tikinti işlərində çalışan peşəkarlar və savadlı insanlarımız, gənclərimiz öz bilik və bacarıqlarına uyğun olaraq burada işlə təmin olunsunlar və başqa bölgələrə köçməyə ehtiyac qalmasınlar.*	***Yusif Qayıbov - yaxşı fikirdir****. Bunu dediyiniz üçün təşəkkür edirəm. Podratçılara bu barədə məlumat veriləcək və müvafiq göstərişlər veriləcəkdir.*
Rəhimov Rizvan (Qızılburun kəndi) – *Kəndimizdə elektrik gərginliyi çox aşağıdır, 220kV əvəzinə 160kV. Bu zəif elektrik gərginliyi nəticəsində elektrik cihazlarının əksəriyyəti işləmir, elektrik enerjisi fasilələrlə verilir və məişət cihazlarının sıradan çıxmasına səbəb olur. Məsələ ilə bağlı bir neçə dəfə "Azərişıq" ASC-yə müraciət etmişik, indiyədək heç bir reaksiya verilməyib. Bir aydır biz bu məsələyə dözürük.*	***İ.İlyasova –*** *Bu tip məsələlər sizin qeyd etdiyiniz kimi "Azərişıq" ASC-nin səlahiyyətlərinə daxildir. Buna baxmayaraq, biz sizin narahatlığınızı hesabatda qeyd edəcəyik və müvafiq qurumlar məsələyə mütləq reaksiya verəcəklər.*

Azərbaycan Respublikası "Azerenerji" Açıq Səhmdar Cəmiyyəti
Hacıqabul rayonunun Nəvahi qəsəbəsində tikiləcək 500/330/10 kV-luq "Nəvahi" yarımstansiyasının enerjisistemə inteqrasiya və dayanıqlığın möhkəmləndirilməsi məqsədilə çəkilməsi nəzərdə tutulan EVX-lərin layihəsi
Layihə və təsirləri, o cümlədən müvafiq tədbirlər haqqında ictimai müzakirələr

Nəvai qəsəbəsi / Hacıqabul r.
yaşayış məntəqəsi (rayon, kənd)

04.07.2024 / 14.30
tarix və vaxt

İştrakçıların siyahısı

S.s.	Adı və soyadı	İş yeri və tutduğu vəzifə	İmza	Əlaqə nömrəsi
1	Məsmədə Xoşqədəm	Tiçarət		055 201 11 67
2	Bakşiyeva Sədət	evdar		
3	Məmədova Rəsmiyyə	Texniki İş		051 828 27 77
4	Əzizova İnci	Nav. kənd İcr.		050-430-40-69
5	İsmayılova Arzu	Nəq. qəs. kitab		055-380-60-66
6	Tağıyeva Xəyalə	Nav qəs kitab		055-901-28-12
7	Əliyeva Rizvanə	b/m müdiri		070-939-93-27
8	Kərimova İrvana	Məşğulluq		070-508 26 40,
9	Fərəcova Şükayət	Dost emici		050-492 58 54,
10	Musaqayev Ilqat	Dost emici		055-568-88-32,
11	Kərimov Fəxil	DOS.M.MC		050.516-74-75
12	Rəşidov Vüqar	DOS.M.MC		070-645-15-70
13	Abdullayev Cabid	DOS.M.MC		070-616-74-75
14	Məmmədov Əlisəfa	işsiz		050-753-64-51
15	Dadaşov Balayişi	işsiz		050-518-73-55
16	Nəsizov Tuzal	Pizsaat qəs. İD müdiri		070-562-55-02
17	Zərbaliyev Yusif	işsiz		050-765-01-16
18	Zərbaliyev Nemət	işsiz		055-573-98-90
19	İsmayılov Şahmar	Navahı icra İD-nin		055-783-83-90
20	İsmayılova Əlimə	Bağdadı İcra		050 332 76 94
21	Rəhimov Rixvan Ramazan oğ	Qızılbəhərli kənd İcra nümayəndə		050-368-88-15

Azərbaycan Respublikası "Azerenerji" Açıq Səhmdar Cəmiyyəti
Hacıqabul rayonunun Nəvahi qəsəbəsində tikiləcək 500/330/10 kV-luq "Nəvahi" yarımstansiyasının enerjisistemə inteqrasiya və dayanıqlığın möhkəmləndirilməsi məqsədilə çəkilməsi nəzərdə tutulan EVX-lərin layihəsi
Layihə və təsirləri, o cümlədən müvafiq tədbirlər haqqında ictimai müzakirələr

Nəvai qəsəbəsi / Xıdır qobeel v.
yaşayış məntəqəsi (rayon, kənd)

04. 07. 2021 / 11.30
tarix və vaxt

İştrakçıların siyahısı

S.s.	Adı və soyadı	İş yeri və tutduğu vəzifə	İmza	Əlaqə nömrəsi
1	Səmədov Vəsiqəddin q.	mühasib		055-221-36-30
2	Səmədov Azər Cəlovxan	Şəncər kənd icra nümayəndəsi		050 202 72 23
3	Abdullayeva Gülsüm	müəlləxəsis Şirvan RES		050-228-84-50.
4	Süleymanova Səbinə	Şirvan RES Texnik		055-431-65-65
5	Nəcəfov Samir	Şirvan RES istisatçı		055-661-29-12
6	Zeynalova Rəşidə	Şirvan RES		050.271 85 05
7	Nəcəfov Afət	Şirvan RES		051 958 98-95
8	Qubadov Vüsal	Şirvan RES		050 228 79-19
9	Cəfərov Emil	Şirvan RES		050-228-79-16
10	Ismayılova Samayə	Nəvahi q. Bal-nin sakini		050-476-91-98.
11	Bakıxıyev Asəd	Kampeten. Vetron		050 523 54 96.
12				
13				
14				
15				
16				
17				
18				
19				
20				
21				

Nəvahi qəsəbəsi, Hacıqabul rayonu, 4 iyul, 2024

Məkan: Səlyan şəhəri, Mərkəzi Klub Binası

Tarix və vaxt: 04 iyul 2024-cü il, saat 14.30

İştirakçılar:

Vüsal Qubadov, Azərbaycan Regional Elektrik Şəbəkəsi İdarəsinin direktoru
Yusif Qayıbov, LİQ direktoru
İlahə İlyasova, LİQ Sosial inkişaf mütəxəssisi

25 nəfər (Nəvai qəsəbəsi və Nəvai kəndindən kənd sakinləri, maraqlı tərəflərin nümayəndələri və müxtəlif maraqlı tərəflər)

- İcra Hakimiyyətinin yerli ərazi nümayəndələri;
- Bələdiyyələrin üzvləri;
- kənd sakinləri;
- qəsəbə və kəndin işsiz əhalisi;
- Regional Elektrik Şəbəkəsi İdarəsinin nümayəndələri;
- Digər təşkilatların nümayəndələri.

İclasın Protokolu

Vüsal Qubadov iştirakçıları salamladı və gəldikləri üçün təşəkkür edərək sözü Yusif Qayıbova Verdi.

Yusif Qayıbov iştirakçıları salamladı və gəldikləri üçün təşəkkür etdi. İştirakçılara layihə, onun birbaşa və dolayı, yerli iqtisadi faydaları və ümumi konsepsiyası, müddət və icra prosedurları haqqında qısa məlumat verdi. Layihənin miqyasını tam başa düşmək üçün layihənin xəritə-sxemini və qoşulma diaqramını auditoriya ilə paylaşıldı. Yusif Qayıbov xətlər üçün mülkiyyətçilərə məxsus pay torpaqlarından istifadə olunacağı barədə iştirakçılara məlumat verdi. O, layihənin tikinti işlərində yerli əhaliyə üstünlük veriləcəyini vurğuladı. İnsanlara müvafiq qaydada və əvvəlcədən bütün prosedurlar barədə məlumat veriləcəyini dedi. Həmçinin iştirakçılara izah edildi ki, hökumət tərəfindən sosial və ətraf mühitə mənfi təsirləri minimuma endirmək üçün bütün mümkün yollar nəzərdən keçirilib.

İlahə İlyasova izah etdi ki, Torpaqların dövlət ehtiyacları üçün özgəninkiləşdirilməsinə dair milli qanun torpaqların alınması prosesini, o cümlədən hüquqların müəyyən edilməsi, kompensasiyaların hesablanması, şikayətlərin həlli mexanizmləri və s. məsələləri tənzimləyəcək. Hazırda Köçürmə Fəaliyyət Planı da daxil olmaqla bütün tələb olunan sənədlər hazırlanır.

Vüsal Qubadov hazırda Azərbaycanda həyata keçirilən yeni günəş enerjisi layihələri, energetika sektorunun inkişafı və hazırkı Layihənin gələcək nəticələri barədə dinləyicilərə məlumat verdi.

Yarana biləcək suallarla bağlı "Azərenerji" SC-nin Regional Elektrik Şəbəkəsi İdarəsinin və LİQ rəhbərliyinin telefon nömrəsi iştirakçılara bildirildi. Daha sonar görüş sual-cavab formatında davam etdirildi.

Suallar	***Cavablar (LİQ)***
Kərimov Nəcəf – *Kərimbəyli kənd bələdiyyəsinin sədri. Torpaqları təsirə məruz qalmış ailələrin adlarını bilmək istərdik.*	**V.Qubadov və Y.Qayıbov** – torpaqlar və təsirə məruz qalmış parsellər, habelə mülkiyyətçilərə dair məlumatlar DƏDKR tərəfindən verilmişdir.

Suallar	*Cavablar (LİQ)*
	Daimi istifadəyə veriləcək torpaqlar kompensasiya edilərək götürüləcək. Torpaq sahibləri qalan ərazilərdə kənd təsərrüfatı işlərini davam etdirə bilər, xəttin altına düşən yalnız torpaqda heç nə tikməmək məhdudiyyəti qoyulur. İ.İlyasova əlavə edib ki, icarəyə götürən torpaq sahiblərinə torpaq sahəsinə kompensasiya ödəniləcək, eyni keyfiyyətdə və məsafədə alternativ torpaqlar veriləcək. Əhali bütün əkinlərdən məhsul götürə biləcək, mümkün olmadıqda isə kompensasiya ödəniləcək.

Azərbaycan Respublikası "Azerenerji" Açıq Səhmdar Cəmiyyəti
Hacıqabul rayonunun Nəvahi qəsəbəsində tikiləcək 500/330/10 kV-luq "Nəvahi" yarımstansiyasının enerjisistemə inteqrasiya və dayanıqlığın möhkəmləndirilməsi məqsədilə çəkilməsi nəzərdə tutulan EVX-lərin layihəsi
Layihə və təsirləri, o cümlədən müvafiq tədbirlər haqqında ictimai müzakirələr

Şöhran şəhəri mədəniyyət m. — yaşayış məntəqəsi (rayon, kənd)

04.07.2024 / 14.30 — tarix və vaxt

İştrakçıların siyahısı

S.s.	Adı və soyadı	İş yeri və tutduğu vəzifə	İmza	Əlaqə nömrəsi
1	Abasova Nəsibə	Yeni kənd bal. sədr		050-350-45-20
2	Bahadınlı Nəlabət			050.619.68-83
3	Şərifova Həyat			055-587-58-19
4	Hacıyeva İsmiyyə			051-476 24 15
5	Babayeva Gülarə			055-532-83-84
6	Bayramova Nigar			051-882-52-98
7	Mahmudova Mahmud	Kərimbəyli bal. sd.		050-461-19-09
8	Əliyev Rəşad	Kərimbəyli K.S		050517 18 18
9	Abbasov Zahir	Qarabağlı K. bələ		050212 52 415
10	Bəhayev Amid	Həsənli İdarəsi		050-380-70-29
11	Abdullayev Vüqar	Həsənli İdarəsi		050 299 57 75
12	Abasov Mirəslan	Həsənli		050 429 44 13
13	Kərəmalıyev Kamran	Həsənli		051-933-03-60
14	Abdullayev Həsən	Qarabağlı İdarə		51 309 37 78
15	Cəfərov Bürbərdo	Yeni kənd İ/İ		050-221-14-78
16	Xəlfov Şəhin	Yeni kənd		050-362-03-07
17	Zahidov Tacir A.	Quxanlı bal.		050 325 53 75
18	Mirzəyev Natiq Cəfərqə	Quxanlı mühəndis		050 376 15 30.
19	Mürsəlov Vüqar Həsəngulu	Qarabağlı müəllim		050-660-60-67.
20	Kərimov Nəcəf Fərəddin	Kərimbəyli müəllim		050-805-77-05.
21	Sadıqov Şahmar Nadir A.	Nəvahı İdarəsi		050-369-36-16.

Azərbaycan Respublikası "Azerenerji" Açıq Səhmdar Cəmiyyəti
Hacıqabul rayonunun Nəvahi qəsəbəsində tikiləcək 500/330/10 kV-luq "Nəvahi" yarımstansiyasının enerjisistemə inteqrasiya və dayanıqlığın möhkəmləndirilməsi məqsədilə çəkilməsi nəzərdə tutulan EVX-lərin layihəsi
Layihə və təsirləri, o cümlədən müvafiq tədbirlər haqqında ictimai müzakirələr

Salyan şəhəri Mədəniyyət mərkəzi
yaşayış məntəqəsi (rayon, kənd)

04.07.2024 / 14.30.
tarix və vaxt

İştrakçıların siyahısı

S.s.	Adı və soyadı	İş yeri və tutduğu vəzifə	İmza	Əlaqə nömrəsi
	Qaraqov Safər	Xodar şə.d		050 499-42-65
1	Babayev Hüsüm	nümayəndəsi		050-518-52-58
2	İlizadə Nəmiq	Babdıyı kənd		050-393-97-70
3	Qəlməo Emin	Bolı bü		50 342 32 12
4				
5				
6				
7				
8				
9				
10				
11				
12				
13				
14				
15				
16				
17				
18				
19				
20				
21				

Məkan: Biləsuvar şəhəri, icra hakimiyyətinin binası

Tarix və vaxt: 11 iyul 2024-cü il, saat 11.00

İştirakçılar:

Vüsal Qubadov, Azərbaycan Regional Elektrik Şəbəkəsi İdarəsinin direktoru
Yusif Qayıbov, LİQ direktoru
İlahə İlyasova, LİQ Sosial inkişaf mütəxəssisi
Masdar şirkətinin nümayəndələri

21 nəfər (Biləsuvar rayonu və kəndlərindən kənd sakinləri, maraqlı tərəflərin nümayəndələri və müxtəlif maraqlı tərəflər)

- İcra Hakimiyyətinin yerli ərazi nümayəndələri;
- Bələdiyyələrin üzvləri;
- kənd sakinləri;
- qəsəbə və kəndin işsiz əhalisi;
- Regional Elektrik Şəbəkəsi İdarəsinin nümayəndələri;
- Digər təşkilatların nümayəndələri.

Görüşün protokolu

İclasın birinci hissəsində Energetika Nazirliyi və Biləsuvar və Bankə günəş enerjisi elektrik stansiyasının tikintisini həyata keçirən Masdar şirkəti və nazirliyin rəsmiləri və social mütəxəssislər layihə icmalarını Layihə, onun həyata keçirdiyi komponentlər, müsbət və mənfi təsirləri, tikinti işləri və ekoloji/social mühafizə siyasətləri haqqında məlumatlandırmaq üçün çıxış etdilər. Layihənin həyata keçirildiyi rayonların İcra Hakimiyyətinin qərarından sonra "Azərenerji" ASC-nin layihənin təsirinə məruz qalmış icmalarla ictimai dinləmələri Masdar şirkətinin ictimai məsləhətləşmələri eyni vaxtda aparılmışdır. Bununla əlaqədar olaraq, MASDAR tərəfindən təqdimatdan sonra layihə ictimaiyyətinə "Azərenerji" ASC tərəfindən layihənin ümumi konsepsiyası, daha sonra isə tikiləcək günəş elektrik stansiyaları (Energetika Nazirliyi və MASDAR tərəfindən) haqqında məlumat verilmişdir. Günəş elektrik stansiyalarında istehsal olunan enerjinin ölkə və regional səviyyədə elektrik şəbəkəsinə ötürülməsi üçün elektrik hava xətlərinin tikintisi layihələri "Azərenerji" ASC tərəfindən həyata keçiriləcək.

Gələcək stansiyaların yerini və hava xətlərinin marşrutunu göstərən layihə xəritəsi görüş iştirakçılarına təqdim edilmişdir. Layihənin faydaları, mümkün mənfi sosial-iqtisadi təsirlər və onların aradan qaldırılması yolları, eləcə də EVX-lərin tikintisi üzrə fəaliyyətlərin müsbət təsirləri iştirakçılara bildirilmişdir.

Əhali əsasən məşğulluq imkanları və əgər varsa, torpağın alınması prosedurları ilə maraqlanırdı. Sualların əksəriyyəti Masdar şirkətinin nümayəndələrinin giriş hissəsində çıxışından sonra verilib. Onların əksəriyyətinə şirkət tərəfindən cavab verilib. İştirakçıların diqqətinə çatdırılıb ki, tikinti işləri zamanı işəgötürənlərin ixtisas tələblərinə cavab verən yerli əhaliyə üstünlük veriləcək.

Torpaq və əmlaka təsir məsələlərinə gəldikdə, hər hansı təsirə məruz qalmış əmlak milli qanunvericiliyin, xüsusilə də Dövlət Ehtiyacları üçün Torpaqların Özgəninkiləşdirilməsi Qanununa və Torpaq Məcəlləsinə, ölkədəki torpaq məsələləri ilə bağlı normativ bazaya uyğun olaraq kompensasiya ediləcək.

Görüş sual-cavab şəklində davam edib.

Suallar	***Cavablar (LİQ)***
Auditoriya: *Bu layihələrin həyata keçirilməsində yerli əhalinin işlə təmin olunması imkanları olacaqmı?*	***İ.İlyasova -*** *Tikinti işləri zamanı yerli əhali işəgötürənlərin ixtisas tələblərinə cavab verərsə, adi və ixtisaslı işçilərə üstünlük veriləcək.*

Azərbaycan Respublikası "Azerenerji" Açıq Səhmdar Cəmiyyəti
Hacıqabul rayonunun Nəvahi qəsəbəsində tikiləcək 500/330/10 kV-luq "Nəvahi" yarımstansiyasının enerjisistemə inteqrasiya və dayanıqlığın möhkəmləndirilməsi məqsədilə çəkilməsi nəzərdə tutulan EVX-lərin layihəsi
Layihə və təsirləri, o cümlədən müvafiq tədbirlər haqqında ictimai müzakirələr

Bilərsuar
yaşayış məntəqəsi (rayon, kənd)

11 iyul 2024, 11.00
tarix və vaxt

İştrakçıların siyahısı

S.s.	Adı və soyadı	İş yeri və tutduğu vəzifə	İmza	Əlaqə nömrəsi
1	Şahin Bərxişiyev	fermer		050 583 31 28
2	Məmmədov Hicran	fermer		070 629 19 68
3	Hacıyev Rahib			07-372-46-62
4	Rüstəmov Rafiq			070-745-44-71
5	Məmmədov Mirtağat			070-914-93-92
6	Paşayev Tofiq			07-258-45-38
7	İmaməddin Muradov	təsərr.		050 725 39 77
8	Cəfərov Hacıbala	fermer		051 449 01 91
9				
10				
11				
12				
13				
14				
15				
16				
17				
18				
19				
20				
21				

Biləsuvar, İcra Hakimiyyətinin binası, 11 iyul, 2024

Məkan: Neftçala rayonu, Bankə qəsəbəsi
Tarix və vaxt: 11 iyul 2024-cü il, saat 14.30

İştirakçılar:
- Azərbaycan Respublikasının Energetika Nazirliyi
- MASDAR nümayəndələri
- İlahə İlyasova, LİQ Sosial Mütəxəssisi
- Vüsal Qubadov, Azərbaycan Regional Elektrik Şəbəkəsi İdarəsinin direktoru

29 nəfər (qəsəbə əhalisi, Layihənin keçdiyi kəndlərdən təsirə məruz qalan insanlar və s.)
- İcra Hakimiyyətinin yerli nümayəndələri;
- Bələdiyyə üzvləri;
- Yerli əhali;
- Regional Elektrik Şəbəkəsi İdarəsinin nümayəndələri;
- Digər peşə sahibləri.

Görüşün protokolu

İclasın birinci hissəsində Energetika Nazirliyi və Biləsuvar və Bankə günəş enerjisi elektrik stansiyasının tikintisini həyata keçirən Masdar şirkəti və nazirliyin rəsmiləri və social mütəxəssislər layihə icmalarını Layihə, onun həyata keçirdiyi komponentlər, müsbət və mənfi təsirləri, tikinti işləri və ekoloji/social mühafizə siyasətləri haqqında məlumatlandırmaq üçün çıxış etdilər. Layihənin həyata keçirildiyi rayonların İcra Hakimiyyətinin qərarından sonra "Azərenerji" ASC-nin layihənin təsirinə məruz qalmış icmalarla ictimai dinləmələri Masdar şirkətinin ictimai məsləhətləşmələri eyni vaxtda aparılmışdır. Bununla əlaqədar olaraq, MASDAR tərəfindən təqdimatdan sonra layihə ictimaiyyətinə "Azərenerji" ASC tərəfindən layihənin ümumi konsepsiyası, daha sonra isə tikiləcək günəş elektrik stansiyaları (Energetika Nazirliyi və MASDAR tərəfindən) haqqında məlumat verilmişdir. Günəş elektrik stansiyalarında istehsal olunan enerjinin ölkə və regional səviyyədə elektrik şəbəkəsinə ötürülməsi üçün elektrik hava xətlərinin tikintisi layihələri "Azərenerji" ASC tərəfindən həyata keçiriləcək.

Gələcək stansiyaların yerini və hava xətlərinin marşrutunu göstərən layihə xəritəsi görüş iştirakçılarına təqdim edilmişdir. Layihənin faydaları, mümkün mənfi sosial-iqtisadi təsirlər və onların aradan qaldırılması yolları, eləcə də EVX-lərin tikintisi üzrə fəaliyyətlərin müsbət təsirləri iştirakçılara bildirilmişdir.

MASDAR-ın icma ilə sual-cavab sessiyasından sonra i) məşğulluq imkanları, ii) gələcək tikinti işləri nəticəsində cari yol infrastrukturuna (körpülər daxil olmaqla) mümkün mənfi təsirlər və iii) ətraf mühitə təsirin qiymətləndirilməsinin keyfiyyəti ilə bağlı qısa suallarla, xüsusilə elektrik stansiyalarının köçəri quşların populyasiyasına mənfi təsirinin qiymətləndirilməsi ilə bağlı "Azərenerji" ASC-nin nümayəndələrinə bir sıra suallar verilib. İş imkanları ilə bağlı bütün suallara müvafiq olaraq cavab verildi ki, layihə fəaliyyətlərinin tikinti mərhələsində podratçıların kənd sakinləri ilə ilkin görüşü keçiriləcək və bütün kəndlilər ixtisas və qeyri-ixtisas qabiliyyətlərinə uyğun olaraq iş imkanı əldə edəcəklər.

Torpaq və əmlaka təsir məsələlərinə gəldikdə, hər hansı təsirə məruz qalmış əmlak milli qanunvericiliyin, xüsusilə də Dövlət Ehtiyacları üçün Torpaqların Özgəninkiləşdirilməsi Qanununa və Torpaq Məcəlləsinə, ölkədəki torpaq məsələləri ilə bağlı normativ bazaya uyğun olaraq kompensasiya ediləcək.

Görüş sual-cavab şəklində davam etdirilib.

Suallar	***Cavablar (LİQ)***
Təhməzov Azad Əbülfəz: *İş imkanı əldə etmək istərdim; Mühafizəçi işləyə bilərəm.*	***İ. İlyasova*** *– Tikinti başlamazdan əvvəl podratçılar tikinti və digər layihə fəaliyyətlərinin başlanmasını elan etmək üçün layihə icmaları ilə görüşəcəklər. Sizin adınızı da podratçılara verəcəyik.*

Azərbaycan Respublikası "Azerenerji" Açıq Səhmdar Cəmiyyəti
Hacıqabul rayonunun Nəvahi qəsəbəsində tikiləcək 500/330/10 kV-luq "Nəvahi" yarımstansiyasının enerjisistemə inteqrasiya və dayanıqlığın möhkəmləndirilməsi məqsədilə çəkilməsi nəzərdə tutulan EVX-lərin layihəsi
Layihə və təsirləri, o cümlədən müvafiq tədbirlər haqqında ictimai müzakirələr

Neftçala r., Banka q.
yaşayış məntəqəsi (rayon, kənd)

11.07.2024, 14.30
tarix və vaxt

İştrakçıların siyahısı

S.s.	Adı və soyadı	İş yeri və tutduğu vəzifə	İmza	Əlaqə nömrəsi
1	Mirzəyyad Hüseynli	ETSN		051-420-03-06
2	İlzubra Zəhrayar Babaş	Neftçala RİHB Yeni kəndləri İDİP		070-241-42-41
3	Mahmudov Ruslan Ilqar	Neftçala RİHB Yeni kəndləri İDİP		070 280-03-01
4	Abdullayev Aqil Alim	Neftçala RİHB Yeni kəndləri İDİP		050-718-65-65
5	Əliyev Cəfər	Pepinə		050.516 40 93
6	Gülməmmədova Nəzrin	Sülcəqərəvəz		050 461-36-77
7	Nağıyev İmamnəzər	Nəvadi oğlu		051-339-18-00
8	Muxtarov Muxtar	Məhəmməd oğlu		051-375-35-46
9	Cavadov Namid	Vidadi oğlu		070-660-76-76
10	Cavadov Cəfərqazı	Vidadi oğlu		055-66-76-76
11	Mirzəyev Mirxalam	Hürsəl oğlu		050-751-57-87
12	Əsədullayeva Gülmayə	Banka kmrb		050385 95 78
13	Xəzərov Türkü			
14	Agayev Əflatun	Dost mmc		
15	İsmayılov Emin	Dost mmc		
16	İskəndərova Gülara	Dost mmc		0516522284
17	İskəndərov Elçin	Dost mmc		0516522173
18	Həsənova Vüsalə	Dost mmc		
19	Hadiyeva İlhamə	Dost mmc		
20	Həsənova Aminə	Dost mmc		
21	Xanməmədov Məmməd	Dost mmc		

Azərbaycan Respublikası "Azerenerji" Açıq Səhmdar Cəmiyyəti
Hacıqabul rayonunun Nəvahi qəsəbəsində tikiləcək 500/330/10 kV-luq "Nəvahi" yarımstansiyasının enerjisistemə inteqrasiya və dayanıqlığın möhkəmləndirilməsi məqsədilə çəkilməsi nəzərdə tutulan EVX-lərin layihəsi
Layihə və təsirləri, o cümlədən müvafiq tədbirlər haqqında ictimai müzakirələr

Neftçalan, Bakı q — yaşayış məntəqəsi (rayon, kənd)

11.07.2024 14.30 — tarix və vaxt

İştrakçıların siyahısı

S.s.	Adı və soyadı	İş yeri və tutduğu vəzifə	İmza	Əlaqə nömrəsi
1	Məhərrəm Fəqiq	Dost mmc		
2	Məmmədov Qalib	DOST mmc		051 547 88 90
3	Lalayev Fərrux	DOST mmc		070 272 97 17
4	Novruzov Məmməd	Dost mmc		050 578 33 85
5	Həmidov Nəsir R.	M.K.T.İB		051-866-55-62
6	Bəkirov Şahin	COCAR cep		070-216-85-95
7	Xəlilov Oxan			051-662-90-90
8	Nəğiyeva Günay	Katib		051-507-88-58.
9				
10				
11				
12				
13				
14				
15				
16				
17				
18				
19				
20				
21				

Neftchala, Banka village, July 11, 2024

Əlavə D. Mədəni irs abidələrinin siyahısı

AZƏRBAYCAN RESPUBLİKASININ MƏDƏNİYYƏT NAZİRLİYİ YANINDA MƏDƏNİ İRSİN QORUNMASI, İNKİŞAFI VƏ BƏRPASI ÜZRƏ DÖVLƏT XİDMƏTİ

AZ 1000, Bakı şəhəri,Hökumət evi,
Ü.Hacıbəyli küçəsi,84

Tel.: (+994 12) 565 01 47
Elektron poçt:info@heritage.gov.az

02 avqust 2024-cü il **3-24-1/2-01-826/2024**

"Azərenerji" Açıq Səhmdar Cəmiyyətinin
vitse prezidenti
cənab Ziyəddin Quliyevə

27 iyun 2024-cü il tarixli
13-9/2-1956/9/2024 nömrəli məktuba dair

Hörmətli Ziyəddin müəllim,

"Bərpa olunan enerji mənbələrinin şəbəkəyə inteqrasiyası" layihəsinin icrası ilə əlaqədar elektrik verilişi xətlərinin trasları boyunca yerləşən daşınmaz tarix və mədəniyyət abidələri barədə məlumatları təqdim edirik (surəti əlavə olunur).

Eyni zamanda bildiririk ki, "Tarix və mədəniyyət abidələrinin qorunması haqqında" Azərbaycan Respublikası Qanununun 14-cü maddəsinə əsasən, magistral mühəndis kommunikasiyalarının (neft, qaz kəmərlərinin və s.) çəkilişi və digər inşaat işləri zamanı, hektardan çox ərazini əhatə edən sahələrdə inşaat işləri aparılarkən texniki-iqtisadi əsaslandırma mərhələsində bu işləri həyata keçirən təşkilat tərəfindən görüləcək işlər barədə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) və müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi elmi təşkilata müraciət edilməli və abidələrin ilkin axtarış işlərinin aparılması üçün vəsait ayrılmalıdır.

Həmin zonada arxeoloji abidə aşkar olunarsa, müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) icazəsi olmadan və lazımi elmi tədbirlər görülmədən inşaat və təsərrüfat işlərinin aparılmasına yol verilmir.

Qeyd olunan Qanunun 13-cü maddəsinə əsasən, inşaat və digər təsərrüfat işləri görülərkən abidə aşkar edilərsə, dərhal işlər dayandırılmalı, bu barədə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) və müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi elmi təşkilata məlumat verilməli, həmin orqan (qurum) və elmi təşkilat tərəfindən iki ay müddətində bu Qanunla nəzərdə tutulmuş tədqiqatlar aparılmalı və digər tədbirlər görülməlidir. Bu halda inşaat və digər təsərrüfat işləri müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi elmi təşkilatın və mütəxəssislərin rəyi əsasında müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) icazəsi ilə davam etdirilə bilər.

"AZƏRENERJİ" ASC
ÜMUMİ ŞÖBƏ
№ 02
DAXİL OLMA № 13-9/2-1941/2024
«07» 08 2024

Nəzərə almağınızı xahiş edirik.

Qoşma: 4 vərəq.

Hörmətlə,

Rəis **Səbinə Hacıyeva**

Elektrik verilişi xətlərinin (EVX) trasları boyunca yerləşən tarix və mədəniyyət abidələrinin siyahısı					
S/N	**Abidənin adı**	**İnventar №:**	**Abidənin ünvanı**	**Abidənin koordinatı**	**Qeyd**
1	Hamam	4004	Abşeron rayonu, Qobu qəsəbəsi	40°24'26.16"N 49°43'4.88"E	
2	Şəhərgah	1708	Şamaxı rayonu, Çöl Göylər kəndi	40°26'19.80"N 48°37'40.80"E	
3	"Şəhərgah "adlanan abidə və kurqan	Yeni aşkar	Şamaxı rayonu, Çöl Göylər kəndi yaxınlığında	40°26'6.20"N 48°37'16.60"E	
4	Saxsılıtaxta yaşayış yeri	1710	Şamaxi rayonu, Çöl Göylər kəndi	40°26'6.74"N 48°37'16.75"E	
5	Pirəbağdad nekropolu	1711	Şamaxi rayonu, Çöl Göylər kəndi	40°25'46.40"N 48°36'53.30"E	
6	"Nəcəf "ilk orta əsr yaşayış yeri	Yeni aşkar	Şamaxı rayonu, Çöl Göylər kəndi	40°24'6.30"N 48°38'54.90"E	

7	Köhnə qəbirstanlıq	1709	Şamaxı rayonu, Çöl-Göylər kəndi	40°25'49.20"N 48°37'0.80"E	
8	Sofu Sadiq yaşayış yeri və ovdan	6014	Şamaxı rayonu, Çöl-Göylər kəndi	40°24'17.20"N 48°38'46.20"E	
9	Yaşayış yeri	6013	Şamaxı rayonu, Çöl-Göylər kəndi	40°25'44.80"N 48°36'57.30"E	
10	Təpədibi yaşayış yeri	6012	Şamaxı rayonu, Çöl-Göylər kəndi	40°25'39.89"N 48°37'7.85"E	
11	Şəhərgah qəbirstanlığı	1709	Şamaxı rayonu, Çöl-Göylər kəndi	40°25'49.20"N 48°37'0.80"E	
12	Türk şəhidlərinə abidə	Yeni aşkar	Göyçay rayonu, Bığır kəndi	40°38'7.20"N 47°51'30.30"E	
13	Küp qəbirləri nekropolu	1073	Göyçay rayonu, I Ərəbcəbirli kəndi	40°39'3.30"N 47°42'7.60"E	
14	Qəbiristanlıq	1074	Göyçay rayonu, II Ərəbcəbirli kəndi	40°39'6.40"N 47°42'20.80"E	
15	Böyük vətən müharibəsində həlak olmuş həmvətənlərimizin xatirə abidəsi	5641	Göyçay rayonu	40°39'52.20"N 47°44'31.60"E	
16	Qəbiristanlıq	1076	Göyçay rayonu, Qaraməryem kəndinin yaxınlığında	40°36'2.60"N 48° 0'0.60"E	

17	Nərgizava nekropolu	Yeni aşkar	Ağsu rayonu, Gəgəli kəndi	40°31'28.54"N 48°30'21.29"E	
18	Şıxəlibəyli arxı	Yeni aşkar	Ağsu rayonu, Gəgəli kəndi	40°31'41.50"N 48°29'6.20"E	
19	Orta Əsr Ağsu şəhəri	808	Ağsu rayonu, Ülgüc kəndi	40°32'36.18"N 48°22'35.48"E	
20	Xurşud yaşayış yeri	5983	Salyan rayonu Xurşud kəndi	39°37'9.51"N 48°55'1.98"E	
21	Xurşud nekropolu	5984	Salyan rayonu Xurşud kəndi	39°38'18.28"N 48°53'23.87"E	
22	Noxudlu yaşayış yeri	1679	Salyan rayonu Noxudlu kəndi	39°39'8.22"N 48°56'25.79"E	
23	Qırxçıraq yaşayış yeri	5980	Salyan rayonu Xalac kəndinin cənub-şərqində	39°31'7.82"N 49° 1'5.82"E	
24	Yuxarı Xalac yaşayış yeri	5981	Salyan rayonu Xalac kəndi	39°44'13.35"N 49° 3'15.21"E	
25	Bankə yaşayış yeri	1630	Neftçala rayonu Bankə qəsəbəsi	39°24'23.22"N 49°14'57.87"E	
26	İnzibati bina	4936	Neftçala rayonu Bankə qəsəbəsi	39°24'31.22"N 49°15'4.48"E	

27	Böyük Vətən müharibəsində həlak olmuş həmvətənlərimizin xatirə abidəsi	5677	Neftçala rayonu Bankə qəsəbəsi	39°24'32.17"N 49°15'1.89"E	
28	Körpü	Yeni aşkar	Hacıqabul rayonu Qızılburun kəndi	40° 00'13.2"N 49°12'44.00"E	
29	Hacı Həşim Hamamı	Yeni aşkar	Hacıqabul rayonu Rəncbər kəndi	40° 5'43.32"N 49° 4'5.53"E	
30	Ərəş şəhər yeri	Yeni aşkar	Yevlax rayonu, Ərəş kəndi	40° 44'55.42"N 47°13'40.42"E	
31	Ərəş qalasının qalıqları	Yeni aşkar	Yevlax rayonu, Ərəş kəndi	40° 44'55.42"N 47°13'40.42"E	

ƏLAVƏ E. EKOLOGİYA VƏ TƏBİİ SƏRVƏTLƏR NAZİRLİYİ İLƏ YAZIŞMALAR

AZƏRBAYCAN RESPUBLİKASI
«AZƏRENERJİ» AÇIQ SƏHMDAR CƏMİYYƏTİ

AZ 1005, Bakı şəhəri, Akademik Ədədülkərim Əlizadə küçəsi 10
Tel: (+99412) 490-09-22
Faks: (+99412) 598-55-23
azerenerji@azerenerji.gov.az
Web: www.azerenerji.gov.az

«29» 08 2024 il № 13-9/2-2697/9/24

Azərbaycan Respublikasının
Ekologiya və Təbii Sərvətlər naziri
cənab Muxtar Babayevə

"Bərpa olunan enerji mənbələrinin şəbəkəyə inteqrasiyasına hazırlıq işlərinə dair"

Hörmətli Muxtar müəllim,

Bildiyiniz kimi, Nazirlər Kabineti tərəfindən bərpa olunan enerji mənbələrinin şəbəkəyə inteqrasiyasının təmin edilməsi məqsədilə ötürücü şəbəkənin gücləndirilməsi, Hacıqabul rayonunda 500/330 kV-luq Nəvahi yarımstansiyasının tikilməsi və enerji sistemi ilə əlaqələndirilməsi üçün elektrik verilişi xətlərinin tikintisi və "Masdar" şirkəti tərəfindən həyata keçiriləcək MEQA layihə üzrə 1 Qvt gücündə günəş və külək elektrik stansiyalarının enerji sistemə inteqrasiyası (AZURE layihəsi) ilə bağlı 30 iyul 2024-cü il tarixli 420s nömrəli Sərəncam qəbul edilmiş və həmin Sərəncama əsasən layihə-smeta sənədlərinin hazırlanması və tikinti-quraşdırma işlərinin yerinə yetirilməsi istiqamətində zəruri tədbirlər görmək "Azərenerji" ASC-yə tapşırımışdır.

"Azərenerji" ASC tərəfindən MEQA layihə üzrə 315 MVt gücündə "Bankə" GES-in tikiləcək Navahi yarımstansiyasına birləşdirilməsi üçün 330 kV-luq ikidövrəli Bankə GES – Navahi YS elektrik verilişi xəttinin layihələndirilməsi aparılmış və hava xətti üçün yüksək gərginlikli elektrik xətlərinin mühafizə zonası nəzərə alınmaqla ən optimal tras seçilmişdir.

Belə ki, sözügedən hava xətti üçün seçilmiş ilkin tras İqtisadiyyat Nazirliyi yanında ƏMDX-nin "Daşınmaz Əmlakın Dövlət Kadastrı və Reyestri" PHŞ-nin "Kadastr və Yerquruluşu Layihə-Tədqiqat Mərkəzi" MMC tərəfindən yer quruluşu planı hazırlandıqdan sonra 57 ədəd dayağın Şirvan Dövlət Təbiət Qoruğunun ərazisinə düşdüyü məlum olmuşdur. Bu səbəbdən hava xəttinin trassasına dəyişiklik edilərək həmin dayaqlar Qoruğun ərazisindən çıxarılmışdır. Vurğulamaq istərdik ki, başqa alternativ olmadığı (əks halda yaşayış məskənlərindən keçid qaçılmaz olur ki, bu da mühafizə zonası tələblərini pozur) üçün hava xəttinin trası məcburiyyət qarşısında hər birində 4 dayaq və 7 dayaq (cəmi 11 dayaq) olmaqla iki nöqtədə Şirvan Milli Parkının ərazisinə düşmüşdür.

Diqqətinizə çatdırmaq istərdik ki, layihə üçün beynəlxalq standartlar əsasında ƏMSTQ hesabatı hazırlanmış və hesabatda Milli Park ərazisində aparılacaq tikinti-quraşdırma işləri üçün müvafiq yumşaldıcı tədbirlər nəzərdə tutulmuş, eləcə də ƏMSTQ çərçivəsində ayrıca biomüxtəlifliyin qorunması planı hazırlanmışdır. Podratçılar tərəfindən aparılacaq tikinti quraşdırma işləri ərzində yumşaldıcı tədbirlərə və biomüxtəlifliyin qorunması planına əməl olunmasına tərəfimizdən xüsusi nəzarət olunacaqdır.

Qeyd olunanları diqqətinizə çatdıraraq, 330 kV-luq Bankə GES - Navahi yarımstansiyası HX-nin 11 dayağının Şirvan Milli Parkının ərazisindən keçməsinə köməklik göstərməyinizi Sizdən xahiş edirik.

Qoşma: HX-nin yeni trası.

Hörmətlə,

Baba Rzayev

"Azərenerji" ASC-nin
prezidenti

330 kV-luq ikidövrəli Bankə GES - Nəvahi YS EVX-nin yeni trası

ƏLAVƏ E. ƏMTQ üzrə qiymətləndiricilərin ixtisas sertifikatları

Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi

Ətraf mühitə təsirin qiymətləndirilməsi üzrə qiymətləndiricinin

002 №-li

İXTİSAS ATTESTATI

Əmrahov Razim Əmrah oğlu

(ƏMTQ üzrə qiymətləndiricinin soyadı, adı, atasının adı və ünvanı)

ƏMTQ üzrə təşkilatın adı

"Ekol Mühəndislik Xidmətləri" QSC

(təşkilati-hüquqi forması və ƏMTQ fəaliyyətinin həyata keçirildiyi ünvan)

ƏMTQ və SEQ sənədi verilən fəaliyyət növü

Ətraf mühitə təsir üzrə qiymətləndirici

İxtisas attestatının verilməsi tarixi 22 iyul 2022-ci il

Qüvvədə olma tarixi: müddətsiz

Azərbaycan Respublikasının ekologiya və təbii sərvətlər naziri İmza M.Y.

Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi

Ətraf mühitə təsirin qiymətləndirilməsi üzrə qiymətləndiricinin

001 №-li

İXTİSAS ATTESTATI

Hüseynli Ramin Abı oğlu

(ƏMTQ üzrə qiymətləndiricinin soyadı, adı, atasının adı və ünvanı)

ƏMTQ üzrə təşkilatın adı
"Ekol Mühəndislik Xidmətləri" QSC

(təşkilati-hüquqi forması və ƏMTQ fəaliyyətinin həyata keçirildiyi ünvan)

ƏMTQ və SEQ sənədi verilən fəaliyyət növü
Ətraf mühitə təsir üzrə qiymətləndirici

İxtisas attestatının verilməsi tarixi 22 iyul 2022-ci il

Qüvvədə olma tarixi: müddətsiz

Azərbaycan Respublikasının ekologiya və təbii sərvətlər naziri

İmza

M.Y.

Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi

Ətraf mühitə təsirin qiymətləndirilməsi üzrə qiymətləndiricinin

004 №-li

İXTİSAS ATTESTATI

Hüseynli Selcan Vasif qızı

(ƏMTQ üzrə qiymətləndiricinin soyadı, adı, atasının adı və ünvanı)

ƏMTQ üzrə təşkilatın adı
"Ekol Mühəndislik Xidmətləri" QSC

(təşkilati-hüquqi forması və ƏMTQ fəaliyyətinin həyata keçirildiyi ünvan)

ƏMTQ və SEQ sənədi verilən fəaliyyət növü
Ətraf mühitə təsir üzrə qiymətləndirici

İxtisas attestatının verilməsi tarixi 22 iyul 2022-ci il

Qüvvədə olma tarixi: müddətsiz

Azərbaycan Respublikasının ekologiya və təbii sərvətlər naziri İmza M.Y.

Ətraf Mühitə Təsirin Qiymətləndirilməsi üzrə qiymətləndiricilər

"Azərenerji" ASC ilə "Ekol Mühəndislik Xidmətləri" QSC arasında bağlanmış LSC-2024/130 nömrəli, 19.09.2024-cü il tarixli müqavilənin Əlavə №1-ə əsasən Bərpa Olunan Enerji Mənbələrinin enerji sistemə inteqrasiya layihəsi üzrə Ətraf Mühitə və Sosial Sahəyə Təsirlərin Qiymətləndirilməsi hesabatı aşağıda adları qeyd olunan ƏMTQ üzrə qiymətləndiricilər tərəfindən baxılmış və təhlil edilmişdir.

ƏMTQ üzrə qiymətləndiricilər:

1. Ramin Hüseynli _____
(imza, tarix)
2. Razim Əmrahov _____
(imza, tarix)
3. Selcan Hüseynli _____
(imza, tarix)